H.A.İSRAFİLOV

# QLOBALLAŞMA ŞƏRAÍTÍNDƏ ÍSTEHLAK KOOPERASÍYASININ TƏKMÍLLƏŞDÍRÍLMƏSÍ ÍSTÍQAMƏTLƏRÍ

Bakı - Elm - 2010

Elmi redaktor
**i.e.d., prof. Ş.H.Hacıyev**

Rəyçilər: *i.e.d., prof.* ***E. M. Hacızadə***
*i.e.d., prof.* ***M. A. Əhmədov***
*i.e.d., prof.* ***İ. A. Kərimli***

**İsrafilov H.A.**
**Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri** (*monoqrafiya*). **Bakı. «Elm», 2010. - 452 səh.**

ISBN 5-8066-1697-7

***Monoqrafiya dərinləşən qloballaşma şəraitində Azərbaycanda istehlak kooperasiyasının inkişaf problemlərinə həsr olunmuşdur. Əsərdə kooperasiyanın elmi-nəzəri əsasları, tarixi inkişaf mərhələləri, kooperativ fəaliyyətin forma və prinsipləri, kredit kooperasiyasının mahiyyəti və spesifik xüsusiyyətləri geniş təhlil olunmuş, istehlak kooperasiyasının fəaliyyətinin tənzimlənməsində dövlətin rolunun yüksəldilməsi və bu sferada çoxsəviyyəli sistemin formalaşması istiqamətləri və perspektiv inkişaf meyilləri müəyyən edilmişdir.***

***İstehlak kooperasiyası mütəxəssisləri, elmi işçilər, kooperatorlar, iqtisadçılar, ali məktəb tələbələri, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulur.***

$\frac{0605010407}{655(07)-2009}$

© «Elm»
© H.İsrafilov

# MÜNDƏRİCAT

**Giriş** ........................................................................................7

**I Hissə. Kooperasiyanın elmi-nəzəri əsasları və təcrübi Reallıqları**.................................................................15

**I Fəsil. Kooperasiya münasibətlərinin təşəkkülü: elmi-nəzəri çərçivələr və tarixi inkişaf mərhələləri** ..........................15

1.1. Kooperasiya münasibətləri və nəzəri konsepsiyanın təşəkkülü..................................................................15
1.2. Kooperasiya təcrübəsinin elmi-nəzəri ümumiləşdirilməsi ....24
1.3. Kooperasiyanın inkişafının tarixi əsasları və mərhələləri......31
1.4. Kooperasiyanın qloballaşma aspektləri............................41

**II Fəsil. Kooperativ fəaliyyətin prinsipləri, formaları və xarakterik xüsusiyyətləri** .............................................48

2.1. Kooperativ fəaliyyətin prinsipləri ....................................48
2.2. Kooperativ təsərrüfatçılığın əsas formaları və xarakterik xüsusiyyətləri ..................................................57
2.3. İxtisaslaşma və kooperativ əmək bölgüsü........................69
2.4. Kooperativlərin formalaşmasının sosial-iqtisadi əsasları.........77
2.5. Kooperativ mülkiyyət və kooperasiya münasibətlərinin üstünlükləri..........................................................................87
2.6. Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı («Azərittifaq») və onun milli kooperativ inteqrasiyada rolu .......94

**III Fəsil. İstehlak kooperasiyasının təşkilatı strukturu və fəaliyyət mexanizmləri** ................................................104

3.1. İstehlak kooperasiyasının təşkilatı strukturu və spesifik xüsusiyyətləri.....................................................104
3.2. İstehlak kooperasiyasının idarə edilməsi və tənzimlənməsi mexanizmləri...........................................113
3.3. İstehlak kooperasiyasının səmərəlilik göstəriciləri sistemi..........................................................................126

**II Hissə. Aqrar sektorun maliyyələşdirilməsi və istehlak bazarının formalaşması amilləri** ........................................137

**IV Fəsil. Aqrar sektorun inkişafı və onun maliyyələşdirilməsi problemləri** ........................................137

4.1. Kənd təsərrüfatının müasir vəziyyəti və onun inkişaf perspektivləri ........................................137
4.2. Kənd təsərrüfatının kreditləşdirilməsi və maliyyələşdirilməsi ........................................144
4.3. Aqrar sektorda maliyyə dayanıqlılığının artırılmasında kredit birliklərinin əhəmiyyəti ........................................153
4.4. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının aqrar sektorun maliyyələşdirilməsində rolu ........................................164
4.5. Aqrar kredit təşkilatlarının fəaliyyətinin qiymətləndirilməsi ........................................179

**V Fəsil. Kredit kooperativlərinin təsisatlandırılmasının zəruriliyi və inkişaf meyilləri** ........................................189

5.1. Kredit kooperasiyasının mahiyyəti və spesifik xüsusiyyətləri ........................................189
5.2. Kredit kooperasiyasının təşkilati-iqtisadi aspektləri..........197
5.3. Kredit ittifaqları və onların kooperativ təsisatlandırmalarda əhəmiyyəti ........................................202
5.4. Bələdiyyələrin gəlirlərinin optimallaşdırılmasında kredit kooperativlərinin rolu ........................................208

**VI Fəsil. İstehlak bazarının formalaşması xüsusiyyətləri**.........215

6.1. İstehlak bazarının təşəkkülünün ümumi qanunauyğunluqları ........................................215
6.2. İstehlak bazarının funksional təyinatı və təsnifat əlamətləri ........................................225
6.3. İstehlakçılar və istehlak malları bazarının əlaqəsi.............237
6.4. İstehlak bazarının mövcud vəziyyətinin təhlili.................250

**III Hissə. Qloballaşma və kooperativ irəliləyiş** ........................270

**VII Fəsil. Türkiyə respublikasinda kooperasiyanin inkişaf təcrübəsi**......................................................................270

7.1. Türkiyədə kooperasiyanın təşəkkülü və inkişaf mərhələləri...........................................................................270
7.2. Türkiyədə kooperasiyanın müasir vəziyyəti və qiymətləndirilməsi.........................................................280
7.3. Qloballaşma şəraitində Türkiyədə kooperasiyanın inkişaf perspektivləri ....................................................295

**VIII Fəsil. Qloballaşma şəraitində istehlak kooperasiyası: problemlər və perspektivlər**....................................300

8.1. Qloballaşma meyilləri və kooperativ təsərrüfatçılıq sisteminin səmərəliliyi...............................300
8.2. İstehlak kooperasiyası müəssisələrinin qloballaşma şəraitinə adaptasiyası.......................................................308
8.3. Qloballaşma şəraitində Azərbaycanda istehlak kooperasiyasının inkişafının prioritetləri..........................321
8.4. Türk dünyası ölkələri arasında kooperasiya əlaqələrinin inkişaf istiqamətləri ........................................................328
8.5. İstehsal və maliyyə kooperativləri yeni inkişaf mərhələsində.................................................................333

**IV Hissə. İstehlak kooperasiyası və onun inkişaf perspektivləri**.....342

**IX Fəsil. Kooperaasiya və istehlak bazarının inkişaf istiqamətləri**....342

9.1. Azərbaycanın milli ticarət sisteminin formalaşması prosesinin əsas amilləri ..................................................342
9.2. İstehlak bazarının təminatında emal sənayesinin rolu.......355
9.3. İstehlak kooperasiyasının ərzaq təhlükəsizliyinin təminatında əhəmiyyəti ..................................................362
9.4. Transformasiya mərhələsində istehlak bazarının inkişaf problemləri .........................................................................369
9.5. İstehlak bazarının genişlənməsinə kooperasiyanın təsir effekti.....................................................................376

**X Fəsil. İstehlak kooperasiyasının inkişaf istiqamətləri**............383
10.1. İstehlak kooperasiyasının inkişafında dövlətin tənzimləyici rolunun yüksəldilməsi................................383
10.2. İstehlak kooperasiyası sferasında daxili auditin təşkili prinsipləri və fəaliyyət effektivliyi.................................397
10.3. İstehlak kooperasiyasının çoxsəviyyəli sisteminin formalaşması istiqamətləri ..............................................402
10.4. İstehlak kooperasiyasında maliyyə-iqtisadi münasibətlərin təkmilləşdirilməsi ....................................412

**Nəticə və təkliflər** ........................................................................422
**Əlavələr**.........................................................................................426
**İstifadə olunmuş ədəbiyyat** ........................................................433
**Резюме** ..........................................................................................448
**Summary** .........................................................................................450

*İstəkli oğlum Elçinin*
*əziz xatirəsinə ithaf olunur.*

# GİRİŞ

Azərbaysanın dövlət müstəqilliyinin bərpası ölkədə milli mənafelərə uyğun istimai-siyasi, hüquqi-demokratik və sosial-iqtisadi islahatların aparılmasını şərtləndirmişdir. Milli dövlət qurusuluğunu əsaslı olaraq formalaşdıran bu islahatlar strategiyasında hərəkətverisi, təşəbbüsçü və təminatçı funksiyanın yerinə yetirilməsi ümummilli lider Heydər Əliyevin öhdəsinə düşmüşdür. Ulu öndərin başladığı bu nəhəng işlər indi Respublika Prezidenti İlham Əliyevin möhtəşəm fəaliyyəti ilə praqmatizmə əsaslanan yeni ahəng və məzmunda uğurla davam etdirilir. Ardıcıl və sistemli şəkildə atılan bütün bu addımlar ölkədə güclü iqtisadi potensialın yaradılmasına, dövlətin möhkəmləndirilməsinə, ictimai təhlükəsizlik və sabitlik şəraitində yaşamasına xidmət etmişdir. Enerji təhlükəsizliyi, regionların tarazlı inkişafı, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması və ümumilikdə sosial-iqtisadi tərəqqi istiqamətində çox mühüm nailiyyətlər qazanılmışdır. Hazırda respublikamız iqtisadi inkişaf baxımından dünyanın lider dövlətinə çevrilmişdir və bu mövqe hər il möhkəmlənməkdədir. Görülən tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatı son beş ildə 2,6 dəfə artmış, adambaşına düşən gəlir 5500 ABŞ dollarına çatmışdır. Bunun nəticəsində 766 min yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi kəskin azalaraq 49%-dən 13,2%-ə düşmüşdür. Həyata keçirilən bu transformasiya yönümlü dəyişikliklər iqtisadiyyatın əhəmiyyətli sahələrindən biri olan istehlak kooperasiyasını da əhatə etmiş və bu sferada əsaslı dəyişikliklərin yaranışına səbəb olmuşdur. İndi respublikada istehlak kooperasiyasının inkişafı istiqamətində atılan addımlar

bu sahədə daha mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaradacaqdır.

Kooperasiya haqqındakı daha dolğun gerçəkliklər belədir ki, o insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir, təsərrüfatçılığın mühüm sahələrindən biri kimi, bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasına zəmin olur. Müasir dövrdə genişlənən qloballaşma və dərinləşən liberal iqtisadi proseslər kooperasiyanın sadə istehsal və xidmət sektorundakı fəaliyyətini gücləndirməklə yanaşı, onun elm, təhsil, mədəniyyət, informasiya vasitələri və hətta üstün texnologiyalar istehsalı sferalarına çıxışını təmin etmişdir. Artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsusi çəkisi rəqabətqabiliyyətli güc nümayiş etdirməkdədir.

XX əsrin əvvəllərindən Azərbaycanda yaranmış Kooperasiya İnstitutu bütün yüzillik ərzində respublikanın dirçəlişində çox mühüm təsisatlardan biri olmuşdur. Sovetlər dönəmində Azərbaycan əhalisinin $^2/_3$ hissəsinə müxtəlif ticarət, ictimai iaşə, tədarük və sair xidmətləri göstərən bu sahə respublikanın müvafiq istiqamətdə bütün dövriyyəsinin 30-35%-ni əhatə etmişdir. İttifaqın dağılması və yeni iqtisadi sistemə keçid şəraitində uzun illər mövcud əlaqələrin qırılması, ilkin dövrlərində kooperasiya mühitində böhranlı vəziyyət yaradaraq, onun rəqabətqabiliyyətliliyini zəiflətmiş və bazar münasibətlərinə transformasiyasını ləngitmişdir. Bu gün də kooperasiyanın tam davamlı inkişaf zolağına keçidini söyləmək, hələ ki, tezdir. Araşdırmalar göstərir ki, bu sferada əsas aparıcı qurumlardan

olan «Azərittifaq» bazar münasibətlərinə giriş prosesində özünün əzəli potensialını xeyli itirdiyindən və resurs bazası məhdudlaşdığından, həmçinin yeni assosiativ təsisat - Azərbaycan Kooperativ İttifaqı da bazar prinsiplərinə tam dolğun cavab verən miqyaslı kooperasiya sistemi formalaşdırmadığından, respublikada kooperativ hərəkatının effektivliyi və sürəti, iqtisadi güc paralelliyi təşkil edən ölkələr fərqində zəif görüntülüdür. Sahəvi institusional mühiti və investisiya qoyuluşları məhdudluğu, bankların bu sferaya geniş maraq göstərməməsi, təşviqati işlərin zəif təşkili və digər bu kimi səbəblər istehlak kooperasiyasına, bütövlükdə kooperativ sektorun inkişafına mənfi təsir göstərir. Bütün bunların nəticəsidir ki, kooperativlər işini kifayət qədər səmərəli qurmamuş və bu baxımdan da digər analoji bazar iştirakçıları ilə müqayisədə yetərli rəqabətədavamlılıq əldə edə bilməmişlər.

Lakin elmi-təhlili və iqtisadi əsaslandırmalar kooperasiyanın yeni güc toplumunda olduğuna yəqinlik verir. Dərk edilir ki, kifayət qədər potensiala malik təsisat kimi kooperasiya ölkədə gedən iqtisadi proseslərə yetərli təsiretmə iqtidarındadır. İstehlak və xidmətlər bazarının potensialının artırılmasında da onun rolu mühümdür. Buna görə də, bu əlahiddə mülkiyyətçilik sisteminin stimullaşdırılması istiqamətində hazırda ölkədə mühüm işlər görülür. Araşdırmalar göstərir ki, müvafiq institusional və investisiya stimullaşdırmalarının daha da gücləndiriləcəyi təqdirdə, respublikada yüksək çeviklik nümunəsi kooperasiyanın da real bazar ölkələrində olduğu kimi, yeni inkişaf mərhələsinə keçidi təmin ediləcəkdir. Bunun üçün ölkədə əhəmiyyətli iqtisadi resurs, sosial kapitallı yetərli kadr potensialı və müvafiq iqtisadi aktiv əhali kontingenti mövcuddur. Bu imkanlardan səmərəliliklə istifadə etməklə kooperativ sektorda hərtərəfli inkişafı təmin etmək, onun sistem təkmilliyini gücləndirmək, bununla da bütövlükdə iqtisadi inkişafı daha da sürətləndirən nailiyyətlər qazanmaq olar. Kooperativ hərəkatın genişləndirilməsi əhaliyə göstərilən xidmətlər çeşidinin və

keyfiyyətinin artırılması ilə yanaşı, həm də bu xidmətləri təqdim etmə iqtidarlı insanların ölkədə gedən iqtisadi proseslərə daha fəal cəlb olunmasına şərait yaradar. Bununla da, miqyaslı sərmayələr yatırmadan sənayedə, xidmət, maliyyə və aqrar sektorda yeni təsərrüfat birliklərinin formalaşması prosesi vüsətlənər, kooperasiya sistemi elm, təhsil, konsaltinq, informasiya-kommunikasiya texnologiyaları sferalarında da diversifikasiya olunaraq, alternativ istehlak və xidmət bazarlarının təşəkkülünü reallığa çevirər. Nəticədə respublikada məhsul istehsalı və çeşidi genişlənər, ərzaq bolluğu artaraq, məşğulluğun mülayimləşdirilməsi və yoxsulluğun aradan qaldırılması istiqamətində əlavə imkanlar əldə edilər və ölkənin iqtisadi təhlükəsizliyi daha da möhkəmlənər. Bütün bunların əsaslı təminatı üçün mövcud sahəvi normativ-hüquqi bazanın genişləndirilməsi, kooperativ sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısının artırılması və müvafiq uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması zəruri hesab olunur. Mühüm makroiqtisadi əhəmiyyət kəsb edən kompleksli məsələlərin həlli üçün isə dərinləşən qloballaşma şəraitində kooperasiyanın inkişafına mane olan amillərin müəyyənləşdirilməsi, istehlak bazarında mövcud vəziyyətin qiymətləndirilməsi, bu istiqamətdə formalaşdırılacaq yeni strategiyanın elmi əsaslarının işlənməsi və perspektivlərin təyin olunması çox mühüm şərtdir. Elə buna görə də, dərinləşən bazar iqtisadiyyatı və genişlənən qloballaşma şəraitində respublikada istehlak kooperasiyanın inkişaf problemlərinin və perspektivlərinin kompleks tədqiqi elmimiz qarşısında aktual səciyyə daşıyan bir məsələ kimi durur. Bu baxımdan da dərinləşən bazar iqtisadiyyatı şəraitində istehlak kooperasiyasının elmi-nəzəri əsaslarının, metodoloji və metodik aspektlərinin, kooperativ fəaliyyətin forma və prinsiplərinin təhlili, qloballaşma şəraitində kooperativ sistemin fəaliyyət səmərəliliyinin artırılmasında dövlətin tənzimləyici rolunun yüksəldilməsi və Azərbaycanda istehlak kooperasiyasının inkişafının əsas istiqamətlərinin müəyyənləş-

dirilməsi bizim monoqrafik tədqiqat mövzusunun işlənməsini şərtli etmişdir.

Monoqrafiya işlənilərkən ölkədə və ölkə xaricində yerinə yetirilmiş müvafiq istiqamətli tədqiqatlar bir araya gətirilmiş, mövcud problemin öyrənilmə səviyyəsi elmi-təhlil sferasında yenidən araşdırılmışdır. Kooperativ hərəkatı təşəkkülü və genişləndiyi dövrlərdə onun inkişaf qanunauyğunluqlarının öyrənilməsi, bu sferada əldə olunan təcrübi nailiyyətlərin sistemləşdirilməsi və elmi ümumiləşdirilməsi istiqamətində respublikada çox dəyərli tədqiqatlar yerinə yetirilmişdir. Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra, digər sahələrdə olduğu kimi, kooperasiya sferasında köklü dəyişikliklər baş vermiş, bu istiqamətdə aparılan tədqiqatların və elmi araşdırmaların miqyası genişlənmişdir. Xüsusi olaraq, istehlak kooperasiyasının və istehlak bazarının ümumi iqtisadi problemlərinin öyrənilməsi və tədqiqi sahəsində çox dəyərli tədqiqatlar yerinə yetirilmişdir. İstehlak kooperasiyasının və istehlak bazarının ayrı-ayrı seqmentlərinin inkişaf etdirilməsi ilə bağlı problemlərin tədqiqinə ölkənin iqtisadçı alimləri - Nadirov A.A., Səmədzadə Z.Ə., Mahmudov Ə.Ə., Nuriyev Ə.X., Əliyev A.Ə., Ələsgərov A.R., Məmmədov A.İ., Hacıyev Ş.H., Meybullayev M.X., Quliyev T.Ə., Ataşov B.X, Qaravəliyev Ə.Ə., Aliyev İ.H., Sadıqov M.M., Salahov S.V., Feyzullabəyli İ.Ə., Əlirzayev Ə.Q., Qasımov Ə.C., Qarayev İ.Ş., Abbasov A.B., Əhmədov M.A., Əhmədov İ.V., Balayev R.Ə., Həsənov R.T., Niftullayev V.M., Gənciyev G.Ə., Xəlilov H.A., Allahverdiyev H.B., Cəbrayılov Ş.A., İbrahimov İ.H., Manafov Q.N., Verdiyev Ə.Ç., Mirzəmmədov A.Z. və başqaları əsərlərində müəyyən yer vermişlər [3-5, 14, 16, 21, 22, 24, 25, 28, 31, 41, 42, 48-50, 52, 54-56, 58, 59, 61, 86, 96, 137]. Kooperasiya problemlərinin tədqiqi dünya alimləri tərəfindən də geniş elmi araşdırma predmetinə çevrilmişdir. Bu sahədə daha dəyərli elmi tədqiqatları dünya alimləri, xüsusən də türk və rus iqtisadçı elmi nəzəriyyəçiləri - Simon H., Mülayim Z.G., Koç. H., Kılıc E.,

Güvün S., Tuqan-Baranovski M.İ., Çayanov A.V., Xeysin M.L., Binatov V.Q., Koroveynikov M.A., Kisilev V.İ., Denisov L.S., Vacurin V.V., Qonçarov V.D., Vaxitov K.İ., Buçayev Q.A., Kraşeninnikov A.İ., Kovalenko N.Y., Makarenko A.P., Medvedova N.A., Nazarenko V.İ., Novoselov A.S., Oqloblin Y.S., Paxomov V.M., Pajitnov K.A., Petrikov A.V., Tkaç A.V., Xitskov İ.F., Xudyakova Y.V., Serova E.V., Usaçev İ.Q., Skopina İ.V. və başqaları yerinə yetirmişlər [62, 64, 66, 69, 81, 97, 102, 103, 110, 117, 121, 130, 132, 134, 144, 146, 156, 165, 166, 168-171, 186, 187-9,-12,-18]. Bununla belə, vurğulanmalıdır ki, kooperasiyanın, xüsusi ilə də istehlak kooperasiyasının dərinləşən qloballaşma şəraitində və genişlənən bazar münasibətləri kontekstində inkişaf problemləri və perspektivlərinin tədqiqi müasir zamanda kompleks şəkildə az tədqiq olunan elmi istiqamətlərdən biri kimi qalmaqdadır. Qloballaşma və bazar münasibətləri sferasında istehlak kooperasiyasının problemlərinın təhlili və perspektivlərinin elmi təminatının işlənib hazırlanması Azərbaycan Respublikasının iqtisadiyyatının dinamik inkişafının sürətləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Bundan irəli gələrək mövcud tədqiqat işində qloballaşma və liberallaşma şəraitində, kompleks və sistemli yanaşmada istehlak kooperasiyasının problemləri, daha qabarıq formatda respublikada kooperasiya münasibətlərinin genişləndirilməsi və onun effektivliyinin əsaslandırılması, istehlak bazarının genişləndirilməsi, bu istiqamətdə dövlətin vəzifələri, tənzimləyici rolu, kooperasiyanın ölkədəki iqtisadi artıma, regional inkişafa verəcəyi stimulların müəyyənləşdirilməsi və onun bilavasitə özünün dinamik inkişafını sürətləndirən məsələlərin həll yolları və mexanizmləri elmi-təhlil mövzusuna çevrilmişdir.

Bütün bunlardan irəli gələrək də dərinləşən qloballaşma və bazar münasibətləri şəraitində Azərbaycanda istehlak kooperasiyasının formalaşmasının prinsip və qanunauyğunluqları üzrə yeni elmi ümumiləşdirmələrin aparılması,

istehlak bazarında məhsul bolluğunun artırılmasında və onun xaricdən asılılığının azaldılmasında, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində istehlak kooperasiyasının, ümumilikdə çoxprofilli kooperativ təsisatlandırmaların rolunun aşkarlanması və qiymətdəndirilməsi, onun inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış nəzəri və praktikı əhəmiyyətli təklif və tövsiyələr hazırlanması monoqrafik tədqiqatın məqsədi kimi qarşıya qoyulmuşdur. Bu məqsədə nail olmaq üçün qloballaşma şəraitində və bazar münasibətləri sistemində istehlak kooperasiyasının yeri və rolunu bir daha müəyyənləşdirmək, kooperasiyanın nəzəri-metodoloji, tarixi əsaslarını, kooperativ fəaliyyətin forma və prinsiplərini tədqiq və təyin etmək, qiymətləndirmək, kredit kooperasiyasının mahiyyəti və spesifik xüsusiyyətlərini, onun təşkilati-iqtisadi aspektlərini öyrənmək, ölkədə istehlak kooperasiyasının inkişafı və formalaşmasının spesifik xüsusiyyətlərini aşkara çıxarmaq, istehlak kooperasiyasının mövcud vəziyyətini dəyərləndirmək və tənzimlənməsi istiqamətində əməli təkliflər irəli sürmək kimi vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Monoqrafiyanın elmi və praktiki nəticəliyi, fərqləndirici elmi yeniliyi onunla bağlanılır ki, burada ilk dəfə olaraq qloballaşma və dərinləşən bazar münasibətləri şəraitində respublikada istehlak kooperasiyasının və istehlak bazarının müasir vəziyyəti təhlil edilərək, mövcud potensial imkanlar aşkar olunmuş, bazar özünütənzimləmə mexanizminin kooperasiyanın inkişafına təsiri, kooperativ sektorun səmərəli tənzimlənməsinin çevik iqtisadi mexanizmləri müəyyənləşdirilmiş, onun çoxsəviyyəli sisteminin formalaşmasının əsas amilləri təyin olunmuş, istehlak kooperasiyasının bazar, xidmət və digər subyektlərlə inteqrasiyasının prioritet istiqamətləri və habelə ölkədə kooperasiya münasibətlərinin təkmilləşdirilməsi yolları göstərilmişdir.

Monoqrafiyanın elmi mükəmməlliyi və praktiki nəticəliyinin dərinləşdirilməsi məqsədi ilə tədqiqat prosesində sistemli və kompleksli yanaşmada məntiqi, funksional, deduktiv metodlardan və ekspert qiymətləndirilməsindən, müqayisəli iqtisadi təhlil və müşahidə üsullarından, statistik qruplaşdırma, sxemləşdirmə, qrafik illüstrasiya və digər iqtisadi təhlil alətləri və mexanizmlərindən istifadə olunmuşdur. Onun informasiya bazasının zənginləşdirilməsi üçün İqtisadi İnkişaf, Kənd Təsərrüfatı və Maliyyə Nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Azərittifaqın, Rusiya Federasiyası və keçmiş SSRİ-nin kooperasiya sferasında iqtisadi-texniki göstəricilərini səciyyələndirən məlumatları və aidiyyətli təsərrüfat sübyektlərinin hesabatlarından, kooperativ bilgiləri təşfiq edən beynəlxalq təsisatların dövrü nəşrləri, statistik toplumlar və mühüm elmi ədəbiyyatlardan, internet şəbəkəsinin müvafiq veb - saytlarının informasiyalarından və eyni zamanda, müəllifin Türkiyə Respublikasının nüfuzlu dövlət və qeyri-hökumət təşkilatlarında keçdiyi elmi təcrübə əsasında topladığı material və məlumatlardan genişliklə istifadə olunmuşdur.

# I HİSSƏ.

# KOOPERASİYANIN ELMİ-NƏZƏRİ ƏSASLARI VƏ TƏCRÜBİ REALLIQLARI

## I FƏSİL.

## KOOPERASİYA MÜNASİBƏTLƏRİNİN TƏŞƏKKÜLÜ: ELMİ-NƏZƏRİ ÇƏRÇİVƏLƏR VƏ TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

### 1.1. Kooperasiya münasibətləri və nəzəri konsepsiyanın təşəkkülü

Latın mənşəli *kooperasiya* sözü birgə fəaliyyət, birgə təsərrüfat təşəbbüslərinin reallaşdırılması, konkret olaraq təsərrüfat fəaliyyətinin həyata keçirilməsinin üsul və formaları kimi xarakterizə edilir. Digər tətəfdən, hər hansı iqtisadi fəaliyyət sahəsində insanların könüllü əsasda baş verən əməkdaşlığı iqtisadi ədəbiyyatda kooperasiya anlayışı ilə ifadə olunur. Odur ki, latınca əməkdaşlıq mənası verən kooperasiya - «fiziki şəxslərin kollektiv sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə könüllü üzvlük əsasında birləşməsi, birliyi» kimi təqdim edilir [7, 36, 62, 81, 96]. Bütövlükdə götürüldükdə, kooperasiya münasibətləri bu və ya digər fəaliyyətin həyata keçirilməsində ayrı-ayrı şəxslərin maraqlı olması və onların birgə iştirakı başa düşülür. İqtisadi ədəbiyyatlarda kooperasiya termini bir qayda olaraq iqtisadi münasibətlərin müxtəlif tiplərinin xarakteristikası məqsədilə də geniş miqyasda istifadə edilir. Əmək kooperasiyası ilk növbədə, əmək prosesinin va olub mahiyyət etibarilə ayrı-ayı işçilərin bu və ya digər istehsal prosesində bilavasitə iştirak etməsi formasında təzahür edir. Əmək kooperasiyasından fərqli olaraq, istehsal kooperasiyası daha çox bu və ya digər fəaliyyətin nəticəsi formasında təzahür edir. İstehsal kooperasiyası bir qayda olaraq istehsalın təşkilinin forması kimi xarakterizə olunur.

İstehsal kooperasiyası eyni zamanda istehsalın iqtisadi cəhətdən xüsusiləşməsi kimi xarakterizə olunmaqla müəyyən məhsulun yaradılması və bazara çıxarılması zamanı birgə fəaliyyəti özündə əks etdirir [73, 134].

Kooperasiya ideyası XIX əsrdə cəmiyyətdə humanist və islahatçı cərəyanın nümayəndələri tərəfindən də geniş şəkildə araşdırılmışdır. Problemin araşdırılması ilə bağlı R.Ouen, Ş.Furye, U. Kinqa, N.Q.Şernişevskova, Q.Şulsed Beliç, F.Rayfayzinq, K.Marks və başqaları geniş tədqiqatlar aparmışlar. Adları çəkilən iqtisadçıların əsərlərində bütövlükdə kooperasiya nəzəriyyəsinin bu və ya digər istiqamətləri formalaşmağa başlamışdır. İqtisadi ədəbiyyatlarda kooperasiyanın formalaşmasının və inkişafının bu və ya digər tərəfləri ilə bağlı rus iqtisadçılarından A.İsayev, A.Şuprov, S.Parakapoviç, K.Pajitnov, V.F.Potomyans, M.İ.Tuqan-Baranovski, S.L.Maslov, A.A.Nikolayev, A.V.Çayanov, N.D.Kondratev və başqaları geniş miqyaslı tədqiqatlar aparmışlar [45, 113, 114, 119, 129, 130, 146, 156, 168-171, 187-9,-12].

Kooperasiya sahəsində tarixi və nəzəri ədəbiyyatlarla tanışlıqdan məlum olur ki, ümumiyyətlə kooperasiya ideyası birgə fəaliyyət əsasında həyata keçirilən təsərrüfat proseslərinin məcmusu kimi xarakterizə olunur. Tədqiqatlar göstərir ki, kooperasiya nəzəriyyəsi ilə bağlı problemin işlənməsi Qərbi Avropa ilə müqayisədə Rusiyada daha geniş köklərə malik olmuşdur. Kooperasiya hətta bazar iqtisadiyyatının kəskin şəkildə məhdudlaşdırıldığı keçmiş Sovetlər İttifaqında belə özünü bir təsərrüfat forması kimi qəbul etdirmişdir. Ümumiyyətlə götürdükdə, hal-hazırda iqtisadiyyatda kooperasiyanın demək olar ki, klassik məktəbi formalaşmışdır. Həmin məktəbdə kooperasiya münasibətlərinin ümumi nəzəriyyəsi işlənib hazırlanmış, kooperasiya münasibətləri sosial-iqtisadi mahiyyət etibarilə artıq sosial-iqtisadi proseslərin təşkilində və idarə olunmasında əhəmiyyətli rol oynamağa başlamışdır. XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən iqtisadiyyatda baş verən qlo-

ballaşma proseslərinə adekvat olaraq kooperasiya münasibətləri müstəqil və suveren şəkildə sosial-iqtisadi təzahür kimi özünü göstərməyə başlamışdır. Kooperasiya münasibətləri ictimai-siyasi struktur kimi fəaliyyət göstərmiş və təsərrüfat fəaliyyətinin təşkilinin digər formalarından nəzərəçarpacaq dərəcədə fərqlənmişdir [36, 66, 80, 94, 108, 109].

Kooperasiya münasibətlərinin sosial-iqtisadi inkişafda rolunun yüksəlməsinə adekvat olaraq, artıq iqtisadiyyatda kooperativ kapital formalaşmışdır ki, bu da nəticə etibarilə əmtəə istehsalçılarının və ticarət şəbəkələrinin kooperativ mənfəət əldə etməsinə gətirib çıxarmışdır. Məhz bu deyilənlərə müvafiq olaraq kooperasiya münasibətlərinin və bütövlükdə kooperativlərin nəzəri aspektləri işlənib hazırlanmış, artıq kooperasiya hərəkatı təşkilati struktur kimi fəaliyyət göstərməyə başlamışdır.

Hal-hazırda kooperasiya nəzəriyyəsinin ən aparıcı problemlərindən biri kimi kooperativ müəssisələrin bütövlükdə iqtisadi münasibətləri sistemində yerinin müəyyənləşdirilməsi hesab olunur. Nəinki dövlətlə, hətta bazar təsərrüfatçılıq sisteminin mövcudluğunu tam mənası ilə ultra şəkildə qəbul edənlər belə razılaşmaqdadırlar ki, kooperasiya münasibətləri iqtisadi münasibətlərdən və iqtisadiyyatın təşkilinin digər formalarından özünəməxsus xüsusiyyətləri ilə fərqlənirlər.

Kooperasiya münasibətlərinin inkişafı və iqtisadiyyatda kifayət qədər iri həcmli kooperativ sektorun formalaşmasına və bunun müqabilində əldə edilən kooperativ mənfəətin və kooperativ kapitalın formalaşmasına müvafiq olaraq artıq kooperasiya strukturları iqtisadiyyatda kifayət qədər rəqabət aparmaq imkanlarına da malikdirlər. Hətta inzibati münasibətlər sisteminin hakim olduğu dövrdə belə kooperasiya münasibətləri bu və ya digər şəkildə əngəllərdən müdafiə olunmağı bacarmış və kifayət qədər inkişaf etmişdir. Qeyd etmək lazımdır ki, kooperasiya münasibətlərinin inkişafı ilə bağlı kifayət qədər iri həcmli nəzəri araşdırmaların aparılmasına baxmayaraq, bu

münasibətlərin yaradılması ilə bağlı prosesləri təkmil hesab etmək düzgün olmazdı. Bununla yanaşı kooperasiya münasibətlərinin həm nəzəri əsaslarının, həm də bu sahədə fəaliyyət proseslərini kifayət qədər uzunmüddətli saymaq səhvdir. Nəzərə almaq lazımdır ki, hal-hazırda cəmiyyətdə bazar iqtisadi münasibətlərinin dərinləşməsi və əhatə dairəsini genişləndirməkdə olan qloballaşma təsirləri ilə bağlı ictimai nəzəriyyənin özünün yekcins olmaması baxımından kooperasiya münasibətləri ilə bağlı kifayət qədər alternativ baxışlar və yanaşmalar da yaranmaqdadır.

1917-ci il bolşevik inqilablarına Rusiya imperiyasında kooperasiya münasibətlərinin inkişafı sahəsində kifayət qədər nəzəri əsərlər formallaşmışdı. 1899-cu ildə Sankt-Peterburqda Rusiya İstehlakçılar Cəmiyyətinin fəaliyyəti ilə bağlı məlumatlar dərc olunmuş, 1908-ci ildə Rusiyada I Ümumrusiya Kooperativ Qurultayı keçirilmiş və onun məlumatları nəşr edilmiş və 1913-cü ildə Kiyevdə Ümumrusiya Kooperasiya sərgisi keçirilmiş, 1914-cü ildə isə Moskvada İstehlak Cəmiyyətləri İttifaqının birillik məcmuəsi dərc olunmuşdur. Məhz bütün bunlar keçmiş ittifaq respublikalarında kooperasiya münasibətlərinin inkişafını şərtləndirən ən mühüm nəzəri bilgi kimi dəyərləndirilə bilər [96, 109, 110].

Bu araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, kooperasiya münasibətlərinin formalaşması ilə bağlı nəzəri əsaslar XX əsrin sonlarında geniş inkişaf etmişdir. Belə ki, bu sahədə A.V.Merkulovun, M.L.Xeysinin, V.İ.Zelqeynin və başqalarının əsərlərində fundamentallığı ilə fərqlənən kifayət qədər yetərli araşdırmalar aparılmışdır. A.V.Merkulov öz araşdırmalarında kooperasiya münasibətlərini birgə təsərrüfat subyekti kimi xarakterizə etməyə cəhd göstərmiş, bu zaman birliyə daxil olan təsərrüfat subyektlərinin iqtisadi müstəqilliyini ön plana çəkmişdir [119]. M.L.Xeysin öz əsərlərində kooperasiya münasibətlərinin tarixi aspektlərini təhlil edərək belə qənaətə gəlmişdir ki, ümumiyyətlə sosial-iqtisadi problemlərin

mövcudluğu bu və ya digər təsərrüfat subyektlərini birgə fəaliyyət göstərməyə məcbur etmişdir. Əslində kooperasiya münasibətlərinin yaranmasını şərtləndirən ən mühüm amil kimi cəmiyyətdə mövcud olan sosial-iqtisadi problemlər ön plana çəkilmişdir [165, 166]. Eyni zamanda V.İ.Zelqeyn kooperasiya münasibətlərinin formalaşmasının bazis prinsipi kimi istehlak cəmiyyətlərinin yaranmasını ön plana çəkmişdir. O, istehlak cəmiyyətlərinin yaranmasında əsas etibarilə xidmət sektorunun və tədarük sektorunun inkişaf etdirilməsini əsas amil kimi qiymətləndirmişdir [91].

Kooperasiya münasibətlərinin bu tarixi aspektlərini təhlil etdikdə belə qənaətə gəlmək olar ki, XX əsrin 20-ci illərindən etibarən kooperasiya münasibətləri ilə bağlı kifayət qədər geniş araşdırmalar aparılmışdır. Belə ki, kooperasiya münasibətlərinin elmi-nəzəri məsələlərinin araşdırılması ilə bağlı inqilabaqədərki dövrdə A.İ.Xunikovanın, N.M.Konsarovun, L.M.Xinçqun, A.İ.Mininin, M.İ.Popovun, M.X.Konforanın, V.A.Sellaryusun, A.A.Bitsinxonun və digərlərinin elmi-nəzəri əsərlərini xüsusi dəyərləndirmək mümkündür [88, 110, 133, 143]. Bu dövrdən artıq kooperasiya münasibətləri ilə bağlı demək olar ki, klassik nəzəri proseslərin diqqətlə öyrənilməsi əsasında köhnə məktəbin müəlliflərinin fikirləri qorunub saxlanılmaqla kifayət qədər yeni impulslar da yaranmağa başlamışdır. Belə ki, 1923-cü ildə S.M.Porokopoviç tərəfindən nəşr edilən «Rusiyada kredit kooperasiyası» adlı monoqrafiya bu sahədə demək olar ki, kooperasiya münasibətlərinin iqtisadiyyatın digər sahələrində də, əmtəə-pul münasibətləri sferasında geniş inkişaf etdirilməsinin əsasını qoymuşdur [109, 187-9]. Bundan əlavə, 1926-cı ildə M.L.Xeysin tərəfindən dərc edilmiş «Rusiyada kooperasiyanın tarixi» adlı əsərində də kooperasiya münasibətlərinin tarixi aspektləri dərin şəkildə təhlil edilmişdir [166]. 1928-ci ildə S.L.Maslova tərəfindən dərc edilmiş «Kənd təsərrüfatında kooperasiyanın iqtisadi əsasları» əsərində isə aqrar sahədə kooperasiya münasibətlərinin forma-

laşması, onun xüsusiyyətləri və ona təsir edən amillər geniş şəkildə araşdırılmışdır. Kooperasiya münasibətlərinin elmi-nəzəri əsaslarının formalaşması ilə bağlı məsələlər M.S.Balabanovun və M.Y.Makerovun birgə əsərlərində kifayət qədər geniş əksini tapmışdır. Bu əsərlərdə istehlak kooperasiyasının tarixi məsələləri inqilabaqədərki dövrdə geniş araşdırılmışdır [109, 187-9].

XX əsrin əvvəllərindən etibarən kooperasiya münasibətləri artıq iqtisadiyyatın bütün sahələrində inkişaf etməyə başlamışdır. Bu baxımdan A.V.Çayanov kooperasiya münasibətlərinin kənd təsərrüfatında inkişaf xüsusiyyətlərini kifayət qədər geniş şəkildə araşdırmışdır. Kənddə kooperativ hərəkat problemini geniş şəkildə təhlil edən A.V.Çayanov demək olar ki, nəinki Rusiyanın quberniyalarında, eləcə də Belçika, Fransa, İsveçrə və digər Avropa ölkələrində kooperasiya münasibətlərinin formalaşması və inkişaf xüsusiyyətlərini araşdırmış, kənd təsərrüfatında kooperasiya hərəkatının inkişafına təsir edən amilləri geniş şəkildə tədqiq etmişdir. A.V.Çayanovun əsərlərində əsas etibarilə kooperasiya münasibətlərinin təşkilati-iqtisadi əsasları araşdırılmış və bütövlükdə dünya səviyyəsində bu proseslərin inkişafına təsir edən amilləri müəyyən etmişdir [168-171].

Ümumilikdə götürdükdə, yuxarıda adları çəkilən iqtisadçı alimlərin əsərlərində kooperasiya münasibətləri iqtisadi fikir tarixinin ən mühüm elementi və prioritet istiqaməti kimi dəyərləndirilir və bütövlükdə həmin ideyalar artıq praktikada öz geniş əksini tapmaqdadır. Qeyd etmək lazımdır ki, A.V.Çayanovun ideyaları müasir iqtisadiyyatda 3 əsas aspektdə geniş şəkildə inkişaf etməkdədir. Bunlardan *birincisi,* kooperasiya münasibətləri sferasında qərarların qəbul edilməsi, *ikincisi*, kooperasiya sistemində məhsuldar qüvvələrin prioritet rol oynaması və ən nəhayət, *üçüncüsü*, kollektiv fəaliyyətin yaratdığı geniş imkanlarla bağlıdır. Bu baxımdan artıq müasir iqtisadiy-

yatda kooperasiya münasibətlərinin müxtəlif forma və növləri geniş şəkildə yaradılmış və inkişaf etmişdir [168].

Aparılan araşdırmalar göstərir ki, kooperasiya münasibətləri iqtisadiyyatın elə bir formasını özündə əks etdirir ki, burada iqtisadi sistemlər kooperasiya münasibətlərinin təbiətinə bioloji baxımdan təsir göstərə bilmirlər. Belə ki, sosialist iqtisadiyyatının mövcud olduğu uzun onilliklər ərzində kooperasiya münasibətləri demək olar ki, sosialist ideyaları baxımından da qəbul edilən hesab edilirdi. Bütün bunlara baxmayaraq, kooperasiya münasibətləri sosialist təsərrüfatçılıq sistemində özünün bütün imkanlarını tam şəkildə aşkar büruzə verə bilmirdi. Belə ki, proletariatın banisi V.İ.Lenin kooperasiyanın inkişafının zəruriliyini əsaslandırarkən onu kənd təsərrüfatı ilə sənaye arasında ticarət əlaqələrinin formalaşmasında başlıca struktur kimi dəyərləndirmişdir. Bu isə, bütövlükdə kooperasiya imkanlarını iqtisadiyyatın inkişafına təsirinin bu sektorlarla məhdudlaşması deməkdir. Lakin bütün bunlara baxmayaraq, kooperasiyanın inkişafı ilə bağlı V.İ.Leninin fikirlərində kifayət qədər ikili meyil özünü büruzə verirdi. Bu onunla bağlı idi ki, kooperasiyanı sosializmin inkişafında mühüm rol oynayan struktur kimi dəyərləndirsə də, bütövlükdə dövlət müəssisələrini sosialist təsərrüfatçılıq sisteminin davamlı inkişafını səciyyələndirən başlıca struktur kimi xarakterizə edirdi. Eyni zamanda, V.İ.Lenin bir tərəfdən, kooperasiyanı dövlət müəssisələrindən fərqli olaraq müstəqilliyə malik olan təsərrüfat strukturu kimi dəyərləndirsə də, digər tərəfdən, kooperativlərdə məhsulun istehsal vasitələrinin dövlət mülkiyyətində olduğunu iddia edirdi [44, 114].

Özəl kooperativlər müxtəlif təsərrüfat strukturu kimi fəaliyyət göstərməsi imkanlarını və onun inkişaf imkanlarına nəzəri baxımdan mənfi təsir göstərirdi. Bütün bunlara baxmayaraq, sosializm şəraitində təsərrüfatın təşkilinin kooperativ prinsipləri daha çox özfəaliyyət, özünüidarəetmə özəl təsərrüfatla-

rında hər bir fiziki və hüquqi fədin şəxsi maddi iştirakı ilə səciyyələnirdi.

Materialların təhlili göstərir ki, XX əsrin əvvəllərindən bütövlükdə iqtisad elmində dünya səviyyəsində qəbul edilmiş elmi əsərlər işıq üzü görməyə başladı ki, bu da nəticə etibarilə kooperasiyanın inkişafının elmi-nəzəri əsaslarının formalaşdırılmasında da mühüm rol oynadı. XX əsrin 30-cu illərinin əvvəllərindən başlayaraq ölkədə keçmiş SSRİ-nin iqtisadiyyatında inzibati-amirlik metodları üstünlük təşkil etdi ki, bütün bunlar da iqtisad elminin formalaşmasında ideoloji xarakterin daha da genişlənməsinə gətirib çıxardı. Belə ki, artıq həmin dövrdə iqtisad elmi daha çox inzibati sistemin idarəsinə uyğun olaraq bütün proseslərin şərhçisi funksiyalarını yerinə yetirirdi. Bunun nəticəsi idi ki, artıq XX əsrin 30-cu illərində 20-ci illərindəki əsərlər dərc etdirilmir və onlar lazımi elmi qiymətini ala bilmirdi. Sosializm şəraitində kooperasiya münasibətlərinə həsr olunmuş V.İ.Leninin «Kooperasiya haqqında» əsəri bütövlükdə kooperasiya sisteminin inkişafı baxımından daha çox təbliğat xarakteri daşımağa başladı.

Ötən əsrin 20-ci illərinin ortalarından etibarən kooperasiya ilə bağlı nəzəri əsərlər bu sahədə toplanmış təcrübənin ümumiləşdirilməsi ilə yanaşı, eyni zamanda kooperasiyanın təsərrüfat forması kimi elmi cəhətdən əsaslandırılmasına da xidmət etmişdir. Rus tədqiqatçısı V.V.Kruqlovanın fikrincə, kooperasiya daha çox əmtəə və xidmətlər sahəsində iri miqyaslı istehsalla bərabər yaranıb, inkişaf etməyə başlamışdır. O, xırda əmtəə istehsalının transformasiya prosesində hakim mövqe tutaraq dövlət sektoruna uyğunlaşması istiqamətində fəaliyyət göstərən təsərrüfat forması kimi çıxış edir. Kooperasiya münasibətlərinin formalaşması və inkişafı xırda əmtəə istehsalçılarının maddi-texniki resurslarla təchizatında da önəmli rol oynadığı da V.V.Kruqlovanın əsərlərində həmçinin xüsusi qeyd edilirdi. [104]. V.V.Kruqlovanın fikirlərinə münasibət bildirərək qeyd etmək lazımdır ki, sosialist iqtisadiyyatı şəraitində

kooperasiya münasibətlərinin təşkilati strukturu kimi kooperativlərin formalaşması və inkişafı üçün zəruri olan iqtisadi mühit digər təsərrüfat strukturları, yəni dövlət strukturları ilə müqayisədə kifayət qədər fərqli olmuşdur. Bundan əlavə, kooperativ mülkiyyətin reallaşdırılmasının xarici mühit amilləri də müxtəlif olmuşdur. Daha doğrusu, dövlət müəssisələri ilə müqayisədə kooperasiyanın inkişafı baxımından kifayət qədər əlverişli şərait yaradılmamışdır. Bütün bunlara baxmayaraq, kooperasiya münasibətlərinin kütləvi şəkildə inkişafını daha çox xammal tədarükü və eyni zamanda istehsal prosesinin maddi-texniki resurslarla təchizatı, ticarət və bu kimi sahələrdə özünü geniş şəkildə büruzə vermişdir. Bundan irəli gələrək müəyyən etmək olar ki, kooperasiya münasibətləri özünün davamlı şəkildə inkişafını və ümumiyyətlə rəqabətqabiliyyətini daha çox cəmiyyət üzvlərinin istehlak maraqlarının və istehlak tələbatının ödənilməsi sahəsində göstərmişdir.

Kooperasiya münasibətlərini geniş şəkildə tədqiq etmiş M.İ.Tuqan-Baranovskinin fikrincə, «Kooperativlər bir qrup insanların müəyyən maraqlarını özündə əks etdirən təsərrüfatçılığın təşkili formasıdır və kooperativ üzvlərinin hər birinin özünəməxsus xüsusi təsərrüfat maraqları mövcuddur ki, həmin maraqlar da bilavasitə mübadilə vasitəsilə reallaşdırılır» [156]. Kooperasiya problemlərini tədqiq edən digər bir rus alimi İ.N.Buzdalova görə, kooperativlər vətəndaşların onlara məxsus olan əmlak, müstəqillik və özünüidarəetmə və maliyyələşmə resurslarının bazasında birgə fəaliyyət məqsədilə həyata keçirdikləri ictimai təsərrüfat fəaliyyətini özündə əks etdirir. Kooperasiya, bütövlükdə götürdükdə, dünyəvi miqyasda fəaliyyət göstərən və öz fəaliyyətini əyani şəkildə təzahür etdirən unikal qurumdur. İ.N.Buzdalov hesab edirdi ki, kooperativlər fiziki şəxs statusunda formalaşan könüllü birliklərlə yanaşı, eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində qarşılıqlı səmərəliliyi əsasında birgə fəaliyyət həyata keçirən müəssisələri, hüquqi şəxsləri və fərdi istehsalçıları da əhatə edir [80].

Aparılan araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, kooperasiya münasibətləri təşəkkülü baxımından zaman faktoru o qədər də önəmli rol oynamamışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi belə yəqinlik gətirir ki, kooperasiya münasibətləri xüsusilə iqtisadiyyatın deformasiyaya uğradığı şəraitdə onun sağlamlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Kooperasiya münasibətləri bundan əlavə, inhisarçılığın qarşısının alınmasında da əhəmiyyətli rol oynayır. Sosialist iqtisadiyyatındakı mövcud olan destruktiv tendensiyaları araşdıraraq isə belə qənaətə gəlmək olar ki, kooperasiya münasibətlərinin təşəkkülü həmin dövrdə dövlət inhisarının qarşısının alınmasında və dövlət və kooperasiya sektoru arasında rəqabətin stimullaşdırılmasında əhəmiyyətli rol oynamışdır.

## 1.2. Kooperasiya təcrübəsinin elmi-nəzəri ümumiləşdirilməsi

XX əsrin sonlarında cəmiyyətdə baş verən siyasi dəyişikliklər iqtisadi proseslərdən də yan keçməmişdir. Bir çox sahələrdə olduğu kimi, mülkiyyət münasibətlərində də köklü dəyişikliklər baş vermiş, hakim mövqe tutan dövlət mülkiyyəti özəlləşdirilərək müxtəlif təsərrüfatçılıq formaları yaradılmışdır. Təbii ki, bütün bunlar əmtəə istehsalçılarının sosial-iqtisadi vəziyyətinə, o cümlədən onların təsərrüfat mexanizminin motivasiyasına da öz təsirini göstərmişdir. Bazar mexanizminin formalaşması mahiyyət etibarilə iqtisadiyyatın sahə və ərazi kəsimlərində köklü islahatların həyata keçirilməsi ilə nəticələnmişdir. Bazar mexanizminə əsaslanan iqtisadi sistemin formalaşmasında transformasiya yönümlü dəyişikliklərin gedişində kooperasiya münasibətləri də əhəmiyyətli rol oynamışdır. Kooperasiya ictimai əmək bölgüsünün qanunauyğun nəticəsi olub, bu münasibətlərin inkişafı prosesində yaranan təsərrüfat ukladının məcmusu kimi xarakterizə olunmağa başlanmışdır. Kooperasiya öz inkişafının tarixi dövrlərində təsərrüfat

həyatına tam mənası ilə təsir göstərmiş və hazırda dünya miqyasında müxtəlif kooperativ forma və birliklərin geniş şəbəkələri formalaşmışdır. Uzun müddətli tarixi dövrdə bazar iqtisadiyyatının prinsipləri və qanunauyğunluqları əsasında iri əmtəə istehsalının təşkilində kooperasiya hərəkatı önəmli rol oynamışdır.

Müasir dünyada kooperasiya hərəkatında planetin əksər əhalisi iştirak edir. Hazırda qlobal miqyasda 8 milyona yaxın fiziki şəxslərin yaratdığı kooperativlər mövcuddur ki, həmin kooperativlər də qarşılıqlı səmərəlilik prinsiplərinə əsaslanaraq birgə fəaliyyət həyata keçirir. Avropa Birliyi ölkələrində müxtəlif sahələrdə fəaliyyət göstərən kooperativlər əmək qabiliyyətli əhalinin 46%-ni, Skandinaviya ölkələrində isə əhalinin 50%-dən çoxunu birləşdirir [103, 125].

Müasir şəraitdə təsərrüfat fəaliyyətinin kooperativ prinsiplərindən geniş istifadə proseslərini əngəlləyən mühüm cəhətlər də mövcuddur ki, bu amillərə də yeni iqtisadi sistemə keçid dövründə təsərrüfatçılıq formalarında daha çox kooperasiya konsepsiyasının nisbətən amorf xarakter daşıması şamil edilir. Bütün bunlar özünü transformasiya yönümlü dəyişikliklərin həyata keçirildiyi postsovet ölkələrində daha çox göstərir. Ümumiyyətlə isə, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq görərik ki, kooperasiya anlayışına müxtəlif yanaşmalar mövcud olsa da, o daha çox özünü iqtisadiyyatın aqrar sektorunda büruzə verir. Aqrar sahədə fəaliyyət göstərən təsərrüfatçılıq qurumları birgə səylər nəticəsində, eyni zamanda maliyyə prinsipləri, maddi-texniki resurslarla təchizat və satışın təşkili sahəsində daha çox birgə fəaliyyət həyata keçirirlər.

Hal-hazırda sosial-iqtisadi proseslərin qloballaşması ilə əlaqədar kooperasiya münasibətlərinin əhatə dairəsi və prinsiplərində də bəzi birmənalı qarşılanmayan məqamlar da mövcuddur. Bu məqamlara ilk növbədə, kooperasiya münasibətlərinin daha çox ictimailəşmə prinsipini və yaxud da əkskollektivləşmə və əksmillliləşmə prosesini əhatə etdiyi mə-

qamlar da kifayət qədər birmənalı qarşılanmır. Bundan əlavə, əmlakın bölünməzliyi və ümumi icma xarakteri daşıması baxımından kooperativlərin ictimai təsərrüfat olması ilə bağlı birmənalı qarşılanmayan məqamlar da kifayət qədərdir. Kooperativlərin bazar sahibkarlığına və mənfəətli fəaliyyətə xas olan prinsiplərə əsaslandığı da birmənalı qarşılanmır. İqtisadiyyatın aqrar sektorunda kənd təsərrüfatı kooperativlərinin fermer təsərrüfatları ilə oxşar və fərqli cəhətləri də oxşar şəkildə müəyyənləşdirilməmişdir. Təbii ki, adı çəkilən bu və ya digər məqamlarla bağlı tədqiqatçıların kifayət qədər fərqli yanaşmaları və nöqteyi-nəzərləri mövcuddur. Bu bilavasitə onunla bağlıdır ki, xüsusi təsərrüfat qurumu kimi kooperativ mülkiyyətə əsaslanan kooperativlərin ictimai və ya daha çox kooperativ fəaliyyətdə iştirak edən şəxslərin maraqları arasındakı mənfəət bölgüsü də konkret şəkildə müəyyənləşdirilməmişdir [65, 125, 187-9].

Apardığımız araşdırmalardan belə qənaətə gəlmək olar ki, bütün nəzəriyyəçilər, hətta R.Ouendən, S.Simondan başlamış sosialist kooperasiyası nəzəriyyəçilərinə qədər (*klassiklər, sosialist iqtisadiyyatının ideoloqları, eləcə də müasir bazar iqtisadiyyatının mövcudluğu ilə bağlı müasir məktəblər*) kooperasiya münasibətlərinin metodologiyası və təsərrüfatçılığın kooperativ formaları ilə bağlı yuxarıda adı çəkilən məsələlərə konkret şəkildə birmənalı qiymət verməmişlər [187-9].

Tədqiqatlar göstərir ki, xüsusilə keçid iqtisadiyyatlı ölkələrdə siyasi hakimiyyət nəinki kooperativlərin inkişafına kifayət qədər maraqlı və stimullaşdırıcı reaksiya göstərmiş, eyni zamanda bir sıra hallarda kollektiv təsərrüfat fəaliyyətinə qarşı müəyyən təsirlər də mövcud olmuşdur. Təbiidir ki, bütün bunlar kooperasiya münasibətlərinin inkişafında əlavə çətinliklər də yaratmışdır. İqtisadi böhran vəziyyətinin yarandığı hallarda kooperasiya strukturlarında əmək kollektivlərinin özünüidarəetmə prinsiplərinin üstünlük təşkil etməsi və eyni zamanda kooperasiya üzvlərinin fəallığı bir sıra hallarda kooperasiya

münasibətlərinin müəyyən zaman kəsiyində, hətta uzunmüddətli dövrdə daha çox üstünlük təşkil etmələrinə gətirib çıxarmışdır. Hal-hazırda müasir dünyada qloballaşma meyillərinin üstünlük təşkil etdiyi şəraitdə əslində kooperasiya münasibətləri ictimai-siyasi və iqtisadi mübarizə dövrünü yaşayır və burada onların qalib gələcəyi təbii ki, cəmiyyətdə kooperasiya tərəfdarlarının, birgə fəaliyyətin üstünlüklərinin geniş şəkildə təzahür etməsinə gətirib çıxaracaqdır. Bütün bunları da qəbul etmək lazımdır ki, xüsusilə keçid iqtisadiyyatında mülkiyyətin kooperativ formasının inkişafı üçün obyektiv əsaslar mövcuddur [24, 71, 122, 160]. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, inkişaf etmiş industrial və postindustrial texnologiyalara malik olan ölkələrdə belə maddi-texniki resurslarla bağlı məhdudiyyətlərin olmadığı şəraitdə kooperasiya münasibətləri və onların başlıca təşkilati strukturu kimi fəaliyyət göstərən kooperativlər böhranlı situasiyalarda digər təsərrüfat strukturları ilə rəqabət aparmaq imkanlarına malik olmuşlar. Qeyd etmək lazımdır ki, kooperativlər və kollektiv müəssisələr digər ictimai və xüsusi mülkiyyətə malik olan strukturlarla müqayisədə özünəməxsus üstün cəhətlərə malikdir. Bu təkcə onunla bağlı deyildir ki, kollektiv sərvətdən fərdi yararlanmaq imkanları kollektiv təsərrüfatlarda daha yüksəkdir. Bu eyni zamanda onunla bağlıdır ki, kooperativ təsərrüfatları digər strukturlarla müqayisədə daha çox xüsusi xarakter daşıyır. Kollektiv müəssisələr digər xarici kontragentləri ilə müqayisədə daha çox xüsusi mülkiyyətçi statusuna və bu statusu saxlamaq imkanına malikdirlər. Kooperativ və kollektiv müəssisələr eyni zamanda konyunkturada baş verən dəyişikliklərə effektiv şəkildə reaksiya göstərmək imkanlarına da malikdirlər. Bundan əlavə, kooperativlər sosial-iqtisadi şəraitdə uyğunlaşmaq imkanlarını özündə saxlayırlar.

Bu baxımdan İspaniyada fəaliyyət göstərən Beynəlxalq Mondraqon Kooperativ Qrupunun fəaliyyətini qeyd etmək yerinə düşərdi ki, bu qrup bazarda daha çox yüksək paya malik

olmaqla maddi-texniki resursların cəlb edilməsi, maliyyə resurslarının cəlb edilməsi və satış bazarlarının təşkili baxımından irimiqyaslı uğurlar əldə etmişdir [66, 102-103]. Bu təcrübədən xüsusilə keçid iqtisadiyyatlı ölkələrdə istifadə edilməsi son dərəcə perspektivli olardı.

XX əsrin 80-ci illərində iqtisadi ədəbiyyatlarda kənd təsərrüfatında ayrı-ayrı kooperativ formaların tədqiqi istiqamətində geniş miqyaslı araşdırmalar aparılmışdır. Bu baxımdan E.S.Aqoblinin, V.V.Kuznetsovun, B.İ.Kostiçin, İ.N.Vodkinin, V.A.Babruninin, A.A.Ştkovun, İ.F.Fitskovun, və digərlərinin araşdırmaları daha çox diqqəti cəlb edir [77, 88, 148, 176, 187-9]. Ərzaq kompleksində kooperativ prinsiplərin tətbiqinin ayrı-ayrı tərəfləri eyni zamanda V.F.Verçinanın, D.M.Pisminoyun, N.V.Krasnoşıkovanın, V.B.Smirnovanın, A.Q.Stadnikin və başqalarının əsərlərində də geniş şəkildə tədqiq edilmişdir [146, 152, 187-9]. Bazar iqtisadiyyatına keçid dövründə kooperasiya münasibətlərinin üstünlüklərinin iqtisadiyyatda geniş şəkildə tədqiq edilməsi İ.N.Buzdalovun, İ.N.Krılatıxın, A.V.Tkaçın, V.R.Boyevin, T.Y.Kuznetsovanın, L.V.Nikifirovun, E.V.Serovanın əsərlərində geniş şəkildə araşdırılmışdır. Bu əsərlərdə kooperasiyanın keçid iqtisadiyyatlı cəmiyyət üçün yenidən təşəkkülü istiqamətində ümumiləşdirilmiş fikirlər diqqəti cəlb edir. Belə bir şəraitdə kooperasiyanın nəzəri və praktik aspektlərinin ayrı-ayrı tərəfləri eyni zamanda A.M.Emilyanovun, A.A.Nikovanın, V.A.Tixonovanın, Q.Y.Şmilyovanın və A.F.Demçinkonun əsərlərində də geniş şəkildə araşdırılmışdır [80, 95, 96, 100, 105, 134, 144, 160, 187-9].

Araşdırmalar göstərir ki, digər təsərrüfat formaları kimi kooperasiya münasibətlərinin də inkişafı iqtisadi sistemin tipindən və xarakterindən bu və ya digər dərəcədə asılı olmuşdur. Belə ki, kooperasiya münasibətlərinin inkişafı cəmiyyətdə baş verən radikal dəyişikliklərə müvafiq olaraq özünəməxsus qabarma və yüksəlmə mərhələlərini də keçmişdir. Bu baxımdan 1993-cü ildən etibarən cəmiyyətdə özünü daha

kəskin şəkildə büruzə verən böhranlı situasiyalarda kooperasiya münasibətlərində nəzərəçarpacaq hesab olunan kataklizmlər yaranmağa başlamışdır. Bu dövrdən etibarən kooperasiyanın davamlı inkişafının məhdudlaşdırılması baxımından kifayət qədər böhranlı meyillər də özünü göstərmişdir. Həmin böhranlı meyillər bütövlükdə kooperasiyanın inkişafında ziddiyyətli məqamların yaranmasını və onların dövlət ukladı kimi ləğvi istiqamətində müəyyən cərəyanların üstünlük təşkil etməsinə gətirib çıxarmışdır. Lakin qeyd etmək lazımdır ki, hazırda dünya praktikasında baş verən kooperasiya münasibətlərinin inkişafı ilə bağlı özünü göstərən inkişaf meyilləri təbii ki, bu destruktiv tendensiyaların tədricən, sonradan isə davamlı olaraq aradan qaldırılması istiqamətində mühüm rol oynamışdır. Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı və dərinləşən qloballaşma şəraitində kooperasiya problemləri nəzəri və praktik planda kifayət qədər işlənməmişdir. Kooperasiya münasibətlərinin mövcud dəyişən şəraitə uyğunlaşdırılması istiqamətində elmi tədqiqatlar da yetərincə aparılmamışdır. Bu isə nəticə etibarilə kooperasiya münasibətlərinin mövcud reallıqlardan uzaqlaşmasına və ümumiyyətlə kooperativ hərəkatı ilə bağlı dünyada ümumiləşən təcrübədən istifadə olunmamasına səbəb olmuşdur.

Kooperasiya sahəsində xarici praktikanın kifayət qədər qiymətləndirilməməsi və eyni zamanda keçid iqtisadiyyatlı ölkələrdə bu sahədə nəzəri praktikanın demək olar ki, aparılmaması və bu sahədə uzunmüddətli fasilələrin yaranması nəticə etibarilə kooperasiyanın təşkilati formalarının inkişafında müəyyən böhranlı situasiyaların yaranmasına gətirib çıxarmışdır ki, bu da nəticə etibarilə kooperasiyanın inkişafında fundamental prinsiplərin arxa plana keçməsinə gətirib çıxarmışdır. Bazar münasibətlərinin inkişafı və təsərrüfat fəaliyyətində iştirak edən iştirakçılar arasında iqtisadi əlaqələrin kooperasiya və inteqrasiya əlaqələri əsasında formalaşdırılması problemin daha dərindən araşdırılmasını tələb edir. Kooperasiya münasi-

bətləri kifayət qədər geniş potensial imkanlara malikdir və həmin potensial imkanlardan iqtisadi böhranın aradan qaldırılması, iqtisadiyyatın sabitləşdirilməsi, xüsusilə ölkənin ərzaq təminatının yaxşılaşdırılması baxımından səmərəli şəkildə istifadə edilməsi daha məqsədəuyğun olardı. İnkişaf etmiş ölkələrdə, xüsusilə sənaye və ekoloji cəhətdən qeyri-əlverişli olan rayonlarda kənd təsərrüfatının inkişaf etdirilməsi baxımından kooperasiya fəaliyyətindən geniş şəkildə istifadə edilməsi özünü doğrultmuşdur. Bu gerçəklik daha qabarıq şəkildə torpaq resurslarının məhdud olduğu ölkələrdə də özünü yüksək səviyyədə göstərmişdir.

Təbii ki, keçid iqtisadiyyatlı ölkələrdə kooperasiya münasibətlərindən effektiv şəkildə bəhrələnməməsi nəticə etibarilə ölkənin ərzaq təminatında problemlərin yaranmasına və aqrar məhsullar sahəsində idxaldan asılılığın güclənməsinə gətirib çıxarmışdır ki, bu da yerli əmtəə istehsalçılarının maraqlarının qorunmasına mənfi təsir göstərir. Odur ki, keçid iqtisadiyyatlı ölkələrdə kənd təsərrüfatının və bütövlükdə aqrar ərzaq kompleksinin inkişaf etdirilməsi baxımından kooperasiya münasibətlərinin geniş potensialından istifadə edilməsi daha məqsədəuyğun olardı. Bir sıra ölkələrdə, xüsusilə şəhər ətraflarında kənd təsərrüfatı istiqamətində fəaliyyət göstərən kooperativlər mövcuddur ki, həmin kooperativlər nəticə etibarilə şəhər əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Həmin təsərrüfat subyektləri daha çox kooperasiya əsasında iri və xırda istehsal strukturları yaradırlar ki, onların da maraqlarının birləşdirilməsi, bütövlükdə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində önəm daşıyır. Qeyd etmək lazımdır ki, B.N.Annixovanın, B.L.Bersinovanın, Y.B.Kallinovanın, E.M.Kozlovoyun, V.D.Martinovanın, V.N.Mixaylovanın, İ.K.Fiqrovskoyun, M.A.Şarsın və başqalarının əsərlərində kooperasiya münasibətləri ilə bağlı daha əhəmiyyətli sayılan tədqiqat işləri mövcuddur [109, 126, 129, 152, 187-9]. Ümumiyyətlə götürdükdə, kooperasiya

münasibətləri könüllülük əsasında birgə fəaliyyəti özündə əks etdirdiyindən, bu zaman böhranlı situasiyalarda belə fəaliyyətin iştirakçıları özlərinin birgə əməyi müqabilində böhranlı situasiyaları qarşılamaq iqtidarında olurlar. Təbii ki, bu imkanlardan istifadə əsasında iqtisadi artımın və bütövlükdə davamlı inkişafın təmin edilməsi aspektləri də ön plana çəkilməlidir. Bununla belə, qeyd edilməlidir ki, kooperasiya münasibətlərinin potensial imkanları iqtisadiyyatda davamlı inkişafın təmin edilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsində də önəmli rol oynaya bilər.

## 1.3. Kooperasiyanın inkişafının tarixi əsasları və mərhələləri

Nəzəri baxımdan aparılan araşdırmalar göstərir ki, dünya praktikasında kooperativ hərəkatın yaradılmasının ən başlıca faktoru kimi ideya utopik sosializmdən götürülmüşdür. Daha doğrusu, utopik sosializm ideyası bütövlükdə kooperativlərin yaradılmasında başlıca nəzəri baza kimi çıxış etmişdir. Qeyd etmək lazımdır ki, utopik sosializm ideyaları hələ feodalizm cəmiyyətinin dağılmağa başladığı dövrlərdə mövcud olub inkişaf etməyə başlamışdır. Məşhur fransız utopik sosialistləri Anri Klod Sen Simon (*1770-1821*), Şarl Furye (*1772-1837*) və ingilis utopik sosialisti Rober Ouen (*1771-1858*) kooperativ hərəkatının inkişafında elmi baxımdan geniş töhfələr vermişlər. Sosialistlər içərisində xüsusilə Ş.Furye və R.Ouen kooperasiya ideyalarının təbliğində kifayət qədər geniş miqyaslı araşdırmalar aparmışdır. R.Ouen kooperasiya ideyasını kommunizmin formalaşmasında həlledici faktor kimi dəyərləndirirdi. Həmin ideyalar sonralar ABŞ-da və İngiltərədə əhalinin xüsusi vəsaitləri əsasında istehsal istehlak cəmiyyətlərinin formalaşmasında geniş miqyasda istifadə edilməyə başladı. Eyni zamanda həmin ideyalar əsasında ilk dəfə adı çəkilən ölkələrdə mənzil kooperativləri, uşaq bağçaları və digər bu kimi ictimai iaşə kooperativlərinin formalaşması özünü göstərməyə

başladı. Ümumiyyətlə, kooperativ hərəkat XVII əsrin ikinci yarısından etibarən daha geniş formada təşəkkül tapmağa başlamışdır. Həmin dövrdə kooperativ ideyaları ilk növbədə, mədən sənayeçilərinin birliyi, kustar-kəndli birlikləri və aşağı əmək haqqı səviyyəsinə malik olan qulluqçuların birliyi əsasında yaranmaqda idi. Bu zaman formalaşan kooperativlər eyni zamanda özlərinin iqtisadi maraqlarının birgə müdafiəsini təşkil edirdi. Həmin kooperativləri tam mənası ilə birgə iqtisadi maraqların müdafiəsinin birgə təşkil edilmiş forması kimi də dəyərləndirmək olardı. Onlar əsas etibarilə istismara qarşı etiraz forması nümayiş etdirirdilər. Kooperativ üzvlərinin bu mübarizəsinin başlıca metodu kimi xüsusi təsərrüfat müəssisələri yaradılırdı və həmin müəssisələr bir qayda olaraq, istismara qarşı fəal müqavimət göstərirdi [109, 187-12].

Kooperativ təsisat formalı ilk istehlak cəmiyyətlərinin vətəni olaraq İngiltərə fərqlənir. Tarixi mənbələr göstərir ki, 1769-cu ildə İngiltərəyə mənsub Şotlandiyada iki nəfərin iştirakı ilə istehlak cəmiyyəti yaradılmışdı. İki nəfərin təmsil olduğu bu cırtdan cəmiyyət əsas etibarilə tərəvəz toxumlarının satışını reallaşdırırdı [110, 187-9,-12]. Sonradan 1777-ci ildə ölkədə Qlavbu şəhəri yaxınlığında daha bir istehlak cəmiyyəti yaradılıb formalaşdı ki, bu da əvvəlki istehlak cəmiyyəti ilə müqayisədə kifayət qədər təkmil xarakterli idi. XIX əsrin əvvələrində burada yaradılan istehlak cəmiyyətlərinin sayı 500-ü ötdü. Lakin bu irəliləyişlərə baxmayaraq, həmin dövrdə kapitalist müəssisələrinin davamlı iqtisadi təzyiqləri nəticəsində yeni inkişaf pilləsinə qədəm qoyan istehlak cəmiyyətlərinin əksər hissəsi öz fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı. Həmin dövrdə bu təsisatların fəaliyyətlərini dayandırmasının digər məxsusi səbəbləri də var idi. Bunların içərisində ilk növbədə, belə təsərrüfatların idarə edilməsinin qeyritəkmil xarakteri, təsərrüfat təcrübəsinin zəifliyi və bu sferada hüquqi tənzimlənmənin, daha doğrusu normativ-hüquqi bazanın istisnası olmuşdur. Buna baxmayaraq, sonrakı tarixi mər-

halədə kooperativ hərəkatın yeni ampluada dirçəlməsi prosesi vüsətləndi. Həmin dövrdə xüsusilə zəhmətkeşlərin öz iqtisadi və siyasi hüquqları uğrunda apardıqları gərgin mübarizə nəticə etibarilə kooperativ hərəkatında yeni irəliləyişlərə təkan verdi və bu sferada ilk hüquqi statuslu təsisatlandırmalar təşəkkül tapdı. Ölkədə Roçdeyl şəhərində 1844-cü ilin oktyabrında 28 sənayeçinin yaratdığı Ədalətli Roçdeyl Cəmiyyəti adlı istehlak kooperativi təsis edildi. Tarixi baxımdan bu təsisat dünyada ilk kooperativ cəmiyyət nümunəsi kimi ön sırada dayanır. Kooperasiya tarixçiləri də kooperativ təsisatlandırmaları yaranışının ilk olaraq 1844-cü ildə İngiltərədən başlandığını əsas götürürlər.

Klassik kooperasiya beşiyi Roçdeyl istehlak cəmiyyəti əvvəllər ölkədə mövcud olmuş müvafiq təyinatlı təsisatların fəaliyyət təcrübəsinə istinad edərək yeni özünəməxsus prinsiplər formalaşdırdı və onları özünün hazırladığı nizamnamədə təsbirt edərək möhkəmləndirdi. Bu prinsirlər dünya kooperativ hərəkatı praktikasında və eyniliklə də bu sahədə nəzəri əsasların formalaşmasında mühüm rol oynadı.

Roçdeyl cəmiyyətinin prinsipləri lakonik interpretasiyada konkret olaraq aşağıdakıları ehtiva edir [81, 109, 110, 187-12]:

- kooperativ fəaliyyət üçün zəruri olan xüsusi kapitalın kooperativin hər bir üzvünün pay ödənişi formasında formalaşdırması;
- qoyulan hər bir paya görə müəyyən faizlər də hesablanırdı;
- mal göndərənlərdən məhsulların alınması və onların istehlakçılara satışı əsas etibarilə nağd formada həyata keçirilirdi və məhsulların satışında kredit münasibətləri önəmli rol oynamırdı;
- əmtəələr əsas etibarilə orta bazar qiymətinə reallaşdırılırdı;
- pərakəndə ticarət şəbəkələrində ancaq yüksək keyfiyyətli məhsullar reallaşdırılırdı;

- ❍ kooperativin mənfəətinin əsas hissəsi kooperativ üzvləri arasında proporsonal formada bölüşdürülürdü;
- ❍ mənfəətin müəyyən hissəsi kooperativ üzvlərinin mədəni səviyyəsinin yüksəldilməsinə istiqamətlənirdi;
- ❍ kooperativin idarə edilməsində hər bir kooperativ üzvü bir səslə iştirak edirdi.

Roçdeyl kooperativlərində istifadə edilən prinsiplər sonradan müəyyən dəyişikliklərlə əksər ölkələrdə yaradılan istehlak kooperativlərinin fəaliyyətində geniş şəkildə tətbiq edilirdi. Bunlara xüsusi vəsaitlərin cəlb edilməsi, təsərrüfat fəaliyyətinin nəticələrinə görə əldə edilən mənfəətin bölüşdürülməsi, ticarətin təşkili, maddi-texniki təchizatın həyata keçirilməsi və digər yeni oriyentasiyalı prinsiplər də əlavə olundu. Bundan başqa, sonralar kooperativlərin idarə edilməsində demokratiya prinsipləri də ön sıraya keçid aldı. Ümumiyyətlə, Roçdeyl kooperativlərində istifadə olunan prinsiplər mahiyyət etibarilə kooperativlərin yeni nəslinin formalaşmasına, yeni kooperativ hərəkatının yaranmasına gətirib çıxartdı ki, bunlar da əsasən istehlak kooperativləri formasında inkişaf tapdı [168]. Tarixin növbəti mərhələlərində bu prinsiplər kooperasiya sferasında normativ-hüquqi bazanın formalaşmasını sürətləndirdi, Avropada və eyni zamanda dünya ölkələrində yaradılan kooperativ təşkilatların fəaliyyətlərində də prioritet təşkil edərək müvafiq təsisatlandırmaların daha da vüsətlənməsinə səbəb oldu. 1852-ci ildə İngiltərədə ilk dəfə olaraq kooperasiya haqqında qanun qəbul edildi. Bunun nəticəsində ölkədə ilk xidmət kooperativləri fəaliyyət göstərməyə başladı, dünyada ilk mənzil kooperasiyasının əsası qoyuldu. Sonradan ölkənin Mançester şəhərində kooperativlərin təşkilati mərkəzi olan kooperativlər ittifaqı da yaradıldı. [109-110].

Fransada ilk kooperativ cəmiyyət 1848-ci ildə Leon şəhərində fəhlə birlikləri adı altında yaradılmışdı. Həmin kooperativ bilavasitə istehlak cəmiyyəti formasında çıxış edirdi. Fransada istehlakçıların kooperativ hərəkatı 1867-ci ildə qəbul edilmiş koo-

perasiya haqqında qanunla daha da gücləndi. 1885-ci ildə ölkədə kooperativlər ittifaqı da yaradıldı və sonralar həmin kooperativ ittifaq istehlak cəmiyyətlərinin milli federasiyası adlandırıldı. 1913-cü ildə isə adı çəkilən kooperativlər Fransada topdansatış tədarükçülərinin vahid cəmiyyəti formasında fəaliyyət göstərirdi. Bütün bunlara istinadən, Fransa da müəyyən dərəcədə istehlak kooperativlərinin ilkin vətəni olaraq qəbul edilməlidir [146].

İtaliyanı da kooperativlərin klassik yaranış məkanlarından hesab etmək olar. Burada 1864-cü ildə ilk istehlak kooperativləri fəaliyyət göstərməyə başlamışdı. Bununla belə, bu ölkədə kooperativlər yaranana qədər xüsusi ticarət müəssisələri ilə mübarizə aparmaq məqsədilə belə təsisatlanmaya yaxın olan qarşılıqlı yardım cəmiyyətləri də mövcud olmuşdur. Spesifikliyi ilə fərqlənən İtaliya kooperativlərinə müəyyən məxsusi cəhətlər də xasdır. Belə ki, həmin dövrlərdə fəaliyyət göstərən ölkə kooperativlərində bu və ya digər məhsullar orta bazar qiymətindən aşağı qiymətə kreditlə reallaşdırılırdı. Sonralar ölkədə kooperativ təsisatlandırmalar daha da genişləndirildi və 1886-cı ildə İtaliyada milli kooperativ liqası təşkil edildi. Həmin liqa əvvəllər topdansatış tədarük cəmiyyətləri kimi fəaliyyət göstərirdi [110, 187-12].

Almaniyada kooperativlərin yaradılması ilk növbədə un, kartof və digər ərzaq məhsullarının əldə edilməsi və tədarükü istiqamətində həyata keçirilən tədbirlərlə müşayiət olunmuşdu. İlk formal kooperativ kimi 1854-cü ildə Leypsiq şəhərində fəhlə və mədən sənayeçilərinin təsis etdiyi istehlak cəmiyyətlərini göstərmək olar. 1859-cu ildə ölkədə mədən və təsərrüfat cəmiyyətlərinin ittifaqı formalaşdırıldı. İttifaqa ilk növbədə istehlak cəmiyyətləri daxil edildi. Uzun illər keçdikdən sonra həmin istehlak cəmiyyətlərinin bazası əsasında topdantədarükçülər cəmiyyəti yaradıldı. 1869-cu ildə isə ölkədə ilk kredit kooperativləri fəaliyyət göstərməyə başladı. Bundan sonra isə, maddi-texniki təchizat, satış kooperativləri və digər kooperativ formalar genişlənərək inkişaf etdi [109-110].

XIX əsrin ortalarında Avropanın digər bir ölkəsi Belçikada da istehlak kooperativlərinin təşıəkkül tapmışdı. Artıq həmən əsrin 80-ci illərində ölkədə bu hərəkat daha geniş tətbiqini tapdı. Bu illərdə Gent şəhərində kooperativ hərəkatının ölkə üçün spesifik olan istiqaməti formalaşdırıldı ki, bu da Gent şəhərinin adı ilə bağlı olaraq Gent istiqaməti kimi xarakterizə edildi. Belə ki, Belçikada toxuculuq sənayesinin mərkəzi kimi fəaliyyət göstərən Gent şəhərində irəli istehlak cəmiyyəti təşkil edildi ki, həmin təşkilatın bazasında 1900-cü ildə Belçikada kooperativlər ittifaqı və sonralar isə topdansatış tədarükçülər cəmiyyəti formalaşdırıldı [110, 187-12].

Ümumiyyətlə götürdükdə, XIX əsrin ortalarından etibarən istehlak kooperativləri bütün Avropa ölkələrinin əksəriyyətində geniş şəkildə yaradılmışdı. Bununla belə, kooperasiya ilə bağlı əldə edilən çoxsaylı materialların təhlilinə əsasən qeyd olunmalıdır ki, mərkəzi Avropanın digər ölkələrində də kooperativ sistemlər təşəkkül tapmış və inkişaf etmişdir. Lakin bir sıra ölkələrdə, xüsusən də Macarıstanda, Çexiyada və Slovakiyada müvafiq kəndli təsərrüfatlarının yayılması təcrübəsi o qədər də uzun müddətli olmamış və burada kooperativ münasibətlərin inkişafı nisbi məhdud xarakter daşımışdır. Rəqabət qabiliyyətli kəndli təsərrüfatlarının, o cümlədən istehlak kooperativlərinin formalaşması Bolqarıstan və Rumıniyada da kifayət qədər çətinliklərlə üzləşmişdir ki, bu da həmin təsisatların inkişafında məhdudiyyətlərə səbəb olmuşdur [103, 126].

XIX əsrin ortalarında Avropa ilə yanaşı digər ölkələrdə də kooperativ hərəkatı vüsət tapmışdı. ABŞ-da ilk istehlak cəmiyyətləri XIX əsrin 40-cı illərinin sonlarında meydana gəlmişdi. Bu zaman kooperativlər əsas etibarilə tədarükçü klublar adı altında formalaşmağa başlamışlar. Həmin dövrdə ABŞ-da ölkə kooperasiyasının inkişafının başlıca mərkəzi kimi kooperativ liqası fəaliyyət göstərirdi [109].

Kooperativlər Çində də özünəməxsus xüsusiyyətlərə malik olmaqla inkişaf etmişlər. Belə ki, Çinin əksər şəhərlərində

və kəndlərində kənd təsərrüfatı və sənaye müəssisələrinin bilavasitə əmtəə iqtisadiyyatının inkişaf qanunauyğunluqlarına tabe etdirilməsi baş vermişdir. Başqa sözlə, Çinin şəhər və kəndlərində daha çox əmtəə iqtisadiyyatının nəticələri özünü kəskin şəkildə göstərmişdir. Bu isə onunla bağlı olmuşdur ki, Çin iqtisadiyyatında bazarın tələblərinə uyğun məhsul istehsalı daha çox geniş yayılmışdır. Nəticə etibarilə belə hal nəinki daxili bazara, eləcə də xarici bazarın tələbatının ödənilməsinə xidmət etmişdir. Çin təcrübəsi göstərir ki, bazar mexanizmi əhalinin tələbatının ödənilməsi baxımından kifayət qədər təkmil və səmərəli xarakter daşımışdır. Ölkə iqtisadiyyatında xüsusilə ərazi və sahə xüsusiyyətləri özünəməxsus səciyyə daşıyır. Belə ki, şəhər iqtisadiyyatında daha çox dövlət müəssisələri hakim mövqe tutur. Kənd təsərrüfatında isə bazarın tələbatına uyğun olaraq özəl sektor daha sürətlə inkişaf etmişdir. Ümumilikdə götürdükdə, Çində sənaye ilə müqayisədə kənd təsərrüfatı daha çox bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılmışdır. Daha doğrusu, Çinin şəhərlərində üstün olaraq dövlət müəssisələrinin fəaliyyət göstərdiyini görmək olar. Çinin kənd təsərrüfatında bazar münasibətlərinin üstünlük təşkil etməsinin nəticəsidir ki, mahiyyət etibarilə kənd təsərrüfatı əmtəə istehsalçıları tam iqtisadi müstəqillik əldə etmiş və istehsal etdiyi məhsulları sərbəst şəkildə reallaşdırırlar.

Müasir şəraitdə Çin iqtisadiyyatında kooperativ prinsiplərə əsaslanan daha çox qarışıq iqtisadiyyat formalaşmağa başlamışdır. Qarışıq iqtisadiyyat strategiyası özünü daha çox ərzaq kompleksində göstərir. Çin aqrar ərzaq kompleksi daha çox kooperativ prinsiplərə əsaslanan qarışıq iqtisadiyyat formasında inkişaf edir və nəticə etibarilə daxili bazarın tələbatının ödənilməsində yerli istehsalın xüsusi çəkisi yüksəkdir. Bu baxımdan qeyd etmək lazımdır ki, Çində ölkənin ərzaq təhlükəsizliyi xüsusi mənbələr hesabına ödənilir. Ümumiyyətlə, Çinin kənd təsərrüfatının təşkilati hüququ baxımından yanaşdıqda kəndlilərin öz vəsaitləri hesabına yaratdıqları kooperativ bir-

liklər daha çox üstünlük təşkil edir ki, kooperativ birliklər də bütövlükdə daxili bazarın tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır [58, 110].

Kooperativ təsisatlandırmaların təşəkkülü və inkişafı sferasında Rusiyanın da xüsusi yeri vardır. Vurğulandığı kimi, bu ölkə həm də kooperasiya sistemində nəzəri və elmi ümümiləşdirmələrin önundə addımlamış və indi də özünün bu sahədəki elmi-empirik bazası ilə irəliləməkdədir. Tarixi məlumatlar göstərir ki, burada XIX əsrdə öncə əmək artelləri kimi yaranan istehsal kooperativləri Çar Rusiyasının iqtisadi həyatında əhəmiyyətli rol oynamışdır. Sonradan bu sferada mühüm inkişaf meyilləri yaranmış və bolşevik inqilabları epoxasında kooperasiya daha çevik bir iqtisadi mexanizmə çevrilmişdir. Bu ölkədə Azərbaycanın da daxil olduğu SSRİ dövlətinin təşəkkülü vaxtında kooperativ hərəkatı yeni oyanış mərhələsinə keçid etmişdir. Ölkədə həyata keçirilən «Yeni İqtisadi Siyasət» strategiyası aqrar, ticari, mənzil və sair bu kimi kooperativ təsisatların inkişafına təkan vermişdir. Bunların içərisində ötən əsrin 60-cı illərinə qədər istehsal təyinatlı mədən kooperativlərini də misal göstərmək olar. Bu məkanda kooperativ təsisatlar istehsal təyinatlığı kontekstində kənd təsərrufatı və ya balıqçılıq arteli olan kolxoz (*rus: коллективное хозяство - kollektiv təsərrüfatı*) və sırf kooperasiya oriyentasiyalı təsərrufatlar - koopxozlara (*rus: кооперативное хозяйство - kooperativ təsərrüfatı*) ayrılmaqla fəaliyyət göstərmişlər. Kolxozlar kənd təsəruffatı və ya balıqçılıq məhsulunun istehsalı, emalı, satışı və qanunvericiliklə gadağan olunmamış insanların digər birgə fəaliyyətinin könüllülük əsasında birləşməsini ehtiva etmişdirsə, koopxozların təsisçiləri və uzvləri yalnız kəndli və ya şəxsi yardımçı təsəruffatları əhatə edən vətəndaşlar birliyinə əsaslanmışdır. Kooperasiyanın bu təssərrüfatçılıq formaları SSRİ-nin süqutuna baxmayaraq, bir sıra MDB dövlətlərində hələ də qalmaqdadır. Azərbaycanda isə ayrıca qanunvericilik əsasları ilə tən-

zimlənməyən yeganə kolxoz təsisatlı qurum hazırda İsmayıllı rayonunda mövcuddur [11, 24, 80, 81, 99].

Sovetlər İttifaqında kooperativ hərəkat qeyd olunduğu kimi, məşhur yenidənqurma mərhələsində növbəti inkişaf mərhələsinə keçmişdir. Bir sıra çevik iqtisadi fəal insanlar təşəbbüslərini genişləndirərək, hətta mədən kooperasiyasının belə dirçəldilməsinə nail olmuşlar. Bütün bu hadisələrin normativ-hüquqi reqlamentasiyasını 1988-ci ildə qəbul edilmiş «Kooperasiya qanunu» təmin etmişdi. Bu fəaliyyət strukturunun genişlənməsi qeyri-dövlət sektorunun yaranışına istiqamətlənirdi. Sənaye, tikinti, ictimai iaşə, məişət-kommunal sferasında və iqtisadiyyatın digər sektorlarında təsisatlanan bu kooperativlər əslində mahiyyətcə şəxsi sahibkarlıq xarakteri daşıyaraq bazar iqtisadiyyatına keçidin indikatorlarını əks etdirirdilər. Belə uğurlu meyil tezliklə bir sıra kooperatorların sürətlə varlanmasına səbəb oldu. Eyni istehsal funksiyalarını yerinə yetirərək bir sıra istiqamətlərdə dövlət sektorundan da çox üstünlük qazanan bu fəaliyyət əhalinin müəyyən hissəsi tərəfindən neqativ qarşılanmaqda idi. Neqativliyin mühüm amili rolunu həmin kooperativlərin kooperasiya prinsiplərini dolğun əks etdirməməsi ifadə edirdi və bu təzahür şəxsi biznesin ictimai qavranılmasına məhdudiyyətlər gətirirdi. Buna baxmayaraq, sayı 300 mini aşaraq yeni dövriyyə yığan bu kooperativ hərəkatı böyük bir məkanda kooperasiyanın inkişafının yeni təşəkkül məqamı kimi qiymətləndirilməlidir.

XIX əsrin sonlarında kooperativ sistemin mükəmmələşməsi prosesi nəticəsində kooperasiya daha da fundamentallaşaraq, özünün regional və beynəlxalq təsisatlarını yaratmağa qədəm qoydu. 1895-ci ildə isə dünyanın müxtəlif ölkələrinin kooperativ birlikləri Beynəlxalq Kooperativ Alyansı adlanan qlobal təsisatda birləşmişlər. Bu alyans artıq yaşadığımız dövrdə 210 ölkənin 750 milyondan çox kooperatorlarının simasinda 200 beynəlxalq və milli kooperativ təşkilatlarını əhatə edir [102].

Müasir mərhələdə kooperativ hərəkat daha təkmil məzmun daşıyaraq yeni forma və sistemdə inkişaf tapır. İndi dünyada kooperativlərin özünəməxsus növ müxtəlifliklərindən biri kimi icarə kooperativləri təşəkkül taparaq inkişaf edir. Hal-hazırda icarə kooperativləri daha çox İtaliyada və Rumıniyada geniş yayılmışdır. Onların inkişaf etdirilməsi mahiyyət etibarilə kəndlilərin təşəbbüskarlıq fəaliyyətlərinin aktivləşdirilməsini və eyni zamanda onların səylərinin birləşdirilməsi hesabına məhsul istehsalının artırılmasını özündə əks etdirir. Böyük Britaniyada isə ölkənin ərzaq bazarında önəmli rol oynayan kəndli kooperativləri daha sürətlə inkişaf edir. Kooperativ sektor İspaniyada, Braziliyada və Çində daha geniş şəkildə inkişaf etməkdədir. O, müasir məqamda Qərbi Avropa ölkələrində üstünlük qazanmasa da, özünün ənənəvi ampluasını təkmilləşdirir, təsir imkanlarını genişləndirir [58, 88]. Elmi-texniki tərəqqini, innovasiyaları əks etdirən kooperasiya təsisatları və eyniliklə biznes inkubatorları formalı kooperativlər də bu sferada yeni inkişaf mərhələsini formalaşdırırlar. Hazırda İspaniyada Mandraqon Qrupu adı altında 172 istehlak, istehsal və digər təyinatlı kooperativi birləşdirən «Mandraqon qrupu» fəaliyyət göstərir ki, həmin kooperativin də ümumi fəaliyyət dövriyyəsi 2 mln. ABŞ dollarına yaxındır. «Mandraqon qrupu» əsas etibarilə daxili bazara məişət texnikası, kompüterlər, sənaye avadanlıqları və digər məmulatlar çıxarır ki, bu da nəticə etibarilə İspaniyanın iqtisadiyyatında önəmli rol oynayır [102, 187-9].

Müasir zamanda kooperativ sistemlə bağlı yaşanan çətinliklər də az deyildir. Belə ki, özəl sektorla müqayisədə hal-hazırda kollektiv müəssisələr və kooperativlər bütövlükdə inkişaf etmiş ölkələrin iqtisadiyyatında o qədər də yüksək xüsusi çəki əldə edə bilməmişdir. Maddi və maliyyə resurslarının çatışmazlığı bir sıra hallarda kooperativlərin fondsuz fəaliyyət göstərməsinə gətirib çıxarır. Həmin kooperativlər bir qayda olaraq vasitəçilik fəaliyyətlərini həyata keçirirlər. Müasir

şəraitdə kooperativlər kreditorların maraqlarının təmin edilməsi ilə bağlı zəruri sığorta və ehtiyat fondları formalaşdırır. Sığorta və ehtiyat fondları nəticə etibarilə kooperativlərin üzləşdikləri arzuolunmaz problemlərin, yəni kreditlərin qaytarılması ilə bağlı yaranan problemlərin qarşısının alınması məqsədilə istifadə edilir.

Bütün bunlardan çıxış edərək qarşılıqlı yardım, demokratiya, ümumi yığıncaqda qərar qəbul etmədə bir insan bir səs təminatlı - bərabərlik, sosial məsuliyyət və digər bu kimi prinsip və dəyərləri özündə birləşdirən kooperativ hərəkatı keçdiyi tarixi inkişaf yolunda daim öz məramına sələf çıxaraq labüd struktur təbəddülatlarına uğrayır və özünün sistem və formasını təkmilləşdirir.

## 1.4. Kooperasiyanın qloballaşma aspektləri

Ticarətin və kapital axınının ötən əsrin 80-ci illərində liberallaşması iqtisadi münasibətlər kontekstində köklü bazar islahatlarını qaynaqlandırmış, əmtəə və xidmətlərin beynəlmiləlləşdirməsinin yeni dalğasını yaradaraq şirkətlərin təmərküzləşməsi prosesini dərinləşdirmişdir. İqtisadi sferada baş verən bu təbəddülatlar sivilizasiyanın ən dərin guşələrinə nüfuz edərək yeni ümum geosiyasi və geoiqtisadi gerçəklikləri inteqrasiya dövriyyəsinə çıxartmışdır. Dünyanın müxtəlif guşələrində yaşamaqlarına baxmayaraq insanlar müasir mərhələdə qarşılıqlı asılılıq və daha sıx təmaslar sistemində hərəkət edərək, qloballaşma adlanan yeni məzmunlu planetar orbitə qoşulmuşlar. Dünya təsərrüfatının əmtəə və xidmətlərin, kapitalın, işçi qüvvəsinin, daha çox isə maliyyə, informasiya və biliyin təcəssümündə vahid bazara çevrilməsi prosesi olaraq qloballaşma müsbət və mənfi cəhətləri ilə sürətlə həyatımıza daxil olmaqdadır. Qloballaşma kommersiya və bütün insani fəaliyyəti tənzimlənməyə imkanlar yaradan vahid maliyyə-informasiyon məkanı formalaşdırır. Yaşadığımız sivilizasiya mərhələnin ən

mühüm inteqrasiya amilinə çevrilmiş informasiya resursları isə qloballaşma prosesində dominantlığı ələ almışdır [26].

Qloballaşma dünya iqtisadiyyatına və istənilən ölkənin milli təsərrüfatına əhəmiyyətli təsir göstərir. Hazırda bu proses ümumdünya məhsulunun 60%-ni verərək 70-80% həcmində xarici ticarət və beynəlxalq maliyyəni əhatə edir. Beynəlmiləlləşmənin yüksək fazası olmaqla qloballaşma həm də neqativ təzahürlüyü ilə ictimai şüurda, iqtisadi və mədəniyyət təfəkküründə dəyişikliklərə rəvac verir, cəmiyyət adaptasiyası üçün çətinliklər, yeni sosial-iqtisadi problemlər yaradır. Dünya bazarının qloballaşması daha çox iqtisadi inkişaf etmiş dövlətlərin mənafelərinə xidmət edərək əks qütbdə olan zəif təsərrüfatlı ölkələrin yüksək tərəqqi əldə etməsinə mane olur. İndi müasir dünyanın sosial-iqtisadi həyatı yalnız qlobal axın sürətində deyil, həm də regional və subregional inteqrasiyanın artım tendensiyasında təyinat tapır. Qloballaşma  və regionlaşma hadisələri çox uzaq tarixi köklərə malik olmasalar da onların son onilliklərdə beynəlxalq arenada təzahür yetkinliyi yeni sosial və institusional keyfiyyətlər, çoxsaylı iqtisadi elementlər yaratmışdır [135, 136].

Qloballaşma bütün hərəkət aspektlərində özünün spesifik cəhətlərini xarakterizə edən amillər və tələblərlə çıxış edir. Müasir reallıq belədir ki, qloballaşma tələbləri ilə dəyişiklikləri labüd edən təmaslar miqyaslı olaraq istehsal və xidmət sferalarında baş verir. Ona görə də, rəqabət üstünlüyü əldə etmək missiyasını qarşıya qoymuş bir sıra istehsalçılar və xidmətləri reallaşdıranlar qloballaşma tələblərindən irəli gələn müvafiq infrastrurkur təkmilliyinə daimi qayğı göstərir və onun davamlılığının və mükəmməliyini möhkəmləndirilməsini stimullaşdırırlar. Uzunmüddətli aparılan elmi araşdırmalar belə təyinat yaradır ki, qloballaşmanın əsas amillərini regionlar, ölkələr və iqtisadiyyatın ayrı-ayrı sektorları arasında əmtəə və xidmətlərin, maliyyə kapitalının, iqtisadi funksiyaların yerinə yetirilməsi ilə bağlı insanların və intellektual məhsulun hərə-

kəti səciyyələndirir. Onun başlıca tələbləri sırasında isə ümumi olaraq daha çox qlobal yoxsulluğun və bərabərsizliyin azalmasına təminat verən dünya iqtisadi artımını dayanıqlı etmək manifesti dayanır. Qlobal artım əsasən industrial inkişaf etmiş ölkələr hesabına ərsəyə yetir. Bu vektorda özünün super valyutası, qlobal maliyyə təsisatları, hərbi və diplomatik gücü ilə üstün fərqlənən ABŞ ön cərgədə mövqe tutur. Bununla belə, dünya iqtisadi artımında Qərbi Avropa və Cənub-Şərqi Asiya regionunun da qlobal təsir imkanları nəzərə alınandır. Lakin bu dövlətlərin əhalisinin özünün də qloballaşmaya münasibətindən çox perspektiv məqamlar asılıdır. Ona görə də, həmin ölkələrin hökumətləri öz əhalisini qloballaşmanın neqativ təsirlərindən qorumaq məqsədi ilə daha biçimli iqtisadi siyasət yeritməyə borcludurlar. Üçüncü ölkələr üçün biçimli iqtisadi siyasətin əsas komponentləri isə Beynəlxalq Valyuta Fondu və Dünya Bankının kreditvermə şərtlərindən irəli gələn «Liberallaşma», «Stabilləşmə» və «Özəlləşdirmə» blokundan, 10 maddədə öz əksini tapan «Vaşinqton konsensusu»ndan qaynaqlanır. Göründüyü kimi, qloballaşma əsasən ABŞ iqtisadiyyatının təsirinin nəticəsi kimi meydana çıxır.

Qloballaşmanın digər tələbini ticarət və yardımlar ehtiva edir. Bu çağırış kənd təsərrüfatı məhsulu ticarətinin liberallaşdırılması və kütləvi subsidiyalar praktikasına son qoyulması ilə bağlıdır. Məhz ticarətin liberallaşması və ünvansız subsidiya strategiyası inkişaf etməkdə olan ölkələrin ixracat potensialını məhdudlaşdırır, infrastruktur təkmilliyinə, onun mobilləşməsinə təsir göstərir.

Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. O, milli mədəniyyət və ənənələrin öncüllüyünü dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti

qərbləşdirir. Qloballaşma dövlətin müstəqil inkişaf imkanlarının mahiyyətinə varmadan, səmərəsizliyi amansızcasına cəzalandırır və inkişaf etmiş ölkələri isə daha da həvəsləndirir.

Ölkə və birliklərin qarşılıqlı rabitəsi və dərinləşən inteqrasiyası yeni sosial, geosiyasi və geostrateji əsasda reallaşmaqdadır. Sosial-ekoloji faktorlar ön sırada olan geosiyasi gerçəklikləri sıxışdıraraq onu ikinci plana yuvarlatmış, bununla da dünya prioritetlərini təbəddülatlara uğratmışlar. Müasir qloballaşma prosesi bütün planeti əhatə edən yeni mümkün ümumi siyasi-iqtisadi, sosial-ekoloji sistem axtarışındadır. Yeni inkişaf müstəvisinə qədəm qoymuş insan təkamülünün problemlərini yalnız qlobal kommunikasiya layihələrlə təmin etmək mümkün olmayacaqdır. Biz indi təbiət və cəmiyyətə fərqli yanaşmanı əxzetmədə, biosferin şüur dünyası olan noosferaya keçid epoxasındayıq. Bu epoxal keçid sosium paradiqmasının yeni konstruksiyasını şərtləndirir. Belə ki, XXI əsr insanın tərəqqi strategiyasının əsas meyarını bəşəri istehlak tələbinin miqdarı müqabilində proporsional, uyğun kəmiyyətli istehsalın yaradılmasına, elmi-texnoloji məhsulların hamıya paylaşdırılmasına nailolma ifadə etmədədir. Bu yeni mahiyyətin fundamental reallaşması isə əsaslı dərəcədə qlobal axın və regional dirçəliş konsensusu ilə mümkün olacaqdır [26].

Qloballaşma planet əhalisinin inteqrasiya strategiyasının qanunauyğun, qaçılmaz, labüd, obyektiv bir prosesi olsa da, o, bu gün sərbəst məqsədyönlü inkişaf vektoruna malik deyildir. Kortəbii, xaotik dinamikliyi ilə fərqlənən qloballaşmanın mərkəzləşmiş qaydada tənzimlənməsi hələ ki, dünya ictimaiyyəti tərəfindən tələb olunmamışdır. Lakin bu nisbi xaotikliyi konsensusa gətirən lokal və regional indikatorlar mövcuddur. Məhz müvafiq lokal və regional indikatorlar bu planetar prosesin hazırkı məqamda qapalı tənzimləyiciləri funksiyasını yerinə yetirərək qlokalizasiya prosesini stimullaşdırır, qlobal inteqrasiyaya nizamlı ahəng və düzüm gətirirlər.

Qloballaşma dayanıqlı iqtisadi artımda və dünya iqtisadiyyatının inkişafında yeni perspektivlər açır. Bununla belə, qloballaşma ilə bağlı sürətlə dəyişən proseslər və adaptasiyalar yoxsulluğun artımı, işsizlik və sosial dezinteqrasiya ilə müşayiət olunur. Elə bu baxımdan da, hazırkı məqamda dünya siyasətinin mühüm hissəsi də daha çox işsizlik problemi ilə üzləşməli olur. Beynəlxalq Əmək Təşkilatının hesabatları göstərir ki, müasir dünyada 160 milyon işsiz, 360 milyon qismən məşğul və 1200 milyon gündəlik qazancı gundəlik 1$-a malik əhali təbəqəsi mövcuddur. Varlılar və kasıbların həyat tərzləri arasında olan kəskin fərq isə, günü-gündən dərinləşməkdə davam edir.

Hazırkı iqtisadi məqamda yeni iş yerlərinin yaradılması, məşğulluğun təmin edilməsi istiqamətində kooperasiyanın və onun mühüm xarakterik strukturları olan kooperativlərin rolu və əhəmiyyəti artmaqdadır. Təcrübə göstərir ki, kooperativlər qarşılıqlı yardımla insanları birgə səylər müqabilində sosial müdafiəsini daha dolğun ödəyir və məşğulluğun təminatının üstün əhəmiyyəti ilə fərqlənirlər. Realliq belədir ki, işini düzgün qurmuş kooperativlər qloballaşmanın mənfi təsirindən digər müəssisələrə nisbətdə daha az zərərlə qurtulurlar. Çünki payçılıq kapitalına əsaslanan kooperativlər fəaliyyətlərində spekulyasiya xarakterli heç bir işə cəlb olunmadan daha konyektur biçimli strategiya və taktika ilə hərəkət edirlər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bütün kooperativləri birləşdirən ümumi əlamət, onların bir-birləri ilə əməkdaşlıq etməsidir. Bu fəaliyyət və əməkdaşlıq isə stabil iş yerləri, dolğun sosial müdafiə və börhanlara qarşı birgə səyləri birləşdirir [36]. Bununla belə, qloballaşma şəraitində yeni inkişaf meyillərini təmin etmək üçün müasir dövrdə kooperativlər qarşısında bir sıra vəzifələr öz həllini gözləyir. Bu vəzifələri isə aşağıdakı kimi səciyyələndirmək olar:

- kooperasiyanın institusional bazasının təkmilləşdirilməsi və onun fəaliyyət səmərəliliyini stimullaşdıran əlverişli iqtisadi mühitin formalaşdırılması;

- kooperasiya prinsiplərinin möhkəmləndirilməsi, müvafiq sahədə təbliğat-təşviqat işlərinin gücləndirilməsi, fəaliyyətlərin yeni təsərrüfatçılıq metodlari ilə zənginləşdirilməsi;
- səmərəli payçı artımına, genişlənən kooperasiya inteqrasiyasına nail olunması və qloballaşma prosesindən daha səmərəli faydalanma;
- ərazi tələbli, rəqabətqabiliyyəti yüksək olan mal və xidmətlərə istiqamətlənməklə özünün xüsusi bazar əsaslarını yaratmaq;
- məşğulluğun təminatı istiqamətində peşəkarlıq funksiyalarını birləşdirən və praktiki vərdişlərə malik çevik işçi kollektivləri formalaşdırmaq.

Bütün bunlarla yanaşı, qloballaşmanın mənfi təsirlərini təcrid etməkdə kooperativlər öz işlərində sosail xidmətlər, təhsil, idman-sağlamlıq, ətraf mühitin mühafizəsi istaiqamətində məşğulluğ təminatını gücləndirməlidirlər.

Qloballaşma kooperativlər qarşısında yeni imkanlar yaradır. Bu imkanlar sırasında birbaşa qloballaşma ilə əlaqəli kooperativlərin informasiya-kommunikasiya sistemlərindən istifadəsi ilə bağlı özəllikləridir. Belə ki, kooperativlər internetdən öz qarşılıqlı əlaqələrinin yaradılması və genişləndirilməsində səmərəli istifadə edirlər. İnternet həm də kooperativlərə marketoloji tədqiqatların aparılmasında yardımçı olur. Bu informasiya resursu vasitəsi ilə kooperativlər öz məhsullarının daha əlverişlı bazarlarda yerləşdirilməsini təmin edirlər. Digər tərəfdən, tərcümə işi ilə məşğul olan kooperativlər müvafiq «virtual kooperativ» şəbəkəsi yaradaraq xidmətlərini genişləndirir və bu sahədə müvafiq standartlaşdırmaları həyata keçirirlər. Nəhəyət, bir çox internet provayderləri əsl həqiqətdə kooperativ təsisatlandırma əsasında xidmətlərini reallaşdırırlar [17, 26, 36, 146].

Qloballaşma şəraitində kooperativlər artıq bir sıra istiqamətlərdə əhəmiyyətləri və gərəkliliklərini sınamışlar. Bu,

daha çox sosial və kommunal xidmətlər sahəsini əhatə edir. Belə ki, bu istiqamətlərdə dövlət xidmət sferasını öz üzərinə götürməkdən çəkinir və onu kicik mobil qruplu kooperativlərə ötürür. Uşaqların saxlanılması və məktəbə hazırlığı, yaşlılara və ahıllara qayğı və eləcə də tibbi və kommunal xidmətlərin göstərilməsi çox zaman bu fəal qrupların fəaliyyət sferasına daxil olur. Çox zaman belə kooperativlər varlı vətandaşların müvafiq sosial xidmətlər şəbəkəsinə daxil olmasında yeganə kanal rolunu oynayır.

Dərinləşən qloballaşma müasir məqamda yeni kooperativ təsisatlandırmaların missiyasına əhalinin riskli qruplarına sosial xidmətlər göstərmək funksiyasını da qatır. Bu təyinatlılıq bir sıra industrial cəmiyyətlərdə sosial müdafiənin ictimai sisteminin böhranı nəticəsində baş vermişdir. Belə təsisatların parlaq nümunəsi olaraq italyan sosial kooperativləri misal göstərmək olar. Bu kooperativlərdə əlillər, qocalar, evsizlər və narkomanlar kimi əhali qruplarına sosial xidmət göstərilir. Hazırda İtaliyada belə təyinatlı 2000-dən çox sosial kooperativ mövcuddur ki, onların da payı dövlət sektorunda göstərilən sosial xidmətlərin 13%-i həcmindədirr. Bundan başqa, həmin kooperativlər əhalinin marginal qrupları üzrə 60 mindən çox is yerinin açılışını təmin etmişlər [109]. Bununla qlobal axın bir sıra yeni sosial oriyentasiyalı kooperativ təsisatlandırmaları da meydana çıxarmışdır. Bu kooperativlər də ideal alternativ mexanizmlər yaratmaqla sosial xidmətin genişləndirilməsi istiqamətində yeni fəaliyyət məkanları fəth edirlər.

# II FƏSİL.

# KOOPERATİV FƏALİYYƏTİN PRİNSİPLƏRİ, FORMALARI VƏ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

## 2.1. Kooperativ fəaliyyətin prinsipləri

Kooperativ fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub, iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır. Əslində isə latın mənşəli *cooperatio* - əməkdaşlıq sözündən qaynaqlanaraq kooperativ sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün könüllülük və payçılıq əsasında ayrı-ayrı şəxslərin birliyi ilə yaradılan müəssisə, təşkilat və təsisatdır. İqtisadçı alimlərin əsərlərində kooperasiya daha geniş mənada - müəyyən işin görülməsi üçün iki və ya daha artıq insanın texniki-iqtisadi əməkdaşlığı kimi təqdim olunur. Müxtəlif təyinatlı kooperativlər ümumilikdə kooperasiyanı səciyyələndirir [36, 81].

Beynəlxalq Kooperativlər Alyansının (*BKA*) Nizamnaməsinin 5-ci maddəsində kooperativə aşağıdakı kimi tərif verilmişdir: «Şəxslərin və ya cəmiyyətlərin hər hansı assosiasiyası qarşılıqlı yardıma əsaslanan hər hansı təsərrüfat fəaliyyətinin köməyilə öz üzvlərinin iqtisadi və sosial vəziyyətini yaxşılaşdırmaq məqsədini qarşıya qoymuş və 1966-cı ildə BKA-nın XXIII Konqresi tərəfindən yenidən baxılmış kooperativ prinsiplərinə müvafiq olduqda, bu assosiasiya kooperativ hesab ediləcəkdir» [118].

Kooperasiya və assosiasiya anlayışlarının oxşar cəhətləri çox olsa da, onları eyniləşdirmək doğru olmazdı. Belə ki, assosiasiyaların heç də hamısı kooperasiya deyil. Ümumi məqsədlərə nail olmaq istəyən şəxslərin könüllülük əsasında demokratik qaydada özünü idarə edən birliklərin hamısına assosiasiya demək olmaz. Bəzi müəlliflərə görə, kooperativin tərifinə onun öz üzvlərinin maddi və ya mənəvi rifahına kömək

etməsi şərti daxil edilməlidir. Daha əhatəli təriflər də vardır. Belə ki, M.İ.Tuqan-Baranovskiyə görə, «... kooperativ könüllü şəkildə birləşmiş bir neçə şəxsin elə təsərrüfat müəssisəsidir ki, onun məqsədi - sərf edilmiş kapitalın müqabilində daha çox mənfəət əldə etmək deyil, təsərrüfatın idarə edilməsinə ümumi rəhbərlik sayəsində onun üzvlərinə hər hansı başqa şəkildə xeyir verilməsi təmin edilsin» [156]. K.A.Pajitnovun yanaşması bir qədər fərqlidir. «Kooperativ - bir neçə şəxsin ümumi səylər hesabına kapital tərəfindən istismara qarşı mübarizə aparmaq və təsərrüfat nemətlərinin istehsalı, mübadiləsi və bölgüsü prosesində öz üzvlərinin vəziyyətini yaxşılaşdırmaq, yəni həm istehsalçıların, həm də istehlakçıların və ya işçi qüvvəsini satanların könüllü birləşməsidir. Bu və digər yanaşmaları ümumiləşdirərək demək olar ki, kooperativ - əmtəə istehsalını və mübadiləsini həyata keçirən struktur kimi çıxış edir. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır, kooperativ müəssisə ilə eyniləşdirilməməlidir. Belə ki, müəssisə dedikdə, fəaliyyəti mənfəət əldə edilməsinə yönəlmiş olan, öz riski və əmlak məsuliyyəti hesabına həyata keçirilən hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfatçılıq subyektidir. [130].

Kooperativ fəaliyyət məxsusi struktur və məzmunu ilə yanaşı, özünün xarakterik prinsiplərini də əks etdirir. Bu prinsiplər digər təsisatlardan fərqli və eyni olan cəhətləri ilə səciyyəvidir. Bu təsisatın başlıca prinsipini üzvlərin qarşılıqlı məsuliyyəti, resursların paritet bölgüsü əsasında birgə fəaliyyətin həyata keçirilməsi ilə yeni rifahlar yaradaraq iqtisadi müstəqilliyin qorunub saxlanması təşkil edir. Bu tip fəaliyyətin motivi bir qayda olaraq ona hesablanır ki, kooperativ üzvləri nəticə etibarilə rəqabət mühitində bərabər şəkildə iştirak edir, eyni zamanda həmin kooperativlərin bazarda vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər səmərəli xarakter daşıyır. Bu şəbəkədə digər bir mühüm prinsip olaraq özünüidarəetmə fəaliyyətinin həyata keçirilməsi ön sırada yer alır. Kooperativin təsisçisi daxili münasibətləri özü tənzimləyir və onların daxili

qanunvericilik aktlarını özləri müəyyənləşdirir və bütövlükdə kooperativ sektorun fəaliyyətinin kənar təsirlərdən müdafiəsinə yönəldilmiş fəaliyyətin motivlərini müəyyənləşdirir. Bütün kooperativlərdə payçılar kooperativin strukturunu sərbəst şəkildə müəyyənləşdirir və onun idarəetmə orqanlarının səlahiyyətlərini müəyyən edir. Təbii ki, kooperativin idarə edilməsində ümumi yığıncaq idarəetmə orqanı müşahidə şurası mühüm səlahiyyətlərə malikdir [81, 110, 130].

Burada bir cəhəti xüsusi olaraq vurğulamaq lazımdır ki, kooperativ üzvlərinin kooperativin idarə olunmasında iştirakı onun kooperativdə rolundan və qoyduğu paydan asılı olmayaraq bərabərhüquqlu şəkildə həyata keçirilir. Daha doğrusu, kooperativin idarə edilməsinin prinsipi aşağıdakı formulada təzahür edir:

**1 *iştirakçı* = 1 *səs***

Kooperativlərin fəaliyyətində digər mühüm prinsiplərdən biri də qarşılıqlı məsuliyyətin mühüm rol oynamasıdır. Qarşılıqlı məsuliyyət nəticə etibarilə təsərrüfat həyatının təşkilinin başlıca forması kimi etibarlığın yüksəldilməsində əhəmiyyətli rol oynayır. Kooperativin fəaliyyətində qarşılıqlı fəaliyyət prinsipi qeyri-məhdud xarakter daşıyır və kooperativin maddi-texniki bazasının möhkəmləndirilməsində önəmli rol oynayır. Qarşılıqlı məsuliyyət prinsipi kooperativ üzvlərinin hər birinin fərdi məsuliyyətini azaltmır. Bu prinsipdən çıxış edərək kooperasiya üzvləri maddi-texniki resurslarla təchizatda, eyni zamanda məhsulun satışı ilə bağlı yaranan problemlərdə fəal şəkildə iştirak edirlər və bir-birinə qarşılıqlı yardım göstərirlər. Kooperasiyanı bu aspektdən də təhlil etmiş A.V.Çayanov qeyd edir ki, kooperasiyanın əsasında üstün olaraq məhz qarşılıqlı yardım və qarşılıqlı səmərəlilik prinsipi dayanır [169].

Hal-hazırda dünya praktikasında məsuliyyətli pay ödənişləri həcmində müəyyənləşdirilən məhdud məsuliyyətli koope-

rativlər kifayət qədər geniş yayılmışdır. Məsuliyyətin hər hansı konkret növünün müəyyənləşdirilməsi təbii ki, kooperativ üzvlərinin könüllü iradəsi əsasında qəbul edilir. Kooperativ hərəkatın dünya praktikasında kooperativ üzlərinin əmlak məsuliyyəti işlənib hazırlanmışdır ki, bu da əsas etibarilə iki növdə fərqləndirilir. Bunlardan biri məhdud məsuliyyət hesab edilir. Məhdud məsuliyyət onunla bağlıdır ki, kooperativin üzvləri kooperativ qarşısında qoyduğu əmanətə görə məsuliyyət daşıyır. Məhdud məsuliyyətli kooperativlərin yaradılması ümumiyyətlə dünya praktikasında kifayət qədər geniş vüsət almışdır. Məsuliyyətin ikinci növü isə qeyri-məhdud məsuliyyətdir. Qeyri-məhdud məsuliyyət isə o deməkdir ki, kooperativin hər bir üzvü kooperativin bütövlükdə əmlakı ilə bağlı məsuliyyət daşıyır. İtaliyada daha çox qeyri-məhdud məsuliyyətli kooperativlər geniş yayılmışdır ki, onun üzvləri də kooperativlərin borcları ilə bağlı tam mənası ilə məsuliyyət daşıyırlar. Daha doğrusu, kooperativlər ləğv olunduğu, müflisləşdiyi, məcburi olaraq bu və ya digər problemlərlə üzləşdiyi halda kooperativin hər bir üzvü birbaşa məsuliyyət daşıyır. Məhdud məsuliyyətli kooperativlər isə keçmiş ittifaqda oktyabr inqilabına qədərki dövrdə və eləcə də yeni iqtisadi siyasət dövründə kifayət qədər geniş yayılmışdır. Həmin məhdud məsuliyyətli kooperativlərə kredit cəmiyyətlərini və sənaye kooperativlərini şamil etmək olar [81, 130].

Kooperativlərin fəaliyyətdə bərabərlik statusu da çox ciddi prinsiplərindən sayılır. Hər bir payçı ilə kooperativ arasında qarşılıqlı əlaqələr mövcuddur. Bir tərəfdən kooperativ təsisçisi ilə payçılar arasında münasibətlərdə şəffaflığın təmin edilməsində, digər tərəfdən isə istehlakçılarla məhsulun istifadəçiləri arasında münasibətlərdə əhəmiyyətli rola malikdir. Bu da son nəticədə kooperativ üzvlərinin və ümumilikdə kooperativlərin fəaliyyətinin ikili təbiətini özündə əks etdirir. Belə ki, kooperativ üzvləri və bütövlükdə kooperativlər iqtisadi münasibətlərin ən mühüm daşıyıcıları olmaqla, eyni zamanda bu və ya di-

gər sosial qrupun və birliyin təmsilçisi kimi çıxış edə bilər. Yuxarıda adı çəkilən hər iki tərəf bir-biri ilə qarşılıqlı asılılığa və qarşılıqlı əlaqəyə malikdirlər.

Kooperativ fəaliyyətin önəmli prinsiplərindən biri də könüllülüyün olmasıdır. Könüllülük prinsipi onunla şərtlənir ki, kooperativin hər bir üzvü istədiyi zamanda kooperativi tərk etmək və kooperativə daxil olmaq hüququna malikdir. Kooperativin hər bir üzvü kooperativin əmlakının artırılması baxımından pay qoymaq vəzifəsini özündə daşıyır. Üzvlərin qoyduqları paylara və yaxud əmlaklarına görə özünəməxsus hüquqlara malikdir ki, bu hüquqlara ilk növbədə gəlir əldə edilməsi və bu və ya digər fəaliyyətin həyata keçirilməsi ilə bağlı kvotalar hüququndan istifadə etmələri şamil edilir.

Kooperativ fəaliyyətdə açıqlıq və şəffaflıq da prinsipial mahiyyət daşıyır. Hər bir fiziki şəxs qanunvericilik aktlarına və kooperasiya nizamnaməsinə müvafiq olaraq kooperativ təşkilat təsis etmək imkanına malikdir. Təsisçi hüququnda cəmiyyətin müxtəlif sosial qruplarının nümayəndələri, o cümlədən fiziki və hüquqi şəxslər ola bilər. Onlar adətən lokal və regional oriyentasiyalı fəaliyyəti özündə əks etdirirlər. Bundan əlavə, kooperativlərin fəaliyyəti hər hansı coğrafi ərazi kəsiyi ilə məhdudlaşmır. Kooperativin istehlakçı qrupu kifayət qədər məhdud xarakter daşımır. Bu isə onunla bağlıdır ki, kooperativlər iqtisadiyyatda bu və ya digər tələbə stimullaşdığından nəticə etibarilə onlar azad rəqabət şəraitində fəaliyyət göstərirlər.

Kooperativin səmərəli fəaliyyət prinsiplərindən biri onun əmtəə təsərrüfatı kimi təşkil edilməsidir. Bu məqsədə nail olmaq üçün istehsalın ixtisaslaşması, təmərküzləşməsi və effektivliyi, zəruri infrastrukturun mövcud olub-olmaması nəzərə alınmaqla, kooperativdə istehsal prosesi və onun sosial strukturu təkmilləşdirilməlidir. Kənd təsərrüfatı müəssisələrinin kooperativlərə çevrilməsini artıq qərarlaşmış təsərrüfatlar bazasında həyata keçirmək məqsədəuyğundur. İstehsal koopera-

tivlərinin fəaliyyətinin səmərəsini artırmaq üçün onlar şaquli tipli kooperativlərə üzvi şəkildə daxil olmalı, yəni müxtəlif istehlak kooperativlərinin və onların ittifaqlarının təsisçiləri qismində çıxış etməlidir.

Araşdırmalar göstərir ki, bu və ya digər müəssisənin praktikada kooperativ kimi fəaliyyət göstərməsini şərtləndirən beynəlxalq meyarlar mövcuddur ki, onlara da aşağıdakıları şamil etmək mümkündür:

- kooperativ üzvlərinin pay kapitalına malik olması;
- kooperativ üzvlərinin götürülən bank faizlərini aşmamaq şərti ilə pay əldə etmələri;
- kooperativ üzvlərinin gəlirlərin bölüşdürülməsində pay qoyulması və ya əmək fəaliyyətinə görə iştirakı;
- kooperativin idarə edilməsində hər bir kooperativ üzvünün bərabərhüquqlu iştirakı;
- əsas fəaliyyət növlərinin həyata keçirilməsində muzdlu işçilərin cəlb edilməsinin istisnalıq təşkil etməsi.

Yuxarıda adı çəkilən meyarlar kooperativ sektoru səciyyələndirən ən mühüm arqumentlər sayılır. Bu meyarlar əsasında fəaliyyət göstərən müəssisəni konkret olaraq öz-özlüyündə kooperativ və yaxud da səhmdar cəmiyyətin müxtəlif forması kimi xarakterizə etmək olar. Lakin bu, o demək deyil ki, kooperativ institutla səhmdar cəmiyyət tamamilə eyni təsisatdır. Burada yetərli ayrılıqlar mövcuddur ki, bu fərqliliklər də bizim tədqiqat prosesində kifayət qədər əsaslandırılmışdır. Göstərmək lazımdır ki, kooperativ təsisatlandırmaların ilk çağlarında bu keçidi məhdudlaşdıran tənzimləyici tədbirlər görülmüşdür. Belə li, kooperativ təşkilatlarda kooperasiya münasibətlərinin əsas meyarının saxlanılması məqsədilə pul əmanətlərinin qoyulmasının həcmində müəyyən hədlər müəyyənləşdirildi. Bu isə onunla bağlıdır ki, əslində kooperativ müəssisələrində başlıca kooperativ prinsip kimi 1 şəxs - 1 səs prinsipi tətbiq edilir və bu idarəetmə qərarlarının qəbul edilməsində də önəmli rol oynayır. Pul vəsaitlərinin artırılması və idarəetmə prinsiplərin-

də önəmli rol oynaması nəticə etibarilə kooperativin səhmdar cəmiyyətinə çevrilməsinə gətirib çıxarır. Məlum olduğu kimi, səhmdar cəmiyyətlərində idarəetmənin başlıca vasitəsi kimi qoyulmuş əmanətin həcmi əsas götürülür. Daha dəqiq desək, hansı səhmdar daha çox əmanət qoyursa, təbii ki, səhmdar cəmiyyətin idarə edilməsində də daha çox söz sahibinə çevrilir. Lakin yuxarıda adı çəkilən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, sahibkarlar öz kapitallarını aktiv olaraq kooperativlərin inkişafına yönəltmirdi. Bu baxımdan da təşkilati forma kimi məhdud məsuliyyətli cəmiyyət statusu önəmli rol oynayırdı. Bu, xüsusilə kooperativlər arasında geniş yayılmağa başlamışdı [125].

Digər tərəfdən, xüsusi ilə vurğulanmalıdır ki, kooperativlər təbiət etibarilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin təşkilati strukturunu özündə əks etdirdiyindən onların təkamülü də son nəticədə səhmdar cəmiyyətlərə çevrilməyə gətirəcəkdir. Belə ki, burada muzdlu əməkdən istifadə genişləndikcə, kooperativ təsisatlandırma korporasiya sisteminə keçid edəcəkdir. Əslində belə halın olması pis qarşılanmamalıdır. Nəticədə iqtisadi inkişaf, məşğulluq təminatının güclənməsi və sosial yüksəliş bərqərar olunacaq və möhkəmlənəcəkdir. Digər tərəfdən qeyd olunmalıdır ki, istehsal kooperativinin fəaliyyətinin hüququ tənzimlənməsi ilə bağlı qanunvericilik aktlarında boşluqların olması nəticə etibarilə bu təkamül proseslərinin inkişafında müəyyən durğunluq meyillərinin yaranmasına da gətirib çıxarır.

Kooperativlərin fəaliyyətinin tənzimlənməsi Azərbaycan Respublikasında da kooperasiya haqqında müvafiq qanunla həyata keçirilir. Kooperasiya haqqında qanunda göstərilir ki, kooperativin fəaliyyəti ilə əlaqədar əmək müqaviləsi üzrə işləri həyata keçirən muzdlu işçilərin sayı yerli idarəetmə orqanlarının razılığı ilə müəyyən edilir və bu zaman kooperativ fəaliyyətinin növü və onun ictimai istehlakdakı rolu da ön plana çəkilir. Təbii ki, qanunun adı çəkilən müddəası aşağıdakı prin-

siplər baxımından o qədər də əhəmiyyətli realizə olunmur. Belə ki, yerli idarəetmə orqanları ayrı-ayrı kooperativ fəaliyyəti növləri üzrə elmi əsaslandırılmış metodikaya malik olmurlar, bu isə nəticə etibarilə subyektivliyin yaranmasına gətirib çıxarır. Bundan əlavə, kooperativlər qanunda nəzərdə tutulmuş bu müddəanı pozduqları halda qanunda bu müddəanın pozulmasına görə xüsusi sanksiyalar nəzərdə tutulmamışdır. Yerli idarəetmə orqanları qanunun pozulmasına görə bu və ya digər kooperativin fəaliyyət hüququnu dayandırmaq imkanlarına malik deyillər [6, 7, 187-11]. Qeyd olunmalıdır ki, kooperativlərdə də əmək münasibətləri Azərbaycan Respublikasının Əmək qanunvericiliyi ilə tənzimlənir. Kooperativin, şəxsi əməyini tətbiq etməklə onun fəaliyyətində iştirak edən üzvləri ilə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi, Mülki Məcəllə və kooperativin nizamnaməsi ilə tənzimlənir [53]. Bununla belə, respublikada aqrar sektorda kənd təsərrüfatı kooperativlərinin yaradılmasının və fəaliyyətinin xüsusiyyətlərini də tənzimləyən qanunvericilik aktları vardır. Bu istiqamət «Kredit ittifaqları haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir [7, 187-11]. Bu qanuna görə, kredit ittifaqı mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və ya kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır.

Kooperasiya fəaliyyətində iştirak edən tərəflər eyni zamanda kooperasiya fəaliyyətində iştirak edən tərəflərin birgə maraqlarının qorunmasında da əhəmiyyətli rol oynayırlar. Qeyd etmək lazımdır ki, əməyin və istehsalın təşkilinin kollektiv forması kimi çıxış edən kooperasiya münasibətləri digər təsərrüfat subyektlərindən özünəməxsus xarakterik prinsiplərinə görə fərqlənir ki, bunlara da kooperativin fəaliyyətində üzvlərin əmək fəaliyyəti formasında iştirakını, eyni zamanda təsərrüfat fəaliyyətinin demokratik xarakter daşımasını və idarəet-

mə fəaliyyətində üzvlərin bərabər şəkildə, yəni bir üzv, bir səs prinsipi ilə iştirakı ilə fərqləndiyini göstərmək olar. Bundan əlavə, kooperativlərdə idarəetmə fəaliyyəti kifayət qədər şəffaf xarakter daşıyır və bu zaman kooperativ fəaliyyətin təsisçisi bütövlükdə sosial-iqtisadi münasibətlərə tam mənası ilə şəffaf şəkildə nəzarət edə bilir.

Kooperasiya prinsiplərindən çıxış edərək, hazırda dünya praktikasında onların fəaliyyətinin stimullaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, kooperativlərdə dividendlərin stimullaşdırılmasını gücləndirmək məqsədilə ənənəvi olaraq kooperativ təşkilatların başlıca çatışmazlığı kimi dəyərləndirilən kooperativ üzvlərinin məcburi iştirak hüququndan demək olar ki, imtina edilmişdir. İlkin olaraq, kooperativ üzvlərinin məcburi iştirak məsələsi İsveçrədə aradan qaldırıldı və kooperasiya üzvlərinin kooperativin fəaliyyətində iştirakı üçün kifayətedici amil kimi pul vəsaitində öz paylarını qoyması yetərli hesab edilirdi [64, 79, 94, 130].

Beləliklə, qarşılıqlı iqtisadiyyat şəraitində kooperativlər eyni zamanda kütləvi şəkildə demokratik idarəetmə prinsiplərinə malik olan təşkilat kimi səciyyələnməklə yanaşı, həm də xüsusi sektorun formalaşması istiqamətində kommersiya strukturu kimi də fəaliyyət göstərirdilər. Qeyd etmək lazımdır ki, hal-hazırda kooperativlərin davamlı olaraq səhmdar cəmiyyətlərinə və digər xüsusi müəssisələrə çevrilməsi ilə bağlı proseslər müşahidə olunmaqdadır.

Kooperativ müəssisələr əsasən özünəməxsus xarakterik cəhətləri ilə xüsusi firmalardan fərqlənir ki, bu xarakterik cəhətlərə də, ilk növbədə kooperativ və kollektiv müəssisənin ayrı-ayrı fiziki şəxslər qrupundan ibarət olmasını göstərmək olar. Əsasən həmin fiziki şəxslər qrupu kooperativin fəaliyyətində bu və ya digər funksiyalar, mülkiyyətçi və işçi funksiyalarını yerinə yetirirlər. Bundan əlavə, mülkiyyətçilərin özünəməxsus səlahiyyətləri, daha doğrusu, sərəncam vermə, istifadə və mənimsəmə hüquqları təbii ki, bərabər əsaslarla

birgə prinsiplər əsasında formalaşır. Bərabərlik hüququ mülkiyyət münasibətləri, eyni zamanda istehsal vasitələrinə münasibətdə və kollektiv təsərrüfatda gəlirlərin bölüşdürülməsində ön plana çəkilir.

Kooperasiyanın malik olduqu prinsiplər onun bir sıra üstünlüklərini nümayiş etdirir. Bu üstünlükləri aşagıdakılar birləşdirir [94, 130]:

- yüksək əməyin motivasiyası;
- əmək, kapital və maliyyə resurslarından optimal istifadə;
- bazara daha yaxşı uyğunlaşmaq və dəyişməkdə olan tələbata çevik münasibət imkanlığı;
- gəlirlərin daha ədalətli bölgüsü.

Göründüyü kimi, kooperasiyanın malik olduqu prinsiplər daha çox oriyinallığı ilə fərqlənir. Məhz bu pirinsipial cəhətlər - qarşılıqlı məsuliyyət, resursların paritet bölgüsü, bərabərlilik, könüllülük, açıqlıq və şəffaflıq kooperasiyanın səmərəli fəaliyyətinin əsasında dayanır. Qloballaşma meyilləri isə bu prinsiplərin daha adekvat sistemdə təkmiləşməsini qaynaqlandırır.

## 2.2. Kooperativ təsərrüfatçılığın əsas formaları və xarakterik xüsusiyyətləri

Cəmiyyətdə baş verən dəyişikliklər siyasi və sosial-iqtisadi münasibətlərin yenidən qurulmasını özündə əks etdirir. Sosial-iqtisadi münasibətlərin yenidən qurulması isə təsərrüfatçılığın yeni forma və metodlarının axtarılması ilə bağlı fəaliyyətin aktivləşdirilməsi ilə xarakterizə olunur. Təbiidir ki, təsərrüfatçılığın yeni və mütərəqqi formalarının, dünya praktikasında məlum olmayan yeni təkmil qurumların yaradılması ilə yanaşı, eyni zamanda əvvəllər mövcud olmuş təsərrüfatçılıq formaları da inkişaf edir. Təsərrüfatçılığın təşəkkülü aspektində geniş yayılmış formalardan biri də bizim tədqiqat obyekti olan kooperasiya münasibətləridir. Lakin bununla belə, kooperasiya münasibətlərinin formalaşması və inkişafı

baxımından müəyyən çətinliklər və ziddiyyətlər də mövcuddur ki, bu da nəticə etibarilə iqtisadi inkişafın xarakterinə və səviyyəsinə öz təsirini göstərir. Bu amillərə əsas etibarilə kooperativ fəaliyyətin tənzimlənməsi ilə əlaqədar qəbul edilən qanunvericilik aktlarında müəyyən çatışmazlıqların olmasını, eyni zamanda xüsusiyyətçilik psixologiyası baxımından təsərrüfatçılığın kooperativ formalarının bu və ya digər şəkildə qəbul edilməməsi ilə bağlı ideyaların mövcudluğu və s. göstərmək olar. Məhz adı çəkilən neqativ təzahürlər bütövlükdə kooperasiyaların inkişafı ilə bağlı özünü müəyyən aspektdə təzahür etdirmişdir. Bu isə xüsusilə transformasiya yönümlü dəyişikliklərin ilkin mərhələsində iqtisadiyyatda yaranan total qıtlıq, bazarlarda məhsulların çatışmazlığı aspektindən özünü göstərmişdir. Transformasiya prosesinin ilkin dövrlərində kooperasiya münasibətlərinin təşkilati formaları daha çox kölgəli iqtisadiyyatın formalaşmasında önəmli rol oynamışdır ki, bu da cəmiyyətin maraqlarında kəskin deformasiyaların yaranmasına gətirib çıxarmışdır [110, 130].

İqtisadiyyatda kooperasiyanın şərtlərinə bir qayda olaraq, ictimai əmək bölgüsü şamil edilir. Bu isə əsas etibarilə xüsusi fəaliyyət vasitəsilə inkişaf edir və konkret təsərrüfat vahidləri formasında təsərrüfat fəaliyyətinin həyata keçirilməsini özündə əks etdirir. Kooperasiya istehsal aspektində nəticə etibarilə istehsalın xüsusiləşməsinə, daha doğrusu, ixtisaslaşmasına gətirib çıxarır. Təhlil göstərir ki, ictimai əmək bölgüsünün dərinləşdiyi şəraitdə istehsalçılar arasında əmək-dəyər əlaqələri formalaşır ki, bu da nəticə etibarilə zaman keçdikcə elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiqinə əsaslanır. Kooperasiyalar istehsal proseslərinin bütün sferalarında vahid istehsal ritmlərinin yaradılması ilə səciyyələnir. Ümumiyyətlə, istehsal prosesində kooperasiya münasibətləri əsas etibarilə iqtisadi inkişaf səviyyələrində sahələrin differensiallaşmasına gətirib çıxarır. İstehsal potensialının bütün elementlərindən müəyyən zaman kəsiyində səmərəli istifadə

edilməsinə əlverişli şərait yaradır. Kooperasiyanın inkişafı müəyyən zaman kəsiyində ictimai-iqtisadi qrupların yaranmasına, daha doğrusu əmək kollektivlərinin formalaşmasına da gətirib çıxarır. Kooperasiya münasibətlərinin təşkilati formaları bir qayda olaraq, müəyyən zaman kəsiyində aktiv prinsiplərin elementləri kimi təzahür etmiş və geniş istifadə edilmişdir. Bu zaman kooperasiya münasibətləri təsərrüfat fəaliyyətinin təşkilinin forması kimi xarakterik xüsusiyyətlərə malik olmuşdur. Kooperasiya münasibətləri üçün səciyyəvi cəhətlərdən biri də təsərrüfat subyektlərinin iqtisadi müstəqilliklərinin qorunub saxlanmasıdır. Təsərrüfat fəaliyyətində kooperasiya münasibətləri müəssisənin təşkilinin spesifik forması kimi də xarakterik xüsusiyyətlərə malikdir. Kooperasiya kollektiv təsərrüfat fəaliyyətinin xüsusi forması olub, xırda əmək fəaliyyətinin və xırda istehsal prosesinin həyata keçirilməsinə əsaslanır [81, 109]. Təbii ki, bu zaman kooperativ üzvləri bərabərhüquqlu iştirak xüsusiyyətlərinə malikdir və istehsal proseslərində bilavasitə iştirak edirlər.

İqtisadi praktikada yeni yaradılan kooperativlər və kommersiya yönümlü kooperativ təşkilatları bir qayda olaraq, geniş təkrar istehsalın bilavasitə istehsal, mübadilə və bölgü sferalarında iştirak edirlər. Bu sferalarda istehlak kooperativləri özünəməxsus istisnalıq təşkil edirlər. Daha doğrusu, istehlak kooperativləri istehsal prosesində əhəmiyyətli dərəcədə iştirak payına malik deyildir.

Keçmiş ittifaqda XX əsrin 30-cu illərindən etibarən kooperativ fəaliyyətin məhdudlaşdırılmasına yönəldilmiş fəaliyyət həyata keçirilməyə başlanmışdı. Bu da ilk növbədə, kənd təsərrüfatında özünü kəskin şəkildə büruzə verirdi. Belə ki, həmin dövrdə kolxozların və istehlak kooperasiyalarının dövlətləşdirilməsinə yönəldilmiş fəaliyyət həyata keçirilirdi ki, bununla da kollektiv mülkiyyət dövlət mülkiyyətinə çevrilirdi. Bu proseslərin davamlı xarakter alması 1956-cı ildə sənaye sektorunda özünü göstərdi və neft-mədən kooperasiyalarının

fəaliyyəti dayandırıldı və bununla da, ölkə iqtisadiyyatında kooperativ hərəkata kifayət qədər ciddi zərbə vuruldu. Kooperasiya fəaliyyətinin yenidən təşkili əslində keçmiş ittifaqda sosial-iqtisadi sistemin yenidən qurulması ilə əlaqədar başlandı və iqtisadiyyatda yenidənqurma fəaliyyəti kooperasiya münasibətlərinin də təşəkkülünə əlverişli şərait yaratdı. İttifaqın tənəzüllü dövrlərində, məşhur yenidənqurma epoxasında kooperativlərin yeni formada vüsət alması prosesi yenidən start götürdü. Bu zaman - 1987-ci ildə qəbul edilmiş kooperasiya haqqında qanuna müvafiq olaraq, kooperasiya münasibətlərinin təşkilati formaları iqtisadiyyatın əksər sektorlarında təşəkkülünü tapmışdı. SSRİ-nin dağılması, ittifaq respublikalarının müstəqillik əldə etməsi və transformasiya proseslərinin yaşanması ilə əlaqədar müəyyən mərhələdə iqtisadiyyatın kooperativ sektorunda da bir sıra inkişaf meyilləri özünü göstərmişdir. Bu isə nəzərəçarpacaq dərəcədə həmin sektorlarda iqtisadi aktivliyin yüksəlməsinə gətirib çıxarmışdır. Kooperativ sektorunda iqtisadi aktivliyin yüksəlməsi, ilk növbədə bu sahədə məhsul satışından əldə olunan gəlirin dinamik şəkildə artımı ilə xarakterizə olunmuşdur [81, 99]. Materialların təhlili göstərir ki, kooperativ hərəkat bu dövrlərdə daha çox Şərqi Avropa ölkələrində və keçmiş ittifaqın Rusiya, Ukrayna və Belarus respublikalarında geniş vüsət almışdır. Bu ölkələrdə kooperativlərin fəaliyyətindən əldə olunan gəlir artımları bir sıra amillərin təsiri ilə baş vermişdir. Burada əsasən transformasiya proseslərinin həyata keçirilməsi ilə əlaqədar dövlət müəssisələrinin kooperativ sektora konversiyası rol oynamışdır. Bu onunla bağlıdır ki, əvvəllər dövlət müəssisəsi kimi fəaliyyət göstərən sektor sonradan kooperativ sektora çevrilmişdir ki, bu da nəticə etibarilə məhsul istehsalının həcminin kəskin şəkildə artımına gətirib çıxarmışdır. Digər tərəfdən, bu proseslər iqtisadiyyatın kooperativ sektorunda məhsul istehsalına xidmətlər göstərilməsi ilə əlaqədar təsərrüfat fəaliyyətindən əldə edilən gəlirlərin artımı və məhsulun satış qiymətlərinin yüksəlməsi

ilə bağlı olmuşdur. Məhsulun satış qiymətlərinin liberallaşdırılması və azad bazar qiymətlərinə keçid bu sektorda da məhsulun satış qiymətlərinin yüksəlməsinə gətirmişdir. Qeyd olunmalıdır ki, keçmiş sovet praktikasında qiymətlər özünü iki səviyyədə göstərmişdir. Bunlardan biri kooperativ, ikincisi isə dövlət sektoru ilə bilavasitə bağlı idi. Dövlət sektorunda qiymətlər əsasən fiksasiya olunmuş formada müəyyənləşdirilirdi, kooperativ sektorda isə qiymətlər nisbətən ağır bazar qiymətlərinə yaxın hesab olunurdu [99, 109].

Materialların təhlilindən məlum olur ki, həmin dövr üçün mövcud olan inzibati buxovlar kooperativ münasibətlərin bu və ya digər formada məhdudlaşmasına xidmət edirdi. Daha çox ideoloji cəhətdən kooperativ fəaliyyətini gizli təsərrüfatçılıq subyekti kimi xarakterizə etməyə çalışırdılar və icarə münasibətlərini daha şəffaf təsərrüfatçılıq sistemi kimi xarakterizə edirdilər. Həmin dövr üçün eyni zamanda icarə münasibətləri də tam mənası ilə təminatlı maddi-texniki təchizat funksiyalarının yerinə yetirilməsində önəmli rol oynayırdı. Bunun nəticəsi idi ki, 1990-cı illərdən etibarən dövlət müəssisələrinin kooperativlərə çevrilməsi prosesi demək olaraq praktik olaraq dayandırılmışdı. Qeyd etmək lazımdır ki, SSRİ-nin dağılması fonunda bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin qurulması nəticə etibarilə iqtisadiyyatda bazar konyunkturunun hakim mövqe tutmasına gətirib çıxardı ki, bu da nəticə etibarilə bazarda rəqabət aparan xüsusi firmaların və təsərrüfat subyektlərinin yaranması ilə müşayiət olundu.

Təsərrüfatçılığın xarici mühit amillərinin dəyişməsi, o cümlədən normativ-hüquqi aktlardakı dəyişikliklər, vergilər və digər bu kimi amillər nəticə etibarilə kooperativ hərəkata da öz təsirini göstərmiş və bu sahədə müəyyən struktur dəyişiklikləri baş vermişdir. Bundan əlavə, bazar münasibətlərinə keçidlə əlaqədar ticarət sferasının liberallaşdırılması da nəticədə ticarət-tədarük sektorunda fəaliyyət göstərən kooperativlərin fəaliyyətinə öz təsirini göstərmişdir. Belə ki, azad bazar müna-

sibətlərinin inkişafı nəticəsində müxtəlif təsərrüfatçılıq formalarının yaranması və bu sahədə fəaliyyət göstərən bir sıra kooperativlərin sayının azalmasına gətirib çıxarmışdır. Bu hal xüsusilə məişət xidməti sferasında fəaliyyət göstərən kooperativlərin fəaliyyətinə aid edilə bilər. Belə ki, məişət xidməti sektorunun tamamilə liberallaşdırılması və özəlləşdirilməsi nəticə etibarilə bu sahədə də köklü dəyişikliklərin yaranmasına gətirib çıxarmışdır. Kooperativ təsisatlandırmaların genişləndirilməsi tikinti sektorunda da müşahidə olunmuşdur. Bu irəliləyişlər digər sektorlara da keçid etmiş və müəyyən sahəvi inkişaf meyillərinə səbəb olmuşdur.

Müasir zamanda kooperativ sektorunda baş verən inkişaf meyillərini bütövlükdə iqtisadiyyatın struktur dəyişikliklərinin həyata keçirilməsi ilə bağlamaq olar. Hal-hazırda kooperativlər daha çox istehsal-texniki təyinatlı məhsulların buraxılışına istiqamət alır. Bu da xidmət sferasında fəaliyyət göstərən kooperativlərin sayını azaldır. Bundan əlavə, xidmət sferasında fəaliyyət göstərən kooperativlərin fəaliyyətindəki azalma meyilləri əsas etibarilə xüsusi resursların çatışmazlığı əldə edilən xammal və materialların qiymətinin yüksək olması ilə sıx bağlıdır. Bundan əlavə, nağdsız vəsaitlərlə hesablaşmalar sahəsində ehtiyatların kəskin şəkildə azalması və eyni zamanda bu sahədə maliyyə resurslarının çatışmazlığı da azalma meyillərini şərtləndirən amillər sırasındadır. Araşdırmalarla müəyyən olunmuşdur ki, adı çəkilən fəaliyyət istiqamətli kooperativlər əksərən keçid iqtisadiyyatlı ölkələrdə və demək olar ki, buradakı «qara bazarlar»da fəaliyyət göstərirlər. Bu meyil xüsusilə ticarət sferasında geniş intişar tapmışdır.

Hazırda kooperativ məhsulun strukturunda əvvəlki kimi məhsul istehsalı və xidmətlərin göstərilməsi sferası daha çox üstünlük təşkil etməkdədir. Bazar münasibətlərinin inkişafı ilə əlaqədar baş verən struktur dəyişiklikləri kooperasiya münasibətlərinin fəaliyyətinə də ciddi təsir göstərir. Nəticədə kooperativ sektoru daha çox sosial-mədəni xidmət sferasına istiqa-

mət alır. Bu istiqamətlilik baxımından kooperativləri aşağıdakı üç kateqoriya üzrə fərqləndirmək mümkündür:

1. İri kooperativlər. Bu kooperativlər istehsal və tikinti sektorunu özündə əks etdirməklə sənaye əsaslı istehsalın inkişafı sferasında geniş inkişaf istiqamətinə malik olur.
2. Üzvlərinin sayı 20 nəfərədək əmək qabiliyyətli əhalini təşkil edən xırda kooperativlər. Bir qayda olaraq, bu kooperativlər ticarət, ictimai-iaşə sektorunda, o cümlədən məişət və sosial-mədəni xidmətlər sferasında fəaliyyət göstərir və nisbətən zəif oriyentasiyalı olur.
3. Əsas etibarilə intellektual xidmət sferasını özündə əks etdirən kooperativlər. Belə kooperativlər əsasən vasitəçilik funksiyalarını özündə əks etdirir və müvafiq fəaliyyətlərlə məşğul olurlar. Onları bəzən elə xidmət kooperativləri də adlandırırlar. Bu kooperativlər bir qayda olaraq, xüsusi əmlaka malik olmur və əsas etibarilə işgüzar fəallığı ilə seçilir.

Göründüyü kimi, təsərrüfatçılığın kooperativ forması üstün olaraq statusun əldə edilməsi və maliyyə əməliyyatlarının həyata keçirilməsi məqsədi ilə yaradılır və yuxarıda adı çəkilən kooperativ sistemlər isə bazar tələbləri baxımından daha çox əhəmiyyət nümayiş etdirir.

Kooperativlər əsasən aşağıdakı qruplaşdırmaya məruz qalır:

- istehlak kooperativləri;
- kənd təsərrüfatı kooperativləri;
- kredit kooperativləri;
- fəhlə və sənətkarların istehsal kooperativləri;
- mənzil kooperativləri;
- innovasiya kooperativləri.

Kooperativlərin mahiyyətini təşkil edən bütün amillərin iki qrupa bölünməsi məqsədəuyğun hesab edilir.

Birinci qrupa təşkilati təsərrüfat xarakterli elementlər aid edilə bilər. Bu halda kooperasiyaya idarəetmə forması, mən-

fəətin bölüşdürülməsi üsulu önə çəkilir.

İkinci qrupa sosial xarakterə malik elementlər aid edilir.

Kooperativ münasibətlərin tipi və formalarının təhlili kifayət qədər praktiki maraq kəsb edir. Belə ki, rus tədqiqatçıları T.Kuznetsovanın və F.Fyodorovun fikrincə, əmək prosesində və real iqtisadiyyatda təsərrüfatçılığın mühüm forması kimi kooperasiya münasibətləri təşkilati və iqtisadi mühit faktorlarından asılıdır. Təşkilati və iqtisadi mühit faktorları nəticə etibarilə kooperativ fəaliyyətin istehsal həcmlərinin artırılmasında və gəlirlərin bölüşdürülməsində önəmli rol oynayır. Təbii ki, təşkilati və iqtisadi mühit faktorlarının kooperativlərin inkişafı üçün yetərli olduğu zaman kooperativ üzvlərinin gəlirlərinin artımı baş verir ki, bundan əlavə də kooperativ sektor iqtisadiyyatım inkişafında önəmli rol oynayır. [105].

İqtisadi praktikada əməyin təşkili bir qayda olaraq, təsərrüfatçılığın forması hesab olunur. Bu zaman gəlirlərin bölüşdürülməsi sahədə fəaliyyət göstərən işçilər arasında həyata keçirilir və muzdlular kooperativ işçilər olmadığı təqdirdə onlar gəlirlərin bölüşdürülməsində iştirak etmirlər. Bundan əlavə, iqtisadi və təşkilati mühit faktorları, T.Kuznetsova və F.Fyodorovun qeyd etdiyi kimi, əslində kooperativin inkişafında, onun iqtisadiyyatda rolunun möhkəmləndirilməsində önəmli rol oynayır. Nə qədər ki, iqtisadiyyatda kooperativ təsərrüfatçılıq forması hakim mövqe tutmur, təbii ki, onların iqtisadi əlaqələr sistemindəki inteqrasiya münasibətlərindəki rolu kifayət qədər məhdud xarakter daşıyacaqdır. Bu isə onunla bağlıdır ki, kooperativ sektor iqtisadiyyatın digər sektorları ilə müqayisədə hələ ki, önəmli rəqabət aparmaq imkanlarına malik deyildir. Bu isə bilavasitə onunla bağlıdır ki, kooperativ sektor daha çox kiçik istehsal sektorlarını və xırda mülkiyyəti özündə birləşdirir.

Beləliklə, iqtisadiyyatın kooperativ sektorunun struktur təhlili belə qənaətə gəlməyə əsas verir ki, kooperativlər universal formaya malik olmaqla, iqtisadiyyatın bu və ya digər sahələrində bərabərhüquqlu çıxış etmək imkanlarına

malikdir. Bununla belə, kooperativlərin iqtisadiyyatın bu və ya digər sektorunda bərabərhüquqlu təsərrüfat subyekti kimi çıxış etməsi ilə bağlı fikirlərə baxmayaraq, bütövlükdə götürdükdə onlar müasir şəraitdə istehsalın tipik forması kimi xarakterizə edilirlər.

Mikroiqtisadi prosesdə fəaliyyət göstərən kollektivlər bir qayda olaraq, azsaylı işçi qüvvəsi hesabına çox da böyük olmayan məhsul və xidmətlərin reallaşdırılmasını həyata keçirirlər. Yüksək həcmdə istehsal vasitələrinə malik olan kooperativ sektor əsasən istehlak bazarının konyunkturunda baş verən dəyişikliklərə daha çevik reaksiya göstərmək iqtidarında olurlar. Bu isə bilavasitə onunla bağlıdır ki, kooperativ sektor adətən xalq istehlak mallarına olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynayır və tələbatın dəyişməsinə çevik reaksiya göstərir. Kooperativ sektorun mövcud vəziyyətini təhlil edərkən, ilk növbədə bu sahədə məşğulluğun xarakteri və sektor daxilində əmək münasibətləri diqqəti cəlb edir. Keçmiş ittifaqda kooperasiya sektorunun yenidən təşəkkülü prosesində məşğulluq sferasında əsas etibarilə iki mühüm məsələ ön plana çəkilmişdi. Onlardan biri kooperativlərə məhdud saylı və əmək qabiliyyəti aşağı olan şəxslərin cəlb edilməsidir ki, bunlara təqaüdçülər, ev təsərrüfatlarında çalışanlar daxildir. Bundan əlavə, ikinci məşğulluq forması kimi kooperativlər geniş inkişaf etmişdir [109, 130].

Kooperasiya münasibətlərinin təşəkkülünün ilkin mərhələsində kooperativlərə bir qayda olaraq, əlavə iş yerləri kimi baxılır və eyni zamanda, müvəqqəti sərbəstləşmiş əmək resursları bu sahədə fəaliyyət göstərirdi. Bundan əlavə, kooperasiya həm də ictimai istehsal sferasında məşğul olan əhalinin iş qüvvəsindən intensiv istifadə edilməsi ilə də xarakterizə olunur.

Adətən kooperativ sektorda təkcə ixtisaslı işçilərə deyil, eyni zamanda intensiv ağır əməklə məşğul olan işçilərə daha çox ehtiyac duyulur. Bir sıra regionlarda dövlət müəssisələrində öz fəaliyyətini dayandırmış ixtisaslı mütəxəssislər koopera-

tiv sektora can atır və orada muzdlu əməklə məşğul olurlar. Araşdırmalar göstərir ki, kooperativlər iqtisadiyyatın əl əməyi yüksək olan və fondla silahlanma aşağı səviyyədə olan sahələrində daha çox inkişaf edirlər. Bu sahələrə isə, ilk növbədə, qeyri-sənaye sektoru şamil edilir. Sənaye sektorunda isə kooperativlər əsasən yüngül və yeyinti sənayesində və köməkçi istehsal sahələrində yaradılır və inkişaf etdirilir.

Bütün bunların əsasında qeyd etmək olar ki, dövlət və kooperativ sektor arasında bu və ya digər funksiya bölgüsü mövcuddur. Belə ki, əsas etibarilə sənaye sektorunda fəaliyyət göstərən müəssisələrdə əmək məhsuldarlığının səviyyəsi kooperativlərdəki məhsuldarlıqdan yüksəkdir. Buradan belə bir situasiya da yarana bilir ki, işçilərin əmək məhsuldarlığının səviyyəsi yüksək olan sferalardan axını baş verir. Daha doğrusu, əl əməyinin xüsusi çəkisinin aşağı və fondla silahlanmanın isə yüksək olduğu sahələrdən işçi qüvvəsinin axını baş verir ki, onlar daha çox əmək məhsuldarlığı aşağı, lakin əl əməyinin xüsusi çəkisi yüksək və fondla silahlanma aşağı olan sahələrə üz tuturlar. Təbii ki, bu zaman burada əmək haqqı səviyyəsi də önəmli rol oynayır. Bunlar isə bir sıra hallarda iqtisadiyyatda sahələrarası disbalansın yaranmasına səbəb olur. Eyni zamanda, kooperativ sektorda inkişafın səviyyəsi yüksəldikcə, işçi qüvvəsinin bu sahəyə axını baş verir ki, bu da nəticə etibarilə əmək məhsuldarlığının aşağı olmasına baxmayaraq, bu sahələrdə əhalinin aktivlik səviyyəsinin yüksəlməsinə gətirib çıxarır [106, 107, 133].

Aparılan araşdırmalar göstərir ki, iqtisadiyyatın dövlət və kooperativ sektorları arasında rəqabət bu sektorlar arasında qarşılıqlı münasibətlər baxımından əhəmiyyətli xarakter daşımır. Bu onunla bağlıdır ki, kooperativlər adətən yeni iş yerlərinin yaradılması baxımından o qədər də aktiv deyillər. Burada əsasən icarə münasibətləri inkişaf edir və mövcud işçi qüvvəsindən istifadənin digər variantları önəmli rol oynayır. Bundan əlavə, kooperativ sektorun daxilindəki əmək münasibətlərində

əsasən muzdlu işçi qüvvəsindən istifadə ilə bağlı əmək münasibətlərinin tənzimlənməsi halları üstünlük təşkil edir. Ümumiyyətlə isə, kooperativlər xırda istehsalın və əməyin təşkilinin mühüm forması olmaqla, iri sənaye istehsalı şəraitində əməli istehsal fəaliyyətindən fərqlənirlər. Təbii ki, bu zaman işçi qüvvəsinin ixtisaslaşması və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi önəmli rol oynayır. Kooperativlər bir qayda olaraq, seriyalı istehsal sektorlarında davamlı tələbatın ödənilməsinə yönəlmir.

Kooperativlərin xarakterik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onlar bir qayda olaraq, işçilərin sayının artırılmasında meyilli olmurlar. Lakin bu məhdudluğa baxmayaraq, belə kooperativlərin sifariş portfellərinin həcmi kifayət qədər yüksək olur və onlar bazarda baş verən struktur dəyişikliklərinə çevik reaksiya göstərmək imkanlarını nümayiş etdirirlər.

Kooperativ sektorda məşğul əhalinin sayı bir qayda olaraq, dəyişkən xarakter daşıyır. Kooperativlərdə əmək fəaliyyətinin həyata keçirilməsi zamanı kooperativ üzvlü olmayan işçilərin cəlb edilməsi adətən əməyin təşkilində intensivliyin yüksəldilməsi məqsədilə həyata keçirilir. Təcrübə göstərir ki, hal-hazırda kooperativlərin fəaliyyətinə əlavə işçilərin cəlb edilməsi, yəni muzdlu işçilərdən istifadə edilməsi müqavilə münasibətləri vasitəsilə tənzimlənir. Nəticədə bu, kooperativlərdə çalışan işçilərin sayının müvəqqəti olaraq artımına da gətirib çıxarır. Cəlb olunan muzdlu işçilər kooperativlərin gəlirlərinin artımında fəal iştirak etsələr də həmin gəlirin bölüşdürülməsində və kooperativin idarə edilməsində səlahiyyətlərə malik olmurlar [81, 130].

İstehsal fəaliyyəti ilə məşğul olan kooperativlərin əksər hissəsi muzdlu əməkdən istifadə edilməsi ilə bağlı nəzarət həyata keçirmirlər. İstər hüquqi və istərsə də, praktik baxımdan birmənalı şəkildə qəbul edilmişdir ki, kooperativ kollektiv əməyin təşkili forması olub, burada kooperativ üzvləri şəxsi əməkləri vasitəsilə iştirak edirlər. Kooperativin nizamnamə-

sinə görə, kooperativ üzvü olmayan işçilərin əməyindən istifadə edilməsi müstəsna hal kimi köməkçi xarakter daşıyır. «Kooperasiya haqqında» Qanunda kooperativ üzvləri olmayan cəlb olunmuş muzdlu əməyin yol verilən hədləri müəyyənləşdirilir. Bu kvota isə birbaşa iqtisadi xarakter daşıyır. Bu isə onunla bağlıdır ki, kooperativin əsas gəlirləri əsas etibarilə işçilərin əməyi sayəsində yaradılır. Bu, son nəticədə onunla tamamlanmalıdır ki, hər bir işçinin sosial müdafiəsi təmin edilməli, onun əməyi təminatlı şəkildə gəlirlə ödənilməli və onların real sosial sığortası həyata keçirilməlidir.

Hal-hazırda kooperativlərin müxtəlif tipləri və formaları mövcuddur ki, onlar müxtəlif sferalarda fəaliyyət göstərirlər. Bu sırada kredit, emal, xidmət, satış kooperativləri daha üstün mövqe tuturlar. Kooperativ sektorun müasir şəraitdə fəaliyyətinin başlıca istiqaməti onun bazarının dəyişən konyunktura uyğunlaşdırılması istiqamətində çevik iqtisadi və idarəetmə fəaliyyətinin həyata keçirilməsidir. Daha doğrusu, kooperativ sektor bazarın dəyişən şəraitinə kifayət qədər uyğunlaşmaq iqtidarına malikdir. Məhz bütün bunlar isə son nəticədə onun digər təsərrüfatçılıq subyektləri ilə müqayisədə azad rəqabətə davam gətirməsinə gətirib çıxarır. Bunun nəticəsidir ki, hal-hazırda kooperativlərin yeni müxtəlif təzahürləri formalaşmaqdadır ki, onlar yeni təşkilati formalardan da istifadə edirlər. Hazırda iqtisadiyyatda müəyyən tipə və xarakterə malik olan kooperativlər daha çox müstəqil blok şəklində fəaliyyət göstərirlər ki, bu da onların vahid kooperativ sistemlərinin formalaşdırılmasına gətirib çıxarır. Kooperativlərin özünəməxsus təşkilati strukturları və formalaşmasının spesifik qanunauyğunluqları da mövcuddur. Digər tərəfdən, kooperativlərin formalaşmasının özünəməxsus xüsusiyyətləri mövcuddur ki, bu xüsusiyyətlər də onların klassik ənənələrini özündə əks etdirir. Bu baxımdan ənənəvi kooperativlər, bir qayda olaraq dəyişən şəraitə kifayət qədər çevik şəkildə uyğunlaşa bilmirlər. Bu isə onunla bağlıdır ki, həmin kooperativlərdə fəaliyyətin başlıca məqsədi mənfəətin həcminin

maksimum şəkildə artırılmasına nail olmaqdan ibarətdir. Bu baxımdan ənənəvi kooperativlərdə sosial və istehlak xidmətləri demək olar ki, xüsusi önəm daşımır.

Ənənəvi kooperativlərdə kooperativ üzvlərinin sosial ehtiyaclarının qarşılanmasına istiqamətlənmiş önəmli tədbirlər həyata keçirilmir. Bundan əlavə, iqtisadi ədəbiyyatlarda qeyri-ənənəvi kooperativlər fəaliyyət göstərirlər ki, həmin kooperativlər bir qayda olaraq, məhdud məsuliyyətli cəmiyyətlər və səhmdar cəmiyyətləri formasında fəaliyyət göstərirlər. Həmin kooperativlər əsas etibarilə bazarda baş verən dəyişən şəraitə çevik şəkildə uyğunlaşmaqla yanaşı, eyni zamanda, öz üzvlərinin sosial rifahlarının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirirlər.

## 2.3. İxtisaslaşma və kooperativ əmək bölgüsü

Son dövrlər iqtisadi ədəbiyyatlarda kooperasiyanın məhdud və geniş mənada fərqləndirilməsi ilə bağlı meyillər özünü göstərməkdədir. Geniş mənada kooperasiya fəaliyyəti dedikdə, ilk növbədə xalq təsərrüfatının ayrı-ayrı sahələrində istehsal əlaqələri başa düşülür. Eyni zamanda, bu prosesə əmək bölgüsü də öz təsirini göstərir. Məhdud mənada kooperasiyalaşma fəaliyyəti dedikdə isə, müəyyən növ məhsulların istehsalı sahəsində mövcud istehsal əlaqələri nəzərdə tutulur. Bu istehsal əlaqələrinə bilavasitə yarımfabrikatların təchizatı bu və ya digər məhsul istehsalı sahəsində texniki tələblərin yerinə yetirilməsi ilə bağlı tələblərə əməl edilməsi və s. şamil edilir. Müəssisə kollektivi arasında əməkdaşlıq və qarşılıqlı münasibətlərlə bağlı məsələlər son nəticədə kooperasiyanı məhdud mənada xarakterizə edən amillərdəndir [101, 111].

İqtisadi praktikada ixtisaslaşma və kooperasiya münasibətləri arasında sıx əlaqə mövcuddur. Əslində bu, ixtisaslaşma prosesinin xarakterində özünü təzahür etdirir. İctimai əmək bölgüsü müstəqil istehsal sahələrinin formalaşmasına gətirib çıxarır ki, təsərrüfat subyektləri bu və ya digər məhsul isteh-

salı sahəsində ixtisaslaşırlar. Bu isə nəticə etibarilə kooperasiya formasında müəssisələr arasında istehsal əlaqələrinin yaranmasına gətirib çıxarır. Daha doğrusu, müəssisələr arasında istehsal əlaqələri formalaşmadığı halda bu və ya digər hazır məhsulun istehsalı və onun istehlakçılara çatdırılmasından söhbət gedə bilməz.

Müəssisənin kooperasiyalaşması onunla bağlıdır ki, müəssisə artıq bu və ya digər fəaliyyətin nəticələri üzrə ixtisaslaşıb. Daha doğrusu, ixtisaslaşmanın nəticəsi olaraq hər bir qurum bu və ya digər detalın, yarımfabrikatın istehsalı üzrə ixtisaslaşır və eləcə də istehsalın müəyyən mərhələlərində və ya hazır məhsulun istehsalı sferasında ixtisaslaşma prosesləri özünü büruzə verir.

Araşdırmalar göstərir ki, ixtisaslaşma və kooperasiya arasındakı əlaqələr heç də birmənalı xarakter daşımır. Daha doğrusu, ixtisaslaşma və kooperasiya fəaliyyəti bütün hallarda eyni fəaliyyət növü hesab olunmur. Belə ki, ixtisaslaşma bütün hallarda kooperasiya münasibətlərinin dərinləşməsi ilə müşayiət olunmur. Müəssisə bu və ya digər hazır məhsulun assortimenti üzrə ixtisaslaşarsa, onda bütün bunlar nəticə etibarilə kooperasiyanın genişlənməsinə gətirib çıxarmır. Müəssisələr arasında kooperasiya münasibətləri isə bütün hallarda sahələrarası kooperasiya münasibətlərinin dərinləşməsini şərtləndirir. Bu zaman müəssisələr öz müstəqilliklərini saxlamaqla bu və ya digər məhsul istehsalının ixtisaslaşması üzrə fəaliyyət göstərirlər. İxtisaslaşma zamanı kooperasiya münasibətlərinin dərinləşməsi prosesi baş verir ki, bu da istehsal prosesinin ayrı-ayrı mərhələlərində bu və ya digər məlumatlar üzrə ixtisaslaşmasını şərtləndirir.

Müəssisələr ixtisaslaşarkən öz təsərrüfat müstəqilliyini qoruyub saxlayır. Daha doğrusu, bu da hər bir müəssisənin hüquqi şəxs kimi məsuliyyətini və hüquqlarının məcmusunu özündə əks etdirir. Hüquqi şəxs statusunda hər hansı bir müəssisənin əsas təsnifat əlamətləri bir qayda olaraq, onun qanunvericiliyinin əsasən təsis edilməsi, təşkilati vahid kimi möv-

cudluğu, eləcə də bu və ya digər zəruri əmlaka malik olması, əmlak müstəqilliyi və məsuliyyəti, eyni zamanda təsərrüfat dövriyyəsində başlıca subyekt kimi çıxış etməsi, daxili və xarici bazara əmtəə məhsulu çıxarması ilə şərtlənir [148, 162].

Karl Marks müəssisə daxilində kooperasiya problemlərinə «Kapital» əsərinin birinci hissəsində xüsusi diqqət yetirmişdir. Belə ki, həmin əsərdə K.Marks göstərir ki, müəssisə daxilində bu və ya digər fəaliyyətlə daxil olan işçilər arasında qarşılıqlı münasibətlər mövcuddur ki, həmin münasibətlər də onlar arasındakı istehsal prosesində yaranır və kooperasiya əlaqələri kimi xarakterizə edilir [113].

Müəssisədaxili kooperasiya zamanı ayrı-ayrı istehsalçıların, daha doğrusu tərəflərin xüsusiləşməsi, yəni iqtisadi cəhətdən müstəqilləşməsi prinsipləri istisnalıq təşkil edir. Yəni tərəflər bir-biri ilə sıx qarşılıqlı əlaqəyə malikdirlər. Müəssisənin kooperasiyalaşması bir qayda olaraq, istehsal üsulunun inkişaf səviyyəsindən də əhəmiyyətli dərəcədə asılıdır. Bu, ilk növbədə məhsuldar qüvvələr və istehsal münasibətləri arasında əlaqə ilə də bilavasitə bağlıdır. Müəssisədə kooperasiya fəaliyyəti istehsalın həcmindən, onun ərazi baxımdan yerləşməsindən, ictimai əmək bölgüsünün səviyyəsindən və dövlət tərəfindən həyata keçirilən siyasətin xarakterindən və xüsusiyyətlərindən də bilavasitə asılıdır.

Bazar münasibətlərinə transformasiya proseslərinin dərinləşməsi ilə əlaqədar dövlət müəssisələrinin özəlləşdirilməsi subyektində müxtəlif təsərrüfatçılıq subyektləri, yeni sahibkarlıq qurumları yaranmağa başlamışdır ki, onlar da fiziki və hüquqi şəxs statusunda fəaliyyət göstərirlər. Sahibkarlıq fəaliyyətinin hüquqi formaları isə aşağıdakı kimi təsnifləşdirilir:

- təsərrüfat subyektləri və ya məhdud məsuliyyətli cəmiyyətlər, açıq səhmdar cəmiyyətləri;
- istehsal kooperativləri;
- dövlət və bələdiyyə tipli unitar müəssisələr;
- qeyri-kommersiya təşkilatları.

Bu və ya digər təsərrüfat subyektinin genişləndirilməsi və onun daxili bazara daha çox məhsul çıxarması nəticə etibarilə vergi tənzimlənməsindən əhəmiyyətli dərəcədə asılı olur. Müəssisələrin dərəcələrinin azaldılması nəticə etibarilə müəssisələrin istehsalının genişləndirilməsinə imkan verir və onlar bazara daha çox məhsul çıxarırlar. Bu isə son nəticədə müəssisənin imkanlarının genişləndirilməsi hesabına vergi dərəcələrinin aşağı salınması yolu ilə büdcə gəlirlərinin daha da artırılmasına gətirib çıxarır. Müəssisənin fəaliyyətinin genişləndirilməsi zamanı onlar muzdlu əmək formasında işçilərin cəlb edilməsini artırırlar ki, bu da son nəticədə əhali məşğulluğunun genişləndirilməsinə və gəlirlərin artırılmasına da əlverişli şərait yaradır. Bütün bunlar vergilərin stimullaşdırıcı funksiyasının aktivləşdirilməsi zamanı özünün müsbət nəticələrini göstərir [146, 148].

Kooperasiyalaşma bir qayda olaraq əmək bölgüsünün digər formaları ilə də sıx əlaqədardır. Təbii ki, bu zaman ərazi zaman bölgüsü və əməyin müxtəlif ixtisaslar üzrə bölüşdürülməsi də əsas götürülür. Bütün bunlar isə son nəticədə ictimai əmək bölgüsünün nəzəri problemləri kimi ixtisaslaşma və kooperasiya məsələləri ilə də sıx əlaqəyə malikdir [109].

Kooperativlərdə əmək haqqının yüksək səviyyədə olması eyni zamanda gəlirlərin bölüşdürülməsi prosesləri ilə də sıx bağlıdır. Beləliklə, kooperativlər sərbəst qiymətlər rejimində fəaliyyət göstərirlər və onlar gəlirlərin müəyyən hissəsini əmək haqqına və digər xərclərin ödənilməsinə sərf edirlər. İnkişaf etmiş ölkələrdə bir qayda olaraq, muzdlu işçilərin əməyinin ödənilməsində də sosial ədalət prinsiplərinə əməl edilir. Belə ki, İsveçrədə fəaliyyət göstərən kooperativlərdə praktik olaraq muzdlu işçinin cəlb edilməsi zamanı həmin muzdlu işçilər kooperativin idarə edilməsində də iştirak edirlər və kooperativin idarə olunmasında onların səsləri $^{1}/_{4}$ səs kimi qəbul edilir. Bundan əlavə, kooperativin cəlb olunmuş muzdlu işçi ilə əmək müqaviləsi bağlanmadığı halda muzdlu işçinin cəlb edilməsi ilə bağlı sanksiyalar həyata keçirilir [130, 148].

Bundan başqa, kooperativ sektorların daxilində gəlirlərin nəzərəçarpacaq differensiasiyası da müşahidə edilir. Kooperativlərdə yüksək əmək haqqı səviyyəsinin yaradılmasının özünəməxsus mənbələri mövcuddur ki, bu mənbələrə ilk növbədə, əmək məhsuldarlığının yüksək olması və yenidən bölüşdürülmə proseslərini şamil etmək olar. Kooperativlərə adətən yüksək ixtisaslı işçilər cəlb edilir və təbii ki, bu işçilər də yüksək əmək haqqı şərtləri ilə kooperativlərdə işləməyə razılıq verirlər. Əksər kooperativlərdə, o cümlədən tikinti fəaliyyəti ilə məşğul olan kooperativlərdə iş gününün uzadılması və digər xərclərə qənaət olunması hesabına yüksək əmək haqqı səviyyəsi əldə edilir. Bütün bunlar isə son nəticədə kooperativlərdə gəlirlərin qanunauyğun artımı üçün obyektiv zəmin formalaşdırır [110].

Kooperativ sektorun ən mühüm xarakterik xüsusiyyətlərindən biri də onun fəaliyyətinin maliyyə nəticələri hesab edilir. Kooperativ qurumlarda pul vəsaitlərinin formalaşmasının başlıca mənbələrinə məhsul və xidmətlərin satışından əldə olunan pul gəlirləri, bank kreditləri, eləcə də digər müəssisələrin və kooperativlərin verdikləri kreditlər, kooperativ üzvlərinin pay formasında ödənişləri, fərdi və kollektiv üzvlərin öhdəlikləri ilə bağlı ödədikləri, vəsaitlər, aksiyaların və digər qiymətli kağızların satışından əldə olunan pul gəlirləri, bundan əlavə, banklardakı əmanətlərlə bağlı hesablanan faizlər, birgə müəssisələrin mənfəətinin bölüşdürülməsi nəticəsində əldə olunan kooperativin təsisçisi kimi fəaliyyət göstərən birgə müəssisələrin gəlirinin bölüşdürülməsindən əldə olunan vəsaitlər şamil edilir.

İstər inkişaf etmiş ölkələrdə və istərsə də, inkişaf etməkdə olan ölkələrdə əvvəllər mövcud olmuş dövlət müəssisələrinin aktivlərinin müəyyən hissəsi gizli formada kooperativ qurumlarına da yerləşdirilir. Əksər kooperativlər əsasən dövlət müəssisələrinin bazasında yaradılır. Kooperativlər bir qayda olaraq, dövlət müəssisələrində əlavə istehsal sahələrinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə yaradılır və bu

zaman yüksək müqavilə qiymətləri əsasında məhsulun reallaşdırılması həyata keçirilir ki, bu zaman əldə olunan gəlirlər də kooperativlərin hesablaşma hesabına yatırılır.

Kooperativlərə bir qayda olaraq, ictimai iaşə kooperativlərini, eləcə də mühəndis tətbiqi istiqamətli fəaliyyət göstərən kooperativləri şamil etmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, məhsul və xidmətlərin reallaşdırılmasından əldə olunan pul gəlirləri kooperativlərin gəlirlərinin formalaşdırılmasında başlıca mənbə kimi çıxış edir. Məhsulun satışından əldə olunan pul gəlirindən material xərcləri çıxıldıqdan sonra ümumi gəlir formalaşır ki, bu da kooperativin büdcə fondları qarşısında öhdəliklərinin qarşılanmasında istifadə edilir. Büdcə qarşısında öhdəliklərə əsasən vergilər, qeyri-büdcə öhdəliklərinə isə bank kreditlərinə görə faizlərin ödənilməsi ilə bağlı vəsaitlərin yönəldilməsi aid edilir [81, 110, 148].

Bununla da, ümumi gəlirdən investisiyalaşmaya vəsait yönəldilir, işçilərin əmək haqqı hesablanır və kooperativ üzvlərinin qoyduqları pay haqlarına görə əldə etdikləri dividendlər ödənilir. Gəlirlərin bölüşdürülməsi, bir qayda olaraq, kooperativlərdə ümumi yığıncaq tərəfindən həyata keçirilir. Ümumi yığıncaq ümumi gəlirin bölüşdürülməsi qaydalarını, onların formalarını, fondların həcmini və ondan istifadənin xarakterini və istiqamətini müəyyənləşdirir. Ümumiyyətlə, iqtisadi praktikada kooperativlərin fəaliyyətini inkişaf fondları, sığorta fondları və əmək haqqı fondları formalaşdırır. İqtisadiyyatın kooperativ sektorunda başlıca məqsəd gəlirlərin maksimum səviyyəsinə nail olmaqdan ibarətdir. Bu zaman bu fəaliyyətin başlıca nəticəsi kimi əmək haqqı fondu hesab olunur. Əmək haqqı fondunun yüksək olduğu halda kooperativ sektorda çalışan işçilər istehsalın nəticələrinə daha çox stimullu olurlar. Əmək haqqı faktorunun stimullaşdırıcı funksiyaları baxımından kooperativ müəssisələr digər xüsusi müəssisələrdən fərqlənir. Bu baxımdan kooperativ fəaliyyətdə əmək haqqının səviyyəsi və

eləcə də əmək haqqı fondlarının bölüşdürülməsi bütövlükdə bu fəaliyyətlə məşğul olanlar arasında xüsusilə mühüm maraq doğurur [81, 109].

Kooperativlərin müəyyən hissəsi öz gəlirləri ilə bağlı tam həcmdə maliyyə deklarasiyaları yerinə yetirmirlər. Bu da son nəticədə ayrı-ayrı kooperativlər arasında orta aylıq əmək haqqının həcmi baxımından kəskin fərqlərin yaranmasına gətirib çıxarır. Kooperasiya fəaliyyətində nağd pul gəlirlərinə üstünlük verən kooperativlərdə adətən əmək haqqının səviyyəsi nisbətən aşağı olur ki, bu kooperativlərə də ictimai iaşə, nəqliyyat və məişət xidmətlərinin göstərilməsi ilə bağlı fəaliyyət göstərən kooperativləri şamil etmək olar. Bundan əlavə, daha çox nağdsız hesablaşmalarla pul gəlirləri həyata keçirən texniki və tikini təmayüllü kooperativlərdə əmək haqqı səviyyəsi nisbətən yüksək olur. Bu da əsasən onunla bağlıdır ki, nağd pulların müəyyən hissəsi başqa məqsədlərə yönəldilir və maliyyə deklarasiyalarında bu öz əksini tapmır.

Qeyd olunduğu kimi, sosialist sisteminin tənəzüllü və dağılmasından sonrakı dövrlərdə iqtisadiyyatın kooperativ sektorunun strukturunda da müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, keçmiş ittifaqda kooperasiya hərəkatının yeni təşəkkülü dövründə, yəni 1987-ci ildən etibarən kooperasiya sektoru daha çox xalq istehlak mallarının istehsalı, ictimai istehlak, məişət xidməti məhsullarının tədarükü və xammal emalı sferalarında özünü daha geniş şəkildə təzahür etdirmişdir. Həmin dövrdə kooperativlərin bu növü bütövlükdə kooperasiya sektorunda 90%-ə qədər xüsusi çəkiyə malik olmuşdur ki, bu kooperasiyalarla məşğul olan əhalinin 89%-i də məhz bu sektorda fəaliyyət göstərmişdir. Ümumiyyətlə götürdükdə, 1987-1990-cı illərdə reallaşdırılan məhsulun ümumi həcmində adı çəkilən sahələrdə fəaliyyət göstərən kooperativlər 92% çəkiyə malik olmuşdur. Bununla belə vurğulanmalıdır ki, müvafiq dövr ərzində kooperasi-

yanın bu sektorunun inkişafında müəyyən ləngimələr də özünü göstərmişdir ki, bu da nəticə etibarilə adı çəkilən göstəricilərin xüsusi çəkisinin müvafiq olaraq 39%, 32% və 29%-ə düşməsinə gətirib çıxarmışdır. İqtisadiyyatın kooperativ sektorunda 1987-1990-cı illərdə baş verən azalma meyilləri əsas etibarilə inzibati məhdudiyyətlərin güclənməsi, eyni zamanda sanitar xidmətinin kəskin nəzarəti rəqabət meyllərində bu və ya digər mühit dəyişikliyinin dəyişilməsi ilə sıx bağlı olmuşdur ki, bu da son nəticədə ümumi iqtisadi situasiyaya öz təsirini göstərmişdir [94].

Kooperativ sektorun fəaliyyətinin təhlili əsasında belə qənaətə gəlmək mümkündür ki, istehsalın kooperativlərinin əksəriyyəti beynəlxalq təcrübəyə uyğun fəaliyyət göstərmir.

Bütövlükdə götürdükdə, kooperativ sektorlar üçün xarakterik cəhətlər aşağıdakılardan ibarətdir:

- ümumi yığıncağın formal rolu şəraitində idarəetmənin bilavasitə avtoritar prinsiplərə əsaslanması;
- gəlirlərin kəskin differensiasiyası;
- muzdlu əməyin kifayət qədər geniş şəkildə cəlb edilməsi;
- istehsal vasitələrinin icarə vasitəsilə istifadə edilməsi;
- kooperativ üzvlərinin əsas hissəsinin idarəetmə aktivliyinin aşağı olması.

Bu amilləri əsas götürərək belə qənaətə gəlmək olar ki, hazırkı transformasiya proseslərini yaşayan ölkələrdə fəaliyyət göstərən kooperativlərin əksəriyyəti Qərb ölkələrində fəaliyyət göstərən xüsusi icarə və kiçik müəssisələrin xarakterik xüsusiyyətlərini özündə əks etdirir. Adı çəkilən əlamətlər daha çox xüsusi firmalar üçün xarakterikdir ki, hal-hazırda kooperativlər də həmin firmalar üçün xarakterik olan cəhətləri özündə birləşdirir.

## 2.4. Kooperativlərin formalaşmasının sosial-iqtisadi əsasları

İqtisadiyyatın bütün sahələrində xırda əmtəə istehsalçılarının kooperasiyası birgə fəaliyyətin imkanlarını reallaşdırmağa, iri istehsalçılarla rəqabətə davam gətirməyə və məşğulluğun məqbul səviyyəsinin təminatına yönəlmişdir. Xırda əmtəə istehsalçılarının rəqabət şəraitində müdafiəsinə yönəlmiş kooperativlərin inkişafı fərdi əmtəə istehsalçılarında sahibkarlıq keyfiyyətlərini, təsərrüfat müstəqilliyini və təşəbbüskarlığı inkişaf etdirmək vasitəsi kimi çıxış edir. Konkret iqtisadi şəraitdə kooperasiya istehsal və ictimai münasibətlərin inkişafına təkan verən amil kimi qəbul edilir. İqtisadi və sosial funksiyaların icrasında yardımçı olmaq etibarı ilə kooperasiya, prinsipcə balanslı yanaşmanı nəzərdə tutur. Kooperasiyanın sosial funksiyasının iqtisadi məqsədəuyğunluq göstəricisindən üstün tutulması yaxın keçmişə qədər nadir hal deyildi. Mənfəət əldə edilməsi, xırda biznesin iqtisadi maraqlarının təmin edilməsi kimi məsələlərə üstünlük verilməsi müasir kooperasiya hərəkatında daha çox müşahidə olunur [130, 148].

Kooperasiya istehsalın inkişaf amili olmaqla, ölkə ərazilərinin tərəqqisində də aparıcı rol oynaya bilər. Transformasiya prosesini yaşayan əksər ölkələrdə bu reallıqlar, xüsusilə ilk illərdə fərqli olmuşdur. Belə ki, bu dövrdə təkcə əmtəə istehsalçılarının deyil, həm də bazar şəraitində ölkə əhalisinin kooperasiyasının zəifləməsi iqtisadiyyatda fəaliyyət göstərən müəssisələr arasında qərarlaşmış əlaqələrin pozulması, xırda əmtəə istehsalının azalması, qiymətlərin mütənasibliyinin pozulması, inhisarçıların, vasitəçilərin təsirinin güclənməsi ilə müşayiət olunur.

Kooperasiya tarixi göstərir ki, bu hərəkatın pozitiv məcrası təbliğ və tətbiq edilməsi istiqamətində təcrübə qazanılmışdır. Keçid dövrü üçün bu prosesin ziddiyyətli xarakteri, bir çox ölkələrdə özünü göstərmişdir. Belə ki, həmin ölkələrdə kooperasiyanın mahiyyəti əksəriyyət tərəfindən lazımınca dərk edil-

məmiş və bu, xeyli dərəcədə kooperasiya ideologiyasının zəif təbliğ edilməsi ali məktəblərdə kooperasiyanın nəzəri və təcrübi aspektlərinin məhdud həcmdə öyrənilməsi ilə əlaqədar olmuşdur [81, 109].

Kooperasiya güclənməkdə olan iqtisadi dəyişikliklərlə, əmtəə-pul münasibətlərinin təkmilləşməsi ilə şərtlənmişdir. Onun öz səciyyəvi cəhətləri vardır. Bu, ilk növbədə istehsalın özünəməxsusluğuna aiddir. Əlbəttə, kooperasiyanın nəzəri müddəalarının vahidliyi nəzərdən qaçırılmamalıdır. Odur ki, kooperasiyanın nəzəri əsaslarını tədqiq edərkən bir çox müddəaların dəqiqləşdirilməsinə ehtiyac vardır.

Kooperasiya ümumiyyətlə əməkdaşlığı, ayrı-ayrı istehsal vahidlərinin və ya insanların fəaliyyətinin əlaqələndirilməsini bildirir. Kooperasiya təsərrüfatlararası, sahələrarası, regionlararası və rayonlararası səviyyələrdə əməkdaşlığı nəzərdə tutur. Bir çox mənbələrdə kooperasiya bir neçə təsərrüfat subyektinin son nəticəyə nail olmaq üçün birləşməsini nəzərdə tutan istehsalın təşkili forması kimi qəbul edilir. Başqa sözlə, kooperasiya eyni bir istehsal prosesində və ya öz aralarında əlaqəli olan fərqli əmək proseslərində birgə iştirak etdiyi təşkilati formanı xarakterizə edir. Kooperasiya anlayışı altında əmtəə istehsalçıları tərəfindən özlərinin iqtisadi və digər tələbatının təmin edilməsi məqsədilə yaradılmış müxtəlif kooperativlər və onların assosiasiyaları sistemi də qəbul edilir [148]. İctimai əmək bölgüsü dərinləşdikcə kooperasiya hərəkatına ehtiyac artmışdır. Bir çox mənbələrdə kooperasiya birgə iş kimi nəzərdən keçirilmişdir [112, 155, 171].

Kooperasiyanı əməyin təşkili forması kimi tədqiq edərkən onun məqsəd və vəzifələrinə görə bir neçə növünü fərqləndirirlər: o cümlədən, istehsalın effektivliyini artırmaq üçün, bazarda iri inhisarlarla iqtisadi mübarizə üçün kooperasiya, xırda istehsalçıların rəqabət qabiliyyətini artırmağa yönəlmiş kooperasiya və s. Bunları ümumiləşdirsək, kooperasiya dedikdə, hər hansı faydalı birgə fəaliyyət, əmək bölgüsü və bununla əlaqə-

dar, əməkdaşlıq zərurəti nəzərə alınmaqla iqtisadiyyatın bütün sahələrinə nüfuz edən universal bir forma kimi faydalı müştərək fəaliyyət başa düşülür. Kooperasiyaya belə geniş yanaşma səhmdar cəmiyyətlərə, maliyyə-sənaye qruplarına və hər hansı başqa birliklərə kooperativ adlandırılmağa bəraət verir. Kooperasiyanın əməyin təşkilinin bir forması kimi nəzərdən keçirilməsi isə tədqiqatımızın predmetinə aid deyildir.

Kooperasiya anlayışının çoxşaxəliliyi, onun mahiyyətinin açıqlanması zamanı, fərqli yanaşmalara rəvac vermişdir. Bəzi alimlər könüllülüyə, müstəqilliyə və idarəetmənin demokratikliyinə; digərləri mənfəətin bölünməsi qaydalarına; kooperativ təşkilatın açıq olmasına, kooperasiyanın məqsədlərinə üstünlük verirlər. Bir sıra mənbələrdə təsərrüfat fəaliyyətinin qismən ümumiləşdirilməsi qeyd olunmaqla, vahid müəssisə şəklində birləşmə faktı önə çəkilir. Görmək çətin deyildir ki, qeyd olunan tələblərin hamısına cavab verə biləcək kooperativ təşkilat praktiki olaraq mövcud deyildir [110, 130].

Transformasiya proseslərini yaşayan ölkələrdə, o cümlədən Azərbaycanda kooperasiyanın mühüm növlərindən biri olan istehlak kooperasiyası ənənəsi daha güclüdür. İstehlak kooperativi, o cümlədən kənd kredit kooperativi müstəqildir və öz fəaliyyətinə görə əmlak məsuliyyəti daşıyır. İstehlak kooperativinin məqsədi özü üçün gəlir yaratmaq deyil, öz payçılarının gəlirlərini artırmaqdır [79].

Kooperativ assosiasiyalara «iştirakçıların tam bərabərliyi və özünüidarə prinsiplərinə əsaslanan, üzvlərdən hər birinin bilavasitə iştirak etdiyi və maddi məsuliyyət daşıdığı, əldə edilən xalis mənfəət isə kapitalın ödənilməsinə sərf edilmədiyi ümumi təsərrüfat məqsədlərinə nail olmaq üçün bir qrup şəxsin sərbəst birləşməsi» kimi baxılan mənbələrdə «kooperativ müəssisə» və «kooperasiya hərəkatı» anlayışları şərh olunur [00, 00]. «Kooperasiya hərəkatı» anlayışı müəyyən ideya mülahizələrinə əsaslanır. Kooperativin təşkilati-təsərrüfat məzmunu onun bu və ya digər növə mənsub olmasını müəyyənləş-

dirir və istehlak kooperasiyası ilə istehsal kooperasiyanı fərqləndirən amillərdən biridir. Kooperasiya onun əsasını təşkil edən maddi-texniki bazadan təcrid olunmuş şəkildə nəzərdən keçirilə bilməz. Lakin bu bazalar müxtəlif olduğuna görə kooperativlərin təbiəti də eyni deyildir.

Kooperasiya insanların fəaliyyəti və könüllü birləşməsi prosesində təsərrüfatçılığın və qarşılıqlı münasibətlərin bir forması kimi bütün ictimai quruluşların əsasını təşkil edir və həmin quruluşların hər birində spesifik xüsusiyyətlər kəsb edir [99]. M.İ.Tuqan-Baranovski yazırdı: «... kəndlilər iri kənd təsərrüfatına yalnız əmək kooperasiyası vasitəsilə keçə bilər», «kooperasiya kollektivizmdən daha yüksək sosialist tipidir və ... gələcək inkişaf ictimai quruluşda kollektivizmdən daha kobud və zorakılığa əsaslanan qaydaların tədricən daha yüksək və sərbəst kooperasiya qaydaları tərəfindən sıxışdırılıb çıxarılmasından ibarət olacaqdır» [156]. Kooperasiya kapitalizmdə formalaşmış ideya və təcrübə olsa da, kooperativ hərəkatının və kooperativ təfəkkürün klassikləri iddia edirdilər ki, kooperasiya - kənd təsərrüfatının kapitalizmdən çıxarılması yoludur. Onlar belə bir mövqeyə əsaslanırdılar ki, xüsusi mülkiyyətin ləğv edilməsi şəraitində kooperasiya xırda əmtəə istehsalçılarının hər hansı şəraitə uyğunlaşmasına kömək edə bilər. Eyni zamanda qeyd edilirdi ki, kənd təsərrüfatı kooperasiyası sənaye kapitalına münasibətdə öz işini sənaye ilə kənd təsərrüfatı arasında ekvivalent mübadilənin tənzimlənməsi istiqamətində qurmalıdır. Ötən əsrin əvvəlində kooperasiya kollektivizmdən daha yüksək təşkilati tip hesab olunurdu. A.V.Çayanovun fikrincə, kənd təsərrüfatı kooperasiyasının əhəmiyyəti ümumi prinsiplər əsasında inkişaf edən kooperasiyanın bu sahəsinin spesifikasından irəli gələn xüsusiyyətlərə malikdir. Müəssisələrdə əmək fəaliyyətinin növlərinin çoxsaylı olması faktı, öz növbəsində kooperativ birliklərinin ixtisaslaşmış növündən tutmuş kompleks növünə qədər müxtəlif tiplərinin yaranmasına gətirib çıxarır. Onun fikrincə, həm də kənd təsərrü-

fatı kooperasiyası kəndli təsərrüfatının tamamilə mütəşəkkil variantı olub, xırda əmtəə istehsalçısının fərdiliyinə xələl gətirmədən özünün təşkilati planından iri formanın xırda forma üzərində şəksiz üstünlüklərə malik olduğu elementləri ayırmasına və qonşuları ilə birlikdə çox vaxt muzdlu əməkdən istifadə etməklə həmin elementləri bu iri istehsal formasının dərəcəsinə uyğun təşkil etməsinə imkan verən mükəmməl və mütəşəkkil variantıdır [168-170].

Kooperasiyaya dair elmi əsərlərdə müəlliflər kooperativlərin təsnifatı barədə müxtəlif fikirlər söyləyirlər. Məsələn, M.L.Xeysin kooperativləri təsnif edərkən istifadə olunmasını təklif etdiyi prinsipə görə payçılar kooperativi istehlakçı, istehsalçı kimi yaradır, ya da əmək və kapitalı birləşdirməklə öz təsərrüfatlarını yaratmağa çalışırlar [165, 166]. Başqa sözlə desək, həmin metodikaya görə ötən əsrin əvvəlində kooperativlər aşağıdakı kimi qruplaşdırılmalı idi:

- ev təsərrüfatlarının şəraitinin yaxşılaşdırılması kooperativləri;
- istehsal və satış şəraitinin yaxşılaşdırılması kooperativləri;
- müstəqil istehsal üçün kooperativlər.

M.İ.Tuqan-Baranovski istehsal sahəsində və mübadilə sahəsində kooperativləri fərqləndirirdi [156]. K.A.Pajitnov kooperativləri aşağıdakı qaydada qruplaşdırırdı: işçi qüvvəsi satan kooperativlər, istehlak kooperativləri və istehsalçıların kooperativləri. Bu halda işçi qüvvəsi satan kooperativlərə həmkarlar ittifaqları, əmək artelləri, istehlak kooperativlərinə istehlak kooperativləri və tikinti ortaqlıqları aid edilirdi. İstehsal kooperativləri daha geniş fəaliyyət sahəsinə aid birləşmələri əhatə edir. Belə ki, bu yanaşmada həmin kooperativlər kredit və tədarük birlikləri, sığorta ortaqlıqları, satış birlikləri, yardımçı işlərdə birgə fəaliyyət üçün yaradılmış ortaqlıqları əhatə edirdi [130]. Fəaliyyətin mahiyyəti və istiqamətinə görə kooperativlərin təsnifatı istehsal, satış, xidmət, istehlak əlamətləri üzrə

ayrı-ayrılıqda və çoxfunksiyalılıq meyarı üzrə aparıla bilər. Bu halda maddi istehsalla məşğul olan kooperativlər ayrılıqda baxılırsa, istehlak kooperativləri: alqı-satqı, müxtəlif xidmətlərin göstərilməsi, mədəni dəyərlərin istifadəsi kimi fəaliyyət sahələrini əhatə edir.

Kənd təsərrüfatı əmtəə istehsalçıları tərəfindən iqtisadi əlaqələr sistemində onlara xidmət edən və onların mənafelərini qoruyan kooperativ birliklər yaradılması həm istehsalat problemlərini, həm də əhalinin məşğulluğunun təmin edilməsi, istehsal və sosial infrastrukturun qorunub saxlanması, ərzaq bazarının sabitləşməsi ilə əlaqədar sosial problemləri uğurla həll etməyə imkan verir. Fəaliyyət istiqamətləri aşkar ifadə edilməyən kooperativlər müvafiq mənbələrdə çoxfunksiyalı kooperativlər kimi təqdim olunur. Kooperativlər öz fəaliyyət sahəsini genişləndirmək, göstərdikləri xidmət növlərinin sayını artırmaq hüququna malikdir. Bu halda kooperativlərin profilini dəyişmək imkanları nəzərdə tutulur.

Kooperativlər forma etibarı ilə sadə, keçid və mürəkkəb kooperativ növlərinə bölünə bilər. Sadə forma elə kooperativləri əhatə edir ki, onların mülkiyyətində, sərəncamında və istifadəsində pul vəsaitləri, əmtəələr və başqa qiymətlilər vardır və payçılar əlavə dividendlər şəklində gəlir, güzəştli kredit və s. imtiyazlar əldə edirlər. Bu halda payçıların əsas gəlirinin kooperativdən kənarda yaranması nadir hal deyildir [130, 148].

Keçid formalı kooperativlər çoxsahəli və çoxməqsədli olur. Onlarda mülkiyyətin ictimailəşmə səviyyəsi praktiki olaraq sadə formalı kooperativlərdəki kimidir. Lakin payçıların istifadə etdikləri xidmətlərin tərkibi xeyli zəngindir.

Mürəkkəb kooperativlərə aid olan istehsal kooperativlərində əsas istehsal vasitələri maşınlar, avadanlıq, mal-qara, torpaq və başqa dəyərlər ictimailəşir və kooperativin üzvlərinin əsas gəliri məhz onlardan yaranır [81].

Kooperativlər vətəndaşlar tərəfindən məhsulların istehsalı, emalı və satışı ilə bağlı, eləcə də qanunla qadağan edilməmiş

başqa fəaliyyət ilə birgə məşğul olmaq üçün könüllülük əsasında, pul vəsaitləri, torpaq sahələri, torpaq və əmlak payları və vətəndaşların başqa əmlakı şəklində payçılıq haqlarının və vətəndaşların başqa əmlakının könüllü şəkildə birləşdirilməsi və onların kooperativin pay fonduna verilməsi yolu ilə yaradılır.

Kooperativ təsərrüfat (*assosiasiya*) təsərrüfat rəhbərləri tərəfindən könüllülük əsasında torpağın becərilməsi, heyvandarlıq məhsullarının istehsalı ilə bağlı birgə fəaliyyət üçün və ya kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar və üzvlərin əməkdə şəxsi iştirakına və onların əmlak payı kimi üzvlük haqlarının birləşdirilməsinə əsaslanan başqa fəaliyyətin həyata keçirilməsi üçün yaradıla bilər. MDB təcrübəsində bu halda üzvlərin torpaq sahələri, ictimai kooperativ ehtiyaclar üçün nəzərdə tutulan torpaqlar istisna olmaqla, kooperativ təsərrüfatın pay fonduna verilmir [110].

Yaxın tariximizdən göründüyü kimi, istehsal kooperativləri ilə yanaşı istehlak kooperativləri də təşkil edilir. İstehlak kooperativləri əmtəə istehsalçıları (*vətəndaşlar və hüquqi şəxslər*) tərəfindən onların istehlak kooperativinin təsərrüfat fəaliyyətində iştirak etməsi şərtilə yaradılır. Fəaliyyət növündən asılı olaraq, istehlak kooperativləri artıq qeyd edildiyi kimi, satış, xidmət, təchizat, emal, bağçılıq, bostançılıq, heyvandarlıq, kredit, sığorta və başqa kooperativ növlərinə bölünür. Onlarda yalnız kooperativ əsaslarla yerinə yetirilməsi sərfəli olan ayrı-ayrı funksiyalar birləşir.

Kooperasiya təkcə istehsal və ya istehlak kooperativlərinin yaradılması demək deyil. Sözün geniş mənasında kooperasiya - müxtəlif əmtəə istehsalçılarının istehsalın bir və ya bir neçə mərhələsində ümumi son nəticəyə nail olmaq üçün qarşılıqlı sərfəli əməkdaşlığı, məsələn, şəxsi yardımçı təsərrüfatlarla kollektiv kənd təsərrüfatı müəssisələri, kəndli (*fermer*) təsərrüfatları, fərdi sahibkarlar arasında, eləcə də şəxsi yardımçı təsərrüfatların öz aralarında əməkdaşlığı deməkdir [110, 148].

Hazırda inkişaf etmiş ölkələrin çoxunda istehlak kooperativləri kənd təsərrüfatı məhsullarının bəzi növlərinin emalında və satışında inhisarçı mövqe tutur. Avropa İqtisadi Birliyinə daxil olan ölkələrdə kənd təsərrüfatı məhsullarının yarıdan çoxu kooperativlər vasitəsilə satılır.

Keçid iqtisadiyyatlı ölkələrdə vətəndaş cəmiyyəti təsisatları - məhsul istehsalçılarının, ixracatçı və idxalatçılarının assosiasiyaları, sahibkarlar ittifaqları, istehlakçı cəmiyyətləri, ictimai hərəkatlar və digər qeyri-dövlət təşkilatları get-gedə daha artıq əhəmiyyət kəsb edirlər. Bu təsisatlar, bir tərəfdən hökumətlə iqtisadi və sosial agentlər arasında dialoqu asanlaşdırmalı, hökumət proqramlarında bütün əlaqədar tərəflərin iştirakını təmin etməli, biznes, əhali və dövlət aparatı arasında əks əlaqə yaratmalı, digər tərəfdən kənd təsərrüfatı istehsalçıları öz maraqlarını daha tam ifadə etmək, təsərrüfatçılıq və qanunvericilik təşəbbüsləri ilə çıxış etmək, qərarlar qəbul edilməsi prosesində bilavasitə iştirak etmək imkanına malikdirlər.

Müasir dövrdə xidmət kooperativlərinin əmtəə istehsalçılarının bazar inteqrasiyasının ən adekvat forması kimi inkişaf etdirilməsinin zəruriliyi artıq şübhə doğurmur, lakin şübhələrin olmaması hələ kooperativ hərəkatının istər sənaye kompleksini idarəetmə orqanları tərəfindən, istərsə də əmtəə istehsalçılarının özləri tərəfindən inkişaf etdirilməsinə gətirib çıxarmamışdır. Problemi həll etmək üçün ağlabatan aqrar proteksionizm siyasəti ilə yanaşı, şaquli kooperasiyasının inkişaf etdirilməsi təklif edilə bilərdi, lakin kooperativ hərəkatı hələ rüşeym halındadır [47].

Xidmətlər göstərilməsi ilə məşğul olan kooperativlərin inkişafını ləngidən səbəblərə aşağıdakılar aid edilə bilər:

- kooperativ hərəkatının sosial bazasının zəif olması.
- sahibkarlığın inkişafı üçün makroiqtisadi şəraitin əlverişsiz olması qeyri-leqal kooperativ fəaliyyətinin inkişafını stimullaşdırır;
- tərəfdaşlar arasında sahələrarası iqtisadi əlaqələr iri

səhmdar strukturları tərəfindən inhisara alınmışdır;

- kooperativ qanunvericiliyinin qeyri-mükəmməl olması bunda təzahür edir ki, əvvələn, antiinhisar və vergi qanunvericiliyində şaquli kooperativlərin spesifikası nəzərə alınmır; ikincisi, kooperativ fəaliyyətinin spesifik formalarını tənzimləyən qanunlarda boşluqlar vardır;
- kooperativlərə dövlət və bələdiyyə dəstəyi lazımi səviyyədə deyil;
- təhsilin aşağı səviyyəsi və təsərrüfatların özünüidarə vərdişlərinin olmaması, kooperativlərə rəhbərlik edə biləcək insanların az olması.

Yuxarıda sadalanan səbəbləri aradan qaldırmaq üçün bir sıra hüquqi, təşkilati və iqtisadi tədbirlər görülməsi zəruridir.

İstehsal kooperativlərinin təsərrüfat fəaliyyətinin effektivliyi digər təşkilati-hüquqi formalı təşkilatlarda olduğu kimi aşağı səviyyədədir. Bunun əsas səbəbləri, ilk növbədə sənaye məhsullarının qiymət dispariteti və xüsusən bazarda bu nisbətin arzuolunan səviyyədə olmamasıdır. Nəticədə kooperativlərin bir çoxunun kreditorlar qarşısında borcları yaranmış, onlar öz dövriyyə vəsaitlərini itirmiş və maşın-traktor parkını yeniləşdirmək, istehsala investisiyalar qoymaq imkanından məhrum olmuşlar.

Kooperativlərin fəaliyyəti ilə bağlı bir sıra problemlər, o cümlədən kredit kooperativləri və sığorta kooperativləri, kooperativlərin əmlakının formalaşması, torpaqdan istifadə, gəlirlərin bölüşdürülməsi, kooperativdən çıxanların payların ödənilməsi və başqa məsələlər hüquqi müstəvidə həll edilməlidir.

MDB iştirakçıları olan ölkələrin milli iqtisadiyyatında kooperasiyanın rolu nəzərə alınmaqla 1997-ci il dekabrın 6-da MDB parlamentlərarası assambleyası dövlətlərarası kooperasiya şurasının təşəbbüsü ilə birlik ölkələrində kooperativ qanunvericiliyinin uyğunlaşdırılmasına yönəlmiş «Kooperasiya, kooperativlərin birlikləri (*ittifaqları*) haqqında» model qanun

qəbul etmişdir. Bu qanunda istifadə edilən anlayışlar məlum beynəlxalq normalara, o cümlədən beynəlxalq əmək təşkilatının kooperativlər haqqında tövsiyəsində, Beynəlxalq Kooperativ Alyansının kooperativlərin identikliyi haqqında bəyannaməsində, BMT Baş Assambleyasının kooperasiya haqqında bir sıra sənədlərində təsbit olunmuş normalara yaxınlaşdırılmışıdır [117]. Model qanun konsepsiyası kooperativin ikili təbiəti anlayışına əsaslanır: kooperativ bir tərəfdən insanların birliyi, digər tərəfdən bazar iqtisadiyyatına xas olan rəqabət mühiti şəraitində fəaliyyət göstərən, demokratik üsullarla idarə edilən müəssisədir. Model qanunda inkişaf etdirilmiş üç prinsipial müddəa diqqəti cəlb edir:

- kooperativlərin iqtisadi sahədə səlahiyyətlərinin müəyyən edilməsi;
- kooperativlərin avtonomluq və müstəqillik prinsipinin qanunvericilik qaydasında təsbit olunması;
- müxtəlif növlü kooperativlərin identiklik əlamətlərinin təsdiq edilməsi.

Kooperativlərə öz mülkiyyətində əmlakı olan və öz öhdəliklərinə görə həmin əmlakla cavabdeh olan, digər hüquqları həyata keçirən hüquqi şəxs statusu verilməsi prinsipial əhəmiyyət kəsb edir. Kooperativlərə pay fondu, bölünməz fond, ehtiyat və digər fondlar yaratmaq, kooperativ üzvlərinin və başqa vətəndaşların borc vəsaitlərini cəlb etmək, kooperativin üzvlərinin əməkdə şəxsi iştirakına və kooperativin təsərrüfat fəaliyyətində üzvlərin iştirakına mütənasib olaraq onlara ödənişlər vermək hüququ verilməsi də mühüm faktdır. Kooperativlər müəssisələr, filiallar və nümayəndəliklər, struktur təsərrüfat vahidləri yaratmaq, təsərrüfat cəmiyyətləri və ortaqlıqları yaradılmasında iştirak etmək, o cümlədən həmin qurumların təsisçisi qismində çıxış etmək hüququna malikdirlər. Model qanunda kooperativlərin ittifaqlarının xüsusi səlahiyyətləri də nəzərdə tutulmuşdur. Onlar kooperativ bankların təsisçiləri qismində çıxış edə bilərlər. Bu cür bankların əsas məqsədi kooperativləri pul vəsaitləri

ilə təmin etmək, onlara kassa-hesablaşma xidmətləri göstərmək, kooperativlərin və digər təsərrüfat subyektlərinin sərbəst pul vəsaitlərini səfərbər etməkdir.

Model qanun kooperativləri onların ittifaqlarını hədsiz dominantlığından da qoruyur. İttifaqda üzvlük könüllüdür, ittifaqa daxil olan kooperativ təşkilatlar isə özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayır. Kooperativlərin ittifaqları könüllülük əsasında «aşağıdan yuxarıya» sxemi üzrə yaradılır. Onlar müəyyən dövlətin ərazisində öz aralarında könüllü şəkildə birləşərək növbəti səviyyəli ittifaqlar yarada bilərlər [81, 109, 148].

Kooperativlər və onun formalaşmasının sosial-iqtisadi əsaslarını təhlil edərkən belə bir nəticə hasil olur ki, bu təsisat forması yeni inkişaf mərhələsi astanasıdadır. O hələ sosial-iqtisadi inkişaf istiqamətində tam gücünü hələ də nümayiş etdirməmişdir. O müvafiq təyinatlı müəssisə və digər təsisatlardan daha ədalətli gəlir bölgüsünü həyata keçirir və özünün genişlənən demokratizmi ilə üstün fərqlənir. Buna görə də, kooperativ təsisatlar genişləndirilməli, onların rəqabətqabiliyyətliyinin artırılması üçün daha münasib institusional mühit formalaşdırılmalı və daha səmərəli dövlət tənzimlənməsi həyata keçirilməlidir.

## 2.5. Kooperativ mülkiyyət və kooperasiya münasibətlərinin üstünlükləri

İqtisadi baxımdan təhlil etdikdə, kooperasiya münasibətləri öz iqtisadi maraqlarının reallaşdırılması məqsədilə fiziki və hüquqi şəxslər arasında əməkdaşlıq formasında təzahür edir ki, o da bilavasitə kooperativ prinsiplərə əsaslanır. Bu təzahür reallığından yanaşdıqda, kooperasiya əslində mürəkkəb ictimai-iqtisadi fenomen kimi xarakterizə edilir. Kooperasiya münasibətlərində iqtisadi amil də xüsusilə önəmli rola malikdir. Bu amilin önəmli rol oynaması əslində kooperativ mülkiyyətə əsaslanan istehsal münasibətləri şəraitində meydana çıxır.

Buradan görünür ki, kooperasiya üçün xarakterik cəhətlərdən ən önəmlisi mülkiyyətin tam mənası ilə xüsusi xarakter daşımamasıdır. Əslində həmin sektor üçün mülkiyyət bütövlükdə kooperasiya üzvlərinin payçılığı əsasında formalaşır. Məsələyə bu baxımdan yanaşdıqda, kooperasiya anlayışının bütövlükdə kooperativ münasibətlərin bütün sferalarını özündə əhatə etdiyi görünür. Burada isə iqtisadi mənafe mühüm əhəmiyyət daşıyır [81].

Kooperativ mülkiyyət əsas etibarilə kooperativ üzvlərinin, yəni ayrı-ayrı vətəndaşların əmlakı və gəlirləri əsasında formalaşır. Bu sahədə fəaliyyət göstərən qanunvericilik aktları vasitəsilə tənzimlənir, eyni zamanda kooperativlər öz fəaliyyətlərinin genişləndirilməsi istiqamətində və geniş təkrar istehsalın həyata keçirilməsi baxımından icarə formasında vəsaitlər cəlb etmək imkanlarına malikdir. Bütövlükdə götürdükdə, kooperativ mülkiyyətin özünəməxsus tarixi aspektləri mövcuddur ki, bu aspektlərə ilk növbədə, xırda mülkiyyəti şamil etmək olar. Xırda mülkiyyət əsasında kooperativlər formalaşır və sonralar tarixi baxımdan kooperativlər geniş kooperativ fabriklərə çevrilir və onlar bu və ya digər müəssisələri icarəyə götürməklə hətta əldə etmək imkanına da malik olurlar [130].

Kooperativ mülkiyyətin əsas subyektlərinə ilk növbədə, xüsusi olaraq təşkilatlanmış kollektiv, digər tərəfdən isə ayrı-ayrı fərdlər və kooperativ üzvləri daxildir. Kooperativlərin mülkiyyətinə kooperativ üzvlərinin payları və səhmləri şamil edilir ki, bu da mahiyyət etibarilə xüsusi mülkiyyəti özündə əks etdirir. Kooperativlərin real kapitallarına isə istehsal vasitələri, ödəmə vasitələri, əmlak və s. şamil edilir ki, bu da bütövlükdə kollektiv mülkiyyətin obyektini təşkil edir.

Ümumiyyətlə, iqtisadi praktikada daha çox kollektiv mülkiyyətə əsaslanan müəssisə kimi xarakterizə olunan kooperativlər bu mülkiyyətin idarəedilməsi və qorunmasında da birgə fəaliyyəti həyata keçirirlər. Kooperativ mülkiyyətin qorunma-

sının hüquqi təminatının əsas istiqamətlərinə isə aşağıdakılar şamil edilir [148, 187-9]:

- kooperativlərin dövlət müəssisələri ilə bərabərhüquqlu fəaliyyəti üçün real şəraitin yaradılması;
- kooperativlərin maddi-texniki bazası, maliyyə və kredit münasibətlərinin formalaşdırılması;
- kooperativlərin iqtisadi cəhətdən müstəqil və təsərrüfat hesablı fəaliyyət göstərməsinə əlverişli şəraitin yaradılması;
- dövlət kooperativ orqanlarının qeyri-qanuni fəaliyyəti nəticəsində kooperativlərə dəymiş maddi ziyanın ödənilməsinin təminatlı mexanizminin yaradılması;
- kooperativ sektora vergiqoymanın elmi əsaslandırılmış sisteminin formalaşdırılması;
- kooperativlərin qeyri-qanuni fəaliyyətdən əldə etdikləri gəlir kanallarının bağlanması.

Transformasiya proseslərinin reallaşdırıldığı şəraitdə kooperativ münasibətlərinin inkişafı, eləcə də kooperativ mülkiyyətin qorunması sahəsində müəyyən problemlər mövcuddur ki, həmin problemlərin aradan qaldırılması təqdirində gələcəkdə kooperasiya münasibətləri bazar təsərrüfatçılıq sistemində öz rolunu və yerini qoruyub daha da inkişaf etdirə biləcəkdir. Qeyd olunmalıdır ki, transformasiya yönümlü dəyişikliklər şəraitində kooperasiyanın inkişafı bir sıra neqativ tendensiyaların təsiri səbəbindən də tormozlanır. Bu isə ayrı-ayrı kooperativlərin inkişafına dövlət və kooperasiya orqanları tərəfindən ümumi təsirlərin aradan qaldırılmasını tələb edir. Təbii ki, kooperativlərin inkişafına neqativ təsir göstərən amillər iqtisadi və hüquqi vasitələrlə aradan qaldırılmalıdır [109, 130].

Müasir şəraitdə kooperasiya daha çox geniş yayılmış sosial hərəkat kimi xarakterizə olunur və daimi şəkildə inkişaf edərək bir fazadan digər fazaya keçir, təkamül prosesini yaşayır. Kooperasiya sektorunda mülkiyyətin reallaşdırılması, istehsal münasibətlərinin bütün elementlərinin məcmusu vasitəsilə hə-

yata keçirilir. Mülkiyyətin reallaşdırılmasının forma və istiqamətləri əsasən mülkiyyət subyektləri ilə sosial-iqtisadi və istehsal münasibətlərinin məcmusu vasitəsilə çıxış edir. İstehsal vasitələrinə sahiblik, eləcə də istehsal edilən məhsulun bölüşdürülməsi, mübadiləsi və istehlakı əsas etibarilə təsərrüfatçılığın müxtəlif forma və metodları vasitəsilə reallaşdırılır. Problemə bu aspektdən yanaşdıqda belə qənaətə gəlmək olar ki, əslində kooperasiyanın əsasını tam mənası ilə xırda istehsalçıların maraqları və tələbatları təşkil edir. Daha doğrusu, kooperasiya münasibətləri adı çəkilən mülkiyyətçilərin iqtisadi müstəqilliyinin qorunub saxlanması ilə onların maraq və tələbatlarının reallaşdırılması əsasında yaranır. Bu baxımdan müasir şəraitdə kooperasiya münasibətləri istehsalçıların və istehlakçıların bazar münasibətlərinin doğurduğu problemlərin çevik şəkildə həllinə nail olma üçün yaratdıqları qurumu özündə əks etdirir. Kooperasiya, eyni zamanda müasir şəraitdə istər xırda və istərsə də iri sahibkarların maraqlarının qorunmasının forma və metodlarının məcmusu kimi də çıxış edir.

Kooperasiya iqtisadi münasibətlərin bu və ya digər ərazi təşkilinin səmərəli həyata keçirilməsində də önəmli rol oynayır. Kommunikasiya sistemlərindən səmərəli istifadə edilməsi, eyni zamanda xammal və materiallara qənaət edilməsində mühüm rola malikdir.

Kooperasiya münasibətlərinin inkişafının həyata keçirilməsi zamanı bütün zəruri şərtlərin olması vacibdir ki, bu şərtlərə də aşağıdakıları şamil etmək olar[81, 110]:

- sənaye sektorunda müəssisələr arasında istehsal proqramlarının həyata keçirilməsində və hazır məhsulun buraxılması sahəsində vahid dövlət rəhbərliyinin təkmilləşdirilməsinin zəruriliyi;
- məhsulun buraxılması ilə bağlı müəssisənin cari və perspektiv planları çərçivəsində müəyyən istehsal proqramlarının işlənib həyata keçirilməsinin zəruriliyi;

- müəssisə və malgöndərənlər arasında istehsalın nisbətən yüksək səviyyəsinin təmin edilməsi ilə bağlı istehsal proqramlarının işlənib hazırlanmasının zəruriliyi;
- istehsal kooperativlərinə aktiv qarşılıqlı yardımların həyata keçirilməsi və onlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi.

İstehsalın təşkilinin kooperativ formasının tətbiqi haqqındakı diskussiyalarda kooperativlərin ölçüləri də kifayət qədər mübahisə obyekti olmaqdadır. Belə ki, müasir şəraitdə kooperasiya münasibətlərinin elmi-nəzəri əsasları ilə bağlı belə bir yanaşma üstünlük təşkil etməkdədir ki, ümumiyyətlə kooperasiya münasibətləri bütün iqtisadi sistemlərdə baş verən dəyişikliklərin başlıca vasitəsi kimi çıxış edir [110]. Bu yanaşma kooperasiya münasibətlərinin formalaşması ilə bağlı ənənəvi yanaşmadan özünəməxsus xüsusiyyətləri ilə fərqlənir ki, həmin xüsusiyyətlərə, ilk növbədə ənənəvi yanaşma da hakim mövqe tutur. Kooperasiya münasibətləri bir qayda olaraq, ictimai istehsalın müəyyən sferalarında xırda istehsalda üstünlük təşkil etməsi ilə bağlı fikirləri rədd edir.

Kooperasiya münasibətlərinin formalaşması ilə bağlı müasir yanaşmada başlıca tezis onunla bağlıdır ki, istehsal-texniki göstəricilərin səviyyəsindən asılı olmayaraq, bütün təsərrüfat sferalarında kooperasiya münasibətləri bərabərhüquqlu olurlar [81, 148]. Təbii ki, bütün bunlar kooperasiya münasibətlərinə müasir yanaşmanın başlıca bazis prinsiplərini təşkil etməkdədir.

Ümumiyyətlə, iqtisadiyyatda kooperasiya münasibətlərinin özünəməxsus üstünlükləri mövcuddur ki, bu üstünlüklərə də aşağıdakıları şamil etmək olar:

- kooperasiya istehsal kooperativləri arasında daimi və sıx əməkdaşlıq məsələlərini özündə əks etdirir ki, bu zaman məhsulun satışı, istehsalın maddi-texniki resurslarla təchizatı qısa zaman kəsiyində kooperasiya münasibətlərində önəmli rol oynayır;

- kooperasiya münasibətləri bu və ya digər məhsula olan sifarişin yerinə yetirilməsində, eləcə də təminat məsələlərinin həllində əhəmiyyət daşıyır;
- kooperasiya münasibətləri xüsusilə sənaye sahələrində istehsal güclərindən səmərəli istifadə edilməsinə əlverişli şərait yaradır;
- kooperasiya ixtisaslaşmanın inkişafı baxımından istehsalın təşkilinin ən səmərəli forması olub mütərəqqi texnologiyanın cəlb edilməsində də mühüm rol oynayır.

Kooperasiya iqtisadi münasibətlərin bu və ya digər ərazi təşkilinin səmərəli həyata keçirilməsində də önəmli rol oynayır. Kommunikasiya sistemlərindən səmərəli istifadə edilməsində, eyni zamanda xammal və materiallara qənaət edilməsində mühüm rola malikdir.

Kooperasiya münasibətlərinin inkişafının həyata keçirilməsi zamanı bütün zəruri şərtlərin olması vacibdir ki, bu şərtlərə də aşağıdakıları şamil etmək olar:

- sənaye sektorunda müəssisələr arasında istehsal proqramlarının həyata keçirilməsində və hazır məhsulun buraxılması sahəsində vahid dövlət rəhbərliyinin təkmilləşdirilməsinin zəruriliyi;
- məhsulun buraxılması ilə bağlı müəssisənin cari və perspektiv planları çərçivəsində müəyyən istehsal proqramlarının işlənib həyata keçirilməsi zəruriliyi;
- müəssisə və malgöndərənlər arasında istehsalın nisbətən yüksək səviyyəsinin təmin edilməsi ilə bağlı istehsal proqramlarının hazırlanmasının zəruriliyi;
- istehsal kooperativlərinə aktiv qarşılıqlı yardımların həyata keçirilməsi və onlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi.

Aparılan araşdırmalar göstərir ki, kooperasiya münasibətlərinin sosial-iqtisadi təzahürü heç də yeni anlayış deyildir. Odur ki, bu sahədə tədqiqatlar aparmış görkəmli

rus tədqiqatçıları M.İ.Tuqan-Baranovskinin və A.V.Çayanovun fikirlərini ümumiləşdirsək, belə qənaətə gələrik ki, onların hər ikisinin əsərində kooperasiya münasibətləri həm sosial, həm də iqtisadi tərəfdən xarakterizə olunmuşdur. Belə ki, M.İ.Tuqan-Baranovski kooperasiya münasibətlərinin daha çox sosial aspektlərini ön plana çəkmişdir. A.V.Çayanov isə kooperasiyanın daha çox iqtisadi üstünlüklərini tədqiq edir və belə qənaətə gəlir ki, əslində kooperasiya iqtisadi problemlərin həlli məqsədilə istehsalçıların təsərrüfat müstəqilliyinin qorunub saxlanması şərti ilə yaradılan strukturdur [156, 169-171]. Problemə bu aspektdən yanaşdıqda belə qənaətə gəlmək olar ki, əslində kooperasiya münasibətləri XX əsrin əvvəllərindən etibarən təsərrüfatçılığın xarici mühit amillərinin doğurduğu təhdidlərə qarşı xırda əmtəə istehsalçılarının müdafiə mexanizminin reallaşdırılması məqsədilə yaranmış bir qurum kimi fəaliyyət göstərmişdir. Xüsusilə kəndli təsərrüfatlarının maddi-texniki bazasının zəif şəkildə olması XX əsrin əvvəllərində kooperasiya münasibətlərinin sosial-iqtisadi təzahür kimi çıxış etməsinə gətirib çıxarmışdır. Belə ki, məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə kooperasiya da özünün məhdud sferasından çıxaraq, daha geniş sosial-iqtisadi kateqoriya kimi çıxış etməyə başlamışdır.

Kooperasiya münasibətlərinin ikinci mühüm tərəfi kooperativlərin tam təsərrüfat subyekti kimi çıxış etməsidir. Daha doğrusu, kooperativlər hal-hazırda mülkiyyət hüququnu reallaşdıran subyekt kimi fəaliyyət göstərirlər. Mülkiyyət münasibətlərinin iqtisadi cəhətdən reallaşdırılmasında bilavasitə təsərrüfat subyekti kimi çıxış edən kooperativlər əsas etibarilə mövcud istehsal münasibətlərinin mühüm tərkib hissəsi kimi fəaliyyət göstərirlər.

## 2.6. Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı (*«Azərittifaq»*) və onun milli kooperativ inteqrasiyada rolu

Ölkədə istehlak kooperasiyasının flaqmanı rolunda Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı - «Azərittifaq» çıxış edir. Bu baxımdan respublikada istehlak kooperasiyası sferasında fəaliyyətlərin qiymətləndirilməsində müvafiq koopersaiya təsisatı mühüm əhəmiyyət daşıyır. Bu əhəmiyyətlilikdən irəli gələrək «Azərittifaq»ın mövcud vəziyyətinin qiymətləndirilməsi və istehlak kooperasiyasının perspektivlərinin təhlilı mühüm elmi zərurətə çevrilir.

«Azərittifaq»ın 2008-ci il hesabatını nəzərdən keçirdikdə görərik ki, bu təşkilatda ötən il özünün struktur təşkilatları vasitəsi ilə əhaliyə 3 min manatlıq istehlak malları satılmış, 741 min manatlıq iaşə xidməti göstərilmiş, 1,1 milyon manatlıq kənd təsərrüfatı məhsulları və xammalları tədarük olunmuş, 807 min manatlıq mal istehsal edilmiş, 2,1 milyon manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə mal dövriyyəsi planına 130, ictimai iaşə dövriyyəsi planına 103%, xalq istehlakı malları istehsalı planına isə 193% əməl edilmişdir. Ticarət, ictimai iaşə və tədarük fəaliyyətində üst-üstə 1,6 milyon manat ümumi gəlir əldə olunmuşdur ki, bu da 2007-ci ildəkindən xeyli çoxdur. 2008-ci ildə tədavül xərclərinə ticarətdə 7,11, ictimai iaşədə 0,76% qənaət olunaraq qənaətin ümumi məbləği 217 min manat təşkil etmişdir. Rentabellik səviyyəsi əvvəlki illə müqayisədə ticarətdə və ictimai iaşədə bir qədər yüksələrək müvafiq olaraq 2,41% və 2,12%-ə çatmışdır. Bütün bunlar fəaliyyətin səmərəsinin qiymətləndirilməsinin son göstəricisi olan mənfəət səviyyəsində özünü göstərmişdir. Əsas fəaliyyət sahələrindən ticarət, ictimai iaşə, tədarük, yeyinti sənayesi, tikinti sahələrinin təsərrüfat ilini mənfəətlə başa vurması nəticəsində 2008-ci ildə ümumilikdə sistem üzrə 103 min manat mənfəət əldə olunmuşdur. Sənayedə mənfəət

planı 150,4% icra edilmiş, ticarətdə əvvəlki illə müqayisədə 13,2% artıma nail olunmuşdur. Hesabat dövründə həyata keçirilən tədbirlər nəticəsində ilin əvvəlinə nisbətən debitor borcları 1728172 manat, kreditor borcları 1172566 manat, qısamüddətli bank kreditləri 658873 manat azaldılmışdır [10, 39, 187-5].

Bütün bunlarla yanası aparılan araşdırmalar göstərir ki, bu təşkilatda daha geniş səmərəlilik əldə etmək istiqamətində potensial imkanlar genişdir. Bunun üçün təşkilat öz xərclərinin azaldılması yönümündə tədbirlər həyata keçirməlidir. Bu zərurətdən çıxış edərək «Azərittifaq»da xərclərin azaldılması və onun fəaliyyəti ilə bağlı digər mühüm iqtisadi amillər tədqiqatda təhlil predmetinə çevrilmişdir.

Kooperasiyanın fəaliyyət sahələrində istər sabit xərcləri, həm də qeyri-sabit xərcləri aşağı salmaq mümkündür. Kooperasiya sistemində tədavül xərclərinin əsas hissələrini, yəni 40%-ni əmək haqqı, 20%-ə qədərini material xərcləri, 14%-ə qədərini isə maddi-texniki bazanın saxlanması və istifadə edilməsi tutur. Qalan bütün xərclər isə tədavül xərclərinin 25%-ni təşkil edir.

Öz həcminə görə nəqliyyat xərcləri tədavül xərclərinin tərkibində ikinci yeri tutur. Öz xərclərini azaltmaq üçün malların yüklənib daşınması işini yaxşılaşdırmaq lazımdır. Bundan əlavə, malların mərkəzləşdirilmiş qaydada daşınmasını təkmilləşdirmək lazımdır. Bütün bunlar mal yeridilməsində aralıq xərclərin ixtisar edilməsinə, yük daşınma ilə məşğul olan işçilərin bir hissəsinin bu sahədən azad edilib maddi istehsal sahələrinə cəlb edilməsinə, mal dövriyyəsi sürətinin artırılmasına, mal itkilərinin azaldılmasına səbəb olar. Mal dövriyyəsinin artım sürəti bir qayda olaraq, həmin tədavül xərclərinin artım sürətini qabaqlayır. Digər tərəfdən, xalq istehlakı malları istehsalının xərc indekslərini aşağıdakı analitik cədvəldə daha aydın görmək olar:

*Cədvəl 2.1*

**İstehlak mallarının istehsalının xərc indeksləri**

| S/№ | Xərclərin növü | Cəmi | *o cümlədən ticarətdə* | |
|---|---|---|---|---|
| | | | ***Pərakəndə ticarət üzrə*** | ***Topdan ticarət üzrə*** |
| *1.* | Malların daşınması | 19,5 | 19,0 | 21,8 |
| *2.* | Əmək haqqı | 41,3 | 43,6 | 30,1 |
| *3.* | Maddi-texniki bazanın saxlanması | 14,3 | 14,7 | 12,4 |
| *4.* | Malların itkisi | 2,1 | 2,2 | 2,0 |
| *5.* | Taranın itkisi | 0,1 | 0,7 | 0,3 |
| *6.* | Kreditə görə bank faizləri | 6,9 | 5,7 | 12,6 |
| *7.* | Bazar qiymətlərinin sığortası | 1,3 | 1,1 | 2,2 |
| *8.* | Müəssisədən kənar müxtəlif itkilərin sığortası | 1,1 | 0,8 | 1,2 |
| *9.* | Sair xərclər | 12,8 | 12,2 | 17,4 |
| **Cəmi** | | 100 | 100 | 100 |

Mənbə: «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2.1-də xərclərin növü, onların satış növündən asılı olaraq faiz dərəcəsi göstərilmişdir və ümumi olaraq aydınlıq gətirilmişdir.

Göründüyü kimi, tədavül xərclərinin əsas hissəsini rayon kooperativlər cəmiyyəti üzrə əmək haqqı tutur. Azərittifaq sistemində əmək haqqı ticarətdə tədavül xərclərinin 35-50%-ni, ictimai iaşədə isə 55-65%-ni təşkil edir. Buna görə də, kooperasiya sistemində tədavül xərclərinin aşağı salınması üçün birinci növbədə bu xərcləri azaltmaq lazımdır. Bu baxımdan ticarət xərclərindən söhbət getdikdə, istehlak xərclərinə də diqqət yetirilməsi vacibdir. Bu xərclər tədavül xərclərinin bəzi maddələrinin tərkibində öz əksini tapır. Müəssisə və təşkilatın mənfəətlə işləməsi

üçün də təsərrüfat fəaliyyətinin elmi əsaslarla qurulması və artıq xərclərə yol verilməməsi vacibdir. Kooperasiya sistemində müəssisənin mənfəətlə işləməsi üçün ən əvvəl tədavül xərclərindən səmərəli istifadə edilməsi, daha doğrusu onun səviyyəsinin aşağı salınması tələb olunur. Tədavül xərclərinin aşağı salınmasının əhəmiyyəti ondan ibarətdir ki, xərclərin aşağı salınmasından əldə edilən vəsaitin bir hissəsi kooperasiyanın fəaliyyət sahələrində çalışan işçilərin sosial şəraitinin yaxşılaşdırılmasına sərf oluna bilər. Əslində bütün bunlar mənfəətin həcminin artırılmasının potensial mənbəyi olduğundan, kooperasiyanın müəssisə və təşkilatları bu imkanların axtarışında olmalıdırlar.

Kooperativ təşkilatında tədavül xərclərinin uçotunun təşkili onlar üçün qəbul olunmuş təsnifat əsasında qurulur. Mühasibat uçotunda tədavül xərcləri təsərrüfat fəaliyyətinin aşağıdakı sahələri üzrə qruplaşdırılır[187-11]:

- ticarət müəssisələrinin tədavül xərcləri;
- ictimai iaşə müəssisələrinin xərcləri;
- tədarük müəssisələrinin tədavül xərcləri.

Ticarətdə tədavül xərcləri ticarət müəssisələrinin növlərinə görə iki yerə bölünür:

1. topdan ticarət müəssisələrinin tədavül xərcləri;
2. pərakəndə ticarət müəssisələrinin tədavül xərcləri.

Azərittifaq sistemində fəaliyyət göstərən kooperativ təşkilatlarında tədavül xərclərinin nomenklatur maddələri Əlavə 1-də öz əksini tapmışdır.

Tədavül xərcləri uçotunun bu qaydada təşkilindən irəli gələrək, 22 aprel 1991-ci ildə istehlak kooperasiya müəssisə və təşkilatların tədavül və istehsalat xərcləri uçotunda dəyişikliklər haqqında göstərişlər işlənib hazırlanmış və icra üçün sistemin bütün təşkilat və müəssisələrinə göndərilmişdir. Həmin məlumat əsasında 01 yanvar 1992-ci ildən başlayaraq kooperativ təşkilat və müəssisə-

lərinin ticarət və ictimai iaşə və tədarük fəaliyyəti sahələrində tədavül xərcləri üçün müvafiq hesabat, nomenklatura maddələri müəyyən edilmişdir. Kooperativ təşkilatlarının ayrı-ayrı təsərrüfat fəaliyyəti sahələrinin mühasibatlığında uçot reyestrləri və haqq-hesab cədvəlləri əsasında tərtib edilən material orderlərdə 44 №-li «tədavül xərcləri» sintetik hesabın, subhesabların təşkili onların analitik uçotunun aparılması üçün təyin edilmiş K-21, K-22, K-23, K-24 №-li formalarda uçot reyestrinin hər bir xərc maddəsi üzrə məbləğlərin düzgün yazılması işini xeyli asanlaşdırır və mühasibatda əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur. Mühasibatda tədavül xərclərinin analitik uçotu üzrə K-21, K-22, K-23, K-24 reyestrlərində nomenklatura maddələri üzrə aparılan razılaşmalar əsasında rüblük və illik hesabatların 3 №-li «Tədavül xərcləri haqqında hesabat» forması tərtib olunur.

Həmin hesabat formasında tədavül xərcləri 14 nomenklatura maddəsi üzrə göstərilir ki, onlar da aşağıdakılardan ibarətdir. Göstərilən «Tədavül xərcləri haqqında hesabat» formasında plan və faktiki mal dövriyyəsinə nisbətən tədavül xərclərinin səviyyəsi təsdiq olunarkən qəbul olunmuş proqnozlaşdırılan mal dövriyyəsi göstərilir.

Hesabatın arayış hissəsində isə mal dövriyyəsinin həcmi, topdan ticarət, pərakəndə ticarət, ictimai iaşə və tədarük fəaliyyəti sahələri üzrə göstərilir. Tədavül xərcləri üzərinə nəzarətin düzgün təşkil olunması kooperativ ticarətinə bazar münasibətləri şəraitində verilən ən böyük tələbdir. Bu tələbin düzgün realizə edilməsi ilə kooperativ təşkilatları iqtisadi həyatdan silinmək təhlükəsini sığortalamış olur və istehlak kooperasiyanın inkişafına müsbət təsir göstərə bilər.

Azərittifaq sistemi üzrə 2000-2007-ci illərdə xalq istehlakı məhsullarının istehsalı aşağıdakı cədvəldə göstərilmişdir:

*Cədvəl 2.2*

**Azərittifaq sistemi üzrə 2000-2007-ci illərdə xalq istehlakı mallarının istehsalı**

| İstehsal | Ölçü vahidi | 2000 | 2003 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| Xalq istehlakı malları istehsalı | *min man.* | 2028,4 | 428,3 | 653,9 | 787,7 |
| Çörək və çörək-bulka məhsulları | *min ton* | 6,5 | 1,1 | 1,5 | 1,4 |
| Qənnadı məhsulları | *ton* | 14,6 | 26 | 7,5 | 2,95 |
| Kolbasa məhsulları | *ton* | 2 | - | - | - |
| Konservlər | *min b.* | 5527,5 | 2076,6 | - | - |
| Alkoqolsuz içkilər | *min dkl.* | 12,3 | 1,2 | - | - |
| Pivə | *min dkl.* | 64,8 | 42,0 | 15,4 | - |

Mənbə: «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2.2-nin təhlili göstərir ki, Azərittifaq sistemi üzrə 2000-2007-ci illərdə əsas etibarilə xalq istehlakı malları, çörək və çörək bulka məmulatları, qənnadı məmulatları, eləcə də, kolbasa məhsulları, konservlər, alkoqolsuz içkilər istehsal edilmişdir. 2001-ci ildən etibarən kolbasa məmulatları, 2004-cü ildən isə alkoqolsuz içkilər, 2006-cı ildən konserv məhsulları, 2007-ci ildən pivə istehsalı dayandırılmışdır.

2007-ci ildə Azərittifaq sistemi üzrə 787,7 min manatlıq xalq istehlakı malları 14 min ton çörək-bulka məmulatları, 2,95 min ton qənnadı məmulatları istehsal edilmişdir. 2000-ci illə müqayisədə 2007-ci ildə Azərittifaq sistemi üzrə xalq istehlak mallarının istehsalı 61,2%, çörək-bulka məmulatlarının istehsalı 78,5%, qənnadı məmulatlarının istehsalı isə 79,8% azalmışdır. Azərittifaq sistemi üzrə istehsalın genişləndirilməsi ilk növbədə, sahəyə investisiya qoyuluşunun artırılmasından, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiqi imkanlarının genişləndirilməsindən bilavasitə asılıdır.

Azərittifaq sistemi üzrə kooperativ sektorun əmtəə dövriyyəsi aşağıdakı cədvəldə göstərilmişdir [187-5]:

*Cədvəl 2.3*

**Azərittifaqda kooperativ sektorun əmtəə dövriyyəsi**

*(min manat)*

| İllər | Pərakəndə ticarət | | | Tədarük | | |
|---|---|---|---|---|---|---|
| | plan | *fakt* | % | plan | *fakt* | % |
| ***1996*** | 14878,2 | *12769,6* | 85,8 | 2262,4 | *4628,1* | 20,8 |
| ***1997*** | 10995,8 | *8616,5* | 78,4 | 15012,4 | *1663,6* | 11,1 |
| ***1998*** | 8611,4 | *6061,7* | 70,5 | 1015,3 | *1829,3* | 18,1 |
| ***1999*** | 7181,9 | *4272,2* | 59,5 | 8923,2 | *1848,4* | 20,7 |
| ***2000*** | 6269,2 | *4398,5* | 70,2 | 5922,7 | *1378,7* | 23,3 |
| ***2001*** | 5502,6 | *4091,2* | 74,3 | 4488,8 | *893.9* | 19,9 |
| ***2004*** | 3487,4 | *3415,5* | 97,9 | 1691,1 | *783,3* | 46,3 |
| ***2005*** | 3204,6 | *3202,1* | 99,9 | 1382,6 | *879,5* | 63,6 |
| ***2006*** | 3104,6 | *3015,8* | 97,1 | 1163,8 | *848,0* | 72,9 |
| ***2007*** | 2863,3 | *3006,1* | 105,0 | 2234,4 | *1193,0* | 53,4 |
| ***2008*** | 1279,0 | *1178, 6* | 92,1 | 736,5 | *736,5* | 100,0 |

* 2004-cü ildən etibarən AZN-lə göstərilmişdir.

Mənbə: «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2.3-ün təhlili göstərir ki, 1996-2007-ci illərdə Azərittifaqın pərakəndə ticarət sahəsi istisna olmaqla, digər sahələrində əmtəə dövriyyəsi planının yerinə yetirilməsi faizində kəskin kənarlaşmalar özünü göstərir. Pərakəndə ticarət sektorunda 1999-cu ildə əmtəə dövriyyəsinin yerinə yetirilməsi 59,5% təşkil etmişdir ki, bu da 1996-2007-ci illərdə ən aşağı göstərici sayıla bilər. Təhlil göstərir ki, 1996-2001-ci illərdə Azərittifaq sisteminin pərakəndə ticarət sahəsində əmtəə dövriyyəsinin planının yerinə yetirilməsi əhəmiyyətli dərəcədə aşağı olmuşdur. Adı çəkilən dövrlərdə tədarük sahəsində əmtəə dövriyyəsinin yerinə yetirilməsi kifayət qədər aşağı olmuş-

dur. 1997-ci ildə tədarük sahəsində əmtəə dövriyyəsi planına 11,1%, 1998-ci ildə 18,1%, 1999-cu ildə 20,7%, 2000-ci ildə 23,3%, 2001-ci ildə isə 19,9% əməl edilmişdir. Qeyd etmək lazımdır ki, 2001-ci ildən etibarən Azərittifaq sistemində müəyyən irəliləyişlərə nail olunsa da, lakin bu heç də Azərittifaq sistemində kooperativ sistemin dinamik inkişafını təmin etməyə əlverişli şərait yaratmamışdır. Belə ki, 2004-cü ildə Azərittifaq sisteminin pərakəndə ticarət sektoru üzrə pərakəndə əmtəə dövriyyəsi planına 97,9%, 2005-ci ildə 99,9%, 2006-cı ildə 97,1%, 2007-ci ildə 105%, 2008-ci ilin 6 ayı ərzində isə 92,1% əməl edilmişdir. İctimai iaşə sektorunda isə 2004-cü ildə əmtəə dövriyyəsi planı 66,3%, 2005-ci ildə 68,5%, 2006-cı ildə 78,7%, 2007-ci ildə 86,2%, 2008-ci ilin son 6 ayı ərzində isə 106% yerinə yetirilmişdir. Tədarük sektorunda əmtəə dövriyyəsi planına 2004-cü ildə 46,3%, 2005-ci ildə 63,6%, 2006-cı ildə 72,9%, 2007-ci ildə 53,4%, 2008-ci ilin son 6 ayı ərzində isə 100% əməl edilmişdir. Lakin 2007-2008-ci illərdə pərakəndə ticarət, ictimai iaşə və tədarük sektorlarında əmtəə dövriyyəsi planı 2005-ci illə müqayisədə müvafiq olaraq 10,7%, 26,4% aşağı olmuşdur [10, 187-5]. Ümumiyyətlə götürdükdə, Azərittifaq sistemi üzrə tədarük fəaliyyətinin genişləndirilməsi bütövlükdə kənd təsərrüfatı məhsullarının daxili bazarının qorunmasında və yerli istehsalın stimullaşdırılmasında əhəmiyyətli rol oynaya bilər. Qeyd etmək lazımdır ki, Azərittifaq sisteminin hələ əvvəlki təsərrüfatçılıq dövründə kifayət qədər güclü inkişaf etmiş saxlanma və soyuducu kameraları mövcud olmuşdur. Fikrimizcə, bu sistemin fəaliyyətinin aktivləşdirilməsi, eləcə də Azərittifaqın tədarük sisteminin aktivləşdirilməsi ilə bağlı dövlətin iqtisadi tədbirlərinin genişləndirilməsi problemin həllində önəmli rol oynaya bilər.

Aparılan tədqiqatlar əsaslandırır ki, Azərittifaq sistemi üzrə kooperativ sektorun fəaliyyətinin iqtisadi səmərəlilik göstəricisi kimi mənfəət və rentabellik səviyyəsi əhəmiyyətli rol oynayır. Göstəricilərə nəzər yetirdikdə görərik ki, Azərittifaq

sistemi üzrə kooperativ ticarət sektoru 1997-1999-cu illər ərzində öz fəaliyyətini zərərlə başa çatdırmışdır. Pərakəndə ticarət sektorunda mənfəət planına 2000-ci ildə 14,6%, 2001-ci ildə 27,7%, 2004-cü ildə 32%, 2005-ci ildə 41,3%, 2006-cı ildə 32,8%, 2007-ci ildə 55,3%, 2008-ci ilin 6 ayı ərzində isə 74,6% əməl edilmişdir. İctimai iaşədə mənfəət planı 1996-cı ildə 56,7% yerinə yetirilsə də, 1997-ci ildə bu sahə zərərlə işləmiş, 1998-ci ildə 12,6%, 1999-cu ildə 25,7%, 2000-ci ildə 25,7, 2001-ci ildə 46,9%, 2004-cü ildə 33,7%, 2005-ci ildə 41,4%, 2006-cı ildə 26,6%, 2007-ci ildə 44,4%, 2008-ci ilin 6 ayı ərzində isə 67,1% əməl edilmişdir. Tədarük sektorunda 1996-2001-ci illərdə mənfəət planına əməl edilməsi kifayət qədər aşağı səviyyədə olmuşdur. 2004-cü ildə tədarük sektorunda mənfəət planına 40,4%, 2006-cı ildə 74,6%, 2008-ci ildə isə 79,8% əməl edilmişdir [10, 187-5].

Təhlil göstərir ki, mənfəət planının yerinə yetirilməməsi nəticəsində Azərittifaq sistemi üzrə kooperativ ticarət, ictimai iaşə və tədarük sektorlarında rentabellik səviyyəsi bir sıra hallarda hətta 1%-i belə ötməmişdir. Bütövlükdə, Azərittifaq sistemində iqtisadi səmərəlilik əslində təsərrüfat fəaliyyətinin düzgün qurulmaması, infrastruktur şəbəkəsindən səmərəli istifadə edilməməsi, yerlərdə məhsulun tədarükü ilə bağlı zəruri tədbirlərin həyata keçirilməməsi nəticəsində təmin edilməmişdir. Apardığımız tədqiqatları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, qloballaşma şəraitində kooperativ fəaliyyətin dirçəldilməsi ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasında da əhəmiyyətli rol oynayır. Bazar münasibətlərinin inkişaf etdiyi hazırkı mərhələdə kooperasiyanın gələcək inkişafını təmin etmək üçün ölkədə hüquqi baza yaradıldı və iqtisadi islahatlar həyata keçirilməyə başlandı. Dövlət mülkiyyətində olan əmlak və torpağın özəlləşdirilməsi, qiymətlərin liberallaşdırılması, pul-kredit sistemi, vergi və gömrük sahəsində yeridilən siyasət kooperativ inkişafın maraqlarına uyğunlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, kooperativ mülkiyyətinə

əsaslanan müəssisələr istehsal və satış müstəqilliyini təmin etmişlər. Hazırda onlar nə qədər və necə istehsal etməsi, məhsulu harada və hansı qiymətə satması funksiyalarını sərbəst həyata keçirirlər. Məhz belə bir hüquqi və iqtisadi mühit kooperativlərə öz bacarıq və qabiliyyətlərini reallaşdırmağa, əmək, torpaq və kapital kimi istehsal amillərindən daha səmərəli istifadə etməyə imkan verir. Bu imkanları maddi-mənəvi nemətlərə çevirmək, ölkəni sosial-iqtisadi tərəqqi yoluna salmaq ilk növbədə, ölkə kooperativlərinin öhdəsinə düşür.

Ölkədə kooperasiyanın inkişafı bir tərəfdən yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul, xidmət növü çıxarır, ərzaq təhlükəsizliyini həll edir, vergi ödəyicilərinin sayını artırmaqla onun bazasını genişləndirir, digər tərəfdən isə yoxsulluğun aradan qaldırılmasına əvəzolunmaz dərəcədə əhəmiyyətli təsir göstərir, nəticədə əhalinin orta təbəqəsini formalaşdırır, yeni yaşayış və həyat tərzi yaradır. Nəzərə alsaq ki, kooperativlər regionlarda üstünlük təşkil edir və onların potensial imkanları digər sahibkarlara nisbətən daha çoxdur, onda bu imkanlardan səmərəli istifadə edilməsi bütövlükdə bu sahənin azad rəqabət mühitində fəaliyyət göstərməsinə əlverişli şərait yarada bilər.

# III FƏSİL.

# İSTEHLAK KOOPERASİYASININ TƏŞKİLATI STRUKTURU VƏ FƏALİYYƏT MEXANİZMLƏRİ

## 3.1. İstehlak kooperasiyasının təşkilatı strukturu və spesifik xüsusiyyətləri

Qloballaşma şəraitində kooperativ fəaliyyət dünya iqtisadiyyatında önəmli rola malik olmaqdadır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, kooperativ sektorunun fəaliyyəti artıq nəinki inkişaf etmiş, hətta inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi həyatına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Kooperativlərin təşəkkülünün və inkişafının tarixinə qısa ekskurs etsək belə qənaətə gəlmək olar ki, artıq iki yüz ildən çox bir müddətdə kooperativlərin çox müxtəlif növləri fəaliyyət göstərməkdədir. İndiki dərinləşən qloballaşma şəraitində onların ümumi sayı təxminən 150-yə qədərdir. Dünya iqtisadiyyatı üzrə kooperativ sektorunda 100 milyondan çox işçi və qulluqçu çalışır [65, 83].

Birgə məqsədləri həyata keçirmək üçün iştirakçıların səy və resurslarının könüllü birləşməsi olan kooperasiya prinsip etibarilə iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinin geniş təkrar istehsalı və o cümlədən də istehsal, təchizat və satış problemlərinin effektiv şəkildə həll edilməsində əhəmiyyətli rol oynayır. Artıq Qərbi Avropa ölkələrində və xüsusən də, Avropa İqtisadi Birliyinə daxil olan ölkələrdə kənd təsərrüfatının demək olar ki, xeyli hissəsi kooperativ birliklərin sərəncamındadır. Kooperativlər - fiziki şəxslərin yaxud fiziki və hüquqi şəxslərin iqtisadi, təsərrüfat və sosial tələbatlarını ödəmək məqsədilə onların səy və resurslarının könüllü birləşməsi əsasında yaradılan və fəaliyyət göstərən təsərrüfat subyekti olduğundan, iqtisadiyyatın ayrı-ayrı sahələrində istehsal-satış fəaliyyətinin kapital resurslarına olan ehtiyacları effektiv şəkildə ödənilə bilir [64, 148].

İstehlak kooperasiyası tarixən şəhərlə kənd, sənaye və kənd təsərrüfatı arasında əmtəə mübadiləsini həyata keçirən təşkilat kimi formalaşmışdır. Belə kooperasiya təşkilatları XIX əsrin sonlarından yaradılmağa başlamış, Azərbaycanın da tərkibində olduğu Sovetlər İttifaqının mövcud olduğu bütün dövr ərzində fəaliyyət göstərmişdir. Hazırda bu təşkilat forması respublikamızda Azərbaycan Mərkəzi Kopperativlər İttifaqı (*Azərittifaq*) adı ilə fəaliyyət göstərir. İndi respublikanın 79 rayon və şəhərlərində bu təşkilatın şöbələrinin tabeçiliyində, o cümlədən ayrı-ayrı yaşayış məntəqələrində müxtəlif fəaliyyət sahələrinə aid müəssisələri vardır. Kooperativlər İttifaqının 2008-ci ilin sonuna 530 mindən artıq payçısı vardır ki, bunlar da 981 məntəqədə yaşayırlar. Kooperativlər İttifaqının 2007-ci ilin sonuna 6000 mindən artıq payçısı vardır ki, bunlar da 1000-dən çox yaşayış məntəqəsində fəaliyyət göstərirlər [48, 187-5].

İstehlak kooperasiyasının mülkiyyəti kollektiv mülkiyyətin bir növüdür. Bu mülkiyyətin formalaşması, fəaliyyəti və müdafiəsi «Kooperasiya haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Bu qanunda mülkiyyət münasibətlərinin bütün tərəfləri - istehlak cəmiyyətlərinin və Mərkəzi Kooperativlər İttifaqının bütün səviyyələrində mülkiyyətin idarə olunması, sərəncam verilməsi kimi məsələlər tənzimlənir. İstehlak cəmiyyətinin hər bir üzvü özünün keçirdiyi pay haqqına, həmçinin əldə etdiyi səhmlərə, istiqrazlara, digər qiymətli kağızlara müvafiq olaraq cəmiyyətin mülkiyyətinə pay hüququna və ona hesablanmış dividendə malikdir. İstehlak kooperasiyası müəssisəsinin əmək kollektivinin üzvlərinin vergilər və digər məcburi ödənişlər həyata keçirildikdən sonra müəssisənin sərəncamında qalan mənfəətin bir hissəsinə malik olmaq hüququ vardır [7, 187-11].

İstelak təyinatlı kooperativin səs hüququ olan üzvü müəyyən olunmuş qaydada və həcmdə üzvlük haqqı verən və kooperativdə səs hüququna malik olan fiziki və hüquqi şəxs hesab edilir. Bununla belə, kooperativlərin fəaliyyətində kooperati-

vin səs hüququ olmayan üzvləri də iştirak edir. Kooperativlərin səs hüququ olmayan üzvləri kooperativin nizamnaməsini qəbul edən, kooperativin nizamnaməsi ilə müəyyən olunmuş qaydada və həcmdə üzvlük haqqı və pay haqqı verən, bunun müqabilində dividend alan və kooperativin idarə edilməsində iştirak etməyən fiziki və hüquqi şəxslər hesab edilir [109].

İstehlak təyinatlı kooperativlərin fəaliyyəti zamanı kapital resurslarına olan ehtiyaclar bir qayda olaraq, istehsal və xidmət göstərilməsindən əldə olunan pul gəlirləri və üzvlük haqları - fiziki və ya hüquqi şəxsin kooperativin üzvlüyünə daxil olarkən verdiyi pul, pay haqqı (*pay*) - kooperativ üzvünün kooperativin pay haqqı fonduna verdiyi vəsaitlər hesabına ödənilir. Pay haqqı səs hüququna malik olan üzvlərə mütləq pay və əlavə pay və səs hüququna malik olmayan üzvlər üçün pay formasında olur. Kooperativ təşkilatların üzvləri kooperativ fəaliyyətin həyata keçirilməsi məqsədilə mütləq pay, əlavə pay ödəyirlər. Mütləq pay - səsvermədə və kooperativin fəaliyyətində iştirak etmək və kooperativ ödənişlərini almaq hüququ verən kooperativ üzvünün verdiyi payı, əlavə pay - kooperativin səs hüququna malik olan üzvü tərəfindən kooperativin nizamnaməsində müəyyən olunmuş qaydada və həcmdə dividend almaq üçün öz arzusu ilə mütləq paydan artıq verdiyi payı özündə əks etdirir. Kooperativ təşkilatın üzvləri həyata keçirilən fəaliyyətin nəticəsi olaraq kooperativ ödənişlər və dividendlər əldə edirlər. Kooperativ ödənişlər kooperativ üzvlərinin kooperativdə şəxsi əmək iştirakına və ya kooperativin fəaliyyətində iştirakına mütənasib kooperativ üzvləri arasında bölüşdürülən kooperativ mənfəətinin bir hissəsini, dividendlər isə səs hüququna malik olan kooperativ üzvlərinin əlavə payına və səs hüququna malik olmayan kooperativ üzvlərinin payına görə kooperativ mənfəətindən ödənilən hissəni özündə əks etdirir [64, 81].

Ümumiyyətlə, dünya ölkələrinin praktikası göstərir ki, kooperativ fəaliyyətin həyata keçirilməsi dövlətin qanunvericilik aktları və eləcə də kooperasiya fəaliyyətini tənzimləyən hü-

quqi-normativ aktlarla bilavasitə bağlıdır. Respublikamızda kooperativ fəaliyyətin həyata keçirilməsi qeyd olunduğu kimi, bilavasitə ölkə Konstitusiyasına, «Kooperasiya haqqında” Azərbaycan Respublikası Qanununa əsaslanır. Bu qanunda Azərbaycan Respublikasında kooperativlərin (*kooperativ cəmiyyətlərinin*), onların ittifaqlarının (*assosiasiyalarının*) yaradılmasının və fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsasları müəyyən edilir. Qanuna görə kooperasiya - birgə məqsədləri həyata keçirmək ucun iştirakçıların səy və resurslarının könüllü birləşməsi; kooperativ isə - fiziki şəxslərin yaxud fiziki və hüquqi şəxslərin iqtisadi, təsərrüfat və sosial tələbatlarını ödəmək məqsədilə onların səy və resurslarının könüllü birləşməsi əsasında yaradılan və fəaliyyət göstərən təsərrüfat subyektidir [187-11].

Ümumiyyətlə götürdükdə, iqtisadiyyatda istehlak təyinatlı kooperativlərin yaradılmasının və fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

- kooperativdə könüllu üzvlük;
- kooperativ üzvlərinin qarşılıqlı yardım və iqtisadi faydalılığının təmin olunması, mənafelərinin əlaqələndirilməsi; kooperativ üzvləri arasında kooperativin gəliri və zərərinin kooperativin fəaliyyətində iştirakına və ya şəxsi əmək iştirakına görə pay haqqı nəzərə alınmaqla bölüşdürülməsi;
- kooperativin demokratik əsaslarla idarə edilməsi (*o cümlədən, səs hüququna malik olan kooperativ üzvünün payının həcmindən asılı olmayaraq bir səsə malik olması*);
- kooperativin təsərrüfat müstəqilliyinə malik olması.

Fəaliyyət xarakterinə görə istelak təyinatlı kooperativlər də istehsal, istehlak kooperativləri və yaxud qarışıq növlü (*istehsal-istehlak*) ola bilər. Bütün hallarda növ müxtəlifliklərindən asılı olmayaraq, kooperativlərin hüquqlarını aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- qanunvericilikdə nəzərdə tutulan qaydada istənilən fəaliyyətlə məşğul olmaq;
- ölkə banklarında və başqa dövlətlərin banklarında hesab açmaq;
- müstəqil surətdə əmlaka sahiblik, əmlakdan istifadə və əmlaka sərəncam vermək;
- kooperativlər ittifaqında (*assosiasiyalarda*) birləşmək və beynəlxalq kooperativ təşkilatlarının fəaliyyətində iştirak etmək;
- müqavilə bağlamaq, öz üzərinə əmlak öhdəliyi götürmək;
- dövlət tərəfindən tənzimlənən qiymət və tariflər istisna olmaqla öz məhsulu, işi və xidmətinə qiymət və tarif müəyyən etmək;
- ölkə daxilində və xaricdə müəssisələr, filial və nümayəndəliklərini yaratmaq;
- xarici iqtisadi fəaliyyətlə məşğul olmaq;
- özünün təşkilat strukturunu müəyyən etmək;
- kooperativi yenidən təşkil etmək və ləğv etmək.

Fəaliyyət xarakterinə görə kooperativlər istehsal, istehlak kooperativləri və yaxud qarışıq növlü (*istehsal-istehlak*) ola bilər. Dövlət, kooperativlərin yaradılmasını və fəaliyyətini güzəştli kreditlər ayırmaqla və digər vəsaitlərlə stimullaşdırır, hüquqlarının müdafiəsinə təminat verir. Kooperativlərin təsərrüfat, maliyyə və digər nov fəaliyyətinə, idarəetmə və nəzarət orqanlarının seçilməsinə, vəzifəli şəxslərin təyin olunmasına və onların vəzifədən azad edilməsinə dövlət və bələdiyyə orqanlarının müdaxiləsinə yol verilmir. Kooperativlərdə yoxlama, onların fəaliyyətinə nəzarət qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilir.

İstehlak təyinatlı kooperativin əmlakı onun əsas fondlarından, dövriyyə vəsaitlərindən və balansında göstərilən digər maddi dəyərlərdən ibarətdir. Kooperativin əmlakı onun üzvlərinin xüsusi (*ümumi paylı, ümumi birgə*) mülkiyyətindədir.

Kooperativin əmlakı özünün və cəlb edilən vəsaitlərin hesabına yaranır. Cəlb edilən vəsaitin həcmi kooperativin ümumi vəsaitinin 50 faizindən çox olmamalıdır. Kooperativin vəsaiti kooperativ üzvlərinin üzvlük haqqı, pay haqqı, təsərrüfat fəaliyyətindən əldə edilən gəlir və qanunvericiliklə qadağan olunmayan digər gəlir mənbələri hesabına yaranır.

Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün fondlar yaradır. Kooperativlər öz fəaliyyətlərini əlaqələndirmək, hüquqlarının müdafiə edilməsini təmin etmək, ümumi mənafelərini dövlət və digər orqanlarda, təşkilatlarda, habelə beynəlxalq təşkilatlarda təmsil olunması və digər məqsədlər ilə könüllülük əsasında sahə, ərazi və başqa prinsiplərə əsasən ittifaqlar (*assosiasiyalar*) yarada bilərlər. İttifaqları iki və daha çox kooperativ yarada bilər. İttifaqın üzvlüyünə başqa hüquqi şəxslər də daxil ola bilərlər. İttifaqın tərkibinə daxil olan kooperativlər və hüquqi şəxslər öz təsərrüfat müstəqilliklərini və hüquqi şəxs statuslarını saxlayırlar. İttifaqın üzvləri onun xidmətlərindən əvəzsiz olaraq istifadə etmək hüququna malikdirlər [7, 187-11].

Xüsusilə keçid dövründə istehlak təyinatlı kooperativ fəaliyyətin həyata keçirilməsi dövlət tərəfindən davamlı olaraq dəstəklənməlidir. İnkişaf etmiş ölkələrdə dövlət iqtisadiyyatda azad rəqabət mühitinin formalaşdırılmasını təmin etmək məqsədilə sosial-iqtisadi proseslərin hüquqi baxımdan tənzimlənməsini həyata keçirir. Bundan əlavə dövlət, kooperativlərin yaradılmasını və fəaliyyətini güzəştli kreditlər ayırmaqla və digər vəsaitlərlə stimullaşdırır, hüquqlarının müdafiəsinə təminat verir. Kooperativlərin təsərrüfat, maliyyə və digər növ fəaliyyətində, idarəetmə (*o cümlədən, sədrinin*) və nəzarət orqanlarının seçilməsində, vəzifəli şəxslərin təyin olunmasında və onların vəzifədən azad edilməsində dövlət və bələdiyyə orqanlarının müdaxiləsinə yol verilmir. Kooperativlərdə yoxlama, onların fəaliyyətinə nəzarət qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilir. Kooperativlərin hüquqlarının pozulması nəticəsində kooperativlərə dəymiş zərər təqsirli şəxslər tərəfindən

ödənilməlidir. Bu cür zərərlərin ödənilməsi barədə mübahisələrə məhkəmə və ya iqtisad məhkəməsində baxılır [7].

İstehlak təyinatlı kooperativ ücdən az olmayan fiziki və hüquqi şəxs tərəfindən yaradılır. Kooperativ yaratmaq arzusu olan şəxslər bu məqsədlə təşəbbüs qrupu yaradır. Təşəbbüs qrupunun vəzifələrinə aşağıdakılar daxildir [81, 148].

- pay haqqı fondunun həcmi və onun mənbələri göstərilməklə kooperativin nəzərdə tutulan istehsal-təsərrüfat fəaliyyətinin əsaslandırılması;
- kooperativin nizamnamə layihəsinin hazırlanması;
- kooperativ üzvlüyünə daxil olmaq barəsində ərizələrin qəbulu;
- kooperativ üzvlərinin təsis yığıncağının hazırlanması və keçirilməsi.

Araşdırmalar göstərir ki, dərinləşən qloballaşma şəraitində də kooperativlərin ən geniş yayılmış növ müxtəlifliklərinə istehlak kooperasiyaları şamil edilir. İstehlak kooperasiyalarının kooperativlərin digər növ müxtəlifliklərindən başlıca fərqi onların daha çox sosial təminatlı xidmətlər göstərməsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, istehlak kooperasiyaları mövcud olduqları bütün dövrlərdə tam mənası ilə istehlak təsərrüfatı kimi fəaliyyət göstərmişlər. İstehlak kooperativləri müxtəlif iqtisadi sistemlərdə belə öz təbiətlərini qoruyub saxlamışlar. Onların mənşəyini araşdırarkən belə qənaətə gəlmək olar ki, bu terminlər iqtisadi sistemlər və iqtisadiyyatın təşkilinin tipləri ilə eyni dövrə təsadüf edir.

İstehlak təsərrüfatlarının fəaliyyətini təhlil edərkən tədqiqatçılar daha çox iqtisadi nəzəriyyənin kifayət qədər populyar xarakter daşıyan metodlarından istifadə edilməsinə fikir verirlər [148]:

- istehlak cəmiyyətləri xətti ilə məhsul istehsalı və bölgüsü zamanı daha çox iqtisadi təzahürlər və qarşılıqlı əlaqələr ön plana çəkilməli, eyni zamanda tarixən bölgü münasibətlərinin müasir kooperativlərə təsiri araşdırılmalıdır.

- iqtisadi proses və strukturların fəaliyyəti məqsədilə məqsəd, metod və vasitələrin təhlili aparılmalıdır.

Ümumiyyətlə götürdükdə, istehlak kooperasiyalarının nəzəri əsaslarını araşdırarkən bir sıra əsas terminlərdən istifadə olunması məqsədəuyğun hesab edilir. Bu baxımdan təsərrüfat kateqoriyası və onun sosial-iqtisadi anlamı daha çox maraq doğurur. Təsərrüfat iqtisadi prinsiplərə əməl olunması əsasında bu və ya digər məhdud həcmdə məhsul istehsalı və xidmətlər göstərilməsini hədəfləyən planauyğun kollektiv fəaliyyəti özündə əks etdirir. Təsərrüfatın əsasını müəssisələr təşkil edir. Müəssisələr isə ictimai və şəxsi tələbatı ödəmək məqsədilə məhsul istehsalı və xidmətlərin göstərilməsi üzrə təsərrüfat strukturlarının planauyğun təşkilini özündə əks etdirir. Bu baxımdan istehlak kooperasiyasının nəzəriyyəsində istehlak təsərrüfatı və kooperativi anlayışına iki aspektdən yanaşılmalıdır. Birincisi, təsərrüfat anlayışı, ikincisi isə, müəssisə anlayışı ilə bağlıdır [130, 148].

Məlum olduğu kimi, kooperativ müəssisələr, o cümlədən istehlak kooperativləri digər müəssisələrdən öz sosial təyinatı ilə fərqlənir. İstehlak kooperativlərinin formalaşması və inkişafının təhlili göstərir ki, onların məcmu fəaliyyət toplumuna və onun nəticələrinə istehsal, sosial və ictimai amillər daha çox təsir göstərir. Fəaliyyətinin konkret tərəflərindən asılı olmayaraq, istehlak təsərrüfatları və ya istehlak kooperativləri aşağıdakı məcmu fəaliyyət elementləri özündə əks etdirir:

- müəyyən məqsədin reallaşdırılmasına istiqamətlənməklə payçı sahibkarların istehsal faktorlarının kombinasiyası;
- kooperativlərdə fəaliyyət göstərən hər bir işçinin sosial maraqlarının qorunub saxlanılması;
- cəmiyyətin ehtiyaclarının ödənilməsi məqsədilə zəruri fəaliyyətin həyata keçirilməsi.

İstehlak kooperasiyasının formalaşması və inkişafı cəmiyyətin konkret tarixi xüsusiyyətlərindən bilavasitə asılı olmuş-

dur. İstehlak kooperasiyasının inkişafına iqtisadi sistemin tipi və xarakteri, mülkiyyət münasibətlərinin spesifik xüsusiyyətləri, dövlətin sosial-iqtisadi sistemə müdaxiləsinin miqyası və hədləri də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bazar iqtisadi münasibətləri mülkiyyətin çoxnövlülüyünə və çoxukladlı iqtisadiyyatın inkişafına əlverişli şərait yaratdığından istehlak kooperasiyaları da kollektiv mülkiyyətin mühüm tərkib hissəsi olmaqla, əlverişli inkişaf perspektivlərinə malik olur.

Hal-hazırda dövlət müstəqilliyini yaşayan kooperasiya sistemi vahid xalq təsərrüfatı kompleksinin mühüm tərkib hissəsi olmaqla əhalinin gündəlik tələbat məhsullarına olan ehtiyaclarının qarşılanmasında əhəmiyyətli rol oynayır. Qeyd etmək lazımdır ki, qloballaşma şəraitində istehlak kooperasiyasının inkişafına keçid dövrünün spesifik xüsusiyyətləri də öz təsirini göstərir. Transformasiya prosesinin ilkin mərhələlərində təsərrüfatsızlıq hallarının geniş vüsət alması istehlak kooperasiya sistemində əmlakın xeyli hissəsinin dağılmasına və bu sistemin fəaliyyətinin iqtisadi göstəricilərinin aşağı düşməsinə səbəb olmuşdur. İnkişaf etmiş ölkələrin praktikası göstərir ki, xüsusilə keçid dövründə kooperasiya münasibətlərinin, o cümlədən onun mühüm tərkib hissəsi olan istehlak kooperasiyasının elmi əsaslarla idarə olunması və dövlət tərəfindən tənzimlənməsi (*eyni zamanda dəstəklənməsi*) qloballaşmanın dərinləşməsi, bazar münasibətlərinin formalaşması və inkişafı baxımından da xüsusi əhəmiyyət kəsb edir.

İstehsalın idarə olunmasının obyektiv zəruriliyindən bəhs edərək K.Marks qeyd etmişdi ki, ictimai əmək də müəyyən dərəcədə idarə olunmağa möhtacdır, çünki bu idarəetmə fərdlərinin fəaliyyəti arasında ahənglik yaradır və istehsal orqanizminin müstəqil orqanlarının hərəkətindən fərqli olaraq, bütün istehsal orqanizminin hərəkətindən doğan ümumi vəzifələr yerinə yetirilir [45].

Hazırda dərinləşən qloballaşma şəraitində kooperasiya sistemində idarəetmə sistemlərinin təkmilləşdirilməsi və inkişaf

etdirilməsi bu sahənin fəaliyyətinin rəqabətə davamlılığının yüksəldilməsi baxımından mühüm rol oynayır. Təbii ki, istehlak kooperasiyasının xüsusilə regionlarda fəaliyyətinin düzgün təşkil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Praktiki olaraq heç bir əlavə maddi, əmək və maliyyə resursları sərf etmədən yalnız idarəetmənin özündə lazımi qayda yaratmaqla böyük iqtisadi səmərə əldə etmək olar.

Apardığımız tədqiqatlar göstərir ki, ötən əsrin 70-80-ci illərində respublikanın iqtisadi inkişafında əldə edilmiş nailiyyətlərdə istehlak kooperasiyasının da önəmli payı olmuşdur. Təbii ki, əhalinin istehlak məhsullarına olan ehtiyaclarının səmərəli şəkildə təmin edilməsi kooperativ istehsal və ticarət müəssisələrinin uğurlu fəaliyyətindən də bilavasitə asılı olmuşdur. Lakin bütövlükdə götürdükdə, mərkəzləşdirilmiş planlaşdırma sisteminin öz iqtisadi potensialını tükəndirməsi, xüsusilə iqtisadi cəhətdən müstəqilliyini qoruyub saxlamalı olan payçı təsərrüfatlarının hüquqlarının məhdudlaşdırılması bu sistemin də iqtisadi böhranın təsirlərinə məruz qalmasına gətirib çıxarmışdır. Bütün bunlar isə son nəticədə istehlak bazarında yerli istehsal hesabına əhalinin istehlak məhsullarına və müxtəlif xidmətlərə olan tələbatının ödənilməməsinə gətirib çıxarmışdır. Təbii ki, iqtisadi cəhətdən özünü doğrultmayan sistem və onun forma və üsulları liberallaşdırılmağa ehtiyaclı idi. Bütün bunlar isə iqtisadi sistemdə və onun mühüm tərkib hissəsi olan kooperasiya münasibətləri sferasında köklü islahatların həyata keçirilməsini tələb edirdi.

## 3.2. İstehlak kooperasiyasının idarə edilməsi və tənzimlənməsi mexanizmləri

Kooperativ təşkilatlarda, eləcə də onların ittifaqlarında elmi əsaslarla idarəetmə sistemlərinin formalaşması, fəaliyyət göstərməsi və inkişafı bu proseslərin nəzərə alınmasını tələb edir. Kooperativ təşkilatların inkişafının bazar münasibətləri-

nin xarakterinə uyğunlaşdırılması onların xarici iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin kooperativ sektorun fəaliyyətinə tətbiq edilməsi bu sahənin qloballaşma şəraitində rəqabətə davamlılığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə də, idarəetmənin təkmilləşdirilməsinə, yeni birləşmələrin, yeni qurumların yaradılmasına dair reallaşdırılacaq tədbirlərin həyata keçirilməsi və onun maliyyə əsaslarının yaradılması zəruridir. Qeyd etmək lazımdır ki, hal-hazırda istehlak kooperasiyasının inkişaf etdirilməsinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Kooperasiyanın təşkilati əsasını özündə cəmləşdirən və tam sərbəst fəaliyyət göstərən kooperativlərin (*istər istehsalla, istər emalla, istərsə də aqroservis xidməti ilə məşğul olan qurumların*) idarə edilməsinin səmərəliliyinin inteqral ifadəsini fikrimizcə, təsərrüfatçılıq sisteminin rentabelliyi təşkil edir.

Kooperativlər, fermer təsərrüfatları, səhmdar cəmiyyətləri və digər əmtəə istehsalçılarının istehsal etdikləri məhsulların bir qismi sahədən və yaxud fermadan təzə halda bazarlar, tədarük təşkilatları və ictimai iaşə müəssisələri vasitəsilə əhaliyə birbaşa satılır, digər bir qismi isə xammal şəklində sonrakı emal üçün yeyinti sənayesi müəssisələrinə (*un dəyirmanlarına, ət-süd, konserv, şərabçılıq və s. zavod və kombinatlara*) daxil olur. Yeyinti sənayesinin hazır məsulu isə yenə də topdan, pərakəndə ticarət, bazarlar, ictimai iaşə və yarmarkalar vasitəsilə təkrarən əhalinin şəxsi istehlakına yönəldilir [12, 13, 20].

Ümumiləşdirmə və müqayisəli təhlil məqsədilə bu təşkilati struktur həmçinin bölgə və respublika miqyasında da istifadə oluna bilər. Respublikamızda aparılan iqtisadi islahatlar kooperativlərin idarəetmə orqanları sisteminin də yenidən qurulmasını, müxtəlif parametrlərdə müəyyən dəyişikliklər aparılmasını tələb edir. Ancaq iqtisadi praktikada bu tələbə heç də əməl olunmur. Bir sıra region kooperativ təşkilatlarında yaranmış böhranlı vəziyyət rəhbərliyin forma və metodlarının də-

yişdirilməsini, onlardakı idarəetmə aparatının strukturunun təkmilləşdirilməsini zəruri edir.

İdarəetmə ümumi səciyyə daşıyır və cəmiyyətin təbiətindən, onun üzvlərinin əmək münasibətlərindən, əmək prosesində və ictimai həyatda onların bir-birilə təmasda olmaq zərurətindən irəli gəlir. Məhsuldar qüvvələrin rolunu və yerini müəyyən etməklə mütəşəkkilliyi, əmək bölgüsü və kooperasiyanı təmin edən idarəetmə sistemi fəaliyyət göstərmədiyi halda geniş təkrar istehsal prosesinin, eləcə də əhaliyə göstərilən xidmətlərin səmərəliliyini təmin etmək mümkün deyildir. Məlum olduğu kimi, idarəetmə - bu və ya digər məqsədə nail olmaq üçün idarəetmə subyektinin idarəetmə obyektinə inzibati-iqtisadi, sosioloji, psixoloji və hüquqi təsirinin məcmusunu özündə əks etdirir. Səmərəli təsir yalnız onda mümkündür ki, bu təsir bütövlükdə mövcud və ya formalaşmaqda olan sistemin tələblərinə uyğun gəlsin.

Bazar münasibətlərinin tənzimlənməsi və struktur dəyişiklikləri edilməsi prosesləri bir-birilə bağlı və qarşılıqlı surətdə asılıdırlar, çünki bazar malların və xidmətlərin konkret növlərinin tələb və təklifinin müəyyən səviyyədə saxlanılmasını nəzərdə tutur, ixtisaslaşma isə öz növbəsində istehsal strukturunu və məhsul satışının proseslərini səciyyələndirir. Beləliklə, idarəetmənin əsas forma və metodlarının həm ixtisaslaşmaya, həm də bazar münasibətlərinə uyğun gəlməsi təsərrüfatçılığın yeni iqtisadi metodlara keçirilməsi üçün zəruri şərtdir.

İdarəetmənin təşkilinin səviyyəsi əsasən idarəetmə funksiyalarının nə dərəcədə dəqiq müəyyən edilməsindən, düzgün icra olunmasından asılıdır. Məhz elə buna görə funksiyaların sistemləşdirilməsinə və təsnifatlaşdırılmasına, onların mahiyyəti, məzmunu və təyinatının araşdırılmasına həlledici əhəmiyyət verilməlidir. İdarəetmə funksiyalarına isə onların standartlaşmasına şərait yaradan məqsədlərin, vəzifələrin, texnologiyaların müəyyən vəhdəti xasdır.

Mülkiyyət və təsərrüfatçılıq formalarının çoxnövlülüyü istehlak xidmətləri dairəsinin xeyli genişlənməsini tələb edir, çünki aqroservisdən daha geniş istifadə edilməsi, çoxsaylı mexanikləşdirmə işlərinin görülməsi zərurəti yaranır. Xidmətlər toplusuna, onların operativliyinə, etibarlılığına, istehsalçının maraq və ehtiyacının daha dolğun ödənilməsinə tələbat artır. Məhz elə buna görə də regionlarda, eləcə də kəndlərdə istehlak kooperasiyaları müəssisələrinin geniş şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi çox vacibdir. Artıq bazar iqtisadiyyatı şəraitində kənd getgedə daha mürəkkəb bir sosial sistemə çevrilməkdədir.

Regionlarda istehlak kooperasiyalarının inkişaf etdirilməsi xüsusilə kənd təsərrüfatında istehsal edilən məhsulun effektiv şəkildə tədarükünə də əhəmiyyətli təsir göstərə bilər. İstehlak kooperasiyaları könüllü birlikləri özündə əks etdirir. Bu baxımdan regionlarda fəaliyyət göstərən kəndli (*fermer*) təsərrüfatlarının, kooperativlərin və kiçik müəssisələrin kooperasiyasının genişlənməsinə, eləcə də onların assosiasiyalar və ittifaqlarda birləşdirilməsi obyektiv zərurətə çevrilmişdir. Bu assosiasiyalar və ittifaqlar birgə istehsalat (*xidmət*) fəaliyyəti göstərmək məqsədilə könüllü olaraq birləşmiş fermerlərin, kənd təsərrüfatı kooperativlərinin, kiçik müəssisələrin, fiziki şəxs statuslu ailə təsərrüfatlarının könüllü birlikləri olmaqla, qloballaşma şəraitində çevik təşkilati, iqtisadi və hüquqi mexanizmə malik olurlar. Fermer təsərrüfatlarının assosiasiyaları onların iştirakçılarının gəlirlərini artırmaq məqsədilə birgə istehsalın (*xidmətin*) təşkili, kənd təsərrüfatı məsullarının emalı və satışı, fəaliyyətin bütün sahələrində kooperasiyanın mütərəqqi formalarından istifadə, maddi-texniki bazanın inkişaf etdirilməsi, assosiasiya (*ittifaq*) iştirakçılarının qanuni maraq və hüquqlarının kollektiv müdafiəsi yolu ilə yaradıla bilər.

Dərinləşən qloballaşma və inkişaf edən bazar iqtisadiyyatı şəraitində istehlak kooperasiyalarının iqtisadi mexanizmlər vasitəsilə dəstəklənməsi də mühüm əhəmiyyət kəsb edir. Regionlarda fəaliyyət göstərən istehlak kooperasiyalarının tə-

minatlı qiymətlər, güzəştli kreditləşdirmə, vergi güzəştləri və eləcə də məqsədli proqramlar vasitəsilə dəstəklənməsi onların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsində əhəmiyyətli rol oynaya bilər. İnkişaf etmiş ölkələrin praktikasında istehlak kooperasiyalarının inkişafına böyük önəm verilməklə bu qurumlar strateji məqsədli proqramlar və planlaşdırma sistemləri ilə dəstəklənir [37, 124, 141].

Apardığımız tədqiqatlar göstərir ki, strateji planlaşdırma istehlak kooperasiyasında struktur dəyişikliklərinin effektiv şəkildə həyata keçirilməsinə, kooperativ qurumların öz fəaliyyətlərinin genişləndirilməsinə, ən başlıcası isə hazırda daha da kəskinləşən rəqabəti nəzərə almaq imkanlarını artıracaqdır. Qeyd etmək lazımdır ki, strateji planlaşdırmanın ən mühüm prinsipini məqsədlərin seçimi təşkil edir. Bu baxımdan istehlak kooperasiyası qurumlarının bazarın bərabərhüquqlu subyekti kimi çıxış etmələri mühüm faktorlardan biridir.

Məlum olduğu kimi, müstəqil Azərbaycan Respublikası inzibati-amirlik metodlarına əsaslanan mərkəzləşdirilmiş təsərrüfatçılıq sistemindən demokratik prinsiplər əsasında qurulan və azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemə keçməyə başlamışdır. Artıq transformasiya yönümlü islahatların, iqtisadi sistem dəyişikliklərinin ilkin mərhələsi uğurla başa çatdırılmış, mülkiyyətin özəlləşdirilməsi nəticəsində iqtisadiyyatda azad sahibkarlıq qurumları fəaliyyət göstərməyə başlamışdır. Respublikada aparılan məqsədyönlü xarici və daxili siyasət nəticəsində ölkəmiz beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş və bütövlükdə bazar iqtisadi sisteminin əsas atributları ölkənin təsərrüfat həyatında qərarlaşmağa başlamışdır. Xalq təsərrüfatının aparıcı sahələrinin yenidən qurulması və perspektivli fəaliyyətinin təmin olunması istiqamətində radikal islahatlar və struktur dəyişiklikləri hazırda da davam edir. Qeyd etmək lazımdır ki, struktur dəyişikliklərinin həyata keçirilməsi uzunmüddətli bir proses olub, nəticə etibarilə bazar təsərrüfatçılıq sisteminin formalaşmasına xidmət edir. Özəl

bölmələrlə dövlət bölmələri arasında sağlam rəqabətin yaranması, bütün sahələrə sərmayə qoyuluşuna marağın artması, uğurla həyata keçirilən torpaq islahatlarının aparılması, təsərrüfatların inkişafının durmadan təkmilləşdirilməsi onu göstərir ki, respublikanın ictimai-siyasi həyatında sabitlik bərqərar olmaqla müsbət keyfiyyət dəyişiklikləri baş verir, milli iqtisadiyyatımız dünyanın iqtisadi sisteminə inamla inteqrasiya olunur.

Beynəlxalq Kooperativlər Alyansının üzvü olan və ölkə iqtisadiyyatında özünəməxsus yer tutan «Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı - Azərittifaq» da öz fəaliyyətinin bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması istiqamətində müvafiq işlər görmüş, islahatların müvəffəqiyyətlə aparılması üçün normativ hüquqi baza yaradılmış və bu sahədə bir sıra önəmli tədbirlər həyata keçirilmişdir [118]. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın bazar münasibətlərinə keçirilməsi ilə bağlı həyata keçirilən islahat proqramlarında istehlak kooperasiyalarının maraqları da dövlət tərəfindən diqqətdə saxlanılmışdır. Belə ki, bazar münasibətlərinə keçidlə əlaqədar transformasiya yönümlü proseslərin gedişində kooperasiyanın rolunun artırılması dövlətin qarşısında duran vəzifələrdən biri olmuşdur.

Kooperasiyanın inkişaf etdirilməsinə dövlət qayğısının ifadəsi olaraq 18 aprel 1995-ci il tarixli «Aqrar islahatın əsasları haqqında» Azərbaycan Respublikası Qanununda istehlak kooperasiyasının islahatı barədə ayrıca 9-cu maddədə nəzərdə tutulmuşdur. Bundan əlavə, 07 fevral 1996-cı ildə «Kooperasiya haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [7, 187-11].

Məlumdur ki, ölkəmizin kooperatorları 16 noyabr 1996-cı il tarixdə özlərinin növbədənkənar XIX qurultayını keçirmiş, adı çəkilən qanunların tələblərinə uyğun Azərittifaqın yeni nizamnaməsi qəbul olunmuş və kooperasiya sisteminin gələcək inkişafının əsas istiqamətləri müəyyən edilmişdir.

Azərittifaq sistemində iqtisadi islahatların həyata keçirilməsinin birinci mərhələsi 1998-2000-ci illəri əhatə etmişdir. İslahatların qeyd etdiyimiz birinci mərhələsində “Kooperasiya

haqqında" qanuna əsaslanaraq kooperasiyanın bütün fəaliyyət sahələrində islahatların keçirilməsi, idarəetmədə bazar iqtisadiyyatının tələblərinə uyğun mütərəqqi formaların tətbiq olunması, onların gündəlik tələbat mallarına və xidmətlərə olan tələbatlarının ödənilməsi və kəndin sosial vəziyyətinin yüksəldilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi kooperasiyanın başlıca vəzifəsi hesab olunur. Bu mərhələ üçün təsdiq olunmuş iqtisadi islahatlar proqramına uyğun olaraq, sistemdə payçıların könüllü olaraq kooperasiyanın üzvlüyündən çıxdıqları vaxt onların paylarının qaytarılması, yaxud varislərinə verilməsinin hüquqi əsaslarla müəyyənləşdirilmiş kiçik pərakəndə ticarət və ictimai iaşə müəssisələrinin ilk növbədə payçılara və ya əmək kollektivi üzvlərinə təklif olunmaqla özəlləşdirilməsi həyata keçirilmişdir.

Əmlakın özəlləşdirilməsindən əldə olunan vəsait kooperativ təşkilatların, bank ssudalarının və digər kredit borclarının ödənilməsinə, eləcə də, dövriyyə vəsaitinin tamamlanmasına yönəldilmişdir. İslahatların bu mərhələsində kooperasiyanın ayrı-ayrı sahələri üzrə inkişafı təmin edən tələblərinə aşağıdakılar aiddir [13, 187-11]:

- kooperativ cəmiyyətlərin və ittifaqların mallara olan tələbatının ödənilməsinə köməklik məqsədilə malların mərkəzləşdirilmiş qaydada göndərilməsinin təşkili, eləcə də topdan satış bazarlarının səhmdar cəmiyyətləri və birgə müəssisələrə çevrilməsi;
- istehlak müəssisələri və topdan satış fəaliyyəti göstərən qurumları ilə kooperativ təşkilat və müəssisələri arasında birbaşa əlaqələrin yaradılması;
- iqtisadi cəhətdən sərfəli və perspektivli olan pərakəndə ticarət şəbəkəsi infrastrukturunun bazar münasibətlərinə keçid dövrünün konseptual tələbləri baxımından yenidən qurulması, qəsəbə və şəhərlərdə yerləşən və 15-dən çox olan pərakəndə ticarət müəssisələrinin bazasında səhmləri ilk növbədə payçılara

və əmək kollektivi üzvlərinə satılmaqla səhmdar cəmiyyətlərin yaradılması;

- istehlak bazarında kooperasiyanın mövqeyini möhkəmləndirmək və alıcı qüvvəsinin cəlb olunmasında rəqabətə davam gətirmək məqsədilə malların iri partiyalarla ucuz qiymətə alınaraq alıcılara çatdırılmasına qədər bütün mərhələlərdə mütərəqqi formalardan istifadə etməklə xərclərin maksimum azaldılması yolu ilə satış qiymətlərinin aşağı salınmasına nail olunması.

İslahatların birinci mərhələsində kooperativ ticarətinin inkişaf perspektivlərini təmin edən bu tədbirlərin məqsədyönlü və ardıcıl həyata keçirilməsi bu sahədə mövcud olan böhranlı tendensiyaların bu və ya digər şəkildə aradan qaldırılmasına və sahənin fəaliyyətinin sabitləşməsinə əlverişli şərait yaratmışdır. Doğrudur, müəyyən illərdə istehlak kooperasiyasının ayrı-ayrı sahələri üzrə həm artım, həm də azalma müşahidə olunmuşdur. Hal-hazırda da bütövlükdə, kooperasiyanın və xüsusilə kooperativ ticarətin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilir. Buna misal olaraq göstərilir ki, Azərittifaqın sonuncu - XXI qurultayında onun şurası və idarə heyətinin işi barədə hesabat və kooperasiyanın gələcək inkişaf perspektivlərinin əsas istiqamətləri haqqında qərar qəbul etmişdir. Bu qərarda kooperativ təşkilatlarının son illərindəki fəaliyyəti geniş təhlil edilmiş, yaxın illərdə onların qarşısında duran vəzifələr müəyyənləşdirilmişdir. Bütövlükdə kooperasiyanın və kooperativ ticarətinin inkişafına dair tədbirlər planı hazırlanmışdır ki, onun da həyata keçirilməsinə mərkəzi aparat tərəfindən ciddi nəzarət edilir. Respublikanın ümumdaxili məhsul istehsalında kooperativ müəssisə və təşkilatların rolunun artırılması, maliyyə intizamının gücləndirilməsi, hər bir təsərrüfat subyekti üzrə mənfəətin çoxaldılması, rentabelliyin yüksəldilməsi xüsusilə vurğulanmışdır [12, 13].

Bazar münasibətlərinə keçid şəraitində iqtisadiyyatın hər bir sahəsində səmərəli mülkiyyət formaları yaradılır. Bunun

nəticəsidir ki, hazırda iqtisadiyyatımızda çoxnövlü mülkiyyət formaları fəaliyyət göstərir. Konstitusiyada qəbul olunmuş mülkiyyət formaları - dövlət mülkiyyət forması, bələdiyyə mülkiyyət forması və xüsusi mülkiyyət forması əsas, digər mülkiyyət formaları ilə törəmədir. Bunlar əsasən aşağıdakılardır: dövlət mülkiyyəti, xüsusi mülkiyyət, bələdiyyə mülkiyyəti, xırda əmtəə istehsalı ilə səciyyələnən mülkiyyət, şəxsi və fərdi mülkiyyət, kooperativ mülkiyyət, qarışıq mülkiyyət forması və s. [13, 18].

Mülkiyyətin göstərilən çoxnövlü formaları iqtisadi münasibətlər sistemində bir-biri ilə qarşılıqlı əlaqə və təsir halında mövcuddur. Adları çəkilən mülkiyyət formalarından biri kooperativ mülkiyyətidir. Kooperativ mülkiyyətinə həm istehsal, həm də digər maddi və qeyri-istehsal dairələrinə aid kooperativlər daxildir. Kooperativlər könüllü birləşmiş üzvlərin material və pul vəsaitləri hesabına təşkil olunur. Kooperativlər ölkə iqtisadiyyatının sənaye, kənd təsərrüfatı, o cümlədən nəqliyyat, ticarət, kommunal və sosial xidmətlər sahəsində mövcuddur. İqtisadiyyatın ticarət sektoru üzrə fəaliyyət göstərən kooperativ ticarəti bir çox mərhələlərdən keçmişdir. Bunlardan da ən xarakteriki və uzunömürlüsü keçmiş sovet hakimiyyəti dövrünə təsadüf edir. Həmin dövrdə kooperativ ticarəti ictimai təşkilat məzmumu daşımasa da, vahid sovet quruluşu baxımından formalaşır və inkişaf edirdi. Etiraf etmək lazımdır ki, bu dövr ərzində kooperativ ticarəti əhaliyə ticarət xidmətinin göstərilməsində və özünün maddi-texniki bazasının möhkəmləndirilməsində müəyyən nailiyyətlər əldə etmişdir. Qeyd etmək lazımdır ki, kooperativ ticarət kooperativ mülkiyyətə əsaslanır. Onun xüsusi vəsaitinin əsasını payçıların daxilolma və üzvlük haqqı təşkil edir, bu vəsait təsərrüfat fəaliyyəti nəticələrindən əldə edilən mənfəət hesabına artırılır [81, 130, 148].

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra kooperativ ticarətinin fəaliyyətində də müəyyən dəyişiklik baş vermişdir. Belə ki, xalq təsərrüfatının başqa sahələri kimi koo-

perasiya da öz işini bazar iqtisadiyyatı şəraitinə uyğun qurur. Bu da mövcud zərurətdən yaranmışdır. Ölkənin həyatında baş verən hadisələr xalq təsərrüfatının tərkib hissəsi olan kooperasiyadan da yan keçməmişdir. Kənd təsərrüfatı və sənayedə davam edən iqtisadi tənəzzül, uzun illər əməkdaşlıq etdiyimiz MDB ölkələrinin təşkilat və müəssisələri ilə təsərrüfat əlaqələrinin (*öyrənilməsi*) qırılması, istehlak malları, xammal və materiallarla, ticarət-texnoloji avadanlıqlarla təchizatda böyük çətinliklər yaratmışdır. Mal təchizatı olmadığına görə lisenziya ödəmək imkanı olmayan və iqtisadi cəhətdən özünü doğrultmayan bir çox pərakəndə ticarət və ictimai iaşə obyektləri öz fəaliyyətini dayandırmışdır. Bütün bunlar bazar iqtisadiyyatı çətinlikləri ilə bağlı olduğundan, kooperasiya öz işini yenidən qurmalı olmuşdur. Daha dəqiq desək, kooperasiyada islahatların aparılması ilə bağlı kompleks proqram işlənib hazırlanmış və onların həyata keçirilməsi üçün geniş təşkilati tədbirlər həyata keçirilməkdədir [149,151].

Aparılan iqtisadi islahatlar ölkə iqtisadiyyatında özünəməxsus yer tutan kooperasiyanın fəaliyyətində də özünü büruzə verir. Respublikanın bütün rayonlarını əhatə edən geniş ticarət, iaşə xidməti və emal müəssisələri şəbəkəsinə malik olan və 1993-cü ildən Beynəlxalq Kooperativlər Alyansının üzvü olan Azərittifaq sistemi də Dövlət Proqramında nəzərdə tutulan məqsədlərin həyata keçirilməsinə öz geniş iqtisadi potensialı ilə hərtərəfli kömək göstərməyi özünə borc hesab edir.

Yaxın perspektiv üçün kooperasiyanın sosial-inkişaf perspektivləri Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı tərəfindən müəyyən edilmişdir. Bu perspektivlərin reallaşdırılması aşağıdakı istiqamətlərdə həyata keçirilir [00]:

- respublikada kooperasiyanın fəaliyyətinin demokratik dəyərlərə və Beynəlxalq Kooperativlər Alyansının prinsiplərinə uyğun inkişaf etdirilməsi;
- payçı hüquqlarının genişləndirilməsi və qorunması, payçıların idarəetmədə rolunun artması, onların üzvü

olduqları kooperativ təşkilatlardan dividend əmlak payı almaları, kooperativ təşkilatlarda qalmaq və öz payı ilə sərbəst olaraq üzvlükdən çıxaraq səlahiyyətlərinin vərəsəlik və nizamnamə ilə nəzərdə tutulan digər hüquqlarının təmin olunması;

- payçı olmayan kollektivin üzvlərini kooperasiyanın üzvlüyünə cəlb etmək üçün və ya onların əmək kollektivi üzvlüyündə qalmaqlarına marağı yüksəltmək üçün həmin şəxslərin kooperasiyada iş stajı və iş keyfiyyətlərini nəzərə almaqla onlara kooperativ təşkilatının bölüşdürülən mənfəətindən haqq vermək, imtiyaz və güzəştlərdən istifadə səlahiyyəti vermək istiqamətində işlərin davam etdirilməsi;
- saxlanılması kooperasiya üçün iqtisadi cəhətdən səmərəli olmayan təsərrüfat vahidləri və müəssisələrin ilk növbədə payçılara və əmək kollektivi üzvlərinə təklif olunmaqda Azərittifaqın nizamnaməsi ilə müəyyən edilmiş qaydada özəlləşdirilməsi, təsərrüfat fəaliyyətinin yaxşılaşdırılmasına, dövlət büdcəsinə olan borcların ödənilməsinə, əmək haqqına, müasir tələblərə cavab verən müəssisələr və digər səmərəli fəaliyyət sahələri yaradılmasına yönəldilməsi kimi müsbət təcrübənin inkişaf etdirilməsi;
- kooperasiyanın ticarət, emal-istehsal, tədarük, təmir-tikinti nəqliyyat xidməti və tikinti və digər sahələrdə fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə sistemin analoji aqrar fəaliyyət sahələri ilə yeni əlaqələr qurmaqla birgə müəssisələr yaradılması;
- müxtəlif növ kooperativlər, fermer təsərrüfatı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin fəaliyyətlərinin əlaqələndirilməsi, bu məqsədlə xidmət büroları və servis təşkil olunması;
- ölkədə qəbul edilən qanunvericilik aktlarında kooperasiyanın maraqlarının daha dolğun təmsil olunması

üçün ardıcıl və real iş aparılması, kooperasiyanın hökumətlə birgə maraq sferasını təkmilləşdirmək məqsədi ilə qarşılıqlı münasibətlərin mövcud qanunvericiliyə uyğun tənzimlənməsi;

- xarici dövlətlərin iş adamları və şirkətləri ilə iqtisadi əlaqələrin genişləndirilməsi, müxtəlif beynəlxalq maliyyə təsərrüfat qurumları ilə iş birliyi yaradılması, onlara inteqrasiya vasitəsi ilə kooperasiyanın hüquq və mənafelərinin beynəlxalq miqyasda daha geniş təmsil və müdafiə edilməsinə nail olunması müxtəlif aspektlərdən effektlidir: informasiya mübadiləsi baş verir, idarəedicilərin təkmilləşdirilməsi və yeni işgüzar mühitdə fəaliyyəti üçün şərait yaranır. Məhsulların (*xidmətlərin*) yeni bazarlarda sınaqdan çıxarılması prosesi həyata keçirilir. Beynəlxalq əməkdaşlıq qloballaşma mexanizmlərini həyata keçirən və rəqabətli üstünlük əsasında seçim etməyə xidmət edən münasibətlərdir.

Beynəlxalq sferada dərinləşən qloballaşma şəraitində kooperasiya münasibətləri dünya praktikasında strateji istiqamət hesab olunur. Mülki iqtisadiyyatın inkişafı və iqtisadi potensialın reallaşdırılması qarşılıqlı əlaqələrin keyfiyyətindən çox asılıdır. Azərbaycan üçün yeni istehsal sahələrinin yaradılması ənənəvi məhsul buraxılışı ilə yanaşı, məhsul çeşidinin genişləndirilməsi; yeni texnologiyanın alınması və tətbiqi; istehsalçıların münasibətinin öyrənilməsi, milli maraqların reallaşması ümumi məsələlərdə baş verən dəyişikliklərdəndir. Onlar hamısı müqayisədə yaranmış müxtəlif birgə fəaliyyətlərdə eldə edilmiş təcrübə və rəqabət proseslərinin məhsuldar nəticələridir [130, 151]:

Bütün bu qeyd olunanlar beynəlxalq kommunikasiya sistemlərinin iqtisadi çərçivəsində baş verir. Beynəlxalq əlaqələr və dünya iqtisadi sisteminin qloballaşmaya doğru istiqamətlənməsi ölkələrin qarşılıqlı fəaliyyətini dəyişir.

Dərinləşən qloballaşma şəraitində kooperasiyanın yeni istiqamətlərinə aşağıdakılar aiddir [146, 187-9]:

- beynəlxalq iqtisadi əlaqələr sahəsində informasiya bazasının yaradılması və bu sahədə firma və təşkilatların təminatının gücləndirilməsi;
- kooperasiya əlaqələrinin investisiya təminatı ilə gücləndirilməsi;
- ölkənin iqtisadi cazibədarlığı vergi mühitinin əlverişliliyi ilə müəyyən edilir. Eyni zamanda milli subyektlərin xarici ölkələrdə ticarət və digər münasibətlər yaratmasının əsas səbəbi məhz vergilərin səviyyəsindədir;
- dövlət səviyyəsində iqtisadi və sosial razılaşmaların rolunun gücləndirilməsi. Bu onunla əlaqədardır ki, dövlət təminatı və razılığı çərçivəsində kooperasiya əlaqələri daha sabit və mənfəətli olur;
- beynəlxalq iqtisadi münasibətlər içərisində regional inteqrasiya istiqamətlərinə yenidən baxılması zərurəti.

Kooperasiya sistemində fəaliyyət göstərən müəssisələrin inkişafı üçün investisiya və sərmayələrin cəlbində faktiki və strateji maliyyə planlarının hazırlanması müasir dövr baxımından xüsusi əhəmiyyət kəsb edir. Kooperasiya sistemində investisiyaların cəlbində investisiyaların təhlükəsizliyi problemi aktualdır. Belə ki, cəlb olunan investisiyaların çox hissəsi yerli və xarici investorların vəsaitləridir, bu investisiyaların çox hissəsinə dövlət zəmanəti verilmir. Bu amil bazar münasibətlərinin ümumi prinsipinə uyğundur. Bu problemin həlli də bilavasitə bütövlükdə kooperasiya sisteminin, eləcə də onun tərkibinə daxil olan kooperativ ticarətin inkişafını təmin edən amillərdən biridir.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində kooperativ ticarətin inkişaf perspektivləri - yeni ticarət kooperativlərinin yaradılması, mütəmadi ixtisaslaşmış işçi qüvvəsi ilə təmin olunma, normal maddi-texniki bazanın təşkili, digər müəssisələrlə geniş iqtisadi əlaqələrin qurulması və inkişaf etdirilməsi və s. bu kimi tədbirlərdən ibarətdir.

## 3.3. İstehlak kooperasiyasının səmərəlilik göstəriciləri sistemi

Dərinləşən qloballaşma və bazar münasibətlərinin genişlənməsi şəraitində istehsalın səmərəliliyinin yüksəldilməsi getdikcə daha çox aktuallıq kəsb edir. Müasir dövrdə müstəqil Azərbaycan Respublikasının iqtisadi siyasəti iqtisadiyyatın keyfiyyət amillərinə meyilin artması, təsərrüfatın intensiv metodlarına keçirilməsi, dinamik inkişafın təmin edilməsi və istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün bütün ehtiyat və imkanlardan lazımınca istifadə edilməsini tələb edir. Səmərəlilik metodları adətən istehsal münasibətlərinin xarakterindən asılıdır. Bazara keçid şəraitində istehsalın səmərəliliyi ölkə iqtisadiyyatının funksiyasının mühüm nəticəsidir. Mövcud resurslar əsasında ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsi ictimai məhsulun artması və əhalinin rifahının yaxşılaşması ilə izah olunur. Ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəliş kursu müəyyən göstəricilərdə öz əksini tapmışdır. Həmin göstəricilər aşağıdakılardır [3, 8, 27]:

- ümumi daxili məhsulun məsrəflərə və istehsal resurslarına olan nisbəti;
- milli gəlirin məsrəflərə və resurslara olan nisbəti.

Xalq təsərrüfatının bütün sahələrində iqtisadi və sosial səmərəliliyin nisbətinin harmonik şəkildə təmin edilməsi qloballaşma şəraitində mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, ayrı-ayrı sahələrin təsərrüfat fəaliyyətinin səmərəlilik göstəriciləri və onun meyarları həmin sahələrin yerinə yetirdikləri spesifik vəzifələrdən irəli gəlir. Ölkənin iqtisadiyyatının dinamik inkişafı bir sıra sahələrlə yanaşı, istehlak kooperasiyasının inkişafından, eləcə də, bu sahədə fəaliyyət göstərən kooperativ ticarət təşkilatlarının fəaliyyətindən asılıdır.

Məlum olduğu kimi, mal mübadiləsi sferasında malların reallaşması prosesi baş verir ki, bunun nəticəsində həmin malların istehsalı üçün sərf edilmiş əmək və digər məsrəflər mad-

di cəhətdən ödənilir. Malların dövriyyə sürəti geniş təkrar prosesin başa çatma vaxtına bilavasitə təsir göstərir. Ticarətin fəaliyyətində bilavasitə istehsal sahəsinin və mübadilə sferasının məsrəfinin səmərəliliyi öz əksini tapır. Müasir dövrdə istehlak kooperasiyasının və kooperativ ticarətin səmərəliliyinin yüksəldilməsi və onun işinin qiymətləndirilməsi daha aktual problemə çevrilir.

Hazırda kooperativ ticarətinin iqtisadi səmərəliliyini tam xarakterizə edəcək vahid ölçü meyarı yoxdur. Odur ki, bu sahənin səmərəliliyini müəyyən etmək üçün bir yox, bir neçə göstəricilər sistemindən istifadə etmək məqsədəuyğun hesab edilir. Çünki ticarət fəaliyyəti bir-birini şərtləndirən, mürəkkəb asılılıq təşkil edən proseslərlə bağlıdır. Bu mülahizələrlə əlaqədar ticarətin və xüsusən də, kooperativ ticarətin səmərəliliyinin əsas göstəricisi kimi əhalinin tədiyə qabiliyyətinin ödənilməsinin pərakəndə mal dövriyyəsi ilə əhatə olunmasıdır. Bu göstərici vasitəsi ilə əhalinin mal alışı fondlarını reallaşdırmaq olar. Həmin göstərici barədə informasiya, tələb və təklif balansı əsasında müəyyən edilə bilər. Müasir tələblərə görə ticarətin qarşısında duran vəzifə təkcə malların istehsalçıdan istehlakçıya çatdırılmasından ibarət deyil. Az məsrəflərlə rasional istehlakın təmin edilməsi bazar iqtisadiyyatı şəraitində ticarət sektorunun qarşısında duran əsas vəzifələrindən biridir. Qeyd etmək lazımdır ki, əgər malların dövr etməsi sürətlənərsə, onda mal ehtiyatlarının saxlanmasına yönəldilən dövriyyə vəsaiti ticarətdən azad oluna bilər və ölkə iqtisadiyyatının digər sahələrinə yönələ bilər. Bu da ticarətin bir sahə kimi xalq təsərrüfatı əhəmiyyətli olması deməkdir.

Elmi-texniki tərəqqi mal dövriyyəsinin artmasına az işçi qüvvəsi ilə yüksək dövriyyə göstəricilərinə nail olunmasına təsir edir. Ticarət fəaliyyətinin faydalılığının artması ticarət proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması prosesi ilə sıx əlaqədardır. Bu işdə tətbiq olunan mütərəqqi iş formalarından qablaşdırılmış malların ticarətinin artırılmasını qeyd etmək lazımdır, bütün bunlar əmək haqqı fonduna qənaət

edilməsinin və ölkədə əmək resurslarından rasional qaydada istifadə etməyin başlıca şərtidir. Mühüm göstəricilərdən biri də əhaliyə xidmətin keyfiyyəti göstəricisidir. Sözsüz ki, bu göstərici ticarətin spesifik vəzifələrinin icrası ilə bilavasitə bağlıdır və ticarətin mədəni xidmət səviyyəsini əks etdirməklə aşağıdakı məsələləri şərtləndirir [19, 81]:

- əhaliyə tələbatına görə geniş çeşiddə daimi mövcud olan malların satılması;
- istehlakçılara müxtəlif formada göstərilən pullu xidmətlər;
- regionların və yaşayış məntəqələrinin ticarət şəbəkəsi ilə təmin edilmə səviyyəsi;
- əlverişli metodlar və mütərəqqi üsullarla ticarət xidmətinin göstərilməsi;
- mal alışı üçün az vaxt sərf edilməsi;
- malların reklamı və s.

Həmin göstəricilər bilavasitə topdansatış ticarətinin fəaliyyətindən də asılıdır. Yüksək ticarət xidməti əhalinin mal alışı üçün sərf etdiyi vaxta qənaət mənbəyidir. İstehlak məsrəflərinin ixtisar edilməsi əməkçilərin asudə vaxtının artması üçün şərait yaradır, bu da məlum olduğu kimi, sosial inkişafın əsas vasitələrindən biridir. Bu məsrəflərin azalması ticarətin səmərəliliyinin bir meyarı kimi qəbul edilə bilər.

Asudə vaxtın rasional qaydada istifadə edilməsi insan sağlamlığı üçün başlıca şərt olmaqla yanaşı, növbəti iş günü üçün insanların özünü işə hazırlaması, onların təkrar istehsal kimi başa düşünməlidir. Bu sahədə əsas istiqamət ticarətdə özünə xidmət üsulundan geniş istifadədir. Ticarətə elmin və texnikanın yeni nailiyyətlərini hərtərəfli etmək vacib şərtdir, istehlaka daha yaxşı hazır olan malların satışını təşkil etməkdən ibarətdir. Bu səmərəlilik göstəricilərinin ticarətdə tətbiqi hələ çətinliklərlə rastlaşır, çünki bəzi xidmət göstəricilərinin meyarı hələ də müəyyənləşdirilməmişdir. İstehsal kooperasiyasında və kooperativ ticarətdə mənfəət və rentabellik kimi iqtisadi sə-

mərəliliyin göstəricilərinin əhəmiyyəti böyükdür. Ticarətdə mənfəətin müəyyən edilməsi ümumi gəlirdən məsrəfləri çıxmaqla yerinə yetirilir. Mənfəət ticarətin fasiləsiz və dolğun fəaliyyəti üçün əsas iqtisadi göstəricidir. Mənfəət başqa sahələrdə olduğu kimi təsərrüfat hesablı göstəricidir. Burada iqtisadi səmərəlilik özünü tam şəkildə əks etdirir. Təsərrüfat hesabının həyata keçirilməsi şəraitində ticarət fəaliyyətinin qənaətçilik göstəricisidir. O ticarətin son və maliyyə göstəricisidir. İqtisadi həvəsləndirmə fondunun fond yaradıcısı göstəricilərindəndir. Elə buna görə də, istehlak kooperasiyasının və kooperativ ticarətinin qarşısında duran başlıca vəzifə təsərrüfat fəaliyyətinin rentabelliyinin yüksəldilməsi üçün daimi ehtiyatlar axtarılmasından ibarətdir. Rentabellik ticarət mənfəətinin nisbi göstəricisidir. Mənfəətin əsas və dövriyyə fondlarına və bütün məsrəflərə nisbətini göstərir [148].

İstehlak kooperasiyası və kooperativ ticarətin təsərrüfat fəaliyyətinin başlıca səmərəlilik göstəricisi rentabelliyi əks etdiren struktur quruluş Sxem 3,1-də əksini tapmışdır:

***Sxem 3.1***

**Kooperativ ticarətində rentabellik göstəricisinin sxemi**



Müasir dövrdə səmərəliliyin üç forması mövcuddur. Bunlar ümumi iqtisadi səmərəlilik, sosial-iqtisadi səmərələlik və sosial səmərəlilikdir [176-178].

Ümumi iqtisadi səmərəlilik - istehsal qüvvələrinin inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu səmərəlilik formasının meyarı ümdə resurslar hesabına istehsal nailiyyətlərinin maksimum artmasıdır.

Sosial-iqtisadi səmərəlilik fərdi və ictimai tələbatın ödənilməsi prosesində mövcud ictimai istehsal prosesləri şəraitində bilavasitə istehsal qüvvələrinin inkişafı səviyyəsinə əsaslanır.

Sosial səmərəlilik - sosial-iqtisadi səmərəliliyin bir hissəsidir və cəmiyyət üzvlərinin həyat tərzinin formalaşmasında əsaslı surətdə təsir göstərən tədbirlərin vasitəsilə müəyyən edilir. Bu səmərəlilik formasının başlıca meyarı sosial xarakterli tələbatın insanların maddi və mədəni tələbatına daxil etməklə, onların ödənilməsi üçün yönəlmiş resurslar nisbətinin təyin edilməsidir.

İqtisadi və sosial səmərəliliyin yüksəlməsi yalnız iqtisadi səmərəliliyin yüksəldilməsi nəticəsində mövcud ola bilər. Fondverimi, əmək məhsuldarlığı göstəricilərindən fərqli olaraq, səmərəlilik göstəricisi nəticəvi xarakterli kateqoriya kimi çıxış edir. Elə buna görə də iqtisadi səmərəlilik göstəricisi təkrar istehsal kateqoriyasıdır. Çünki məhsulun təkrar istehsalının bütün mərhələlərində rastlaşılır.

İstehlak kooperasiyasının hər bir fəaliyyət sahəsinin səmərəliliyinin qiymətləndirilməsi müəyyən meyar əsasında həyata keçirilir. Bu meyar xalq təsərrüfatının faydalılığı meyarının təkmilləşdirilməsi əsasında yaradılır.

Ticarətin səmərəliliyi aşağıdakı tələblərə cavab verməlidir [25, 29, 130]:

- ümumi xalq təsərrüfatının səmərəliliyinin meyarı ilə reallaşdırılmış ticarətin spesifik funksiyaları tələblərini xarakterizə etməyi bilsin;
- optimal planlaşdırma aləti kimi ictimai inkişafın

sosial-iqtisadi əlaqələrini əks etdirsin;

- kollektivlərin və onların ayrı-ayrı üzvlərinin fəaliyyət sahələrinin yüksək göstəricilərə istiqamətlənməsi, bütün resurslardan rasional qaydada istifadə edilməsi qənaət rejiminin güclənməsi və artırılmasına yönəldilməlidir.

İntensivləşmə və effektlilik biri digərini şərtləndirən və tamamlayan geniş təkrar istehsalın iqtisadi və sosial kateqoriyalarıdır. Belə ki, effektlilik, daha doğrusu effektliliyin yüksəlməsi intensivləşmənin nəticəsi kimi özünü təzahür edir. Effektivlik və intensivləşmə müxtəlif kateqoriyalar olduqları üçün və onların lazımınca fərqlənməsi ayrılıqda təsdiq olunmalıdır.

Müasir şəraitdə ticarət vasitəsilə əhalinin istehlak mallarına olan tələbinin daha dolğun ödənilməsi, ticarətin əsas göstəricisi mal dövriyyəsi həcminin artırılması, strukturunun yaxşılaşdırılması, onun texniki bazasının gücləndirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tədavül dairəsində tətbiqi, ticarətin yüksək ixtisaslı kadrlarla təmin edilməsi və s. məsələlər bir-biri ilə sıx surətdə bağlıdır. Bu məsələlərin kompleks həcmi ticarət potensialının artırılmasının zəruri şərtidir.

Ticarət potensialı dedikdə, müəyyən tarixi dövrdə əhalinin istehlak və gündəlik tələbat mallarına olan tələbatını daha dolğun ödəmək məqsədilə zaman və məkan amilləri nəzərdə tutulmaqla alıcının tələbatının dəyişilməsi istiqamətlərinə uyğun surətdə satışa kəmiyyət və keyfiyyətcə kifayət qədər mal çeşidi çıxarmaq və onu yüksək ticarət xidməti şəraitində realizə etmək imkanlarının məcmusu başa düşülür.

İstehlak kooperasiyasının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində tədavül xərcləri də önəmli rol oynayır. Tədavül xərcləri malların istehsalçıdan istehlakçıya çatdırılmasına qədər pul formasında ifadə olunmuş ictimai əmək məsrəflərinin məcmusunu özündə əks etdirir. Başqa sözlə, tədavül xərcləri malların istehlakçıdan istehlakçıya çatdırılması ilə əlaqədar olan əmək məsrəflərinin pulla ifadəsidir.

Tədavül prosesinin bütün mərhələlərində tədavül xərcləri

yaranır. Xarakterinə görə ticarətdə tədavül xərcləri iki qrupa bölünür [2, 177, 178]:

- prosesində istehsalın davamı ilə əlaqədar olan xərclər;
- istehlak məhsullarının dəyərinin formasının dəyişməsi ilə əlaqədar olan xərclər.

Əlavə 2-də istehlak kooperasiyası sistemində tədavül xərclərinin xarakteristikasını əks etdirən sxem verilmişdir.

İstehsalın davamı ilə əlaqədar olan xərclərə - malların yüklənib daşınması, saxlanması, onların yenidən emal edilməsi, genişlənməsi, çəkilib bükülməsi və s. belə, yəni istehsalın davamı ilə əlaqədar olan əməliyyatların sərf olunan xərcləri daxildir. Bu xərclər yeni dəyərin yaradılması və yaxud da istehsalda yaranan dəyərin yaradılması ilə əlaqədardır. Dəyərin formasının dəyişməsi ilə əlaqədar olan xərclərə məhsulun əmtəə formasından pul formasına dəyişilməsi ilə əlaqədar olan xərclər daxildir. Buraya malların satışı, uçotun aparılması, reklam işinin təşkili və s. xərclər daxildir. Bu xərclər heç bir dəyər yaratmır, dəyərin formalarının dəyişməsini təmin edir və istehsalda yaradılan dəyəri artırmır. Belə xərcləri iqtisadçılar xalis xərclər adlandırırlar. Bu xərclər istehsalın yaratmış olduğu xalis gəlirin hesabına ödənilir. Təcrübədə bu xərcləri bir-birindən ayırmaq bu sıra çətinliklərlə əlaqədardır. Ona görə də həmin xərclər bir-birindən ayrılır. Onların uçotu və planlaşdırılması birgə aparılır.

Tədavül xərcləri üzrə məsrəflər iqtisadi əlamətlərinə görə aşağıdakı kimi qruplaşdırılır [177]:

- əmək haqqı (*əsas və əlavə əmək haqqı üzrə məsrəflərin bütün növləri*);
- digər təsərrüfat sahələrinin ticarətə göstərdiyi xidmətlərlə əlaqədar məsrəflər;
- ticarət prosesində istehlak olunan maddi vəsaitlərin dəyəri;
- malların yüklənib daşınması, saxlanması və satışı zamanı baş verən itkilər.

Tədavül xərclərinin belə bir təsnifatı əsasında ölkədə əmtəə tədavülünün bütün sahələrində, o cümlədən dövlət və koo-

perativ ticarətində, ticarət satışı təşkilatlarında tədavül xərclərinin dəqiq müəyyən olunması və uçotunun aparılması, xərclərin nomenklaturası müəyyən edilmişdir.

Ticarətdə və ictimai iaşə sferasında tədavül xərclərinin nomenklaturasına aşağıdakı maddələr daxildir [177, 178]:

- dəmir yolu, su və hava nəqliyyatı ilə yükdaşıma xərcləri;
- avtomobil nəqliyyatı ilə yükdaşıma xərcləri;
- əməyin ödənilməsi fondu;
- cari xərclər;
- malların saxlanması;
- soyuducu qurğularının saxlanması üzrə xərclər;
- ticarətin reklamı üzrə xərclər;
- kredit üzrə faizlər;
- tara üzrə xərclər və itkilər;
- kadr hazırlığı üzrə xərclər;
- ticarət sferasında nəzərdə tutulan sair xərclər.

Tədavül xərcləri mütəşəkkil və qeyri-mütəşəkkil xərclərə bölünür. Mütəşəkkil xərclər - bilavasitə ticarət anbar funksiyaları və əməliyyatları ilə əlaqədar olan xərcləri özündə əks etdirir. Bunların tərkibində nəqliyyat xərcləri bilavasitə ticarət anbar işçilərinin əmək haqqı, binaların, qurğuların, inventarların saxlanılması və icra edilməsi xərcləri, malların saxlanması, çeşidlənməsi, və qablaşdırılması məsrəfləri, tara əməliyyatları üzrə xərclər və s. daxildir. Qeyri-mütəşəkkil xərclərə isə yuxarı təşkilatların saxlanması xərcləri üzrə məsrəflər aiddir. Bu xərclər ticarət sahələri və mütəxəssislər arasında mütəşəkkil xərclərin ümumi məbləğinə münasib qaydada bölünür və onların tədavül xərclərinə aid edilir.

Tədavül xərclərinin səviyyəsi bir sıra amillərdən asılıdır. Bu amillər aşağıdakılardır [2, 177]:

- mal dövriyyəsinin həcmi və strukturluğu amili;
- mal yeridilməsi yolları və həlqəliyi amili;
- ticarət işçilərinin əmək məhsuldarlığı;
- maddi-texniki bazanın vəziyyəti;
- xüsusi dövriyyə vəsaitinin təmin olunma dərəcəsi;

- malların dövriyyə sürəti;
- digər xalq təsərrüfatı sahələrinin xidmətlərinin dəyəri və s.

Kooperativ təşkilatlarında qənaət rejiminə daha ciddi riayət olunması, qeyri-məhsuldar xərc və itkilərin ixtisar edilməsi; istehsalın inkişafını və təsərrüfatın keyfiyyət göstəricilərinə təsərrüfat hesabına maliyyənin və kreditin təsirinin güclənməsini tələb edir. Tədavül xərclərinin səviyyəsi aşağı olduqca mənfəətin həcmi çoxalır, deməli burada yığım və istehlak fondları yaradılmalıdır. Bu işin yerinə yetirilməsində mühasibat uçotunun rolu böyükdür.

İstehlak təyinatlı kooperativ təşkilatında tədavül xərclərinin uçotunun əsas vəziyyətləri aşağıdakılardır [53, 81]:

- ticarət, ictimai iaşə və tədarük fəaliyyəti sahəsində baş vermiş xərclərin və idarə aparatının saxlanması xərclərinin mühasibat uçotunda ilkin sənədlər əsasında vaxtı-vaxtında və düzgün olaraq hesabatlarda və uçot reyestrlərində əks olunması həmin xərclərin məqsədəuyğunluğunu və qanunauyğunluğunu yoxlamaqla, artıq xərclərin baş verməsi hallarının qarşısının alınması;
- maliyyə vəsaitlərinin xərclənməsi üzərində müntəzəm nəzarət etmək məqsədilə tədavül xərclərinin uçotu və planlaşdırılması müəyyənləşdirilmiş nomenklaturaya uyğun aparılır;
- kooperasiyanın fəaliyyət sahələrində ayın sonuna mal qalığı və satış mallarının məbləğinə aid olan tədavül xərclərinin müəyyən olunmasına dair haqq-hesab cədvəli tərtib edilir;
- topdan və pərakəndə ticarət ictimai iaşə və tədarük təşkilatlarında, hesabat dövründə tədarük xərclərinə, malların itki normaları daxilində əskik gəlməsi əsas vəsaitin amortizasiyası, bank kreditindən istifadə olunması üzrə faiz məbləğləri, azqiymətli və tez köhnələn əşyaların köhnəlməsi və başqa məbləğlər də daxil edilir;

- kooperativ təşkilatlarında tədavül xərcləri və idarə aparatının saxlanması xərclərinə riayət olunmasında nəzarət sisteminin böyük rolu vardır.

Qənaət rejimi - material, əmək və maliyyə resurslarının saxlanması və rasional istifadə edilməsinin istiqamətləri kimi planauyğun qaydada həyata keçirilən tədbirlər sisteminə deyilir. İstifadə olunan resursların istehlak hissəsini özündə əks etdirən xərclər, onların həcminin azaldılması və səviyyəsinin aşağı salınması tədavül xərclərinin həcminin azaldılmasına da təsir göstərir. Bu isə onunla nəticələnir ki, mal resurslarının həcmi artır, təsərrüfatsızlıq halları aradan qaldırılır. Tədavül xərcləri malların realizə prosesində ticarət xidmətinin bütün tələblərinə keyfiyyətcə cavab verən ictimai-zəruri məsrəflərin istifadəsi ilə məhdudlaşdırılmalıdır. Lakin ayrı-ayrı ticarət təşkilatlarında mal ehtiyatlarının saxlanması üçün ayrılmış özünü doğrultmayan xərclər hələ də mövcuddur. İdarə aparatının saxlanması ilə əlaqədar mövcud olan xeyli xərclər, malların daşınmasında qeyri-rasional istifadə olunan xərclər, eləcə də mal və digər dəyərlərin, xidmətlərin itkiləri müxtəlif ticarət təşkilatlarında qeyri-qənaətbəxş olan xərcləri özündə birləşdirir. Bütün bu xərclər ticarət təşkilatının iqtisadi işində olan nöqsanların hesabına yaranır.

Ticarətdə tam əhatəli qənaət rejimi məsrəflərə ehtiyatla münasibət alıcıların sərf etdiyi vaxta qənaət etmək, istehlak məsrəflərinin azalmasına yönəlməlidir. Ekspertlərin tədqiqatlarının nəticələri onu göstərir ki, yuxarıda göstərilən tədbirlərə riayət etmək tədavül xərclərinin həcminin dəyər göstəricilərində 1,5 dəfə fərq verir [24, 25, 81].

Apardığımız tədqiqatlar göstərir ki, yeddi ildən artıq davam edən çox ağır böhrandan sonra, 1997-ci ildən əldə edilmiş siyasi stabillik tendensiyaları respublikanın sosial-iqtisadi göstəricilərinin inkişafının təməlini yaratmışdır. Kooperasiyada da mövcud olan enerji, xammal və müxtəlif növlü materialların qıtlığı, ən əsası isə mövcud qanunların fəaliyyət mexanizminin olmaması bu sahədə yaranmış böhranı daha da dərinləşdirmiş-

dir. Məhz bunun nəticəsidir ki, ölkə əmtəə və xidmət bazarının strukturunda keçmişdə xüsusi çəkisi 37%-ə qədər olan bir qurumun, yəni, kooperasiyanın bugünkü dövriyyədə müvafiq göstəricilər üzrə payı 0,2% təşkil edir. Halbuki, keçmiş dövrlə müqayisədə Azərbaycan kooperatorlarının XX qurultayının materiallarında 2003-cü ilə qədər dövrdə yuxarıda adları qeyd olunan resursların ümumi həcminin qənaət hesabına 75-80% artması nəzərdə tutulurdu. Bu yalnız normativlərin plan səviyyəsinin real baza əsasında uçotu və onun istifadə olunmasına düzgün nəzarət nəticəsində əldə edilə bilər. Əfsuslar olsun ki, bütün bunlar bu qurumda mövcud dövrdə tətbiq olunmur və təsərrüfatsızlıq bütün sahələr üzrə baş alıb gedir. Bunun nəticəsidir ki, hazırda 100-dən çox təsərrüfatdan cəmi 16 kooperativ təşkilatı ilin yekununa görə pərakəndə ticarət dövriyyəsi planını yerinə yetirmiş və göründüyü kimi kooperativ təşkilatlarının çox böyük əksəriyyəti bu əsas göstərici planının icrasını təmin edə bilməmişdir. Hər 5 təşkilatdan 4-ü planı kəsirlə yerinə yetirmişdir. Buna baxmayaraq, iqtisadiyyatın mövcud qeyri-stabil şəraitində heç bir kooperativ təşkilat dövriyyə planını qoymaqla sığorta olunmamışdır. Bu gün plandan kiçik kənarlaşmaları təbii hal kimi qəbul etmək olar və 5%-10% kəsirlə işləyən təşkilata bəlkə də bəraət qazandırmaq olardı. Lakin planı cəmi 8,9% səviyyəsində icra edən Yevlax, 10,3% yerinə yetirən Neftçala, 17,8% yerinə yetirən Oğuz, 27,2% yerinə yetirən Cəlilabad, 31% yerinə yetirən Ağdam, 37% yerinə yetirən Kürdəmir və digər kooperativ təşkilatlarına heç nə ilə haqq qazandırmaq mümkün deyil. Belə halda hansı səmərəli fəaliyyətdən, resurs verimindən söz gedə bilər? Bütün bunlar isə maliyyə və material tutumlu tədbirlərin həyata keçirilməsini tələb edir. Onların iqtisadi cəhətcə maliyyələşdirilməsi bugünkü imkan hüdudlarından əfsus ki, kənardır.

# II HİSSƏ.

# AQRAR SEKTORUN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ İSTEHLAK BAZARININ FORMALAŞMASI AMİLLƏRİ

## IV FƏSİL.

## AQRAR SEKTORUN İNKİŞAFI VƏ ONUN MALİYYƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

### 4.1. Kənd təsərrüfatının müasir vəziyyəti və onun inkişaf perspektivləri

Respublika əhalisinin təqribən yarısı - 4 milyon nəfəri kənd yerlərində yaşayır. Şəhər əhalisinin də bir qismi kənd təsərrüfatı və onun infrastrukturları ilə bağlıdır. İqtisadi fəaliyyətlə məşğul əhalinin təqribən 35%-i kənd təsərrüfatinda calışır. Uzunmüddətli müharibənin vurduğu zərərlərə, əsasən kənd təsərrüfatının inkişaf etdiyi böyük ərazilərin Ermənistan Respublikasi tərəfindən işğala məruz qalmasına, bu ərazilərdə aqrar sahənin xeyli istehsal, xidmət və emal strukturlarının məhv edilməsinə, kecmiş SSRİ məkanındakı iqtisadi əlaqələrin və bazarların itirilməsinə, maddi-texniki bazanin maliyyə imkansızlığından zəifləməsinə baxmayaraq, ümumi daxili məhsulun strukturunda kənd təsərrüfatı hələ də 18-22% təşkil edir [187-5].

Ötən əsrin 90-ci illərinin əvvəllərində ölkədə baş verən ictimai-siyasi proseslər nəticəsində milli iqtisadiyyat, o cümlədən aqrar-sənaye kompleksi dərin iqtisadi böhran vəziyyətinə düşmüş, kənd təsərrüfatı məhsulları istehsalı kəskin surətdə azalmışdı. 1990-cı ilə nisbətən 1995-ci ildə kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə, tütün 6,2 dəfə, tərəvəz 2 dəfə, üzüm 4 dəfə, cay 3,2 dəfə, taxıl 35%, kartof 17%, bostan məhsulları 38%, ət istehsalı 2,1 dəfə, süd istehsalı 1,1 dəfə, yumurta istehsalı 54% azalmışdı.

Aparılmış və hazırda aparılan ardıcıl və sistemli iqtisadi islahatlar nəticəsində dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı bu sahədə mühüm irəliləyişlərə nail olunmuşdur. Ölkədə artıq torpaq islahatları faktiki olaraq başa çatmış,

1390 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq 870 minədək kəndli ailəsinə paylanmışdır. Hazırda ölkənin kənd təsərrüfatı məhsullarının 90-99%-i özəl bölmədə istehsal olunur. 2008-ci ildə ümumi daxili məhsulun 5,5%-i kənd təsərrüfatında istehsal olunmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, bu göstərici 1970-1980-cı illərdə 20-30% həddində olmuşdur.

Aşağıda 1995-2007-ci illərdə respublikada kənd təsərrüfatının inkişafını xarakterizə edən göstəricilər əksini tapmışdır:

***Cədvəl 4.1***

**Ölkə iqtisadiyyatında kənd təsərrüfatının yeri**

| S/№ | Göstəricilər | 1995 | 2000 | 2005 | 2007 |
|---|---|---|---|---|---|
| 1. | ***Ümumi daxili məhsulun dəyəri,*** mln. man. | 2133,8 | 4718,1 | 12522,5 | 26815,1 |
| | ***o cümlədən kənd və meşə təsərrüfatında*** | 540,2 | 751,0 | 1081,5 | 1486,8 |
| | ***Ümumi daxili məhsulun dəyərində kənd və meşə təsərrüfatının xüsusi çəkisi, %*** | 25,3 | 15,9 | 9,1 | 5,5 |
| 2. | ***Əsas kapitala yönəldilmiş investisiya,*** mln. man. | 228,0 | 967,8 | 5769,9 | 7471,2 |
| | ***o cümlədən kənd təsərrüfatında*** | 4,5 | 6,5 | 40,7 | 243,3 |
| | ***Əsas kapitala yönəldilmiş investisiyada kənd təsərrüfatının xüsusi çəkisi, %*** | 1,9 | 0,7 | 0,7 | 3,2 |
| 3. | ***Məşğul əhali - cəmi, min nəfər*** | 3613,0 | 3704,5 | 3850,2 | 4014,1 |
| | ***o cümlədən kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında*** | 1112,8 | 1517,2 | 1510,0 | 1556,0 |
| | ***Məşğul əhalinin tərkibində kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında çalışanların xüsusi çəkisi,%*** | 30,8 | 41,0 | 39,2 | 38,8 |
| 4. | ***Orta aylıq əmək haqqı, manat: ölkə üzrə, cəmi*** | 12,5 | 44,3 | 123,6 | 215,8 |
| | ***kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında*** | 6,7 | 13,8 | 41,5 | 86,8 |

Mənbə: Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2008, s. 46-48.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Regionlarının Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı»nda (*2004-2008-ci illər*) regionlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Dövlət proqramında digər vəzifələrlə yanaşı, aqrar sahədə islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək nəzərdə tutulmuşdur ki, bütün bunlar da uğurla həyata keçirilmişdir. Dövlət proqramının həyata keçirilməsi nəticəsində son beş ildə Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır, adambaşına düşən gəlir 5500 ABŞ dollarına çatmışdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq, mühərrik yağları, buğda, toxum və gübrəyə görə subsidiyaların verilməsi, texnika, gübrə və toxum təchizatının yaxşıladırılması üçün dövlət büdcəsindən vəsaitin ayrılması və vergi güzəştlərinin tətbiqi nəticəsində son beş ildə məhsul istehsalının nominal dəyəri 2,4 dəfə artmışdır. İndi ölkədə Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə yeni regional inkişaf strategiyası həyata keçirilir. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Bu proqramın da uğurla həyata keçirilməsi üçün ölkədə yetərli resurs və potensial mövcuddur [8, 9].

Azərbaycanda kənd təsərrüfatı üçün müstəsna və fərqli iqlim şəraiti, geniş çeşiddə məhsul yetişdirməyə, ərazisinin çox hissəsində heyvandarlığın bütün sahələri ilə məşğul ol-

mağa imkan verən zəngin torpaqlar vardır. Belə ki, Azərbaycan Respublikasının ümumi ərazisinin 4524,8 min hektarı kənd təsərrüfatına yararlı torpaq sahəsi, o cümlədən 1791,2 min hektarı əkin yeri, çoxillik əkmələr, bundan da 1287,3 min hektarını suvarılan torpaqlar, 2773,6 min hektarını isə örüş və biçənəklər təşkil edir [187-5]. Ancaq qeyd etməmək mümkün deyildir ki, ölkə iqtisadiyyatında mühüm mövqeyə malik olan və əhalinin böyük bir hissəsini işlə təmin edən aqrar sahə ötən əsrin 90-cı illərinin əvvəllərində öz mövqeyini yavaş-yavaş itirməyə başlamışdı. Doğrudur, son on ildə kənd təsərrüfatında ümumi daxili məhsulun dəyəri (*qiymət artımı nəzərə alınmadan*) 2,3 dəfə artmışdır. Lakin sənayenin hasilat bölməsində (*neftçıxarma*) və tikintidə, nəqliyyat və rabitədə daha yüksək nəticələrə nail olunmuşdur. Belə ki, bu sahələrdə elə həmin dövrdə ümumi daxili məhsulun dəyərinin müvafiq surətdə 20,3; 5,1 və 4,6 dəfə artırılmasına nail olunmuşdur. Bunun da əsas səbəbi həmin sahələrdə əsas kapitala böyük həcmdə investisiya qoyuluşlarının yönəldilməsidir. Belə ki, sənayeyə, nəqliyyat və rabitəyə investisiyalar daha yüksək templə artmışdır. Kənd təsərrüfatına 2006-cı ildə 58,3 mln. manat, 2007-ci ildə 243,3 mln. manat, 2008-ci ildə 286,5 mln. manat investisiya yönəldilmişdir. İnvestisiya qoyuluşlarında tutduqları xüsusi çəkiyə görə də bu sahələr arasında kəskin fərqlər müşahidə olunur. Yəni 1995-ci illə müqayisədə 2007-ci ildə cəmi investisiya qoyuluşlarında sənayenin xüsusi çəkisi 46,4%-dən 60,8%-ə, nəqliyyat və rabitənin xüsusi çəkisi 5,3%-dən 12,2%-ə qədər artmış, tikintinin xüsusi çəkisi 0,3%-dən 0,1%-dək azalmış, kənd təsərrüfatının isə xüsusi çəkisi 1,3%-dən 3,2%-ə yüksəlmişdir [187-5].

Respublikada 2004-2007-ci illərdə kənd təsərrüfatı üzrə vəziyyət aşağıdakı kimi olmuşdur:

*Cədvəl 4.2*

**Kənd təsərrüfatı məhsullarının istehsalı, milyon manat**

| Ümumi məhsul | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| **Cəmi** | 1476,6 | 1732,1 | 1969,7 | 2765,0 |
| *o cümlədən* | | | | |
| **Бitkiçilik** | 874,8 | 988,2 | 1124,3 | 1726,4 |
| **Heyvandarlıq** | 601,8 | 743,9 | 845,4 | 1038,6 |

Mənbə: Azərbaycanın kənd təsərrüfatı. Bakı, 2008, s. 49-51

Kənd təsərrüfatı məhsulları istehsalında bitkiçiliyinin xüsusi çəkisi 2004-2007-ci illər ərzində 59,2%-dən 62,4%-ə çatmışdır. Halbuki, bu dövrdə, dəyər ifarəsində bitkiçilik məhsullarının həcmi 97,3% artmışdır. Heyvandarlıq məhsullarının kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi 40,8%-dən 37,6%-ə qədər aşağı düşmüşdür. Müqayisə olunan dövrdə heyvandarlıq məhsulları istehsalı 72,6% artmışdır. Bitkiçiliyin müxtəlif sahələrində əkin sahələri və məhsul istehsalı dinamikası arasında fərqli meyillər müşahidə olunmuşdur. Taxılçılıqda əkin sahəsi 9,3%, məhsul istehsalı da 7,2% azalmış, tütünün əkin sahəsi 50%, məhsul istehsalı 55,4% azalmışdır. Sonuncu halda məhsuldarlığın bir qədər azalması da baş vermişdir. Pambıqçılıqda da bu tendensiya davam etmişdir. Belə ki, 2005-2007-ci illər ərzində əkin sahəsi 3,4%, məhsul istehsalı isə 26,3% aşağı düşmüşdür və s. [187-5].

Aşağıda 2005-2007-ci illərdə Azərbaycanda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi və məhsul istehsalını xarakterizə edən cədvəl verilmişdir:

*Cədvəl 4.3*

**Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi və məhsul istehsalı**

| Məhsullar | Əkin sahəsi *(min ha)* | | | Məhsul istehsalı *(min ton)* | | |
|---|---|---|---|---|---|---|
| | **2005** | **2006** | **2007** | **2005** | **2006** | **2007** |
| **Taxıl** | 802,3 | 784,7 | 739,6 | 2126,9 | 2078,9 | 2004,4 |
| **Pambıq** | 112,4 | 102,8 | 75,6 | 196,6 | 130,1 | 100,1 |
| **Tütün** | 2,8 | 1,8 | 1,3 | 7,1 | 4,8 | 2,9 |
| **Kartof** | 70,7 | 66,8 | 67,1 | 1083,1 | 999,3 | 1037,3 |
| **Tərəvəz** | 78,8 | 80,2 | 85,0 | 1127,3 | 1186,4 | 1227,3 |
| **Meyvə** | 92,9 | 108,5 | 114,0 | 625,7 | 662,4 | 677,8 |
| **Üzüm** | 9,6 | 8,7 | 11,1 | 79,7 | 94,1 | 103,4 |
| **Çay** | 2,9 | 1,8 | 1,7 | 0,7 | 0,7 | 0,5 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 70, 75, 130, 156, 158.

Son dövrlərdə heyvandarlıqda baş sayının artması baş verir. 2004-2007-ci illər də bu baxımdan istisna olmamışdır Təhlil dövründə iribuynuzlu mal-qaranın baş sayı 7,2%, o cümlədən inək və camışların sayı 13,1%, qoyun və keçilərin baş sayı isə 11,4% artmışdır [10]. Bunu aşağıda təqdim olunan cəvdəldən daha aydın görmək mumkündür:

*Cədvəl 4.4*

**İlin əvvəlinə mal-qaranın baş sayı** (*min baş*)

| Mal-qara | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| **İribuynuzlu mal-qara** | 2341,8 | 2315,8 | 2380,0 | 2445,0 | 2511,8 |
| *o cümlədən* | | | | | |
| **İnək və camış** | 1075,7 | 1117,0 | 1151,3 | 1183,6 | 1216,8 |
| **Qoyun və keçi** | 7280,1 | 7488,8 | 7698,7 | 7868,4 | 8109,7 |
| **Donuz** | 20,4 | 22,9 | 22,9 | 21,3 | 18,7 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 87, 174.

2004-2007-ci illər ərzində ət istehsalı 18,7%, süd istehsalı 10,5% artmışdır. Nəzərə alsaq ki, ölkə əhalisinin 49%-i kənd yerlərində yaşayır və ölkə iqtisadiyyatında məşğul əhalinin mütləq böyük əksəriyyəti kənd təsərrüfatında çalışır və kənd təsərrüfatı ölkənin ərzaq təminatında və ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna rola və əhəmiyyətə malikdir, bu sahəyə investisiya qoyuluşlarının həcminin artırılması mühüm və həyati əhəmiyyət kəsb edir.

Aşağıda respublikada 2004-2007-ci illərdə kənd təsərrüfatı məhsulu həcmlərini xarakterizə edən cədvəl öz əksini tapmışdır:

*Cədvəl 4.5*

**Heyvandarlıq məhsulları istehsalı**

| Məhsullar | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| **Ət** *(min ton)* | 143,7 | 149,6 | 155,5 | 170,6 |
| **Süd** *(min ton)* | 1213,7 | 1251,9 | 1299,5 | 1341,3 |
| **Yumurta** *(mln. ədəd)* | 829,4 | 874,6 | 760,9 | 871,0 |
| **Yun** *(min ton)* | 12,3 | 13,1 | 13,6 | 14,2 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 95, 180.

Ötən illərdə respublikada fəaliyyət göstərən 120 üzüm emalı, 10 şərab, 19 pambıqtəmizləmə, 54 meyvə-tərəvəz konservi, 8 tütün fermentləmə zavodları, 1 tütün kombinatı, 16 çay çəkici fabrik, xeyli sayda süd, ət, yun emal edən müəssisələrin çox hissəsinin özəlləşdirilməsi başa çatmış, bir hissəsi isə özəlləşmə prosesindədir. Həmin emal müəssisələrində mövcud olmuş avadanlıqlar köhnə olduğu üçün, eyni zamanda xammal bazasının zəif inkişafı nəticəsində bir çoxunun fəaliyyəti dayandırılmış, onların yenidən qurulması isə investisiya qoyuluşu imkanlarının məhdud olması ucbatından ləng həyata keçirilir. Eyni zamanda kənd təsərrüfatı məhsullarının saxlanılmasında, istehlakçılara çatdırılmasında onların qablaşdırıl-

ması və saxlanılmasının lazımi standartlara cavab verməməsi istiqamətində müəyyən problemlər mövcuddur.

Respublikada aparılan torpaq və aqrar islahatları nəticəsində regionlarda yaşayan əhalinin çox hissəsinin torpaq və digər daşınmaz əmlak sahibinə çevrilməsinə baxmayaraq, insanlarda ilkin kapitalın, eyni zamanda, aqrar sektorun inkişafını təmin edən şəraitin, o cümlədən texnikanın, servisin, məsləhət xidmətinin, infrastrukturun, emal müəssisələrinin və s. kifayət qədər olmaması, eləcə də irriqasiya sisteminin zəruri tələblərə cavab verməməsi, bu səbəbdən də məhsuldarlığın aşağı səviyyədə olması imkanlardan səmərəli istifadə edilməsini məhdudlaşdırır.

## 4.2. Kənd təsərrüfatının kreditləşdirilməsi və maliyyələşdirilməsi

Azərbaycanda aqrar sahədə müvəffəqiyyətlə aparılan islahatlar nəticəsində kənd təsərrüfatı tez bir zamanda və fundamental şəkildə dəyişmiş, bununla bərabər yeni yaranmış ailə kəndli təsərrüfatları bir sıra çətinliklərlə üzləşmişlər. Belə ki, böyük təsərrüfatlarda (*kolxoz və sovxozlarda*) qərarların qəbul olunmasında nə texniki, nə də təşkilati qərarların qəbul edilməsində elə bir mühüm rolu olmayan kəndlilər kiçik kənd təsərrüfatı sahələrinin, hətta bəzən bir neçə hektar sahələrin sahibkarları və menecerləri olmuşlar. Yeni yaradılmış fermerlər heç bir təcrübəyə, məlumat və məsləhət mənbələrinə çıxış imkanına malik olmadan, kənd təsərrüfatı fəaliyyətlərinin məhsulun artırılması məqsədlərindən gəlirin artırılması məqsədinə yönəldilməsi kimi çətin problem ilə üz-üzə qalmışlar.

Hələ ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan Respublikasının maliyyə sektoru özünün əhəmiyyətli dərəcədə konsolidasiya və restrukturizasiya prosesində idi və bu proses indiyə kimi başa çatdırılmamışdır. Sosialist bank sisteminin yeni bazar iqtisadiyyatına uyğun dəyişdirilməsi bank sektorunun iflası və ona inamın itməsi ilə nəticələnmişdir.

İlkin olaraq, 1994-cü ildə yaranmış çoxsaylı və geniş miqyaslı piramida sxemlərinin iflasa uğraması nəticəsində əhalinin yeni yaranan kommersiya banklarına olan böyük inamı tez bir zamanda puça çıxmışdır. Bu proses 1998-ci ildə Rusiyanın maliyyə bazarında yaşanan böhranla müşayiət olunmuşdur ki, bu da son nəticədə kreditləşdirmədə, xüsusilə də kənd təsərrüfatının kreditləşdirilməsində kommersiya banklarının tərəddüdlərini artırmışdır. Hələ ötən əsrin 90-cı illərinin sonuna kimi ölkədə mövcud olan bankların heç birinin kənd yerlərində şöbələri mövcud deyildi. Bununla bərabər, kənd təsərrüfatının son dərəcədə lazım olan maliyyə vəsaitləri ilə təmin olunması üçün alternativ pilot layihələrdən də qənaətbəxş nəticələr əldə olunmamışdı. TACİS proqramı çərçivəsində həyata keçirilən layihələr tərəfindən tələsik yaradılmış kredit birlikləri vasitəsilə ərzaq məhsullarının satılması ilə yaradılan fondların təkrarən istifadə olunması səyləri özünü doğrultmamış, nəticədə yeni yaradılan kredit birliklərinin böyük əksəriyyəti öz fəaliyyətlərinə xitam vermişdilər [149].

Banklar geniş miqyasda iqtisadiyyatda maliyyə xidmətlərinin təmin edilməsində, xüsusən də, kənd ərazilərində mövcud olan müəssisələr və yoxsul əhali ilə münasibətdə maraqlı olmamışlar. Yayılma, Bakıdan kənar ərazilərdə 100-dən az filiallar ilə təmsil olunmaqla, son dərəcə aşağıdır. Bank sektoruna inamın aşağı səviyyədə qalmaqda davam etməsi bankların kapitallaşdırılmasının aşağı olması və fəaliyyətin ilkin iki il ərzində depozitlərin götürülməsinə qoyulan qadağalar ilə təsdiq edilir. Qeyri-bank institutları (*mikromaliyyələşdirmə institutları, kredit birlikləri və qeyri-rəsmi borcalan qruplar*) bu vəziyyətdə kiçik biznesin, xüsusən də kənd ərazilərində olan biznesin lazımi kredit vəsaitləri ilə təminatında başlıca rol oynayırlar. Belə bir şəraitdə, kənd təsərrüfatı sektorunun orta müddətli inkişafı məqsədilə Azərbaycan Hökuməti çoxmərhələli şəkildə həyata keçirilən və ümumi məbləği 133,7 milyon ABŞ dolları təşkil edən (*o cümlədən 100 milyon ABŞ dolları*

*Dünya Bankı tərəfindən ödənilən*) Uyğunlaşdırılmış Kredit Proqramının (*UKP*) 10 il ərzində kreditləşdirilməsini xahiş etdi. Yuxarıdakı mülahizələr proqramın hazırlanması üçün yanaşmanı müəyyən etmişdir. Proqram çox sayda müxtəlif növ, bir-biri ilə əlaqəli, hər biri öz-özlüyündə müstəqil şəkildə həyata keçirilən layihənin mürəkkəbliyinə malik olan fəaliyyətləri dəstəkləmişdir. Bu fəaliyyətlərin heç biri ayrı-ayrılıqda kənd ərazilərində inkişafı təmin etmək üçün kifayət olacaq dərəcədə hesab edilməmişdir. Kənd kredit fəaliyyətinin quruluşuna təsir göstərən əsas amil kənd əhalisi arasında kredit mədəniyyətinin yaradılması və formalaşmaqda olan maliyyə vasitəçilərinin ictimai maraqlara heç bir risk törətməməsinin təmin edilməsi idi [123, 149, 187-11].

Layihədə ən iri komponent olan kənd maliyyə komponentinin cəmi dəyəri 15.29 milyon ABŞ dolları nəzərdə tutulmuşdu ki, ondan da 12.99 milyon ABŞ dolları Beynəlxalq İnkişaf Assosiasiyasının payıdır. Bu komponent ailə kəndli təsərrüfatları üçün bazarın tələblərinə əsaslanan kredit və depozit xidmətlərin göstərilməsi məqsədi ilə hazırlanmış və aşağıdakıları özündə cəmləşdirmişdir:

**(a)** layihənin kənd ərazilərində təxminən 80 kredit birliklərindən (*KB*) və birgə məsuliyyətli 200 (*qeyri-rəsmi*) borcalan qrupdan (*BQ*) ibarət olan yerli maliyyə institutlarının (*YMİ*) şəbəkəsinin yaradılması;

**(b)** iştirakçı yerli maliyyə institutlarına öz üzvləri üçün sub-kreditlərin ayrılması məqsədi ilə kredit xəttinin açılması;

**(c)** bu prosesin müvafiq beynəlxalq təcrübəyə malik olan və yerli maliyyə institutlarına verilən kreditlərin hər birinin 20 faizinin birgə maliyyələşdirilməsi üçün maliyyə vasitələrinə malik olan struktur (*institut*) vasitəsi ilə yerinə yetirilməsi, onun tərəfindən kredit xəttinin idarə olunması və texniki yardımın (*TY*) göstərilməsi.

Kənd Kredit Fondu (*KKF*) iştirakçı yerli maliyyə institutlarına kreditlərin verilməsi və onlardan ödənişlərin toplanması

məqsədilə nəzərdə tutulmuşdur. Bu fond faktiki bir təşkilat kimi yox, daha çox Maliyyə Nazirliyi ilə Müvəqqəti Agent və Birgə maliyyələşdirmə üzrə razılaşma əsasında fəaliyyət göstərən seçilmiş icraçı agentlik kimi planlaşdırılmışdı. Lakin Kənd maliyyə komponentinin quruluşunda bir sıra çatışmazlıqlar qeyd oluna bilər. Bunlar xüsusən də aşağıdakılardır:

İcraçı Agentliyin mahiyyəti. Ümumən maliyyə sektorunun zəif inkişafını nəzərə alaraq, hökumət əsas etibarı ilə maliyyə vasitəçilərinin ehtiyatlı və ciddi şəkildə seçilməsinin təmin edilməsində və kredit mədəniyyətinin inkişafında maraqlı olmuşdur. 1999-cu ildə TACİS proqramı layihələri tərəfindən açılan kredit xətti proqramının icrasının uğursuz olmasının başlıca səbəblərindən biri kimi bu işlərin həyata keçirilməsinə məsuliyyətli olan müvafiq icraçı agentliyin, kreditlərin vaxtında ödənilməsi (*qaytarılması*) üçün heç bir stimulun olmaması göstərilir. Beləliklə də, təklif edilən yenilik icraçı agentliyi hər bir yerli maliyyə institutlarına verilən kreditin ümumi məbləğinin 20%-nin maliyyələşdirilməsinə məcbur edirdi. Gözlənildiyi kimi bu, icraçı agentliyi, həm prosesə cəlb olunmuş sektora (*yerli kənd maliyyə institutlarına*) keyfiyyətli texniki yardımın göstərilməsində, həm də öz investisiyalarının bərpasının təmin edilməsində məsuliyyətli etmiş olardı. Belə yanaşma özözlüyündə böyük risk deməkdir. Belə ki, icraçı agentlik rolunun icra edilməsində maraqlı olan iddiaçılardan heç biri, həm 20% miqdarında investisiya qoyuluşu yatırmağa hazırlığını, həm də lazımi səriştəli texniki yardımı təmin etmək bacarığında olduğunu göstərməyəcəkdi. Qeyd edilməlidir ki, bu risk hərtərəfli qaydada qiymətləndirmə zamanı təyin edilmiş və ona alternativ yanaşmalar və çatışmazlıqları barədə təhlil obyektiv qaydada göstərilmişdir.

İcraçı Agentlik üçün çıxış strategiyası. İcraçı Agentlik tək texniki yardımın göstərilməsi və bacarıq qabiliyyətinin yaradılmasına deyil, həm də Kənd maliyyə komponenti altında institusional idarəetmənin təmin edilməsinə məsuliyyət daşıyır. Xüsusi olaraq

qeyd etmək lazımdır ki, icraçı agentliyin institusional qaydada kredit komponentinin idarə olunmasından uzaqlaşdırılması üçün atılmalı addımlar, həmçinin vaxtı çatmamış kreditlərin borcalan qruplardan (*BQ*) kim tərəfindən yığılması; KB-nin yaradılması üçün kimin tərəfindən institusional dəstəyin təmin ediləcəyi; Kənd Kredit Fondunun rolunun nədən ibarət olması kimi məsələlər öz həllini tapmamışdır. Burada həmçinin, diqqət özü-özlüyündə icraçı agentliyin öz investisiya payının geri qaytarılmasının təmin edilməsi üzrə səylərində cəmləşdirilir.

Ailə kəndli təsərrüfatları və digər kənd təsərrüfatı müəssisələri öz fəaliyyətlərində investisiyalardan daha geniş istifadə edirlər. Kənd maliyyə komponenti çərçivəsində kənd ərazilərində 20,3 min şəxsə, ümumi məbləği 11,7 milyon ABŞ dolları olan 27,5 min kiçik həcmli kreditlərin verilməsi ilə investisiya qoyuluşunun genişləndirilməsində əldə olunmuş təsirləndirici nəticələri nümayiş etdirir. Bu nümunəvi təşəbbüs əhəmiyyətli əhatə dairəsini göstərir, belə ki, formal bank sektoruna çıxışı olmayan iqtisadi fəal əhalinin bu işlərə cəlb edilməsi son nəticədə nümunəvi ərazilərdə ümumi iqtisadi artıma öz təsirini göstərmişdir [187-5].

Kənd yerlərində maliyyə xidmətlərinə tələbatın böyük olmasını və bu tələbatın tam ödənilmədiyini nəzərə alaraq ilkin olaraq nəzərdə tutulandan daha çox sayda birgəborclular qrupu yaradılmışdır. Hazırda birgəborclular qruplarının sayı 905 ədəd təşkil etmişdir. Birgəborclular qruplarına ayrılmış kreditlərin məbləği 9,1 milyon ABŞ dolları, kreditlərin qaytarılma səviyyəsi 95 faizə çatmışdır. Birgəborclular qruplarının fəal üzvlərinin sayı 10,7 min, kreditlərin ümumi sayı 24,4 min, kreditlərin orta məbləği 370 ABŞ dolları təşkil etmişdir ki, bu da əhatə dairəsi (*borcalanların sayı*) və dərinlik (*kreditlərin məbləğinin az olması*) baxımından ciddi nailiyyətdir [15].

Qeyd edilməlidir ki, Birgəborclular qruplarının kreditləşdirilməsi üç il, əvvəl başlamışdır. 2007-ci il tarixinə olan məlumatların təhlilinə əsasən Birgəborclular qrupları üçün kreditlərin paylanması göstərir ki, kreditlərin ən böyük hissəsi, yəni

79%-i heyvandarlığa yönəldilmişdir. Onun ardınca tərəvəzçilik, kartofçuluq və şəkər çuğundurunun yetişdirilməsi gəlir. Heyvandarlığın payının hələ də böyük olaraq qalmasına baxmayaraq, bu sahədə tədricən azalma meyilləri müşahidə olunmuş və 2004-cü illə müqayisədə bu rəqəm 8% azalmışdır.

Birgəborclular qrupları yalnız kənar maliyyə mənbələrinə arxalanma nöqteyi-nəzərindən maliyyə cəhətdən dayanıqlı institutlar kimi nəzərdə tutulmamışdılar. Onlar tam özünümaliyyələşdirmə əsasında fəaliyyət göstərməli idilər. Birgəborclular qrupları kredit mədəniyyətinin (*xüsusilə də kiçik kənd borcalanları arasında*) formalaşdırılmasında vacib rol oynayırlar. Bəzi Birgəborclular qrupları ikinci və ya üçüncü kreditləşdirmə mərhələsindədirlər və yavaş-yavaş öz üzvləri üçün kredit tarixini formalaşdırırlar. Bəzi banklar, məsələn ParaBank və DebütBank öz vəsaitləri hesabına Birgəborclular qruplarına sosial girova əsaslanan kreditləşdirmə modelini tətbiq edirlər. Faiz dərəcəsi siyasətinə edilmiş dəyişiklik özünümaliyyələşdirməni və Birgəborclular qruplarının kreditləşdirilməsinin əməliyyat davamlılığını təmin etdi. Kreditlərin qaytarılmasının təmin edilməsi və sosial həmrəylik prinsipi əsasında kreditləşdirmə isə yaradılmış və heç bir ciddi borca malik olmayaraq ləğv edilən Birgəborclular qruplarının timsalında məhsuldar olduğunu sübut etmişdir [15].

Statistik məlumatlar göstərir ki, yaradılmış Birgəborclular qruplarının orta hesabla yalnız 25%-i əsas etibarı ilə daha əvvəl bu qrupun üzvü olmuş şəxslərdən ibarətdir. Birgəborclular qrupları üzvlərinin əksər hissəsi yeni müştərilərdir və kredit birlikləri üzvlərinin də bir hissəsi keçmiş Birgəborclular qrupları üzvləridir - yəni Birgəborclular qrupları sistemi benefisiarları dayanıqlı maliyyə institutları ilə uzunmüddətli münasibətlər yaratmağa hazırlamaq kimi ümdə məqsədinə nail olmaqdadır.

Birgəborclular qruplarından kredit alan 179 resipiyent arasında sorğu keçirilmişdir. Sorğu təsərrüfat fəaliyyəti növlərinin əksəriyyəti üzrə gəlirin və mənfəət normasının artdığını göstərmişdir. Sorğunun nəticələri əsasında xalis gəlirin artması ən çox qar-

ğıdalı istehsalında, investisiyalardan ən çox mənfəət normasının artımı isə tərəvəz istehsalında baş vermişdir. Günəbaxan və yazlıq arpa üçün az sayda kredit alınmışdır və bu, xalis gəlirin və mənfəət normasının cüzi azalmasına səbəb olmuşdur. Qeyd olunmalıdır ki, bu bitki növləri üzrə müsabiqəli qrant proqramı çərçivəsində texnoloji tədqiqat və ya nümunəvi sahə fəaliyyəti təşkil edilməmiş və həmçinin mənfəətin azalması kreditləri qaytarmağa imkan verməmişdir [15, 187-5].

Aşağıda investisiyaların növü üzrə fermer təsərrüfatlarının gəlirinin dəyişməsi təsvir olunur:

***Cədvəl 4.6***

**Birgəborclular qruplarının sub-kreditləri çərçivəsində mənfəət norması**

| Məhsullar | Respondentlərin sayı, nəfər | Kreditlərin sayı (2007-ci il) | Kreditlərin ümumi sayında payı, % | Kreditlərin ümumi məbləğində payı, % | Xalis gəlirin dəyişməsi, % | Mənfəət normasının artımı, % |
|---|---|---|---|---|---|---|
| Kartof | 22 | 1313 | 5,36 | 5,07 | 45 | 27 |
| Tərəvəz | 20 | 2353 | 9,64 | 9,01 | 42 | 37 |
| Çay | 4 | 60 | 0,25 | 0,15 | 75 | 12 |
| Günəbaxan | 4 | 16 | 0,00 | 0,05 | -11 | -9 |
| Şəkər çuğunduru | 19 | 1222 | 4,99 | 5,52 | 29 | 20 |
| Qarğıdalı | 19 | 184 | 0,75 | 0,91 | 119 | 20 |
| Yazlıq arpa | 4 | 17 | 0.00 | 0.22 | 2 | -1 |
| Yemiş | 4 | 40 | 0,16 | 0,13 | 23 | 8 |
| Heyvandarlıq | 83 | 19169 | 78,32 | 78,53 | 58 | 14 |
| Pambıq* | - | 60 | 0,25 | 0,35 | - | - |
| Yemçilik* | - | 40 | 0,16 | 0,22 | - | - |
| Cəmi/Orta | 179 | 24 474 | 100,0 | 100,0 | 54 | 18 |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Birgəborclular qruplarının benefesiarları arasında aparılan sorğu məlumatları aqrar sahədə kredit mühitinə və fəaliyyət səmərəliliyinə təsir parametrlərini, ilkin yanaşmada münasibət bildirməyə imkan verir.

Aşağıda Birgəborclular qruplarının benefisiarları arasında sorğunun nəticələri öz əksini tapmışdır:

*Cədvəl 4.7*

**Birgəborclular qruplarının benefisiarları arasında sorğunun nəticələri**

| **Birgəborclular qruplarının krediti mənfəət əldə etməyə imkan vermişdirmi:** | |
|---|---|
| Hə | *99,45%* |
| Yox | *0,55%* |
| **Mənfəət nəyə sərf olunacaq:** | |
| Fəaliyyətin genişləndirilməsinə | *84,10%* |
| İstehlaka | *8,72%* |
| Hər iki məqsədə | *7,18%* |
| **KTIKL-in ümumi təsiri:** | |
| Zəif *(təsiri olmayıb)* | *5,49%* |
| Qənaətbəxş | *58,79%* |
| Yaxşı | *35,71%* |
| **Kredit proqramında iştirakın davam etdirilməsi planı:** | |
| Hə | *92,31%* |
| Yox | *0,00%* |
| Qərar qəbul etməmişəm | *7,69%* |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Borcalan qrupları üçün sub-kreditlər Azərbaycan Mərkəzi Bankının mərkəzləşdirilmiş hərrac dərəcəsi (*qiymətləndirmə zamanı 14%-ə bərabər idi*) üstəgəl 15% dərəcəsi ilə verilmişdir. Birgəborclular qrupları tərəfindən son istifadəçilərə veri-

ləcək kreditlərin faiz dərəcəsi isə onlar tərəfindən bazar şəraitinə uyğun şəkildə müəyyənləşdirilməlidir. Təkrar kreditləşdirmə dərəcəsi illik 30% müəyyən edilmişdir və onlar kənd yerlərində geniş spektrli kənd təsərrüfatı, heyvandarlıq və qeyri-təsərrüfat kiçik işgüzar fəaliyyət üçün toplanmış biznes planlara əsaslanır. Bazara əsaslanan faiz dərəcələri və kredit portfelinin keyfiyyətinin yaxşı olması Kredit Birlikləri fəaliyyətlərinin ikinci ilində 123 faizlik əməliyyat özünütəminat, 84 faizlik maliyyə özünütəminat səviyyəsinə çatmağa imkan vermişdir [4, 15].

Birgəborclular qruplarının əsas məqsədi ən yoxsul kənd borcalanları arasında kredit mədəniyyətinin formalaşdırılması və benefisiarlara daha formal maliyyə institutlarına, xüsusilə də kredit birliklərinə qoşulmaq imkanı yaratmaqdan ibarət idi. Əməliyyat dayanıqlığı isə Birgəborclular qrupları tərəfindən tətbiq olunan faiz dərəcələrinin bazar şəraitinə uyğun olduğunu, Birgəborclular qruplarının yaradılması və sub-kreditlərin verilməsi xərclərini ödəmək üçün kifayət etməsini nümayiş etdirmək üçün məqsədəmüvafiqdir. Daha əvvəl qeyd olunduğu kimi, Birgəborclular qrupları qrup üzvlərinə sosial girov əsasında kreditlər verən qeyri-rəsmi maliyyə institutlarıdır. İcraçı Agentlik Borcalan qruplarının yaradılmasına yardım göstərmək, onların monitorinqi, kreditlərin ayrılması və yığılması üçün cavabdeh idi. Buna görə də, ənənəvi yanaşmadan istifadə edərək borcalan qruplarının Əməliyyat Özünütəminatı Əmsalını (*OSS*) hesablamaq mümkün deyil: birincisi - borcalan qrupları mühasibat balansı və ya digər növ maliyyə hesabatına malik deyillər. Buna görə də «kredit-itki təminatı xərcləri» kimi göstərici mövcud deyil; ikincisi, bütün Birgəborclular qrupları mərkəzləşdirilmiş qaydada idarə olunurdular, buna görə də əməliyyat xərcləri konkret olaraq hər bir Birgəborclular qrupu üçün ayrılıqda müəyyənləşdirilə bilməzdi.

Araşdırmalar göstərir ki, aqrar sektorun kreditləşdirilməsi istiqmətində respublikada müvafiq əhəmiyyətli təsisatlar fəa-

liyyət göstərirlər. Bu təsisatların rəbabətqabiliyyətliliyinin artırılmasında kredit kooperativləri də mühüm rol oynaya bilər.

Belə ki, kredit kooperativlərinin kəmiyyət və keyfiyyət artımı bu bazarda rəqabətin özünün yüksəlişinə səbəb olar və aqrar sektorun dayanıqlı inkişafında əlavə bir bazar seqmentinə çevrilər.

## 4.3. Aqrar sektorda maliyyə dayanıqlılığının artırılmasında kredit birliklərinin əhəmiyyəti

Aqrar sektorda maliyyə dayanıqlılığının artırılmasında kredit birliklərinin rolu və əhəmiyyəti də artmaqdadır. İndi bu sektorda yaradılmış kredit birliklərinin sayı 30-a çatmışdır. Kredit birlikləri tərəfindən kreditləşdirmənin həcmi 3,1 milyon ABŞ dolları, kreditlərin qaytarılma səviyyəsi 96,7% təşkil etmişdir. Kredit birliklərinin fəal üzvlərinin sayı 1,8 min, kreditlərin ümumi sayı 3,0 min, kreditlərin orta məbləği 1000 ABŞ dolları təşkil etmişdir ki, bu da əhatə dairəsi (*borcalanların sayı*) və dərinlik (*kreditlərin məbləğinin az olması*) baxımından ciddi nailiyyətdir [4, 12, 16, 27]. Müqayisə üçün demək lazımdır ki, 2007-ci ilin iyun ayına Azərbaycanda mikromaliyyə təşkilatları 60,0 mindən artıq müştəriyə xidmət etmiş və bu təşkilatlar 65 milyon ABŞ dollarından artıq kredit portfelinə malik idilər.

Aqrar sektorun kreditləşdirilməsi sistemində institusional davamlılığın təmin edilməsi məqsədilə İcraçı Agentliyin Çıxış Strategiyası hazırlanmışdır. Strategiya Kredit birliklərinə institusional dəstəyin göstərilməsinin əsas məqamlarını və beynəlxalq texniki yardım mütəxəssisləri ilə müqavilə başa çatdıqdan sonra kredit xəttinin idarə edilməsinə dair tövsiyələri əks etdirir. Eyni zamanda burada, başqa maliyyə mənbələrinə çıxışları və depozit toplamağa icazələri olmayan yaradılmış qurumların davamlı maliyyələşdirilməsinin təmin edilməsi və kooperativ sisteminin maraqlarının təmin edilməsi məqsədilə kredit bir-

liklərinin baş təşkilatının yaradılmasına dair təkliflər də öz əksini tapmışdır [27, 29, 39].

Aşağıda Kredit Birlikləri vasitəsilə verilmiş sub-kreditlər üzrə portfelin ümumi göstəriciləri təqdim olunmuşdur:

*Cədvəl 4.8*

**Kredit Birliklərinin kredit portfelinin ümumi göstəriciləri**

| S/№ | 2007-ci il | Kredit Birlikləri |
|---|---|---|
| 1. | **Verilmiş kreditlərin sayı** | 5 028 |
| 2. | **Verilmiş kreditlərin məbləği** (min ABŞ dolları) | 5089,2* |
| 3. | **Qalıq kredit portfeli** (min ABŞ dolları) | 1621,3 |
| 4. | **Aktiv borcalanların sayı, nəfər** | 1925 |
| 5. | **Kreditin orta məbləği** (ABŞ dolları) | 1055 |
| 6. | **Kreditlərin qaytarılma səviyyəsi,** % | 97,1 |
| 7. | **PAR 30,** % | 5,78 |
| 8. | **Orta faiz dərəcəsi** | 25 |
| 9. | **2007-ci ildə 1 nəfərə düşən Ümumi Milli Gəlir** (ABŞ dolları) | 1150 |
| 10. | **Əhatə dairəsinin dərinliyi** (kreditin orta həcmi 1 nəfərə düşən ÜMG - %) | 110 |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

İcraçı Agentliyin vəzifələri Azərbaycan Kredit İttifaqları Assosiasiyasına (*AKİA*) ötürülmüşdür və o, kredit birliklərinin milli təşkilatı kimi çıxış edəcək. Həmçinin Azərbaycan Kredit İttifaqları Assosiasiyası gələcəkdə Birgəborclular qruplarından kreditlər üzrə ödənişlərin yığılmasını həyata keçirəcəkdir. Keçid prosesi maneəsiz baş vermişdir və yeni Azərbaycan Kredit İttifaqları Assosiasiyası portfelin möhkəmliyini saxlamaqla paralel olaraq, kreditləşdirmə səviyyəsinin artırılması istiqamətində səylər göstərir. Qeyd etmək lazımdır ki, 30 dekabr 2007-

ci il tarixinə vəsaitlərdən ümumi istifadə səviyyəsi 29,48 milyon manata çatmışdır ki, bunun da 7,58 milyon manatı beynəlxalq texniki yardım komandasının layihəni tərk etməsindən keçən altı ay ərzində təmin edilmişdir. Bu, Layihənin başlanmasından bəri verilmiş kreditlərin 39%-ni təşkil edir. Birbaşa benefisiarların sayı 40216-ya çatmışdır ki, onların da 12119-u təkrar kredit alanlar olmuşdur. Əhatə dairəsi və kredit alanların sayı artmaqda davam edir. Bütün bu nailiyyətlərə baxmayaraq AKİA özünün idarəetmə qabiliyyətini və texniki fəaliyyətini təkmilləşdirməli və orta və uzunmüddətli artım strategiyasını hazırlamalıdır [12, 13].

Komponentin sektoral nailiyyətləri sırasına kənd maliyyə xidmətlərinin göstərilməsinin reallığının nümayiş etdirilməsi, özü-özünü idarə edən yerli maliyyə təşkilatlarının fəaliyyət prinsipləri barədə bilgilərin təşviq olunması və kreditlərin qaytarılmasının əhəmiyyətinin nümayiş etdirilməsi daxildir. Əsas iqtisadi mənfəətə kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi, vəsaitin kənd sektoruna yönəldilməsi mexanizmlərinin nümayiş etdirilməsi aiddir. Komponentin kömək etdiyi əhəmiyyətli institusional dəyişikliklərə aiddir:

**(a)** layihə çərçivəsində kredit birlikləri üçün prudensial normalar və lisenziya qaydaları təsdiq olunmuşdur ki, bu da zəif inkişaf etmiş 80 kredit birliklərinin (*layihədən kənar yaradılmış*) lisenziyasının geri alınmasına səbəb olmuş və bununla da ölkənin maliyyə sektorunda maliyyə intizamının gücləndirilməsinə və risklərin minimallaşdırılmasına kömək etmişdir;

**(b)** layihə çərçivəsində ölkədə ilk dəfə olaraq kənd təsərrüfatı kreditləri almaq üçün sadə veksellərdən geniş istifadə edilmişdir. Ümumən, Layihə çərçivəsində təmin edilmiş dəstək ilkin istehsal sahəsində artıma təkan verilməsi və bununla da, kənd maliyyə xidmətlərinə tələbatın artmasına, kənd kreditləşdirilməsinin genişləndirilməsinə və mənfəətli fəaliyyət sahəsinə çevrilməsinə imkan verən mühitin yaradılması üçün vacib olmuşdur.

Dövlət Statistika Komitəsinin rəsmi bülletenlərində layihə ərazilərində seçilmiş bitki məhsul növləri üzrə məhsuldarlığın əhəmiyyətli artımını göstərir. Bunu ən azı qismən müxtəlif layihə fəaliyyətlərinin təsiri ilə izah etmək olar.

Aşağıda 2001-2007-ci illərdə kənd kredit komponenti ərazilərində seçilmiş bitkiçilik məhsulları üzrə məhsuldarlıq və istehsalın artması göstəriciləri verilmişdir:

*Cədvəl 4.9*

**Kənd kredit komponenti ərazilərində seçilmiş bitkiçilik məhsulları üzrə məhsuldarlığın artması, 2001-2007-ci illər**

| Məhsullar | Göstəricilər | 2001 | 2007 | 2007/2001 *(%)* |
|---|---|---|---|---|
| **Buğda** | Məhsuldarlıq, ton/ha | 2.64 | 2.64 | 100 |
| | İstehsal, min ton | 574,7 | 634,3 | 110 |
| **Arpa** | Məhsuldarlıq ton/ha | 2.53 | 3.05 | 121 |
| | İstehsal, min ton | 113,4 | 127,1 | 112 |
| **Tərəvəz** | Məhsuldarlıq, ton/ha | 15.34 | 15.58 | 102 |
| | İstehsal, min ton | 480,1 | 553,1 | 115 |
| **Qarğıdalı** | Məhsuldarlıq, ton/ha | 3.75 | 4.81 | 128 |
| | İstehsal, min ton | 79,8 | 110,4 | 138 |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Kreditlərin qaytarılmasının yüksək səviyyəsi (*95%-dən yuxarı səviyyədə*) və müsbət real faiz dərəcələri komponentlərin kommersiya cəhətdən həyat qabiliyyətli olmasının və kreditlər üzrə vaxtında ödənişlərin edilməsi üçün kifayət qədər vəsait əldə etməsinin göstəricisidir.

Hesablanmışdır ki, layihə çərçivəsində hazırlanmış yeni toxum növləri və texnologiyalarının tətbiqi nəticəsində hər bir fermerin xalis orta gəliri təxminən 741 ABŞ dolları artmışdır. Kredit komponenti çərçivəsində dəstəklənən sublayihələr xalis gəlirin 119%, mənfəət normasının 37%-dək artmasını göstərir.

Layihənin kənd kredit komponenti çərçivəsində institusional inkişafa təsiri ciddi olmuş və aşağıdakı əsas nəticələrə gətirib çıxarmışdır.

Davamlı yerli maliyyə institutlarının yaradılması məsələsinin hökumətin ən yüksək səviyyəsində qəbul edilməsi və bu məqsədə nail olmaq istəyi. Bundan başqa kredit birliklərinin əməliyyatlarının dəstəklənməsi sahəsində İcraçı Agentliyin funksiyalarının Azərbaycan Kredit Birlikləri Assosiasiyasına həvalə olunması. Bu assosiasiya kredit birlikləri üçün birləşdirici təşkilat rolunu oynayacaqdır.

Burada həmçinin Kredit Birliklərinin müvafiq tələblərə cavab verməsinə nəzarət etmək üçün qaydaların və təlimatların, nəzarət göstəricilərinin, prudensial normaların və lisenziyalaşdırma qaydalarının hazırlanması və bazara əsaslanan faiz dərəcəsi, rəqabət prinsipləri əsasında kənd yerlərində pərakəndə maliyyə xidmətlərinin göstərilməsi üçün hökumət siyasətlərinin gücləndirilməsi də vacibdir.

Kredit xəttinin risklərin bölüşdürülməsi və birgə maliyyələşdirmə mexanizmlərinin nəzərdə tutulması və üçüncü tərəf vasitəsilə idarə olunması aşağıdakı üstünlüklərə malikdir [15, 39, 187-5]:

- icra prosesinin şəffaflığı;
- potensial borcalanların seçilməsi və kreditlərin yüksək qaytarılma səviyyəsinin təmin edilməsi;
- hökumətin və ya siyasi təsirin olmaması;
- təsərrüfatlarda istehsalın, gəlirin artması və yoxsulluğun azalması;
- kənd kredit bazarlarında natamam bazarların mövcudluğundan və bazarın formal və qeyri-formal sektorlar arasında seqmentləşdirilməsindən irəli gələn iqtisadi təhriflərin azaldılması;
- son nəticədə rəsmi maliyyə sektoru və fermerlər ara-

sında vəsaitin axını üçün çevik vasitəçilik imkanlarını təmin edəcək kredit birlikləri şəbəkəsinin inkişafı potensialı.

Aşağıdakı məlumatlar benefisiarların regionda mövcud kredit xətləri barədə fikirlərinin təkmilləşməsini və kredit birliklərinin kənd mikromaliyyə xidmətlərinin göstərilməsində rolunun artmasını göstərir:

*Cədvəl 4.10*

**Kredit birliklərinin benefisiarları arasında sorğu nəticələri**

| **KTIKL-dən əvvəl mövcud kredit xətləri barədə məlumatın vardımı:** | |
|---|---|
| Yox | ***48%*** |
| Hə | ***52%*** |
| **Var idisə hansı təşkilatlar tərəfindən:** | |
| Kommersiya bankları | ***9.2%*** |
| Mikromaliyyə təşkilatları | ***100%*** |
| Kredit Birlikləri | ***0%*** |
| **KTIKL fəaliyyətə başladıqdan sonra kredit xətləri barədə məlumata malik oldunmu:** | |
| Hə | ***82%*** |
| Yox | ***18%*** |
| **Varsa, hansı təşkilatlar tərəfindən:** | |
| Kommersiya bankları | ***6.7%*** |
| Mikromaliyyə təşkilatları | ***69%*** |
| Kredit Birlikləri | ***91%*** |

Mənbə:Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu normalar ölkədəki bütün Kredit Birliklərinə şamil olunur və bu normalara əməl olunmaması səbəbindən bir neçə Kredit Birliyinin (*layihədən kənarda yaradılmış*) lisenziyası

geri alınmışdır. Layihə çərçivəsində yaradılmış Kredit Birliklərinin hamısı bütün prudensial normalara artıq cavab verirlər (*kreditlərin təsnifatı norması istisna olmaqla - tezliklə bu normaya da əməl edəcəkləri gözlənilir*).

Göstərilən dövr üçün heç bir kredit ehtiyatları mövcud olmamışdır, belə ki, Kredit Birliklərinə öz ödənişlərinin düzgün olaraq müəyyənləşdirmək sahəsində hələ təlim verilməmişdir. Komponent üzrə məlumatlara əsasən ödəniş müddətindən 60 - 180 gün ötmüş kredit olmamışdır, ödəniş müddətindən 30 gün keçmiş (*PAR 30*) portfel bütün qalan kreditlərin 6,3%-ni təşkil edir ki, bu da kredit itkisi ehtiyatı məqsədilə təxminən 24,5 min ABŞ dollarına bərabər bir məbləğ - kredit portfelinin təxminən 2%-ni - təşkil edir. Hazırda bu qısamüddətli pozuntulara ciddi nəzarət edilir, adekvat maliyyə hesabatlarının hazırlanması sahəsində təlim verilir və Kredit Birliklərinin risk altında olan bütün kreditlər üzrə ehtiyatı Azərbaycan Mərkəzi Bankının tələbləri əsasında formalaşdıracaqları gözlənilir: PAR 60 - üçün 30%, PAR 180 üçün 60%, 180 gündən yuxarı PAR üçün 100% [187-11].

Azərbaycanda kredit birlikləri sisteminin möhkəm və sabit inkişafını təmin etmək, onun maliyyə vəziyyətinə nəzarət etmək və fəaliyyətini tənzimləmək üçün Azərbaycan Mərkəzi Bankı kredit birliklərinin monitorinqi məqsədinə uyğun gələn prudensial (cədvəl-4,11) normaları təyin etmişdir:

*Cədvəl 4.11*

**Kredit Birliklərinin Azərbaycan Mərkəzi Bankının prudensial normalarına uyğunluğu vəziyyəti**

| Göstəricilər | Norma | Cari vəziyyət |
|---|---|---|
| **1. Pay kapitalının minimum məbləği** | 4000 manat | Hə |
| **2. Minimum kapital adekvatlığı** | 0,25 (1 ilədək fəaliyyət üçün);<br>0,20 (1 ildən yuxarı fəaliyyət üçün) | Hə |
| **3. Vaxtı çatmış kreditlərin qalığı** | > və ya = 1 | Hə |
| **4. Bir borcalana verilə biləcək maksimum kredit:**<br>Üzvə verilə bilən cəmi kreditlər / üzvün Kredit Birliyində payı;<br>Ən iri kreditə malik üzvə cəmi kreditlər birgə kredit fondu | < və ya =10%<br>0.1 | Hə |
| **5. Maksimum təminatsız (təhlükəli) kredit riskləri** | < və ya = 0,2 | 0 |
| **6. Kredit birliklərinin malik olduqları kapital ehtiyatları** | > və ya = 1 | 1 |
| **7. Kreditlərin təsnifatı.**<br>Kredit itkisi ehtiyatı / Xüsusi ehtiyat fondunun ödənilməməsi:<br>Qeyri-qənaətbəxş kreditlər (ödəniş vaxtının 0-59 gün keçməsi);<br>Təhlükəli kreditlər (vaxtından 60-179 gün ötməsi);<br>Ümidsiz kreditlər (> 180 gün vaxtın ötməsi) | 30%<br>60%<br>100% | Gözlənilir |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakılara istinad edərək qeyd olunmalıdır ki, bu 19 kredit birliyi üçün toplanmış əsas maliyyə göstəriciləri və kreditlərin keyfiyyət əmsalları barədə sistemləşdirilmiş məlumatlar Əlavə 3-də öz əksini tapmışdır.

Bu təşkilatlar kiçik olduqlarına və məhdud sayda əməliyyatlar apardıqlarına görə yalnız seçilmiş göstəricilər üzrə əmsallar təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, kredit birliklərinə depozitlər qəbul etməyə icazə verilmədiyinə görə depozit/əmanət göstəriciləri üzrə əmsallar bura daxil edilməmişdir.

Kredit birlikləri öz inkişaflarının erkən mərhələsindədirlər və hələ də məhdud resurslara malikdirlər. Onlara hələ də öz üzvlərindən depozitlər qəbul etməyə icazə verilmir ki, bu hal demək olar ki, bütün MDB ölkələrində maliyyə kooperativləri sisteminin inkişafının erkən mərhələlərində baş vermişdir. Tənzimləyici orqan (*Mərkəzi Bank*) adekvat prudensial normaları hazırlamış və icbari tələblərin yerinə yetirilməsinə nəzarət etmişdir. Məlum olmuşdur ki, Kredit Birlikləri hələ ki, optimal maliyyə strukturuna nail ola bilməmişlər.

Ötən illər ərzində xarici borcalma və maliyyələşdirmədən aşkar asılılıq və üzvlərin sayının böyük miqyasda artması baş vermişdir. Xarici kreditlərdən asılılıq təşkilatların ümumi özünütəminat səviyyəsinə mənfi təsir göstərsə də, stimulların az olması və bu sahəyə inamın lazımi səviyyədə olmaması ilə xarakterizə edilən cari inkişaf mərhələsində xarici kredit artımının əsas mənbəyi kimi çıxış edir. Müəyyən vaxtdan sonra əmanətlərin və depozitlərin meydana gəlməsi maliyyələşdirmə variantları arasında daha yaxşı balansa nail olmağa imkan verəcəkdir. Ümumiyyətlə, kredit birliklərinin hazırkı mərhələdə çox sadə maliyyə strukturuna malik olmaları səbəbindən yuxarıdakı əmsalların bir qismi heç də tam aktual deyildir, lakin kredit portfelinin keyfiyyətini və artım göstəricilərini nümayiş etdirmək üçün təqdim olunmuşlar. Konkret olaraq əmsallar barədə aşağıdakıları qeyd etmək olar:

• ***Keyfiyyət:*** ümumilikdə aktivlərin keyfiyyəti yaxşıdır, ödəniş müddətlərinin gecikdirilməsi halları çox azdır və kreditlərin qaytarılması yaxşı səviyyədədir. PAR 30 3%-lik beynəlxalq normadan yuxarı olsa da, qeyd edilməlidir ki, 2007-ci il tarixinə bu göstərici 0,83%-ə bərabər olmuş, qaytarılma səviyyəsi isə 96,7% təşkil etmişdir. Gəlir gətirməyən aktivlərin payının yüksək olması hazırda problem törətmir, çünki əsas fondlar Kredit Birliklərinə ianə şəklində verilmişdir (*yəni pulsuz olaraq mebel və avadanlıq*) və onların aktivləri artdıqca və diversifikasiya olunduqca, bu əmsal azalacaqdır.

• ***Maliyyə strukturu***: resursların 90%-nin kreditlərə yönəldilməsi və likvid aktivlərin əmsalının aşağı olması riskli görünə bilər. Lakin bu, kredit birliklərinin öz səmərəliliklərini maksimallaşdırmaq və hazırda borclu olduqlarına görə işləməyən resurslara malik olmaqdan imtina etmək səylərinin göstəricisidir.

• ***Gəlir dərəcəsi və xərclər:*** kredit birlikləri digər maliyyə təşkilatlarında depozitlər üzərinə ödənilən faiz dərəcələrinə bərabər olan dərəcələrlə borc ala bilsələr də və kreditlərdən gələn faiz gəlirini yüksək səviyyədə saxlasalar da, onlar adekvat mənfəət nümayiş etdirmək üçün kifayət qədər gəlir əldə edə bilmirlər. Bu, əməliyyat xərclərinin yüksək olması səbəbindən irəli gəlir ki, fəaliyyətin əvvəlində bu normal haldır. Marja qənaətbəxşdir və gələcək artıma və gəlir əldə etməyə imkan verir. Aktivlər üzərinə mənfəət hələ də aşağıdır, lakin institusional kapital üzərinə gəlir demək olar ki, 250% təşkil edir (*yalnız inflyasiya səviyyəsindən yüksək olması tələb olunur*), lakin bunun səbəbi yuxarıda qeyd etdiyimiz qeyri-effektiv maliyyə strukturudur.

• ***Likvidlik:*** likvidlik baxımından kredit birlikləri ümumilikdə özlərinin qısamüddətli aktivlərini qısamüddətli passivləri ilə uzlaşdıra bilmişlər və onların aktiv-passivləri idarə etmələri məqbuldur. Hələ də likvid gəlir gətirməyən aktivlər əmsalı yüksəkdir, lakin hazırkı mərhələdə bu problem deyil, çün-

ki kredit birlikləri müəyyən əməliyyat məqsədilə, üzvlərin ehtiyaclarına və ya likvidliyin çatışmazlığına dərhal cavab vermək üçün nağd vəsaiti saxlayırlar. Gəlir və maliyyələşdirmə əmsalları ümidvericidir və Kredit Birliklərinin öz əməliyyatlarını saxlaması üçün marjanın kifayət qədər olduğunu göstərir.

- ***Artım:*** fəaliyyətin birinci ilində kredit birliklərinin belə artım tempi göstərmələri ümidvericidir. Xüsusilə də, qeyd edilməlidir ki, kreditləşdirmə həcminin kəskin artmasına baxmayaraq, Kredit Birlikləri kreditlərin qaytarılma səviyyəsini yüksək olaraq saxlamağa və ödənişlərin gecikdirilməsi səviyyəsinin aşağı olmasına nail olmuşlar. Lakin aydındır ki, müəyyən dövrdən sonra belə artım tempinin davam etməsi dayanıqlı deyil. Bundan başqa, güclü kreditləşdirmə və borcalan praktikasına malik olan Kredit Birlikləri uzunmüddətli planda belə yüksək artım tempi nümayiş etdirə bilməyəcəklər. Tənzimləyici orqan bu sürətli artım barəsində tam məlumata malikdir və sistemin qeyri-sağlam və mənfi inkişafının qarşısının alınması üçün zəruri addımları atır. Ümumiyyətlə isə, Kredit Birliklərinin öz artım göstəriciləri ilə bu xidmətlərə ödənilməyən potensial tələbatın olmasını sübut etməsi və sistemin davamlılığına etimadın artması üçün işləmələri çox yaxşı haldır.

Yuxarıda göstərilmiş mənfəət göstəriciləri bu sahənin maliyyə və əməliyyat dayanıqlığına etimadın artmasını dəstəkləmək üçün seçilmişdir. Bu əmsallar bir daha belə bir nəticə çıxarmağa imkan verir ki, bu sahə potensiala malikdir və davamlı ola bilər. Digər mənfəət göstəriciləri hazırkı vəziyyət üçün aktual hesab edilməmişdir, çünki Kredit Birlikləri elə də uzun müddət deyil ki, fəaliyyət göstərirlər və onların fəaliyyətinə bu göstəricilər əsasında qiymət vermək hələ tezdir.

Kredit Birliklərinin bundan sonra da möhkəm portfelə və kreditlərin yüksək qaytarılma səviyyəsinə malik olması, nəzarət orqanı tərəfindən kreditlərin qaytarılma müddətlərinə ciddi nəzarət edilməsi son dərəcə vacibdir. Kredit portfelində arzuolunmaz hadisələrin qarşısını almaq üçün bütün mənfəətin ehti-

yat fondda saxlanılması yaxşı haldır. Bu baxımdan nəzarət orqanı tərəfindən kreditlərin təsnifatı və ehtiyatların formalaşdırılmasının tətbiqinə təkan verilməsi məqsədəmüvafiqdir.

## 4.4. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının aqrar sektorun maliyyələşdirilməsində rolu

Kənd təsərrüfatının maliyyələşdirilməsində bank olmayan kredit təşkilatları mühüm əhəmiyyətə malikdirlər. Bu sırada hazırda aqrar sahənin kredit təminatının əhəmiyyətli hissəsini öz üzərinə götürən «İcraçı Kredit Agentliyi» və əvvəllər «Aqrobank» dövlət bankı kimi uğurla fəaliyyət göstərmiş «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı fəaliyyət səmərəliliyi ilə daha çox üstünlüklər əldə etmişdir. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı 2003-cü ildə hökumətin müvafiq Qərarı əsasında yenidən təşkil olunmuşdur. Avropa Birliyinin dəstəyi ilə 2003-cü ildə dövlət mülkiyyətində olan və kifayət qədər maliyyə resurslarına malik Avropa Komissiyasının Ərzaq Təhlükəsizliyi Proqramı çərçivəsində toplanmış vəsaitlər hesabına kənd yerlərində kreditləşməni həyata keçirən Aqrar Kredit Fondu Aqrarkredit Təşkilatına qoşulmuşdur. Azərbaycan hökuməti ilə Avropa Komissiyası arasında 2004-cü ildə imzalanmış Anlaşma protokolunda «Aqrarkredit»in tam bank lisenziyasının alınmasına və 2008-ci ilin sonunadək özəlləşdirilməsinə dair texniki yardımın davam etdirilməsi razılaşdırılmışdır [187-11].

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatının əsas məqsədi - tam bank lisenziyası ilə işləyən, mənfəətli və davamiyyətli maliyyə-kredit institutuna çevrilməkdən ibarət olmaqla, cəlb olunan vəsaitlərdən istifadə edərək, Azərbaycan Respublikasının kənd yerlərində özəl qurumların və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin kreditə olan tələbatının təmin edilməsidir.

«Aqrarkredit» SKT-nin əsas məqsədi [187-11]:

- ⇨ hökumətin kreditləşmə, lizinq proqramlarında iştirak etməklə respublikada kənd təsərrüfatını stimullaşdırmaq;
- ⇨ onun bütün sahələrinə xidmət göstərməklə inkişafını dəstəkləmək;
- ⇨ mənfəətli və davamiyyətli Maliyyə Kredit İnstitutuna çevrilməkdir.

Kredit təşkilatının şəbəkə strukturu Bakı şəhərində yerləşən Baş Ofisdən və respublikanın bütün ərazisini əhatə edən 12 filial (*Bakı, Naxçıvan, Xaçmaz, Lənkəran, Şəki, Ucar, Bərdə, Salyan, İmişli, Qazax, Gəncə və Şamaxı şəhərləri*) və 5 nümayəndəlikdən (*Şərur, Quba, Cəlilabad, Beyləqan və Ağcabədi şəhərləri*) ibarətdir [39, 43].

Bu gün «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı respublikanın kənd əhalisinə kifayət qədər müxtəlif kredit məhsulları təklif etməklə, Azərbaycan Respublikası hökumətinin ayrı-ayrı proqramları üzrə agent kimi iştirak edir.

«Aqrarkredit» SKT öz maliyyə resursları hesabına kənd yerlərində əkinçilik, heyvandarlıq, emal, ticarət və digər özəl sahələrin kreditləşdirilməsini, Dünya Bankının «Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi» çərçivəsində verilmiş kreditlərin qaytarılması hesabına formalaşan «Revolver Fondu"na toplanmış vəsaitlərin təkrar kreditləşmədə istifadə olunmasını, eləcə də Yaponiya hökumətinin Qrantı hesabına respublikaya gətirilmiş müxtəlif kənd təsərrüfatı texnikasının lizinq qaydasında icarəyə verilməsini və icarədən toplanmış vəsaitlərin «Tərəfdaşlıq Fondu»na yığılmasını, keçmiş 3 dövlət bankı tərəfindən verilmiş kreditlərin qaytarılmasını həyata keçirir [187-5].

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı Sakit Okean Ölkələrinin Kənd Təsərrüfatı Kreditləri üzrə Beynəlxalq Təşkilatının (*APRACA*), Kənd Təsərrüfatının Kreditləşdirilməsi üzrə Beynəlxalq Konfederasiyanın (*CİCA*), Azərbaycan Banklar Assosiasiyasının, Bakı Banklararası Valyuta Birjasının və Bakı Fond Birjasının üzvüdür.

«Aqrarkredit» SKT, «Azər-Türk» Azərbaycan-Türkiyə birgə Səhmdar Kommersiya Bankının, «Başak-İnam» Azərbaycan-Türkiyə Birgə Sığorta və Təkrar Sığorta Şirkətinin, Bakı Banklararası Valyuta Birjasının təsisçilərindən biridir. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatında real vaxt rejimində (on-line) işlənmə rejimini təmin edən məlumat-informasiya sistemi qurulmuş, beynəlxalq hesablaşmalar sistemindən (*S.W.İ.F.T*) və Xırda Ödənişlər üçün Klirinq Sistemindən (*XÖKS*) istifadə edilir.

Təşkilatın nizamnamə kapitalı 11,38 milyon manat təşkil edir. «Aqrarkredit»in fəaliyyəti, işsizliyin aradan qaldırılması və müvafiq olaraq yeni iş yerlərinin açılmasına köməklik göstərməklə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2003-cü il tarixli Fərmanının icrasının təmin edilməsinə istiqamətləndirilməklə, qeyri-neft sektorunun inkişafı üçün geniş şərait yaradır [187-5].

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı Dünya Bankının «Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi» və onun davamı olan Revolver Fondu çərçivəsində Salyan, Xaçmaz, Ucar, Bərdə, Lənkəran və Naxçıvan Muxtar Respublikasının Şərur rayonlarının özəl təsərrüfatlarına kredit verilməsində, respublikada ərzaq məhsulları istehsalının artırılmasına kömək məqsədilə Yaponiya hökumətinin ayırdığı Qrant və Tərəfdaşlıq Fonduna toplanmış vəsaitlər hesabına 1998-2004-cü illərdə ölkəmizə gətirilmiş 17,02 milyon manat dəyərində 1117 ədəd müxtəlif kənd təsərrüfatı texnikasının fiziki və hüquqi şəxslərə icarəyə verilməsində və icarə haqlarının yığılıb «Tərəfdaşlıq Fondu»na köçürülməsində Agent funksiyalarını, eyni zamanda öz vəsaiti hesabına «Kənd Yerlərinin Kreditləşməsi» xətti ilə və Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kənd yerlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin kreditləşdirilməsini həyata keçirir. Hər üç layihənin vəsaiti hesabına sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə 9,74 mln. manat kredit verilmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsinə köməklik məqsədilə Kredit Təşkilatı tərəfindən 2004-2008-ci illər üçün hazırlanmış Tədbirlər Planında regionlarda sosial-iqtisadi inkişafın təmin edilməsinə köməklik məqsədilə kənd yerlərində çalışan sahibkarlara, eləcə də digər hüquqi və fiziki şəxslərə kreditlərin verilməsi yolu ilə yeni iş yerlərinin açılması və əhaliyə göstərilən maliyyə-kredit xidmətinin yaxşılaşdırılması təmin edilmişdir.

Təşkilatın əsas missiyası kənd yerlərində inkişafı dəstəkləmək, həmin ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı və digər fəaliyyətlə məşğul olanlara hərtərəfli bank xidməti göstərmək, mənfəətlə işləyən maliyyə təsisatı və ya ixtisaslaşmış Kredit Təşkilatı statusu qazanmaqdır.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı tərəfindən müştərilərə aşağıdakı xidmətlər göstərilir:

- kənd təsərrüfatı sahələrində və kənd yerlərində fəaliyyət göstərən şəxslərə, kredit ittifaqlarına kreditlər vermək;
- kredit xidməti göstərilmiş şəxslərə hesablar açmaq və onların hesabları üzrə əməliyyatlar aparmaq;
- kredit xidməti göstərilmiş şəxslərin pul vəsaitlərini, ödəniş və hesablaşma sənədlərini inkassasiya etmək və onlara hesablaşma-kassa xidməti göstərmək;
- xidmət göstərilən müştərilərin tapşırığı ilə daxili valyuta bazarında xarici valyutanı almaq və satmaq;
- beynəlxalq maliyyə təşkilatlarının, dövlətlərarası sazişlər üzrə donor dövlətlərinin, habelə Azərbaycan Respublikası hökumətinin aqrar sahənin inkişaf etdirilməsi layihələri üzrə agent funksiyalarını icra etmək.

«Aqrarkredit» SKT-nin müxtəlif maliyyə-kredit və s. təşkilatlarda yerləşdirdiyi investisiyaların həcmini aşağıdakı cədvəldən görmək mümkündür:

*Cədvəl 4.12*

**«Aqrarkredit» SKT-nin müxtəlif maliyyə-kredit təşkilatlarda yerləşdirdiyi investisiyaların həcmi**

| № | Təşkilatların adı | Təsis payı (*min manat*) |
|---|---|---|
| 1. | «Azər-Türk» Birgə Bankı | *1014,1* |
| 2. | «Başak-Inam» Birgə Sığorta və Təkrar Sığorta Şirkəti | *24,0* |
| 3. | Bakı Banklararası Valyuta Birjası | *0,4* |
| 4. | Bakı Fond Birjası | *60,0* |
| | **Cəmi:** | **1098,5** |

Mənbə: «Aqrarkredit» SKT-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Kənd yerlərinin kreditləşdirilməsi istiqamətində öz maliyyə resursları hesabına «Aqrarkredit» SKT 12 filialı və 5 nümayəndəliyi vasitəsilə özünün maliyyə resursları hesabına 2005-ci ildə 823 müştəriyə 4,0 milyon manatadək kredit verilmişdir [39, 187-5].

Kredit verilməsi borcalanların iştirak payı 30%-dən az olmamaq, borc məbləğinin ən azı 150%-lik həcmində ipoteka (*girov*) təminatı şərti ilə həyata keçirilmişdir. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı 2005-ci ildə 3,174 mln. manat həcmində kreditin qaytarılmasını təmin etmişdir ki, burada da ödəniş əmsalı 95,5%-ə bərabər olmuşdur. Təşkilat borcalanlara göstərdiyi məsləhət xidmətinə görə 1% həcmində qiymətləndirmə haqqı almışdır.

Aşagıdakı «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illərdə kənd yerlərinin kreditləşdirilməsi xətti ilə sahələr və bölgələr üzrə verilən kreditlər barədə məlumatlar öz əksini tapmışdır:

*Cədvəl 4.13*

*(min manat)*

| Göstəricilər | Kredit verilmişdir | | Qaytarılmış kredit | |
|---|---|---|---|---|
| | 2004 | 2007 | 2004 | 2007 |
| «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illərdə kənd yerlərinin kreditləşdirilməsi xətti ilə verilən kreditlər | | | | |
| Cəmi respublika | 2469,7 | 5506,9 | 759,0 | 3599,3 |
| *o cümlədən:* | | | | |
| Bitkiçilik üzrə | 1255,8 | 1064,8 | 386,7 | 1142,6 |
| Heyvandarlıq üzrə | 341,8 | 2061,9 | 140,4 | 988,2 |
| Ticarət üzrə | 479,9 | 1631,2 | 144,1 | 970,5 |
| Sənaye, xidmət və digər sahələr üzrə | 392,2 | 726,0 | 87,8 | 498,0 |
| Kənd yerlərinin kreditləşdirilməsi xətti ilə «Aqrarkredit» SKT-dən 2004-2007-ci illərdə filiallar üzrə verilən kreditlər | | | | |
| Bakı | 86,2 | 278,5 | 34,8 | 204,0 |
| Bərdə | 324,5 | 384,8 | 47,0 | 320,3 |
| Qazax | 79,4 | 347,4 | 16,0 | 274,9 |
| Imişli | 138,7 | 638,0 | 82,5 | 267,9 |
| Lənkəran | 443,4 | 797,4 | 192,6 | 672,5 |
| Salyan | 181,7 | 48,2 | 105,7 | 24,8 |
| Ucar | 186,9 | 313,8 | 51,8 | 149,1 |
| Xaçmaz | 374,7 | 441,2 | 65,1 | 430,1 |
| Şamaxı | 319,0 | 603,6 | 79,6 | 486,7 |
| Şəki | 93,7 | 800,0 | 23,7 | 384,5 |
| Gəncə | 241,8 | 854,0 | 60,2 | 384,5 |
| Cəmi, respublika üzrə | 2469,7 | 5506,9 | 759,0 | 3599,3 |

Mənbə: «Aqrarkredit» SKT-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

«Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi» və onun davamı olan «Revolver Fondu» hesabına kreditləşmə Dünya Bankı ilə Azərbaycan hökuməti arasında bağlanmış müqaviləyə əsasən bu layihə 1998-ci ildən ölkənin 6 rayonunun (*Xaçmaz, Salyan, Ucar, Bərdə, Lənkəran və Naxçıvan MR-nın Şərur rayonu*) 6 nümunəvi təsərrüfatlarında (*sonralar 113 kəndi əhatə etmişdir*) həyata keçirilmişdir.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı bu layihənin kredit komponentinin (*6,3 mln. ABŞ dolları*) icrasında agent xidməti göstərmişdir. Layihə başa çatdıqdan sonra Maliyyə Nazirliyi ilə 12 mart 2005-ci ildə imzalanmış yeni «Agent sazişi»nə əsasən Kredit Təşkilatı həmin rayonların bütün kəndlərini əhatə etməklə müştərilərə illik 12%-lə kredit verilməsində agent xidmətini davam etdirir. Bu layihə üzrə qısamüddətli kreditlər - 18 ayadək, uzunmüddətli kreditlər - 60 ayadək verilir [39, 43].

Kreditlər verilərkən borcalanların iştirak payı 30%-dən az olmamaqla, kreditə görə təminat isə minimum 150% müəyyənləşdirilmişdir. Kredit Təşkilatı borcalanlara kreditlərin qiymətləndirilməsinə görə göstərdiyi məsləhət xidməti üçün 2% birdəfəlik haqq alır. Faiz məbləğindən əldə edilən gəlirin 50%-i Maliyyə Nazirliyinə köçürülmə, qalan 50%-i isə agent xidmətinə görə «Aqrarkredit» SKT-nin istifadəsində qalır. Yalnız 2007-ci ildə 51 müştəriyə 293,4 min manat kredit verilmişdir.

Dünya Bankı ilə birgə həyata keçirilən «Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi» və onun davamı olan «Revolver Fondu» hesabına «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının filialları üzrə 2007-ci ilin sonuna kredit qalığı Diaqram 4.1-də göstərilmişdir [39, 187-5]:

***Diaqram 4.1***

**Dünya Bankı ilə birgə həyata keçirilən «Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi» və onun davamı olan «Revolver Fondu» hesabına «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının filialları üzrə 2007-ci ilin sonuna kredit qalığı, mln. manat**



«Revolver Fondu» xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illərdə sahələr üzrə kreditlər aşağıdakı kimi olmuşdur:

*Cədvəl 4.14*

**«Revolver Fondu» xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illərdə sahələr üzrə kreditlər**

*(min manat)*

| İstiqamətlər | Kredit verilmişdir | | Qaytarılmış kredit | |
|---|---|---|---|---|
| | 2005 | 2007 | 2005 | 2007 |
| **Cəmi respublika** | 293,4 | 1425,6 | 4,4 | 253,9 |
| *o cümlədən:* | | | | |
| **Bitkiçilik üzrə** | 71,4 | 234,5 | - | 87,7 |
| **Heyvandarlıq üzrə** | 153,0 | 969,1 | 4,4 | 99,8 |
| **Sənaye, xidmət və digər sahələr üzrə** | 69,0 | 222,0 | - | 66,4 |

Mənbə: «Aqrarkredit» SKT-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

«Sahibkarlığa Kömək Milli Fondu» vəsaitləri hesabına kredit xidməti. «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı 2004-cü ildən Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərindən istifadə etmək üçün müvəkkil Kredit Təşkilatı hüququ qazanmışdır. Təşkilat tərəfindən «Azərbaycan Respublikası Regionlarının Sosial İqtisadi İnkişafı Dövlət Proqramı»nda nəzərdə tutulmuş sahələr üzrə 2007-ci ildə 121 müştəriyə 1,315 mln. manat kredit verilmişdir [187-8]:

Aşağıda «Kənd yerlərinin kreditləşdirilməsi» xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2005-2007-ci illərdə filiallar üzrə verilmiş kreditlər haqda məlumatlar öz əksini tapmışdır.

*Cədvəl 4.15*

**«Kənd yerlərinin kreditləşdirilməsi» xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2005-2007-ci illərdə filiallar üzrə kreditlər**

*(min manat)*

| Filialın adı | Kredit verilmişdir | | Qaytarılmış kredit | |
|---|---|---|---|---|
| | 2005 | 2007 | 2005 | 2007 |
| **Bərdə** | 188,6 | 320,4 | 4,4 | 76,8 |
| **Lənkəran** | 42,9 | 610,1 | - | 119,6 |
| **Xaçmaz** | 61,9 | 422,4 | - | 57,3 |
| **Uçar** | - | 46,0 | - | - |
| **Salyan** | - | 11,0 | - | 0,06 |
| **Naxçıvan** | - | 15,7 | - | 0,1 |
| **Cəmi respublika üzrə** | 293,4 | 1425,6 | 4,4 | 253,9 |

Mənbə: «Aqrarkredit» SKT-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Kreditlər üzrə illik faiz dərəcəsi 7%, borcalanların layihədə iştirak payı 30%, girov təminatı isə ən azı 150% olmaqla qısamüddətli kreditlər - 18 ayadək, ortamüddətli kreditlər - 36 ayadək, uzunmüddətli kreditlər - 60 ayadək verilir və istifadə müddətinin ilk üçdən iki ($^2/_3$) dövrünə güzəşt müəyyən edilir.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı 2007-ci ildə bu layihə üzrə 432,0 min manat həcmində kreditin qaytarılmasını təmin etmişdir ki, burada da ödəniş əmsalı 98,6%-ə bərabər olmuşdur. Təşkilat tərəfindən borcalanlara məsləhət xidməti də göstərilir.

«Sahibkarlığa Kömək Milli Fondu» vəsaitləri hesabına «Aqrarkredit» Səhmdar Kredit Təşkilatında 2007-ci ildə kredit vəsaitlərinin sahələr üzrə həcmi aşağıdakı (*Diaqram 4.1 və Cədvəl 4.16*) kimi olmuşdur [39, 187-5]:

*Diaqram 4.2*




*Cədvəl 4.16*

*(min manat)*

| İstiqamətlər | Cəmi | o cümlədən | | |
|---|---|---|---|---|
| | | 2004 | 2005 | 2007 |
| **Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illər üzrə kreditlər** | | | | |
| **Cəmi respublika üzrə** | 2784,0 | 86,0 | 1928,4 | 769,6 |
| *o cümlədən:* | | | | |
| **Bitkiçilik üzrə** | 307,1 | 20,0 | 227,4 | 59,7 |
| **Heyvandarlıq üzrə** | 1527,2 | 66,0 | 986,3 | 454,9 |
| **Sənaye, xidmət və digər sahələr üzrə** | 969,7 | - | 714,7 | 255,0 |

| Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə «Aqrarkredit» SKT tərəfindən 2004-2007-ci illərdə filiallar üzrə kreditlər | | | | |
|---|---|---|---|---|
| **Bakı** | 373,0 | 175,0 | 105,1 | 12,5 |
| **Bərdə** | 35,9 | 10,0 | 1,9 | 16,5 |
| **Qazax** | 381,4 | 105,9 | 111,8 | 76,8 |
| **Imişli** | 213,0 | 90,0 | 11,8 | 46,0 |
| **Lənkəran** | 149,5 | 11,0 | 21,9 | 2,2 |
| **Salyan** | 103,9 | 85,0 | - | 1,8 |
| **Ucar** | 66,0 | - | - | 0,15 |
| **Xaçmaz** | 19,0 | - | 2,0 | 2,0 |
| **Şamaxı** | 90,8 | 99,0 | 16,8 | 14,1 |
| **Şəki** | 186,0 | - | 104,6 | 68,4 |
| **Gəncə** | 310,0 | 193,7 | 18,0 | 62,2 |
| **Cəmi respublika üzrə** | 1928,4 | 769, 6 | 393,8 | 302,75 |

Mənbə: «Aqrarkredit» SKT-nin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Yaponiya hökumətinin 1998-2003-cü illərdə ayırdığı 6 qrant hesabına respublikaya gətirilmiş 773 ədəd (*13,02 mln. manat dəyərində*) texnika, o cümlədən 207 ədəd kombayn, 212 ədəd traktor, 186 ədəd kotan, 148 ədəd taxılsəpən və 20 ədəd rotasion mala hüquqi və fiziki şəxslərə icarəyə verilmişdir. 2007-ci ildə «Tərəfdaşlıq Fondu» hesabına 113 müştəriyə 3,84 mln. manat dəyərində 293 ədəd kənd təsərrüfatı texnikaları icarəyə verilmişdir. Müştərilərə göstərilən məsləhət xidmətinə görə texnikanın dəyərinin 2,5%-ə qədəri həcmində komisyon haqqı alınır. Texnikalar lizinqə verilərkən təminat olaraq 150%-dən az olmamaqla ipoteka müəyyənləşdirilmişdir. Layihənin əvvəlindən Yaponiya Qrantı hesabına alınmış texnikaların dəyərinin 6,85 mln. manatının *(54%),* Tərəfdaşlıq Fondu hesabına alınmış texnikaların dəyərinin isə 800,7 min manatının *(121%)* ödənilməsi təmin edilmişdir.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı 2007-ci ildə 1,9 mln. manat (*ödəniş əmsalı 105%*) icarə haqqı yığılmasını və Tərəfdaşlıq Fonduna köçürülməsini təmin etmişdir. Yaponiya hökumətinin qrantı və «Tərəfdaşlıq Fondu» hesabına

alınmış və icarəyə verilmiş ayrı-ayrı texnikaların dəyəri «Aqrarkredit» Səhmdar Kredit Təşkilatında aşağıdakı kimi olmuşdur [39, 187-5]:

***Diaqram 4.3***




Yaponiya hökumətinin qrantı və «Tərəfdaşlıq Fondu» hesabına alınmış və icarəyə verilmiş ayrı-ayrı texnikaların dəyəri «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının filialları üzrə aşağıdakı kimi olmuşdur [187-5]:

*Diaqram 4.4*




«Aqrarkredit» Səhmdar Kredit Təşkilatının kredit portfeli 10975,4 mln. manat məbləğində və ya ABŞ dolları ekvivalenti ilə 12,0 mln. manat məbləğində 3627 kreditdən ibarətdir. Bundan əlavə, Kredit Təşkilatı 9177,9 min manat məbləğində 1100 ədəd icarəyə verilmiş kənd təsərrüfatı texnikasının dəyərinin lizinq qaydasında qaytarılan vəsaitlərinin idarə edilməsini də həyata keçirir [39].

Beləliklə, yuxarıda qeyd edilənlərdən göründüyü kimi, ayrı-ayrı mənbələr hesabına qeyri-bank kredit təşkilatları tərəfindən kənd təsərrüfatı sektoruna yönəldilən kredit qoyuluşunun həcmi 45 mln. ABŞ dolları məbləğindədir. Digər maliyyə qurumları, o cümlədən banklar tərəfindən də kənd təsərrüfatı və emal sektoruna yönəldilmiş kredit qoyuluşu nəzərə alınmaqla, onun həcmi

100 mln. ABŞ dollarınadək məbləği təşkil edir. Odur ki, yuxarıda göstərildiyi kimi, kənd təsərrüfatı sektorunun növbəti 5 ildə kreditə olan illik tələbatının 160 mln. ABŞ dolları məbləğində olduğu nəzərə alınaraq bu sahəyə hər il 165 mln. ABŞ dolları məbləğində əlavə vəsaitin yönəldilməsi üçün kənd təsərrüfatı sektoruna əlavə Layihələrin və Fondların cəlb olunması ilə yanaşı, həmin sektora xidmət edən, depozit şəklində əlavə vəsaitləri cəlb etmək imkanına malik olan bankın yaradılmasına ehtiyac yaranır. Bununla əlaqədar «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün onun regionlarda fəaliyyətinin genişlənməsinə, kənd əhalisinə daha keyfiyyətli bank xidmətinin göstərilməsinə, gəlirliyinin artırılmasına, korporativ idarəetmə strukturunun təkmilləşməsinə, kredit portfelinin əhəmiyyətli şəkildə artırılmasına zərurət yaranır. Bu məqsədlə Kredit Təşkilatı öz kredit portfelini əhəmiyyətli dərəcədə artırmalı, bunun üçün isə sərəncamında olan vəsaitlər yetərli olmadığına görə depozit şəklində əlavə vəsaitləri cəlb olunmalıdır.

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq, eləcə də Kredit Təşkilatının digər hökumət proqramlarında da iştirakını təmin etmək üçün tam bank lisenziyasının alınmasına ciddi zərurət yaranmışdır.

Kredit Təşkilatı tam bank lisenziyasını əldə etdikdən sonra onun gələcəkdə inkişafı ilə paralel olaraq hökumətin dəstəyi ilə özəlləşdirilməsinə hazırlıq getməlidir. Belə ki, Azərbaycan hökuməti ilə Avropa Komissiyası arasında 2004-cü ildə imzalanmış razılaşma protokoluna əsasən Avropa İttifaqı tərəfindən irəli sürülən təkliflərə görə «Aqrarkredit» Səhmdar Kredit Təşkilatının özəlləşdirilməsi prosesinə başlanılması üçün aşağıdakılar həyata keçirilməlidir:

- kredit təşkilatının səhmlərinin 20-25%-nə qədərinin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən özəl qurumlara təklif olunması və onlardan birinin nümayəndəsinin Kredit Təşkilatının Müşahidə Şurasında təmsil olunması;

- kredit təşkilatının səhmlərinin (*10%-20%-nin*) Avropa Yenidənqurma və İnkişaf Bankına və Strateji investor kimi digər beynəlxalq maliyyə qurumlarına təklif edilməsi;
- qalan 70% səhmlərdən 30%-nin Dövlət payı kimi saxlanılması, yerdə qalan hissəsinin isə Azərbaycan ictimaiyyətinə (*əmək kollektivinə, respublikanın digər fiziki və hüquqi şəxslərinə*) təklif edilməsi.

2003-cü ildə «Aqrar Kredit Fondu» «Aqrarkredit» Səhmdar Kredit Təşkilatına qoşulduqdan sonra həmin Fonda Avropa Birliyinin Layihəsi çərçivəsində texniki yardım göstərmiş layihə qrupunun ekspertləri öz fəaliyyətini «Aqrarkredit» Səhmdar Kredit Təşkilatında davam etdirmiş, 2005-ci ilin sonundan isə Avropa Birliyinin «Aqrarkredit»in özəlləşdirilməsinə hazırlıq» Layihəsi üzrə məsləhət qrupu indiyədək təşkilata məsləhət xidməti göstərir.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatında Mərkəzi Bankın müvafiq qaydalarına əsasın korporativ idarəetmə sistemi tətbiq edilir. Kredit Təşkilatının idarəetmə orqanları formalaşmış, daxili komitələr, o cümlədən Kredit Komitəsi fəaliyyət göstərir. Kredit Təşkilatının Mərkəzi Banka təqdim etdiyi hesabatlar Banklar üçün müəyyən olunmuş formatda verilir. Kredit təşkilatında risklərin idarə olunması həyata keçirilir, daxili nəzarət sistemi tətbiq olunur. Təşkilatda yeni bank məlumat informasiya sistemi qurulmuş, bütün maliyyə və kredit göstəriciləri şəffaf olaraq informasiya sistemində əks olunur. Kredit Təşkilatının işçiləri ABTM-nin, təşkilata texniki yardım göstərən məsləhətçisinin, eləcə də digər maliyyə qurumlarının təşkil etdiyi treninqlərdə iştirak etməklə, öz bilik və peşəkarlıq səviyyələrini artırmışlar. Mərkəzi Bankın müvafiq normativ aktlarına uyğun olaraq Kredit Təşkilatının fəaliyyətinin ayrı-ayrı sahələrini tənzimləyən daxili qaydalar və prosedurlar hazırlanmışdır. Kredit Təşkilatının mövcud lisenziyası onun regionların inkişafı üçün kənd yerlərində fəaliyyətini məhdud-

laşdırdığına görə Kredit Təşkilatına tam bank lisenziyasının verilməsi məsələsi Beynəlxalq Valyuta Fondunun nümayəndələrinə Təşkilatda çalışan AB-nin məsləhətçisi tərəfindən inandırılmışdır.

«Aqrarkredit» Səhmdar Kredit Təşkilatı məcmu kapitalının məbləğinə, idarəetmə strukturuna, mövcud şəbəkəsinə, personalına, menecment informasiya sisteminə malik olduğuna, SWİFT AZİPS, XÖKHS sistemlərinin iştirakçısı olduğuna görə tam bank lisenziyası ilə işləməyə hazırdır. Aqrar sahədə kredit strategiyasını müəyyən etmək məqsədi ilə respublikanın aşağıdakı bir sıra regionlarında monitorinq proqramı həyata keçirilmişdir: Şamaxı, Şəki, Qazax, Tovuz, Şəmkir, Bərdə, Ağcabədi, Xaçmaz, Quba, Masallı, Lənkəran rayonları, Gəncə şəhəri və Naxçıvan MR. Xüsusi anketlər vasitəsi ilə 46 nəfər arasında sorğu aparılmışdır. Bunlara kənd təsərrüfatı məhsulları istehsalçıları, emal və kənddə digər sahibkarlıqla məşğul olan şəxslər, habelə Aqrarkreditin Şamaxı, Şəki, Gəncə, Qazax, Xaçmaz, Lənkəran və Naxçıvan filiallarının rəhbərləri daxil olmuşlar.

Aparılan təhlil və araşdırmalar göstərir ki, «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı ölkədə kənd təsərrüfatına ən çox kredit dəstəyi göstərən təsisatlardandır. Belə ənənəvi təsisatın mövcudluğu və fəaliyyət səmərəliliyi istehlak kooperasiyasının da kredit stimullaşdırılmasına əsaslar yaradır. Bu isə təsisatın kredit diversifikasiyası isə ölkənin aqrar sektorunda kooperativ hərəkatında əsas təkanverici amillərdən olacaqdır.

## 4.5. Aqrar kredit təşkilatlarının fəaliyyətinin qiymətləndirilməsi

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasəti bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da dinamik inkişafa gətirib çıxarmışdır. Bu baxımdan aqrar sektorun, kiçik və orta sahibkarlı-

ğın inkişafı üçün yaradılmış münbit şərait xüsusi qeyd olunmalıdır. Bu sahədə aparılan məqsədyönlü tədbirlərin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dönmədən davam etdirilməsi, qısa vaxt ərzində Azərbaycan iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının yüksək templə inkişafından xəbər verir. Kənd təsərrüfatı sahəsində qazanılan uğurları daha əzəmətli etmək, ölkənin bütün regionlarını, sosial-iqtisadi baxımından yüksək səviyyədə inkişaf etdirmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq, yeni iş yerlərinin açılmasını, aqrar sektorun inkişafını, kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsini təmin etmək və digər tədbirləri həyata keçirmək üçün kənd təsərrüfatı sektorunun güclü maliyyə vəsaitinə böyük ehtiyacı vardır. Belə ki, Dünya Bankının Azərbaycan hökuməti ilə birgə həyata keçirdiyi «Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi» layihəsi çərçivəsində hazırlanmış «Azərbaycanın kənd təsərrüfatı strategiyası üçün investisiya proqramı və maliyyə planına» əsasən 2006-2010-cu illərdə respublikada aqrar sahənin inkişafına 1329,8 mln. ABŞ dolları məbləğində investisiya qoyulması əsaslandırılmışdır. Bu məbləğin 800 mln. dollardan çoxunun müxtəlif sahələrə kredit kimi verilməsi təklif olunur [187-5]. Bu da onu göstərir ki, yaxın 5 ildə respublikada aqrar sahənin kreditə olan illik tələbatı 160 mln. ABŞ dolları həcmindən az olmamalıdır.

Kənd yerlərinin kreditləşdirilməsi zamanı kredit təşkilatlarının qarşısına bir sıra problemlər çıxır ki, bunlar da əsasən respublikamızda torpaq bazarının, o cümlədən torpaq hərracını həyata keçirən ixtisaslaşdırılmış təşkilatların formalaşması prosesinin başa çatmaması və bəzi bir sıra rayonlarda və kəndlərdə aidiyyəti olan orqanlar tərəfindən fiziki şəxslərin torpaq sahələrinə mülkiyyət sənədlərinin bu günədək verilməməsidir. Belə bir vəziyyətdə kredit təşkilatları kənd yerlərində kreditin təminatı kimi torpaq sahələrini və fərdi yaşayış evlərini ipoteka kimi qəbul edə bilmirlər.

Respublikanın aqrar sektoruna maliyyə-kredit xidməti göstərən kredit təşkilatları əsasən aşağıdakılardır:

*Cədvəl 4.17*

**Aqrar sahədə fəaliyyət göstərən kredit təşkilatları**

(*mln. ABŞ dolları ilə*)

| S/ № | Bank olmayan Kredit Təşkilatlarının adları | Kredit portfeli | Respublika üzrə əhatə dairəsi |
|---|---|---|---|
| 1. | «Cred Aqro» | 5,2 | 18 rayonun ərazisi |
| 2. | «Finka» | 10,4 | 11 rayon və Bakı şəhəri |
| 3. | «Norveç Mikrokredit» | 1,6 | 12 rayon və Bakı şəhəri |
| 4. | «Adra Kredit» | 0,9 | Naxçıvan MR |
| 5. | «Naxçıvan Mikrokredit» | 0,7 | Naxçıvan MR |
| 6. | «İnkişaf üçün maliyyə» | 0,8 | 9 rayon və Bakı şəhəri |
| 7. | «Azəri Star» | 0,6 | 11 rayonun ərazisi |
| 8. | «Azər-Kredit» | 2,3 | 6 rayon, Bakı və Gəncə şəhərləri |
| 9. | «İcraçı Kredit Agentliyi» | 11,7 | 6 rayonun ərazisi |
| 10. | «Mikromaliyyə» | 2,0 | 5 rayonun ərazisi |
| | Cəmi: | 36,2 | |

Mənbə: Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 4.17-dən göründüyü kimi, kənd təsərrüfatını maliyyələşdirən yuxarıda göstərilən kredit təşkilatlarının kredit portfelinin həcmi cəmi 36,2 mln. ABŞ dolları məbləğində olsa da, onların fəaliyyət sferası bütün respublikanı deyil, onun yalnız ayrı-ayrı bölgələrini əhatə edir və təbii ki, nə ərazi baxımından aqrar sahə tamamilə əhatə olunur, nə də ki sahənin kredit ehtiyacının ödənilməsi təmin edilir. Həm də «İcraçı Kredit Agentliyi» istisna olunmaqla, bu təşkilatların kredit vəsaitlərinin çox az bir hissəsi aqrar yönümlü kredit ehtiyaclarının ödənilməsinə yönəldilir ki, bu baxımdan da onların fəaliyyətinin təhlilinə ehtiyac duyulmur. Burada kredit kooperativlərinin də təsisatlandırılması əhəmiyyətlidir. Belə ki, tədqiqatlar göstərir ki, ba-

zar münasibətlərinin inkişaf etdiyi indiki şəraitdə belə kooperativlər daha optimal stimullaşdırmanı həyata keçirirlər.

Kənd təsərrüfatında fəaliyyət göstərən özəl qurumların xüsusi çəkisinin günü-gündən artdığını nəzərə alaraq, onlara əlverişli maliyyə-kredit mühitinin yaradılması olduqca vacib məsələlərdəndir. Azərbaycanın sosial-iqtisadi inkişafı yeni yaranmış sahibkarların fəaliyyətindən və onların əldə etdiyi nailiyyətlərdən çox asılıdır. Təsadüfi deyil ki, ölkədə sahibkarlığın inkişafını genişləndirmək üçün beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə, eyni zamanda BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Birliyinin TACİS proqramı, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatı və başqa maliyyə qurumları ilə sıx əlaqələr yaradılmışdır [187-5].

Araşdırılan çoxsaylı amillər arasında aqrar sahənin inkişafı prosesini məhdudlaşdıran on amili daha məqsədəmüvafiq hesab etmək olar ki, bunlara da kənd sahibkarları və kredit təşkilatlarının yerli rəhbər və mütəxəssisləri daha çox üstünlük verirlər:

1. kənd iqtisadiyyatı subyektlərinin şəxsi maliyyə vəsaitlərinin çatışmazlığı - sorğu aparılanların 99%-i;
2. kənd iqtisadiyyatı subyektlərinin kredit vəsaitlərini əldə etmək imkanlarının olmaması (*bank kreditlərinin yüksək faizlərlə - 10%-dən yüksək olması, Xaçmaz, Şəki, Gəncə, Bərdə şəhərlərində kommersiya banklarının filiallarından kredit almağın mümkünsüzlüyü*) - sorğu aparılanların 91%-i;
3. borc verilən maliyyə vəsaitlərinin çatışmaması - sorğu aparılanların 85%-i;
4. kənd təsərrüfatında mövcud texnologiyaların köhnəliyi və maddi-texniki resursların pis vəziyyətdə olması - sorğu aparılanların 76%-i;
5. kənd iqtisadiyyatına (*aqrar bölmənin əmtəə istehsalçılarına*) dövlət yardımının olmaması - sorğu aparılanların 67%-i;
6. elit toxum sortlarının, cins mal-qaranın, kartofun olmaması - sorğu aparılanların 60%-i;

7. kənddə bazar infrastrukturunun inkişaf etməməsi (*rayonlarda birjaların və topdansatış bazarlarının olmaması*) - sorğu aparılanların 55%-i;
8. kənddə alıcıların tədiyə qabiliyyətinin olmaması (*topdansatış tədarükçülərinin çoxunun fermerlərdən hazır məhsulu - əti, südü, tərəvəzi, meyvəni vaxtında almaq imkanlarının olmaması*) - sorğu aparılanların 32%-i;
9. xarici əmtəə istehsalçıları ilə rəqabətə davam gətirməmək - sorğu aparılanların 14%-i;
10. maddi-texniki resurslar və kənd təsərrüfatı məhsullarının qiymətləri arasında tarazlığın gözlənilməməsi (*qiymət dispariteti, benzinin, dizel yanacağının, elektrik enerjisinin, mineral gübrələrin və s. qiymətlərinin yüksək olması*) - sorğu aparılanların 12%-i.

Aparılan araşdırmalar nəticəsində respublikamızda aqrar bölmədə kredit xidmətləri göstərən mövcud təşkilatların gələcək fəaliyyət istiqamətlərini, onların marketinq strategiyasını formalaşdırmağa kömək edə biləcək aşağıdakı tövsiyələri təklif edirik:

- Aqrar kredit təşkilatının marketinq strategiyası. Xarici kredit təşkilatlarının praktikasında kredit marketinqi istehlakçıya yönəldilmiş qlobal strategiyanın həyata keçirilməsi vasitəsidir. Kredit marketinqi aşağıdakı vəzifələrin həllinə yönəldilməlidir:
- kredit xidmətlərinin mövcud və potensial bazarlarının müəyyənləşdirilməsi;
- konkret bazarların seçilməsi və müştərilərin ehtiyaclarının müəyyən edilməsi;
- kredit məhsullarının və xidmətlərinin mövcud və yeni növləri üçün uzun və qısamüddətli məqsədlərin müəyyən edilməsi;
- bazarda kredit məhsullarının və xidmətlərinin yeni növlərinin tətbiqi və kreditin tətbiqi proqramının həyata keçirilməsinə nəzarət.

Kredit xidmətləri bazarının və onların potensial istehlakçılarının öyrənilməsi üçün kredit təşkilatları tipləşdirmə və seqmentləşdirmə kimi marketinq qaydalarından istifadə edirlər.

Tipləşdirmə istehlakçı qruplarının sosioloji xarakterinə görə və eləcə də sosial-iqtisadi və demoqrafik amillər əsasında müəyyən edilməsini nəzərdə tutur. Tipləşdirmənin vasitələri kimi gəlirlərin və istehlakın differensial balansının təhlili və panel tədqiqatından istifadə olunur.

Bazar seqmentləşdirikməsi bazarın ayrı-ayrı sahələrə bölünməsini nəzərdə tutur ki, bunlar da həm istehlakçının tələbinin spesifikliyi, həm də təklifin spesifikliyi ilə xarakterizə olunur. Seqmentləşdirmənin məqsədi ayrı-ayrı istehlakçı qruplarının konkret xidmət növünə münasibətini müəyyən edir. Bazarın seqmentlərə bölünməsinə xitabən kredit təşkilatları mövcud və potensial bazarların istehlakçılarına müvafiq olaraq xidmətlər təklifini tənzimləmək imkanı əldə edirlər və uzunmüddətli bazar strategiyasını hazırlayırlar.

Aqrar sahədə kredit təşkilatının strategiyasının əsasları. Aqrar sahədə kredit təşkilatının strategiyasının əsaslarını, zənnimizcə, aşağıdakı kimi formalaşdırmaq mümkündür:

- əsas istiqamətin kredit portfelinin inkişafının, artımının, keyfiyyətinin və müxtəlifliyinin təmin olunmasına yönəldilməsi;
- kredit təşkilatının marketinq strategiyasının hazırlanması və əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi;
- kredit məhsullarının qiymətinin idarə olunması prosedurunun və səmərəli nəzarətin hazırlanması;
- yüksək ixtisaslı və səriştəli kadr resurslarının hazırlanması və inkişaf etdirilməsi *(təhsil, siyasət və prosedurlar);*
- güclü müştəri münasibətləri şəbəkəsinin inkişaf etdirilməsi;
- risklərin idarə edilməsi xidmətinin yaradılması;

- xarici maliyyə institutları ilə münasibətlərin genişləndirilməsi.

Aqrar kredit təşkilatının fəaliyyətinin əsas məqsədi - Azərbaycan kəndinin iqtisadiyyatı üçün etibarlı, sabit və keyfiyyətli kredit xidmətini təmin edən bir təşkilat kimi bərqərar olmaqdır. Aqrar kredit təşkilatının fəaliyyətinin məqsədi Azərbaycan kəndinin iqtisadiyyatının iqtisadi inkişafı prosesinə hərtərəfli kömək göstərməkdən ibarət olmalıdır. Bu məqsədlə o, hər bir müştəriyə ən müasir kredit məhsullarının və xidmətlərinin tam kompleksini təqdim etməlidir. Təşkilat Azərbaycan Respublikasının qanunvericiliyinə ciddi riayət etməklə fəaliyyətini təşkil etməli, bütün müştərilərini - həm korporativ və həm də fərdi - yüksək səviyyəli kredit xidməti almaqda əmin etməli, daim öz müştəriləri və tərəf-müqabilləri qarşısında götürdüyü bütün öhdəliklərin yerinə yetirilməsini təmin etməlidir. O öz fəaliyyətini qarşılıqlı inam əsasında qurmalıdır ki, bunun da kökündə qarşılıqlı anlaşma və strateji əməkdaşlığın inkişafı durur.

Təşkilat professionallar komandası formalaşdırmalı, fasiləsiz olaraq ixtisasartırmaya, təşəbbüskarlığa, sosial müdafiəyə və kooperativ dəyərlərə sadiqlik barədə qayğı göstərməlidir.

Kredit təşkilatı mövcud kredit texnologiyasının daim təkmilləşdirilməsinə çalışmalıdır. Bu zaman o, qısa müddət ərzində müvəffəqiyyət əldə etməyi və tez bir zamanda varlanmağı qarşısına məqsəd qoymamalı, həmişə uzunmüddətli qarşılıqlı səmərəli münasibətlərə üstünlük verməlidir.

Təşkilat Azərbaycan kəndinin inkişafı, ona dəstək verilməsi, investisiya xidməti göstərilməsi üçün kənd iqtisadiyyatının spesifik xüsusiyyətlərini nəzərə almaqla, əldə etdiyi təcrübə və biliyi fəal və ardıcıl olaraq istifadə etmək əzmində olmalıdır.

Marketinq - kredit təşkilatının işində idarəetmə, maliyyələşdirmə və texnoloji tərəqqi ilə yanaşı, müvəffəqiyyətin ən strateji amillərindən birinə çevrilməlidir.

Təşkilatda müvəffəqiyyətlə fəaliyyət göstərən marketinq sistemi aşağıdakı elementləri özündə birləşdirməlidir [39, 40]:

- kredit məhsulları (*xidmətləri*);
- satış;
- bazar;
- qiymətlər;
- irəliləyiş.

Kredit sferasında marketinqin spesifikliyi onunla müəyyən olunur ki, təşkilat, xidmət sferasında fəaliyyət göstərmiş olsun. Məzmununa görə kredit məhsulu - təşkilatın aktiv və passiv əməliyyatlar üzrə kompleks xidmətlər məcmusudur. Bazarın və təşkilatın daxili imkanlarının tədqiq edilməsi təşkilata, onun rəqabətdəki üstünlüklərinin, yəni maddi və qeyri-maddi aktivlərinin və ona rəqiblərini qabaqlamağa imkan verən strateji cəhətdən vacib fəaliyyət dairəsinin müəyyən edilməsinə imkan verəcəkdir. Praktikada təşkilatın rəqabətdəki üstünlükləri müxtəlif formalarda ola bilərlər: təşkilatın imici; göstərilən xidmətlərin yüksək səviyyəsi; lisenziyanın olması; sabit müştəri dairəsi; müxbir şəbəkəsi; hesablaşmalar sistemi və göstərilən xidmətlərin çoxluğu; filial şəbəkəsinin mövcudluğu və bu şəbəkənin genişləndirilməsi perspektivləri; fəaliyyətdə olan reklam; işçilərin professionallığı, yüksək səviyyəli menecment, toplanmış iş təcrübəsi və s.

Aqrar kredit təşkilatının marketinq strategiyasının inkişafının məqsədləri aşağıdakılardan ibarət olmalıdır [98, 99, 117]:

- təşkilatın fəaliyyətinin Azərbaycan kəndinin məhsullarına və aqrar bazarın tələblərinə istiqamətlənməsi və uyğunlaşması;
- müştərilərin tələbatının təmin edilməsi (*kənd iqtisadiyyatının və aqrar bazarın bütün xüsusiyyətlərinin anlaşılmasının təmin olunması*);
- digər rəqib kredit təşkilatları üzərində üstünlüyə nail olmaq hesabına kredit məhsullarının satışının artırılmasının təmin edilməsi;

- kredit təşkilatının potensialından səmərəli istifadə etmək hesabına yeni kredit məhsullarının hazırlanmasına və istehsalına çəkilən xərclərin azaldılması;
- təşkilatın özü üçün nəzərdə tutduğu gəlir göstəricilərinə nail olunması;
- təşkilatın özünün bütün filial və şöbələrinin fəaliyyətində marketinq konsepsiyasının tətbiqi.

Kredit təşkilatının marketinq strategiyasının məqsədlərinə nail olunması aşağıdakı vəzifələrin icrası ilə təmin olunur [46, 47, 82]:

- marketinq informasiya sisteminin təşkili və həyata keçirilməsi;
- perspektivli satış bazarlarını, kənddə tələblə təklifin dinamikasını və spesifikasını, aqrar məhsulları müəyyən edib tədqiq etməklə marketinq tədqiqatların aparılması, eləcə də öz imkanlarının mövcud vəziyyətinin tədqiq edilməsi;
- təşkilatın öz kredit məhsullarının hər bir növü üzrə proqnoz və cari planların işlənib hazırlanması;
- marketinq tədqiqatlarının nəticələrini nəzərə almaqla kredit məhsullarının təkmilləşdirilməsi;
- kreditləşdirmə sisteminin təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənib hazırlanması;
- kredit təşkilatının firma stilində işinin təşkilinə nail olmaq;
- kredit təşkilatının reklamı üzrə işin təşkili;
- hər bir kredit məhsulları və xidmətləri üzrə tövsiyə xarakterli proqram strategiyasının işlənib hazırlanması;
- kredit təşkilatının marketinq nəzarətinin təşkili və həyata keçirilməsi;
- kredit təşkilatının əməkdaşları üçün marketinqin əsasları üzrə məlumatlandırma tədris tədbirlərinin təşkili.

Kredit təşkilatının yuxarıda göstərilən tövsiyələrə uyğun marketinq strategiyası proqramının inkişafının təmin olunması üçün onun tərkibində Azərbaycanın kredit bazarının tədqiqi və marketinqin proqnozlaşdırılması, ehtiyatların öyrənilməsi və kredit məhsullarının və xidmətlərinin çeşidinin planlaşdırılması, inkişaf və reklamın təşkili məsələləri ilə məşğul olan marketinq qurumunun yaradılması məqsədəmüvafiq hesab edilir.

Aqrar kredit təşkilatının qiymət siyasəti. Əməliyyatların rentabelliyi və bazar şəraitinin qiymətləndirilməsindən çıxış edərək, faiz və tarif siyasətinin yürüdülməsi, satılan məhsulların və göstərilən xidmətlərin böyük həcmdə olması ayrı-ayrı əməliyyatların maya dəyərini aşağı salır və bununla da kredit təşkilatının müştəriləri üçün daha rəqabətqabiliyyətli qiymətləri təmin edir.

Kredit təşkilatının qiymət siyasəti həm regionlar arasındakı fərqləri, həm də əsas müştəri kateqoriyaları ilə aparılan əməliyyatların xüsusiyyətlərini əks etdirməlidir. Kompleks xidmət göstərən zaman kredit təşkilatı ümumi maliyyə nəticələrinə görə müştəri ilə qarşılıqlı fəaliyyətin səmərəliliyini nəzərə almalıdır. Azərbaycan kəndinin iqtisadiyyatının spesifikliyini nəzərə almaqla, kredit təşkilatının sosial yönümlü faiz siyasəti aparması, onun kənddə böyük nüfuz qazanması və bu əsasda geniş əhatəli müştəri şəbəkəsi yaratmaqla, təşkilatın öz məqsədlərinə nail olması, yəni Azərbaycan kəndinin iqtisadiyyatı üçün etibarlı, sabit və keyfiyyətli kredit xidmətini təmin edən bir təşkilat kimi bərqərar olması, kənd iqtisadiyyatının iqtisadi inkişafı prosesinə hərtərəfli kömək göstərməsi ilə nəticələnəcəkdir.

# V FƏSİL.

# KREDİT KOOPERATİVLƏRİNİN TƏSİSATLANDİRİLMASİNIN ZƏRURİLİYİ VƏ İNKİŞAF MEYLLƏRİ

## 5.1. Kredit kooperasiyasının mahiyyəti və spesifik xüsusiyyətləri

Bazar münasibətlərinin inkişafının indiki mərhələsində əmtəə istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, onların fəaliyyət səmərəliliyinin artırılmasına əlverişli şərait yaradan kredit kooperativlərinin mahiyyəti və funksionallığını əks etdirən tədqiqatlar xüsusi maraq doğurur. İnkişaf etməkdə olan bu kooperativ təsisat forması çevikliyi və bazar tələbliyi ilə daha üstün mövqedə dayanır. Kredit kooperativi maliyyə təsisatının bir tipi olmaqla, banklar və başqa kredit təşkilatlarından fərqli əhatə arealına malikdir. İstehlak kooperativlərinə aid edilən, bir neçə fiziki və ya hüquqi şəxsin birgə funksiyaları yerinə yetirməsi üçün özü-özünü idarə edən qeyri-kommersiya birliyi kimi kredit kooperasiyası öz iştirakçılarının pul vəsaitlərini qarşılıqlı kredit vermə üçün akkumulyasiya edir. Bir qayda olaraq, kredit kooperasiyası daha çox mənfəət əldə etməyə deyil, öz üzvlərinin və ya iştirakçılarının işinin səmərəsini artırmağı nəzərdə tutur. Kredit kooperasiyasının başlıca məqsədi onun öz mənfəətini deyil, kooperativ üzvlərinin, yəni əmtəə istehsalçılarının, həmin kooperativi yaratmış payçıların mənfəətini maksimum həddə çatdırmaqdan ibarətdir [82, 83, 92].

Kredit kooperativlərinin xırda əmtəə istehsalçıları üçün cəlbediciliyi əsasən onun idarə edilməsinin demokratik formasından, birgə məsuliyyətdən və kapital qoyuluşunun qarşılıqlı sərfəli şərtlərindən irəli gəlir. Qeyd edək ki, kredit kooperativi bankları əvəz etmir və maliyyə bazarında mövcud olan boşluq-

ları doldurur. Kredit kooperativləri mülkiyyətçilər tərəfindən özlərini müvafiq zəruri xidmətlərlə təmin etmək üçün könüllülük əsasında yaradılır. Maliyyə sahəsində qeyri-kommersiya qaydasında fəaliyyət göstərən kredit kooperativləri səhmdar cəmiyyətindən fərqli olaraq öz gəlirini maksimum həddə çatdırmağa çalışmır. Adətən həmin gəlir aşağı faiz dərəcəsi səbəbindən məhdudlaşır.

Kredit kooperativləri öz üzvlərinə pul resurslarının cəmləşdirilməsi hesabına xeyli kömək edir, qarşılıqlı zəmanət əsasında fəaliyyət göstərir. Kredit üzvlüyü kooperativ üzvlərinə borc verir, üzvlərdən əmanətlər qəbul edərək saxlayır. Qeyd olunmalıdır ki, bəzi keçid iqtisadiyyatlı ölkələrdə kredit birliklərinin öz üzvlərindən əmanət qəbul etməsinin hüquqi bazası formalaşma mərhələsindədir. Onlar müvəqqəti sərbəst pul vəsaitlərini banklarda depozit kimi yerləşdirir, kooperativ üzvlərinə maliyyə-təsərrüfat məsələlərinə, xarici iqtisadi və başqa fəaliyyət növlərinə dair məsləhətlər verir. Bu məqsədlə kooperativin üzvləri üçün seminarlar keçirir, onların öyrədilməsi üçün başqa formalardan istifadə edir [92, 98].

Kredit kooperativlərində üzvlüyün səciyyəvi cəhəti ondan ibarətdir ki, onun üzvləri kooperativə qoyduqları sərmayədən mənfəət əldə etməyə deyil, öz fəaliyyəti hesabına əlavə xalis gəlir əldə etməyə imkan verən xidmətlərdən istifadə etməyə çalışırlar. Kredit kooperativinin tədiyə qabiliyyətli olmasını təmin edən mühüm amil vəsait ehtiyatı yaratmaqla onun maliyyə sabitliyini saxlamaqdır. Tədqiqatlar göstərir ki, kredit kooperativində ehtiyatların toplanmasının ən səmərəli vasitəsi payçıların məqsədli üzvlük haqları və sahibkarlıq fəaliyyətindən əldə edilən xalis mənfəətdir. Kooperasiya mahiyyətinə görə vəsaitlərin daha səmərəli istifadəsini nəzərdə tutur. Belə ki, kredit kooperativləri öz payçılarının məsrəflərinə qənaət etməklə əlavə gəlir əldə etmək imkanı yaradır [83, 98].

Kredit kooperasiyası qurumlarının (*birliklər, ittifaqlar və s.*) vəzifələrindən biri ticarət vasitəçilərinin, eləcə də koopera-

tiv mənfəətini mənimsəyən xüsusi sahibkarların diktəsini məhdudlaşdırmaqdır [93, 108, 115].

Bazar şəraitində kredit kooperativləri öz mövcudluğu naminə riskə gedərək sahibkarlıq strukturu kimi fəaliyyət göstərməli və mənfəət əldə etməyə çalışmalıdır. Başqa sözlə, kənd təsərrüfatında kredit kooperativləri kommersiya funksiyasını yerinə yetirmək məcburiyyəti qarşısında qalırlar. Onların əldə etdiyi mənfəət hüquqi şəxs kimi kooperativə deyil, onun payçı üzvləri olan kənd təsərrüfatı istehsalçılarına məxsusdur. Kredit kooperativləri sosial ədalət ideyası daşıyıcılarıdır. Burada əldə edilən gəlir kapitalın həcminə görə deyil, əməyə görə bölünür. Kənd kredit kooperativləri öz fəaliyyətini kooperasiya prinsipləri əsasında öz nizamnaməsində müvafiq qaydada qurur [93, 161].

Kooperasiya formalarının ümumi cəhəti ondan ibarətdir ki, onlar payçıların sərmayə qoyduğu kapitala görə daha çox mənfəət əldə etməyə çalışmaqla payçı üzvlərin fəaliyyətini maddi cəhətdən mümkün qədər çox maraqlandırmalıdır. Kooperativlərin sosial təbiəti, öz fəaliyyətində rəhbər tutduğu kooperativ prinsiplər onları kommersiya strukturlarından əhəmiyyətli dərəcədə fərqləndirir. Odur ki, kredit kooperativləri adətən xalis kommersiya strukturu hesab edilmir.

Kredit kooperativləri kreditvermə funksiyalarından əlavə öz üzvləri üçün hüquq və mühasibat məsələlərinə dair məsləhətlər verir, onları öyrədir. Kredit kooperativlərinin üstünlükləri, ilk növbədə onların yaradılması və fəaliyyəti üçün müəyyən edilmiş əsas prinsiplərlə bağlıdır [108, 161]:

- üzvlüyün könüllü olması;
- üzvlərin qarşılıqlı yardımı və onların iqtisadi səmərəsinin təmin edilməsi;
- kooperativin mənfəətinin və zərərlərinin üzvlər arasında onların əməkdə şəxsi iştirakı və ya kooperativin təsərrüfat fəaliyyətində iştirakı nəzərə alınmaqla bölüşdürülməsi;

- kooperativin üzvləri olmayan şəxslərin fəaliyyətin idarə edilməsində iştirakının məhdudlaşdırılması;
- üzvlərin əlavə pay haqlarına və assosiasiya edilmiş üzvlərin pay haqlarına görə dividendlərin məhdudlaşdırılması;
- kooperativin fəaliyyətinin idarə edilməsində kooperatorların bərabər iştirakı;
- kooperativin fəaliyyəti barədə informasiyanın kooperativin bütün üzvləri üçün əlyetərli olması.

Kooperativlər müvafiq prinsipləri qəbul edən və onların fəaliyyətinin həyata keçirilməsi üçün əsas qaydaları müəyyən edən qanunlar əsasında yaradılır və fəaliyyət göstərir. Bu fəaliyyət təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin fəaliyyətindən əhəmiyyətli dərəcədə fərqlənir. Ona görə də son illərdə bütün əmtəə istehsalçıları kooperasiyaya daha çox diqqət yetirir, onu iqtisadi və sosial effektivliyin artırılması üçün bir imkan hesab edirlər [160].

Kredit kooperasiyasının inkişafının təhlili göstərir ki, onlar bazar münasibətləri şəraitində yalnız o halda inamla fəaliyyət göstərə bilər ki, onlar maliyyə bazarının tamhüquqlu iştirakçılarına çevrilsinlər. Başqa sözlə, həmin kooperativlər həm kommersiya, həm də qeyri-kommersiya fəaliyyət növləri ilə məşğul olsunlar. Onların fəaliyyətinin səmərəliliyi kommersiya banklarına xas olan bəzi funksiyaları yerinə yetirməsindən, o cümlədən müxtəlif növ kreditlər verilməsi, əmanət əməliyyatları və başqa fəaliyyətlə məşğul olmasından asılıdır. Kredit kooperativləri müasir texnika və texnologiyalara malik olmalı, müştərilərin tələbatına uyğunlaşmalıdır. Mövcud reallıqlar göstərir ki, ümumilikdə kooperativ sahibkarlıq fəaliyyətindən imtina etməməlidir. Bununla belə, əldə edilən mənfəətdən kooperativin üzvlərinin, onun payçılarının mənafeyi üçün istifadə edilməlidir.

Kooperasiyanın iqtisadi və sosial səmərəsinin artırılması problemlərinin həllində ən üstün istiqamətlər bu sahədə iqtisadi münasibətlərin dövlət tərəfindən tənzimlənməsi, koopera-

tiv müəssisələrin səmərəli fəaliyyətinə şərait yaradan normativ-hüquqi bazanın təmin edilməsi, qiymətlərin səviyyəsinin sabitləşdirilməsi, qiymətlərə və vergilərə nəzarət edilməsi, aqrar-sənaye kompleksinin maliyyə-kredit baxımından dəstəklənməsi məsələləridir. Kredit kooperasiyasının təşəkkülü mərhələsində dövlət onu bazarın kortəbii təsirindən qoruma istiqamətində təsirli tədbirlər görməli və həmin tədbirlər kompleks xarakterli olmalıdır. Kredit kooperativlərinin maliyyə sabitliyini təmin etmək üçün kifayət qədər xüsusi kapital toplanmasına və əhalinin pul vəsaitlərini cəlb etmək mexanizminin tənzimlənməsinə şərait yaradılmalıdır. Kooperativ müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması iqtisadiyyatın sabitləşməsindən, borclar probleminin həllindən, eləcə də kooperativlərə büdcə dəstəyinin və onların bazar gəlirlərinin artmasını təmin edən bir sıra tədbirlər görülməsindən asılıdır. Kooperativlərin dövlətdən kommersiya və özəl müəssisələrlə müqayisədə daha sanballı dəstək almağa ehtiyacı vardır. Dövlət dəstəyi vergitutma və kreditvermə məsələlərində güzəştlər tətbiq edilməsində, informasiya təminatında ifadə edilə bilər. Son nəticədə bu dəstək kənd təsərrüfatı əmtəə istehsalçılarının mövqeyini möhkəmlətməyə şərait yaradacaqdır.

Kredit kooperativlərinin rolu və əhəmiyyəti ilə bağlı məsələləri təhlil edərkən bu istiqamətdə əvvələr mövcud olmuş təcrübəyə və nəzəri mülahizələrə də baxış keçirmək vacibdir. Bu baxış həm də kredit kooperativlərinin genişləndirilməsi və inkişaf etdirilməsi baxımından da əhəmiyyətlidir. Belə ki, kredit təyinatlı kooperativ institutu tarixən mövcud olmuşdur. XIX əsrin ortalarında Almaniyada öz prinsiplərinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən kooperativ kredit strukturlarının iki tipi fəaliyyət göstərirdi. Birinci qrupa aid olan kredit kooperativləri kənd kredit kooperativlərinin banisi V.F.Rayffazen tərəfindən təşkil edilmişdi. İkinci qrupa aid edilən kooperativlərin banisi onun müasiri və həmvətəni Q.Şultse-Deliç idi. [148]. Kredit kooperasiyasının bu müəlliflərinin

kooperativ kredit qurumlarının təşkil edilməsi üçün tətbiq etdikləri prinsiplər müvafiq mənbələrdən göründüyü kimi, bir-birinə zidd idi. Onların əsas prinsipial fərqləri kredit kooperativlərinin kommersiya və qeyri-kommersiya xarakterli olması məsələsi ilə bağlıdır. Belə ki, Rayffazenin prinsipləri pay kapitalının inkar edilməsinə, kooperativlərin işinin lokallaşdırılmasına, bütün seçkili vəzifəli şəxslərin əməyinin təmənnasız olmasına, kooperativ üzvünün eyni vaxtda bir neçə kooperativdə iştirak etməsinə qadağan qoyulmasına əsaslanırdı. Q.Şultse-Deliç pay kapitalının xeyriyyəçilik fəaliyyətindən əldə edilən vəsaitlərlə əvəz edilməsi barədə fərqli prinsiplər təklif edirdi. Maraqlıdır ki, Q.Şultse-Deliç pay kapitalına əsaslanmayan ortaqlığın qanunvericilik yolu ilə ləğv edilməsinə nail olmuşdu [81, 130, 160].

Transformasiya prosesləri davam edən ölkələrin əksəriyyəti dilemma qarşısında qalmışdır: ya paylar iri olmalı və kredit kəndli üçün əlçatmaz olmalı, ya da paylar xırda olmalı və kooperativ dövlətdən, hüquqi və fiziki şəxslərdən (*xeyriyyəçilik və ya başqa şəkildə*) kömək almalıdır. Sosial ədalət prinsiplərinə yaxınlıq baxımından Rayffazenin yanaşması bir sıra keçid ölkələri üçün vacib və aktualdır. Çünki bu yanaşma bir sıra sosial məsələlərin həlli nəticəsində təbəqələşməyə qarşı əks qüvvə kimi çıxış edir.

Q.Şultse-Deliçin xalq bankları səhmdar kommersiya banklarına çevrilərək kreditlərin üçdə bir hissəsinə qədərini öz resursları hesabına vermək imkanını təmin edən dərəcədə kapital toplamaqla Almaniyada kooperativ hərəkatı ilə əlaqəsini itirmişdir. Bu qurumlar xalis maliyyə strukturuna çevrilmiş və hazırda kommersiya istiqamətli fəaliyyət göstərir [155].

«Rayffazen hərəkatı» XIX əsrin axırlarında ABŞ-da, Avropada və Rusiyada geniş yayılmışdır. Həmin kredit kooperativləri həm iqtisadi, həm də etik prinsipləri nəzərə alırdı. Rusiyada «Rayffazen kooperativləri» qeyri-kommersiya strukturları kimi çıxış edən ssuda-əmanət ortaqlıqları şəklində yaranmış-

dır. Bu kooperativlərin səciyyəvi prinsipləri kimi, onların yalnız öz üzvlərinə kredit verməsi, apardıqları əməliyyatların əsasən ssuda və əmanətlərlə bağlı olması, verilən ssudanın müddətinin əmanətin müddətindən artıqlığı, kredit verilməsi üçün girov təminatının tələb olunmaması və s. qeyd edilə bilər. Lakin reallıq bu prinsiplərlə uzun müddət işləməyin qeyri-mümkünlüyünü göstərdi. Belə ki, ssuda-əmanət kooperativlərinin fəaliyyətinin bu qaydası kreditlərin qaytarılmaması faktlarının kütləvi hal almasına və nəticə etibarilə həmin kooperativlərin müflisləşməsinə gətirib çıxarmışdır [119, 110, 119].

XIX əsrin sonunda Azərbaycanda və Rusiya imperiyasına daxil olan bir çox ölkələrdə kredit ortaqlıqlarının payçılığa əsaslanmayan fəaliyyət prinsipi kəndlilər üçün daha məqbul idi. Pay kapitalının olmaması vəsait mənbələri axtarmaq zərurətinə səbəb olurdu. Son nəticədə belə bir mənbə kənardan verilən borclar şəklində tapılırdı. Məsələnin belə həll edilməsi kredit ortaqlıqlarının fəaliyyət sahəsini xeyli genişləndirir və onların daha çox kommersiya xarakteri daşımasına səbəb olurdu.

Rusiya imperiyasında 1895-ci ildə qəbul edilmiş «Kiçik kreditin təsis edilməsi haqqında Əsasnamə» kredit ortaqlıqlarına kəndliləri maddi-texniki resurslarla təchiz etmək və onların məhsullarını satmaq, eləcə də girov əməliyyatları aparmaq və uzunmüddətli kreditlər vermək imkanı yaradırdı [119]. Kredit ortaqlıqlarının fəaliyyətinin diversifikasiyası və onların fəaliyyətinin əsasən bazar xarakteri daşıması onların həyat qabiliyyətini artırırdı. Müxtəlif dövrlərdə dövlət maliyyə dəstəyinin kredit kooperasiyasının inkişafında çox müsbət rol oynaması barədə çoxsaylı faktlar vardır. Belə ki, bir sıra hallarda vəsaitlərin əsas hissəsini ayrı-ayrı şəxslərin müvəqqəti sərbəst resursları təşkil edirdi. Kredit birlikləri öz üzvlərinə maliyyə yardımı göstərməklə bərabər, ona üzv olan kooperativlərin sifarişlərini yerinə yetirərək kənd təsərrüfatı alətləri, maşınlar və mallar tədarük edir, onları satırdı. Birliklər kommersiya fəaliyyəti ilə məşğul olur, özləri qiymətli kağızlar buraxır, fond

bazarında keçirilən hərraclarda, o cümlədən dövlət qiymətli kağızları ilə bağlı əməliyyatlarda iştirak edir, kooperativləri maliyyələşdirmək üçün ən müxtəlif mənbələrdən alınan borc resurslarından istifadə edirdilər. Əhalinin kredit resurslarına tələbatı kredit kooperasiyasının inkişafına stimul yaradır, bir müddətdən sonra bu kooperasiya möhkəmlənirdi. Rusiya imperiyasında kooperativ birliklər və daha iri maliyyə qurumları yaradılmasına başlanması bir çox yerlərdə, o cümlədən Azərbaycanda da öz təsirini göstərirdi.

Kredit kooperasiyasının inkişaf təcrübəsi göstərir ki, həm kommersiya, həm də qeyri-kommersiya funksiyalarını yerinə yetirən qarışıq tipli kooperativlərin mövcud olması özünü doğruldur. Kredit kooperativlərinin fəaliyyəti üçün yaradılmış və sınaqdan çıxarılmış mexanizm mərkəzləşdirilmiş iqtisadiyyat dövründə istifadəsiz qaldı. Buna baxmayaraq, həmin mexanizm müasir şəraitdə də öz aktuallığını itirməmişdir. Kredit kooperativlərinin dirçəldilməsi üçün əvvəllər toplanmış təcrübədən istifadə etməklə mövcud imkanları aşkar etmək lazımdır. O cümlədən, nəzərə alınmalıdır ki, kredit kooperativi xüsusi tipli bir təşkilatdır; o, bir tərəfdən sosial funksiyaları yerinə yetirən kommersiya təşkilatıdır və digər tərəfdən bazar iqtisadiyyatına xas olan sərt rəqabət şəraitindən irəli gəlir; kredit kooperasiyasının ən səmərəli inkişafı yalnız çoxsəviyyəli kənd kredit kooperativləri sisteminin qurulması və cəmiyyətin maliyyə sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməsi şərti ilə mümkündür, kredit kooperasiyası əhalinin nisbətən aztəminatlı təbəqələrinə xidmət edir, buna görə də dövlət kredit kooperativlərinə münasibətdə mülayim vergi siyasətindən istifadə etməlidir; kooperativ öz mövcudluğunu təmin üçün rəqabətqabiliyyətli olmalı, yəni mənfəət əldə etməli, bank ilə müqayisədə daha ucuz xidmətlər göstərməli, innovasiya texnologiyalarından istifadə etməli, müasir texnikaya malik olmalıdır.

## 5.2. Kredit kooperasiyasının təşkilati-iqtisadi aspektləri

Kredit kooperativinin beynəlxalq təcrübədə daha geniş yayılmış təşkilati strukturu aşağıdakı elementlərdən ibarətdir:

- kooperativin üzvləri, kooperativin ümumi yığıncağı;
- kooperativin İdarə Heyəti;
- İcraçı direktor;
- əməkdaşlar ştatı;
- Müşahidə və Kredit Komitəsi.

Əsasən kənd yerlərində yaradılan kredit kooperativlərinin təşkilati strukturu formalaşma mərhələsindədir. Formalaşma mərhələsinin sistemli dəstəklənməsində məsləhət xidmətinin imkanlarından get-gedə daha çox istifadə olunur. Bu baxımdan «Azərbaycanda kredit birliklərinin təşkili və fəaliyyəti barədə məsləhət» (*2000-ci il*) sənədi xüsusi diqqətə layiqdir. Kredit birliyinin ən yüksək qurumu Ali Şuradır. Bütün üzvləri birləşdirən Şura 2 il müddətinə İdarə Heyətinin, Kredit və Müşahidə komitələrinin üzvlərini seçir. Təşkilatın illik maliyyə vəziyyətinə dair hesabatları, bank və üzvlər üçün qeyri-maliyyə siyasətini, mənfəətin bölüşdürülməsi və zərərin örtülməsi haqqında qərarları təsdiq edir. Ali Şura ən azı üç nəfərdən ibarət olan müşahidə və kredit komitələrini seçir. Müşahidə Komitəsinin üzvləri Ali Şurada səs çoxluğu ilə seçilir və gördükləri işin nəticəsinə görə əmək haqqı alırlar. Müşahidə komitəsinin üzvləri Kredit Komitəsinin və İdarə Heyətinin üzvü ola bilməzlər. Kredit Komitəsinin üzvləri kredit almaq məqsədi ilə müraciət edən şəxs haqqında məlumat toplayır. Kredit Komitəsi kredit almaq istəyən barəsində hərtərəfli yoxlamalar keçirə bilər. Kredit Birliyinin əsas icra orqanı İdarə Heyətidir. İdarə Heyəti birliyin bütün işlərində iştirak edir və fəaliyyəti Ali Şura tərəfindən təsdiq edilmiş Nizamnamə və qaydalarla tənzimlənir. İdarə Heyətinə direktor, müavin, xəzinədar və mühasib daxildir. Onların əmək haqqı fəaliyyətinin nəticələrinə görə, başqa sözlə, birliyin maliyyə əməliyyatları sayəsində ödənilir. İdarə Heyəti Ali Şuranın, Müşahidə və Kredit komitələrinin qərarlarını həyata keçirir. O cümlədən, Ali Şuranın

iclaslarının gündəliyini, Müşahidə Komitəsində müzakirə olunacaq məsələlərlə əlaqədar sənədləri hazırlayır; müvafiq məsələlər üzrə Ali Şuraya məlumatlar verir; Müşahidə Komitəsi üçün aylıq maliyyə hesabatları tərtib edir. Bundan başqa, İdarə Heyəti nəzarət və maliyyə orqanları üçün maliyyə hesabatları hazırlayır, Kredit Komitəsi tərəfindən təsdiq edilmiş ərizələrin icrasını təmin edir. Kredit ittifaqının bütün işlərini direktor idarə edir və İdarə Heyətinə verdiyi tapşırıqların icrasına nəzarət edir. Zəruri hallarda direktor idarəetmə səlahiyyətlərini öz müavininə həvalə edə bilər. Kooperativin üzvləri Azərbaycan Respublikasının 18 yaşa çatmış, kooperativin nizamnaməsini qəbul edən, kooperativə məcburi pay haqqı ödəmiş, onun fəaliyyətində şəxsi əməyi ilə iştirak edən və kooperativin öhdəliklərinə görə maliyyə məsuliyyəti daşımağı öhdəyə götürmüş vətəndaşları ola bilər. Kooperativin üzvləri onun işində iştirak edir və kooperativdə qəbul edilmiş qaydalara riayət edirlər. Onlar ümumi yığıncaqlarda, müzakirələrdə və seçkilərdə iştirak edirlər [87, 98].

Kredit kooperativləri əmtəə istehsalçıları olan fiziki və hüquqi şəxsləri öz üzvləri sırasına cəlb edir, öz üzvlərinin tələbatını təmin edir, öz üzvlərinə maliyyə-kredit xidmətləri göstərir.

Kredit kooperativlərinin yaradılması mərhələləri aşağıdakılardır:

- kredit kooperativləri yaradılması barədə qərar qəbul edilməsi;
- potensial payçılar sırasından təşəbbüs qrupunun yaradılması;
- kollektiv üzvlərinin təsis yığıncağının keçirilməsi, o cümlədən:
  - təsisçilərin heyətinin müəyyən edilməsi;
  - pay haqlarının məbləğləri müəyyən edilməklə nizamnamənin təsdiq edilməsi;
  - İdarə Heyətinin seçilməsi;
  - Müşahidə Şurasının seçilməsi;
  - kooperativin dövlət qeydiyyatı.

Kooperativin bilavasitə yaradılması və qeydiyyata alınması ilə bağlı işlərdən əvvəl kooperativin təşəbbüskar potensial üzvləri aşağıdakı hazırlıq işlərini görür:

- kredit kooperativlərinin təşkil edilməsinə ehtiyac olmasını müəyyən edir;
- ehtimal edilən maliyyə axınlarını (*kooperativin vəsait mənbələrini, kooperativin üzvləri tərəfindən həmin vəsaitlərdən istifadə edilməsinin mümkün istiqamətlərini*) qiymətləndirir;
- kooperativin fəaliyyətinin ərazi hüdudlarını müəyyən edir;
- zəruri bina və avadanlıqları seçir;
- bankda və ya başqa kredit təşkilatlarında işlə bağlı müəyyən vərdişlərə və təcrübəyə malik olan şəxsləri kooperativdə işə cəlb etməyə çalışırlar.

Aparılmış hazırlıq işi və təhlil kredit kooperativlərinin yaradılması üçün obyektiv şərait olması barədə nəticə çıxarmağa imkan verirsə, kredit kooperativlərinin potensial üzvləri növbəti mərhələyə - təşəbbüs qrupu yaradılmasına başlayır. Qrupun əsas vəzifəsi kooperativin təsis yığıncağını hazırlamaqdan və onu keçirməkdən ibarət olacaqdır.

Kifayət sayda potensial payçı kooperativə daxil olmağı qərara aldıqda, aşağıdakı əsas məsələlərin həll edilməsi üçün yığıncaq keçirilir:

- kredit kooperativinin yaradılması üzrə təşəbbüs qrupu seçilir;
- təşəbbüs qrupuna kooperativin nizamnaməsinin işlənib hazırlanması barədə tapşırıq verilir;
- təşəbbüs qrupuna kooperativə üzv olmaq barədə ərizələrin qəbul edilməsi haqqında tapşırıq verilir;
- təşəbbüs qrupuna kredit kooperativlərinin ümumi təsis yığıncağını hazırlamaq barədə tapşırıq verilir.

Təsis yığıncağının hazırlanmasından əvvəl təşəbbüs qrupu artıq fəaliyyətdə olan kredit kooperativlərinin rəhbərləri ilə məsləhətləşmələr apara bilər, kredit kooperativinin yaradılma-

sına və inkişafına kömək edən yerli, regional və beynəlxalq təşkilatlarla əlaqə saxlaya bilər. Kooperativə xidmət edəcək bank seçilir, xidmətin şərtləri müzakirə edilir.

Kooperativin maliyyə-iqtisadi fəaliyyətinin texniki-iqtisadi əsaslandırılması hazırlanır. Texniki-iqtisadi əsaslandırma aşağıdakı bəndlərdən ibarət olur:

- kredit kooperativinin fəaliyyətinin məqsədi və predmeti;
- kooperativin əmlakı;
- kooperativin fondları;
- təşkilati məsrəflər; əməliyyat məsrəfləri.

Ümumi Yığıncağın keçirilməsi üçün kooperativin nizamnaməsi hazırlanır. Qüvvədə olan qanunvericiliyə uyğun olaraq nizamnaməyə aşağıdakı məlumatların daxil edilməsi zəruridir [40]:

- kooperativin tam rəsmi adı;
- kooperativin olduğu yer və onun fəaliyyət ərazisi;
- kooperativin fəaliyyətinin predmeti, məqsədi və müddəti;
- kooperativə üzvlüyə qəbulun və üzvlüyə xitam verilməsinin qaydası və şərtləri (*o cümlədən kooperativin üzvlüyündən xaric edilməyin əsasları və qaydası*);
- üzvlərin hüquqları, vəzifələri və öhdəlikləri;
- kooperativin öz üzvləri qarşısında məsuliyyəti;
- idarəetmə orqanlarının tərkibi, yaradılma qaydası, səlahiyyətləri və məsuliyyəti, onların qərarlar qəbul etməsi qaydası;
- daxilolma və payçı kimi üzvlük haqlarının məbləği və ödənilmə qaydası, onların ödənilməsi ilə bağlı öhdəliklərin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti;
- kooperativdən çıxma halında yığılmış payların qaytarılma qaydası;
- əmlakın yaranma mənbələri və ondan istifadə qaydası;
- yaradılan fondlar və onların formalaşma qaydası;
- gəlirlərin bölüşdürülmə qaydası;

- ❍ kooperativin təqdim etdiyi xidmətlərin siyahısı;
- ❍ kooperativin kredit-maliyyə fəaliyyətinin təşkili;
- ❍ maliyyə ilinin əvvəli və sonu;
- ❍ kooperativdə əmək münasibətləri;
- ❍ kooperativdə uçot və hesabatın təşkili;
- ❍ kooperativin yenidən təşkili və ləğv edilməsinin qaydası və şərtləri;
- ❍ kooperativin nizamnaməsini təsdiq etmiş üzvlərinin hər birinin soyadı, adı, atasının adı, doğulduğu tarix, yaşadığı və ya işlədiyi yer;
- ❍ pasportlarının və ya onları əvəz edən sənədlərin seriyası və nömrəsi.

Eyni zamanda bir sıra texniki məsələlər həll edilir: qəbul haqqında ərizənin formasının hazırlanması, yığıncağın keçiriləcəyi yerin təyin edilməsi, protokol aparılmasının təmin edilməsi, yığıncağın bütün iştirakçılarına kooperativin nizamnaməsinin layihəsi ilə əvvəlcədən tanış olmaq imkanının verilməsi və s.

Ümumi təsis yığıncağının gündəliyinə daxil edilən əsas məsələlər aşağıdakılardır:

- ➢ kredit kooperativinin yaradılması;
- ➢ kooperativin nizamnaməsinin müzakirəsi və təsdiq edilməsi;
- ➢ kooperativ üzvlüyünə qəbul haqqında qərarın verilməsi;
- ➢ kooperativi idarəetmə orqanlarının - direktorun, müavinin, İdarə Heyəti, Müşahidə və Kredit Komitəsinin üzvlərinin seçilməsi.

Nizamnamənin qəbul edilməsi faktı həmin yığıncağın katibi tərəfindən yazılan protokolla təsdiq edilir. Protokol yığıncağın bütün iştirakçıları tərəfindən, həmin iştirakçıların hər birinin pasport məlumatları və qeydiyyat ünvanları göstərilməklə imzalanır. Növbəti mərhələ - kredit kooperativinin bilavasitə hüquqi şəxslərin dövlət qeydiyyatı orqanlarında qeydiyyatdan keçirilməsidir.

Kredit kooperasiyasının təşkilati-iqtisadi aspektlərinin təhlili göstərir ki, respublikamızda belə təsisatların formalaşması

istiqamətində zərurətlər və ehtiyaclar mövcuddur. Bu həm də ondan irəli gəlir ki, kredit kooperasiyasının təşkilati-iqtisadi strukturu daha mobil xarekterlidir və onun fəaliyyəti iri həcmli resurslar tələb etmir.

Bütün bu reallıqlardan çıxış edərək, Azərbaycan Respublikasında da müvafiq kooperativlərin yaradılması məqsədəmüvafiq hesab edilir.

## 5.3. Kredit ittifaqları və onların kooperativ təsisatlandırmalarda əhəmiyyəti

Kredit kooperasiyalarının inkişafında müvafiq təyinatlı ittifaq və birliklər də əkhəmiyyətli rol oynayırlar. Bu sırada çoxtərəfli müqavilələr əsasında kənd təsərrüfatı əmtəə istehsalçıları ittifaqlarını və aqroservis müəssisələrini birləşdirən qeyri-kommersiya təşkilatları - aqrar-sənaye və sahə ittifaqları (*assosiasiyalar*) daha çox fəırqlənirlər. Statusuna görə kredit birliklərinə yaxın olan bu assosiasiyaların məqsədləri daha genişdir. Onların məqsədi - həmin qurumların fəaliyyətini əlaqələndirmək, daxili qiymətləri, resursları və digər iqtisadi münasibətləri tənzimləmək; müəyyən edilmiş normativlər əsasında mənfəətdən və ya gəlirdən ayırmalar hesabına ümumi ehtiyat fondu yaratmaq; saziş iştirakçılarına maddi həvəsləndirmə və məsuliyyət formalarını tətbiq etmək; marketinq fəaliyyəti məsələlərini əhatə edir [40].

Kredit ittifaqının fəaliyyətinin əsas prinsipləri aşağıdakılardır:

- üzvlərin mənafe ümumiliyi və qarşılıqlı etimadı əsasında birləşməsi; üzvlüyün könüllülüyü;
- fəaliyyətinin aşkarlığı;
- şəxsi mənafeyin kollektiv mənafe ilə əlaqələndirilməsi;
- payların həcmindən asılı olmayaraq üzvlərin hüquq bərabərliyi;
- kredit ittifaqının idarə olunmasında üzvlərin şəxsən iştirakı; əldə edilmiş vəsaitin sahibkarlıq fəaliyyətinə yönəldilməsi;

- ➢ fəaliyyətinin təşkilinin özünənəzarətə əsaslanması.

Əmtəə istehsalçıları tərəfindən qarşılıqlı kreditvermə üçün 1995-ci ildə könüllü şəkildə yaradılmış kredit kooperativi Beynəlxalq Kooperativlər Alyansının Mançesterdə keçirilmiş konqresində qəbul edilmiş aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərən təşkilatdır [102, 103.]:

***Şəkil 5.1***

**Beynəlxalq Kooperativlər Alyansının prinsipləri**

| | |
|---|---|
| **Könüllülük və üzvlüyün açıq olması** | Kooperativ ona daxil olmağı arzu edən və kooperativin nizamnaməsinə tabe olan bütün şəxslər üçün açıqdır |
| **Demokratik nəzarət** | Kooperativin fəaliyyətinə onun üzvləri tərəfindən nəzarət edilir. Onlar kooperativin siyasətinin formalaşmasında fəal iştirak edirlər. Kooperativ üzvlərindən hər birinin payının həcmindən asılı olmayaraq ona bir səs verilir (*bir nəfər - bir səs*) |
| **Kooperativ üzvlərinin kooperativin fəaliyyətində iqtisadi iştirakı** | Kooperativin üzvləri pay fonduna sərmayə qoyurlar. Onlar mənfəəti kooperativin inkişafına, kooperativ üzvlərinin kooperativin işinə verdikləri töhfəyə mütənasib olaraq həvəsləndirilməsinə sərf edirlər |
| **Muxtariyyət və müstəqillik** | Kooperativlər hər bir məsələdə yalnız özlərinə güvənən avtonom təşkilatlardır |
| **Təhsil, təlim və informasiya** | Kooperativlər öz üzvlərinin təhsil almalarına imkan verir |
| **Kooperativlərin əməkdaşlığı** | Kooperativlər öz üzvlərinin mənafelərinə səmərəli xidmət edir, yerli və regional ittifaqlar çərçivəsində birgə fəaliyyət göstərərək kooperativ hərəkatını gücləndirirlər |
| **Cəmiyyətə qayğı** | Kooperativlərin fəaliyyəti cəmiyyətin sabit inkişafına nail olmağa yönəlmişdir, çünki kooperativlərin vəzifəsi öz üzvlərinin tələbatını təmin etməkdən ibarətdir |

Qarşılıqlı kreditləşmə - kredit ittifaqında toplanan pul vəsaiti hesabına üzvlərin təsərrüfat və sosial ehtiyaclarının ödənilməsi üçün verilən qısa və uzunmüddətli kreditdir. Kredit ittifaqı öz əmlakına malikdir, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə edə bilər, məhkəmədə iddiaçı və cavabdeh ola bilər.

Kredit ittifaqları öz üzvlərinin mənafeyini qorumaq, onların fəaliyyətini əlaqələndirmək, regionlararası və beynəlxalq əlaqələrin inkişafını təmin etmək və digər birgə məsələlərin həllinə kömək etmək üçün birliklər yarada bilərlər. Dövlət qeydiyyatından keçmiş kredit birliyi Azərbaycan Respublikası Milli (*Mərkəzi*) Bankının İdarə Heyəti tərəfindən 28 fevral 1998-ci il tarixdə təsdiq olunmuş «Bank olmayan kredit təşkilatlarının bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimi haqqında» müvəqqəti qaydalara uyğun olaraq Mərkəzi Bankdan lisenziya almalıdır. [187-11].

Kredit birliyinin rəhbəri qeydiyyat üçün aşağıda sadalanan zəruri sənədlərin hazırlanmasını, toplanmasını və rəsmiləşdirilməsini həyata keçirir:

- dövlət qeydiyyatı haqqında ərizə;
- yaradılan kooperativin müvafiq hüquqi ünvana malik olmasını təsdiq edən zəmanət məktubu (*bu məktub qeyri-yaşayış binasını icarəyə vermək hüququna malik olan hüquqi şəxs tərəfindən təqdim edilə bilər*);
- dövlət rüsumunun ödənilməsi barədə qəbz;
- kooperativin yaradılması, onun nizamnaməsinin təsdiq edilməsi və idarə heyətinin tərkibi haqqında üzvlərin ümumi təsis yığıncağının iştirakçıları olan üzvlər tərəfindən onların soyadları, adları, atasının adı, doğum tarixi, qeydiyyat ünvanı və pasport məlumatları göstərilməklə imzalanmış protokolu;
- kooperativin nizamnaməsi.

Kredit ittifaqları öz fəaliyyətini həyata keçirmək üçün müəyyən resurslara malik olmalıdır. Kənd kredit kooperativlərinin əmlakının formalaşma mənbələri həm xüsusi mənbələr, həm də borc vəsaitləri ola bilər.

Aşağıda kredit ittifaqlarının maliyyə resurslarının formalaşması mənbələrini əks edrən şəkil verilmişdir:

***Şəkil 5.2***

**Kredit ittifaqlarının maliyyə resurslarının formalaşması mənbələri**

| | |
|---|---|
| **Xüsusi vəsaitlər** | *ittifaq üzvlərinin pay ödəmələri*<br>*ittifaq fəaliyyətindən alınan gəlirlər*<br>*ittifaqın öz vəsaitlərinin banklarda yerləşdirilməsindən alınan gəlirlər*<br>*kredit ittifaqlarının qiymətli kağızlarının satışından əldə edilən gəlirlər* |
| **Borc vəsaitləri**<br>(*birliyin vəsaitlərinin ümumi həcminin 60%-dən çox olmamaqla*) | *dövlət təşkilatlarının kreditləri*<br>*kommersiya təşkilatlarının kreditləri*<br>*hüquqi şəxslərin depozitləri*<br>*fiziki şəxslərin əmanətləri* |

Kredit ittifaqlarının xüsusi vəsaitləri bölünən və bölünməz vəsaitlər şəklindədir. Kooperativin əmlakının bölünən hissəsi kooperativ üzvlərinin məcburi və əlavə pay ödəmələri hesabına formalaşan pay fondu ilə təmsil olunmuşdur. Məcburi pay ödəmələrinin həcmi kooperativ üzvünün kooperativin fəaliyyətində nəzərdə tutulan iştirakına mütənasib qaydada müəyyən edilir. Məcburi pay ödənişi natural formada ifadə edilə bilər (*torpaq sahələri, əmlak*). Bu halda kooperativ üzvü tərəfindən pay fonduna verilmiş əmlak birliyin İdarə Heyəti tərəfindən qiymətləndirilir. Pay fondu kredit birliyinin əmlak vəziyyətinin meyarıdır. Pay fondunun məcburi minimal həcminin müəyyən edilməsi barədə qanunverici tələblər yoxdur. Bu fondun pul şəklində ifadə olunmuş həcmi kooperativin təsis yığıncağında müəyyən edilir.

Kredit birliyinin əmlakının bölünməz hissəsi onun əsas və dövriyyə fondlarından ibarətdir. Bu fondlar kredit birliyinin üzvlərinin daxilolma haqlarından, birliyin özünün fəaliyyətin-

dən əldə edilən gəlirlərdən və sair daxilolmalardan yaranır. Kooperativin bölünməz əmlakının ən mühüm hissəsi ehtiyat fondudur. Bu fond fors-major halları üçün yaradılır. Ehtiyat fondunun həcmi qanunvericilik yolu ilə təsbit edilmişdir və kooperativin pay fondunun 10%-dən az olmamalıdır. Kooperativ başqa bölünməz fondlar da yarada bilər: kooperativin ləğv ediləcəyi halda pay ödəmələrinin qaytarılması fondu, sosial inkişaf fondu, maddi həvəsləndirmə fondu və s.

Bir sıra tədqiqatçıların fikrinə görə, kredit kooperativlərinin maliyyələşdirilmə mənbələrindən biri ya təmənnasız yardım formasında, ya da faizsiz kredit formasında dövlət dəstəyi olmalıdır. Unutmaq olmaz ki, belə dəstək bir tərəfdən kooperativin fəaliyyətinin başlanğıc mərhələsində onun fəaliyyətini asanlaşdırdığı halda digər tərəfdən bir sıra neqativ məqamlar yaradır. Əvvəla, bu halda kooperativdə ələbaxımlıq əhvalı və dövlət vəsaitlərinin hesabdan silinəcəyinə ümid edilərək onları nəinki vaxtında qaytarmaq, hətta ümumiyyətlə qaytarmamaq sindromu yarana bilər. İkincisi, kooperativ külli məbləğdə kreditlərin qaytarılacağına lazımi təminat olmadığı halda bu cür kreditlər verə bilər [117, 132].

Kredit birliyinin fəaliyyətinin başlanğıcında onun maliyyə vəziyyəti kifayət qədər sabit olmur və bu mərhələdə o, yalnız xırda borclar verə bilər. Bu borcların əsas mənbəyi pay fondudur. Kredit ittifaqı inkişaf etdikcə və onun maliyyə vəziyyəti möhkəmləndikcə verilən borcların məbləği artırılır.

Kredit birliyi öz fəaliyyətini həyata keçirərkən aşağıdakı prinsipləri rəhbər tutmalıdır [98]:

- ⇨ kreditin ödənişli olması prinsipi;
- ⇨ kreditin qaytarılmalı olması prinsipi.

Kreditin ödənişli olması prinsipi o deməkdir ki, payçıya borc müəyyən faizlə verilir. Bu faiz resursların cəlb edilməsi ilə əlaqədar məsrəfləri və kooperativin cari fəaliyyəti ilə bağlı xərcləri ödəməlidir.

Kreditin qaytarılmalı olması prinsipi o deməkdir ki, payçıya borc yalnız onun həmin borcu qaytarmaq və borcdan istifadəyə görə faizləri ödəmək imkanları öyrəniləndən sonra verilə bilər.

Borclar verilmə müddətinə görə qısamüddətli və ortamüddətli ola bilər. Qısamüddətli borclar ən çoxu bir il müddətinə, bir qayda olaraq payçıların dövriyyə vəsaitlərini artırmaq üçün verilir. Ortamüddətli borclar 1 ildən 3 ilə qədər müddətə verilir. Bu cür borclar verilməsinin məqsədi - investisiyaları maliyyələşdirməkdir.

Növbəti borc yalnız əvvəlki borc qaytarıldıqdan sonra verilir. Borc verilməsi prinsiplərinə riayət edilməsi kredit birliyinin uğurlu fəaliyyətinin rəhnidir. Əks halda kooperativin fəaliyyəti iflic vəziyyətinə düşür və onun özünün mövcud olması sual altında qalır.

Hesabat dövrünün sonunda kredit birliyi müəyyən maliyyə nəticəsi əldə edir. Maliyyə nəticəsinin göstərilməsi üçün «mənfəət» terminindən istifadə edilməsi kifayət qədər şərti xarakter daşıyır, çünki bu kredit birliyinin qeyri-kommersiya təşkilatı olması və mənfəətsiz əsasda fəaliyyət göstərməsindən ibarət mahiyyətə ziddir. Bununla belə, ittifaq öz fəaliyyətini həyata keçirmə prosesində onun gəlirləri xərclərindən çox ola bilər, bu isə öz iqtisadi mahiyyətinə görə mənfəət deməkdir. Mənfəətin bölünməsi qaydası maliyyə ili başa çatandan sonra müəyyən müddətdə ittifaq üzvlərinin ümumi yığıncağında təsdiq edilir [72].

Kreditvermə kredit ittifaqlarının və kommersiya bankının əsas funksiyasıdır. Kredit birlikləri və kommersiya bankları arasında oxşar cəhətlər əsasən, birgə kooperativ mülkiyyətə əsaslanmasında və idarəetmənin seçkili prinsiplərlə qurulmasında ifadə olunur. Onların fəaliyyət mexanizmində və məqsədlərində əhəmiyyətli fərqlər vardır. Əlavə 4-də kredit ittifaqı və kommersiya bankının fərqli cəhətlərini əks etdirən cədvəl-sxem verilmişdir.

Araşdırmalar göstərir ki, kredit kooperativlərinin fəaliyyətinin nəzərdən keçirdiyimiz təşkilati-iqtisadi prinsipləri və borc verilməsi mexanizminin təkmilləşdirilməsi üçün əhəmiyyətli imkanlar vardır.

## 5.4. Bələdiyyələrin gəlirlərinin optimallaşdirilmasında kredit kooperativlərinin rolu

Bələdiyyələrin gəlirlərinin artırılması, onların özünüinkişaf strategiyasının təkmilləşdirilməsi istiqamətində kooperasiya institutunun imkanlarından istifadə xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq təcrübə bu sırada daha üstün olaraq bələdiyyə sferasında kredit kooperativlərinin təsisatlandırılmasını şərtləndirir.

Çoxpilləli bank sistemindən fərqli olaraq, qeyri-bank infrastrukturlu kredit kooperativlərinin əsas məqsədini kommersiya maraqları təşkil etmir. Əksinə, bu qurumlar imkan daxilində payçılara mülkiyyətində olan təsərrüfatları inkişaf etdirmək, onların maddi rifah halını yüksəltmək üçün ən sərfəli şərtlərlə kredit-maliyyə xidmətləri göstərirlər. Bununla yanaşı, kredit kooperativlərinin məqsədinin fövqündə xeyriyyəçilik missiyası da dayanır. Belə ki, kiçik biznesin inkişafı əsasında real bazar iqtisadiyyatı şəraitini nəzərə almaqla onlar az əmlak təminatlı vətəndaşlara köməklik göstərmək kimi xeyirxah funksiyanı da yerinə yetirirlər. Kredit kooperativləri daha çox insanların kompakt yaşadıqları yaşayış məskənlərində effektli sınaqdan çıxırlar. Məhz bu üstün formalı qarşılıqlı yardım əsasında rayonlarda, xüsusən kənd yerlərində insanlar öz həyətyanı təsərrüfatlarını inkişaf etdirir, maddi rifahını yüksəldərək ölkənin gələcəyi üçün iqtisadi potensialı möhkəmləndirir və resurs zənginliyini artırırlar.

Təcrübə göstərir ki, kredit kooperativlərində maliyyə riskləri minimaldır və onlar ssuda qaytarışlarını 100% təmin etmək iqtidarında olurlar. Buna görə də kredit kooperativlərinin bələdiyyələr daxilində yaradılması daha çox sosial səmərəliliklə müşayiət olunur və onların gəlirlərinin artırılmasında

əlavə davamlı funksiyalardan birini yerinə yetirir. Nəzərə alındıqda ki, bu gün Avropa Şurasında Azərbaycan Respublikasında özünüidarəetmənin genişlnməsi və təkmilləşməsinə məhz bələdiyyə institutunun inkişaf strategiyası çərçivəsindən baxılır, onda belə təsisatlandırmanın əhımiyyət diapozonu bir qədər də genişlik əldə edır.

Cəmiyyətin istənilən sosial təbəqəsini təmsil edən vətəndaşların, sahibkarlar, fəhlələr, kəndlilər və sairin daxil olduğu müvafiq kredit kooperativlərinin mühüm üstünlüklərindən biri də onların bilavasitə öz təsərrüfatlarını və ya biznesini inkişaf etdirməyi istəyənlər qrupundan ibarət olmasındadır. Digər müsbət cəhət isə ondan ibarətdir ki, xüsusi fiziki şəxslərin əllərində cəmləşmiş maliyyə vəsaiti heç də kreditorlar üçün deyil, onların özləri üçün sərf edilir. «Özün-özünə kömək et» prinsipi bu prosesdə tam məntiqi əsasda reallaşır.

Keyfiyyətliklər sırasında başqa bir əlamətdar hal, cəlb edilmiş vəsaitin geri qaytarılmaması və ya müflisləşmə riskinin minimal səviyyəliliyi ilə bağlıdır. Belə ki, kooperativ üzvlərinin demək olar ki, hamısı bir-birlərini yaxşı tanıyırlar. Regional bələdiyyə çərçivəsində isə bütöv bir yaşayış məntəqəsi bir-biri ilə geniş inteqrasiyada bərqərardır. Bu sistem daxilində onlar borcu kommersiya banklarının təqdim etdiklərindən yetərli nisbətdə aşağı faizlə əldə etmək imkanına malik olur, əmanətçilər isə öz növbəsində daha çox faiz qazanırlar.

Əksər maliyyə təşkilatlarına nisbətən kredit kooperativlərinə nəzarət əsasən onun üzvləri tərəfindən həyata keçirilir. Kooperativin üzvləri isə birgə mülkiyyət və ümumi kooperativ maraqları əsasında birləşərək müştərilər qismində deyil, kooperativin tam hüquqlu üzvləri kimi çıxış edirlər. Göründüyü kimi, kredit kooperativləri kapitalların birliyini deyil, insanların, kooperativ üzvlərinin birliyi formasını əsaslandırır. Digər tərəfdən, kredit kooperativləri ipoteka kreditləşdirilməsinin və müqavilə sığortasının inkişafının ideal alətlərindən biri kimi də çıxış edirlər.

Kredit kooperativlərinin xidmətləri bu gün sahibkarlığın kiçik və orta biznesinin inkişafı üçün çox da böyük olmayan, lakin zəruri hesab edilən maliyyə yardımının yeganə leqal alternatividir. Vətəndaşlar bu kreditin köməyi ilə avtomobil, mebel və digər xalq istehlakı malları üçün banklara nisbətən daha sərfəli şərtlərlə kreditlər ala bilərlər.

Bazar iqtisadiyyatı şəraitində, mikromaliyyələşdirmənin formalarından biri kimi kooperasiya müvəffəqiyyətlə inkişaf edərək özünün yaşamaq hüququ qazandığını sübut etmişdir. Bu baxımdan respublikamızda da mikromaliyyələşdirmənin əsas formalarından biri kimi kredit kooperasiyasının inkişafı bələdiyyələrdə daha geniş dəstək tapmalıdır.

Son illər respublikamızda kooperasiyanın və kiçik sahibkarlığın hüquqi əsaslarının yaradılması ilə bağlı xeyli iş aparılmasına baxmayaraq, bu vacib sahə hələlik özünün lazımi, layiq olduğu inkişafını tapa bilməmişdir. Lakin bu istiqamətdə artıq fəaliyyətdə olan qanunvericilik bazasının təkmilləşdirilməsi işində böyük irəliləyişlər nəzərə çarpır. Prosesin daha da sürətləndirilməsi, elmi əsaslara söykənən səviyyədə inkişaf etdirlməsi, bu gün mühüm dövləti əhəmiyyət daşıyır. Qeyd edək ki, MDB məkanında bu mühüm problemin müzakirəsi və həllində çoxsaylı mütəxəssislər, alimlər, kooperativ hərəkatının fəalları, biznes qurumları və digər sahibkarlıq təbəqələri iştirak edərək öz bilik və təcrübəsini bölüşürlər. Konkret nümunə kimi göstərmək olar ki, Rusiya parlamentinin yuxarı palatasında daimi iş rejimində kooperativ hərəkatının inkişafı məsələləri üzrə görüşlər və müşavirələr keçirilir, kooperasiya və kiçik biznes nümayəndələrinin rəyləri və mövqeləri nəzərə alınmaqla önəmli qərarlar qəbul edilir.

Qanunvericilərin konstruktiv əməkdaşlığı şəraitində kooperatorlar və sahibkarlar ölkə iqtisadiyyatı üçün taleyüklü qanun layihələri qəbul edir və çoxcəhətli monitorinq əsaslı reallaşdırma mexanizmləri hazırlayırlar [187-11].

Respublikamızda iqtisadiyyatın bütün sahələrində müvəffəqiyyətlər qazanıldığı bir şəraitdə iqtisadi inteqrasiya və qloballaşma prosesləri nəzərə alınaraq bələdiyyələr çevrəsində kooperasiyanın və onun yeni mütərəqqi formalarının da inkişafı üçün mühüm addımlar atılmalıdır. Bu sırada xüsüsi rol regionlarda fəaliyyət gəstərən bələdiyyələrə verilməlidir. Bu strategiya sənaye, kənd təsərrüfatı, elm-istehsal və xidmət sektoru ilə yanaşı maliyyə sferasına da istiqamətləndirilməli, əlahiddə dövlət proqramlarında əksini tapmalıdır. Bununla yanaşı, hazırkı məqamda mikromaliyyələşdirmə təşkilatlarının fəaliyyəti də çox aşağı gəliri olan əhali təbəqələrinin tələbatının ödənilməsinə, kiçik və orta biznesin, eləcə də bütünlükdə kənd təsərrüfatının inkişafına yönəldilməlidir.

Mikromaliyyələşdirmənin daha da təkmilləşdirilməsi üçün girov mexanizmlərinin sadələşdirilməsinə də böyük ehtiyac duyulmaqdadır. Tədqiqatlar göstərir ki, respublikamızda, xüsusən regionlarda xırda və orta sahibkarlağın inkişafı üçün verilən bank kreditləri üçün tələb olunan girov sistemləri, kooperativlərin, fərdi sahibkarların, yeni fəaliyyətə başlayan kiçik biznes üzrə iş adamlarının haqlı narazılığına səbəb olur. Bu problemin aradan qaldırılması üçün isə kredit kooperativlərinin stimullaşdırdığı kiçik fondların da xüsusi rolu ola bilər.

Dünyada baş verən inteqrasiya prosesləri, iqtisadiyyatın liberallaşdırılması və digər bu kimi obyektiv amillər kooperasiyanın problemlənin həlli, təkmilləşdirilməsi və davamlı inkişafı zəminində kooperativ təşkilatlarının səylərinin birləşməsini və daha da qüvvətləndirilməsini zəruri edir. İnkişaf etmiş ölkələrin əksəriyyətində, hazırda isə sistem transformasiyasına qətiyyətlə adlayan Rusiya Federasiyasında da bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. Kooperasiya ənənəçiliyi ilə yetərli təcrübə toplamış ölkədə sahənin inkişafının idarə edilməsi istiqamətində funksionallığın artırılması yeni mərhələyə qədəm qoymuşdur. Burada kooperativlərin həmrəylik sistemi təkmilləşdirilmiş, yeni müvafiq assosiativ qurumlar təsis olun-

muşdur. Kooperativ hərəkatı iştirakçılarının daha optimal forması kimi Ümumrusiya Kooperativ Birliyi yaradılmış və bu birlik artıq Ümumdünya Kooperativ Cəmiyyətinin ən nüfuzlu və tam hüquqlu üzvlərindən birinə çevrilmişdir. Hesab olunur ki, respublikamızda da kooperativ hərəkatının genişlənməsi və vüsətlənməsi prosesi güclənəcək, artan müxtəlif təyinatlı kooperativ təsisatlar federativ birliklərə qədər özlərinin təşkilati formasını yaradacaqlar. Bunun üçün isə vurğulandığı kimi, müvafiq sahənin normativ-hüquqi bazası genişləndirilməli, proses dövlət proqramları çərçivəsində həllini tapmalıdır. Bu prosesdə bələdiyyələr sferasında mikromaliyyələşdirmənin əsas institutlarından biri kimi nəzərdə tutulan kredit kooperasiyasının inkişaf etdirilməsi istiqamətində də fəallıq artırılmalıdır [102, 103].

Hazırda mikromaliyyələşdirmə institutlarının iş fəaliyyətini daha da aktivləşdirmək üçün regionlarda bələdiyyələr nəzdində kredit kooperativləri şəbəkəsinin təşəkkülü və genişləndirilməsi iqtisadi inkişaf və sosial tərəqqi baxımından daha mühüm əhəmiyyət kəsb edir. Çünki, beynəlxalq təcrübə göstərir ki, məhz kredit kooperativləri kiçik sahibkarlığa, xüsusi sektora, kənd təsərrüfatına yetərli dəstək verərək enerji daşıyıcılarından asılı olmayan yeni innovasiyalı iqtisadiyyatın inkişafında əsas rol olynayır. Elə buna görə də kooperativ hərəkatının təbliğatçıları və aktivistləri öz fəaliyyətlərini bütün respublikamızda, xüsusən də regionlarda və ən ucqar kəndlərdə canlandırmasına daha inadlı və inamlı cəhdlərlə davam etdirməlidirlər. Regional səviyyədə bu hərəkatın gücləndirilməsində mühüm faktor isə həmin yerlərdə müvafiq xidmətlərə daha çoxsaylı ehtiyaclı əhali təbəqəsinin olmasındadır.

Zənnimizcə, müasir şəraitdə bələdiyyələr sferasında mikromaliyyələşdirmənin inkişafının nəzəri məsələlərinin praktik müstəviyə keçirilməsi üçün yaranmış real imkanlardan tam istifadə edilməsi vaxtı gəlib çatmışdır. Bu məqsədlə ölkə investorları ilə yanaşı, prosesə xarici investorların da cəlb edilməsi

məqsədəuyğun olmaqla artıq zamanın tələbinə çevrilmişdir. Hesab edirik ki, prosesin reallaşması istiqamətində mühüm dövləti sənəd kimi «Regionların sosial iqtisadi inkişafına dair (*2009-2013-ci illər*)» Dövlət Proqramı çıxış etməlidir. Belə ki, bu proqramın qarşıya qoyduğu ən mühüm vəzifələrdən biri də regionlarda kooperasiya ideyalarının populyarlaşdırılması, fermer təsərrüfatlarının ailə iqtisadiyyatının və kiçik biznesin inkişafına yönəldilmiş fəaliyyətin aktivləşdirilməsidir. Bu isə artıq fəaliyyət aktivliyi üçün mühüm hüquqi əsasları daha da zənginləşdirir.

Yüksək inkişaf tapan bir sıra ölkələrin praktikası göstərir ki, yerli idarəetmənin maliyyələşməsində dövlətin imkanları daha güclüdür. Dövlət bu sıradan daha mükəmməl institutdur. Ümumi olan isə budur ki, yerli özünüidarəetmə sistemləri demokratik təsisat olaraq sivilizasiyanı inkişafa doğru aparan, bəşəri azadlıqları effektli təmin edən sosial institutdur. Buna görə də özünüidarəetmə müasir zamanda daha aktual səciyyə daşıyır və o, postsosialist transformasiyasının nəzəri əsaslarında, praktiki formalizasiyasında da geniş imkanlar əldə edir. Bununla belə, bələdiyyələr özləri də müstəqil olaraq büdcələrinin gəlirlərini optimallaşdırmağa məhkumdurlar. Bizim araşdırmalar isə bir daha göstərir ki, bu prosesdə kredit kooperativləri səmərəlılık baxımdan daha öncül mövqedə dayanırlar [140].

Hesab olunur ki, bu strategiyada bələdiyyələri kooperativ baxışlarla zənginləşdirmək və müvafiq biliklərlə silahlandırmaq çox mühüm amillərdəndir. İnsanları inandırmaq lazımdır kı, bələdiyyələr sferasında yaradılacaq kredit kooperativləri icma mədəniyyətinin yüksəlişinə təkan verəcəkdir. Bu, sınanmış və indi effektivliyi daha yüksələn templərlə inkişaf edən qlobal bir praktikadır. Bu praktika mülkiyyətçilərin hər birinin peşə və əmək imkanlarının bərabər şəraitdə bölgüsünü reallaşdıran, sosial məsuliyyəti tən edən bir fəaliyyətdir. Burada yalnız ayrı-ayrı fərdlərin tələbləri təmin olunmur. Makro səviyyədə bu

praktika dövlətin iqtisadi təhlükəsizliyini möhkəmlədir, ölkədəki demokratik təsisatlandirmaları genişləndirir, yeni institusional effektlərə zəmin yaradır. Buradakı konkret iqtisadi səmərəliliyin hesablanması isə ayrıca bir tədqiqat mövzusudur. Lakin ən azı fəlsəfi həqiqət belədir ki, düşünülərək hesablanmış hərəkət, mənfəətsiz sükunətdən qat-qat səmərəlidir.

Aparılan təhlili araşdırmalar bir daha göstərir ki, hazırda Azərbaycanda bələdiyyələr nəzdində kooperasiyanın inkişaf etdiriliməsi üçün daha əlverişli şərait formalaşmaqdadır. Yaranmış yeni iqtisadi reallıqlar, genişlənən bazar münasibətləri, dərinləşən inteqrasiya, yüksəliş tapan elmi-innovasiya nailiyyətləri respublikamızda bələdiyyələr nəzdində kooperativ hərəkətanın daha da tərəqqi etməsini şərtli etmişdir. Regional yaşayış məntəqəlirində, xüsüsən də ucqar kənd yerlərində kooperasiyanın kredit formalı təsisatında təşəkkülü və inkişaf etdirilməsi bələdiyyələrin gəlirlərinin artırılmasında çox mühüm əhəmiyyətlidir. Bunun üçün isə respublikada mövcud «Kooperasiya» və «Bələdiyyələr» haqqında qanun, maliyyə-kredit və bank istitutları ilə bağlı normativ-hüquqi aktlar bazası təkmilləşdirilməli, müvafiq dövlət proqamı hazırlanmalıdır. Mikromaliyyələşdirmə təşkilatlarının nümayəndələri isə öz növbəsində fəaliyyətlərini iqtisadiyyatın bu seqmentinin normal inkişafı və təkmilləşdirilməsi üçün məsul olan dövlət strukturları ilə sıx əlaqələndirməli və bu məsələlərin həlli ilə bağlı mühüm qərarların müzakirəsi və qəbul edilməsində yaxından iştirak etməlidirlər. Həmin qurumlar eyni zamanda regionlararası səviyyədə öz işlərini qurmalı, öz aralarında informasiya və təcrübə mübadiləsi aparmalı, daha çox intellektual və yaradıcı potensiala malik sahibkarlar fəaliyyət göstərən regionların qabaqcıl təcrübəsindən bəhrələnib, həmin təcrübəni digər regionlara tətbiq etməlidirlər. Belə institusional dəyişikliklər bələdiyyələrin büdcə gəlirlərinin optimallaşdirilmasında daha əhəmiyyətli rol oynayacaqdır.

# VI FƏSİL.

# İSTEHLAK BAZARININ FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

## 6.1. İstehlak bazarının təşəkkülünün ümumi qanunauyğunluqları

«İstehlak bazarı» kateqoriyasının düzgün başa düşülməsi və tədqiqi onu təşkil edən ünsürlərin - «istehlak» və «bazar» kateqoriyalarının daha dəqiq başa düşülməsindən və ətraflı tədqiqindən çox asılıdır. Bu baxımdan, iqtisadi nəzəriyyə sahəsindəki mütəxəssislərin «bazar» kateqoriyasını şərh edərkən aşağıdakı cəhətləri qeyd etmələri xüsusi maraq doğurur: Bazar əmək məhsulunun əmtəəyə çevrildiyi, ona görə də bu məhsulun başqasına satılmaqla verildiyi bir yerdir; Bazar təkrar istehsalın müəyyən mərhələsini ifadə edir, bunsuz ictimai təkrar istehsal mümkün ola bilməz; Bazar əmtəənin tədavüldə olduğu bir sahədir, buradan kənarlaşan məhsul tədavüldən də kənarlaşmış olur, öz əmtəəliliyini itirir [25, 36, 60]. Burada əmtəə-pul münasibətləri vasitəsilə əmtəələrin alqı-satqı prosesi, yəni əmək məhsullarının mübadiləsi baş verir; Bazar ictimai əmək bölgüsünün öz mahiyyətini, həm də bu iki anlayışın bir-biri ilə ayrılmaz əlaqədə olduğunu təzahür etdirdiyi bir məkandır. İctimai əmək bölgüsü isə özünü tələb və təklif vasitəsilə təzahür etdirərək, eyni zamanda cəmiyyətdəki sosial cəhətdən olan bölgünü də əks etdirir. Buradan aydın olur ki, tələb və təklif müxtəlif aspektli sosial bölgülərin (*əhali qrupları, ixtisaslar, əhali peşə qrupları və s.*) olmasını nəzərdə tutur. Bu sosial qruplar cəmiyyətin ümumi gəlirini (*öz sosial vəziyyətinə, ictimai istehsaldakı iştirakına və s. uyğun olaraq*) öz aralarında bölüşdürür (*bu isə maliyyə münasibətlərini əmələ gətirir*), öz istehlakı üçün sərf edirlər; istehlakçıların gəlirinə uyğun olaraq ödənilən bu tələbat hissəsi tələb əmələ gətirir ki, bu da bazarı, tələbin formalaşdığı, onun tələbatdan fərqli bir kateqoriya şək-

li aldığı, onun təzahür forması olan bir sahə kimi qiymətləndirməyə əsas verir. Burada eyni zamanda, yeni yaranmış və bazara daxil olmuş əmtəə, yeni tələbat və tələb də formalaşır [61, 97, 142].

Bazar münasibətlərinin formalaşması üçün istehlak bazarına xüsusi əhəmiyyət vermək lazımdır. İstehlak bazarı bir-biri ilə qarşılıqlı əlaqədə olan elementləri əhatə etməklə, mürəkkəb kompleks sistemdir. Bazar tənzimləyici funksiyanı yerinə yetirir ki, bundan dövlət və qeyri-dövlət iqtisadi strukturlarının səmərəliliyinin artması üçün istifadə edə bilirlər. Bazarın fəaliyyətinin genişlənməsi, hər şeydən əvvəl qiymətqoyma sisteminin yenidən qurulması, məhsul dövriyyəsinin tənzimlənməsi və bazar strukturlarının formalaşması ilə xarakterizə olunur. Bazar - geniş təkrar istehsalın ayrılmaz tərkib hissəsi olub, istehsal münasibətləri ilə bərabər inkişaf edir [142, 160].

İstehlak bazarı - qeyri-kommersiya xarakterli şəxsi istehlak üçün satın alınan mallar, yaxud xidmətlərin tədavülü sferasında yaranan iqtisadi münasibətlərin məcmusudur. İstehlak bazarının tərkibində ərzaq malları bazarı və qeyri-ərzaq malları bazarı xüsusi mövqeyə malikdirlər. İstehlak malları bazarı müəyyən iqtisadi münasibətlərin təzahür sferasıdır. Bu münasibətlər əsasən istehlak olunan məhsul və xidmətlərin bölgüsü və yenidən bölgüsünü, eləcə də onun əhalinin pul gəlirlərinə mübadilə olunması vasitəsi ilə realizasiyasını özündə təcəssüm etdirir. Həmin münasibətlərin əmtəə-pul formasında həyata keçirilməsi ölkədə sağlam pul-kredit və mal dövriyyəsi bazarının mövcudluğunu şərtləndirir.

İstehlak malları bazarı həmçinin istehsalçı və istehlakçı arasında, eləcə də məhsulun (*xidmətin*) qiyməti və faydalılığı arasında yaranan münasibətlərin təzahür formasıdır. Burada söhbət, ilk növbədə, bazar subyektlərinin iqtisadi mənafelərinin ziddiyyətli xarakterindən gedir.

Bu ziddiyyət alqı-satqı prosesində həll olunur və ona görə də, bazar istehsal sferası ilə istehlak sferası arasında mənafe

uyğunluğunu təmin edən alət, vasitə kimi çıxış edir. İstehlak malları bazarı bir tərəfdən istehsalla bölgü, digər tərəfdən şəxsi istehlak arasında əlaqələndirici vasitə rolunu oynayır.

V.Mayevski üç növ əmtəə bazarını ayırır [111]:

1. İstehlak malları;
2. İnvestisiya malları;
3. Əmək əşyaları.

Y.Olseviç isə ümumi bazar tarazlığı sxemi kimi aşağıdakıları ayırmağı məqsədəuyğun hesab edir [111]:

1. İstehlak malları və xidmət bazarı;
2. İstehsal amilləri bazarı;
3. İstehsalat təyinatlı mallara xidmət bazarı.

Respublikamızda istehlak bazarının təşəkkülü və inkişafı prosesində qarşıda duran vəzifələri aşağıdakı kimi ifadə etmək olar:

1) əhalinin getdikcə artan tələbatını daha tam və dolğun ödəmək, ölkənin iqtisadi təhlükəsizlik sisteminin formalaşmasına şərait yaratmaq;
2) əhalinin istehlak mallarına tələbini formalaşdırmaq və istehlakın səmərəli strukturuna malik olmaq;
3) istehlak mallarının səmərəli realizasiyasını həyata keçirmək və onların vaxtında istehlakçıya çatdırılmasını təmin etmək;
4) tələblə mal təklifi arasında dinamik tarazlığa nail olmaq və onun daimi xarakter daşımasına şərait yaratmaq.

Qeyd etmək lazımdır ki, istehlak malları bazarının sağlam əsasda təşəkkülü bütövlükdə bazarın formalaşması şərtlərinə nəzəri-metodoloji yanaşmadan əhəmiyyətli surətdə fərqlənir. Başqa sözlə, təkcə istehlakçıların iqtisadi əlahiddəliyinə və iqtisadi müstəqilliyinə nail olmaqla bazarı formalaşdırmaq mümkün deyildir.

İstehlak malları bazarının öyrənilməsi üçün ən əvvəl istehlakçının özünün tələbini, onun psixologiyasını, hazırkı şəraitdə hansı mallara və çeşidlərə üstünlük verdiyini, əmtəələrin seçilməsi zamanı hansı sosial-psixoloji və iqtisadi amillərə əsaslandığını öy-

rənmək, dəqiqləşdirmək lazımdır. Bu isə müəyyən metodika əsasında işlənilən informasiya bazasının olmasını tələb edir.

Əmtəə və xidmətlər bazarı istehlak mallarının əldə edilməsinə və xidmətlərə görə fərqlənirlər. Bununla belə, bütün tədqiqat boyu istehlak bazarı əlamətlərinə görə, bazar münasibətləri sistemində onun məzmunu, yeri və rolu, təkrar istehsal prosesində satıcı və alıcının mövqeyi baxımından nəzərdən keçiriləcək. Belə yanaşma fikrimizcə, istehlak bazarının hərtərəfli nəzərdən keçirilməsini təmin etməlidir.

Bazar iqtisadi sistemində istehlak bazarı mərkəzi yer tutur, çünki bazar sistemində tarazlığın pozulması daha çox istehlak bazarına mənfi təsir göstərir. Bu universal keyfiyyətinə görə o, ictimai istehlakın real hissəsini əks etdirən xüsusiyyətlərə malikdir. İstehlak bazarı bazarlar sistemində ilk və tamamlayıcı halqadır, bu onun başlıca xüsusiyyətidir [122, 128, 133, 179].

İstehlak bazarının digər xüsusiyyəti onun əmtəə-pul münasibətləri şəraitində inzibati idarəetməyə tabe olmamasıdır. Əgər ölkədə məhsulun istehsal vasitələri, işçi qüvvəsi, texnologiya və s. sahələrdə inzibati təyinatla əmtəə-pul münasibətləri həyata keçirsə, istehlak bazarı sahəsində inzibati təyinat əmtəə-pul münasibətlərini, ümumiyyətlə ləğv edir və deməli, istehlak bazarı fəaliyyətini dayandırır. İstehlak bazarının bu xüsusiyyəti, bir tərəfdən, istehlakın iqtisadi sərbəstliyi ilə, digər tərəfdən isə inzibati idarəetməyə tabe olmayan əhalinin şəxsi istehlakının rəngarəngliyi ilə şərtlənir. Bu xüsusiyyət istehlak bazarına xüsusi möhkəmlik gətirir. Onun sayəsində istehlak bazarı quldarlıq ictimai-iqtisadi formasiyası dövründə və sosializmin SSRİ-də yaradılmış modelində də mövcud olmuşdur. İstehlak bazarının bu xüsusiyyətləri onun tədqiq edilməsini tələb edir.

İstehlak bazarının xüsusiyyətləri öz ifadəsini yerinə yetirdikləri funksiyalarda tapır. Fikrimizcə, istənilən iqtisadi sistemdə istehlak bazarının əsas funksiyaları aşağıdakılardır:

- əhalinin tədiyə qabiliyyətli tələbi formasında təzahür edən ictimai tələbin ödənilməsi;
- malların dəyər formasının əvəz edilməsinin, habelə istehsal vasitələri, istehsal malları, işçi qüvvəsi, kapital və s. bazarların qarşılıqlı təsirinin həyata keçirilməsi vasitəsi ilə fasiləsiz təkrar istehsal prosesinin təmin edilməsi;
- istehlak malları və xidmətlərinə qoyulan qiymətlərin formalaşdırılması və dəyişdirilməsi;
- mal və xidmətlərin istehlak bazarında makro və mikro struktur tarazlığının təmin edilməsi və s.

Ən ümumi formada iqtisadiyyatda istehlak bazarının rolu onun funksiyaları vasitəsilə açılır. Bazarın mühüm funksiyalarından biri ölkənin ümumi daxili məhsulunun (*ÜDM*) müəyyən hissəsinin reallaşmasıdır, nəticədə istehsal və tədavülə sərf edilən məsrəflər ödənilir və bununla da geniş təkrar istehsal prosesinin normal gedişi təmin olunur, yəni istehlak bazarı istehsalla istehlak arasında əlaqələndirici rol oynayır. İstehlak bazarının ikinci funksiyası - əmtəələrin istehlakçılara çatdırılmasıdır. Əhali öz pul gəlirlərini əmtəələrə mübadilə etməklə, öz maddi tələbatlarını ödəyir. Bu funksiyanın yerinə yetirilməsi ilə əlaqədar olaraq bazarla iqtisadi qanunlar arasında sıx əlaqə yaranır. Bazarın üçüncü funksiyası ilə əməyə maddi stimul təmin olunur. Yalnız bazarda pulun əmtəəyə mübadiləsi prosesində bölgü təkrar istehsal prosesinin mühüm fazası kimi son mərhələyə daxil olur. Əmtəələrin tələb və təklifi uyğun olmadıqda, əhalinin pul gəlirlərinin reallaşmasında çətinlik yaranır. Nəticədə bütün bölgü mexanizmi pozulur, işçilərin yüksək keyfiyyətli və məhsuldar əməyə maddi stimullaşdırmanın səmərəliliyi azalır. Beləliklə, istehlak bazarında tələb və təklifin tarazlığı bütövlükdə iqtisadi sistemin necə səmərəli işlədiyini göstərir.

İstehlak bazarında alqı-satqı əməliyyatları sənaye və kənd təsərrüfatı müəssisələri, firmalar, birliklər, habelə təşkilatlar

tərəfindən həyata keçirilir. Digər tərəfdən, ticarət təşkilatları ilə müəssisələr arasında, ikincisi, ticarət müəssisələri və təşkilatlar, üçüncüsü, pərakəndə ticarət müəssisələri arasında baş verir [158].

Ərazi cəhətcə istehlak bazarı ayrı-ayrı rayonlarda, şəhərlərdə, kəndlərdə yerləşir. Hər bir halda istehlak bazarının inkişafına minlərlə ticarət və yüzlərlə sənaye müəssisələri təsir edir. Bununla əlaqədar olaraq əmtəələr sərbəst hərəkət edir, inkişaf etmiş bazar şəraitində eyni növ məhsulların qiymətləri müxtəlif yerlərdə kəskin fərqlənir.

İstehlak bazarları aşağıdakı əlamətlərinə görə təsnifləşdirilə bilər [145, 146, 150]:

1. Alıcıların xarakterinə görə: bu əlamətə görə təsnifləşdirmə müxtəlif meyar tələb edir. Məsələn, əhali, ailələrin sayı, ailənin ölçüsü, yaş və cins strukturu, professional əlamətləri, milli mənşəyi, sosial-iqtisadi qruplara mənsubiyyəti;
2. Məhsul tipinə görə: bu əlamətə görə, təsnifat əmtəələrin növünə və qiymətinə görə müəyyən edilir. Məsələn, ərzaq, toxuculuq, paltar, təsərrüfat malları, mebel, uzun müddət istifadə olunan mallar;
3. İstehlak bazarları ərazi əlamətlərinə görə: daxili və xarici bazarlara bölünürlər. Daxili bazarlar öz növbəsində, üç növə - milli və ya ümumdövlət regional (*ayrı-ayrı rayonların*) və lokal (*hər hansı yaşayış məntəqəsinin*) bazar. Milli bazarlardan fərqli olaraq regional və lokal istehlak bazarlarının kəskin müəyyən edilmiş sərhədləri yoxdur və öz aralarında qarşılıqlı əlaqəyə malikdirlər. Bu onda özünü büruzə verir ki, bir ərazidə istehsal olunan məhsullar digər regionlarda reallaşdırılır;
4. İstehlak bazarlarının proporsional inkişaf səviyyələrinə görə: tarazlaşdırılmış və tarazlaşdırılmamış bazarları fərqləndirirlər. Tarazlaşdırılmış bazar bu tələb və təklifin uyğun gəldiyi bazardır. Tarazlaşdırılmış bazar şərai-

tində təklif olunan malların maneəsiz reallaşması təmin olunur, eyni zamanda əhalinin alıcılıq qabiliyyəti tam ödənilir. Tarazlaşdırılmamış bazar tələblə təklif arasında uyğunsuzluq olan bazardır. Belə bazarlarda tələb və təklifin həcmi, strukturu bir-birinə uyğun gəlmir.

Tarazlaşdırılmamış bazarların aşağıdakı əlamətləri vardır [172, 173]:

- alıcının tələbatının ödənilməsində defisitin olması;
- əhalinin pul gəlirlərinin artmasına baxmayaraq onların əmtəə defisiti ilə üzləşməsi;
- əmtəə ehtiyatlarının dəyişməsi;
- tarazlaşdırılmamış bazarların əsas səbəbləri təşkilati, idarəetmə, istehsal, həmçinin struktur xarakterli ola bilər.

Bazar iqtisadiyyatı şəraitində respublikada istehlak bazarının formalaşması və tarazlı inkişafının təmin olunması bu sahədə mövcud problemlərin həll olunmasını və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsini və bu əsasda kompleks tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur.

İlk baxışda istehlakçı dedikdə, onu «alıcı» ilə eyniləşdirmək düzgün görünür; lakin əslində bu da onun mahiyyətini tam ifadə etmir. Doğrudur, alıcı məhz öz istehlakını nəzərdə tutur, hər bir istehlakçı isə əvvəlcə alıcı kimi çıxış etməlidir. Lakin dəqiq məntiqi və nəzəri fikrə əsaslansaq, istehlakçının daim alıcı kimi çıxış edəcəyinin bir zərurət olduğunu söyləmək olmaz: istehlakçı vasitəçi alıcılardan da istifadə edə bilər, alıcı isə istehsalçı və istehlakçı arasında vasitəçi də ola bilər. Digər tərəfdən, alınan malın dərhal zəruri olaraq istehlak olunacağını da söyləmək olmaz, çünki mal bir ehtiyat kimi saxlanıla, sonra yenidən satıla bilər. Bazar iqtisadiyyatı sisteminə keçməklə bu xüsusiyət daha da güclənmişdir. Deməli, alıcı və istehlakçını nəzəri cəhətdən eynilşdirmək olmaz, onlar arasında müəyyən fərqlər, «pillələr» ola bilər. Lakin hər bir istehlakdan əvvəl (*əmtəə təsərrüfatı şəraitində*) alqı-satqı (*alıcılıq fəaliyyəti*) gəldiyinə görə, bunlara sadəlik xatirinə

təqribən eyni kontragent kimi yanaşmaq olar. Beləliklə, müxtəlif iqtisadi kateqoriyalar olsalar da, daha geniş anlayış olan «istehlakçı» kateqoriyasına müəyyən mənada «alıcı» kateqoriyası kimi yanaşmaq olar, onları bir-birinin əvəzləyicisi kimi də qəbul etmək olar. Bununla bərabər, «istehlakçı» kateqoriyası ilə «istehlak malları bazarı» arasındakı ciddi fərqi də nəzərdən qaçırmaq olmaz. Belə ki, istehlakçı tək bir fərdə də aid ola bildiyindən o nisbətən dar bir fərdi tələbatı göstərə bildiyi halda istehlak bazarı geniş, kütləvi, xarakterik olan ictimai tələbatı göstərir. İstehlakçıların tələbatı istehlak malları bazarındakı ayrı-ayrı seqmentlərə aid olmaqla, bu seqmentlərə dair əmtəələrin çeşidini və keyfiyyətini, istehlak bazarı isə onların bütövlüyünü göstərir. Əlbəttə, istehlakçıları, istehlak bazarının məcmu iştirakçıları kimi götürsək, onda söhbət fərdlərdən yox, bütövlükdə, ictimai tələbatdan gedərdi.

İstehlak mallarının spesifik xüsusiyyətlərini, başqa sözlə, əhalinin həmin mallarla təchizinin təkcə iqtisadi yox, həm də sosial-siyasi səciyyə daşıdığını və makroiqtisadi səviyyədə mövcud olan müasir reallığı nəzərə almaqla həmin bazarın formalaşması prosesinə ikili mövqedən: təkamül prosesi baxımından və proqram-məqsədli yanaşmaq məqsədəuyğun olardı.

Əvvəla, mövqenin mahiyyəti ondan ibarətdir ki, real bazar iqtisadi münasibətlərin xüsusi sferası olmaqla təşəkkül tapa bilər. Yəni həmin münasibətləri hər hansı bir qanunlar toplusu şəklində direktiv formada yaratmaq sadəcə olaraq, qeyri-mümkündür. Belə ki, bazar münasibətləri iqtisadi, sosial, siyasi, milli, dini və s. amillər kompleksinin daimi təsiri altındadır. Buna görə də, bir tərəfdən sırf iqtisadi amilləri, digər tərəfdən, sosial-psixoloji aspektləri özündə əks etdirən bazar münasibətləri üçün qanunvericilik çərçivəsində əlverişli şərait yaratmaq lazım gəlir. Eyni zamanda, makroiqtisadi səviyyədə bir sıra şərtlərin ödənilməsi bazarın təkamülü prosesinə xüsusilə müsbət təsir göstərə bilər. Şərtlərdən ən vaciblərini aşağıdakı kimi sadalamaq olar:

1) ölkənin maliyyə sferasında sabitliyə nail olunması və manatın dönərliyinin həyata keçirilməsi;
2) bazarda istehlakçılar və ticarət vasitəçiləri arasında sağlam rəqabət mühitinin formalaşdırılması;
3) investisiya siyasəti və istehsalın struktur modernləşdirilməsi sahəsində dəyişikliklərin həyata keçirilməsi.

Göstərilən şərtlərin yerinə yetirilməsi bir sıra mühüm və vacib istiqamətləri nəzərdə tuta bilər:

a) istehsal və tədavül sferasının inhisarsızlaşdırılması və özəlləşdirmənin sürətləndirilməsi;
b) istehlak malları bazarının kommersiya, maliyyə-kredit infrastrukturunun yaradılması və onlara uyğun olaraq topdan və pərakəndə satış ticarət şəbəkəsinin genişləndirilməsi;
c) inzibati idarəetmə metodlarından imtina edilməsi, iqtisadi subyektlərin fəaliyyətinə müdaxilənin aradan qaldırılması.

Beləliklə, təkamül prosesi heç də bəzi iqtisadçıların iddia etdikləri kimi, kortəbii xarakter daşımamalı və onun sağlam əsaslar üzərində həyata keçirilməsi sırf iqtisadi metodlarla tənzimlənməlidir.

Bazarda tələblə təklif arasında dinamik tarazlığın saxlanması dövlətin ərzaq resurslarının artırılmasına nail ola bilməsindən birbaşa asılıdır. Belə ki, istehlak mallarına olan tələb bir sıra spesifik xüsusiyyətlərlə: tələbin ilkin xarakteri, zövq, mövsümilik, malların köhnəlməsi nəticəsində satışının çətinliyi və s. səciyyələnir. İstehlak malları bazarının normal inkişafı bilavasitə sahələrarası münasibətlərin təşkili ilə də bağlıdır. Məhz bu nöqteyi-nəzərdən «istehlak bazarı» anlayışının sosial-iqtisadi mahiyyətini açmaq, onun fəaliyyət mexanizmini öyrənmək və bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşması və inkişafına təsir göstərən daxili və xarici amilləri müəyyən etmək tələb olunur.

Qeyd etmək lazımdır ki, istehlak bazarında tarazlıq yaradılması cəmiyyət qarşısında duran ən mühüm problemlərdən biridir. Bazarın tarazlığı dedikdə, konkret şəraitdə əhalinin gəlirləri mal təklifinin ümumi həcmi və strukturu ilə tələbin həcmi və strukturu ilə əhalinin gəlirləri arasında olan nisbət başa düşülür. Deyilənlərdən aydın olur ki, istənilən bir ölkədə istehlak bazarının formalaşması və tarazlığı ilk növbədə tələb və təklifin həcm və strukturu və istehlakçıların gəlirləri və qiymətlər arasında uyğunluq olmasını nəzərdə tutur.

Bazar iqtisadiyyatı şəraitində azad rəqabət hökm sürdüyünə görə, bazarda tarazlıq tələb və təklif qanunu əsasında tənzimlənir. İstehlak bazarında tarazlığın təmin olunmasında istehlakçıların alıcılıq qabiliyyətinin də əhəmiyyətli rolu vardır ki, bu da onların gəlirləri ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, daxili istehsal potensialından tam və səmərəli istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən istehlak bazarında təklifin çoxalması, digər tərəfdən isə, daxili istehlakçıların gəlirlərinin artması ilə əlaqədardır. Lakin nəzərə almaq lazımdır ki, bir çox  hallarda, daxili istehsalın artırılması yeni kapital qoyuluşları əsasında istehsalın strukturunun yenidən qurulmasını, mövcud istehsal müəssisələrinin texniki və texnoloji cəhətdən modernləşdirilməsini, yeni istehsal müəssisələrinin yaradılmasını və s. tələb edir ki, bunu əksər hallarda, daxili imkanlar hesabına həyata keçirmək mümkün olmur və ya gözlənilən səmərə əldə olunmur. Bazar iqtisadi sisteminin təşəkkülü şəraitində isə bu məsələni xarici iqtisadi əlaqələrin köməyi ilə həll etmək mümkündür. Bunun üçün xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və onun istehsal sahələrinin inkişafına xarici investisiya cəlb olunması, müasir texnika və texnologiya əldə olunması, mütərəqqi idarəçilik və təsərrüfatçılıq təcrübəsi qazanılması və s. nəzərdə tutulur.

Elmi nəzəri araşdırmalar göstərir ki, bazar münasibətləri şəraitində cəmiyyətdə makroiqtisadi tarazlığın təmin edilməsi istehlak bazarında sabitliyin formalaşdırılmasından bilavasitə

asılıdır. İstehlak bazarı ümumi bazarın mühüm tərkib hissəsi olsa da, bazarın digər növ müxtəlifliklərindən, eləcə də digər təsərrüfat proseslərindən fərqli olaraq, təkcə iqtisadi mahiyyət daşımır. İstehlak bazarında tarazlığın mövcudluğu, onun normal inkişafı bütövlükdə cəmiyyətin inkişafının və sabitliyinin əsasını təşkil edir [78, 153].

Apardığımız araşdırmalar göstərir ki, cəmiyyətdə makroiqtisadi, sosial, siyasi sabitliyin qərarlaşması problemi digər məsələlərlə yanaşı, istehlak bazarında tarazlığın təmin edilməsindən də əhəmiyyətli dərəcədə asılıdır. Qeyd etmək lazımdır ki, istehlak bazarı əhalinin gündəlik tələbat mallarının alqı-satqısı ilə bağlı formalaşan iqtisadi münasibətlərin məcmusunu özündə əks etdirməklə tələb və təklifin səviyyəsindən və eləcə də azad rəqabət mühitindən asılıdır. Ümumiyyətlə, istehlak bazarı cəmiyyətin hər bir üzvünün son istehlakını özündə əks etdirir. Bu tələb dərinləşən qloballaşma şəraitində daha da möhkəmlənir.

## 6.2. İstehlak bazarının funksional təyinatı və təsnifat əlamətləri

Bazarın digər növ müxtəliflikləri ilə yanaşı, istehlak bazarı da özünəməxsus xüsusiyyətlərə malikdir. İqtisadiyyatda istehlak bazarının rolu və əhəmiyyətini şərh edərkən ilk növbədə, onun sosial-iqtisadi mahiyyətini, funksional təyinatını və təsnifat əlamətlərini araşdırmaq mühüm əhəmiyyət kəsb edir. İstehlak bazarında əhalinin gündəlik tələbat məhsulları təklif edilir, sonra isə reallaşdırılaraq alıcının mülkiyyətinə keçir. Alıcılar üçün mühüm əhəmiyyət kəsb edən gündəlik tələbat məhsullarının satışı istehsalçıları da stimullaşdırır. Bu isə son nəticədə konkret növ məhsulların istehsalının artımına gətirib çıxarır. Təbii ki, istehlak bazarında alıcılar tərəfindən alınmayan məhsulların istehsalı dayanır. Bu və ya digər gündəlik tələbat məhsulu istehsal olunduqdan sonra həmin məhsul isteh-

lakçıların tələbatlarını ödəyir və bu da biznes strukturlarının gəlir əldə etməsinə əlverişli şərait yaradır. İstehlak bazarının xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, bu bazarlar bir qayda olaraq, sosial-iqtisadi böhranların təsirinə daha tez məruz qalırlar. Bazar şəraitində istehsal olunan məhsulların hamısı reallaşdırılmaq iqtidarında olmur. Odur ki, istehsal olunmuş məhsulları satmaq üçün alıcılar stimullaşdırılmalıdır. Adətən alıcıların stimullaşdırılması aşağıdakı formalarda həyata keçirilir:

- bu və ya digər məhsulun qiymətinin aşağı olması;
- məhsulun keyfiyyətinin yüksək olması;
- məhsulun satışı zamanı müxtəlif güzəştlərin tətbiq edilməsi;
- alıcıların şüuruna təsir etmək məqsədilə intensiv reklam fəaliyyətinin həyata keçirilməsi.

Adətən intensiv reklam fəaliyyətinin həyata keçirilməsi istehsalçı qurumun xeyli məsrəf sərf etməsinə gətirib çıxarır. Məhz bu baxımdan da istehlak bazarında biznes öz üzərinə müəyyən risklər götürür. Kütləvi istehlak şəraitində istehlakçılarla müqavilə bağlamaq qeyri-mümkündür. Odur ki, inkişaf etmiş bazar iqtisadiyyatında gündəlik tələbat məhsullarının istehsalı və biznesi bazara və konkret olaraq istehlakçılara istiqamətlənməlidir.

Qloballaşma şəraitində bazar əmtəə mübadiləsi, tələb və təklif sferası olmaqla yanaşı, həm də geniş təkrar istehsalın bütün sferalarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bazar münasibətlərinin formalaşmasının ilkin mərhələsində, daha doğrusu, transformasiya yönümlü dəyişikliklər şəraitində istehlak bazarına və istehsal vasitələri bazarına, eləcə də bazar infrastrukturlarının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilməsi vacibdir. Təhlil göstərir ki, dərinləşən qloballaşma şəraitində istehlak bazarının inkişafı bir-biri ilə sıx qarşılıqlı əlaqəyə və təsirə malik olan elementlərin məcmusunu özündə əks etdirməklə, kompleks sistem kimi fəaliyyət göstərir. Bazarın ən

mühüm mexanizmini təşkil edən tələb və təklif iqtisadiyyatda tənzimləyici funksiyalar yerinə yetirir ki, bu da son nəticədə istehsalın iqtisadi səmərəliliyinə öz təsirini göstərir. Xüsusilə istehlak bazarının funksiyalarının genişlənməsi son nəticədə gündəlik tələbat məhsulları üzrə əmtəə dövriyyəsinin həcminin artmasını şərtləndirir. Bu baxımdan istehlak bazarı iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatı və emal sənayesində geniş təkrar istehsalın ayrılmaz tərkib hissəsi kimi çıxış edir və bu sferada iqtisadi münasibətləri tənzimləyir [141, 162].

Araşdırmalar göstərir ki, regionlarda istehlak bazarlarının fəaliyyətinin genişlənməsi artıq istehsalçıları və istehlakçıları da bu sistemin mühüm tərkib elementlərinə çevirir. Hətta inkişafın müxtəlif mərhələlərində bu və ya digər məhsulun satış probleminin həll edilməsi məqsədilə istehsalçılar arasında bazar əlaqələri formalaşır və inkişaf edir. Qeyd etmək lazımdır ki, istehlak bazarının formalaşması və inkişafının əsasını ictimai əmək bölgüsü təşkil edir. İctimai əmək bölgüsünün və eləcə də cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafı istehlak bazarının da genişlənməsinə və təkmilləşməsinə öz təsirini göstərir.

İstehlak bazarının formalaşması və inkişafı bir neçə mərhələni özündə əks etdirmişdir. Prosesin birinci mərhələsində istehlak bazarının formalaşması gündəlik tələbat məhsullarının mübadiləsi ilə yaranmışdır. Təbii ki, bu, ictimai əmək bölgüsünün və istehsal münasibətlərinin nisbətən ibtidai səviyyəsini özündə əks etdirirdi. İstehlak bazarının inkişafının ikinci mərhələsi iqtisadiyyatda əmtəə-pul münasibətlərinin formalaşması ilə bilavasitə bağlıdır. Bu mərhələdə ictimai əmək bölgüsü dərinləşməklə məhsulların mübadiləsinin ümumi ekvivalenti olan pul vahidləri yaranmışdır. İstehlak bazarının formalaşmasının üçüncü mərhələsi kapitalizmin formalaşması və liberal iqtisadiyyatın əhatə dairəsinin genişlənməsi ilə sıx bağlı olmuşdur. Bu mərhələdə azad ticarət istehlak bazarının inkişafı-

nın başlıca tənzimləyici mexanizmi kimi çıxış etmişdir. İstehlak bazarının inkişafında dördüncü mərhələ dövlətin tənzimləyici mexanizmlərinin genişlənməsi ilə bilavasitə əlaqədardır. Bu mərhələ XX əsrin əvvəllərini, daha doğrusu birinci yarısını əhatə edir. Belə ki, 1929-1933-cü illər böhranı istehlak bazarına da öz təsirini göstərmiş və bu böhranın aradan qaldırılması ilk növbədə, dövlət tənzimlənməsinin aktivləşdirilməsindən bilavasitə asılı olmuşdur.

Aparılan araşdırmalardan belə bir nəticə hasil olunur ki, istehlak bazarının formalaşması və inkişafı konkret olaraq iqtisadi sistemin tipindən və xarakterindən bilavasitə asılıdır. Təbii ki, bu zaman istehsal vasitələri üzərində mülkiyyətin xarakteri istehlak bazarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu isə bilavasitə onu göstərir ki, hər bir konkret iqtisadi sistemdə istehlak bazarının yeri və rolu, onun inkişafının qanunauyğunluqları ilk növbədə, istehsal münasibətlərinin xarakteri ilə səciyyələnir. Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatda istehlak bazarının yeri və rolu əslində onun funksiyaları ilə xarakterizə olunur. İstehlak bazarının ən mühüm funksiyalarından biri ümumi daxili məhsulun müəyyən hissəsinin bu bazarda reallaşması ilə bağlıdır. Təbiidir ki, istehlak bazarının fəaliyyəti zamanı konkret olaraq gündəlik tələbat məhsullarının istehsalı və tədavülünə sərf edilən məsrəflər ödənilir və bununla da geniş təkrar istehsalın həyata keçirilməsi üçün əlverişli şərait yaranır. Beləliklə istehlak bazarı əslində istehsalçı ilə istehlakçı arasında əlaqələrin formalaşmasında və inkişafında əhəmiyyətli rol oynayır.

İstehlak bazarının iqtisadiyyatda yerinə yetirdiyi ən mühüm funksiyalarından biri də gündəlik tələbat məhsullarının istehsalçıdan istehlakçılara çatdırılması ilə bağlıdır. İstehlakçı öz pul gəlirlərini əmtəələrin mübadiləsinə yönəltməklə öz tələbatlarını ödəyir, istehsalçı isə gələcəkdə geniş təkrar istehsalı həyata keçirmək üçün vəsait əldə edir. Bu baxımdan istehlak bazarının üçüncü mühüm funksiyası istehsalın stimullaşdırıl-

ması ilə sıx bağlıdır. Beləliklə, istehlak bazarı mübadilə və bölgü funksiyalarını yerinə yetirir ki, bu da geniş təkrar istehsalın mühüm fazası kimi çıxış edir. Bundan irəli gələrək istehlak bazarının təsnifat əlamətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

- ⇨ <u>İstehlakçıların xarakteri</u>. Bu əlamət əhalinin sayı, demoqrafik xüsusiyyətləri, əhalinin pul gəlirləri və xərcləri ilə sıx bağlıdır;
- ⇨ <u>Əmtəələrin tipi.</u> Bu əlamət adətən ərzaq və gündəlik tələbat məhsullarına olan ehtiyacların qarşılanması ilə sıx bağlıdır;
- ⇨ <u>Regional xüsusiyyətlər.</u> Bu əlamətə görə istehlak bazarları daxili və xarici bazarlara bölünür. Daxili bazarlar bir qayda olaraq regional, lokal və milli bazarları özündə əks etdirir. Xarici bazarlar isə ölkə sərhədindən kənarda fəaliyyət göstərən bazarları özündə əks etdirir;
- ⇨ <u>Proporsionallıq səviyyəsi.</u> Bu əlamətə görə istehlak bazarı balanslaşdırılmış və balanslaşdırılmamış xarakter daşıyır. Balanslaşdırılmış bazarlarda adətən tələb və təklif arasındakı tarazlıq, eləcə də azad rəqabət mühiti önəmli rol oynayır. Balanslaşdırılmamış istehlak bazarlarında isə bir qayda olaraq, tələb və təklif arasında disproporsiyalar özünü göstərir, bir sıra hallarda bazarda qıtlıq və eləcə də infrastruktur sisteminin etibarlı fəaliyyət göstərməməsi adi hala çevrilir.

İstehlak bazarı bir qayda olaraq iqtisadi, sosial, təşkilati və hüquqi aspektləri özündə əks etdirir. İstehlak bazarının iqtisadi aspektləri daha çox dövlətin iqtisadi siyasətindən bilavasitə asılı olmaqla, istehsalın və təklifin səviyyəsinə təsir edən amilləri özündə birləşdirir. Bu zaman xarici iqtisadi əlaqələrin xarakteri, eləcə də dövlətin tənzimləmə vasitələrinin spesifik xüsusiyyətləri də istehlak bazarına həlledici təsir göstərir.

İstehlak bazarının sosial aspektləri ilk növbədə, əhalinin alıcılıq qabiliyyətindən bilavasitə asılı olur. İstehlak bazarının təşkilati aspektləri bazar infrastrukturlarının formalaşması və inkişafı ilə sıx bağlıdır. Bazar infrastrukturlarının inkişafı istər istehsalçıların və istərsə də istehlakçıların maraqlarının reallaşdırılmasında əhəmiyyətli rol oynayır. Hüquqi aspektlər isə adından da məlum olduğu kimi, istehlak bazarının tənzimlənməsinin qanunvericilik təminatını özündə əks etdirir və iqtisadiyyatın hüquqi tənzimlənməsi prosedurаları ilə reqlamentləşdirilir [85, 90].

Yuxarıda qeyd etdiyimiz kimi, istehlak bazarının formalaşması və inkişafında infrastruktur sistemi əhəmiyyətli rola malikdir. İnfrastrukturun zəif inkişafı bir qayda olaraq, əmtəə dövriyyəsinin həcminə mənfi təsir göstərir və bu da bütövlükdə iqtisadiyyatda geniş təkrar istehsalın səviyyəsini zəiflədir və iqtisadi artımın sürətini ləngidir. Qloballaşma şəraitində infrastruktur sistemi əslində istehsalçıların bazar və istehlakçılarla əlaqəsini təmin edən mühüm mexanizm kimi fəaliyyət göstərir. Əslində bu mexanizmin dinamik xarakter daşıması bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinə əlverişli şərait yaradır.

Keçid iqtisadiyyatını yaşayan ölkələrin təcrübəsi göstərir ki, istehlak bazarının səmərəli fəaliyyətini əngəlləyən ən mühüm cəhətlərdən biri də inzibati və bürokratik maneələrin mövcudluğudur. Bu əngəllər mahiyyət etibarilə bazarın özünütənzimləmə mexanizminə mənfi təsir göstərməklə yanaşı, kölgəli iqtisadiyyatın inkişafına da rəvac verir. Bütün bunlar isə son nəticədə dövlət büdcəsinə vergidən yayınmağa gətirib çıxarmaqla «çirkli pullar» probleminin aktuallaşmasını şərtləndirir. Bu xüsusilə, istehlak məhsullarının mübadiləsi seqmentində özünü daha çox göstərir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda şəffaflığın təmin edilməsi və statistik uçotun düzgün aparılması bu problemin həllində önəmli vasitə hesab olunur. lakin təəssüflə qeyd etmək lazımdır ki, əksər hallarda yeni ya-

radılmış sahibkarlıq subyektlərinin iqtisadi maarifləndirmə səviyyəsinin aşağı olması bu prosesə mənfi təsir göstərir.

XX əsrin sonlarından etibarən cəmiyyətdə baş verən radikal dəyişikliklər siyasi və iqtisadi sistemin köklü şəkildə liberallaşdırılması ilə nəticələnmişdir. Şərqi Avropa və keçmiş Sovetlər Birliyində sosialist düşərgəsinin dağılması planlı təsərrüfatçılıq sisteminin də demontajına gətirib çıxarmışdır. Keçmiş Sovetlər İttifaqının dağılması fonunda mərkəzləşdirilmiş iqtisadiyyatın liberallaşdırılması bazar iqtisadi münasibətlərinə keçidlə nəticələnmişdir. Transformasiya yönümlü dəyişikliklər cəmiyyətin ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi istehlak bazarına da öz təsirini göstərmişdir. Qeyd etmək lazımdır ki, transformasiya yönümlü dəyişikliklərin ilkin mərhələsində uzun müddət qərarlaşmış iqtisadi əlaqələrin kəsilməsi, təminatlı dövlət sifarişinin liberallaşdırılması istehsal həcminin də kəskin şəkildə azalmasına gətirib çıxarmışdır. Bu azalma özünü xüsusilə istehlak məhsullarının istehsalı sektorunda kəskin şəkildə büruzə vermişdir. Bazarda istehlak məhsullarına olan tələbin ödənilməməsi əmtəə qıtlığı fonunda istehlak məhsullarının qiymətlərinin sürətli artımına səbəb olmuşdur. Bütün bunlar isə öz növbəsində 1994-1995-ci illərdə iqtisadiyyatda hiperinflyasiya dalğasının yaranmasına gətirib çıxarmışdır.

İstehlak bazarında baş verən konyunktur dalğalanmaları bütün hallarda əhalinin həyat səviyyəsinə və bütövlükdə götürdükdə, cəmiyyətdə sosial sabitliyin mövcud durumuna öz təsirini göstərir. Nəzərə almaq lazımdır ki, transformasiya yönümlü dəyişikliklərin ilkin mərhələsində istehlak bazarında baş verən gərginliklər və qiymət artımları müxtəlif faktorların təsiri altında baş vermişdir ki, onları da aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

- istehlak məhsulları istehsalının həcminin kəskin şəkildə azalması;
- müstəqil dövlətin xarici iqtisadi əlaqələrinin yetərin-

cə inkişaf etməməsi səbəbindən istehlak bazarına məhsul idxalının qənaətbəxş həcmdə olmaması;

- ❖ istehlak bazarında inhisarçılıq meyillərinin mövcudluğu və azad rəqabət mühitinin formalaşmaması;
- ❖ istehlak bazarına dövlət müdaxiləsinin tamamilə aradan qaldırılması fonunda kölgəli iqtisadiyyatın təsir imkanlarının genişlənməsi.

Aparılan araşdırmalar göstərir ki, formalaşmaqda olan milli iqtisadiyyatda həyata keçirilən islahatlar, mülkiyyətin özəlləşdirilməsi, azad sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi istehlak bazarındakı mövcud duruma da öz təsirini göstərmişdir. Belə ki, artıq ölkənin istehlak bazarında qiymətlər tələb və təklifin təsiri altında formalaşmaqla azad rəqabət mühiti geniş vüsət almışdır. Qeyd etmək lazımdır ki, istehlak bazarında tarazlığın təmin edilməsi və qiymətlərin səviyyəsinin sabitləşdirilməsi bazarda əmtəə təklifinin həcminin artırılmasından və əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsindən bilavasitə asılıdır. Əsası ulu öndər H.Əliyev tərəfindən qoyulan iqtisadi islahatlar kursu keçid dövrünü yaşayan respublikamızda qısa müddət ərzində iqtisadi böhranın dayandırılmasına və makroiqtisadi sabitliyin təmin edilməsinə əlverişli şərait yaratmışdır. Məhz bütün bunların nəticəsidir ki, 1995-ci illə müqayisədə 2007-ci ildə ölkədə ümumi daxili məhsul istehsalı 12,6 dəfə artaraq 26815,1 milyon manata, adambaşına məhsul istehsalı 11,2 dəfə artaraq 3168,5 manata, kənd təsərrüfatı məhsullarının istehsalı dəyər ifadəsində 3,9 dəfə artaraq 2793 milyon manata, satışın bütün kanallarında pərakəndə əmtəə dövriyyəsi 7,2 dəfə artaraq 7591,4 milyon manata çatmışdır. Təbii ki, makroiqtisadi göstəricilərin səviyyəsinin yüksəlməsi əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə də öz təsirini göstərmişdir. Belə ki, müqayisə olunan dövrdə əhalinin gəlirləri 10,7 dəfə artaraq 14305,6 milyon manata, əhalinin xərcləri isə 8,5 dəfə artaraq 10819,5 milyon manata, iqtisadiyyatda məşğul olan iş-

çilərin orta aylıq əmək haqqı 17,2 dəfə artaraq 215,8 manata çatmışdır [187-5].

İstehlak bazarının formalaşması və inkişafı ölkənin beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının ən mühüm təzahürü kimi çıxış edir. Bütövlükdə götürdükdə, hər hansı ölkədə istehlak bazarının formalaşması, azad rəqabət mühitinin inkişafı prosesi bazar təsərrüfatçılıq sisteminin təşəkkülünün ayrılmaz tərkib hissəsi olmaqla istər makro, istərsə də mikro iqtisadiyyatda baş verən transformasiya yönümlü dəyişikliklərdən asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehlak bazarında tarazlığın təmin edilməsi və qiymətlərin səviyyəsinin sabitləşdirilməsi ölkənin milli ərzaq təhlükəsizliyinin qorunmasının ən mühüm ilkin şərti kimi çıxış edir. Qeyd etmək lazımdır ki, istehlak bazarı bazarın mühüm tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda özünəməxsus spesifik xüsusiyyətlərə də malikdir. Belə ki, istehlak bazarında bilavasitə əhalinin gündəlik tələbat məhsulları reallaşdırılır. Bu məhsullara isə xüsusilə ərzaq və yeyinti malları şamil edilir. Real həqiqətdir ki, kənd təsərrüfatı əhalinin istehlak tələbatının təxminən $^3/_4$ hissəsinin ödənilməsində mühüm rol oynayır. Odur ki, istehlak bazarında sabitliyin təmin edilməsi milli ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əhəmiyyətli rola malikdir [78, 85, 90].

İstehlak bazarı əmtəə-pul münasibətlərinin mühüm tərkib hissəsi olan mübadilə sferasının reallaşdırılmasında əhəmiyyətli xüsusi çəkiyə malikdir. B.X.Ataşovun fikrincə, mübadilə sferası vasitəsilə respublikanın ərzaq kompleksinin təməl sahələrinin (*kənd təsərrüfatı və emal sənayesi*) və digər həlqələrinin istehsal vasitələri və əmək vasitələri (*xammal, materiallar, avadanlıq, yanacaq və s.*) qismində aralıq məhsullarına, ölkənin birbaşa son hazır istehlak mallarına, bu kompleksə daxil olmayan istehsal sahələrinin xammala olan ehtiyacları ödənilir [5]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı, eyni zamanda onu da əlavə etmək istərdik ki, istehlak bazarı mübadilə sferası olmaqla yanaşı, əslində yeni istehsal münasibətləri şəraitində

istehlak məhsullarının geniş təkrar istehsalı prosesinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Başqa sözlə, istehlak bazarına yalnız birmənalı olaraq istehlak məhsullarının reallaşdırıldığı mübadilə sferası kimi yanaşılması olsa-olsa, məsələnin bir tərəfini xarakterizə edir. Daha doğrusu, yeni istehsal münasibətləri şəraitində mübadilə və reallaşdırma prosesləri istehlak bazarının yalnız görünən tərəfləri kimi xarakterizə olunmalıdır.

İstehlak bazarının ən mühüm göstəricisi əmtəə dövriyyəsi hesab edilir. Əmtəə-pul münasibətlərinin inkişaf etdiyi şəraitdə əmtəə tədavülü prosesi əmtəə dövriyyəsinin həcminin artırılması ilə bilavasitə bağlıdır. Əmtəə dövriyyəsinin bir qayda olaraq üç forması fərqləndirilir ki, bunlar da aşağıdakılardır [91, 119, 124]:

***Pərakəndə əmtəə dövriyyəsi*** əmtəələrin tədavül sferasından şəxsi istehlak sferasına hərəkətinin son mərhələsini, əmtəələrin əhaliyə satışını əks etdirir.

***İaşə əmtəə dövriyyəsi*** iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

***Topdansatış əmtəə dövriyyəsi*** əmtəələrin böyük həcmlə, sonradan əhaliyə satmaq məqsədi ilə (*emal edilmədən*) bir müəssisədən digərinə satışını əks etdirir.

Topdansatış əmtəə dövriyyəsi istehsal vasitələri, kənd təsərrüfatı məhsulları və xalq istehlak mallarının topdansatış qiymətlərlə istehlak bazarında ümumi həcmini özündə əks etdirir. Əgər topdansatış əmtəə dövriyyəsi tədavül prosesinin başlanğıc mərhələsi hesab edilirsə, pərakəndə əmtəə dövriyyəsi tədavül prosesinin sonuncu mərhələsini özündə əks etdirir. Pərakəndə əmtəə dövriyyəsinin həyata keçirilməsi ilə istehlak bazarında istehlak mallarının tədavül prosesi başa çatır və əmtəələr tədavül xərclərindən şəxsi istehlak dairəsinə keçir. Pərakəndə əmtəə dövriyyəsi nəticəsində istehlak məhsullarının bilavasitə istehlakçılara çatdırılması baş verir.

Aparılan araşdırmalar göstərir ki, pərakəndə əmtəə dövriyyəsi istehlak bazarının mühüm göstəricisi olmaqla yanaşı, onu birtərəfli olaraq əhalinin şəxsi istehlakı ilə eyniləşdirmək düzgün olmazdı. Əmtəə dövriyyəsi şəxsi istehlakın ümumi həcminin təxminən 85-87%-ni təşkil edir. İstehlak bazarında pərakəndə əmtəə dövriyyəsinə aşağıdakı növ əmtəə satışı formaları aid edilir [96, 100]:

- pərakəndə ticarət şəbəkələrindən əhaliyə istehlak mallarının satışı;
- ictimai iaşə şəbəkəsindən əhaliyə məhsul satışı;
- anbarlardan, tədarük məntəqələrindən bilavasitə şəxsi istehlak üçün məhsulların satışı;
- fərdi tikiş müəssisələrindən, həmin müəssisələrin materiallarından paltar və digər geyim əşyalarının satışı;
- dərman məhsullarının satışı.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq iqtisadi islahatların mühüm şərtlərindən biri də əhalini ərzaqla təmin etməkdən ibarətdir. Müstəqil dövlətçiliyimizi qoruyub saxlamaq, onun müdafiə qüdrətini gücləndirmək, elm və mədəniyyətimizi inkişaf etdirmək, dünya dövlətləri səviyyəsinə çatdırmaq üçün xalqımızın maddi rifahmı yaxşılaşdırmaq məqsədilə əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək əsas şərtlərdən biridir [109, 119].

Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının tarazlığını qoruyub saxlamaqla daxili istehsalı inkişaf etdirmək zəruri şərt kimi həmişə ön plana çəkilməlidir. Bu baxımdan istehlak bazarının səmərəli şəkildə fəaliyyət göstərməsi və onun xarici rəqabətin əlverişsiz təsirlərindən qorunması mühüm əhəmiyyət kəsb edir. İstehlak bazarının ən mühüm seqmentlərindən birini ərzaq bazarı təşkil etdiyindən problemin uğurlu həlli üçün bütün ərzaq məhsullarını, o cümlədən taxıl istehsalının növbəti məhsul çıxanadək tələbatını təmin etmək və adambaşına taxıl istehsalı fizioloji normaya çatdırılmalıdır. Geniş ər-

zaq potensialına malik olan respublikamız hələlik ərzaq məhsullarına, o cümlədən çörəyə olan tələbatını daxili istehsal hesabına ödəyə bilmir. Ölkəmizdə ət və ət məhsulları, süd və süd məhsulları alıcılıq tələbatının 70%-i idxal hesabına ödənilir. Odur ki, ölkəmizin idxaldan asılılığının azaldılması və ərzaq tələbatının təmin edilməsi istehlak bazarının səmərəli şəkildə fəaliyyət göstərməsinə istiqamətlənən tədbirlərin həyata keçirilməsindən bilavasitə asılıdır.

Respublikada ərzaq kompleksinin inkişafı təkcə aqrar bölmədə deyil, həm də emal sənayesində, ticarətdə əmək məhsuldarlığının yüksəldilməsindən bilavasitə asılıdır. Ölkəmizdə ərzaq probleminin uğurlu həlli taxıl, ət, süd və digər yeyinti məhsullarını idxal etməklə deyil, istehsalda yeni texnologiyanın tətbiqi ilə mümkündür.

Əhaliyə sutka ərzində optimal həyat fəaliyyətinin təmin edilməsi üçün 2500-3500 kilokalori enerji tələb olunur. Minimum həyat fəaliyyətinin təmin edilməsi üçün isə sutkada 1500-2500 kilokalori kifayət edir. Ərzaq istehlakı sutkada 1000-1500 kilokaloriyə düşdükdə insanın yaşaması üçün böhranlı vəziyyət yaranır. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, əhalinin ərzaq istehlakı fizioloji normalara uyğun gəlmədikdə, onların həyat fəaliyyəti zəifləyir. Bunun qarşısını almaq üçün qida rasionunu işləyib hazırlayarkən aşağıdakılar nəzərə alınmalıdır:

- ümumi qidanın malik olduğu kalorinin miqdarı;
- qida tərkibində olan zülal, yağ, mineral maddə və vitaminlərin miqdarı;
- təhlükəli məhsulların qida rasionundan çıxarılması;
- əhalinin sağlamlığına təsir göstərən iqlim və ekoloji zəhərləyici maddələrin çıxarılması;
- alkoqol və narkotik maddələr istehsalını sıxışdırılıb aradan qaldırmaqla kömək edən amillər.

Azərbaycanda islahatların daha da dərinləşməsi dövlətin iqtisadi siyasətində mühüm rol oynayır. Bazar iqtisadiyyatı

şəraitində islahatları müvəffəqiyyətlə aparan respublikamız müstəqil iqtisadiyyatın möhkəm və güclü təməlini qoymuşdur. Bu sahədə istehlak malları bazarının formalaşması əhalinin tələbinin ödənilməsində mühüm vasitə olmaqla, bazar iqtisadiyyatından və iqtisadi islahatlardan çox asılıdır.

## 6.3. İstehlakçılar və istehlak malları bazarının əlaqəsi

İstehlak malları bazarının öyrənilməsi üçün ən əvvəl istehlakçının özünün tələbini, onun psixologiyasını, hazırkı şəraitdə hansı mallara və çeşidlərə üstünlük verdiyini, əmtəələrin seçilməsi zamanı hansı sosial-psixoloji və iqtisadi amillərə əsaslandığını öyrənmək, dəqiqləşdirmək lazımdır. Bu isə müəyyən metodika əsasında işlənilən informasiya bazasının olmasını tələb edir. Hazırda iqtisadiyyatın təşkilati-hüquqi infrastrukturunun inkişafı, biznesin və kommersiya mədəniyyətinin tərəqqisi ilə əlaqədar olaraq P.Samuelsonun qeyd etdiyi kimi, bazar müəyyənləşmiş struktur olmaqla, əmtəələrin qiymətini və miqdarını müəyyən etmək üçün satıcılar və alıcılar bir-birinə qarşılıqlı təsir edirlər [142].

Satılan malların mülkiyyətçi (*sahibkar*) istifadəçiləri və sərəncamçıları, (*ikincilər pul vəsaitlərinin mülkiyyətçiləri*) olmalıdırlar. Bu halda bazar mexanizmi təsərrüfat əlaqələrinin müdiriyyət tərəfindən məhsulun təyinatının qabaqcadan ayrılmayan, yəni sərbəst partnyor seçimi əsasında həyata keçirilən hər hansı forması vasitəsi ilə fəaliyyət göstərir.

İlk baxışda istehlakçı dedikdə, onu «alıcı» ilə eyniləşdirmək düzgün görünür; lakin əslində bu dəqiqsizlik olardı. Doğrudur, alıcı məhz öz istehlakını nəzərdə tutur, hər bir istehlakçı isə əvvəlcə alıcı kimi çıxış etməlidir. Lakin dəqiq nəzəri və məntiqi fikrə əsaslansaq, istehlakçının daim alıcı kimi çıxış edəcəyinin bir zərurət olduğunu söyləmək olmaz: istehlakçı vasitəçi alıcılardan da istifadə edə bilər, alıcı isə istehsalçı və istehlakçı arasında vasitəçi də ola bilər. Digər tərəfdən, alınan

malın dərhal zəruri olaraq istehlak olunacağını da söyləmək olmaz, çünki mal bir ehtiyat kimi saxlanıla, sonra yenidən satıla bilər. Bazar iqtisadiyyatı sisteminə keçməklə bu xüsusiyyət daha da güclənmişdir. Deməli, alıcı və istehlakçını nəzəri cəhətdən eyniləşdirmək olmaz, onlar arasında müəyyən fərqlər, «pillələr» ola bilər. Lakin hər bir istehlakdan əvvəl (*əmtəə təsərrüfatı şəraitində*) alqı-satqı (*alıcılıq fəaliyyəti*) gəldiyinə görə, bunlara sadəlik xatirinə təqribən eyni kontragent kimi yanaşmaq olar. Beləliklə, müxtəlif iqtisadi kateqoriyalar olsalar da, daha geniş anlayış olan «istehlakçı» kateqoriyasına müəyyən mənada «alıcı» kateqoriyası kimi, yanaşmaq olar, onları bir-birinin əvəzləyicisi kimi də qəbul etmək olar. Bununla bərabər «istehlakçı» kateqoriyası ilə «istehlak malları bazarı» arasındakı ciddi fərqi də nəzərdən qaçırmaq olmaz. Belə ki, istehlakçı tək bir fərdə də aid ola bildiyindən, o nisbətən dar bir fərdi tələbatı göstərə bildiyi halda istehlak bazarı geniş, kütləvi, xarakterik olan ictimai tələbatı göstərir. İstehlakçıların tələbatı istehlak malları bazarındakı ayrı-ayrı seqmentlərə aid olmaqla, bu seqmentlərə dair əmtəələrin çeşidini və keyfiyyətini, istehlak bazarı isə onların bütövlüyünü göstərir. Əlbəttə, istehlakçıları, istehlak bazarının məcmu iştirakçıları kimi götürsək, onda söhbət fərdlərdən yox, bütövlükdə, ictimai tələbatdan gedərdi [128, 145, 146].

İstehlakçını və istehlak malları bazarını təkcə keyfiyyət cəhətdən yox, həm də öz ölçülərinə görə fərqlənən iqtisadi kateqoriyalar kimi götürdükdə, onların tədqiq edilməsi üçün lazım gələn informasiyalar da öz keyfiyyətinə və həcminə görə bir-birindən fərqlənərlər. İstehlakçının tələbi əmtəələrin istehlak xassələrinə və çeşidinə münasibət göstərməklə obyektiv (*yəni təklif olunan çeşid, qiymət, istehlak şəraitinin olması və s.),* həm də subyektiv amillərin (*başqa sözlə istehlakçının adət və vərdişləri, yaxın adamların məsləhətləri və s.-nin*) təsiri altında formalaşır. İstehlak malları bazarını xarakterizə edən bu göstərilənlər öz əksini ictimai fikirdə (*rəydə*), onun həyata keçiril-

məsinin konkret faktlarında (*malların həvəslə alınması və ya alınmamasında, alınmış malların keyfiyyətindən narazılıq edilməsində və s.*) tapır. İstehlakçıların rəyində subyektiv (*psixoloji*) amillərin təsiri obyektiv amillərə nisbətən daha güclü olduğu halda istehlak bazarının formalaşmasında məhz bu sonuncuların (*yəni obyektiv amillərin mövcud sosial-iqtisadi şəraitin milli xüsusiyyətləri və s.*) təsiri daha güclü olur [150].

Hələ qərarların qəbulu haqda nəzəriyyənin yaranmasına qədər iqtisadiyyat elmi nəzərdə tutulmuş fəaliyyətlərin hesabatına və proqnozlaşdırılmasına əsaslandırılmış təsərrüfatın məqsədəuyğun aparılması haqda məsələ qarşıya qoymuşdur. Klassik siyasi iqtisadiyyatın ilkin zəminləri müəyyən ölçüdə, hətta A.Smitin yaxın olduğu şotland fəlsəfi məktəbinin konsepsiyası çərçivəsində formalaşmış individlərin məqsədəuyğun aparılması haqda təsəvvürlərin təsiri nəticəsində yaranmışdır. Bu etik məktəb məqsədəuyğun hərəkətin fərdi konsepsiyasını irəli sürmüşdür. Utilitarlar (*mənfəətpərəst*) kimi onun davamçıları da insanların əməl və fəaliyyətlərini hansısa qabaqcadan hasil olunmuş yanlış fikrə əsaslanmış əxlaqi prinsiplərə görə qiymətləndirməkdən imtina etdilər və onları sonda əldə etdikləri nəticə və səbəblərə görə mühakimə edirdilər. Smit özünün fundamental olan «Xalqların sərvətlərinin səbəbləri və təbiəti haqda tədqiqat (*1776-cı il*)» adlı əsərində iqtisadi hadisə və prosesləri izah edərkən məhz bu cür fərdi yanaşmadan istifadə etmişdi. «Hər bir ayrıca adam, - deyə o, qeyd etmişdir ki, yalnız şəxsi marağını nəzərdə tutur, yalnız şəxsi mənfəətini güdür, özü də bu halda o, «görünməz əli» ilə onun öz fikrinə (*arzusuna*) daxil olmayan məqsədinə tərəf yönəlmişdir. O, öz şəxsi maraqlarını güdərkən adətən daha fəal şəkildə cəmiyyətin maraqlarına xidmət edir, nəinki o, bunu cəmiyyətə bilə-bilə xidmət etməyə çalışırdı» [147]. Mahiyyətcə, A.Smitin uyğun metaforik əl adlandırdığı şey tələb və təklif arasında müvazinət yaradan və qiymətləri tənzimləyən bazar mexanizmidir. Belə müvazinət və nizam-intizam, müasir özü-

nütəşkiletmə nəzəriyyəsinə əsasən, bazar mübadiləsində iştirak edən böyük miqdarda alıcı və satıcıların qarşılıqlı təsiri nəticəsində yaranır. Mövcud nəzəriyyədə individin gəlirini maksimallaşdıran hərəkəti məqsədəuyğun hesab olunur. A.Smitin və digər siyasi iqtisad klassiklərinin inamına görə, bu, bütün cəmiyyətin zənginləşməsinin və firavanlığının güclənməsinə gətirib çıxarmalıdır. Lakin bu zaman bütün diqqət individin fəaliyyətinin optimallaşdırılmasına yönəlir, yəni minimal məsrəflərlə maksimal gəlirin əldə edilməsi nəzərdə tutulur. Ona görə də klassik və xüsusilə neoklassik nəzəriyyələr bütün mümkün qərarları ədalətlə tədqiq etməyə və həcmi əsaslandırmağa çalışmışdırlar. Lakin bu zaman tez-tez individin, qrupların və ya təşkilatın hərəkətinə təsir edə biləcək daxili amillərin məzmunlu müzakirəsi istisna edilirdi. Baxmayaraq ki, A.Smit özü mübadilə prosesində cəmiyyət institutlarının və qanunlarının rolunu aydın dərk edirdi, lakin onun davamçıları bunlara xüsusi diqqət yetirirdilər [147, 150].

Klassik nəzəriyyə 1929-1933-cü illərin Böyük depressiyasından sonra köklü araşdırmaya məruz qaldı, lakin seçimin məqsədəuyğun modelinin əsasında iştirak edən bazis prinsipləri dəyişməz qaldılar. Onlara, birinci növbədə, metodoloji fərdiyyətçilik prinsipi daxildir. Bu prinsipə əsasən cəmiyyətin iqtisadi həyatında həlledici rol oynamaq yalnız individlərə aid edilir. Sosial institutlar və strukturlar isə ikinci dərəcəli hesab olunurlar. Çünki onlar mövcud fəaliyyət göstərən individlər tərəfindən yaradılır və dəyişdirilir. Ona görə də heç kəs individlərə hər hansı bir məqsədlərini və maraqlarını zorla qəbul etdirə bilmir. Bununla bərabər, çoxəsrlik tarix boyu cəmiyyətin inkişafına teleoloji baxış üstünlük təşkil etmişdi. Bu baxışa əsasən, o, əvvəllər kiminsə qarşısına qoyduğu daxili məqsədlər və ya fikirləşib tapdığı ideyalara əsaslanaraq inkişaf edir. Nobel mükafatı laureatı Ç.Byukenen öz məruzəsində göstərmişdir ki, «Bu cür yanlış şərhin əsasında belə bir yanlış fikir dururdu ki, bu fikrə görə

insanlar, hətta müəyyən məhdudiyyət daxilində seçim edərkən hər hansısa bir kənardan qoyulmuş məqsədlər olmadan onlar üçün lazımi nəticələrə nail olurlar» [187-12].

Həqiqətən, hər bir individ və ya təsərrüfatçılıqla məşğul olan subyekt, ilk növbədə, öz şəxsi maraqlarını yaradır, hərəkətin mümkün alternativlərini müəyyənləşdirir, onları birincilik dərəcəsinə görə növbələşdirir. İkincisi, tələb olunur ki, individ bütün şərtlər daxilində özünü məqsədəuyğun aparsın, yəni hər hansı formada olursa olsun, maksimal mənfəətə nail olmağa çalışsın. Bu prinsipə əsasən individin real hərəkəti hər hansı yüksək ideyalara, cəmiyyət maraqlarına deyil, öz mənfəətinin və ya maraqlarının maksimallaşdırılmasına olan xüsusi cəhdə təsir göstərir. Əgər o, hətta altruizm baxışlarını təntənə ilə bildirirsə, onda belə hərəkət onun üçün nəyə görə isə mənfəətli hesab olunur. O, qrup çərçivəsində fəaliyyət göstərərək, qrupun maraqlarından çox öz şəxsi maraqlarının fikrini çəkir. Üçüncüsü, səmərəliliklə individin optimal davranışı bilavasitə əlaqədardır. Dördüncüsü, nə qədər ki, məqsədəuyğun fəaliyyət göstərən individə cəmiyyətdə başqa individlərlə qarşılıqlı təsirdə olmaq lazım gəlir, o qədər də o, bu cür qaydalara və ya müəyyən qanunlara əməl etməlidir. Deməli, onun məqsədəuyğun seçimi belə qayda-qanunların məcmusundan asılıdır. Buna baxmayaraq o, digər individlərlə birlikdə onların dəyişkənliyi üzrə hər hansı fəaliyyətləri təşkil etməyə, hətta onların maraqları heç cür üst-üstə düşmədikdə belə qadirdir [128, 146].

Belə qanunların ətraflı tarixi və nəzəri tədqiqinə dair Ç.Byukenenin və Q.Brenmanın yazmış olduqları «Qanunların əsaslandırılması» kitabını göstərmək olar. Bu tədqiqat əsərində göstərilmişdir ki, bazarın əsaslandığı qaydalar insanların qarşılıqlı münasibətinin pozitiv aspektini əks etdirir. Bundan fərqli olaraq, məsələn, yol hərəkəti qaydaları əsasən neqativ xarakter daşıyır, çünki o, müəyyən hərəkətləri qadağan edir. Görünür ki, XVII əsrdə məşhur ingilis filosofu T.Hobbs tərəfindən onun «Leviafon»unda təklif edilmiş cəmiyyət qayda-

qanunları neqativ interpretasiyaya əsaslanmışdır. T.Hobbs istəyirdi ki, onların köməyi ilə «hamıya qarşı hamının müharibəsi» hökmranlıq etdiyi cəmiyyətdə qayda-qanun yaratsın. Azad ticarətin və məqsədəuyğun seçimin bütün müdafiəçiləri A.Smitdən F.Xayekə qədər fərdi seçimin və onun əsasında meydana çıxmış nizam-intizamın pozitiv xarakterini hər dəfə xüsusi ilə qeyd edirlər [187-12].

Bundan başqa, danılmaz faktlara baxmayaraq, onlar təsdiq edirlər ki, individlərin optimal seçimi son nəticədə cəmiyyətdə ümumi firavanlığa gətirib çıxarır və ona görə də bazarın (*ticarətin*) tənzimlənməsinə hökumətin müdaxilə etməsini və cəmiyyətin inkişafının sosial amillərinin nəzərə alınmasına qarşı inadla çıxış edirlər. Artıq belə təsəvvürlərin qeyri-həqiqiliyi haqda kapitalist elitanın görkəmli nümayəndələri də danışmağa başlamışlar. C.Soros yazır: «Əgər Fridrix Xayek haqlı olsa idi, həyat çox sadə olardı və ümumi maraq insanların fəaliyyətinin onların öz şəxsi maraqlarındakı, nəzərdə tutulmamış nəticəsi kimi alınardı. Belə ki bazar mexanizminin köməyi vasitəsi ilə dar şəxsi maraqların cəmləşdirilməsi öz arxası ilə qəsdən edilməyən mənfi nəticələrə gətirib çıxarır. İqtisadçılar özləri buna hələ Böyük depressiya zamanı, yaranmış vəziyyətin təhlili üçün klassik siyasi iqtisad prinsiplərinin tətbiq olunduğu bir zamanda əmin ola bilərdilər [187-12]. İlk dəfə olaraq, bunu C.Keyns başa düşmüşdür. O, qəbul etmişdi ki, hökumətin iqtisadiyyata müdaxiləsi labüddür. Bu, daha çox mərkəzləşdirilmiş hökumət tənzimlənməsində bazar təsərrüfatına keçid dövrünü yaşayan ölkələrə aid edilir. [38]. Bazarın neoklassik modelindəki kimi, məqsədəuyğun seçimin nəzəriyyəsindəki mühüm çatışmazlıqlar da məhz burada özlərini büruzə vermişdir. Azad ticarətin tərəfdarları ümid edirdilər ki, dövlət mülkiyyətinin özəl əllərə verilməsi iqtisadiyyatı böhran vəziyyətindən xilas edəcək və əhalinin həyat səviyyəsini qaldıracaq. Lakin tələsik liberallaşdırma, qabaqcadan düşünülməmiş və adətən açıq-aşkar qanun pozuntuları ilə həyata keçirilən özəl-

ləşdirmə prosesləri iqtisadiyyatdakı böhranın yalnız dərinləşməsinə, çaparaq inflyasiyaya və istehsalın azalmasına gətirib çıxardı. Buna səbəb eləcə də bazarın fəaliyyət göstərməsi üçün vacib olan uyğun sosial institutlar, qanun normaları, təşkilati qaydalar və s. şəkildə oyun qaydalarının olmasıdır [187-12]. Ölkənin konkret xüsusiyyətləri, orada yaradılmış ənənələr, mentalitet və s. nəzərə alınmamışdır. Bütün bu amillərin təsiri altında bəzi qərb iqtisadçıları tədricən metodoloji fərdiyyətçilik, məqsədəuyğun seçim və bütövlükdə belə modelin effektivliyi haqda köhnə təsəvvürləri yenidən nəzərdən keçirməyə başlayırlar. Bununla əlaqədar olaraq, məqsədəuyğun seçim nəzəriyyəsinə yeni yanaşmalar meydana çıxır. İstehlakçıların davranışının spesifik təzahür formaları (*məsələn, konkret istehlak xassələrinin qavranılması, məlumatların alınmasının obyektiv və subyektiv səbəbləri, yeni mallara münasibət və s.*) tələb və təklifin formalaşmasına, onların struktur - çeşid tarazlığının yaranmasına əsas verir.

Davranış iqtisadi nəzəriyyəsi (*vehaionral economic, psushologicah*) iqtisadiyyat elminin əsas neoklassik cərəyanına (*mainstream*) alternativ hesab olunan tədqiqat yollarından birini təşkil edir. Davranış iqtisadi nəzəriyyəsinə iqtisadiyyatın müxtəlif sahələrində (*çox zaman təşkilatların və firmaların daxilində, həmçinin məişət təsərrüfatına aid edilir*) qərarlar qəbul edilməsi prosesini təsvir edən nəzəriyyələrin məcmusunu aid etmək olar. Bununla o, prinsip etibarilə neoklassik paradiqmadan, həmçinin Avstriya məktəbindən fərqlənir. Avstriya məktəbi üçün qərar qəbul etmək prosesi deyil, onun nəticəsi vacibdir və maraqlıdır. Davranış nəzəriyyəsi iqtisadi subyektlərin real hərəkətini tədqiq etməyə çalışır ki, bu da əsas cərəyanla müqayisədə analizin səviyyəsi deməkdir. Eyni zamanda, qeyd etmək lazımdır ki, davranış nəzəriyyəsi yalnız təsvir metodları ilə məhdudlaşmır, ümumiləşdirilmiş qərar qəbul etmək modelini qurmağa çalışır. Davranış nəzəriyyəsində iqtisadi rasionallığın prezumpsiyası olmur. Tədqiqatçı real qərar qəbuletmə

prosesinin orada necə həyata keçirildiyini öyrənməli, onun qanunauyğunluqlarını aydınlaşdırmalıdır. Bu proses kifayət qədər mürəkkəb olması ilə xarakterizə olunduğundan, davranış nəzəriyyəsi nümayəndələrinin rəyinə görə, orada rasional deyil, şərti davranış hökmranlıq edir (*yəni qəbul olunmuş qaydalara və şərtlərə tabe olan*). Bəzən onu həmçinin buxeviorist adlandırırlar ki, bu da dəqiq deyildir. Çünki belə ifadə psixologiya elmindəki buxeviorizmlə asossiasiya yaradır. İqtisadiyyat elmində davranış münasibəti yalnız buxeviorizmə deyil, həmçinin digər psixoloji münasibətlərə də əsaslanır. Buradan belə nəticə çıxır ki, faydalılığın və ya mənfəətin maksimum həddə çatdırılması üçün ilkin şərtlərdən imtina etmək və onları daha real davranış ehtimalları ilə əvəz etmək lazımdır. Əlbəttə ki, davranış nəzəriyyəsi ardıcılları başa düşürlər ki, iqtisadçılar xüsusi ehtiyac olmadan ənənəvi neoklassik mikroiqtisadiyyata yenidən baxmazlar. Lakin onlar belə hesab edirlər ki, əgər maksimallaşdırma və realist modellərin öncədən söylədikləri arasında əsaslı fikir ayrılığı müşahidə olunursa, daha az dəqiq nəzəriyyə (*bunun neoklassik mikroiqtisadiyyat olacağı güman edilir*) öz yerini daha çox dəqiq olana - davranışa verməlidir [120, 139, 174, 184].

Davranış və ya, çox zaman deyildiyi kimi, psixoloji iqtisadi nəzəriyyə istehsal və digər iqtisadi fəaliyyət sahəsində yaranmış psixoloji metodlarla tədqiq edən «iqtisadi psixologiyadan» fərqlənir. Məsələn, işçinin öz iş yerində aldığı stress və ya müxtəlif növ reklamların davranılması problemləri iqtisadi psixologiyanın predmetinə aiddir. Əksinə, davranış iqtisadi nəzəriyyəsi iqtisadiyyat elminin tədqiqat predmetinə aid məsələləri öyrənir. Onun istifadə etdiyi tədqiqat metodları çox orijinaldır. Davranış nəzəriyyəsinin qurulması və onun yoxlanılması empirik tədqiqatların gedişində həyata keçirilməli olduğundan xüsusidən ümumiliyə doğru gedən induktiv metodlara xüsusi diqqət yetirilir. Davranış iqtisadi nəzəriyyəsinin tanınmış banisi Nobel mükafatı laureatı, Amerika iqtisadçısı, psixologiya

və informatika üzrə professor Herbert Saymondur. 1969-cu ildə onun «Qeyri-təbii olanlar haqqında elmlər» kitabı, 1972-ci ildə isə «İnsanlar problemləri necə həll edirlər» adlı fundamental tədqiqatı (*A.Nyubellə birlikdə*) işıq üzü görmüşdür. Neoklassik nəzəriyyəyə zidd olaraq, məhdud informasiya və hesab imkanlarına malik insan H.Saymonun rəyinə görə, müxtəlif alternativləri müqayisə etməyə imkan verəcək hərtərəfli faydalılıq funksiyası ola bilməz [186]. Ənənəvi neoklassik mikroiqtisadiyyatın subyekti optimuma nail olmaq üçün nəzərə alınması vacib olan ətraf mühitdəki istənilən, hətta ən kiçik dəyişikliyə adekvat reaksiya verməlidir. Buna görə də, onun davranışı tamamilə çevikdir və onu hətta ən qısa müddətdə tam etimadla qabaqcadan söyləmək olmaz. Real insanlar isə qeyri-müəyyənlik şəraitində maksimum etibarlı şəkildə istiqamətlənmək üçün hazır davranış qaydaları toplusuna malik olurlar. Bir sıra hallarda bu qaydalardan yayınma sərfəli ola bilərdi, lakin mühitin qeyri-müəyyənliyindən yayınma üçün düzgün an seçmək qeyri-mümkün hesab edilir. Asanlıqla anlamaq olar ki, burada söhbət H.Saymona görə qənaətbəxş variantın seçilməsindən gedir. Bu qaydalar toplusu məhdud olduğundan, bu yolun ardıcılları olan insanların qeyri-müəyyənlik şəraitində davranışını qabaqcadan söyləmək daha asandır, nəinki optimallaşdırılmış modelin təyin etdiyi fasiləsiz sıçrayışları. Azmış kimi, mürəkkəb vəziyyətlərdə qənaətbəxş seçim qaydalarına riayət etmək, qlobal optimallaşdırma cəhdlərindən daha əlverişlidir.

Mikrosəviyyədə firmanın davranışının tədqiqi ilə məşğul olan Karnegi - Mellon məktəbindən fərqli olaraq Miçiqan davranış tədqiqatları məktəbi öz diqqətini əsasən istehlakçıların makrosəviyyədə davranışına cəmləşdirmişdi [162, 187-12]. Onun nəzəri konsepsiyaları bu sahənin banisi olan macar mənşəli Amerika iqtisadçısı U.Katonanın əsərlərində yaranıb. U.Katona bütün istehlak xərclərini və əmanətlərini məcburi olana (*müqaviləli*) və qeyri-məcburi olana (*diskresion*) bölür.

Əsas nəzəri maraq doğuran, satın alınmaların (*buraya, əsasən, uzunmüddətli istifadə üçün olan malların alınması aiddir*) və əmanətlərin diskresion növləridir. Bunlara aid qərarlar nisbətən nadir hallarda qəbul edilir və buna yalnız obyektiv amillər (*gəlir, istehlak krediti üzrə faiz*) deyil, həmçinin U.Katonanın istehlaka və əmanətə (*obyektiv iqtisadi amillərin hər cür təsirinin yalnız onların vasitəsilə həyata keçirildiyini nəzər alaraq) aralıq (intermediate*) adlandırdığı psixoloji dəyişikliklər məcmusu da təsir göstərir. Bu dəyişənlərə insanın obyektiv alıcılıq qabiliyyətinin real alıcıya keçməsi üçün bütün lazım olanlar - rəylər, ümidlər, əhval-ruhiyyələr, iddialar aiddir. U.Katona və onun ardıcılları, başlıca olaraq, makroiqtisadi prosesləri izah etməyə çalışırlar [153, 187-5]. Buna görə də aralıq psixoloji dəyişənlərin vəziyyətini Miçiqan məktəbi kütləvi sorğular vasitəsilə ölçür ki, bunun da nəticəsi «İstehlak əhval-ruhiyyələri indeksini» yekunlaşdırır.

İstehlakın ənənəvi makroiqtisadi nəzəriyyəsində (*Keynsdən başlayaraq*) aralıq dəyişənlər nəzərə alınmır və istehlak xərcləri bilavasitə gəlirin, həmçinin faiz dərəcələrinin və digər «obyektiv» dəyişənlərin funksiyası kimi nəzərdən keçirilir. Katona bu növ məntiqi hər şeydən əvvəl, ona görə yolverilməz hesab edir ki, aralıq dəyişənlərə, onlar vasitəsilə isə diskresion istehlak xərclərinə yalnız iqtisadi deyil, həm də siyasi (*müharibələr, seçilmək*) və digər amillər təsir göstərir. Bundan əlavə vacibi budur ki, yalnız daxili dəyişənlərin ölçüldüyü insanın daxili vəziyyətindən onun bu və ya digər xarici amilə necə qiymət verəcəyi asılıdır. Optimizmin və pessimizmin kütləvi dalğası sanki istehlakçıları şüurlu hesablamalara zidd olaraq hərəkət etməyə sövq edir. Nəticədə, mallara istehlak xərclərinin özünü aydın büruzə verən dövri dəyişmələri yaranır. Miçiqan məktəbi üçün də tədqiqatların empirik yönümü xarakterikdir. İstehlak meyli haqqında məlumatlardan proqnozlaşdırmada (*o cümlədən ABŞ və bir çox ölkələrdə Milli iqtisadi tədqiqatlar bürosunun dövri indikatorlar sistemində*)

istifadə olunur [73, 106, 174]. Məcmu istehlakçı olan əhalinin müxtəlif təbəqələrinin tələbi ümumi istehlak tələbinin hissələri - seqmentləri kimi çıxış edir. Bu sahədə işin sürətlə gedə bilməsinin mühüm şərtlərindən biri alıcıların rəy və arzularını müntəzəm surətdə nəzərə almaq əsasında malların çeşidini və keyfiyyətini təkmilləşdirməkdən ibarətdir. Təəssüf ki, bu haqda çox danışılsa da, o hələ də lazımi dərəcədə reallaşdırılıb həyata keçirilmir. Bu işin qaydaya salınması hər il əhalinin müxtəlif alıcı qrupları üzrə rəy sorğularının keçirilməsi, əmtəələrin istehsalının həcminin, çeşidinin və keyfiyyətinin isə bu sorğular nəticəsində alınan məlumatlar əsasında müəyyənləşdirilməsindən ibarətdir. Bu, istehlakçının, onun tələblərinin öyrənilməsinin və nəzərə alınmasının ən əlverişli formalarındandır. 1990-cı illərdə bu məqsədlə əhali arasında hər il 5 minə qədər sorğular keçirilirsə də, bunların tam nəzərə alınması üçün təcrübə o qədər də çatmırdı. Hazırda isə belə məqsədyönlü sorğuların keçirilməsi, istehsalı istehlakçıların tələbi əsasında qurmağa və beləliklə də istehlak bazarını tam səmərəliləşdirməyə geniş imkanlar yaratmışdır [187-5].

İstehlak bazarı dövlət və özəl ticarət formalarının, yerli və xarici firma, mağazalarının, xırda istehsalçıların, şəxsi mağazalarının, əmtəə birjalarının və s. mövcudluğu şəraitində fəaliyyət göstərir. Məhz bu baxımdan istehlak bazarının tərkib hissəsi kimi ərzaq bazarı nəzərdən keçirilməli və onun fəaliyyət xüsusiyyəti baxımından tədqiq edilməlidir.

Bazar münasibətləri sistemində əmtəə istehsalçıları arasında sərbəst iqtisadi əlaqələr olmadan səmərəli istehsal yaratmaq mümkün deyildir. İctimai təkrar istehsalın səmərəliliyini təmin edən proporsiyaların formalaşması, bazar münasibəti qanunlarından heç biri ayrılıqda fəaliyyət göstərə bilməz. Yalnız onların birgə fəaliyyəti bazar mexanizmini ifadə edir. Bazar koordinasiyası qanunu pul dövriyyəsi qanunları ilə sıx əlaqədədir. Azad bazar münasibətləri inkişaf edən iqtisadi sistemlərə inflyasiya xasdır. Bununla belə, həmin bazar mexanizmi

dövlətə inflyasiyanı tənzimləmək üçün yollar axtarmaq və vaxtında tədbirlər görməyə imkan verir, onu aşkara çıxarır. İnzibati idarəetmə sistemində inflyasiya «planlı» mexanizmlə sıxışdırılaraq onu müvəqqəti təxirə salır. Lakin burada özünə təkcə qiymətlərin sürüşkən artımı formasında deyil, həm də malların defisiti formasıda yol açır [176].

Əmtəə istehsalçılarının bazarla qarşılıqlı münasibətləri şəxsi mülkiyyətin olmasına əsaslanır. Təkrar istehsal prosesinin hərəkəti onun iştirakçılarını, cəmiyyət üzvlərinin rifahını, iqtisadi inkişaf səviyyəsini yüksəldərək, sürətlə gedir. Əks təqdirdə böhran baş verir ki, bu səbəbdən cəmiyyət və onun üzvləri itkilər verir. Bununla belə, bazar qanunları üzrə inkişaf edən sistem tədricən özünü tənzimləyərək bərpa olur. Real həyatda özünü bərpa prosesi heç də sadə deyil, çox vaxt o, əhalinin yaşayış səviyyəsi və iqtisadi inkişafının pisləşməsinə, dərin daxili sosial və siyasi sarsıntılara səbəb olur.

Bazar iqtisadiyyatı inkişaf etdikcə bu və ya digər tənzimləyici metod və üsulların tətbiq edilmə təcrübəsi də bir o qədər yaxşı nəticə verir. Onların tətbiqinə, nəticələrinin proqnozlaşdırılmasına şərait yaranır. Bu, iqtisadiyyatın təkcə müəssisələrdə deyil, həm də dövlət səviyyəsində elmi cəhətdən əsaslanmış tənzimlənməsini tələb edir.

İstehlak bazarının öyrənilməsi bir sıra metodoloji prinsiplərə əsaslanır. Əvvəla, o bütün başqa mübadilə sahələri kimi ictimai təkrar istehsalın digər mərhələləri ilə dialektik qarşılıqlı əlaqə şəraitində öyrənilir və təhlil olunur. Bu zaman istər bazardaxili, istərsə də bazar prosesinin xarici amilləri (*məs, xammal, təchizat, istehsal texnologiyasının, planlaşdırma sisteminin mükəmməlliyi və s.*) birlikdə həmin amillərin qarşılıqlı təsiri nəzərə alınmaqla öyrənilməli, təhlil olunmalıdır. Digər mühüm metodoloji prinsip bazarın öyrənilməsi zamanı onun bütün struktur elementlərinin və bunların qarşılıqlı təsirlərinin nəzərə alınmasından ibarətdir. Bəzi hallarda tədqiqatçılar bazarın tərkib hissələrinin (*tələbin proqnozlaşdırılması, istehlak*

*tələblərinin, niyyətlərinin, qiymətlərin öyrənilməsi, konyunktura müşahidələri və s.*) qarşılıqlı əlaqəli təsirini nəzərə almır, hətta səhv olaraq istehlak prosesinin (*istehlak malları ilə təminat, onlardan istifadənin intensivliyi, xidmət müddətləri və s.*) öyrənilməsi işinə az fikir verirlər. Bu isə bazarın öyrənilməsində komplekslik prinsipinin pozulması olduğundan səhv nəticələrə gətirir.

Biz istehlak, o cümlədən ərzaq malları istehlakı bazarının öyrənilməsi zamanı bir sıra iqtisadçıların qəbul etdikləri aşağıdakı məsələlərin həll edilməsinin zəruriliyini düzgün hesab edirik [1, 22, 142]:

a) istehlak malları bazarının, o cümlədən ərzaq mallarının onun öz ünsürlərinə və bu ünsürlərin qarşılıqlı əlaqəsinə təsirinin öyrənilməsi, məhz bunun sayəsində tələb və təklifin real həcmi, strukturu, onların tarazlıq dərəcəsi haqqında düzgün bilik əldə etmək olar;

b) bazarın tərkib ünsürlərinin vəziyyətinin, bu vəziyyətin qarşıya qoyduğu problemlərin xarakterinin və proseslərinin intensivliyinin qiymətləndirilməsi. Bunun nəticəsində bazara dair səbəb-nəticə əlaqələri, bazarın fəaliyyət mexanizmi, onun bu və ya digər vəziyyətinin səbəbləri, onun qarşısına qoyduğu problemləri və s. haqqında düzgün qərara gəlməyə imkan verir;

c) bazardakı inkişaf prosesləri, bazar ünsürlərinin gələcək vəziyyətinin proqnozlaşdırılması, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma üsulları və bazarın öyrənilməsinin əvvəl göstərdiyimiz iki komponentinin təhlil edilərək qiymətləndirilməsi, bazarın gələcək vəziyyətini müəyyənləşdirməyə imkan verir.

Bazarın öyrənilməsində rəhbər tutulmalı mühüm metodoloji prinsiplərdən biri də onun mühafizəkar yolla və problematik üslubda, yəni məqsədyönlü şəkildə öyrənilməsinin bir-biri ilə əlaqələndirilməsi zərurətidir. Bu metodoloji prinsip vasitəsilə bir tərəfdən yaranmış plan-kommersiya işi praktikasının

müəyyən etdiyi daimi (*standart*) idarəetmə vəzifələri ilə, digər tərəfdən isə yeni meydana çıxan (*mümkün olan*), xüsusi (*qeyri-standart*) qərarlar qəbulu tələb edən problemin yaratdığı vəzifələr əsas götürülür və hər iki tərəfin tələblərinin sintezinin yeni şəraitdə hansı formadakı tətbiqindən istifadənin daha əlverişli olduğu müəyyənləşdirilir. Əvvəlinci halda adətən olduğu qaydada həll olunan, nisbətən sabit (*əvvəllər olduğu kimi*) informasiya axınları tələb edən vəzifələr üstünlük təşkil edir. Buna ticarətdəki malların çeşidini artırmaq və ticarətin yeni təşkili üsullarını tətbiq etmək, mövcud standartlarla yeniliklərin birləşdirilməsi metodunu misal göstərmək olar. İstehlak malları istehsal edən sənaye müəssisələrinə tələbnamələr və sifarişlər verilməsi, onlar tərəfindən istehsal proqramları, ticarət tərəfindən isə əmtəə dövriyyəsi və onun lazımi əmtəələrlə təmin edilməsi planlarının hazırlanması, topdansatış yarmarkaları keçirilməsi və s. də belə vəzifələrdəndir.

İstehlak malları bazarının öyrənilməsi dedikdə isə, onun tələb və təklifin tarazlaşdırılması problemlərinin öyrənilməsinə yönəldiyini, problemlilik, kompleksliik, sistemlilik, elmilik kimi əsas metodoloji prinsiplərə əsaslanmasını xüsusi olaraq qeyd etməliyik.

## 6.4. İstehlak bazarının mövcud vəziyyətinin təhlili

İstehlak malları bazarı alqı-satqı prosesinin son mərhələsi olduğundan, yəni bilavasitə istehsal olunmuş malların realizasiyası, satışı ilə məşğul olduğundan, yeni iqtisadi metoda keçdikdə, bu sahədə də əsaslı dəyişikliklər baş verir. Ona görə də istehlak malları bazarının formalaşması, onun müasir vəziyyəti və qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Son illər ölkəmizdə həyata keçirilən uğurlu islahatlar nəticəsində istehlak bazarında yerli istehsalın xüsusi çəkisi yüksəlməyə başlamışdır. Belə ki, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları (*2004-2008-c*

*və 2009-2013-cüi illər*)» iqtisadiyyatın sahə və ərazi kəsimlərinin dinamik inkişafına əlverişli şərait yaratmışdır. Proqramın qəbul edilməsi iqtisadiyyatın sahə və ərazi sektorlarında yaranmış disproporsiyaların aradan qaldırılmasına istiqamətlənmişdir. Burada qeyd edildiyi kimi, Azərbaycan Respublikası XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermişdir. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqilliyin ilk illərində ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır. Ölkədə ardıcıl aparılan islahatlar 1990-cı illərin birinci yarısında iqtisadiyyatda mövcud geriləməni dayandırmış və yeni inkişaf mərhələsinə keçidi təmin etmişdir [23, 187-1-4].

Həyata keçirilən siyasət çox qısa bir zaman ərzində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur: inflyasiya cilovlanmış (*1996-cı ildən başlayaraq Azərbaycanda inflyasiyanın səviyyəsi 2-3%-dən yuxarı qalxmır*), büdcə kəsiri ümumi daxili məhsulun 1-2%-i səviyyəsinə endirilmiş, 1996-cı ildə, makroiqtisadi sabitliyə nail olunmuş, 1997-ci ildən başlayaraq isə dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur. 1996-cı ildə ümumi daxili məhsulun artım sürəti 1,3%, 1997-ci ildə 5,8%, 1998-2003-cü illərdə isə orta hesabla 10,0% təşkil etmişdir. 2009-cu ilin 6 ayı ərzində isə bu rəqəm 10,0%-dən də aşağı həddə düşmüşdür [33, 34, 46, 89, 187-5].

Azərbaycan Respublikasında aparılan ardıcıl və sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması yolu ilə iqtisadiyyatı inkişaf etdirmək və əhalinin güzəranını yaxşılaşdırmaq olmuşdur. Azərbaycan iqtisadiyyatı ölkə prezidenti, cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə daha da möhkəmlənmiş, respublikamızın

regionda və dünyada nüfuzu daha da artmışdır. Respublikada 2003-2008-ci illərdə sənaye istehsalı 3,7 dəfə, investisiyalar 2,4 dəfə, strateji valyuta ehtiyatları 9,8 dəfə, ümumu daxili məhsulda qeyri-neft sektorunun payı 1,7 dəfə, bu sahəyə yönəldilən investisiyalar 6,2 dəfə, qeyri-neft məhsullarının ixracı 2,2 dəfə, orta aylıq əmək haqqı 2,7 dəfə, pensiyaların orta aylıq məbləği 4 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 13,2 faizə enmişdir. Təsadüfi deyil ki, aparılan islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmiş və 2008-ci ildə Dünya Bankı Azərbaycanı ən islahatçı ölkə elan etmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, «İndi ölkəmiz çox etibarlı tərəfdaş kimi tanınır. Daxildə hökm sürən sabitlik, vətəndaş həmrəyliyi, xalqla iqtidar arasında olan birlik və daxili proseslərin müsbət istiqamətdə inkişafı, əlbəttə ki, Azərbaycanın beynəlxalq mövqelərini də möhkəmləndiribdir. Eyni zamanda, beynəlxalq mövqelər Azərbaycan üçün yeni əlavə şəraitin yaradılmasına gətirib çıxarır» [57, 93, 187-4].

Qazanılan nailiyyətlərlə yanaşı ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də bir sıra həll edilməmiş problemlər qalmaqdadır. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhərində yerləşməsi və eyni zamanda, regionlarda olan bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətinin zəifləməsi və ya tamamilə dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmişdir. Bu amillər öz növbəsində iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmiş, regionların inkişafı arasında fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına səbəb olmuşdur. Azərbaycan Respublikası regionlarının inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılmasını tələb

edir. Bunları nəzərə alaraq hazırlanmış respublika regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları üzrə mühüm tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Ölkədə aparılan regional sosial-iqtisadi inkişaf siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır. Bunları təmin etmək üçün isə ölkədə müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq, yerli resurslardan istifadənin səmərəsini artırmaq, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək, aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək, yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək və əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq kimi mühüm dövlət vəzifələri qarşıya qoyulmuş və uğurla reallaşdırılmaqdadır [33-35, 187-7].

Son illər dünya bazarında baş verən davamlı konyunktur dalğalanmaları ölkəmizin daxili istehlak bazarına da öz təsirini göstərmişdir. Lakin bununla belə, iqtisadi islahatların dönməz mərhələyə qədəm qoyması, eləcə də sosial-iqtisadi proseslərə dövlətin müdaxilə imkanlarının genişlənməsi istehlak bazarına xarici mənbədən olan təhdidlərin effektiv şəkildə neytrallaşdırılmasına imkan verir. Fikrimizcə, gələcəkdə də bu tendensi-

yanın davam etdirilməsi nəticə etibarilə ölkənin dinamik sosial-iqtisadi inkişafının təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır. Əlavə 5-də Azərbaycanda 1995-2007-ci illərdə istehlak bazarının əsas iqtisadi göstəriciləri əksini tapmışdır. Əlavə 5-də verilən cədvəl məlumatlarından göründüyü kimi, istehlak bazarında son illər iqtisadi göstəricilərin səviyyəsinin yüksəlməsi müşahidə edilməkdədir. Belə ki, 2007-ci ildə satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi 7591,4 mln. manat təşkil etmişdir ki, bu da 1995-ci ildən 7,2 dəfə, 2000-ci illə müqayisədə 3,6 dəfə, əvvəlki illə müqayisədə isə 1,3 dəfə yüksəkdir.

Araşdırmalar göstərir ki, mülkiyyət münasibətlərinin yenidən qurulması kənd təsərrüfatında və emal sənayesində fiziki şəxs statuslu ailə təsərrüfatlarının xüsusi çəkisinin yüksəlməsi istehlak bazarına öz təsirini göstərmişdir. Belə ki, satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsinin strukturunda fiziki şəxslərin xüsusi çəkisi 1995-ci ildə 68,4% təşkil etmişdirsə, 2007-ci ildə bu göstərici 83,7%-ə bərabər olmuşdur. Satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsinin strukturunda hüquqi şəxslərin xüsusi çəkisi 1995-ci ildə 31,6% təşkil etdiyi halda 2007-ci ildə bu göstərici 16,3%-ə bərabər olmuşdur. Hüquqi şəxslərin əmtəə dövriyyəsi 1995-ci illə müqayisədə 3,7 dəfə, 2000-ci illə müqayisədə 2,1 dəfə, 2006-cı illə müqayisədə 1,2 dəfə artdığı halda, fiziki şəxslərin əmtəə dövriyyəsi müvafiq olaraq 8,8 dəfə; 4,2 dəfə; 1,3 dəfə yüksəlmişdir [10]. Təhlil göstərir ki, fiziki şəxslərin əmtəə dövriyyəsində yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarı da önəmli rol oynamışdır. Belə ki, fiziki şəxslərin əmtəə dövriyyəsinin strukturunda yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarının xüsusi çəkisi 1995-ci ildə 100%, 2000-ci ildə 53,8%, 2005-ci ildə 57,7%, 2007-ci ildə isə 56,2% təşkil etmişdir. Yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarının əmtəə dövriyyəsi 1995-ci illə müqayisədə 4,9 dəfə, 2000-ci illə müqayisədə 4,4 dəfə, 2006-cı illə müqayisədə isə 1,3 dəfə yük-

səlmişdir. Müqayisə olunan dövrdə ictimai iaşənin əmtəə dövriyyəsi də artmışdır. Bu artım 1995-ci illə müqayisədə 15,2 dəfə, 2000-ci illə müqayisədə 9,1 dəfə, 2006-cı illə müqayisədə isə 1,6 dəfə təşkil etmişdir. 2007-ci ildə adambaşına düşən əmtəə dövriyyəsinin ümumi həcmi 897,2 manat təşkil etmişdir ki, bu da müqayisə olunan dövrlərdə müvafiq olaraq 6,4, 3,4 və 1,3 dəfə yüksək olmuşdur.

Əlavə 5-də əksini tapan cədvəl məlumatlarından göründüyü kimi, pərakəndə əmtəə dövriyyəsinin ümumi strukturunda ərzaq məhsullarının xüsusi çəkisi yüksək olaraq qalmaqdadır. Belə ki, 1995-ci ildə bu göstərici 75%, 2000-ci ildə 68,2%, 2005-ci ildə 65,7%, 2007-ci ildə 64,8% təşkil etmişdir. Ərzaq məhsullarının pərakəndə əmtəə dövriyyəsinin həcmi 1995-ci illə müqayisədə 6,2 dəfə, 2000-ci illə müqayisədə 3,4 dəfə, 2006-cı illə müqayisədə isə 1,3 dəfə artaraq 4922,8 milyon manata çatmışdır. Müqayisə olunan dövrdə pərakəndə əmtəə dövriyyəsinin ümumi strukturunda qeyri-ərzaq məhsullarının xüsusi çəkisi nisbətən aşağı olsa da, son illər bu göstəricinin artımı da müşahidə olunmaqdadır. Belə ki, 1995-ci illə müqayisədə bu artım 10,1 dəfə, 2000-ci illə müqayisədə 4,0 dəfə, 2006-cı illə müqayisədə isə 1,3 dəfə təşkil etmişdir. Qeyd etmək lazımdır ki, istehlak bazarının əsas iqtisadi göstəricisi olan pərakəndə əmtəə dövriyyəsinin artımı topdansatış əmtəə dövriyyəsinin yüksəlməsi ilə də müşahidə edilmişdir [10, 187-5].

İstehlak bazarında əmtəə dövriyyəsi ərzaq və qeyri-ərzaq məhsulları təyinatlı olmaqla əhalinin ehtiyaclarının ödənilməsinə xidmət edir. Əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisinin yüksək olması nəticə etibarilə əhalinin pul gəlirlərinin xeyli hissəsinin ərzaq məhsullarına xərclənməsini özündə əks etdirir.

Aşağıdakı cədvəldə Azərbaycan Respublikasında istehlak bazarının əmtəə dövriyyəsinin strukturu öz əksini tapmışdır.

*Cədvəl 6.1*

**Adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturu**

| İllər | Adambaşına pərakəndə əmtəə dövriyyəsi | o cümlədən | |
|---|---|---|---|
| | | Ərzaq məhsulları | Qeyri-ərzaq məhsulları |
| **1950** | 100 | 57,5 | 42,5 |
| **1960** | 100 | 50,9 | 49,1 |
| **1970** | 100 | 52,4 | 47,6 |
| **1980** | 100 | 46,6 | 53,4 |
| **1990** | 100 | 46,8 | 53,2 |
| **1991** | 100 | 50,2 | 49,8 |
| **1992** | 100 | 54,8 | 45,2 |
| **1993** | 100 | 71,3 | 28,7 |
| **1995** | 100 | 75,0 | 25,0 |
| **1997** | 100 | 70,2 | 29,8 |
| **2000** | 100 | 68,2 | 31,8 |
| **2005** | 100 | 65,8 | 34,2 |
| **2006** | 100 | 65,0 | 35,0 |
| **2007** | 100 | 64,8 | 35,2 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 6.1-in təhlili göstərir ki, əgər 1950-1970-ci illərdə adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi 57,5-52,4% arasında tərəddüd etmişdirsə, 1980-1990-cı illərdə bu göstərici 46,6-46,8% arasında dəyişmişdir. Bu isə onu göstərir ki, 1950-1970-ci illərdə istehlak bazarında ərzaq məhsullarının xüsusi çəkisi yüksək olmaqla yanaşı, eyni zamanda əhalinin gəlirlərinin yarıdan çoxu ərzaq alınmasına yönəldilmişdir.

1980-1990-cı illərdə isə göründüyü kimi, adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturunda qeyri-ərzaq məhsullarının xüsusi çəkisi yüksək olmuşdur. Bu isə o deməkdir ki, əhalinin gəlirlərinin xeyli hissəsi ərzaq məhsullarına xərclənmişdir.

Cədvəl 6.1-dən göründüyü kimi, keçmiş İttifaqın dağılması fonunda mərkəzləşmiş iqtisadi əlaqələrin kəsilməsi istehlak bazarına və onu xarakterizə edən adambaşına əmtəə dövriyyəsinə də öz təsirini göstərmişdir. Belə ki, əgər SSRİ-nin mövcud olduğu son 1991-ci ildə pərakəndə əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi 50,2% olmuşdursa, bu göstərici 1992-ci ildə 54,8%, 1993-cü ildə 73,1%, 1995-ci ildə isə 75% təşkil etmişdir. Bu isə onu göstərir ki, 1950-ci ildən etibarən son 45 il ərzində ərzaq məhsulları adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturunda ən yüksək xüsusi çəkiyə malik olmuşdur.

Apardığımız araşdırmalardan belə qənaətə gəlmək olar ki, həyata keçirilən iqtisadi islahatların nəticəsi 1997-ci ildən etibarən istehlak bazarına da öz təsirini göstərmişdir. Belə ki, 1997-ci ildə adambaşına pərakəndə əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi 1997-ci ildə 70,2%, 2000-ci ildə 68,2%, 2005-ci ildə 65,8%, 2006-cı ildə 65%, 2007-ci ildə 64,8% təşkil etmişdir. Bu isə nəticə etibarilə istehlak bazarında ərzaq məhsullarının qiymətlərinin səviyyəsinin nisbətən sabitləşdiyi qənaətinə gəlməyə əsas verir.

İstehlak bazarının əsas iqtisadi göstəricisi kimi əmtəə dövriyyəsinin həcminin artması bir sıra faktorlarla da sıx bağlıdır. Bu faktorlara ilk növbədə, son illər ölkədə ticarət və xidmət müəssisələrinin sayının artımını da aid etmək olar.

İstehlak bazarında ticarət və xidmət müəssisələrinin dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

*Cədvəl 6.2*

## İstehlak bazarında ticarət və xidmət müəssisələri

*(1 yanvar tarixinə, vahid)*

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|
| **Hüquqi şəxs statuslu müəssisələr, cəmi** | 26445 | 28752 | 30817 | 32544 |
| **İri və orta müəssisələr** | 1828[xx)] | 2865[xx)] | 2698[xx)] | 2577[xx)] |
| **Əşya və əşya mallar yarmarkalar və bazarların sayı** | 185 | 176 | 161 | 149 |
| **Bazarlarda və yarmarkalarda ticarət yerlərinin sayı** | 67090 | 67260 | 64310 | 59850 |
| **Hüquqi şəxs yaratmadan ticarət sahibkarların sayı** | 123497 | 144013 | 147552 | 155554 |
| **Mağazaların sayı** | 42600 | 47300 | 48056 | 48173 |
| **Mağazaların ticarət sahəsi**, (min $m^2$) | 2177 | 2370 | 2386 | 2394 |
| **Köşklərin sayı** | 2430 | 3925 | 5665 | 5690 |
| **İaşə müəssisələri** | 4925 | 5450 | 7590 | 7645 |
| **İaşə obyektlərində oturacaqlar** (min yer) | 172.2 | 191.3 | 242.1 | 244.3 |
| **Məişət xidməti üzrə emalatxanaların, atelyelərin sayı** | 4030 | 6120 | 9005 | 13278 |

[x)] işçilərinin sayı 25 və 25-dən artıq olan müəssisələr;
[xx)] işçilərinin sayı:
- pərakəndə satış ticarət, digər xidmətlər üzrə 5 və 5-dən artıq olan müəssisələr;
- topdan satış ticarət üzrə 10 və 10-dan artıq olan müəssisələr.

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 6.2-dən göründüyü kimi, 2005-2008-ci illərdə istehlak bazarında fəaliyyət göstərən ticarət müəssisələrinin sayında artım meyilləri müşahidə edilmişdir. Belə ki, 2005-ci illə müqayisədə 2008-ci ildə hüquqi şəxs statuslu ticarət müəssisələrinin sayı 20% artaraq 32544 ədədə çatmışdır. Hüquqi şəxs statuslu ticarət müəssisələrinin strukturunda iri və orta müəssisələrin xüsusi çəkisi azalmışdır. Daha doğrusu, hüquqi şəxs statuslu müəssisələrin strukturunda xırda ticarət müəssisələri yüksək xüsusi çəkiyə malik olmuşdur. Belə ki, əgər 2005-ci ildə iri və orta ticarət müəssisələrinin xüsusi çəkisi 6,9% olmuşdursa, 2008-ci ildə bu göstərici 7,9% təşkil etmişdir. Lakin bununla belə iri və orta müəssisələrin sayı müqayisə olunan dövrdə 40% artmışdır. Eyni zamanda ərzaq və qarışıq malların ticarəti ilə məşğul olan obyektlərin sayı 20% azalaraq 149 vahidə enmişdir. Adı çəkilən bazar və yarmarkaların sayının azalması müvafiq olaraq həmin strukturlarda ticarət yerlərinin sayının azalmasına gətirib çıxarmışdır.

Aparılan araşdırmalar göstərir ki, müqayisə olunan dövrdə hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarların sayı 30% artaraq 155554 ədədə çatmışdır. Müqayisə olunan dövrdə həmçinin iaşə müəssisələrinin sayı da 60% artaraq 7645-ə çatmışdır. Bu isə onu göstərir ki, respublikanın istehlak bazarında daha çox fərdi sahibkarlıq qurumları fəaliyyət göstərir. Bundan əlavə, istehlak bazarında xırda özəl ticarət strukturları əhəmiyyətli yer tutur [10, 187-5].

İstehlak bazarının mövcud vəziyyətini xarakterizə edərkən bazarın makrostrukturunun araşdırılması da mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, istehlak bazarında baş verən dəyişikliklər son nəticədə makroiqtisadi sabitliyə əhəmiyyətli təsir göstərir.

İstehlak bazarında əmtəə dövriyyəsinin makrostrukturu aşağıdakı cədvəldə göstərilmişdir:

*Cədvəl 6.3*

## Əmtəə dövriyyəsinin makrostrukturu

*(milyon manat)*

| Göstəricilər | 2003 | 2005 | 2007 | 2003-cü illə müqayisədə 2007-ci ildə *(dəfə)* |
|---|---|---|---|---|
| **Əmtəə dövriyyəsi, Cəmi** | 3062,0 | 4622,2 | 7591,4 | *2,5* |
| ***Ərzaq malları*** | 2042,2 | 3040,5 | 4922,8 | *2,4* |
| ***Qeyri-ərzaq malları*** | 1019,8 | 1581,7 | 2668,6 | *2,6* |
| *o cümlədən:* | | | | |
| **Hüquqi şəxslər** | 689,1 | 889,3 | 1232,8 | *1,8* |
| ***Ərzaq malları*** | 359,7 | 544,3 | 638,4 | *1,8* |
| ***Qeyri-ərzaq malları*** | 329,4 | 345,0 | 594,4 | *1,8* |
| **Fiziki şəxslər** | 2372,9 | 3732,9 | 6358,6 | *2,7* |
| ***Ərzaq malları*** | 1682,5 | 2496,2 | 4284,4 | *2,5* |
| ***Qeyri-ərzaq malları*** | 690,4 | 1236,7 | 2074,2 | *3,0* |
| *ondan:* | | | | |
| ***Yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarları*** | 1260,3 | 2154,9 | 3575,2 | *2,8* |
| ***Ərzaq malları*** | 673,4 | 1045,1 | 2297,7 | *3,4* |
| ***Qeyri-ərzaq malları*** | 586,9 | 1109,8 | 1277,5 | *2,2* |
| ***Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar*** | 1112,6 | 1578,0 | 2783,4 | *2,5* |
| ***Ərzaq malları*** | 1009,1 | 1451,1 | 1986,7 | *2,0* |
| ***Qeyri-ərzaq malları*** | 103,5 | 126,9 | 796,7 | *7,7* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 318.

Cədvəl 6.3-dən göründüyü kimi, 2003-2007-ci illərdə istehlak bazarında əmtəə dövriyyəsinin makrostrukturunda nəzərəçarpacaq dəyişikliklər müşahidə edilmişdir. Belə ki, 2003-cü illə müqayisədə 2007-ci ildə istehlak bazarının cəmi əmtəə dövriyyəsi 2,5 dəfə artmışdır. Ərzaq məhsullarının əmtəə dövriyyəsi müqayisə olunan dövrlərdə müvafiq olaraq 2,4; 1,3 dəfə, qeyri-ərzaq məhsullarının əmtəə dövriyyəsi 2,6; 1,3 dəfə yüksəlmişdir. Hüquqi şəxslərin əmtəə dövriyyəsi 1,8; 1,2 dəfə, fiziki şəxslərin əmtəə dövriyyəsi isə müvafiq olaraq 2,7; 1,3 dəfə artmışdır. Hüquqi şəxslər üzrə ərzaq məhsullarının əmtəə dövriyyəsi 1,8; 1,1, qeyri-ərzaq məhsullarının əmtəə dövriyyəsi isə 1,8; 1,6 dəfə, fiziki şəxslər üzrə ərzaq məhsullarının əmtəə dövriyyəsi 2,5; 1,4 dəfə, qeyri-ərzaq məhsullarının əmtəə dövriyyəsi isə 3,0; 1,3 dəfə artmışdır. Yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarında ərzaq məhsullarının əmtəə dövriyyəsi müqayisə olunan dövrlərdə müvafiq olaraq 3,4; 1,7 dəfə artmışdır. Qeyri- ərzaq məhsullarının əmtəə dövriyyəsi isə 2003-cü illə müqayisədə 2007-ci ildə 2,2 dəfə artmışdır. Əslində bu azalmanın səbəbi 2007-ci ildə yarmarkalarda daha çox kənd təsərrüfatı məhsullarının ticarətinə daha çox üstünlük verilməsi ilə bağlı olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, hazırda respublikanın istehlak bazarında hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar daha çox üstünlük təşkil edir. Eyni zamanda hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar kənd təsərrüfatı və ərzaq məhsulları ilə yanaşı, həm də qeyri-ərzaq məhsullarının satışı ilə bağlı fəaliyyət göstərirlər. Belə ki, adı çəkilən strukturlarda ərzaq məhsullarının əmtəə dövriyyəsi müqayisə olunan dövrlərdə müvafiq olaraq 2,0; 10%, qeyri-ərzaq məhsullarının əmtəə dövriyyəsi isə 1,7; 3,6 dəfə artmışdır [10, 187-5].

İstehlak bazarında əmtəə dövriyyəsinin mülkiyyət münasibətləri və sahə strukturu aşağıdakı cədvəldə öz əksini tapmışdır:

*Cədvəl 6.4*

**Pərakəndə əmtəə dövriyyəsinin mülkiyyət və sahə strukturu** *(yekuna görə faizlə)*

| Göstəricilər | *2003* | *2005* | *2007* |
|---|---|---|---|
| **Pərakəndə əmtəə dövriyyəsi - cəmi** | 100,0 | 100,0 | 100,0 |
| *o cümlədən:* **Hüquqi şəxslər** | 22,5 | 19,2 | 16,2 |
| **Fiziki şəxslər** | 77,5 | 80,8 | 83,8 |
| *ondan:* **Kənd təsərrüfatı məhsulları bazarları, yarmarkalar** | 53,1 | 57,7 | 56,2 |
| **Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər** | 46,9 | 42,3 | 43,8 |
| **Pərakəndə əmtəə dövriyyəsindən:** | | | |
| **Ərzaq malları** | 66,7 | 65,8 | 64,8 |
| *ondan:* **Spirtli içkilər** | 4,8 | 4,7 | 3,4 |
| **Qeyri-ərzaq malları** | 33,3 | 34,2 | 35,2 |
| *ondan:* **Avtomobil benzini** | 16,5 | 16,2 | 20,3 |
| **Pərakəndə əmtəə dövriyyəsindən:** | | | |
| **Dövlət mülkiyyəti** | 1,3 | 1,1 | 0,9 |
| **Qeyri-dövlət mülkiyyəti** | 98,7 | 98,9 | 99,1 |
| **Pərakəndə şəbəkənin dövriyyəsindən:** | | | |
| **Dövlət mülkiyyəti** | 1,2 | 1,0 | 0,8 |
| **Qeyri-dövlət mülkiyyəti** | 98,8 | 99,0 | 99,2 |
| **İaşə əmtəə dövriyyəsindən:** | | | |
| **Dövlət mülkiyyəti** | 15,7 | 8,6 | 6,0 |
| **Qeyri-dövlət mülkiyyəti** | 84,3 | 91,4 | 94,0 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 321.

Cədvəl 6.4-dən göründüyü kimi, istehlak bazarında pərakəndə əmtəə dövriyyəsinin mülkiyyət və sahə strukturunda nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Belə ki, 2003-2007-ci illər ərzində pərakəndə əmtəə dövriyyəsinin strukturunda hüquqi şəxs statuslu subyektlərin davamlı olaraq azalması fiziki şəxs statuslu subyektlərin isə xüsusi çəkisinin davamlı olaraq artması tendensiyası özünü göstərir. Əgər hüquqi şəxslər istehlak bazarının pərakəndə əmtəə dövriyyəsində 2003-cü ildə 22,5%, fiziki şəxslər isə 77,5% xüsusi çəkiyə malik olmuşdursa, bu göstərici 2007-ci ildə müvafiq olaraq 16,2; 83,8% təşkil etmişdir.

Təhlil göstərir ki, hələ də əhalinin daha çox hissəsi gəlirlərini ərzaq məhsullarının əldə edilməsinə xərcləyirlər. Məhz bunun nəticəsidir ki, pərakəndə əmtəə dövriyyəsində ərzaq məhsullarının xüsusi çəkisi 2007-ci ildə 64,8%-ə bərabər olmuşdur. Doğrudur, onu da qeyd etmək lazımdır ki, 2003-2007-ci illər ərzində pərakəndə əmtəə dövriyyəsində ərzaq məhsullarının xüsusi çəkisi nisbətən azalmağa doğru meyil etmişdir. Belə ki, əgər istehlak bazarının pərakəndə əmtəə dövriyyəsində ərzaq məhsullarının xüsusi çəkisi 2003-cü ildə 66,7% təşkil etmişdirsə, bu göstərici 2007-ci ildə 64,8%-ə enmişdir. Analoji olaraq müqayisə olunan dövrdə qeyri-ərzaq məhsulları üzrə pərakəndə əmtəə dövriyyəsinin xüsusi çəkisi 33,3%-dən 35,2%-ə qədər yüksəlmişdir. Qeyri-ərzaq məhsullarının strukturunda müqayisə olunan dövrdə avtomobil benzininin əmtəə dövriyyəsi 16,5%-dən 20,3%-ə qədər yüksəlmişdir [10, 187-5]. Bu tendensiyanın yaranması əslində respublikada avtomobillərin sayının artması və benzinin qiymətinin yüksəlməsi ilə sıx bağlıdır.

Aparılan tədqiqatlar göstərir ki, həyata keçirilən iqtisadi islahatlar istehlak bazarının əsas iqtisadi göstəricisi olan pərakəndə əmtəə dövriyyəsinə də öz təsirini gös-

tərmişdir. Belə ki, ticarət sisteminin liberallaşdırılması və özəlləşdirilməsi mahiyyət etibarilə istehlak bazarının pərakəndə əmtəə dövriyyəsində qeyri-dövlət mülkiyyətli təsərrüfat subyektlərinin xüsusi çəkisinin yüksəlməsinə gətirib çıxarmışdır. Məhz bunun nəticəsidir ki, 2007-ci ildə pərakəndə əmtəə dövriyyəsində qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi 99,1%-ə bərabər olmuşdur. Qeyd etmək lazımdır ki, bu tendensiya ictimai iaşənin əmtəə dövriyyəsinə də öz təsirini göstərmişdir. Belə ki, əgər 2003-cü ildə ictimai iaşənin əmtəə dövriyyəsində dövlət mülkiyyətinin xüsusi çəkisi 15,7%, qeyri-dövlət mülkiyyətinin xüsusi çəkisi 84,3%-ə bərabər olmuşdursa, 2007-ci ildə bu göstərici müvafiq olaraq 6,0 və 94,0% təşkil etmişdir [187-5].

Beləliklə, istehlak bazarının mülkiyyət və sahə üzrə strukturunu təhlil edib belə qənaətə gəlmək olar ki, transformasiya yönümlü dəyişikliklər, mülkiyyətin özəlləşdirilməsi və iqtisadi münasibətlərin liberallaşdırılması istehlak bazarına da əhəmiyyətli dərəcədə təsir göstərmişdir. İstehlak bazarının sahə strukturunda kənd təsərrüfatı və ərzaq məhsullarının xüsusi çəkisinin yüksək olması müəyyən mənada neqativ tendensiya kimi dəyərləndirilsə də, müqayisə olunan dövrdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və əhalinin pul gəlirlərinin artırılması istiqamətində həyata keçirilən tədbirlər bu sahədə də müsbət dəyişikliklərin baş verməsinin fundamental əsaslarını yaratmışdır.

İstehlak bazarının mövcud durumunu xarakterizə edən ən mühüm göstəricilərdən biri də bazarda pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksidir. Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksinin dəyişməsi bir qayda olaraq, satış həcminin və qiymətlərin səviyyəsinin tərəddüdlərini özündə əks etdirir.

Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksləri aşağıdakı cədvəldə göstərilmişdir:

*Cədvəl 6.5*

**Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksləri**
*(əvvəlki ilə nisbətən, faizlə)*

| Göstəricilər | 2003 | 2005 | 2007 |
|---|---|---|---|
| **Pərakəndə əmtəə dövriyyəsi - cəmi** | 110,9 | 113,2 | 115,3 |
| *o cümlədən:* | | | |
| **Hüquqi şəxslər** | 102,0 | 103,6 | 107,9 |
| **Fiziki şəxslər** | 113,8 | 115,7 | 116,9 |
| *ondan* | | | |
| ***Kənd təsərrüfatı məhsulları bazarları, yarmarkalar*** | *113,8* | *118,5* | *113,8* |
| ***Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlar*** | *113,7* | *116,0* | *121,0* |
| **Pərakəndə əmtəə dövriyyəsindən** | | | |
| ***Ərzaq malları*** | *109,6* | *110,8* | *113,1* |
| *ondan* | | | |
| ***Alkoqollu içkilər*** | *100,9* | *101,6* | *109,2* |
| ***Qeyri-ərzaq malları*** | *114,1* | *119,5* | *120,0* |
| *ondan* | | | |
| ***Avtomobil benzini*** | *112,8* | *115,1* | *117,8* |
| **Pərakəndə əmtəə dövriyyəsindən** | | | |
| ***Pərakəndə ticarət*** | *110,7* | *113,0* | *114,9* |
| ***İaşə*** | *131,5* | *126,1* | *135,7* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 322.

Cədvəl 6.5-ın təhlili göstərir ki, 2003-2007-ci illərdə hər il əvvəlkinə nisbətən istehlak bazarında pərakəndə əmtəə dövriyyəsinin artımı müşahidə edilmişdir. 2005-ci ildə əvvəlki ilə nisbətən bu artım 13,2%, 2007-ci ildə isə əvvəlki ilə nisbətən 15,3% təşkil etmişdir.

Pərakəndə əmtəə dövriyyəsi xüsusilə fiziki şəxs statuslu qurumlar üzrə daha yüksək artıma malik olmuşdur. Belə ki, 2007-ci ildə əvvəlki ilə nisbətən hüquqi şəxslər üzrə pərakəndə əmtəə dövriyyəsi 7,9% artmışdırsa, fiziki şəxslər üzrə bu göstərici 16,9%-ə bərabər olmuşdur.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fərdi sahibkarlıq qurumlarında da oxşar tendensiya müşahidə edilmişdir. Belə ki, 2007-ci ildə adı çəkilən qurumlar üzrə pərakəndə əmtəə dövriyyəsi 21% artmışdır. Qeyd etmək lazımdır ki, ərzaq məhsulları ilə müqayisədə qeyri-ərzaq məhsulları üzrə pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksi daha üstün sürətlə yüksəlmişdir.

Əgər ərzaq məhsulları üzrə əvvəlki illərə nisbətən 2007-ci ildə bu göstərici 13,1% təşkil etmişdirsə, qeyri-ərzaq məhsulları üzrə 20%-ə bərabər olmuşdur. İaşə sistemində əmtəə dövriyyəsi əvvəlki ilə nisbətən 2007-ci ildə 35,7% təşkil etmişdir. Bu isə onu göstərir ki, iaşədə əmtəə dövriyyəsinin artım sürəti pərakəndə ticarəti nəzərəçarpacaq dərəcədə qabaqlamışdır.

İstehlak bazarı gündəlik tələbat məhsullarının reallaşdırılması ilə yanaşı, eyni zamanda əhaliyə göstərilən pullu xidmətləri də özündə əks etdirir. Daha doğrusu, əslində istehlak bazarının iki mühüm seqmenti - əmtəə bazarı və xidmətlər bazarı mövcuddur.

Aşağıda əhaliyə göstərilən pullu xidmətlərin əsas göstəricilərini əks etdirən cədvəl verilmişdir:

***Cədvəl 6.6***

**Əhaliyə göstərilən pullu xidmətlərin əsas göstəriciləri**

| Göstəricilər | 2000 | 2003 | 2005 | 2007 | *2000-ci ilə nisbətdə 2007-ci il %* |
|---|---|---|---|---|---|
| **Əhaliyə göstərilən pullu xidmətlərin həcmi,** *(mln.manat)* | 477,2 | 592,2 | 960,7 | 2348,3 | *4.9 dəfə* |
| *ondan* | | | | | |
| **Hüquqi şəxslər üzrə** | 318,3 | 410,2 | 699,9 | 1788 | *5.6 dəfə* |
| **Pullu xidmətlərin əvvəlki illərə nisbətən fiziki həcm indeksləri** *(müqayisəli qiymətlərlə)* | 105,8 | 111,7 | 126,1 | 133,8 | *x* |
| *ondan* | | | | | |
| **Hüquqi şəxslər üzrə** | 103,7 | 114,6 | 129,8 | 136,4 | *x* |
| **Adambaşına pullu xidmətlərin həcmi,** *(manat)* | 60,2 | 73,0 | 116,1 | 277,5 | *4.6 dəfə* |
| **Məişət xidmətlərinin həcmi,** *(mln.manat)* | 119,4 | 145,1 | 210,4 | 364,6 | *3.1 dəfə* |
| **Məişət xidmətlərinin əvvəlki illərə nisbətən fiziki həcm indeksləri** *(müqayisəli qiymətlərlə)* | 106,1 | 110,1 | 124,5 | 121,7 | *x* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 326.

Cədvəl 6.6-dan göründüyü kimi, 2007-ci ildə əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2348,3 mln. manat olmuşdur ki, bu da 2000-ci illə müqayisədə 4,9 dəfə çoxdur. 2007-ci ildə hüquqi şəxslər üzrə əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1788 milyon manat təşkil etmişdir ki, bu da 2000-ci illə

müqayisədə 5,6 dəfə yüksək olmuşdur. Təhlil göstərir ki, əhaliyə göstərilən pullu xidmətlərin həcmində hüquqi şəxslərin xüsusi çəkisi 76,1% təşkil etmişdir. Bu isə onu göstərir ki, istehlak bazarında məhsul satışı ilə müqayisədə əhaliyə göstərilən pullu xidmətlər sistemində hüquqi şəxslər daha yüksək xüsusi çəkiyə malikdir. Bundan əlavə, əhaliyə göstərilən pullu xidmətlərin 2000-2007-ci illərdə hər il əvvəlki ilə nisbətən artım meyilləri müşahidə edilməkdədir. 2006-cı ildə əvvəlki ilə nisbətən pullu xidmətlərin müqayisəli qiymətlərlə fiziki həcm indeksi 42,1%, 2007-ci ildə isə 133,8 % olmuşdur. Hüquqi şəxslər üzrə bu göstərici ümumi pullu xidmətlərlə müqayisədə daha yüksək faiz təşkil etmişdir. 2006-cı ildə hüquqi şəxslər üzrə pullu xidmətlərin əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə fiziki həcm indeksi 145,7%, 2007-ci ildə isə 136,4% təşkil etmişdir. Əhaliyə göstərilən pullu xidmətlərin həcminin artımı adambaşına pullu xidmətlərin həcminin də artmasına öz təsirini göstərmişdir. Belə ki, əgər 2000-ci ildə adambaşına düşən pullu xidmətlərin həcmi 60,2 manat təşkil etmişdirsə, 2005-ci ildə bu göstərici 116,1 manat, 2006-cı ildə 167,5 manat, 2007-ci ildə isə 277,5 manata bərabər olmuşdur. 2000-ci illə müqayisədə adambaşına pullu xidmətlərin həcmi 4,6 dəfə yüksəlmişdir. Adambaşına pullu xidmətlərin müqayisə olunan dövr ərzində artımı ilk növbədə, qiymətlərin səviyyəsinin yüksəlməsi və pullu xidmətlərin spektrinin genişlənməsi ilə sıx bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, 2000-2007-ci illər ərzində əhaliyə göstərilən məişət xidmətlərinin həcmi də yüksəlmişdir. Belə ki, əgər 2000-ci ildə əhaliyə göstərilən məişət xidmətlərinin həcmi 119,4 milyon manat olmuşdursa, 2005-ci ildə bu göstərici 210,4 milyon manat, 2006-cı ildə 261,9 milyon manat, 2007-ci ildə isə 364,6 milyon manat təşkil etmişdir. Müqayisə olunan dövrdə əhaliyə göstərilən məişət xidmətlərinin həcmi 3,1 dəfə artmışdır. Eyni zamanda məişət xidmətlərinin müqayisəli qiymətlərlə əvvəlki illərə nisbətən fiziki həcm indeksləri də artmışdır.

Apardığımız tədqiqatlar belə qənaətə gəlməyə əsas verir ki, istehlak bazarının səmərəli fəaliyyəti və inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- iqtisadi islahatların sürətləndirilməsi yerli istehsalın stimullaşdırılması ilə müşayiət olunmaqla, liberallaşma prosesinin istehlak bazarının formalaşmasına zərərli təsiri effektiv şəkildə neytrallaşdırılmalıdır;
- istehsal bazarında müxtəlif mülkiyyət formaları arasında sağlam rəqabət təmin olunmalıdır;
- reallaşdırmaq üçün toplanmış əmtəələrin miqdarı həm natural, həm də dəyər göstəricisində qiymətləndirməklə hesablanmalıdır;
- istehsal və istehlak arasında təsərrüfat əlaqələri bazar qanunlarına uyğun olaraq təkmilləşdirilməlidir;
- əhalinin getdikcə artan tələbatının tam və dolğun ödənilməsinə şərait yaratmaq;
- əhalinin istehlak mallarına olan tələbini formalaşdırmaq və istehlakın səmərəli strukturuna malik olmaq;
- istehlak mallarının səmərəli reallaşmasını həyata keçirmək və onların istehlakçıya çatdırılmasını təmin etmək;
- tələb və təklif arasında dinamik tarazlığa nail olmaq və onun ənənəvi xarakter almasına şərait yaratmaq.

İstehlak bazarının mövcud vəziyyətinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, istehlak bazarının səmərəli fəaliyyəti və onun inkişaf etdirilməsi üçün qeyd olunan tədbirlərlə yanaşı, bu sahədə institusional təsisatlandırmaların da genişləndirilməsinə böyük zərurətlər mövcuddur.

# III HİSSƏ.

# QLOBALLAŞMA VƏ KOOPERATİV İRƏLİLƏYİŞ

## VII FƏSİL.

## TÜRKİYƏ RESPUBLİKASINDA KOOPERASİYANIN İNKİŞAF TƏCRÜBƏSİ

### 7.1. Türkiyədə kooperasiyanin təşəkkülü və inkişaf mərhələləri

Türkiyədə kooperativlərin inkişaf tarixini araşdırarkən, bu institutun hələ çox qədimlərdən türk millətinin kəndlərində geniş yayılmış «İməclik» qurumu və XIII əsrdə Anadolu Səlcuqlu Dövlətinin son dövrlərində ortaya çıxan «Ahi Birlikləri»nə gedib çıxdığını görürük. Belə ki, kooperativlər kimi daimi qurumlar olmasalar da, kəndlərdə ortaq sütxanalardan, camaşırxanalardan istifadə, kəndin heyvanlarını otlatmaq üçün ortaq çoban tutma, qarovulçu tutma, yol salma, ortaq qoruq və otlaq formalaşdırma kimi işlərin kəndlilər tərəfindən «İməclik» qurumu yolu ilə həyata keçirdiyinə şahid oluruq. Həmçinin əsası Ahi Evran tərəfindən qoyulan, bu günkü çağdaş kooperativçiliyin mənimsədiyi qarşılıqlı yardım və həmrəylik, qardaşlıq, fədakarlıq, hərkəsə iş, bərabər qazanc, hiyləsiz mal istehsalı, ədalətli qiymət siyasəti, üzvlərinin təhsili kimi qaydaları böyük bir həssaslıqla həyata keçirən və XX əsrə qədər gəlib çıxan Ahilik qurumu da Anadoluda ilkin kooperativ hərəkatına nümunə ola bilər [68, s. 137-139]

Ancaq iqtisadi ədəbiyyatlarda Türkiyədə müasir kooperatif hərəkatının təşəkkülü Osmanlı və Respublika dövrlərinə ayrılmaqla öyrənilir. Osmanlı dövrü Türk kooperativ hərəkatının banisi Midhət Paşa, Respublika dövrü Türk kooperativ hərəkatının banisi isə Atatürk qəbul edilir [62, 64, 65].

***Osmanlı Dövrü Kooperativ Hərəkatı*** - XIX əsrin ikinci yarısı Osmanlıda kooperativ hərəkatının ortaya çıxdığı dövrdür. Osmanlıda kooperativ hərəkatı araşdırılan zaman, onun inkişaf xüsusiyyətləri müxtəlif dövrlərə ayrılaraq tədqiq olunur. Bəzi tədqiqatçılar belə bir fərqləndirməyə ehtiyac duymayaraq Osmanlı Dövrü kooperativ hərəkatını vahid dövr çərçivəsində öyrənsə də (*məsələn, Dr. Hakan Koç*), Türk kooperativ hərəkatının məşhur tədqiqatçılarından olan professor Ziya Gökalp Mülayimə görə bu dövr Midhət Paşa Dövrü və Midhət Paşadan Respublika Dövrünə Qədərki Dövrə ayrılaraq öyrənilməlidir [62].

***Midhət Paşa Dövrü*** (*1863-1888*) - Türkiyədə Kooperativ Hərəkatının tarixi Midhət Paşanın 1863-cü ildə qurduğu «Məmləkət Fondu» (*Memleket Sandığı*) ilə başlayır. 1822-ci ildə İstanbulda doğulan Midhət Paşa dövrünün müxtəlif dərəcəli məktəblərini bitirdikdən sonra, dövlət adamı kimi yetişmək məqsədilə Babıəliyə şagirdlik etmiş, müxtəlif məmur vəzifələrində çalışmış və 1958-ci ildə Avropaya göndərilmişdir. Avropadan döndükdən sonra Niş əyalətinə vali təyin edilən Paşa, oradakı uğurlu fəliyyətindən sonra Tuna vilayətinin valisi olmuşdur. Sonralar Dövlət Şurası sədri, Baş Nazir, Ədliyyə Naziri vəzifələrini icra etmiş, Bağdad, Suriya və İzmir valisi olmuşdur. Midhət Paşa Məmləkət Fondu adlandırdığı ilk aqrar kredit-təşkilatını 1863-cü ildə Niş vilayətinin, indiki Bolqarıstan-Yuqoslaviya (*indiki Serbiya*) sərhəddində yerləşən «Pirot» qəsəbəsində qurmuşdur [62].

Məmləkət Fondu uğur qazandıqdan sonra, onun ölkənin hər yerində qurulması üçün Midhət Paşa 29 maddədən ibarət bir «Məmləkət Fondları Nizamnaməsi» hazırlayaraq mərkəzi hökumətə təqdim edir. 1867-ci ildə onun əsasında hökumət tərəfindən qəbul edilən Nizamnamə ilə bütün valilərə Məmləkət Fondlarının qurulması tapşırılmışdır. Nizamnamənin ilk bölmələrində sərmayə, idarəetmə, kreditvermə və qazancın bölüşdürülməsi məsələləri, ikinci bölməsində isə Fond tərəfindən həyata keçiriləcək mühasibatlığın əsasları müəyyənləşdirilmişdir.

Məmləkət Fondları əkinçiləri sələmçilərdən qorumaq məqsədilə vilayət mərkəzlərində formalaşdırılmış və dövlət tərəfindən göstərilən ərazidə iməclik yoluyla yetişdirilən məhsullardan əldə edilən gəlirlərlə maliyyələşdirilmişdir. Kəndlilər öz ərazilərini işlədikdən sonra qalan zamanlarında boş olan dövlət ərazilərinin müəyyən bir hissəsini iməclik yolu ilə əkib, məhsulu Ağsaqqallar Heyəti vasitəsilə sataraq, Məmləkət Fondlarına sərmayə kimi verirdilər [64].

Məmləkət Fondları istehsal kooperativi kimi əldə etdiyi gəlirdən, xərcləri çıxdıqdan sonra yerdə qalan xalis gəliri kredit formasında kəndlilərə verirdi. Göründüyü kimi, bu fondlar bir növ istehsal-kredit kooperativi xarakteri daşımışdır.

İlk dövrlərdə dövlət tərəfindən müəyyən edilən ərazidə iməclik yolu ilə hər əkinçi yarım dönüm ərazi becərirdi. Sonralar zəngin və nüfuzlu şəxslərin iməclikdə çalışmaq istəmələri və işləri gücsüz və sadə kəndlilərə gördürməyə çalışmaları səbəbindən bu üsul dəyişmiş və hər cüt öküzü olan əkinçidən 15 kiloqram buğda alınması qərarı qəbul edilmişdir.

Məmləkət Fondları kəndlilərə şəxsi zəmanət və ya girov əsasında ən çoxu bir il müddətinə, aylıq 1%-lik ödəmə şərti ilə və 200 quruş və ya 20 lirədən çox olmayan məbləğdə kredit verirdi. Mənfəətin bir qismi isə sərmayəyə əlavə edilirdi. Bu zaman bir Məmləkət Fondunun kredit verə bilməsi üçün sərmayəsinin ən azı 200 altın olması şərti qoyulmuşdu. Məmləkət Fondları əyalət xalqı tərəfindən seçilən və Fond Əminləri kimi tanınan 4 nəfərlik bir heyət tərəfindən idarə edilirdi. Təyinatlı vəzifə olan Katibdən başqa Əminlər əmək haqqı almırdılar. Fondun katibinə faiz və giriş haqlarından aylıq maaş ödənilirdi. Fondun bina və kargüzarlıq xərcləri isə illik ən çoxu 5 altın şəklində müəyyən edilmişdi. İlk dövrlərdə Fondlar yalnız vilayətdəki bazarın qurulduğu həftə bir günlük açıldığı halda, sonralar işlərin artması səbəbindən bu günlərin sayı da artırıldı. Faizlərdən əldə edilən gəlirdən Fondun məsrəfləri çıxıldıqdan sonra əldə edilən xalis mənfəətin $^1/_3$ hissəsi yenidən kredit

alanlara paylanır, $^{2}/_{3}$ hissəsi isə vilayətin və kəndlərin yol, su, körpü kimi infrastruktur ehtiyacları və məktəblərin tikilməsi üçün istifadə edilirdi. İlk illərdə kəndlilər tərəfindən elə də yaxşı qarşılanmayan bu fondlar, faydalı işlər görməyə və dürüst məmurlar tərəfindən idarə edilməyə başlandığından etibarən xalqın inamını qazanmışdır [65]. Bu fondlar sonralar aktiv dövlət müdaxiləsinə məruz qalmış və XIX əsrin sonlarına doğru idarəolunmaz bir prosesə daxil olmuşdur. Nəticədə 1888-ci ildə onlar tamamilə ləğv edilərək əvəzinə bu gün də fəaliyyət göstərən Ziraat Bankı qurulmuşdur. O zaman ləğv edilən 250 fondun təxminən 2 milyon altın məbləğindəki sərmayəsi Ziraat Bankına verilmişdir [62].

Göründüyü kimi, Midhət Paşanın Məmləkət Fondları indiki kooperativlərdən, hətta o dövrdəki Avropa kooperativlərindən də fərqli bir struktura malik olduğundan dünya kooperativ hərəkatında özünəməxsus bir yerə sahibdir.

***Midhət Paşa mərhələsindən Respublika Dövrünə Qədərki Dövr** (1888 -1923)* **-** Midhət Paşadan sonra uzun müddət Türkiyədə kooperativlərlə bağlı bir fəaliyyətə demək olar ki, rast gəlinməmişdir. Buna baxmayaraq, 1913-cü ildə Əhməd Cevad tərəfindən «İqtisadda İnqilab: istehlak yardımlaşma şirkətləri» adlı əsər nəşr edilir. Əhməd Cevad bu kitabda vasitəçilər və xarici tacirlər tərəfindən istismar edilən türk kəndlisinin satış və istehlak kooperativlərindən faydalana biləcəyinin mümkünlüyünü nümunələrlə göstərmişdir. Məhz onun maarifləndirmə fəaliyyəti nəticəsində o dövrdə İstanbulda 11 ədəd istehlak kooperativi qurulmuşdur. Elə bu dövrlərdə Türkiyənin Aydın bölgəsində həqiqi bir kooperativin ortaya çıxdığını görürük. Belə ki, 1911-ci ildə İzmirdəki əncir ixrac edən 45 tacir birləşərək «Fig Packers» adlı bir trest yaradır və beləliklə, əncir bazarında hakim mövqeyə yüksələrək istədikləri qiyməti diktə etməyə başlayırlar. Trestin qurulmasından əvvəl belə, əncir bazarında yaranmış olan vəziyyət onsuz da əncir istehsalçısını öz məhsulunu ucuz qiymətə satmağa məcbur edirdi. Belə olduqda istehsalçının vəziyyəti bir az da ağırlaşdı. Vəziyyətdən çıxmaq məqsədilə əncir is-

tehsalçıları ilk növbədə «Aydın Əncir Himayei Zürra Səhmdar Şirkəti» adlı bir şirkət qurdular. Lakin bu şirkət, geniş sərmayəsi və xarici ölkələrdə köklü təşkilatları olan «Fig packers»lə rəqabət edə bilməmiş və fəaliyyətini dayandırmışdır. Bundan sonra «Fig packers»lə, modern və çox təsirli iqtisadi bir silah olan kooperativlərlə mübarizə aparmaq qərarına gəlinmiş və bunun üçün də əncir istehsalçılarını birləşdirərək aqrar satış kooperativləri qurulmasına başlanılmışdır. Ancaq aqrar satış kooperativləri qurulmadan əvvəl onun uğur qazanması üçün, əvvəlcə istehsalçıların maliyyə müstəqilliyini təmin etmək zəruri idi. Çünki istehsalçı tacirə borclu, başqa sözlə ondan asılı idi. Əkinçini maliyyə baxımından tacirin əlindən qurtarmaq məqsədilə, ilkin olaraq «Milli Aydın Bankı» adlı bir kredit bankı quruldu. Bank istehsalçıları kreditlə təmin edəcəkdi. Bu bank Birinci Dünya müharibəsi dövründə əncir istehsalçılarına yardım məqsədilə «Kooperativ Aydın Əncir İstehsalçıları Ortaqlığı» adlı Türkiyənin ilk aqrar satış kooperativini qurmuşdur. Lakin bu kooperativ uzun müddət çalışa bilmədi və Birinci Dünya Müharibəsinin sonunda öz fəaliyyətini, 1923-cü ildən sonra davam etdirmək şərtilə dayandırdı [62, 64, 65].

***Respublika Dövrü Kooperativ Hərəkatı*** - Türkiyədə Respublika Dövrü Kooperativ Hərəkatı araşdırılarkən, Atatürkün həyatda olduğu, bir lider və dövlət başçısı kimi bu istiqamətdə aktiv fəaliyyət göstərdiyi dövrlə, Atatürkdən sonrakı dövrün ayrı-ayrılıqda tədqiq edilməsinin zəruriliyini görürük.

***Atatürk Dövrü Türk Kooperativ Hərəkatı*** *(1923-1938)* - Türkiyə Republikasının qurucusu, Türk Mədəni İnqilabının ideoloqu Mustafa Kamal Atatürk Türkiyə Respublikasının qurulduğu ilk illərdə, hətta ondan da bir neçə il əvvəl bütün sahələrdə olduğu kimi, cəmiyyətin iqtisadi təşkilatlanmasının forma və prinsiplərinin seçilməsi məsələlərinə də öndərlik etmiş və nümunəvi şəxsi təşəbbüslərilə prosesə dəstək vermişdir.

Respublikanın ilk illərindən Atatürk kooperativ hərəkatına xüsusi önəm vermiş və Türkiyənin aqrar sektorunun və regionlarının inkişaf etdirilməsində əvəzedilməz rolu olduğunu dəfə-

lərlə qeyd etmişdir. Hətta xalqına örnək olsun deyə, 2 kooperativin də ortağı olmuşdur [62].

Hələ Türkiyə Respublikası elan edilmədən öncə, 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinə təqdim olunan «Kooperativ Şirkətlər Qanunu» layihəsində Atatürkün imzası olmuşdur. «Kooperativ qurmaq, maddi və mənəvi gücləri, zəka və məharətləri birləşdirmək deməkdir» deyən Atatürkün tövsiyəsi ilə 19 mart 1923-cü ildə Mətbuat və Xəfiyyə Baş İdarəsi «Kooperativ Şirkətlər» adlı 24 saylı kitab nəşr etdirir. Kitab «Kooperativ şirkətlərin məmləkətimizdə də təşəkkül tapması və inkişafı millətimiz üçün tamamilə iqtisadi zəfər olacaqdır» cümləsilə başlamışdır. Kitabın son bölməsində isə «Vətənini sevən hər türk kənd və qəsəbə müəllimi də, bizi iqtisadi və sosial baxımdan inkişaf etdirəcək bu müəssisənin ölkəmizdə yayılması yolunda son dərəcə səy göstərməyi» deyilir [62, s. 44].

Araşdırmalar göstərir ki, Respublikanın ilk illəri kooperasiyanın müxtəlif qanunlarla tənzimlənən bir iqtisadi təşkilatlanma forması kimi öz varlığını qəbul etdirməyə çalışdığı illərdir. Belə ki, 1924-cü ildə Aqrar Birliklər Qanunu qəbul edilmişdir. Yenə həmin il Ticarəti Berriye Qanununa «15-ci maddədə göstərilən üç növ şirkətdən kooperativ, yəni ortaqlıq şirkətləri də ticari şirkətlərdir» maddəsi əlavə edilmişdir.

1925-ci ildə Atatürk İstehlak Kooperativlərinə xüsusi maraq göstərməyə başlamışdır. Həmin il qəbul edilən 24 mart tarixli 586 saylı bir qanunla Ankaradakı məmurlara kooperativə üzv olmaq üçün aylıq maaşlarının yarısı qədər avans verilmişdir. Məmurlar bu avansları qurulan Ankara Məmurlar Kooperativinə ortaqlıq payı kimi yatırmışlar. Sonra bu avans 10 ay ərzində məmurların maaşlarından 5% məbləğində tutularaq xəzinəyə qaytarılmışdır [65]. Atatürkün direktivi ilə qəbul edilən bu qanun nəticəsində qurulan Ankara Məmurlar İstehlak Kooperativinə 1 saylı üzv Cümhurbaşqanı Mustafa Kamal, 2 saylı üzv isə Baş nazir İsmət İnönü yazılmışdır [62, 67, 68].

1926-cı ildə 856 saylı Türk Ticarət Qanununda kooperativlərin də digər şirkətlər arasında yer alması üçün zəruri dəyişikliklər edilmişdir. 1929-cu ildə isə 1470 saylı «Aqrar Kredit Kooperativləri Qanunu» qəbul edilmiş və bir ildə 29170 vətəndaşın 191 kooperativdə birləşməsinə nail olunmuşdur. Qanuna görə işçi əmək haqları, toxumluq gübrə, zərərvericilərlə mübarizə vasitələri, kiçik təsərrüfat alətləri və cüt heyvanları kimi bir təsərrüfatın qısamüddətli istehsal xərclərini qarşılamaq üçün kənd, şəhər və qəsəbələrdə aqrar kredit kooperativləri qurula bilirdi [64].

Atatürkün qurduğu Xalq Partiyasının 1931 və 1935-ci illərdə keçirilən qurultaylarında qəbul edilən iqtisadi proqramlarında da kooperativlərə xüsusi yer ayrılması bir daha onun kooperativ hərəkatına verdiyi önəmi göstərir.

Atatürk dövründə 1935-ci il tarixi də kooperativlərin inkişafı baxımdan mühüm illərdən hesab olunmalıdır. Belə ki, bu ildə 2834 saylı «Aqrar Satış Kooperativləri və Birlikləri Qanunu» və 2836 saylı «Aqrar Kredit Kooperativləri Qanunu» da qəbul edilmişdir. Bu qanunların qüvvəyə minməsi ilə ölkənin hər tərəfində yüzlərlə kooperativlər qurulmuşdur [62].

Bu kooperativlər arasında İstanbul Ayyaqabıçılar Kiçik Sənət Kooperativi, Ankara Məmurlar İstehlak Kooperativləri, Ankara Baxçalıevlər İnşaat Kooperativi kimi qurumların da olması onu göstərir ki, kooperativçilik təkcə aqrar sahəni əhatə etməmiş, digər sahələrə də nüfuz etmişdir [64].

1936-cı ildə Atatürk kooperativlərlə bağlı ikinci şəxsi təşəbbüsünü irəli sürür və sahibi olduğu Tekir fermer təsərrüfatının ətraf ərazilərində yerləşən istehsalçılarla birlikdə Tekir Aqrar Kredit Kooperativini qurur. İndi də Türkiyədə fəaliyyət göstərən bir çox qurumlar həmin kooperativin qurulduğu 30 iyun 1936-cı il tarixini «Kooperativçilik Bayramı» kimi qeyd edir [62].

Türkiyədə Atatürk dövründə kooperativ hərəkatı ilə bağlı görülən ən önəmli fəaliyyətlərdən biri kooperativ hərəkatının tədqiqi və tədrisi sahəsindədir. Belə ki, Atatürkün şəxsi təşəbbüsü ilə 2 oktyabr 1931-ci ildə kooperativ hərəkatı ilə bağlı

tədqiqatlar aparan mərkəzi bir qurum kimi İstanbul Universitetinin nəzdində Türk Kooperativçilik Cəmiyyəti qurulmuşdur. Sonradan Ankaraya köçürülən bu cəmiyyət Türk Kooperativçilik Qurumu adı altında indi də uğurla fəaliyyət göstərməkdədir. Bununla yanaşı, kooperativ hərəkatının universitetlərdə tədrisi məsələsinə də böyük əhəmiyyət verilmişdir. Belə ki, kooperativ hərəkatı universitet proqramlarına dərs kimi salınmış, bu sahədə müxtəlif jurnallar və kitablar yazılmışdır. Məsələn, 1932-ci ildə Dr. Mehmet Əlinin İzmirdə nəşr etdirdiyi «Müqayisəli Kooperativ hüququ» kitabı və Dr. Sübhi Nuri İlerinin İstanbulda nəşr etdirdiyi «Kooperativlər» kitabı ciddi universitet dərslikləri kimi tanınmışdır [65].

Göründüyü kimi, Atatürk dövründə Türkiyədə kooperativlərlə bağlı 7 qanun qəbul edilmiş, Atatürkün bu sahədə saysız-hesabsız çıxışları olmuş, 1930-cu illərdə xeyli sayda yayınlar *(«Kadro», «Kooperatif», «Kooperativçilik», «Karınca» və s)* fəaliyyət göstərməyə başlamış, başda universitetlər olmaqla bir sıra məktəblərdə kooperativ hərəkatı dərsləri keçirilmiəyə başlanmışdır. Heç təsadüfi deyil ki, bütün bunları nəzərə alan bəzi tədqiqatçılar Kamalist iqtisadi doktrinanı bəzən kooperativ hərəkatı da adlandırırlar. Belə ki, 1935-ci ildə İstanbul Ali İqtisad və Ticarət Məktəbində Dr. Sübhi Nuri İlerinin dərs kitabı olaraq oxudulan «Kooperativlər» adlı kitabında eynilə bu sözlərə təsadüf edirik: «Nə liberal və nə də kommunist olan Kamalizmin ən təbii və məntiqi iqtisadi rejimi yalnız və yalnız kooperativçilikdir».

***Atatürkdən Sonrakı Dövr Türk Kooperativ Hərəkatı** (1938-2009)* - Respublika dövründə Atatürkdən sonrakı Türkiyədə kooperativ hərəkatı ilə bağlı yazılan ən geniş mənbə, İstanbul Universiteti İqtisad Fakültəsi professorlarından Kessler tərəfindən alman dilində yazılan «Kooperativçilik» adlı dərs kitabıdır. Sonralar professor F.Z.Fındıkoğlu tərəfindən türk dilinə də tərcümə edilən bu əsərə diqqət yetirdikdə görürük ki, Atatürkdən sonrakı 1938-1961-ci illər arasında Türkiyədə kooperativçiliklə bağlı elə bir ciddi işlər görülməmişdir. Xüsusilə 1950-ci ildən sonra özəl

sektora üstünlük verilməyə başlamasından sonra kooperativçilik bir müddət bir növ yaddan çıxarılmışdır. Sadəcə 1951-ci ildə Tacir Zəmanət Kopperativləri və 1956-cı ildə qəbul edilən 6762 saylı Türk Ticarət Qanununun aqrar kredit və satış kooperativlərindən başqa digər bütün növ kooperativləri əhatə etməsi nəzərdə tutulmuşdur [62, 64, 65].

1960-cı ilərdən başlayaraq Türkiyə Respublikasının 5 illik İnkişaf Planları üzrə inkişaf yoluna qədəm qoyması isə, ölkədə kooperativ hərəkatının inkişafı baxımından da həm kəmiyyət, həm də keyfiyyət etibarilə yeni bir mərhələ hesab olunur. Belə ki, Türkiyə tarixində ilk dəfə olaraq, 1961-ci ildə qəbul edilmiş Konistitusiyaya kooperativlərlə bağlı maddə daxil edilmişdir. Həmin Konstitusiyanın 51-ci maddəsində deyilir: «Dövlət kooperativlərin inkişafını təmin edəcək tədbirlər görür» [63].

Bu dövrdən başlayaraq, Beşillik İnkişaf Planlarında kooperativlərlə bağlı müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş və illik proqramlarda da bu tədbirlərin detalları göstərilmişdir. Həyata keçirilən Beşillik İnkişaf Planlarından birincisində (*1963-1967*) kiçik və orta müəssisələrin böyük müəssisələrlə rəqabət apara bilmələri üçün kooperativlərin dəstəklənməsi, ikincisində (*1968-1972*) isə xüsusilə aqrar təsərrüfatların kredit ehtiyaclarını qarşılamaq üçün kooperativlərin inkişaf etdirilməsi zəruriliyi üzərində dayanılmışdır.

İkinci Beşillik İnkişaf Planının icrası çərçivəsində Türkiyədə kooperativlərin inkişafı baxımından demək olar ki, yeni bir mərhələ açılmışdır. Belə ki, hazırda da qüvvədə olan, 10.05.1969-cu il tarixli 1163 Saylı «Kooperativlər Qanunu» qəbul edilərək, kooperativ hərəkatında bir növ demokratikləşmənin əsası qoyulmuşdur. Həmçinin də, kooperativlər Türk Ticarət Qanununun tənzimləmə çərçivəsindən çıxaraq, müstəqil bir qanunla tənzimlənməyə başlanmışlar. Qanun xüsusilə kooperativlərin ali qurumlarının formalaşdırılmasına imkan verməsi baxımından əhəmiyyətlidir. Bununla yanaşı, 1970-ci ildə 1196 Saylı «Türkiyə Tütün Satış Kooperativləri və Bölgə

Birliklərilə Türkiyə Tütün Satış Kooperativləri Ümumi Birliği Qanunu» və 1972-ci il tarixli 1581 Saylı «Aqrar Kredit Kooperativləri və Birlikləri Qanunu» qəbul edilmişdir [64, 69, 70].

Üçüncü Beşillik İnkişaf Planında (*1973-1977*) isə önəmli bir məsələ üzərində dayanılmışdır. Belə ki, planda kooperativçilik siyasətilə bağlı məqsədin dağınıq fərdi əmək, güc, bacarıq və yığım potensialının iqtisadi və sosial inkişafın sürətləndirilməsinə yönəldilməsi olduğu bildirilərək, dövlət yardımlarının koordinasiyasını həyata keçirəcək bir Kooperativ Mərkəzi Bankının qurulması nəzərdə tutulmuşdur.

Dördüncü Beşillik İnkişaf Planında (*1979-1983*) kooperativlərə daha geniş yer verilmiş, istehsal kooperativləri və onların ali qurumları ilə iştirakçı və ya tacir kooperativləri və ali qurumları arasında əlaqə və əməkdaşlığın qurulması xüsusi vurğulanmışdır.

Beşinci Beşillik İnkişaf Planında (*1985-1989*) aqrar sektorun inkişafına xidmət edəcək kooperativlərin dəstəklənəcəyi qeyd edilməklə yanaşı, bu dövrdə bir sıra hüquqi dəyişikliklər həyata keçirilmişdir.

Altıncı Beş İllik İnkişaf Planında (*1990-1994*) kiçik və orta sahibkarlığın müasir xammal və yarımfabrikatdan istifadəsi və aqrar məhsulların işləmə və marketinqinin kooperativlər vasitəsilə həyata keçiriləcəyi vurğulanmışdır.

Yeddinci Beşillik İnkişaf Planında (*1996-2000*) Aqrar Satış Kooperativləri Birliklərinin idarəetməsinin müxtariyyətinə xüsusi önəm veriləcəyinə diqqət yetirilir. Həmçinin də xüsusilə təzə meyvə və tərəvəz istehsalçılarının və istehsalçı birlik və kooperativlərinin məhsullarını sata bilmələri üçün İstehsalçı Bölgə Topdansatış Tərəvəz Bazarı Qanununun hazırlanması ilə bağlı işlər görülərək müvafiq hüquqi dəyişikliklər edilmişdir.

Səkkizinci (*2001-2005*) və Doqquzuncu (*2007-2013*) Beşillik İnkişaf Planlarında da kooperativlərə önəm verilmiş, xüsusilə Aqrar Satış Kooperativ və Birliklərinin müstəqilliyinin və onların restrukturizasiyasının təmin edilməsinə çalışılmışdır [64].

Türkiyədə 1982-ci ildə qəbul edilmiş və indi də qüvvədə olan Konstitusiyada da kooperativçiliyə xüsusi yer verilmişdir. Konstitusiyanın 171-ci maddəsində göstərilir: «Dövlət, milli iqtisadiyyatın mənafelərini diqqətə alaraq, öncəliklə istehsalın artırılmasının və istehlakçıların qorunmasını hədəfləyən kooperativçiliyin inkişafını təmin edən tədbirlər görür. Kooperativlər dövlətin hər cür nəzarət və təftişinə tabe olub, siyasətlə məşğul ola bilməzlər və siyasi partiyalarla əməkdaşlıq edə bilməzlər» Sonralar iyul 1995-ci ildə Konstitusiyaya edilən bir dəyişikliklə kooperativlərə qoyulan bu siyasət qadağası da aradan qaldırılmışdır.

Göründüyü kimi, Atatürkdən sonra Türkiyədə kooperativ hərəkatının inkişafı bir qədər səngisə də, ölkənin planlı inkişaf yoluna daxil olduğu 1960-cı illərdən başlayaraq bu sahədə də önəmli inkişaf baş vermişdir. Xüsusilə Türkiyə dövləti tərəfindən regional və aqrar inkişafın əsas vasitələrindən biri kimi qəbul edilən kooperativlər 1969-cu ildə qəbul edilən 1163 saylı «Kooperativlər Qanunu» ilə modern inkişaf yoluna qədəm qoymuşdur. Qanuna əsasən Türkiyədə qurulan kooperativləri aqrar və qeyri-aqrar kooperativlərə bölmək mümkündür ki, hazırda birincilər Türkiyə Respublikası Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi, ikincilər isə Sənaye və Ticarət Nazirliyinin tənzimləmə və nəzarəti altında fəaliyyət göstərirlər.

## 7.2. Türkiyədə kooperasiyanin müasir vəziyyəti və qiymətləndirilməsi

***Müasir Türkiyədə kooperativ anlayışı.*** Türkiyə Respublikası 1163 saylı Kooperativlər Qanununun 1-ci maddəsinə görə «hüquqi şəxs statusunda olmaqla, üzvlərinin (*ortaqlar*) müəyyən iqtisadi maraqlarını, xüsusilə peşə və ya həyat ehtiyaclarını əmək və maliyyə ayırmaları ilə qarşılıqlı yardım, həmrəylik və zəmanət yolu ilə təmin edib qorumaq məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən qurulan dəyişkən üzvlü və dəyişkən sərmayəli ortaqlıqlara kooperativ deyilir».

Qanunun 9-cu maddəsində dövlət və özəl hüquqi şəxslərin də kooperativ qurucusu ola biləcəyi göstərilmişdir. Beləliklə, tarixən fərdlərin birliyi olan kooperativlərin şirkətlərlə fərdlərin ortaq birliyi kimi formalaşa biləcəyinə də şərait yaradılmışdır.

***Türkiyədə kooperativlərin təşkilati-hüquqi formaları.*** Türkiyədə demək olar ki, kooperasiyanın bütün təşkilati-hüquqi formalarına təsadüf etmək mümkündür.

Aşağıdakı cədvəldə Türkiyədə kooperativlərin təsnifatı verilmişdir:

***Cədvəl 7.1***

**Tükiyədə kooperativlərin təsnifatı**

| Təsnifat meyarı | Kooperativ formaları |
|---|---|
| Məqsədlərinə görə | *Bir məqsədli kooperativlər* |
| | *Çox məqsədli kooperativlər* |
| Aqrar sektorla bağlılığına görə | *Aqrar kooperativlər* |
| | *Qeyri-aqrar kooperativlər* |
| İqtisadi sektorlara görə | *Aqrar kooperativlər* |
| | *Sənaye kooperativləri* |
| | *Xidmət kooperativləri* |
| | *Tikinti kooperativləri* |
| Fəaliyyət bölgələrinə görə | *Əyalət kooperativləri* |
| | *Şəhər kooperativləri* |
| Üzvlərinin iqtisadi fəaliyyətinə görə | *İstehsal kooperativləri* |
| | *İstehlak kooperativləri* |
| Hüquqi tənzimləmələrinə görə | *Kooperativlər Qanunu ilə tənzimlənən kooperativlər* |
| | *Xüsusi kooperativ qanunları ilə tənzimlənən kooperativlər* |
| Dövlət tənzimləmə və nəzarət qurumlarına tabeliyinə görə | *Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyinə tabe olan kooperativlər* |
| | *Sənaye və Ticarət Nazirliyinə tabe olan kooperativlər* |

Türkiyədə kooperativlərin təşkilati-hüquqi formalarının birinci səciyyəvi cəhəti, onların bir məqsədli və çoxməqsədli olmalarıdır. Belə bir təsnifatda kooperativin öz məqsədi kimi seçdiyi fəaliyyət və ya fəaliyyətlər əsas götürülür. Kooperativ müəyyən bir sahədə (*məsələn, xammal təchizatı, kredit, marketinq kimi*) fəaliyyət göstərdiyi təqdirdə bu kooperativlər bir məqsədli, üzvlərinin bir sıra sahələrlə bağlı ehtiyaclarını ödəyən kooperativlər isə çoxməqsədli kooperativlər kimi qəbul edilir.

Türkiyədə kooperativlərin əyalət və şəhər kooperativlərinə bölünməsi də səciyyəvi haldır. Belə ki, Mənzil-tikinti, Kiçik Sənaye Şəhərciyi, Toplu İşyeri, Mühərrikli Nəqliyyatçılar, Tacir Təminat və İstehlak kooperativləri şəhər kooperativləri, Aqrar Satış, Aqrar Kredit, Kənd İnkişaf, Su məhsulları kimi kooperativlər əyalət kooperativləri sayılır. Digər mühüm cəhət kooperativlərin hüquqi tənzimlənməsi ilə bağlıdır. Belə ki, əksər kooperativlər 1163 Saylı Kooperativlər Qanunu ilə tənzimləndiyi halda, digərləri 1581 Saylı qanunla tənzimlənən Aqrar Kredit Kooperativləri və 4572 Saylı qanunla tənzimlənən Aqrar Satış Kooperativləri və Tütün Aqrar Satış Kooperativləridir.

Nəhayət, dövlət tənzimləmə və nəzarət orqanlarına tabelilik baxımından da kooperativlər təsnif olunur. Aqrar və ya əyalət kooperativləri Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi, qeyri-aqrar və ya şəhər kooperativləri isə Sənaye və Ticarət Nazirliyinin tənzimləmə və nəzarəti altındadır.

***Türkiyədə aktiv fəaliyyətdə olan kooperativ növləri.*** Türkiyədə kooperasiyanin demək olar ki, bütün növləri fəaliyyət göstərməkdədir.

Əlavə 6-da Türkiyədə aqrar və qeyri-aqrar olmaqla fəaliyyətdə olan kooperativ növlərinin qruplaşdırılması öz əksini tapan sxem verilmişdir:

Hazırda Türkiyədə aktiv fəaliyyət göstərən 25 növ kooperativ mövcuddur. Bunların ümumi sayı 55 minə, üzvlərinin sayı isə 7 milyon 355 min nəfərə çatmışdır.

Aşağıda Tükiyədə 2008-ci ildə aktiv fəaliyyətdə olan kooperativlərin sayını əks etdirən cədvəl verilmişdir:

*Cədvəl 7.2*

**Tükiyədə 2008-ci ildə fəaliyyət növlərinə görə aktiv kooperativlərin sayı**

| Kooperativlərin növlər | Kooperativlərin sayı | Üzvlərin sayı |
|---|---|---|
| *Aqrar İnkişaf Kooperativləri* | 7461 | *790 029* |
| *Suvarma Kooperativləri* | 2417 | *286 100* |
| *Su Məhsulları Kooperativləri* | 522 | *28 186* |
| *Çuğundur Əkinçiləri Kooperativləri* | 31 | *1 587 486* |
| *Aqrar Kredit Kooperativləri* | 1895 | *1 284 989* |
| *Aqrar Satış Kooperativləri* | 330 | *670.080* |
| *Tütün Aqrar Satış Kooperativləri* | 35 | *22 514* |
| *Mənzil-tikinti Kooperativləri* | 31327 | *1 302 395* |
| *İstehlak Kooperativləri* | 1273 | *211 875* |
| *Mühərrikli Nəqliyyatçılar Kooperativləri* | 5356 | *176 159* |
| *Tacir və Sənətkarlar Təminat Koop.* | 938 | *642 108* |
| *Kiçik Sənət Kooperativləri* | 95 | *6 559* |
| *Kiçik Sənaye Şəhərciyi Tikinti Koop.* | 776 | *117 208* |
| *Turizmi İnkişaf Etdirmə Kooperativləri* | 265 | *14 756* |
| *İstehsal və Marketinq Kooperativləri* | 280 | *21 316* |
| *Tədarük Kooperativləri* | 1 | *18* |
| *Kütləvi İşyeri Tikinti Kooperativləri* | 1154 | *84 762* |
| *Nəşriyyat Kooperativləri* | 28 | *615* |
| *Hamballar Daşıma Kooperativləri* | 9 | *547* |
| *İşlətmə Kooperativləri* | 420 | *67 111* |
| *Yardımlaşma Kooperativləri* | 14 | *18 995* |
| *Təhsil Kooperativləri* | 23 | *2 246* |
| *Müstəqil Aqrar Satış Kooperativləri* | 6 | *371* |
| *Təchizat və Bölüşdürmə Kooperativləri* | 199 | *17 011* |
| *Tər Tərəvəz və Meyvə Kooperativləri* | 33 | *1 782* |
| **Cəmi** | **54 888** | **7 355218** |

Mənbə: Sənaye və Ticarət Nazirliyi, Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi

Cədvəl 7.2-dən göründüyü kimi, Türkiyədə kooperativlərin sayca ən çoxu - 31327-i, təxminən 57%-i *Mənzil-tikinti Kooperativləridir*. Bu kooperativlər, aşağı və orta gəlirli türk vətəndaşlarının mənzil ehtiyaclarını mümkün qədər aşağı qiymətlərlə təmin etmək məqsədilə qurduqları kooperativlərdir. Türkiyədə ilk mənzil kooperativi 1887-ci ildə İstanbulda etnik ingilislərin bəzi məmurları tərəfindən şirkət adı ilə qurulmuşdur [64].

Mənzil-tikinti kooperativlərindən sonra sayca ikinci sırada *Aqrar İnkişaf Kooperativləri* dayanır. Bunların sayı 7461, üzvlərinin sayı isə 790 min nəfərdən çoxdur. Türkiyədə 1163 Saylı Kooperativlər Qanununun qəbulu ilə qurulmağa başlanan Aqrar İnkişaf Kooperatifləri çoxməqsədli kooperativlərə tipik nümunədir. Onlar aqrar təsərrüfatların məhsuldarlığını artırmaq, marketin-satış sistemini qurmaq, xammal, kredit və digər ehtiyacları ödəmək, əyalət sənayesinin qurulmasını təmin etmək kimi bir sıra məqsədləri reallaşdırmaq məqsədilə qurulur.

*Mühərrikli Nəqliyyatçılar Kooperativləri* isə Türkiyədə sayca (*5356*) üçüncü yeri tuturlar. Bunlar nəqliyyatçılığı peşə kimi seçən şəxslər (*avtobusçular, taksiçilər, ağır yük daşıyıcıları, dəniz yük daşıyıcıları*) tərəfindən qurulan kooperativlərdir. Bu kooperativlərə üzv olmaq üçün şəxslər nəqliyyatçılıqla məşğul olduqlarını Tacir və Kiçik Sənətkarlar Dərnəyində təsdiq etdirməlidirlər. Kooperativlərin məqsədi nəqliyyat xidmətlərinin marketinqini təşkil etmək və üzvlərin bu xidmətlərlə bağlı ehtiyaclarını təmin etməkdir.

Türkiyədə *Aqrar Kredit Kooperativləri* də həm öz sayları, həm də üzvlərinin sayına görə önəmli yeri tuturlar. Aqrar Kredit Kooperativləri, üzvlərinin qısa və ortamüddətli kredit ehtiyaclarını təmin edir.

*Aqrar Satış Kooperativləri,*Türkiyədə aqrar istehsalçıların qarşılıqlı yardım, həmrəylik və təminat yolu ilə aqrar fəaliyyətləri ilə bağlı ehtiyaclarını ödəmək, məhsullarını

daha əlverişli şərtlərlə reallaşdırmaq və iqtisadi mənafelərini qorumaq məqsədilə xidmət göstərirlər. Bu məqsədi reallaşdırmaq  üçün onlar üzvlərinin məhsullarını alıb, ən əlverişli şərtlərlə reallaşdırmaq, zərurət olduqda məhsulları işləyib hazır məhsul halına gətirərək bazara çıxarmaq və üzvlərin istehsal üçün ehtiyac duyduğu hər növ istehsal faktorlarını təmin etməyə çalışırlar.

Cədvəl 7.2-dən göründüyü kimi, *Çuğundur Əkinçiləri Kooperativləri* sayca az olsa da, 1,6 milyona çatan üzvlərinin sayına görə Türkiyədə ilk sıradadır. Bu kooperaativlər daha çox xammal və təchizat təminatı sahəsində fəaliyyət göstərir və üzvləri olan şəkər çuğunduru istehsalçılarını bu xammal və təchizatla (*toxum, gübrə, dərman, maşın və.s*) topdan təmin edərək, münasib şərtlərlə satmaqdadır. Çuğundur Əkinçiləri Kooperativlərində üzv sayının belə çox olmasının səbəbi, Türkiyədə şəkər çuğunduru istehsal edən və şəkər fabriklərinə təqdim edən bütün fermerlərin eyni zamanda Çuğundur Əkinçiləri Kooperativlərinə üzv olmasıdır [65].

*Suvarma Kooperativlərinin* qurulmasının əsas məqsədi dövlət tərəfindən reallaşdırılan təbii suvarma sistemlərinin işlədilməsi və ya bir qrup fermerin özləri tərəfindən reallaşdırdıqları suvarma xidmətlərində daimi xərclərin ödənməsi ilə davamlılığın təmin edilməsidir. Beləliklə, çox böyük məbləğlərlə reallaşdırılan suvarma sistemlərinin rasional istifadəsi təmin edilməyə çalışılır. Eyni zamanda bu kooperativlər su mənbəyinə görə yeraltı və yerüstü suyu suvarma kooperativlərinə ayrılırlar.

*Su Məhsulları Kooperativlərinin* qurulma məqsədi su məhsullarının istehsalı və əldə edilməsi üçün zəruri olan vasitələrə birgə yiyələnməkdir. İlk Su Məhsulları Kooperativi 21 aprel 1921-ci ildə İstanbulda qurulmuş, 1960-cı ildən sonra sayları artmağa başlamışdır. Bu kooperativlər də mahiyyət etibarilə çoxməqsədli kooperativlərdir [63].

Tütün Türkiyədə təxminən 500 min ailə tərəfindən 300 min hektarlıq sahədə istehsalı həyata keçirilən bir bitki olmaqla, ölkə iqtisadiyyatı üçün məşğulluq və gəlir təmini ilə yanaşı, həmçinin mühüm valyuta mənbəyidir. Uzun müddət tütün təsərrüfatı ilə məşğul olan istehsalçılar, sosial və iqtisadi mənafelərini qoruyaraq, həmrəyliyi təmin etmək, məhsullarını əlverişli qiymətə sata bilmək və ehtiyac duyduqları bilik və istehsal vasitələrini ucuz formada əldə etmək məqsədilə təşkilatlanmağa 1938-ci ildə Həsənkef Tütün Aqrar Satış Kooperativlərini qurmaqla başlamışdır. 1969-cu ildə isə 1196 saylı «Tütün Aqrar Satış Kooperativləri Qanunu» qəbul edilmiş və o tarixdən *Tütün Aqrar Satış Kooperativlərinin* geniş yayılmasına başlanmışdır [63].

*İstehlak Kooperativləri* də Türkiyədə geniş yayılmış kooperativ növlərindəndir. Hazırda 1273 İstehlak kooperativi aktiv fəaliyyət göstərir ki, bunların da üzvlərinin ümumi sayı 210 min nəfəri keçmişdir. İstehlak kooperativləri istehlakçıların ehtiyacı olduğu istehlak mallarını ən əlverişli və mümkün olduğu qədər ucuz qiymətlə təmin etmək məqsədilə həmrəylik əsasında iqtisadi imkanlarını birləşdirdikləri kooperativlərdir.

Bütün ölkələrdə olduğu kimi, Türkiyədə də kiçik tacir və sənətkarların, kiçik sənaye müəssisələrinin maddi təminatları olmadığından özəl banklardan birbaşa kreditalma problemi vardır. Bunun müəyyən qədər də olsa həlli məqsədilə üzvləri tacir və sənətkarlar adından ortaq və bərabər formada banklardan kredit almalarını təmin etmək məqsədilə *Tacir və Sənətkarlar Təminat Kooperativləri* qurulmuşdur. Kooperativin əsas məqsədi də ortaqları olan tacir və sənətkarların ehtiyacı olduqları və təkbaşına ala bilmədikləri kredit resurslarını banka zəmanət vermək şərtilə təmin etməkdən ibarətdir. İlk belə kooperativ 1951-ci ildə Türkiyə Xalq Bankının dəstəyilə Ankarada qurulmuş və sonralar Əskişəhər və Bursada inkişaf etdirilmişdir. Hazırda 940-a qədər belə kooperativ fəaliyyət

göstərir ki, onların da üzvlərinin ümumi sayı 640 min nəfəri ötmüşdür.

1967-ci ildən başlayaraq, Türkiyədə turizm kooperasiyası da geniş yayılmağa başlamışdır. Bu gün bu kooperativlər *Turizmi İnkişaf Etdirmə Kooperativləri* adı ilə fəaliyyət göstərirlər. Hazırda 265 belə kooperativ aktiv fəaliyyət göstərir ki, onların da ümumi üzvlərinin sayı 15 min nəfərə çatmışdır. Bu kooperativlərn məqsədi təbii, tarixi, arxeoloji və sosial-mədəni turizm dəyərləri ilə turizm potensialının inkişaf etdirilməsinə kömək etmək və üzvlərinin turizm ilə bağlı ehtiyaclarını təmin etməkdir. 1980-cı illərdən sonra daha sürətlə inkişaf edən bu kooperativ növü əsasən Türkiyənin Egey və Aralıq Dənizi sahilləri ilə Nevşehirdə fəaliyyət göstərməkdədir. Mədəniyyət və Turizm Nazirliyi ölkədə turizm kooperasiyasını təşviq etmək məqsədilə öz nəzdində Turizmi İnkişaf Etdirmə Kooperativləri İdarəsini belə qurmuşdur [63].

Türkiyədə ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət daşıyan tacir və sənətkar tipli işlətmələr, mövcud çətinliklərini aradan qaldırmaq, daha səmərəli istehsal qurmaq, infrastrukturu yetərli və digər bir qisim sosial obyektləri mövcud olan iş mühitləri əldə etmək məqsədilə kooperativlər qurmaya başlamışdır ki, bunlar da *Kütləvi İşyeri Tikinti Kooperativləri* adlandırılır. Zamanla dövlətin bu bölməyə marağı artmış və bunların inkişafının iqtisadiyyata və məşğulluğa olan təsirini artırmaq məqsədilə kooperativ və oxşar qurumlar şəklində təşkilatlanmalarını təşviq etmişdir. Hazırda Türkiyədə 1154 belə kooperativ aktiv fəaliyyət göstərir ki, onların da üzvlərinin ümumi sayı 85 min nəfərə çatmışdır.

*Təchizat və Bölüşdürmə Kooperativləri* üzvlərinin peşə ehtiyaclarını ilk mənbədən və ya digər satıcılardan münasib şərtlərlə və ucuz qiymətlərlə nağd və ya kreditli formada təmin etmək məqsədilə qurulan kooperativlərdir. Buna ən uğurlu nümunə əczaçıların dərman ehtiyaclarını ödəmək, dərmanların təmin, bölüşdürmə və zərurət olduqda istehsal fəa-

liyyətlərini tənzimləmək, əczaçılq və dərman sektorunun sağlam fəaliyyət göstərməsini təmin etmək və öz hüquq və mənafelərini qorumaq məqsədilə «Əczaçılıq Kooperativi»ni formalaşdırmalarıdır. Bu gün Türkiyədə 199 bu növ kooperativ mövcuddur ki, onların da üzvlərinin ümumi sayı 17 min nəfəri ötmüşdür.

Eyni növ mal və xidmət istehsalı və emalı ilə məşğul olan istehsalçı və emalatçıların istehsal etdikləri və ya emal etdikləri məhsulları əlverişli şərtlərlə satmaq və üzvlərinin iqtisadi mənafelərini qorumaq məqsədilə *İstehsal və Marketinq Kooperativlərinin* qurulması da Türkiyədə geniş yayılmışdır. Bu kooperativlərin funksiyalarının bir çoxu digər kooperativlər tərəfindən də yerinə yetirildiyindən, elə də yüksək inkişaf etməmişlər. Ancaq bu gün 21 mindən çox üzvü özündə birləşdirən 280 bu tipli kooperativin aktiv fəaliyyət göstədiyi məlumdur.

Kiçik Sənaye Kooperativləri də adlandırılan *Kiçik Sənət Kooperativləri* üzvləri olan kiçik sənətkarlara peşə fəaliyyətləri ilə bağlı ehtiyac duyduqları hər növ xammalı ilk mənbədən keyfiyyətli, ucuz və vaxtında təmin etmək və eyni zamanda istehsal edilən hazır məhsulların marketinqini həyata keçirmək və istehsalı planlaşdırmaq məqsədilə qurulan kooperativlərdir. Türkiyədə ilk belə kooperativ 1924-cü ildə İstanbul və Edirnede qurulmuşdur. Onlar əsasən toxuculuq, inşaat sənayesi, torpaq sənayesi, xarratlıq, ayaqqabı emalı kimi əl sənətinin üstünlük təşkil etdiyi sahələrdə geniş yayılmışdır.

Türkiyədə inkişaf edən spesifik kooperativ növlərindən biri də *Nəşriyyat Kooperativləridir*. Üzvlərinin yazdıqarı əsərləri nəşr etmək və reallaşdırmaq məqsədilə qurulan bu kooperativlərin sayı 1996-cı ildə 4 olduğu halda, 2008-ci ildə 28-ə yüksəlmiş və üzvlərinin ümumi sayı 600-ü keçmişdir.

Türkiyədə hambalların da kooperativlərinə rast gəlmək mümkündür. Əsasən İstanbulda qısa məsafələrdə öz bədənlə-

rilə yük daşıyan işçilərin daşıma fəaliyyətlərini bir təşkilat daxilində həyata keçirmək məqsədilə *Hamballar Daşıma Kooperativləri* qurduğunu görürük. 1996-cı ildə ümumi sayı 2 olan bu kooperativlər 2008-ci ildə 9-a, üzvlərinin ümumi sayı isə 110 nəfərdən 547-ə yüksəlmişdir.

Üzvlərinin müxtəlif təhsil xidmətlərini maya dəyərilə ödəmək məqsədilə qurulan *Təhsil Kooperativləri* də son dövrlər geniş inkişaf etməkdədir. Hazırda üzvlərinin ümumi sayı 2246 nəfər olan 23 belə kooperativ fəaliyyət göstərməkdədir.

*Türkiyədə kooperativ ittifaqları* - 1163 saylı Kooperativlər Qanununun 70-ci maddəsində göstərilir ki, kooperativlərin müştərək mənafelərini qorumaq, məqsədlərini reallaşdırmaq üçün iqtisadi fəaliyyət göstərmək, fəaliyyətlərini kooprdinasiya və təftiş etmək, xarici ölkələrlə olan münasibətlərini tənzimləmək, kooperasiyanı inkişaf etdirmək və təhsilini təşkil etmək, kooperasiya məsələlərilə bağlı tövsiyələr vermək kimi xidmətlərin yerinə yetirilməsi üçün Kooperativ birlikləri, Kooperativ Mərkəzi Birlikləri və Türkiyə Milli Kooperativlər Birliyi qurulmalıdır.

*Kooperativ Birlikləri* bir-birilə oxşar xarakterdə olan ən az 7 kooperativ tərəfindən qurulur.

1163 saylı Qanunun 76-cı maddəsində göstərilir ki, Kooperativ Birlikləri öz aralarında kooperativ formasında *Mərkəzi Birlikləri* qura bilərlər. Həmçinin eyni fəaliyyət sahəsində olan Koopertiv Birliklərinin 1-dən çox Kooperativ Mərkəz Birliyi qurmasına da icazə verilmir.

77-ci maddədə göstərilir ki, Birliklər və ya Mərkəzi Birlikləri kooperativ formasında *Türkiyə Milli Kooperativlər Birliyini* qura bilərlər.

Göründüyü kimi, Türkiyədə kooperativ ittifaqları qurulan zaman, əvvəlcə Kooperativ Birlikləri, sonra onlardan Kooperativ Mərkəzi Birlikləri və sonuculardan da Türkiyə Milli Kooperativlər Birliyi formalaşdırılır.

Bu uzlaşma sxematik olaraq aşağıda əksini tapmışdır:

*Sxem 7.1*

**Türkiyədə kooperativlərin təşkilatlanma modeli**



Bunlarla yanaşı, Qanunun 80-cı maddəsində Türkiyə Milli Kooperativlər Birliyi İdarəetmə Şurası ilə Dövlət Planlaşdırma Təşkilatı, Ticarət, Kənd Təsərrüfatı, Maliyyə, Kənd İşləri, Abadlaşdırma və Məskunlaşdırma, Milli Təhsil və Sənaye nazirlikləri, kooperativləri maliyyələşdirən banklar və Türkiyə Kooperativçilik Qurumunun hər birindən bir nümayəndənin iştirakı ilə *Türkiyə Kooperativləri Məsləhət Şurası* yaradılır.

Həmçinin Türkiyə kooperativlərinin beynəlxalq kooperaiv hərəkatı ilə də sıx əlaqəsi vardır. Belə ki, bu gün TARİŞ, Aqrar Kredit Kooperativləri Mərkəzi Birliyi, PANKOBİRLİK, Türkiyə Milli Kooperativlər Birliyi və Türk Kooperativçilik Qurumu Beynəlxaq Kooperativ Alyansının (*ICA*) aktiv üzvləri kimi fəaliyyət göstərirlər.

***Türkiyədə kooperativlərin mərkəzi qurumları*** - Türkiyədə kooperativlərin təsisi, fəaliyyəti və onlar üzrəində nəzarətindən məsul olan iki başlıca mərkəzi icra hakimiyyəti mövcuddur: Sənaye və Ticarət Nazirliyi (*Təşkilatlandırma Baş İdarəsi*) və Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi (*Təşkilatlandırma və Dəstəkləmə Baş İdarəsi*). Bunlarla yanaşı, Meşə Nazirliyi (*meşə kəndləri inkişaf etdirmə kooperativlərinə bəzi xidmətlər göstərir*), Milli Təhsil Nazirliyi və Universitetlər kooperativlərlə bağlı funksiyaları icra edirlər. Həmçinin Dövlət bankı olan Ziraat Bankı və digər fondlar vasitəsilə aqrar kooperativlərə, Türkiyə Xalq Bankı vasitəsilə tacir və sənətkar kooperativlərinə, TOKİ (*Türkiyə Kütləvi Mənzil İdarəsi*) vasitəsilə Mənzil-tikinti kooperativlərinə, Sənaye və Ticarət Nazirliyi vasitəsilə Kiçik Sənaye Şəhərciyi Tikinti kooperativlərinə kredit dəstəyi göstərilir.

***Türkiyədə kooperasiya qanunvericiliyinin inkişafı*** - Qeyd etdiyimiz kimi, Türkiyədə kooperativlərlə bağlı ilk qanunvericilik 1867-ci tarixli Məmləkət Fondları (*Sandıkları*) Nizamnaməsidir. Midhət Paşa tərəfindən hazırlanan və padşahın təsdiqindən keçən Nizamnamə bu fondların Ziraat Bankına çevrildiyi 1888-ci ilə qədər qüvvədə olmuşdur. 1923-cü ildə Res-

publikanın elanından əvvəl, iqtisad vəkaləti tərəfindən çıxarılan «İstehsal, Alqı-Satqı Kooperativləri Əsasnaməsi» hökmlərinə əsaslanaraq, 1928-ci ilə qədər müxtəlif növlərdə 40-a qədər kooperativ qurulumuşdur. Əsasnamədə İqtisadiyyat Nazirliyi büdcəsindən kooperativlərə yardım edilməsi və bir dövlət bankı olan Ziraat Bankı tərəfindən kredit açılması nəzərdə tutulmuşdur. 1926-cı ildə qəbul edilən Ticarət Qanunu beş növ ticarət şirkəti arasında kooperativ şirkətlərini nəzərdə tutmuşdur. 1956-cı ildə qəbul edilən Ticarət Kanununda da demək olar ki, eyni əsaslar qorunub saxlanılmışdır. Bu dövrdə əvvəlcə də qeyd etdiyimiz kimi, aqrar satış, aqrar kredit kooperativləri ilə bağlı qanunlar da qəbul edilmişdir.

1961-cı ildə qəbul edilən Konstitusiyanın 51-ci maddəsində «Dövlət kooperasiyasının inkişafını təmin edən tədbirlər görür» ifadəsinə yer verilmiş və 53-cü maddə də bu tədbirlərin iqtisadi inkişaf və maliyyə resurslarının yetərliliyi çərçivəsində ...» yerinə yetiriləcəyi qeyd edilmişdir. Kooperasiyanın inkişafını təmin edəcək tədbirlərin alınması dövlətə konstitusyon bir hökmlə əmr edilmiş olsa da, hökumətdə olan siyasi partiyaların fəlsəfəsinə bağlı olaraq, iqtisadi və maliyyə məhdudiyyətlərini əsas gətirərək istənildiyi zaman bu tədbirlərin alınması geçikdirilə bilirdi. Burada kooperasiyanın inkişafı tamamilə hökumətlərin təşəbbüsünə bağlanmışdır.

Bu dövrdən sonra hazırlanan hər inkişaf planında və iqtidara gələn hökumət proqramlarında kooperativlərə yer verilmişdir. Elə II Beşillik İnkişaf Planı dövründə 1163 Saylı Kooperativlər Qanununun qəbul edilməsilə, ölkədə çoxlu sayda kooperativin qurulması da birbaşa Konstitusiyanın göstərilən maddəsindən irəli gəlmişdir.

1982-ci il Konstitusiyasında da kooperasiya ilə bağlı maddələr vardır. Belə ki, 171-ci maddədə «dövlət, milli iqtisadiyyatın mənafelərini diqqətə alaraq, xüsusilə istehsalın artırılmasını və istehlakçının qorunmasını nəzərdə tutan kooperasiyanın inkişafını təmin edəcək tədbirlər alır. Kooperativlər, dövlətin

hər cür nəzarət və təftişinə tabe olub, siyasətlə məşğul ola bilməz və siyasi partiyalarla əməkdaşlıq edə bilməzlər» müddəasına yer verilmişdir. Beləliklə, 1982 Konstitusiyası kooperativlərə siyasət qadağası qoymuş və dövlət təftişi gətirmişdir. Ancaq Kooperativlərə qoyulan siyasət qadağası, siyasi partiyalarla əməkdaşlıq edilə bilməyəcəyini və dövlətin təftişinə tabe olduğu ilə bağlı müddəalar 1996-cı ildə Konstitusiyadan çıxarılmışdır.

Hazırda ölkədə kooperativlərin əksəriyyətinin fəaliyyəti 1163 Saylı Kooperativlər Qanunu ilə tənzimləndiyi halda, bəziləri xüsusi qanunlarla tənzimlənir. Xüsusi qanunlarla tənzimlənənlərə 1581 Saylı Aqrar Kredit Kooperativləri və 4572 Saylı Aqrar Satış Kooperativləri və Tütün Aqrar Satış Kooperativləri qanunlarla tənzimlənən kooperativlər aiddir.

***Türkiyədə kooperasiya təhsili.*** Türkiyədə kooperasiya təhsili ilə bağlı araşdırmalar tarixən Ahlik deyilən qurumda təşkil edilən təhsilin öyrənilməsilə başlayır. Belə ki, Ahlikdə təhsilin ilk bölməsi, hər bir peşə və ya sənət qolundan olan usta və ustalar məclisi (*lonca*) tərəfindən verilən «işbaşı təhsili», sonrakı bölmə isə cəmiyyət həyatında Ahi şəxsə lazım olacaq ümumi bilikləri vermə məqsədini daşıyan «işdən kənar təhsil»dən ibarət olmuşdur [64].

Sonralar modern Universitetlərin sələfi olan Səlcuqludakı Nizamimülk mədrəsələri meydana gəlmiş və bunlar Osmanlı dövründə İznik və Bursada geniş yayılmaqla o dövrün kooperasiya biliklərini kütlələrə çatdırmışlar [64].

Eyni zamanda XIX əsrdə müasir dünya kooperasiya elminin başlanğıcı olaraq qəbul edilən Roçdeyl İstehlak Kooperativi və Alman-Avropa kooperasiya təhsilinə Türk Ahilik sisteminin böyük təsiri olduğu mütəxəssislər tərəfindən qəbul edilməkdədir [64].

Türkiyədə müasir anlamda kooperasiya təhsilinin başlanması da XIX əsrin sonlarından başlanmışdır.

1908-1918-ci illər arasında bu təhsil İstanbul Ticarət Məktəbi Alisi ilə Hüququ Mədrəsəsi və Mülkiyedə Teavün Şirkətləri nəzdində təşkil edilmişdir [64].

1930-34-cü illər arasında İstanbul İqtisad və Ticarət Məktəbi Almaniyadan gələn iqtisadçılar - professorlar G.Kessler və E.Hirchin də yardımı ilə Türkiyədə kooperasiya təhsilinin mərkəzi olmuşdur. Həmin dövrdən professor Süheyl Erbil, ordinarius professor Ziyaeddin Fındıkoğlu kimi Türk elm adamları da kooperasiya təhsili sahəsində uzun müddət xidmət göstərmişlər.

1938-ci ildə Türkiyə Milli Təhsil Nazirliyi ibtidai və orta məktəblərdə, lisey və pedaqoji məktəblərinə xas olan məktəb kooperativləri adlı layihələr həyata keçirmiş, 1948-ci ildə isə Kənd İnstitutları və ibtidai məktəblərdə kooperasiya tədris proqramlarına daxil edilmişdir.

1980-cı illərdə Türk Kooperativçilik Qurumu «Məktəb Kooperativləri Əsasnaməsi» hazırlamış və həyata keçirməyə başlamışdır.

III. Beşillik İnkişaf Planı Dövründə Ticarət liseylərində «Kooperasiya bölməsi» açılmışdır.

2 mart 2000-ci il tarixində isə Milli Təhsil Nazirliyi tərəfindən Kooperasiya Təhsili Layihəsi - 2000 (*KOOPEP-2000*) həyata keçirilməyə başlanmışdır.

Hazırda 100-dən çox Universitetin İqtisadiyyat və İdarəetmə Elmləri Fakültələrində, Pedaqoji Fakültələrində və bəzi Peşə Texnikumlarında kooperasiya təhsili verilməkdədir.

Beləliklə, Türkiyədə kooperasiya təhsili dedikdə, kooperativlər və ya onların ali qurumlarının verdiyi təhsil, Vəqflərin verdiyi təhsil, nazirliklərin verdiyi təhsil və Türk Kooperativçilik Qurumunun verdiyi, xüsusilə nəşrlər vasitəsilə həyata keçirilən təhsil nəzərdə tutulmalıdır. Bu gün Türkiyədə kooperasiya ilə bağlı əsas elm və təhsil mərkəzi Türkiyə Kooperativçilik Qurumu sayılır.

***Türkiyədə kooperativlərə verilən təşviqlər.*** Ölkədə kooperasiya ilə bağlı bir sıra dövlət təşviq mexanizmləri var ki, onların da əsasında vergilərlə bağlı təşviqlər dayanır.

1163 Saylı Kooperativlər Qanununun 93-cü maddəsində göstərilir ki, Kooperativlər, Kooperativ Birlikləri, Kooperativ Mərkəzi Birlikləri və Türkiyə Milli Kooperativlər Birliyi:

a. bir-birindən və ortaqlarından aldıqları faiz və komisyon haqları ilə ortaqlarına kəfalət (*zamin*) durmaları nəticəsində bunlardan aldıqları pullar, bank və sığorta əməliyyatları vergilərindən;
b. hər növ sənədlərin və əsasnamələrin təsdiqi və möhürlənməsi ilə bağlı vergilərdən;
c. kirayə verilmədiyi və ya gəlir gətirməyən hər hansı əməliyyata daxil edilmədiyi müddət ərzində sahib olduqları daşınmaz əmlak üzərindən alınacaq hər növ vergilərdən;
d. ortaqların təqdim edəcəkləri daşınmaz əmlaklar hər növ vergi və rüsumlardan azaddır.

Qanunda göstərilən bəzi güzəştlərdən yararlanmaları üçün kooperativlərin ali qurumlarda birləşmələri şərti də gətirilmişdir ki, bu da onların təşkilatlanmasını stimullaşdıran faktordur. Bundan başqa, kooperativlərə mənfəət, gəlir, əmlak, əlavə dəyər və digər vergilərlə bağlı bir sıra ciddi güzəştlər də qanunvericilikdə öz əksini tapmışdır. Eyni zamanda dövlət bankları vasitəsilə bir sıra kredit dəstəyi də mövcuddur.

## 7.3. Qloballaşma şəraitində Türkiyədə kooperasiyanin inkişaf perspektivləri

***Türkiyədə kooperativlərin mövcud problemləri.*** Bu gün Türkiyədə kooperativlər müəyyən bir inkişaf səviyyəsinə gəlib çatsa da, mütəxəssislərə görə bu mövcud potensialdan çox-çox aşağı səviyyədədir və bu potensialın reallaşdırılması üçün mövcud problemlərin aradan qaldırılması zəruridir [62]. Bu problemləri aşağıdakı kımı qruplaşdıra bılərık:

- ❖ Maliyyə problemləri;
- ❖ Təşkilati problemlər;
- ❖ Təhsil problemləri;
- ❖ Kooperativ-dövlət münasibətlərindəki problemlər;
- ❖ Nəzarət problemi;
- ❖ Sosioloji və psixoloji problemlər.

Maliyyə problemlərini qısa şəkildə aşağıdaki istiqamətlərdə ümumiləşdirə bilərik:

- Kooperativlərə kredit açılma şərtləri ağırdır. Bu vəziyyət kooperativlərin investisiya və xidmət xərclərini yüksəldir.
- Açılan kreditlərin maya dəyəri yüksəkdir. Bu hal kooperativin investisiya və xidmət xərclərini yüksəldir.
- Açılan kreditlərin müddətlərinin və faiz hədlərinin kredit məqsədlərinə görə təyin edilməsinə gedilməmişdir.
- Kreditlərin kooperativlər tərəfindən məqsədlərinə görə istifadə edilməsi tam təmin edilə bilməməkdədir.
- Müəyyən banklar xaricində heç bir bank kooperativlərə kredit imkanı yaratmamaqdadır.
- Dövlətin, xüsusilə uzunmüddətli kooperativ layihələrinə yardım edə bilməməsi, bunların uğurlu bir şəkildə inkişafına mane olmaqdadır.
- Türkiyədə kooperativləri yetərli və məqsədyönlü şəkildə dəstəkləyəcək özəl bir maliyyələşdirmə qurumu mövcud deyildir.

Təşkilati problemlər arasında göstərilən ən mühüm məsələ isə ondan ibarətdir ki, Türkiyədə tarixən kooperativ hərəkatının «aşağı»dan deyil, «yuxarı2dan, dövlət əli ilə formalaşdırılıb inkişaf etdirilməsi səbəbindən kooperativlərin hazırkı müstəqil təşkilatlanma fəaliyyətləri yetərsizdir. Xüsusilə aqrar məqsədli kooperativlər ali təşkilatlarını tam olaraq qura bilməmiş və ya tamamlaya bilməmişlər. Bu hal kooperativlərin və kooperasiyanın inkişafını əngəlləyən faktordur.

İkinci bir məsələ, kooperativlərin istehsalçı olan üzvlərinin istehsalın başından reallaşdırımaya qədər, bütün problemlərinə cavab verəcək vahid tip, ancaq çoxistiqamətli formada təşkilatlana bilməməsidir. Nəticədə xidmətlərin müxtəlif tərəfləri başqa-başqa kooperativlərlə birlikdə həyata keçirilir. Məsələn, bir kənddə çoxlu sayda kooperativin fəaliyyət göstərdiyini görmək mümkündür. Bunun nəticəsində də böyük bir uyğunsuzluq problemi ortaya çıxmaqdadır.

Ölkədə kooperativlərin inkişafı və uğur qazanması üçün, istər kooperativlərin bir işlətmə kimi fəaliyyət göstərməsi, istərsə də sosial bir qurum kimi üzvlərini maraqlandıran fəaliyyət şərtlərini tənzimləmək vəzifələrindən irəli gələrək keyfiyyətli kadrlara ehtiyacı vardır. Bu ehtiyacların olmasına baxmayaraq, Türkiyədə *kooperasiya təhsili* kəmiyyət və keyfiyyət baxımından elə də yüksək səviyyədə deyildir. Xüsusilə bu işin həyata keçirilməsi ilə bağlı fikir və düşüncələr dağınıq, tutarsız və yetərsizdir. Eyni zamanda kooperasiya təhsili ilə bağlı nəşr və təhsil resursları da mövcud ehtiyacları qarşılayacaq səviyyədə deyildir.

Türkiyədə *kooperativ-dövlət* münasibətlərində də bir sıra problemlər vardır. İlk növbədə, kooperativlər dövlət qurumlarından çox asılı vəziyyətdədir ki, bu da onların professional inkişafına mane olmaqdadır. Həmçinin, kooperativlərin siyasi maraqların təsirinə məruz qalması da ciddi səviyyədədir.

Türkiyədə kooperativlərin üzvlərinin böyük əksəriyyətinin bu cür təşkilatların incəliklərinə nüfuz edəcək səviyyədə olmamaları, kooperativlərdə təftiş və nəzarəti daha da yüksəltməyi tələb edir. Ancaq mövcud kooperativlərin təsisi və fəaliyyətləri ilə bağlı qanunvericiliyin ortaya qoyduğu prinsiplərə görə onların məqsədyönlü fəaliyyət göstərib göstərmədiklərini daimi *inzibati və maliyyə nəzarəti* altında tutmağa imkan vermir.

Ölkədə kooperativlərin inkişafına mane olan faktorlardan biri də *sosioloji və psixoloji* faktorlardır. Belə ki, düşüncə sistemi, adət və ənənə ilə köhnə vərdişlər, kooperativlərə qarşı

bir şübhəçliyin yayılmasına səbəb olmuş, yeniliyə qarşı bir müqavimət yaratmışdır. Mülkiyyət problemi bu sahədə ən önəmli problemlər arasındadır. Belə ki, torpaq bölgüsündəki nisbətsizlik böyük torpaq sahiblərinin kooperativlərə qarşı çıxmalarına səbəb olmaqda və hətta kooperativlərin özəl mülkiyyəti aradan qaldıran, kollektiv kooperativlərin yayılmasına mane olmaqdadır.

Bunlarla yanaşı, ölkədə insanların bir-birinə güvən səviyyəsinin getdikcə aşağı düşməsi və kənddən şəhərə köç də kooperasiyanın inkişafına təsir göstərməkdədir. Xüsusilə, köç səbəbindən aqrar kooperativlərin əksəriyyətində yaşlı əhali daha yüksək paya sahibdir ki, bu da onların dinamik inkişafına mənfi təsir göstərməkdədir [68].

***Türkiyədə kooperativlərin inkişaf perspektivləri.*** Göründüyü kimi, Türkiyədə kooperasiya hərəkatı xüsusilə, 1980-cı ildən başlayaraq, bazar mexanizminin gücləndiyi dövrdə sürətlə inkişaf etmişdir. Nəticədə çoxlu sayda mənzil-kooperativ və işyeri kooperativləri qurulmuşdur. Aqrar sektorda da kooperativ hərəkatında önəmli proseslər getmiş, kooperativlərin ortaq məhsullarının reallaşdırılması və xammal və avadanlıq təminatındakı payları əhəmiyyətli dərəcədə yüksəlmişdir. Ancaq o da etiraf edilməlidir ki, qloballaşma prosesi özəl sektoru, fərdiyyətçiliyi daha çox ön plana çıxardığından, bütün dünyada olduğu kimi Türkiyədə də kooperativ hərəkatına marağı bir qədər azaltmışdır. Ancaq bu o demək deyil ki, onların iqtisadi inkişafda bir rolu qalmamışdır. Xüsusilə, Avropa İttifaqı ilə tam üzvlük müzakirələrinin başlandığı bir dövrdə kooperativlərin iqtisadiyyatda üzərinə düşəcəyi vəzifələrin daha da artacağı düşünülür.

Şübhəsiz, Türkiyədə kooperasiyanın inkişafında dövlətin təmin etdiyi dəstəklərin də mühüm payı vardır. Onların əsasında da vergi azadolmaları və güzəştləri dayanmaqdadır. Hazırda Türkiyədə kooperativlərə Korporasiya Vergisi, Gəlir Vergisi və Əlavə Dəyər Vergisi kimi qanunlarda müxtəlif təşviqlər

nəzərdə tutulmuşdur. Həmçinin, bəzi rüsum və ayırmalardan da güzəştlər vardır.

Türkiyədə kooperasiyanın inkişaf perspektivləri baxımından 2007-2013-cü illəri əhatə edən IX İllik İnkişaf Planındakı müddəlara nəzər yetirmək də zəruridir. Ölkənin Avropa Birliyinə üzv olması prosesinə kömək edəcək təməl strateji əhəmiyyətli sənəd olan bu indikativ plan təsisatın maliyyə təqvimi nəzərə alınaraq 7 illik hazırlanmışdır.

Planın Avropa Birliyinə Qoşulma Prosesi adlanan bölməsinin 50-ci maddəsində Avropa Birliyinə üzvlük prosesinin cəmiyyətin bütün təbəqələrinə təsir göstərəcəyi qeyd edilmişdir. Üzvlüyün əhatəli bir şəkildə baş verməsi üçün işçi-işəgötürən və mülki cəmiyyət qurumlarının prosesə aktiv qoşulmalarının təmin ediləcəyi qeyd olunur. Həmçinin 273-cü maddədə mülki cəmiyyət qurumlarının aktiv köç və plansız şəhərləşmədə meydana gələn uyğunlaşma problemini həll etməyə yardımçı ola biləcəyi ifadə edilmişdir. Bu baxımdan kooperativlərin də rolu bu istiqamətdə artacaqdır.

Planda eyni zamanda ölkənin ən önəmli problemlərindən birinin aqrar sektordakı aşağı məhsuldarlıq olduğu göstərilir. Ölkənin rəqabət qabiliyyətini azaldan mühüm faktorlardan olan bu problemin həlli məqsədilə, aqrar sektordakı istehsal qurumlarının, o cümlədən kooperativlərin də aktiv şəkildə dəstəklənəcəyi qeyd olunmuşdur.

Göründüyü kimi, Türkiyədə kooperasiyanın inkişafının bundan sonrakı mərhələsi, daha çox bu qurumların Avropa Birliyi standartlarına yüksəldilməsi ilə yadda qalacaqdır.

# VIII FƏSİL.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İSTEHLAK KOOPERASİYASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

## 8.1. Qloballaşma meyilləri və kooperativ təsərrüfatçılıq sisteminin səmərəliliyi

Qloballaşma problemi müasir dövrün filosofları, politoloq, sosioloq, iqtisadçılar və hətta coğrafiyaçılar tərəfindən geniş müzakirə olunan ən aktual problemlərindən biridir. Belə ki, bu istiqamətdə filosoflar yeni təzahürün sistemləşən elmi mahiyyətindən, politoloqlar soyuq müharibə təhlükəsinin sovuşması, dövlətlərin suverenliyinin azalması və onların bir-birindən qarşılıqlı asılılığının güclənməsindən, sosioloqlar insanların, xüsusən şəhər və kənd əhalisinin həyat səviyyələrinin yaxınlaşmasından, coğrafiyaçılar isə nəhəng, müasir meqapolis assosiasiyalarının yaranması zəruriliyindən bəhs edirlər. Lakin bununla belə, çox geniş aspektliyinə baxmayaraq birmənalı şəkildə qloballaşmaya tam mahiyyət və məzmunda, onun bütün incəliklərini özündə əks etdirə biləcək universal bir tərif vermək o qədər də asan deyildir. Daha çox görünən və dərk edilən isə budur ki, qloballaşma prosesi geniş miqyasda həyatımızın iqtisadi sahəsinə daxil olmaqla müvafiq inteqrasiya proseslərini daim dərinləşdirməkdədir. Elə bu baxımdan da, bəziləri qloballaşmanı iqtisadi qeyri-bərabərliyin tam möhkəmlənməsi, region və ölkələrin nəhəng dövlətlər tərəfindən istismar olunması prosesi və s. hesab edirlər. Digər baxışlarda isə qloballaşmaya ən yüksək inkişaf etmiş dövlətin - ABŞ-ın dünya hegemonluğunun qanunauyğun prosesi kimi yanaşılır. Üçüncü bir qrup isə hesab edir ki, qloballaşma bəzi inkişaf etmiş dövlətlərin az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrin milli maraqlarını üstələməsi və son nəticədə sivilizasiyalı ölkələr cəmiyyəti yaratmaq vasitəsidir. Bəzən bu proses maliyyənin

beynəlmiləlləşməsi, milli iqtisadiyyatların qarşılıqlı şəkildə bir-birinə çulğalaşması, transmilli korporasiyaların (*TMK*) dünya iqtisadiyyatında rolunun artması, milli mənsubiyyətdən asılı olmadan müəssisə və firmaların bilavasitə rəqabətinin artması və bu kimi silsiləvi arqumentlərlə də əsaslandırılır. Son nəticədə qloballaşma - ümumbəşəri dəyərlərin bütün dünya tərəfindən qəbul olunmasına istinad edərək, iqtisadi və sosial effektin yüksəldilməsi, insan hüquqlarının legitimləşməsi, beynəlxalq ticarətin genişlənməsi, informasiya texnologiyalarının sürətli yayımı kimi çoxsaylı və hududları bilinməyən hadisə və prosesləri birləşdirir. Ayrı-ayrı seqmentlərin artım meyli içərisində kooperasiyanın da beynəlmiləlləşməsi dövriyyəsinin artması prosesi getməkdədir. Bu irəliləyişlər isə qloballaşma şəraitində beynəlxalq kooperasiya qarşısında daha böyük perspektivlər açır. Həmin perspektivlərin kökündə isə kooperativ təsisatların insanların gündəlik həyatında rastlaşdıqları çoxsaylı problemlərin çözülməisndə çevik rol oynaması və həllinə şərait yaratması üçün imkanların çox geniş olmasıı dayanır[107, 135, 154, 174, 175].

Müasir dövrdə insanlar beynəlxalq kooperasiyaya həm özlərinin, həm də, ailələrinin problemlərinin müstəqil həll etmək vasitəsi, aləti kimi yanaşırlar. Yerli icmalar da öz növbəsində kooperasiyanı aparıcı, lider rolu oynayan bir qurum hesab edərək, ona böyük etimad göstərirlər. Dərinələşən qloballaşma prosesi isə kooperasiyanın ənənəvi paradiqmasını köklü dəyişikliklərə uğradır. İnformasiya texnologiyaları sahəsində baş verən inqilablar kooperativ sistemi lokal əlaqələr çərçivəsindən çıxaraq regional, geniş çərçivədə isə qlobal münasibətlərə çevrilməsinə gətirib çıxarmışdır. Belə ki, əvvəllər yalnız yerli səviyyədə fəaliyyət göstərən kooperativ təsisatlı müəssisələr də Yer kürəsinin istənilən nöqtəsi ilə, həm də, çox çeviklik1ə fəaliyyət göstərmək imkanı əldə etmişlər. Qloballaşan dünya təhsil sistemi də bu gün kooperasiyanın inkişafında yeni perspektiv imkanların açılmasını geniş-

ləndirməkdədir. Müasir tələbələr və gənclər cəmiyyətin digər üzvlərinə nisbətən xarici dillərə və müasir informasiya texnologiyalarına dərindən yiyələndikləri üçün daha sərbəst yerdəyişmə, başqa ölkədə təhsilini davam etdirmək imkanına malik olduqlarından, kooperasiyanın dünya təcrübəsini öyrənmək və təcrübi bilgilərə yiyələnmək fürsəti əldə etmişlər. Şübhəsiz hesab olunur ki, kooperasiyanın yeni beynəlmiləlləşmə mərhələsinin perspektivlərini, onun gələcək inkişafını məhz qloballaşan təhsil sistemindən faydalanan indiki gənc nəslin nümayəndələri təmin edəcəklər.

Məlumdur ki, iqtisadi quruluşlar və ideologiyalar arasında mənafe toqquşmalarının balanslaşdırılmış qlobal təsir sferaları «Soyuq müharibə» dövründə siyasi stabillik mənafelər balansı üzərində qurulurdu. Bütün bunlar isə rəqabətdə olan iqtisadi sistemlər, ideyalar, hərbi potensial və s. arasında balans və balanslaşdırılmış qlobal təsir dairəsi kontekstində baş verirdi. Müasir dünya isə artıq yeni qlobal reallıqların tarazlığının tapılmasını tələb edir. Lakin köhnəliyin qalıqlarının aradan qaldırılması heç də  asan başa gəlmir və ağrısız ötüşmür. Çünki, bu proses mövcud olan bir çox sahələrin ənənəvi fəaliyyət növlərinin ləğv olmasına və silinib getməsinə səbəb olur. Dünya ticarət strukturlarının qarantına və texnoloji imkanlarına arxalanan qlobal iqtisadi qüvvələr, artıq kapitalın azad hərəkətinin üstünlüklərindən bəhrələnə bilirlər. Regionlarda mövcud olan iqtisadi çətinliklərin çözülməsi dövlətin qarşısında yeni-yeni xüsusi problemlər yaradır, onlarda bu çətinliklərin kompensasiyası üçün narahatlıq hissi oyadır. Beləliklə, dövlətin, ayrı-ayrı məmurların arzu və istəklərindən asılı olmadan uzun illər vərdiş edilmiş ənənəvi həyat ukladı, bəzi ictimai dəyərlər və sair aradan qalxır, onların əvəzinə yeniləri yaranır. Eyni zamanda iqtisadiyyat, ticarət siyasət, təhsil, mədəniyyət və konkret iş sahəsində dünyada daralma prosesi gedir. Lakin bütün bunlara baxmayaraq, qlobal dünyanın geriyə yolu yoxdur. Beynəlxalq aləm, çoxsaylı beynəlxalq qürumlar artıq yeni ta-

razlıq nöqtəsi axtarışındadır. Buna görə də dunya təsərrüfatının çevik strukturları olan kooperasiya və kooperatorlar da qloballaşmanın tələblərinə daha çevik uyğunlaşmaya məcburdurlar. Digər tərəfdən də, belə münasibət qloballaşan dünyamızda yalnız kooperativlərin yerli icmalarda yeni sosial-iqtisadi münasibətlərinin formalaşması və bərpasında oynayacağı rola əsaslanır [175, 180, 185].

Müasir dövr kooperasiyanın canlanması üçün daim artmaqda olan yeni real imkanlar və geniş perspektivlər açmaqdadır. Yerli liderlik və kooperativ innovasiyasına meyillilik hisslərinin bərpa edilməsi bu gün, həmişə olduğundan daha vacibdir. Çünki, qloballaşan dünyada kooperativlər bu və ya digər regiondan olan yerli icmalar və yerli insanlar ilə qlobal bazar arasında körpü rolunu oynamalıdır.

Bəs kooperativlərin sabahı necə olmalıdır? Təəssüf ki, bu suala birmənalı cavab vermək çətindir. Çünki hər bir ölkənin, regionun kooperativlərinin özünəməxsus fərqli xüsusiyyətləri vardır. Digər tərəfdən onların hər biri fərqli inkişaf istiqamətlərinə malikdir. Bu xüsusiyyətlər və istiqamətlər isə onların qarşısında öz imkanlarına uyğun müxtəlif vəzifələr qoyur. Bu baxımdan da perspektivliyi şübhə doğurmayan kooperativlərin sabahı məsələsi çoxaspektli komponentləri birləşdirir Lakin bütün bunlarla yanaşı biz, qloballaşan dünyada iqtisadiyyatın təkamüllü inkişafını da nəzərdən qaçıra bilmərik. Qlobal iqtisadiyyatın inkişafının hərəkətini müəyyənləşdirən siyasi dəyişikliklər də hökmən diqqət mərkəzində saxlanılmalıdır. Bununla belə, asan və ya çətinliyindən asılı olmayaraq yerli ehtiyaclara olan tələbat daim araşdırılmalı və öyrənilməlidir. Hər bir konkret ölkə və ya region üçün bu ehtiyaclar qlobal və lokal baxımından düzgün müəyyənləşdirilməlidir. Əgər uzun illər ərzində kooperasiyaya dünənin tələbatının ödəyicisi kimi baxılırdısa, müasir kooperasiyaya nəinki təkcə bu günün, hətta gələcəyin artmaqda olan ehtiyaclarının təklifedicisi və ödəyicisi kimi baxılmalıdır. Lakin təəssüf ki, bu gün qloballaşan

dünyada heç də hamı bu obyektiv həqiqəti dərk edə bilmir və ya buna səy göstərmir.

Bu gün qloballaşma şəraitində istehlak kooperasiyasının inkişafının bəzi məsələlərinin tarixi baxımdan araşdırılmasına da böyük ehtiyac duyulur. Belə ki, XXI əsrin əvvəllərində kooperativ təşkilatları, o cümlədən Azərbaycan istehlak cəmiyyətləri ittifaqı qloballaşan dünya iqtisadiyyatının tələblərinə uyğun qurmaq məcburiyyətində qaldılar. Belə ki, bazar bütün dünyada iqtisadi münasibətlərin inkişafının hərəkətverici qüvvəsi hesab edilir. Dünya bazarlarında baş verən qlobal dəyişikliklər kooperativ hərəkatının inkişafına da əsaslı təsir göstərir [136, 167, 175]:

*Birincisi,* müasir cəmiyyət eyni zamanda iki bir-birinə zidd istiqamətlərdə - bir tərəfdən nəqliyyatın, rabitə sistemlərinin, yüksək texnologiyaların inkişafı ilə cəmiyyət həyatında şəhərlərin rolu kəskin şəkildə yüksəlir, digər tərəfdən isə, bir vaxtlar öz strateji əhəmiyyətini itirən və lazımsız hesab edilən kəndlərin rolu yenidən artır. Artıq təbiətə, öz kökünə, etnik və dini özünütanıma zəruriliyinə qayıdış zamanın tələbinə çevrilmişdir. Yerli səviyyədə fəaliyyət göstərən kooperativlər yalnız regional, milli və qlobal ittifaqlarda birləşməklə bu zilddiyyətləri aradan qaldıra bilərlər;

*İkincisi*, idarəetmə dəyişikliyi sistemi də iki istiqamətdə - milli dövlətin öz səlahiyyətlərinin bir hissəsini «yuxarı»lara, yəni beynəlxalq təşkilatlara və «aşağı» yerli cəmiyyətlərə güzəştə getmək yönündə baş verir;

*Üçüncüsü*, beynəlxalq təşkilatlar içərisində Beynəlxalq Kooperativ Alyansı (*BKA*) da vacib rol oynaya bilər. Belə kooperativlər BKA vasitəsi ilə vətəndaş cəmiyyətinin başlıca komponentinə çevrilmək imkanı əldə edirlər. Son nəticədə onlar ən nəhəng və köhnə, daha universal qeyri-dövlət təşkilatlarından birinə çevrilirlər.

Qloballaşma prosesləri iqtisadiyyatda böhran xarakterli hadisələri ilə də müşayiət olunur. Lakin öz işini düzgün qurmağa nail olmuş kooperativlər, digər xüsusi müəssisələrə nisbətən az zərər

çəkirlər. Çünki onların fəaliyyəti payçıların kapitalına əsaslanır və o, heç bir spekulyasiya xarakterli fəaliyyətə cəlb olunmur. Bununla belə insanların arzu və ya istəklərindən asılı olmadan inkişaf etmiş dövlətlər və iri transmilli korporasiyalar tərəfindən dünyanın bölüşdürülməsi prosesi gedir. İstehlak kooperativləri isə öz növbəsində bu prosesə daha çox müqavimət göstərmək iqtidarına malikdirlər. Onu da qeyd edək ki, bu prosesdə istehlak kooperativləri heç də bütünlükdə bazarı deyil, yalnız öz payçılarının tələbatlarının ödənilməsinə yönəlməlidirlər.

Kooperativlər öz fəaliyyətlərini nəqliyyat, sığorta, səhiyyə və sosial xidmətlər sahəsində daha geniş həyata keçirməlidirlər. İnkişaf etmiş ölkələrin əksəriyyətində yerli hakimiyyət strukturları bu və ya digər xidmət göstərilməsi üçün kooperativlərlə xüsusi kontraktlar bağlayırlar.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bütün kooperativləri birləşdirən ümumi əlamət, onların bir-birləri ilə əməkdaşlıq etməsidir. Əgər kooperativlər öz potensiallarından tam istifadə etmək və əhali arasında cəlbediciliklərini saxlamaq niyyətində olsalar onlar buna yalnız daimi əməkdaşlıq əsasında nail ola bilərlər.

Respublikamızda da kooperasiyanın mənafeləri də inkişaf edərək dövlət tərəfindən daim müdafiə olunur. Çünki hamı yaxşı bilir ki, kooperativlər sosial sferanın inkişafında xüsusi rol oynaya bilərlər. Ətraf mühitin mühafizəsi, ərzaq məhsullarının təhlükəsizliyi, işsizliyin qarşısının alınması və s. bu gün, həm də kooperativlərin düzgün qurulmuş fəaliyyətlərindən daha çox asılıdır. Koopertivlərin təşkil edilmiş forması maliyyə vəsaitlərini mobilləşdirməyə, xərcləri idarə etməyə, onları nəzarətə götürməyə, eləcə də cəmiyyətdə məsuliyyət və həmrəylik hissini formalaşdırmağa imkan yaradır.

Digər ölkələrin təcrübəsi göstərir ki, cəmiyyətdə qloballaşma eyni zamanda korrupsiyanın artması ilə də müşayiət edilir. Bir qayda olaraq həmin ölkələrin iqtisadiyyatında korrupsiyadan bazarlarda rəqabət üstünlüyünü ələ almaq,

proteksionizmi möhkəmləndirmək və həmçinin siyasi sistemə nüfuz etmək məqsədi üçün də istifadə olunur. Şübhəsiz ki, korrupsiya kooperativlərin də normal fəaliyyətinə mane olur və bu sahədə ciddi mənəvi və maddi itkilər yaradır. Obyektiv reallıq isə belədir ki, kooperativlər bazarda yalnız aşkarlıq və şəffaflıq şəraitində normal fəaliyyət göstərə bilər. Kooperativlərin öz daxilində korrupsiyanın aradan qaldırılması üçün isə onların fəaliyyətində ümumi idarəetmə və demokratiyanı daha da genişləndirmək tələb olunur [125, 157].

Müasir dövrdə kooperasiyanın inkişaf perspektivləri istiqamətində kooperativ idarəetmənin müxtəlif formaları müzakirə olunmaqdadır. Bünların içərisində ən mühümü isə kooperativ menecmentin üstün texnologiyası sayılan operativ qərar qəbul etmənin təminatı ilə bağlıdır. Səmərəli operativlik isə iqtisadi artım və rəqabətə davamlılığın meyarıdır. Bununla belə, kooperativ menecmentdə kadr seçimi də az əhəmiyyət daşımır. İdarəetmə orqanlarına kadrlar seçilərkən, onların şəxsi keyfiyyətləri ilə yanaşı, konkret fəaliyyət proqramına yiyələnmələri, müasir informasiya texnologiyalarından istifadə imkanlığı və bacarığı, mənəvi saflıq və ən başlıcası isə professional idarəetmə qabiliyyətinə malik olmaları kimi keyfiyyətlər və tələblər nəzərə alınmalıdır.

Qloballaşma prosesində kooperativ hərəkatının inkişafı, kooperasiyanın yeni məzmun və ahəngdə canlandırılmasında müxtəlif məqsəd və təyinatlı kooperativlərin yaradılması təcrübəsindən istifadə olunması zəruri və məqsədəuyğundur. Burada xüsusən əhalinin kasıb təbəqələri yaşayan ərazilərdə yerli ehtiyaclara hesablanmış və bununla da regional mahiyyət daşıyan müvafiq profilli kooperativlərin yaranışı özünü daha çox doğruldur. Çünki həmin təbəqənin alıcılıq qabiliyyəti aşağı olduğundan, ixtisaslaşdırılmış kooperativlərin fəaliyyəti özünü doğrultmur. Lakin bu gün çoxməqsədli kooperativlərin yaranması prosesi TMK-ları qane etmir. Onlar hər vəcdlə bu prosesə mane olmağa çalışır, özünün

manevrliyi, geniş məhsul assortimenti ilə üstünlüyü əldə saxlamağa cəhd edirlər. Bütün bu maneələrə və çətinliklərə baxmayaraq, kooperativlərin sosial missiyalarının əhəmiyyəti yüksəlir. Onlar müxtəlif səhiyyə xidmətləri göstərmək, mənzil şəraitini yaxşılaşdırmaq, əhalinin təhsil almasına, maariflənməsinə şərait yaratmaq və s. vasitələrlə insan kapitalının inkişafında daha məhsuldar iştirak edirlər. Kooperativlərdə istehsal olunan əmtəə və xidmətlər az resurs tutumluğu ilə fərqlənir və başlıca olaraq əldə edilən mənfəəti özünün missiyasına uyğun olaraq ilk növbədə üzvlərin tələblərinin ödənilməsinə sərf edirlər [179].

Qloballaşma şəraitində kooperasiyanın təhlili göstərir ki, onlar tədricən öz irəliləyişlərini təmin edir, ayrı-ayrı kontekstlərdə qlobal arenanın aparıcı strukturları olan TMK-ların kəskin rəqabətinə cəsarətlə davam gətirirlər. Bununla belə, qloballaşma şəraitində yeni inkişaf meyillərini təmin etmək üçün müasir dövrdə kooperativlər qarşısında bir sıra vəzifələr öz həllini gözləyir. Bu vəzifələr ümumi səciyyə daşıdığı kimi, Azərbaycan Respublikası üçün də adekvatlıq təşkil edir. Regionların sosial-iqtisadi inkişafının dövlət proqramına uyğun olaraq yeni inkişaf mərhələsinə qədəm qoymuş respublikamızda müasir dövr kooperativlər qarşısında tələblər, apardığımız təhlilə istinad edərək, fikrimizcə, aşağıdakı istiqamətlərdə həyata keçirilə bilər:

- avtonomluq və qeyri-mərkəzləşdirilmiş vahidlərin sayının az olması, daha sadə təşkilati struktura transformasiya;
- özünün xüsusi bazar əsaslarına malik olmaq;
- ərazi tələbli, rəqabətqabiliyyəti yüksək olan mal və xidmətlərə istiqamətlənmək;
- payçıların daha çox iqtisadi və sosial ehtiyaclarının ödənilməsinə yönəldilmiş fəaliyyət göstərmək;
- peşəkarlıq funksiyalarını birləşdirən, elmli, savadlı və praktiki vərdişlərə malik çevik işçi kollektivi formalaşdırmaq;

- inteqrasiya meylini gücləndirmək və qloballaşma prosesindən da səmərəli faydalanmaq;
- özlərinin assosiativ qurumlarını təsis etmək və müvafiq həmrəyliyi gücləndirmək.

Bütün yuxarıda göstərilənlərə rəğmən biz belə hesab edirik ki, müasir dövrdə respublikamızda kooperativlər öz fəaliyyətlərini sosail xidmətlər, təhsil, idman-sağlamlıq, ətraf mühitin mühafizəsi, əhalinin məşğulluğunun təmin edilməsi və sair sferalar istiqamətində daha üstün səmərəliliklə genişləndirməlidir. Dövlət isə öz növbəsində bütün sivilizasiyalı ölkələrdə olduğu kimi, kooperativlərin normal fəaliyyəti üçün həm hüquqi, həm də maliyyə dəstəyi göstərməli və onların demokratik əsaslarda idarə olunması üçün özünün lazımi qayğısını əsirgəməməlidir.

## 8.2. İstehlak kooperasiyası müəssisələrinin qloballaşma şəraitinə adaptasiyası

Hazırda istehlak kooperasiyası müəssisələri yeni şəraitə uyğunlaşmaq, mövcudluğunu qorumaq üçün öz fəaliyyətlərində müəyyən düzəlişlər etməyə məcburdurlar. Fikrimizcə, istehlak kooperasiyasının davamlı inkişafının təmin edilməsi baxımından aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- bu və ya digər səbəblərdən boş qalan binaların və anbarların icarəyə verilməsi;
- kənd yerlərindəki ticarət obyektlərinin profilinin dəyişdirilməsi;
- öz xərclərini azaltmaq məqsədilə müəssisə və təşkilatlardan birbaşa alışların təşkili;
- daha aşağı faizlə kredit əldə etmək imkanlarının axtarışı;
- hazırda tələb olunan məhsul və malların istehsalının təşkil olunması.

İstehlak kooperasiyası müəssisələri geniş şəbəkəli maddi-texniki bazaya, texniki-nəqliyyat vasitələrinə, anbar sahələri və binalara malikdir.

Respublikada istehlak kooperasiyası sistemində vəziyyəti qiymətləndirmək üçün 1995-2007-ci illər ərzində müxtəlif mülkiyyət formaları üzrə pərakəndə mal dövriyyəsinin dinamikasına baxmaq kifayətdir. Bu qiymətləndirmə aşağıdakı cədvəldə öz əksini tapmışdır:

*Cədvəl 8.1*

### Mülkiyyət formaları üzrə pərakəndə mal dövriyyəsi
*(faktiki qiymətlərlə)*

| Göstəricilər | 1995 | | 2000 | | 2005 | | 2007 | |
|---|---|---|---|---|---|---|---|---|
| | mln. man. | %-lə | mln. man. | %-lə | mln. man. | %-lə | mln. man. | %-lə |
| **Pərakəndə mal dövriyyəsi Cəmi** | 1059 | 100 | 2120 | 100 | 4622 | 100 | 7591 | 100 |
| *o cümlədən:* | | | | | | | | |
| **- dövlət** | 186 | 17,6 | 36,5 | 1,7 | 51,0 | 1,1 | 67,9 | 0,9 |
| **- qeyri-dövlət** | 4363 | 82,4 | 6344 | 86,4 | 8973 | 98,3 | 7524 | 99,1 |
| *ondan:* | | | | | | | | |
| **istehlak koopreasiyası** | 108 | 2,0 | 72,0 | 1,0 | 35,6 | 0,3 | | |

Mənbə: Azərbaycanın statistik göstəriciləri 2002, B., 2002,s. 323.

Təhlil olunan dövr ərzində bütövlükdə respublika üzrə pərakəndə mal dövriyyəsi 6532,7 mln. manat yaxud 2,2 dəfə artdığı halda, dövlət sektorunda pərakəndə mal dövriyyəsi 117,8 mln. manat və ya təxminən 2,7 dəfə azalmışdır. Əksinə, qeyri-dövlət sektorunda pərakəndə mal dövriyyəsi 3161,2 manat və ya 1,7 dəfə yüksəlmişdir. Qeyri-dövlət sektorunda pərakəndə mal dövriyyəsinin belə yüksəlişinə baxmayaraq, bu sektora aid olan istehlak kooperasiyası sistemində mal dövriyyəsi 108,4 mln. manatdan 26,4 mln. manata düşmüşdür. 1995-ci ildə istehlak kooperasiyasında pərakəndə mal dövriyyəsi respublika üzrə ümumi mal dövriyyəsinin 2,0%-ni təşkil etdiyi halda,

2007-ci ildə onun payı 0,2%-ə və ya demək olar ki, 10 dəfə aşağı düşmüşdür [187-5].

İstehlak kooperasiyası müəssisələri geniş şəbəkəli maddi-texniki bazaya, texniki-nəqliyyat vasitələrinə, anbar sahələri və binalara malikdir.

Azərittifaq sistemində kooperativ təşkilat və müəssisələri kollektivlərinin həyata keçirdiyi tədbirlər 2007-ci ili 106,7 min manat mənfəətlə başa vurmağa, bütün fəaliyyət sahələrinin mənfəətlə işləməsinə imkan vermişdir. Əldə olunan mənfəətin 62,9 min manatı ticarətin, 15,7 min manatı ictimai iaşənin, 9,4 min manatı tədarükün, 17,7 min manatı isə sənaye sektorunun payına düşmüşdür. 2007-ci ildə kooperativ təşkilat və müəssisələri tərəfindən 3006,1 min manatlıq mal satılmış, 765,7 min manatlıq iaşə xidməti göstərilmiş, 1192,9 min manatlıq kənd təsərrüfatı məhsulları və xammal tədarük olunmuşdur [187-5].

Bununla yanaşı, kooperasiyanın fəaliyyətində bir sıra nöqsan və çatışmazlıqlar hələ də qalmaqdadır. Kooperasiyaya daxil olan təşkilat və müəssisələr mövcud imkanlardan kifayət qədər səmərəli istifadə edə bilmədiklərinə görə mal satışı və xidmətlər göstərilməsi sahəsində özəl sektorla rəqabətə davam gətirmirlər. Təəssüfləndirici haldır ki, bu sahədə Azərittifaq sisteminin xüsusi çəkisi respublika göstəricisinin 1,0%-dən azını təşkil edir.

Bu cür fəaliyyətin nəticəsidir ki, hesabat ilində sistemin maliyyə-iqtisadi göstəriciləri proqnozlaşdırılan səviyyəyə çata bilməmiş, bir sıra sahələrdə hətta geriliyə yol verilmişdir. Belə ki, 2000-2007-ci illərdə maliyyə göstəriciləri yüksək xətlə inkişaf etdiyi halda, 2002-ci ildə əvvəlki ilə nisbətən mənfəət azalmış, rentabellik səviyyəsi aşağı düşmüş, tədavül xərcləri artmışdır.

Bazar iqtisadiyyatına keçid istehlak kooperasiyasının bütün ticarət fəaliyyətində daha çox topdansatış ticarətinin vəziyyətinə mənfi təsir göstərmişdir. Öz dövriyyə vəsaitlərinin məhdud həcmi, kooperativ təşkilatların xidmət göstərdikləri pərakəndə mal dövriyyəsinin həcminin azalması, istehlak cəmiyyətləri və kooperativ müəssisələr tərəfindən malların bilavasitə topdansatış

kooperativlərindən deyil, birbaşa mal satanların özlərindən alınması, həmçinin digər amillər kooperativ topdansatış bazalarının pərakəndə mal dövriyyəsinin xeyli azalmasına və hətta bəzən zərərlə işləməsinə gətirib çıxarmışdır. Buna görə də, indiki şəraitdə topdansatış bazalarının əksəriyyəti yaşamaq və ya mövcudluğunu saxlamaq üçün öz anbar binalarını icarəyə verir, yaxud özlərinin pərakəndə satış obyektlərini alır.

Beləliklə, pullu xidmətləri genişləndirməyə çalışırlar. Fikrimizcə, belə şəraitdə kooperativ topdansatışının əsas məqsədi bütövlükdə istehlak kooperasiyasının işinin səmərəliliyinin yüksəldilməsinə xidmət etməkdən ibarət olmalıdır. Bundan ötrü istehlak cəmiyyətlərinin mülkiyyətində olan topdansatış bazarı həmin müəssisələrin paylarına və əmək kollektivinin sərəncamına verməli, istehlak kooperasiyasının öz təsərrüfatları əsasında - kooperativ kapital üstünlük təşkil etməklə kooperativ assosiasiyalar, səhmdar cəmiyyətləri yaradılmalıdır.

Topdansatış bazarlarının, yaxud onların əsasında yaradılan assosiasiya və səhmdar cəmiyyətlərin idarə olunması ona daxil olan ayrı-ayrı kooperativ təşkilatları və müəssisələrinin bazanın ümumi mal dövriyyəsində payı və rolu nəzərə alınmaqla həyata keçirilməlidir.

2007-ci ildə ticarət fəaliyyəti sahəsində bəzi problemlər olmasına baxmayaraq, görülmüş işlər müəyyən nəticələr əldə edilməsinə imkan vermişdir.

İl ərzində mövcud problemlərin bir qismi azad sahibkarlığın ticarət sahəsində daha intensiv surətdə inkişafı və rəqabətin daha yüksək olması ilə bağlı olmuşdursa, digər tərəfdən bu, yerlərdə aparılan yenidənqurma və abadlıq işləri ilə bağlı bir çox obyektlərin sökülüb köçürülməsi, dövriyyə vəsaitinin çatışmaması, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması ilə əlaqədar olmuşdur. Bundan əlavə, 2007-ci ildə vergi məcəlləsində edilən bəzi dəyişikliklərdən irəli gələn çətinliklər də buna ciddi təsir göstərmişdir ki, bunlardan da ən əsası sadələşdirilmiş sistem üzrə vergi ödəyicisi üçün dövriyyə həddinin əvvəl-

ki ilə nisbətən üç dəfədən çox məhdudlaşdırılması və bu sistem üzrə vergi ödəyicisinin əmlak vergisi ödəməkdən azad olmasının ləğv edilməsindən irəli gəlmişdir.

2007-ci ildə 36123 manat pərakəndə ticarət dövriyyəsi olmuş və planın icra səviyyəsi 105% təmin edilmişdir. Həmin ildə ticarət fəaliyyətindən 62864 manat mənfəət əldə edilmişdir. Mənfəət planına 55,3% əməl edilmişdir. Bütövlükdə götürdükdə, pərakəndə ticarətdən əldə edilən mənfəət bütövlükdə Azərittifaq sistemi üzrə əldə edilən mənfəətin 58,9%-ni təşkil etmişdir.

Aşağıdakı cədvəldə 1996-2008-ci illərdə Azərittifaq sistemi üzrə kooperativ sektorun iqtisadi səmərəlilik göstəriciləri öz əksini tapmışdır:

*Cədvəl 8.2*

**Azərittifaq sistemi üzrə kooperativ sektorun iqtisadi səmərəlilik göstəriciləri**

| İllər | Rentabellik | | |
|---|---|---|---|
| | Ticarət | İctimai iaşə | Tədarük |
| **1996** | 2.40 | 2.50 | 0.86 |
| **1997** | - | | 0.54 |
| **1998** | - | 0.62 | 0.36 |
| **1999** | | 1.37 | 0.50 |
| **2000** | 0.83 | 1.41 | 0.22 |
| **2001** | 1.50 | 2.52 | 0.66 |
| **2004** | 1.30 | 2.03 | 0.71 |
| **2005** | 1.64 | 2.37 | 1.17 |
| **2006** | 1.86 | 1.86 | 0.81 |
| **2007** | 2.09 | 2.05 | 0.78 |
| **2008** | 3.25 | 2.52 | 0.73 |

* 2004-cü ildən etibarən yeni AZN-lə göstərilmişdir

Mənbə: «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əsas vəsaitlərin səmərəli istismarı istiqamətində görülən başlıca tədbirlərdən biri kimi, ticarət sahəsinin icarəyə verilməsi işinin bir çox təşkilatlar tərəfindən diqqətdə saxlanması nəticəsində 2007-ci ildə icarə haqlarının həcmi 2001-ci ildəkinə nisbətən 87 milyon manat artaraq 1 milyard 493 milyon manatdan 1 milyard 580 milyon manata çatmışdır. Mənfəətin əsasını təşkil edən ticarət əlavələrinin dövriyyəyə görə faizlə həcmi, 2007-ci ildə əvvəlki ilə nisbətən azalaraq 16,86%-dən 12,9%-ə enmişdir. Həmin ildə daha çox xərc və itkilər gözlənildiyinə baxmayaraq, gəlirin digər mənbəyi olan icarə haqlarının səviyyəsi də əksər təşkilatlar tərəfindən azalmışdır [187-5].

Kooperasiyanın əsas sahələrindən biri olan ictimai iaşə son illərdə stabil fəaliyyət göstərir, kooperativ cəmiyyətlərinin çoxu əmtəə dövriyyəsi, mənfəət və digər iqtisadi göstəricilərin icarəsi ilə kafi dərəcədə məşğul olurlar. 2007-ci ildə əhaliyə ictimai iaşə üzrə 765658 manatlıq xidmət göstərilmişdir. Bu, həmin ildə ictimai iaşə fəaliyyəti üzrə əmtəə dövriyyəsi planının 86,2%-ni təşkil edir. İndi kitab ticarəti Azərittifaqın ən qabaqcıl sahələrindən biridir. Bu sahə ilbəil inkişaf edir, bütün proqnoz planların yerinə yetirilməsi təmin edilir, hər il mənfəətlə başa vurulur.

2008-ci ildə kənd əhalisinə 458,2 milyon manatlıq çap məhsulu satılaraq Azərittifaq üzrə nəzərdə tutulan plana 152,7% əməl olunmuşdur. Əvvəlki ilə nisbətən kitab satışının dövriyyəsi 25% artmışdır. Kooperasiya sistemində istehsal fəaliyyəti əsasən «Azkoopçörəkbişirmə» müəssisələri birliyi tabeliyində olan qida məhsulları kombinatları və qeyri-ərzaq malları istehsalı müəssisələri, həmçinin Naxkoopittifaqın istehsal müəssisələri tərəfindən həyata keçirilir.

Azərbaycan Kooperativlər İttifaqı su tutarlarında balıqçılığı hər vasitə ilə inkişaf etdirməlidir. Azərittifaqın respublika üzrə cəmi beş yardımçı təsərrüfatı var, bunun da ümumi sahəsi 77 hektardır. Bu təsərrüfatlardan ikisi ekoloji cəhətdən özünü

doğrultmur. Sabirabad tədarük, emal və satış birliyinin Navadan kəndindəki balıqçılıq təsərrüfatı vaxtilə pambıq sahəsi ilə əhatə olunduğundan, kimyəvi zəhərli maddələrdən ziyan çəkdiyi üçün indi də balıq ətinin keyfiyyətinə və balıqçılığın inkişafına mənfi təsir göstərir.

İqtisadi islahatların keçirilməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq kooperasiyanın maddi-texniki bazasının yeniləşdirilməsi və müasir dövrün tələblərinə uyğunlaşdırılması sahəsində müəyyən işlər görülmüşdür. Nəqliyyat vasitələrindən səmərəli istifadə olunması sahəsində müəyyən işlər görülmüşdür. Əksəriyyətinin istismar müddətini başa vurmasına baxmayaraq, nəqliyyat vasitələrini qoruyub saxlamaq mümkün olmuşdur. Hazırda sistemin təsərrüfatlarında 2200 ədədə qədər avtonəqliyyat vasitəsi vardır.

Daha bir vacib məsələ özəlləşdirilən müəssisələrlə bağlıdır. Məlum olduğu kimi, sistemdaxili özəlləşmə gedir, yəni müəssisələr bir qayda olaraq payçılar və əmək kollektivi üzvləri tərəfindən özəlləşdirilir. Buna görə də əmlakı özəlləşdirilmiş şəxslər kooperasiya ilə əlaqələri kəsməməli, onların Azərittifaqla əlaqəli şəkildə fəaliyyət göstərməsi təmin olunmalıdır. Belə ki, sahibkarlığın inkişafı ilə əlaqədar respublikamızda tədbirlər görülməsinə baxmayaraq, regionlarda olan müəssisələrin təkbaşına fəaliyyət göstərməsi onlar üçün böyük problemlər yaradır.

Hazırda Azərittifaq sistemində yaxın gələcəkdə aparılmalı olan iqtisadi islahatların proqramı hazırlanmışdır. Bu proqrama görə istehlak kooperasiyası sistemində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [187-5]:

1. Kooperasiyanın fəaliyyətinin gələcək inkişafı üçün zəruri sayılan ticarət, ictimai iaşə, istehsal, tədarük, tikinti-təmir-quraşdırma, nəqliyyat və bu kimi digər təşkilat, müəssisə və iri təsərrüfat vahidlərinin özəlləşdirilməsi. Bu zaman nəzarət zərfi Azərittifaqa, əmlakı isə onunla müştərək olan kooperativ cəmiyyətlərə ver-

məklə qapalı və ya açıq tipli səhmdar cəmiyyətləri yaradılacaqdır. Səhmlər ilk növbədə payçılara (*onların indeksləşdirilmiş pay haqqı və əmlak payı ödənişə yönəldilməklə*) və əmək kollektivi üzvlərinə təklif olunacaq, digər vətəndaşlar və xarici sərmayədarlar da bu işə cəlb olunacaqlar.

2. Kooperasiyanın fəaliyyətinin gələcək inkişafı üçün zəruri sayılmayan müəssisələr, təşkilatlar və digər təsərrüfat vahidlərinin, tikintisi yarımçıq qalmış obyektlərin, quraşdırılmamış avadanlıqların, nəqliyyat vasitələrinin özəlləşdirilməsi. Onlar ilk növbədə payçılara (*indeksləşdirilmiş pay haqqı və əmlak payı ödənişə yönəldilməklə*) və əmək kollektivi üzvlərinə təklif olunmaqla aşkarlıq şəraitində satılacaqdır. Alqı-satqı hərraclarında kooperasiyanın payçıları əmək kollektivi üzvləri ilə yanaşı kənar şəxslərin və xarici iş adamlarının iştirakına da şərait yaradılacaqdır.
3. Hər iki halda özəlləşdirmədən əldə olunan vəsait kooperasiyanın fəaliyyətinin yaxşılaşdırılmasına, onun dövlət müəssisələrinə, o cümlədən, banklara olan borclarının ödənilməsinə, üzvlükdən çıxan payçılara və əmək kollektivi üzvlərinə olan borclarının, eləcə də digər kreditor borclarının ödənilməsinə yönəldiləcəkdir.
4. Özəlləşdirmədən kənarda qalan təşkilat, müəssisə və təsərrüfat vahidlərinin əsasında payçı və əmək kollektivi üzvlərinin operativ idarəçiliyinə verilməsi.
5. Respublikanın işğal altında olan rayonlarında kooperasiya fəaliyyətinin bərpa olunması üçün hazırlıq işlərinin aparılması, həmin rayonların azad olunması məsələsi həll edildikdən sonra kooperativ təşkilatların fəaliyyəti bərpa olunmaqla yanaşı, öz daimi yaşayış yerlərinə qayıdan əhalinin sosial-iqtisadi problemlərinin həll edilməsinə köməklik göstəriləcək, onlara lazımi xidmətlər göstərilməsi işləri təşkil olunacaqdır.

İstehlak kooperasiyası sistemində fəaliyyət göstərən tədarük təşkilatlara ehtiyac əvvəlki illərə nisbətən daha çox duyulur. Çünki indi kənd təsərrüfatında aparılan islahatlar, respublikadan kənara çıxışın olmaması, nəqliyyatın qiymətlərinin yüksək olması tədarükçü təşkilatları tam iflic vəziyyətə salmışdır.

İstehlak kooperasiyası sisteminin təkmilləşdirilməsi respublikamızda bir sıra problemlərin həllinə də yardımçı ola bilər. Bunlara aid etmək olar:

- demoqrafik problemlərin həlli;
- məskunlaşmanın tənzimlənməsi;
- miqrasiyaların nisbətən azalması;
- əmək ehtiyatlarının istifadəsi;
- kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsinin yüksəldilməsi;
- kənd təsərrüfatı məhsulları əsasında işləyən sənaye sahələrinin inkişafı;
- xarici ərzaq və kənd təsərrüfatı məhsullarının gətirilməsinin qarşısının alınması;
- əhalinin daha keyfiyyətli və ucuz yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunması.

Vətəndaşların borc istehlak kooperativləri (*borc ittifaqları*) borc-əmanət sahəsində vətəndaşların istehlak kooperasiyasının özünəməxsus formasıdır. Bir çox ölkələrdə borc ittifaqlarının fəaliyyəti Beynəlxalq Kooperativ Alyansın prinsipləri və borc ittifaqları beynəlxalq hərəkatının fəlsəfəsinə əsaslanır [164, 183].

Borc ittifaqları kommersiya təşkilatı olmayıb, məhdud miqdarda şəxslərə - öz payçılarına xidmət göstərir. Onlar şəxsi əmanətləri qəbul edir və payçılara borc verir. Bu əməliyyatlar formaca bank əməliyyatlarına oxşasa da mənfəət əldə edilməsinə yönəlmədiyinə, eləcə də borc ittifaqının payçılarla bağladığı müqavilələr ictimai müqavilə olmadığına görə, mahiyyətcə fərqlidir. Məhz buna görə borc ittifaqları borc təşkilatları kimi qiymətləndirilməməli və onların Mərkəzi Bankın lisenzi-

yasına ehtiyacı olmamalıdır. Borc ittifaqının üzvləri (*payçılar*) yaşayış və iş yerinin ümumiliyi, eyni peşə mənsubiyyəti kimi sosial əlamətə görə bir-birinə bağlı olan fiziki şəxslər öz vəsaitini - üzvlük haqqı və şəxsi əmanətlərini borc ittifaqında birləşdirirlər. Bu halda şəxsi əmanətlər payçıların mülkiyyətində qalır, üzvlük haqları isə borc ittifaqının hesabına keçir. Payçıların şəxsi əmanətləri, eləcə də borc ittifaqı vəsaitinin bir hissəsi borc ittifaqının payçılarına verilmək üçün qarşılıqlı yardım fondunu təşkil edir. Borclar üzrə əldə edilən bütün gəlir payçılar arasında onların borc ittifaqlarına keçirdikləri şəxsi əmanətlərə mütənasib olaraq bölüşdürülür. Borc ittifaqının fəaliyyəti ilə əlaqədar inzibati təsərrüfat xərcləri payçıların əlavə verdikləri üzvlük haqları ilə ödənilir. Beləliklə, borc ittifaqı əsas fəaliyyəti üzrə mənfəət əldə etmədiyinə görə kommersiya təşkilatı deyil.

Borc ittifaqının daxili həyatı idarəetmənin nizamnamə və idarəetmə orqanları haqqında xüsusi qanunda göstərilmiş kooperativ prinsiplərinə əsaslanır. Hər bir payçının borc ittifaqına keçirdiyi vəsaitin miqdarından asılı olmayaraq bir həlledici səsi var və o, borc ittifaqının idarə edilməsində iştirak edir. İclaslararası fasilələrdə borc ittifaqının işini payçıların ümumi iclasının payçılar şırasından seçdiyi və ümumi iclasın təsdiqlədiyi xüsusi qayda əsasında fəaliyyət göstərən idarə heyəti aparır. Bundan başqa, ümumi iclas payçılar şırasını, eləcə də borc ittifaqının təftiş komissiyasını və borc komitəsini, həm də borc ittifaqına üzvlük üzrə komitəni seçir. Borc ittifaqının seçki orqanlarının üzvləri öz fəaliyyətlərini ictimai əsaslar (*könüllülük prinsipi*) üzərində qururlar. Ancaq borc ittifaqları gündəlik işi aparmaq üçün zəruri olan heyəti işə götürə bilər. Borc ittifaqları hüquqi şəxsləri payçı kimi qəbul edə və onun üzvü olmayan hüquqi və fiziki şəxslərə hər hansı bir maliyyə yardımı göstərə bilməz [148, 160].

İndiki dərinləşən qloballaşma şəraitində borc istehlak kooperativləri (*BİK*) bütün dünyada geniş yayılır. Onların anlaşı-

lan, etibarlı, özünənəzarət əsasında qurulmuş fəaliyyət mexanizmi kimi danılmaz üstünlüyü var. Könüllü birləşən payçılar özlərinə maliyyə yardımı göstərmək üçün özünümaliyyələşdirmə və özünüidarə prinsipləri əsasında fəaliyyət göstərən qurum yaradır.

Kllasik formada ilk «xalq kassası»nı Kanadanın Kvebek şəhərində 6 dekabr 1900-cü ildə Alfons Dejardan açmışdır. Bu gün isə Kanada əhalisinin kasıb yaşamamasına baxmayaraq, BİK şəbəkəsi bütün ölkəyə yayılmışdır. Fiziki şəxsə borc verməyin bu forması 1906-cı ildə qanunvericiliklə qəbul edildikdən sonra tez bir zamanda hamı tərəfindən tanındı. Adamlar eyni maraq dairəsi olan və ya eyni kilsədə ibadət edən şəxsləri birləşdirən və buna görə də pulların düzgün istifadəsinə ciddi təminat verən borc istehlak kooperativlərinə həvəslə gedirdilər. Banklar pulu olan bütün şəxslərlə işlədikləri üçün belə zəmanəti verə bilmirdi. «Xalq kassaları» özünəməxsus bağlı klublara çevrildi. Bu kluba üzv olmaq çox nüfuzlu bir iş idi [130, 148, 160].

Bir-birinə yardım etmək üçün təkcə adamlar deyil, eləcə də «xalq kassaları»nın özləri birləşdi. Onlar tez genişlənən hərəkat yaratdı. Onun aktivlərinin ümumi miqdarı 77 mlrd. Kanada dollarından artıqdır. O, Kvebek, Manitoba, Ontario və başqa şəhərlərə məxsus təxminən 1,5 min «xalq kassası»ndan ibarət kooperativ bölmə və sığorta şirkətləri, investisiya və konsaltinq firmaları və borc kartları ilə əlaqədar göstərilən xidmət üzrə prosessinq mərkəzlərini əhatə edən korporativ bölmədən ibarətdir.

Borc istehlak kooperativləri dünyanın 87 ölkəsində mövcud olub, 93 milyondan çox adamı birləşdirir. BİK-in ümumi aktivlərinin miqdarı 4,3 trln. dollardan çoxdur. Onlar təkcə Kanadada deyil, eləcə də ABŞ, İrlandiya, Avstraliya, Cənubi Koreya və Tayvanda daha çox inkişaf etmişdir. Hər dördüncü amerikalı hər hansı bir borc istehlak kooperativinin üzvüdür. Məsələn, ABŞ və Avstraliyada yaşayan Ukrayna mühacirləri, eləcə də Ukrayna həmrəyliyi və qarşılıqlı yardım mərkəzinə

çevrilən bu cür kooperativlər sayəsində məhv olmayaraq iqtisadiyyatda özlərinə layiq yer tutdular [75, 87].

Vaxtilə Azərbaycanın da daxil olduğu Rusiya imperiyasında inqilaba qədər 10 mln. payçını birləşdirən və kiçik sahibkarlara maliyyə yardımı göstərən 13 mindən artıq borc-əmanət yoldaşlıqları var idi. Sovet dövründə onlar ləğv edilmişdi, lakin vətəndaşların qarşılıqlı borcvermə ənənələri qarşılıqlı yardım kassaları və «qara kassalar» formasında qalmışdı. Maaşdan ayrılan «üçlüklər» bu kassalarda toplanırdı və çox çətin anda oradan süründürməçiliyə yol verilmədən münasib miqdarda borc götürmək olardı.

İstehlakçılar Cəmiyyətləri Beynəlxalq Konfederasiyasının, sonra isə Borc İttifaqları Liqasının fəallığı sayəsində 1992-ci ildən sonra postsovet ölkələrində borc kooperativlərinin dirçəlmə dövrü başlandı. Bu proses Baltika respublikalarında, Ukrayna və Moldovada böyük vüsət aldı. Məsələn, Rusiyada 1996-cı ilin ortası üçün 40 mindən çox adamı birləşdirən 130-dan çox borc istehlak kooperativləri özü haqqında məlumat verdi.

Təəssüf ki, bizim ölkədə bu iş rüşeym vəziyyətindədir. Büdcə üzrə parlament komissiyasının iclasında «Borc ittifaqları haqqında» qanun layihəsinin müzakirəsi zamanı Milli Məclisdə səslənən məlumata görə, bu gün Azərbaycanda fəaliyyəti Mərkəzi Bankın qaydaları ilə tənzimlənən cəmi 13 belə təşkilat fəaliyyət göstərir. Bu, əlbəttə ki, çox azdır. Ancaq obyektiv çətinliklərə baxmayaraq, Azərbaycanda borc istehlak kooperativlərinin inkişafı üçün tutarlı əsas var. Çoxlu miqdarda kiçik investorlar onların geniş sosial bazasını təşkil edir. BİK ənənəvi maliyyə institutlarının əmanət saxlamaq və borc almaq kimi ehtiyacları ödəyə bilmədiyi anda və yerdə meydana çıxır. İstehlakçıya borcvermənin əməli cəhətdən pozulmuş sosialist və hələ qurulmamış bazar sistemi şəraitində BİK az qala yeganə yerdir ki, orada varlı olmayan əhali istehlak və şəxsi ehtiyaclarının ödənilməsi üçün müqabil şərtlərlə borc ala

bilər. Bu gün mağazalar çox nadir hallarda və çox həvəssiz, ancaq yatıb qalmış malı satmaq lazım gəldikdə nisyə mal satmağa razılıq verir. Banklar isə yüksək faizlər götürür, həddən artıq böyük təminat tələb edir və ümumiyyətlə, az yox, külli miqdar borc alanlara üstünlük verir.

Ümid var ki, borc ittifaqlarının inkişafı Azərbaycanın hələ institusional sisteminin geriliyi, maliyyə alətləri və xidmətlərinin məhdudluğu, borc vəsaitinin yüksək qiyməti, «kölgə» pul-borc dövriyyəsinin böyük payı, vəsaitin az müddətə təklifi hallarının daha çox olması və mühüm kapitalların ancaq Bakıda toplanması ilə səciyyələnən bütün maliyyə bazarına müsbət təsir göstərəcək. Banklar və maliyyə şirkətləri ilə yanaşı, borc istehlak kooperativlərinin də orada olması istehlakçıya borc verilməsi sahəsində rəqabət yaradacaq, bu da öz növbəsində fiziki şəxslər üçün iqtibas qiymətinin aşağı endirilməsinə və uyğun olaraq həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq. Eləcə də adamların investisiya ehtiyaclarının ödənilməsi imkanlarının müxtəlifliyi özlüyündə onların maraqlarını müdafiə edə və bazar iqtisadiyyatına etibarı artıra bilər. Respublikanın maliyyə baxımından zəifləmiş əyalət, şəhər və rayonlarına gəldikdə isə, orada borc ittifaqları, sadəcə olaraq, əvəzedilməz rol oynaya bilər. Ona görə də kollektiv xalq investisiyası forması kimi borc ittifaqlarının inkişafının dəstəklənməsi hökumətin vacib vəzifəsi kimi müəyyən edilməlidir. Onların statusu qanunvericiliklə təsdiqlənməli, maliyyə bazarının iştirakçılarından biri kimi onların fəaliyyətinə nəzarət edən imtiyazlı, həvəsləndirici rejim və sistem işlənib hazırlanmalıdır. Borc ittifaqlarının dövlət tərəfindən dəstəklənməsi vacibdir, belə ki, bunsuz onlar ayağa qalxa bilməz, eyni zamanda iqtisadiyyatımızın və əhalinin rifahının yüksəlməsi üçün vacib və xeyirli olan bu işin təhrif edilməsi və nüfuzdan salınması hallarına yol verməmək üçün dövlət nəzarəti də lazımdır.

## 8.3. Qloballaşma şəraitində Azərbaycanda istehlak kooperasiyasının inkişafının prioritetləri

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə beynəlxalq iqtisadi inteqrasiyanın qloballaşdığı bir şəraitdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin həlli, o cümlədən normal istehlak bazarının formalaşması və onun dinamik tarazlı inkişafının təmin olunması yalnız daxili imkanlar hesabına deyil, daxili və xarici amillərin dialektik vəhdəti bazasında mümkündür. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan qısa zaman ərzində xarici ölkələr, nüfuzlu beynəlxalq və maliyyə təşkilatları ilə əməkdaşlıq əlaqələrini qurmuş, Avropa və Avroatlantik məkanına inteqrasiya proqramlarına müvəffəqiyyətlə qoşulmuşdur. İqtisadi sferada radikal islahatlar yolu ilə planlı dövlət iqtisadiyyatından bazar iqtisadiyyatına keçid, dayanıqlı milli iqtisadiyyatın qurulmasında uğurlar əldə edilmiş, dinamik inkişaf meyilləri yaranmışdır. Artıq Azərbaycan Respublikasının müstəqilliyi dönməz bir prosesə çevrilmiş, respublikamız dünya birliyi ölkələri arasında suveren, demokratik, dünyəvi və mütərəqqi bir ölkə kimi öz layiqli yerini tutmuşdur. Lakin qeyd etmək lazımdır ki, dövlətçiliyimizin bərpası, iqtisadi inkişaf yolunda əldə olunmuş nailiyyətlər asanlıqla qazanılmamışdır. Belə ki, Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi siyasi və iqtisadi problemlər, qonşu ölkə tərəfindən məruz qaldığı hərbi təcavüz onun müstəqil dövlət kimi inkişafı yolunda ciddi çətinliklər yaratmışdır. Digər tərəfdən, keçmiş Sovet İttifaqının iqtisadiyyatının bir parçası kimi formalaşmış ölkə iqtisadiyyatının qısa bir zamanda mövcud şəraitə uyğun olaraq yenidən qurulmaması, ənənəvi tərəfdaşlarla mövcud olmuş iqtisadi kooperasiya əlaqələrinin qırılması ölkənin istehsal sahələrini iflic vəziyyətinə salmışdı. Belə ki, istehsal olunmuş məhsullar alıcısını tapa bilmirdi, digər tərəfdən istehsal üçün zəruri olan xammal və komponentlərin artıq başqa ölkələrdən gətirilməsi olduqca çə-

tinləşmişdi və çox hallarda qeyri-mümkün etmişdi. Bütün bu amillər son nəticədə istehsal sahələrinin əksəriyyətinin fəaliyyətinin dayanmasına səbəb olmuşdu. İstehsalın həcminin kəskin şəkildə aşağı düşməsi yüzlərlə müəssisə və təşkilatın fəaliyyətinin dayanmasına, əhalinin həyat səviyyəsinin kəskin pisləşməsinə gətirib çıxarmışdı. İqtisadiyyatda dövlət inhisarçılığı olduğu bir şəraitdə dövlət müəssisələrinin fəaliyyətinin dayanması yüz minlərlə işsiz ordusunun yaranmasına səbəb olmuşdu. Belə bir ağır şəraitdə 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana qayıdışı ölkənin siyasi və iqtisadi inkişafında dönüş nöqtəsi oldu. Ölkədə siyasi sabitlik bərqərar oldu, qısa bir zamanda siyasi və iqtisadi islahat proqramları hazırlanaraq həyata keçirilməyə başlanıldı, milli maraqlara uyğun olaraq ölkənin siyasi və iqtisadi inkişaf istiqamətləri müəyyənləşdirildi. Azərbaycan Respublikası siyasi inkişaf modeli olaraq demokratik, çoxpartiyalı, dünyəvi, qanunun aliliyinin təmin olunduğu, söz və din azadlığı, insan haqlarının qorunduğu inkişaf yolunu seçdi. İqtisadi inkişaf prioriteti olaraq bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan, sahibkarlığın, özəl mülkiyyətin, sağlam rəqabət əsasında fəaliyyət göstərən özəl təşəbbüsün əsas rol oynadığı, dövlətin yalnız tənzimləyici və strateji inkişaf funksiyalarını həyata keçirdiyi iqtisadi münasibətlərin formalaşdırılması üçün zəruri addımların atılmasına başlanıldı [187-1-3].

Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» neft kontraktı və daha sonra imzalanmış digər neft kontraktları gələcəkdə ölkənin maliyyə imkanlarının yaxşılaşması üçün zəmin yaratdı. Lakin yalnız neft sektorunu inkişaf etdirmək və ölkənin maliyyə vəziyyətini neft sektorundan asılı vəziyyətə salmaq düzgün olmazdı. Belə bir asılılığın yaranmasına yol verməmək üçün neft sektoru ilə yanaşı iqtisadiyyatın digər sahələrini də tez bir zamanda inkişaf etdirmək zərurəti qarşıya çıxırdı. Davamlı iqtisadi inkişafı təmin etmək üçün cid-

di struktur islahatlarının aparılmasına ehtiyac vardı. 1995-ci ilin sonuna doğru hiperinflyasiyanı aradan qaldırmaq və ölkədə iqtisadi vəziyyəti sabitləşdirmək üçün bir sıra addımlar atıldı və beləliklə, iqtisadi islahatlar dövrü başlandı. Bu dövrdə Beynəlxalq Valyuta Fondunun tövsiyələri nəzərə alınaraq ölkə iqtisadiyyatında sərt pul-kredit siyasəti tətbiq olundu və valyuta bazarı liberallaşdırıldı [187-2-4].

İqtisadi sferada əsas vəzifələrdən biri inzibati plan sistemindən imtina edib bazar iqtisadiyyatı münasibətlərini inkişaf etdirmək idi. İqtisadiyyatda, demək olar ki, dövlət sektorunun inhisarçı olduğu bir şəraitdə, təbii ki bu mümkün deyildi və ona görə də özəl mülkiyyətin, sahibkarlığın inkişafı üçün şərait yaradılması tələb olunurdu. Bu məqsədlə Azərbaycanda sərbəst bazar iqtisadiyyatının inkişafına yol açan normativ-hüquqi baza yaradılmağa başlandı, ölkə Konstitusiyasına xüsusi (*özəl*) mülkiyyətə dair yeni müddəalar daxil edildi [187-1-4].

Lakin ölkənin istehsal və xidmət sahələrini, demək olar ki, hamısının cəmləşdiyi dövlət sektorundakı müəssisələrin fəaliyyətini bərpa etmədən iqtisadi inkişafdan söhbət gedə bilməzdi. Dövlətin bu müəssisələrin işini canlandırmaq üçün investisiya imkanlarının olmadığı bir şəraitdə, yeni texnologiyalar gətirilmədən və mütərəqqi idarəetmə metodları tətbiq etmədən bu vəzifələri həyata keçirmək faktiki olaraq mümkün deyildi. Bundan əlavə, ənənəvi satış bazarlarının itirilməsi, xammal və resurs imkanlarının məhdudlaşması bir çox hallarda nəinki bu müəssisələrdə istehsalın bərpa olunmasını, hətta bir çox hallarda bazar iqtisadiyyatı amilləri nəzərə alınmaqla profilinin dəyişdirilməsini tələb edirdi. Bütün bu amillər səmərəsiz idarə olunan, aşağı məhsuldarlıqlı, zərərlə işləyən və ya işləməyən dövlət müəssisələrinin özəlləşdirilməsi zərurətini yaratmışdı. Dövlətin iqtisadi siyasətinin əsas məqsədlərinə uyğun olaraq, özəlləşdirmənin qarşısında iqtisadiyyatın yenidən qurulması, xüsusi mülkiyyət münasibətlərinin və sahibkarlığın sürətli inkişafı, iqtisadiyyata xarici investisiyaları cəlb et-

məklə onun səmərəliliyinin artırılması, iş yerlərinin bərpası, yeni iş yerlərinin açılması və digər bu kimi məqsədlər durur. Bütün bu tədbirlərin başlıca məqsədi vətəndaşların sosial-iqtisadi durumunun yaxşılaşdırılması və dövlətimizin güclü iqtisadi dayaqlarının yaradılmasıdır. Bu mənada ölkəmizdə aparılan özəlləşdirmə özlüyündə məqsəd deyil, qeyd olunan məsələlərə nail olmaq üçün bir vasitə hesab edilir. Ona görə də, ölkə rəhbərliyi tərəfindən özəlləşdirməni həyata keçirən qurumlar qarşısında özəlləşdirmənin iqtisadi səmərə və sosial ədalət prinsipləri əsasında aparılması vəzifəsi qoyulmuşdur.

Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişafı ölkənin davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edən məqamlardandır. Nəzərə almaq lazımdır ki, istehlak kooperasiyası əhalinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsi ilə yanaşı, həm də iqtisadiyyatın müxtəlif sahələrində mövcud olan istehlak və satış problemlərinin həllində də əhəmiyyətli rol oynayır.

Azərbaycannın Ümumdünya Ticarət Təşkilatina (*ÜTT*) üzvluk məsələsi qloballaşma şəraitində kooperasiyanın inkişafını daha da səmərəli edəcəkdir. Belə ki, tədqiqatlar göstərir ki, Azərbaycanın ÜTT-yə üzvlük məsələsində mühüm təminatları istehlak kooperasiyasının geniş imkanlara malik oldugu aqrar sektorda əldə ediləcəkdir. Bu onunla əlaqələndirilir ki, Azərbaycan Respublikasında əhalinin yarısı kənd yerlərində yaşayır və ənənəvi olaraq da kənd təsərrüfatı milli iqtisadiyyatın mühüm sahəsi kimi ölkənin ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi şəraitində isə ölkənin kənd təsərrüfatının yenidən qurulması çox vacib bir məsələ kimi ortaya çıxır. Regional iqtisadiyyatın inkişafında, məşğulluğun təminatında, sosial rifahın yaxşılaşdırılmasında aqrar sektorun imkanları daim genişlənir və bu mənada da dövlət onu hərtərəfli müdafiə edir. Bununla belə, vurğulanmalıdır ki, respublikanın aqrar sektorunda hələ də çoxsaylı problemlər, köklü düzəlişini gözləyən və həllini

tapmamış problemlər qalmaqdadır. Problemlər isə, ilk növbədə, təkmil menecment aspektində, kooperasiyanın inkişafı, struktur və texnoloji sferasında, başlıca olaraq isə keyfiyyət və məhsuldarlıq sahəsində özünü göstərir. Bu baxımdan ÜTT-yə üzvlük məsələsi Azərbaycanda aqrar sektorun yenidən qurulması, qabaqcıl dünya təcrübəsinə əsaslanan məzmun və formada modernizasiyasını sürətləndirə və tam bərqərar edə bilər. Buna görə də, Azərbaycanın ÜTT-yə üzvlük məsələsi daha sürətli aparılmalı və bu istiqamətdə aqrar sektor üçün də mühüm olan prioritetləri müəyyənləşdirilməlidir. Bu prioritetlər sırasına isə fikrimizcə, aşagıdakıları daxil etmək olar:

- kənd təsərrüfatı məhsulları üzrə idxal rüsumlarının saxlanılması və daxili bazarın konyunkturuna uyğun tənzimlənməsi;
- milli məhsulların rəqabətqabiliyyətlinın artırılması və təsbit edilən müddətlər ərzində subsidiyalaşdırılması;
- inkişaf etməkdə olan ölkələr üçün tətbiq edilən yeddi illik güzəştli dövrün qazanılması;
- kooperasiyanın davamlı stimullaşdırılmasının təmin edilməsi;
- ailə (*fermer*) təsərrüfatları, müvafiq xidmət sahələri və ümumilikdə aqrar infrastrukturun inkişafının dövlət proqramları çərçivəsində reallaşdırılması.

Bütün bunlar öz növbəsində respublikanın ÜTT-yə qoşulmaq ərəfəsində aqrar sektorda idarəetmə sisteminin müxtəlif səviyyələrində iqtisadi mexanizminin təkmilləşməsi istiqamətində kompleks tədqiqatların aparılmasını, burada dayanıqlı inkişaf problemlərinin əhatəli və hərtərəfli tədqiqi zərurətlərini şərtləndirir. ÜTT-yə qoşulmaqla ölkədə bazar təsisatlarının daha da dərinləşməsi, kənd təsərrüfatı məhsulu istehsalının yaxşılaşmasında mövcud sistem və modelin köklü dəyişilməsinə nail olma isə bütövlükdə aqrar sahənin inkişaf konsepsiyasının hazırlanmasını tələb edir.

Bu gün dərinləşən qloballaşma şəraitində müasir tələblərə cavab verən bazarın təşəkkülü və bazar mexanizmlərinin səmərəli fəaliyyəti bazar münasibətlərinin subyekti olan, öz mülkiyyətinə görə müstəqil məsuliyyət daşıyan, təsərrüfatçılıq fəaliyyətində təşəbbüskarlıq bazarlığına malik sahibkarların olmasını zəruri edir. Buna görə də, istehlak kooperasiyası sistemində dövlətsizləşdirmə prosesinin başa çatması həmin sistemə daxil olan müəssisə və təşkilatlara müvafiq qanunlar və mövcud nizamnamə çərçivəsində onlara real müstəqilliyin və ya sərbəstliyin verilməsi deməkdir. Əlbəttə, istehlak kooperasiyası sistemində dövlətsizləşdirmə və özəlləşdirmə prosesini fərqləndirmək lazımdır. Dövlətsizləşdirmə istehlak kooperasiyasının tamamilə dövlət idarəetmə nəzarətindən çıxılması deməkdirsə, artıq özəlləşdirmə kooperativ mülkiyyət formasının dəyişdirilməsi və ya ləğv olunması deməkdir. Buna görə də ticarət, ictimai iaşə müəssisələrinin və digər sahələrin özəlləşdirmə prinsiplərini mexaniki olaraq istehlak kooperasiyası sisteminə tətbiq etmək olmaz. Əksinə, mövcud qanunvericiliyə görə istehlak kooperasiyası müəssisələri özəlləşdirilən dövlət müəssisələrinə sahib ola bilərlər. Əlbəttə, bu istehlak kooperasiyasının ayrı-ayrı müəssisələrinin fərdi mülkiyyətə satılmasını istisna etmir. Lakin belə hallara kütləvi deyil, konkret, fərdi surətdə yanaşmaq lazımdır. Buna baxmayaraq, istehlak kooperasiyası çərçivəsində onun malik olduğu mülkiyyətin payçı üzvlərinə və əmək kollektivlərinə yaxınlaşdırılması sahənin davamlı inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə:

- payçıların üzvlük haqlarının və ona verilən dividendləri artırmaqla onların maddi marağını yüksəltmək, lazım gəldikdə ayrı-ayrı məhsulları onlara güzəştli qiymətlərlə satmaq lazımdır;
- istehlak kooperasiyası müəssisələrində əmək kollektivlərinin mülkiyyətinin formalaşmasının elə mexanizmlərini müəyyən etmək lazımdır ki, bunun əsasında onun üzvləri həm də müəssisənin nəticələrində şəxsi töhfəsinə uyğun olaraq, əldə edilən mənfəətə iddia edə bilsin;

- istehlak kooperasiyası sistemində icarə münasibətlərinin elə formaları tətbiq edilməlidir ki, bütün fəaliyyət sahələrinə aid olan müəssisələrin əksəriyyəti icarəyə verilərkən bundan birinci növbədə əmək kollektivi istifadə edə bilsin;
- istehlak cəmiyyətlərinə xidmət funksiyası yerinə yetirən kooperativ ittifaqının müəssisələri və ya onun infrastrukturu kooperativ ittifaqının və istehlak cəmiyyətinin birgə müəssisələrinə çevrilməlidir.

Hazırda respublikamızda istehlak kooperasiyası sistemi tənəzzül dövrünü yaşayır. Payçıların xeyli hissəsi maddi imkanları olmadığından, pay haqqını ödəyə bilmirlər və bütövlükdə istehlak kooperasiyası sistemi pay haqqı hesabına idarə olunduğundan, sistemin bir sıra strukturları məcburən ləğv olunmuş, kənd istehlak kooperasiyasına aid olan əksər mağazalar özəlləşdirilmişdir.

Aktiv ticarət-tədarük fəaliyyəti, boş bina və sahələrin icarəyə verilməsi, bəzi zəruri tələbat mallarının sənaye istehsalının həyata keçirilməsi istehsal kooperasiyası sisteminin hələlik mövcudluğuna, yaşama qabiliyyətini saxlamağa imkan verir. Gələcəkdə kooperasiya sistemində ticarət-tədarük fəaliyyətinin daha da genişləndirilməsi, malgöndərənlərlə birbaşa, daima əlaqələrin qurulması tədavül xərclərini azalmağa, xüsusən kənd yerlərindəki mağazaların zərərlə işləməsinin qarşısını almağa, tam gücü ilə işləməyən və ya tam istifadə edilməyən ticarət obyektləri və anbar sahələrindən daha səmərəli istifadə etməyə imkan verəcəkdir.

Respublikanın istehlak kooperasiyası sistemi çoxsahəli olmaqla, həm tədavül, həm də istehsal sferasında fəaliyyət göstərir. Xalq istehlakı malları ilə ticarət, ictimai iaşə, kənd təsərrüfatı məhsullarının tədarükü, öz sənaye müəssisələrində zəruri tələbat mallarının istehsalı, yardımçı kənd təsərrüfatı və s. fəaliyyət növləri Azərbaycanın istehlak kooperasiyası sistemində həyata keçirilən əsas fəaliyyət növləridir.

## 8.4. Türk dünyası ölkələri arasında kooperasiya əlaqələrinin inkişaf istiqamətləri

Sovetlər İttifaqının süuqutu müstəqil türkdilli dövlətlərin sayını 6-ya çatdırmışdır. Bu ölkələrin ümumi sərhəd birliyi inteqrasiya çevrəsində yeni bir makroregionun, qədim Turan adlı güc mərkəzinin yeni düzümdə formalaşmasına rəvac verimişdir. İndi Türkiyənin mərhum prezidenti T.Ozalın «XXI əsr türk əsri olacaqdır» deyimi özünün reallığa çevrilən məzmunu ilə daha çox ürəkləri fəth etməkdədir. Bu, müasir türk dünyasının artan siyasi, iqtisadi, humanitar güc konsolidasiyasından qaynaqlanır. İndi 6 müstəqil türk dövlətlərində dünya üzrə ÜDM-in 1,44%-i, sənaye məhsullarının isə 1,29% istehsal olunur [37, 70, 179].

Əlbəttə, planetar regionlaşma aspektində bunlar maksimal yüksək göstəricilər olmasa da, bu coğrafiyada böyük iqtisadi potensiala, insan resurslarına əsaslanaraq reallaşan yeni sıçrayışlı inkişaf templəri türk dünyası ölkələrinin yaşadığımız əsrdə gücünün müqayisəolunmaz səviyyədə artacağına nikbin ovqatlar yaradır. Elə bu baxımdan da, yeni geosiyasi situasiya - etnik, konfessional, ümumtarixi və coğrafi genetik ənənəvi vəhdətdə türk dünyası ölkələrinin inteqrasiyasının genişlənməsini obyektiv zərurətə çevirərək daha təkmil regional infrastrukturun yaranışını şərtləndirir. Dərinləşən mövcud inteqrasiya yaxın və orta perspektivdə vahid koordinasiyalı yeni iş birliyi sahəsində əməkdaşlıq vektorlarının daha genişliklə şaxələnməsinə aparır.

Türk dünyası ölkələrinin əməkdaşlıq diapazonunda predmetlər spektri o qədər genişdir ki, bu mənada onları bir-birindən ayırmaq da çətindir. Belə ki, burada hər bir sahənin özünəməxsus iqtisadi dəyəri və sosial mahiyyəti seçim üstünlüklərini mürəkkəbləşdirir. Bununla belə, əməkdaşlığın dərinləşdirilməsi istiqamətində sosial-iqtisadi keyfiyyəti ilə fərqlənən sahələri də ayırmaq ehtiyacı vardır. Bu sahələr içərisində özünün mühüm təsir effekti ilə kooperasiyanın əhəmiyyəti dəyər-

ləndirilməlidir. Statistik məlumatlar əsaslandırır ki, artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsüsi çəkisi rəqabətqabiliyyətli güc nümayiş etdirməkdədir. Kooperasiya milli iqtisadiyyatın ayrılmaz hissəsi olaraq yeni dövriyyə toplamaqda və rəqabət mübarizəsində qabaqcıl mövqelər sırasına çıxmaq ərəfəsindədir. Bundan çıxış edərək bir çox ölkələr iqtisadi əməkdaşlığın yeni məhsuldar forması olaraq kooperasiya əlaqələrinə perspektivlik kimi yanaşırlar. Lakin türk dünyası ölkələri arasında da kooperasiya əməkdaşlığı umumiqtisadi kontekstdə götürüldüyündən, onun inteqrasiya gücü görünmədən arxa plana keçirilmişdir. Buna görə də, kooperasiyanın iqtisadi inkişafa, sosial tərəqqiyə və başlıcası isə ölkələrarası inteqrasiyaya xüsusi olan təsirinin nəzərə alınması əlahiddə bir dəyərləndirmə ehtiyaci yaradır. Bu dəyərləndirmə isə başlıca olaraq türk dünyasi ölkələri arasında kooperasiya əlaqələrinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə hesablanmışdır.

Kooperasiyanın təşkilində əsas məqsəd bilavasitə əhaliyə xidmət göstərmək, istehlak malları bazarının mal təhcizatını stabilləşdirmək, məhsuldar və yaradıcı marağı artırmaq, tələblə təklif arasında tarazlığı təmin etmək və ümumilikdə iqtisadiyyata daha çox sosial istiqamət vermək vəzifələrindən irəli gəlir. Lakin, bununla belə, ötən dövrlərdə olduğu kimi, indi də kooperasiyanın əsl mahiyyətinə, onun inkişaf perspektivliyinə mübahisəli yanaşmalar qalmaqdadır. Kooperasiyanı cəmiyyətin iqtisadi həyatında «ikinci növ» hesab edənlər yenə də onu ölkələrin iqtisadi inkişafında arxa plana çəkməyə səy göstərirlər. Buna baxmayaraq, müasir dünyanın bir sıra ölkələrində insanlar kooperasiyaya həm özlərinin, həm də, ailələrinin problemlərinin müstəqil həll etmək vasitəsi və aləti kimi yanaşır, icmalar isə ona riskləri daha az, aparıcı və məhsuldar bir qurum kimi böyük etimad göstərirlər. Bu ondan irəli gəlir ki, dərinələşən qloballaşma prosesi kooperasiyanın ənənəvi paradiqmasını köklü dəyişikliklərə uğradır. İnformasiya texnologiya-

ları sahəsində baş verən inqilablar isə onu lokal əlaqələr çərçivəsindən çıxaraq regional və qlobal münasibətlər sferasına gətirib çıxarmışdır. Belə ki, əvvəllər yalnız yerli səviyyədə fəaliyyət göstərən kooperasiya indi dünyanın istənilən nöqtəsi ilə, həm də çox çeviklikl ə əlaqələr yaratmaq imkanı əldə etmişdir.

Müasir qloballaşma şəraitində kooperasiyanın inkişaf problemləri və onun inteqrasiya gücünün optimallaşdırılıması bir sıra əlamətləri ilə xarakterikdir. Gerçəklik belədir ki, qloballaşma prosesləri iqtisadiyyatda böhranlı hadisələrlə də müşayiət edilir. Lakin işini düzgün qurmağa nail olmuş kooperasiya digərlərinə nisbətdə özünün status özəlliyinə əsaslanaraq daha az zərərlərə məruz qalır. Bu həm də onunla əlaqələndirilir ki, kooperasiya təsisatı formasında iqtisadi münasibətlər payçı kapitalına əsaslanır və onlar fəaliyyətlərində spekulyasiya xarakterli heç bir işlərə cəlb edilmirlər.

Qloballaşma eyni zamanda, korrupsiyanın artması ilə də müşaiyət edilir. Bir qayda olaraq, həmin ölkələrin iqtisadiyyatında korrupsiyadan bazarlarda rəqabət üstünlüyünü ələ almaq, proteksionizmi möhkəmləndirmək və həmçinin, siyasi sistemə nüfuz etmək məqsədi üçün də istifadə olunur. Şübhəsiz ki, korrupsiya kooperasiya təsisatlarının da normal fəaliyyətinə mane olur və bu sahədə ciddi mənəvi və maddi itkilər yaradır. Obyektiv reallıq isə belədir ki, kooperasiya təsisatları bazarda yalnız aşkarlıq və şəffaflıq şəraitində normal fəaliyyət göstərə bilər. Bu baxımdan kooperasiya təsisatlarının ümumi idarəetmə və demokratiyaya bağlılıq strukturu bu təsisatlarda korrupsiyanın çiçəklənməsinə sipər çəkir. Digər tərəfdən məlumdur ki, insanların arzu və ya istəklərindən asılı olmadan inkişaf etmiş dövlətlər və iri transmilli korporasiyalar tərəfindən dünyanın bölüşdürülməsi prosesi gedir. Kooperasiya təsisatları isə, öz növbəsində buna daha çox müqavimət göstərmək iqtidarına malikdirlər. Ona görə ki, bu prosesdə kooperasiya heç də bütünlükdə bazarı deyil, yalnız öz payçılarının tələbatlarını ödəmək yönümündə fəaliyyət gəstərir. Bu reallıq isə ona dəlalət edir ki, indi yaşadı-

ğımız ümumdünya maliyyə böhranı şəraitində də daha çox davamlılıq kooperasiya təsisatları sferasında baş verir. Əslində, bu böhranın tamamlanmayan qısa statistikası da qlabal böhranın kooperasiya zonasıda daha az təsirli olduğunu göstərir. Belə bir iqtisadi təməl və şərtlilik də öz növbəsində kooperasiyanı türk dünyası ölkələrinin inteqrasiyasının dərinləşməsində yeni mühüm istiqamətlərdən birinə çevirir.

Kooperasiya haqqında da geniş reallıqlar belədir ki, o insanı istehsal, xidmət, ticarət, ictimai iaşə və digər bu kimi sahələrin gerçək sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya əsaslı dərəcədə ölkədə sosial-iqtisadi inkişafa təkan verərək bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkat vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını bir-biri ilə əlaqələndirir. Bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasında da mühüm mənbələrdən birni məhz təsərrüfatçılığın kooperativ forması təmin edir. Bununla belə, real bazar ölkələrinin təcrübəsi göstərir ki, kooperasiya təsisatları müasir qloballaşma və regionlaşma şəraitində öz fəaliyyətlərini nəqliyyat, sığorta, səhiyyə və sosial xidmətlər sahəsində daha geniş həyata keçirməlidirlər. İnkişaf etmiş ölkələrin əksəriyyətində yerli hakimiyyət strukturları bu və ya digər xidmət göstərilməsi üçün kooperasiya təsisatları ilə xüsusi kontraktlar bağlayırlar və onların fəaliyyəti stimullaşdırılır. Elə bütün bu əsaslandırmalara görə də, kooperasiyanın türk dünyası ölkələrində həm lokal və həm də regional sfrerada genişliklə tətbiqi zərurətə çevrilir və inteqrasiya prosesinin xarakterik xüsusiyyətlərindən irəli gələrək onun türk dünyası ölkələrində də yeni mahiyyət və məzmunda təsisatlandırılması, fəaliyyətlərinin genişlədirilməsi mühüm iqtisadi əməkdaşlıq amili hesab edilir. Belə təsisatlandırmaların inteqrasiya məkanının ucqarlarında yaradılması daha məqsədəuyğundur. Kooperasiya hərəkatının təd-

qiqatları göstərir ki, əhalinin kasıb təbəqələri yaşayan ərazilərdə yerli ehtiyaclara hesablanmış çoxprofilli kooperasiya təsisatlarının yaranışı daha effektivlidir. Bir cəhət xüsusilə qeyd olunmalıdır ki, çoxməqsədli kooperasiya təsisatlarının yaranması prosesi TMK-ları qane etmir. Onlar hər vəcdlə bu prosesə mane olmağa çalışır, özünün manevrliyi, geniş məhsul assortimenti ilə üstünlüyü saxlamağa cəhd edirlər. Bütün bu maneələrə və çətinliklərə baxmayaraq, kooperasiya təsisatları öz sferasını genişləndirir və onların əhəmiyyəti artmaqda davam edir. Belə ki, qlobal dünyanın müasir inkişaf mərhələsində kooperasiya təsisatları müxtəlif səhiyyə xidmətləri göstərmək, mənzil şəraitini yaxşılaşdırmaq, əhalinin təhsil almasına, maariflənməsinə şərait yaratmaq və s. vasitələrlə insan kapitalının inkişafında genişliklə iştiraka cəlb olunurlar. Burada yaradılan əmtəə, göstərilən xidmətlər az resurs tutumluğu ilə fərqlənir. Əsası isə odur ki, kooperasiya təsisatlarında əldə edilən mənfəət özünün missiyasına uyğun olaraq, ilk növbədə üzvlərin tələblərinin ödənilməsinə sərf olunur [138, 162, 187-6].

Yeni geosiyasi vəziyyətdən bəhrələnərək ilk müvəffəqiyyətli addımlarını atmış türk dünyası ölkələrində də lazımi resurs potensialının mövcudluğuna əsaslanaraq, onun bir daha geniş dövriyyəyə cəlb edilməsində kooperasiyanın imkanlarından genişliklə istifadə edilməlidir. Bunun üçün isə ilk növbədə, dövlət strategiyasında əsas prinsiplər kimi, kooperasiya ideologiyasının təşviqat gücünün artırılması və bu istiqamətə geniş institusional islahatların aparılması daha zəruri hesab edilir. Bununla yanaşı, türk dünyası dövlətləri arasında inteqrasiyanın dərinləşməsində kooperasiyanın əhəmiyyətindən dolğun istifadə istiqamətləri müəyyənləşdirilməli və təyin edilməlidir. Apardığımız təhlili araşdırmalara əsaslanaraq, bu istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- kooperasiya prinsiplərinin möhkəmləndirilməsi, müvafiq sahədə təbliğatın gücləndirilməsi;
- kooperasiya istiqamətində onun bütün sferalarını əhatə edən (*elm və təhsil, informasiya texnologiyaları, konsal-*

*tinq xidməti və s*) ayrıca dövlətlərarası proqramların hazırlanması, qəbulu və reallaşdırılması;

- ❖ kooperasiya ilə bağlı institusional islahatların aparılması, onun normativ-hüquqi bazasının təkmilləşdirilməsi və fəaliyyət səmərəliliyini stimulaşdıran daha əlverişli iqtisadi mühitin formalaşdırılması;
- ❖ dövlətlərarası beynəlxalq kooperasiya institutlarının - assosiyasiyaların, bank və sığorta kompaniyalarının yaradılması.

Nəzərə alsaq kı kooperasiyanın əsas məzmununu demokratizm, bərabərlik, həmrəylik, əsaslı əməkdaşlıq təşkil edir, onda bu təsisatın transmili gücü və iqtisadi inkişafa təsir effekti daha aydınlıqla görünər.

## 8.5. İstehsal və maliyyə kooperativləri yeni inkişaf mərhələsində

Müasir dünya iqtisadiyyatının inkişafında kooperativ hərəkatının rolu və əhəmiyyəti artmaqdadır. Əsas məqsədi bilavasitə əhaliyə xidmət göstərərək istehlak malları bazarındakı təhcizatı stabilləşdirmək, iqtisadiyyata daha çox sosial istiqamət vermək, məhsuldar və yaradıcı marağı artırmaq missiyasını daşıyan kooperativ hərəkatının Azərbaycanda da inkişaf etdirilməsi zəruri sosial-iqtisadi tələbə çevrilməkdədir. İndi ölkədə fəaliyyət göstərən kooperativlərin geniş diversifikasiyasına nail olmağın daha əlverişli məqamı yetişmişdir. Bu əlverişlilik ilk öncə respublikamızda sosial-iqtisadi dirçəlişin yeni mərhələyə qədəm qoyması ilə əhəmiyyətini daha da artırmaqdadır. Belə diversifikasiyanın təminatında isə ölkədə istehsal kooperativlərinin miqyaslı formalaşmasına, xüsusən də onların aqrar sektorda genişlənməsinə və təsərrüfatçılığın bu sahəsində fəaliyyət göstərən insanlara dövlət qayğısının artırılmasına diqqət yüksəldilməlidir. Burada mühüm prioritetlər sırasında institusional dərinləşmə, müvafiq sferada normativ-hüquqi ba-

zanın genişləndirilməsi, sahəvi davamlı inkişafın təminatında uzunmüddətli dövlət programlarının işlənib hazırlanamsı daha mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, yeni kooperasiya dalğasının tənzimlənməsi, onun daha uğurlu məcraya yönəldilməsi bu istiqamətdə yeni təhlili işləmələrin və elmi əsaslandırmaların aparılmasını şərtləndirir.

Mövcud tarixi reallıqlar, formalaşmış universal təcrübə zəminində sferadakı çoxsaylı materialların tədqiqi göstərir ki, promblemin uğurlu həlli üçün kooperasiyanın keçdiyi inkişaf yolunu müasir realliqlar fonunda bir daha təhlili, onun tərəqqisinə təminat verən amillərin aşkara çıxarılması və başlıca olaraq da perspektivlərin əsas istiqamətlərinin müəyyənləşdirilərək təyin edilməsi elmi aktual bir məsələdir.

Özünün növ və forma müxtəlifliyindən asılı olmayaraq kooperativlər eyni xarakterli sosial yaranışlara bağlıdırlar və bu əsasda da vahid anlaşma əldə edirlər. Kooperativlərin identikliyi haqqında bu ideya 1995-cı ildə İngiltərənin Mançester şəhərində «Beynəlxalq Kooperativ Alyansı»nin 100 illiyinə həsr edilmiş konqresin bəyanatında bir daha dəqiq əksini tapmışdır. Bəyanatda deyilir ki, istənilən kooperativ insanların avtonom ittifaqı kimi, özlərinin ictimai-iqtisadi, sosial və mədəni tələblərini müəssisənin demokratik idarəetməsi zəminində, üzvlərin müştərək sahibkarlığı əsaında könüllü birləşməsini səciyyələndurir. Bununla belə, bu sayaq assosiasiyalar yalnız ayrı-ayrı insanları deyil, fərdi üzvlərin malik olduqları eyni haqları ifadə edən huquqi şəxs qruplarının birləşməsi kimi də anlaşılır. Belə anlam kooperativləri digər hüquqi şəxslər kütləsindən ayıraraq fərqli sosial-iqtisadi oriyentirləri təcəssüm etdirir. Bu bəyanatda həm də vurğulanır ki, əsas məqsədi öz uzvlərinin ehtiyaclarının ödənilməsini təmin edən kooperativlərin məqsədində ilk sosial əhəmiyyətli kapital deyil, böyük mənada insanın özüdür.

Azərbaycan respublikasının qanunvericiliyində də kooperativ düşüncənin bu fəlsəfi və hüquqi aspektləri ümumən öz əksini tap-

mışdır. Lakin bununla belə, müvafiq dəyərlərin qanunvericilik aspektində də inkişaf etdirilməsi vacib və zəruridir [187-11].

Beynəlxalq kooperativ hərakatı nəzəriyyəsində kooperativlər sosial iqtisadiyyatın struktur elementi kimi xarakterizə olunurlar. Onlar özlərinin baza əraziləri ilə sıx əlaqə təşkil edir və areallarında sosial-iqtisadi effektləri təmin edirlər. Əsas məqsədlərində mənfəət yaratma dayanmadığı üçün, xaricə kapital ixracına o qədər də maraq göstərmirlər. Lakin bir sıra inkişaf etmiş ölkələrdə ixrac təşəbbüsləri və onların reallaşmasını dövlət özü təmin edir. Kooperativlər fəaliyyətlərində yerli xammaldan və istehsal resurslarından, ərazinin kadr potensialından istifadəyə daha çox köklənmişlər. Onlar, yalnız öz tələblərini deyil, həm də fəaliyyət göstərdikləri ərazidə əhalinin çeşidli tələblərini də ödəyirlər. Bu sferada iqtisadi əhəmiyyəti daha da genişlənən istehsal kooperativlərinin funksionallığı artmaqdadır. Hazırda burada müntəzəmləşən struktur və status dəyişiklikləri yeni səmərəliliklərlə müşayiət olunmaqdadır. Hətta bir sıra ölkələrdə istehsal kooperativləri uğurlu və davamlı inkişafı təmim edərək özlərinin səhmlərini belə buraxmışlar [174].

İstehsal kooperativlərinin fəaliyyət səmərəliliyini onların təşkilati xüsusiyyətləri təcəssüm etdirir. Burada spesifiklik yaradan cəhətlər yetərincədir. Belə ki, istehsal kooperativləri istisnalı olaraq onların təsisiçiləri tərəfindən yaradılır və bu yaranışda iştitak etmiş bütün şəxslər onun təsisçiləri hesab edilirlər. İstehsal kooperativinin təsisində hüquqi şəxs iştirak etdikdə, onun da ayrıca üzv kimi hüququ təsbit olunur. Bütün fəaliyyət məsələləri öncədən qarşılıqlı razılaşdırılsa da, funksional bölgü rəsmi təsisat yığıncaqsız ötüşmür. Təsisat yığıncagında sədr seçilir, istehsal kooperativinin digər orqanları formalaşdırılır və başlıca olaraq təşkilati nizamnamə təsdiq edilir.

Bütün kooperativ təsisatlarında olduğu kimi, istehsal kooperativində də kollektiv üzvləri ilə kooperativ üzvlərini bir-birindən fərqləndirmək gərəklidir. Belə ki, bu fərdlər eyni və

qismən də ayrı şəxslər ola bilərlər. Bu ondan irəli gəlir ki, istehsal kooperativlərində muzdlu işçilərin prosesə cəlbinə icazə verilir. Lakin bu strategiyada müvafiq kvotalıq mövcuddur. Adətən muzdlu işçilər kontingenti kooperativ üzvlərinin ümumi sayının 30%-ini aşmır və onlar əsasən daha cox fəsli işlərlə bağlı olan fəaliyyətlərə cəlb edilirlər [148, 160].

İstehsal kooperativlərində də əmək münasibətləri mövcud ölkə qanunvericiliyi ilə və həm də təşkilati nizamnamə ilə də tənzimlənir. Əməyin mühafizəsi qaydaları ısə istisnalı olaraq ölkə qanunvericiliyi, başlıca olaraq mülki məcəllə tələblərinə uyğun reallaşdırılır. İstehsal kooperativlərində mülkiyyət münasibətləri də xüsusi təyinatlıdır. Bu spesifikliyə onun əmlakının xüsusi rejimi təyinat verir. Belə ki, ümumi xarakterik xüsusiyyət kimi, istehsal kooperativlərində də nizamnamə kapitalı olmur. Burada minimal əmlakı payçılıq fondu yaradır. Payçılıq haqqı kimi isə pul, qiymətli kağız, maşın və avadanlıqlar çıxış edir. Bununla belə, istehsal kooperativlərində sonrakı səmərəli inkişafın təmini məqsədi ilə bölünməz fondlar təşkil olunur.

İdarəetmə səmərəliliyini artirmaq üçün istehsal kooperativlərində bir sıra idarə və nəzarətedici orqanlar təsis olunurlar. İdarəetmə rejimi isə burada, vurğulandığı kimi, üstün olaraq demokratik prinsiplər üzərində qurulur. Bu baxımdan istehsal kooperativlərinin hüquqi statusu da digər hüquqi şəxs formalarından daha çox özünün sosial bərabərliyi ilə fərqlənir. Uzunmüddətli dünya təcrübəsi sübüt edir ki, iqtisadi rifahı əldə etmək üçün istehsal kooperativlərində nəhəng kapitala ehtiyac yoxdur. Belə ki, nəhəng kapital bir qayda olaraq, kooperativlərdə deyil, üstün olaraq korporasiyalarda dövr edir [81, 130].

İstehsal kooperativləri müasir iqtisadi modelli hər bir ölkənin iqtisadi həyatında mühüm rol oynayırlar. Onlar məşğulluğu mülayimləşdirərək, ölkədəki orta mülkiyyətçilər təbəqəsini genişləndirirlər. İstehsal kooperativləri daha tutumlu olaraq aqrar kompleksdə səmərəliliyini artırırlar. Bu baxımdan Azərbaycan Respublikasında istehsal kooperativlərinin də ən əlve-

rişli sınaq və geniş tətbiq meydanı kimi aqrar sektor çıxış edir. Bu fikir daha cox onunla əsaslandırılır ki, Azərbaycanın aqrar sektorunda bir sıra MDB ölkələrindən fərqli olaraq, daha öncə və geniş miqyaslı torpaq islahatları və əmlak bölgüsü aparılmış, sahədə yeni mülkiyyət münasibətlərinə əsaslı keçid edilmişdir. Bugünkü reallıq belədir ki, aqrar sektorda böyük torpaq mülkiyyətçisinə çevrilmişlər texnika, dövriyyə vəsaiti, infrastruktur obyektlərinə və çox zaman da sahibkarlıq bacarığı və səriştəsinə malik olmadıqlarından mülkiyyətindəki torpaqdan səmərəli istifadə edə bilmirlər. Burada problemlər yalnız sadalananlarla bitmir. Torpaqların münbitliyi, onların nəqliyyat qovşaqlarından, su, enerji təchizatı obyektlərindən nisbi uzaqlığı və bəzən də müvafiq işçi qüvvəsi catışmazlıqı bu istiqamətdəki fəaliyyət səmərəliliyinə təsir göstərir. Çıxış yolu kimi isə, apardığımız təhlillə əsaslandırılan istehsal kooperativləri yaratma strategiyasına keçid təqdim olunur. Belə səmərəliliyin öncədən hesabını müvafiq sahədə təcrübələndirilmiş daha bir gerçəkliklə də möhkəmləndirmək olar. Sovet sistemində kolxozların yaranısı, növbəti mərhələdə sovxozlar (*rus: советское хозяство - sovet təsərrüfatı, aqrar sektorda dövlət müəssisəsi*) sisteminin təşəkkülü təsadüfi olmamışdır. Bu strategiyanı heç də sırf kommunist ideologiyası ilə əlaqələndirmək düzgün olmazdı. Burada ideoloji rəngi yalnız müvafiq qurumların təşkilati formasında üstün olaraq kollektivçilik prinsiplərinin rəhbər tutulması səciyyələndirirdi. O zaman - XX əsrin ilk onilliklərində qlobal dünyadakı iqtisadi və demoqrafik artım templəri əhalinin ərzağa, xüsusən də kənd təssərrüfatı məhsullarına olan ehiyacını xeyli genişləndirmişdi. Bu artan tələblər bir çox ölkələrin aqrar sektorunda yeni təsərrüfatçılıq ənənələrinin yaranışı ilə müşayiət edilməkdə idi. Kənd təssərrüfatı sistemində texniki silahlanma, istehsalın mexanikləşməsi prosesi güclənirdi. Əsası isə bu prosesdə kəndlilər məhsuldarlıq, artan texniki təminat tələbləri ilə torpaqların birləşdirilməsinin labüdlüyünü anlayaraq təsərrüfatlarının səhmdar əməkdaşlıq zəminində

idarə olunmasına meyil etdilər. Hələ indinin özündə də ABŞ başda olmaqla, bir çox inkişaf etmiş dövlətlərdə ölkənin istehsal etdiyi kənd təsərrüfatı məhsulunun əksər hissəsini fərdi təsərrüfatlar - fermerlər deyl, aqrar kooperativlər təmin edirlər. Göründüyü kimi, müasir inkişaf etmiş dünya təsərrüfatında aqrar sektorda məhsul artımının təminatı səhmdar və ya kooperativ təsisatlandırmasız mümkünsüz bir işdir. Buna görə respublikamızda da aqrar sektorda yeni inkişaf təmayülynü istehsal kooperativlərinin geniş təsisatlandırması ilə bağlamaq lazımdır. Elə bu baxımdan da, respublikamızda keçmiş kolxoz və sovxozlara məxsus torpaqların sahibləri səmərəli və daha mobil təsərrüfatçılığı təmin etmək üçün konsolidasiya əldə etməlidirlər. Belə olan şəraitdə torpaq mülkiyyətçiləri yalnız ərazilərin vahidləşməsini təmin etməyəcəklər. Burada torpaqdan savayı kapital, əmək resursları və səriştələr birləşəcəkdir. Resursların konsolidasiyası kredit təminatlığını artıracaq, istehsal və texniki təminatı əlverişli edəcəkdir. Birgə məsuliyyət optimal nəzarət sisteminin qurulması ilə müşayiət olunacaq və sosial rifahı artan effektivliklə təmin edəcəkdir. Əlbəttə, bu proses təzyiqli prosedurlarla əhatə olunmamalıdır. Digər tərəfdən, bu istiqamətdəki fəaliyyəti artıq nəzəri çərçivədən çıxarmaq lazımdır. Praktiki müstəviyə keçid üçün isə təşviqat işlərinin görülməsi vacibdir. Hökumət və ictimai orqanlar, bələdiyyələr və siyasi partiyalar ölkəmizdə əsaslı sosial dövlətin formalaşmasında istehsal kooperativlərinin genişlənməsinə hərtərəfli əməli yardım etməlidirlər. Bununla belə, kooperasiya qanunvericiliyində normativ-hüquqi baza dərinləşməli, genişlənməli və bu hərəkatda dövlət kooperativlərə daha çox səmərəli fiksal yanaşmalarla köməklik göstərməlidir. Kiçik biznes təsisatlı belə kooperativlərdə vergi güzəştləri tətbiq olunmalı, dövlət bu müəssisələrdə kooperasiya dəyərlərinin reallaşması üçün də yeni dəstək mexanizmləri tətbiq etməlidir. Burada stabil daxili bazar təminatı və həmçinin ixracat məsələsi diqqət mərkəzində olmalıdır.

Hesab olunur ki, ayrı-ayrı təsərrüfatçıları kooperativ baxışlarla zənginləşdirmək və müvafiq biliklərlə silahlandırmaq bu strategiyada çox mühüm amillərdəndir. İnsanları inandırmaq lazımdır kı, aqrar sektorda yaradılacaq istehsal kooperativləri heç də yeni kolxoz quruculuğunun imitasiyasi deyil və onu simvolizə etmir. Bu sınanmış və indi effektivliyi daha yüksələn templərlə inkişaf edən qlobal bir praktikadır. Bu praktika mülkiyyətçilərin hər birinin peşə və əmək imkanlarının bərabər şəraitdə bölgüsünü reallaşdıran, sosial məsuliyyəti tən edən bir fəaliyyətdir. Burada yalnız ayrı-ayrı fərdlərin tələbləri təmin olunmur. Makro səviyyədə bu praktika dövlətin ərzaq təhlükəsizliyini möhkəmlədir, ölkədəki demokratik təsisatlandirmaları genişləndirir, yeni institusional effektlərə zəmin yaradır.

Azərbaycan Respublikasında istehsal kooperativlərinin yeni təşəkkül ideyasının iqtisadi əsaslandırılmasını təhlili araşdırmalarla möhkəmləndirərkən, onların tətbiq sferasının aqrar sektorla məhdudlaşması yolverilməzdir. Ölkəmizdə istehsal kooperativlərinin tətbiq meydanı geniş spektrlidir. Lakin bizim apardığımız təhlil indiki iqtisadi konyunkturda istehsal kooperativlərinin üstün olaraq aqrar sektorda rəqabətə davamlı olacağını və yeni geniş səmərəliliklərlə müşayiət ediləcəyinə möhkəm perspektivli təminatlar verir.

Beləliklə, Azərbaycan Respublikasında istehsal kooperativlərinin təsisatlandırılması istiqamətində aparılan təhlil bu strategiyanın uğurlu modelini öncədən əsaslandırır və belə kooperativlərin üstün olaraq aqrar sektorda təsisi məqsədəuyğun heasb olunur. Bu təhlilin nəticələri göstərir ki, respublikamizda istehsal kooperativlərinin əsaslı təşəkkülü və genişlənməsi aşağıdakı səmərəliliklərlə muşayiət olunacaqdır:

- ❖ kooperativ hərəkatının yeni mahiyyətdə vusətlənməsi artan sosial-iqtisadi, ictimai-siyası, institusional və başlıca olaraq da, demokratik təsisatlandırmaları möhkəmləndirəcəkdir;
- ❖ böyük investisiyalar yatırmadan aqrar sektorda yeni

təsərrüfat birlikləri formalaşacaq, kənd təsəruffatı məhsulu istehsalı kəskin artacaq, bununla da ölkənin ərzaq təhlükəsizliyinin təminatı davamlı olacaqdır;

- yeni iş yerlərinin açılışı sosial rıfahın yüksəlişinə zəmin yaradaraq respublikada orta mülkiyyətçilər təbəqəsinin çevrəsini daha da genişləndirəcəkdir.

Bununla belə, vüsətlənən kooperativ hərəkatının diversifikasiyası orbitində yeni fəaliyyət istiqamətlərinin - elm və təhsil, informasiya texnologiyaları və neçə-neçə zəruri, geniş tələbli, çeşidli istehsalların təşəkkülünü də stimullaşdıracaqdır.

Dərinləşən və təkmilləşən bazar münasibətlərinin indiki şəraiti ənənəvi bank institutları ilə yanaşı, həm də digər spesifik təsisatlandırmaların formalaşmasını diktə edir. Belə perspektivli təşkilati sistemlər sırasında kredit riskinin diversifikasiyasını təmin edən müvafiq kooperativ qurumları üstün çevikliyi ilə fərqlənirlər. Banklarla müqayisədə maliyyə kooperativlərinin əsas məqsədi heç də təkcə maksimum mənfəət əldə etməkdən ibarət deyildir. Əksinə, burada kooperativ üzvlərinə və payçılara imkan daxilində, ən sərfəli şərtlərlə kredit-maliyyə xidmətləri göstərmək və bununla da öz mülkiyyətlərində olan təsərrüfatları inkişaf etdirmək məqsədi güdülür.

Maliyyə kooperativlərinin təşkili ideyası XIX əsr alman iqtisadi həyatına əsaslanır. Bir əsrdən çox müddət ərzində mikromaliyyələşdirmənin formalarından biri kimi maliyyə kooperativləri müvəffəqiyyətlə inkişaf edərək özünün yaşamaq hüququ qazandığını əsaslı şəkildə sübut etmişdir. Hazırda dünyanın 87 ölkəsində 100 milyondan çox insanı birləşdirən 55000 sayda maliyyə kooperativində ümumi aktiv həcmi 4$ milyard təşkil edir. Bu baxımdan respublikamızda da maliyyə kooperativlərinin təşəkkülü və inkişaf perspektivləri xüsusi aktuallıq kəsb edir.

Beynəlxalq təcrübə göstərir ki, məhz maliyyə kooperativləri kənd təsərrüfatında kiçik sahibkarlığa lazımi dəstək verərək enerji daşıyıcılarından asılı olmayan yeni innovasiyalı iqtisadiyyatın inkişafında əsas rol oynayır. Digər tərəfdən, mal-

liyə kooperativlərinin struktur və menecment mükəmməlliyi də bu iqtisadi seqmentin geniş tətbiq və inkişaf perspektivliyini daha da artırır.

Malliyə kooperativlərinin əmlakı xüsüsi və cəlb olunmuş vəsaitlər əsasında formalaşır. Əsas gəlir mənbəyi borclar və faizlər, həmçinin qoyuluşlar faizləri fərqində yaranan maliyyə kooperativlərinin üzvləri kreditləri Mərkəzi Bankın refinansə etdiyi stavkalardan azı 2 dəfə az miqdarında ala bilirlər. Burada kreditalma qaydası banklarla müqayisədə daha sadə formadadır. Elə buna görə də, kooperativ hərəkatı təşviqatçıları və fəalları fəaliyyətlərinin regionlarda və ucqar kəndlərdə, bütünlükdə isə ölkə ərazisində tətbiqinə və genişləndirilməsinə daha inadlı səylər göstərməlidirlər.

Aparılan tədqiqatlar göstərir ki, hazırda Azərbaycanda maliyyə kooperativlərinin formalaşdırılması üçün daha əlverişli şərait yaranmışdır. Belə ki, yeni iqtisadi reallıqlar, genişlənən bazar münasibətləri, dərinləşən inteqrasiya, yüksəlişdə olan elmi-innovasiya nailiyyətləri ölkəmizdə maliyyə kooperativlərinin təşəkkülünü və ümumilikdə kooperativ hərəkətanın daha da tərəqqi etməsini qaçılmaz zərurətə çevirir. Bunun üçün isə respublikada mövcud «Kooperasiya haqqında» qanun, maliyyə-kredit və bank institutları ilə bağlı normativ-hüquqi aktlar bazası təkmilləşdirilməli, müvafiq spesifik istiqamətli dövlət proqamları hazırlanmalıdır.

Mikromaliyyələşdirmə təşkilatlarının nümayəndələri isə öz növbəsində fəaliyyətlərini iqtisadiyyatın bu seqmentinin normal inkişafı və təkmilləşdirilməsi üçün məsul olan dövlət strukturları ilə sıx əlaqələndirməli və bu məsələlərin həlli ilə bağlı mühüm qərarların müzakirəsi və qəbul edilməsində yaxından iştirak etməlidirlər. Həmin qurumlar eyni zamanda regionlararası səviyyədə işlərini qurmalı, öz aralarında informasiya və təcrübə mübadiləsi aparmalı, daha çox intellektual və yaradıcı potensiala malik sahibkarlar isə fəaliyyət göstərən regionların qabaqcıl təcrübəsindən bəhrələnib, həmin təcrübəni digər regionlara tətbiq etməlidirlər.

# IV HİSSƏ.

# İSTEHLAK KOOPERASİYASI VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

## IX FƏSİL.

## KOOPERASİYA VƏ İSTEHLAK BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

### 9.1. Azərbaycanın milli ticarət sisteminin formalaşması prosesinin əsas amilləri

Azərbaycanın milli ticarət sisteminin formalaşması prosesinin əsas amilləri bazar münasibətlərinə keçid istiqamətində həyata keçirilən iqtisadi islahatlar, bazar prinsiplərinin qərarlaşması, özəlləşdirmə və dövlətsizləşdirmə, ticarət müəssisəsi və təşkilatlarının sərbəst fəaliyyətinin təminatı; istehlak bazarı infrastrukturunun yaranmasına və inkişafına yönəlmiş dövlət tədbirləri sisteminin tətbiqi və normativ-hüquqi bazasının təkmilləşdirilməsi, müasir şəraitə uyğunlaşdırılması; iqtisadiyyatın ayrı-ayrı sahələri arasındakı qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, ticarət müəssisələrinin genişləndirilməsi, iri ticarət şirkətləri və ticarət evlərinin yaradılması, təsarüfat əlaqələrinin bərpası; mal daşınması prosesinin infrasturuktur təminatının gücləndirilməsi, yükdaşıma nəqliyyat vasitələrinin, nəqliyyat xidmətləri göstərən müəssisələrin sayının artırılması və inkişafı; natural mal mübadiləsi (*barter*) əməliyyatlarının kəskin şəkildə azaldılması, kassa-hesablaşma xidmətinin bərpası, birjaların yaradılması, «İstehsal-ticarət» qarşılıqlı əlaqələrində marketinqin rolunun yüksəlməsidir.

Hazırda topdansatış müəssisələri satışın stimullaşdırılması üzrə tədbirlər kompleksinin təşkili və həyata keçirilməsi; satış yerində reklam kampaniyalarının keçirilməsi; malların daşınması və istehlakçıya çatdırılması; satışdan əvvəl həyata keçirilən fəaliyyət, o cümlədən, malların pərakəndə ticarət markası

altında qablaşdırılması, eyni zamanda, mal və məmulatlar bazarında istehlakçılarla birlikdə müştərək servis mərkəzlərinin yaradılması kimi geniş xidmətlər göstərir.

Bazar prinsiplərinin qərarlaşması prosesinə paralel olaraq, topdansatış ticarət müəssisələrinin fəaliyyıət sferasında bir sıra yeni meyillər meydana çıxmışdır. Belə ki, iqtisadi fəaliyyətin sərbəstləşməsi tordansatış ticarət müəssisələrinin digər sahələrin analoji qurumları tərəfindən sıxışdırılması və topdansatış bazarından çıxarılmasını sürətləndirmişdir. Bu, qeyri-ticarət sahələri müəssisələri və təşkilatlarının birbaşa əlaqələr hesabına satışın həcmini artırmaqla, diler şəbəkələrini yaratmaqla, yaxud yenidən satış üçün kənardan mal satınalmalarının həcmini artırmaqla həyata keçirilir. İstehlak bazarı topdansatış ticarət müəssisələrinin başlıca fəaliyyət sferasıdır. Ümumi topdansatış dövriyyəsində istehlak malları $^{4}/_{5}$ payla iştirak edir. İstehsal-texniki təyinatlı malların çəkisi orta hesabla 20%-dir.

Hazırda ölkədə bir əmtəə birjası fəaliyyət göstərir. İnternetə əsaslanan elektron ticarətin meydana çıxması bütövlükdə ticarət sisteminin, xüsusən mal daşınması prosesinin yenidən qurulmasını tələb edir. Pərakəndə satış ticarətinin əsas formaları piştaxta arxasından fərdi xidmət; satıcı-məsləhətçi vasitəsilə fərdi xidmət (*nümunələr üzrə satış*); özünəxidmətdir. Hazırda ölkədə poçt vasitəsilə ticarət, elektron ticarət, ticarət avtomatları ilə satış da inkişaf etməkdədir. Pərakəndə satış ticarət müəssisələrinə yerli əhəmiyyətli müəssisələr, ümumsistem əhəmiyyətli müəssisələr, ticarət mərkəzinin tərkibində olan və avtomobil magistrlarının kənarında yerləşən müəssisələr daxildir. Yerli əhəmiyyətli pərakəndə satış ticarəti müəssisələrində həm ərzaq, həm də qeyri-ərzaq malları təklif edilir. Ümumsistem təyinatlı müəssisələrə ixtisaslaşmış, universal və qarışıq çeşidli (*kombinə edilmiş*) mağazalar aiddir. Universal (*universam, supermarket və s.),* eləcə də ixtisaslaşdırılmış mağazalar, adətən şəhərlərdə fəaliyyət göstərir. Ərzaq satışı üzrə

ixtisaslaşdırılmış mağazalar pərakəndə ticarət müəssisələrinin ümumi sayının $^3/_5$ hissəsini təşkil edir [187-5].

Bu baxımdan, istehlak bazarında əmtəə dövriyyəsinin strukturunda ərzaq məhsullarının xüsusi çəkisi aşağıdakı cədvəldə göstərilmişdir.

*Cədvəl 9.1*

**İstehlak bazarında əmtəə dövriyyəsinin quruluşunda ərzaq məhsullarının xüsusi çəkisi**

| Əmtəələr | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| **Ərzaq malları** | *66,70* | *66,34* | *65,78* | *65,05* | *64,85* |
| **Ət və quş** | *11,16* | *10,29* | *10,53* | *10,31* | *9,66* |
| **Kolbasa məmulatları** | *0,37* | *0,35* | *0,37* | *0,40* | *0,44* |
| **Bütün növ balıqlar** | *0,70* | *0,78* | *0,96* | *1,06* | *1,12* |
| **Kərə yağı** | *2,96* | *2,90* | *2,93* | *2,59* | *2,54* |
| **Bitki yağı** | *0,86* | *0,85* | *0,88* | *0,80* | *0,76* |
| **Süd və süd məhsulları** | *0,99* | *0,99* | *1,09* | *1,24* | *1,34* |
| **Pendir** | *0,72* | *0,75* | *0,89* | *0,93* | *0,85* |
| **Yumurta** | *0,89* | *0,88* | *0,87* | *1,14* | *1,27* |
| **Qənd-şəkər** | *2,40* | *2,10* | *2,04* | *2,22* | *1,90* |
| **Duz** | *0,10* | *0,10* | *0,10* | *0,09* | *0,08* |
| **Un** | *2,12* | *2,16* | *1,77* | *1,46* | *1,51* |
| **Çörək məmulatları** | *6,87* | *6,04* | *5,18* | *4,43* | *4,33* |
| **Yarmalar və paxlalılar** | *1,13* | *1,15* | *1,09* | *0,97* | *0,78* |
| **Makaron məmulatı** | *0,66* | *0,69* | *0,67* | *0,60* | *0,56* |
| **Kartof** | *2,76* | *2,43* | *2,09* | *2,17* | *2,35* |
| **Tərəvəz** | *8,34* | *9,69* | *10,28* | *10,77* | *10,73* |
| **Meyvə, giləmeyvə** | *10,58* | *11,44* | *11,12* | *9,97* | *10,55* |
| **Araq** | *1,67* | *1,49* | *1,52* | *1,26* | *1,02* |
| **Şərab** | *0,38* | *0,37* | *0,43* | *0,36* | *0,29* |
| **Spirtsiz içkilər** | *0,34* | *0,34* | *0,32* | *0,31* | *0,35* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 316.

Cədvəl 9.1-dən göründüyü kimi, ərzaq məhsulları istehlak bazarında əmtəə dövriyyəsinin strukturunda öz əhəmiyyətli xüsusi çəkisini qoruyub saxlamışdır. Belə ki, 2007-ci ildə bu göstərici 64,8% təşkil etmişdir. 2003-2007-ci illərdə ət və quş məhsullarının əmtəə dövriyyəsi 2,1 dəfə artmışdır. Ət və quş məhsullarının ərzaq məhsullarının əmtəə dövriyyəsindəki xüsusi çəkisi 2007-ci ildə 9,7%, kolbasa məmulatları 0,4%, balıq məhsulları 1,1% kərə yağı 2,5%, bitki yağı 0,8%, marqarin və marqarin məhsulları 0,5% təşkil etmişdir.

Təhlil göstərir ki, adı çəkilən məhsulların ərzaq məhsullarının ümumi əmtəə dövriyyəsində xüsusi çəkisi aşağı olmasına baxmayaraq, bu məhsulların satış həcmi müqayisə olunan dövrdə 2-3 dəfəyə qədər artmışdır. Qeyd etmək lazımdır ki, tərəvəz, meyvə-giləmeyvə və bostan məhsulları istehlak bazarının ərzaq məhsulları üzrə əmtəə dövriyyəsində 2007-ci ildə müvafiq olaraq 10,7; 10,5% xüsusi çəki təşkil etmişdir. Təsadüfi deyildir ki, adı çəkilən məhsulların əmtəə dövriyyəsinin həcmi də müqayisə olunan dövrdə kifayət qədər yüksək həcmə malik olmuşdur. Belə ki, 2007-ci ildə tərəvəzin ümumi əmtəə dövriyyəsi 814325,6 min manat, meyvə, giləmeyvə və bostan məhsullarının əmtəə dövriyyəsi isə 800946,2 min manat təşkil etmişdir. Ümumiyyətlə, cədvəlin təhlilindən belə qənaətə gəlmək olar ki, istehlak bazarında ərzaq məhsulları üzrə əmtəə dövriyyəsinin strukturunda o məhsulların xüsusi çəkisi yüksəkdir ki, həmin məhsulların qiyməti digər məhsullarla müqayisədə daha yuxarıdır. Belə ki, hazırda istehlak bazarında ət və ət məhsullarının, xüsusilə mövsüm sonrası zamanlarda tərəvəz, meyvə və giləmeyvənin qiyməti yüksəkdir.

Beləliklə, ölkənin ərzaq məhsulları ilə təchizində yaranmış vəziyyətin əsas səbəblərindən biri həmin məhsulların qeyri-səmərəli istehsalıdır. Aparılan araşdırmalardan məlum

olur ki, Azərbaycanda mühüm kənd təsərrüfatı məhsullarının 1 kq-nın istehsalına sərf olunan vaxt əksər xarici ölkələrdə sərf olunan vaxtdan xeyli çoxdur. Sübut etməyə ehtiyac yoxdur ki, bitkiçilik mənşəli qida məhsullarının istehsalında mövcud olan xərclərin yüksək səviyyəsi bu problemin daha da dərinləşməsinə və ölkə məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsinə səbəb olmaqla, ölkənin ərzaq təhlükəsizliyini zərbə altında qoya bilər.

Bitkiçilik mənşəli qida məhsullarının idxalatının məhdudlaşdırılması və bu məqsədlə proteksionist tədbirlərdən istifadə edilməlidir. Lakin bu tədbirin də müəyyən çatışmayan cəhətləri vardır. Belə ki, ölkənin hələ keçid dövründə olduğu bir vaxtda bitki mənşəli qida məhsulları idxalının məhdudlaşdırılması əhalinin istehlak balansına mənfi təsir edə bilər. Digər tərəfdən, dünya təcrübəsi göstərir ki, proteksionist tədbirlər perspektivdə (*rəqabət mühitindən xarici amili sərf-nəzər etməklə*) böyük problemlər yarada bilər. Məsələn, Yaponiyada bəzi yerli ərzaq məhsullarının qiyməti xarici məhsullara nisbətən xeyli yüksəkdir. Hesablamalar göstərir ki, proteksionist tədbirlər yapon istehlakçılarına ildə üst-üstə 15 trln. ien məbləğində zərər vurur, bu, Yaponiya üçün elə əhəmiyyət kəsb etmir. Lakin, investisiyalara böyük ehtiyacı olan Azərbaycan üçün göstərilən nəticə həlledici rol oynamaq iqtidarındadır [187-4,-5].

Beləliklə, ölkədaxili istehsalın səmərəliliyini yüksəltmək məqsədilə yerli istehsalla və proteksionist tədbirlər arasında optimal uyğunluq yaradılmalıdır.

İstehlak bazarının əmtəə dövriyyəsinin strukturunda qeyri-ərzaq məhsulları da önəmli rol oynayır. Bu baxımdan istehlak bazarının ümumi əmtəə dövriyyəsində qeyri-ərzaq məhsullarının xüsusi çəkisi Cədvəl 9.2-də göstərilmişdir.

*Cədvəl 9.2*

## İstehlak bazarında əmtəə dövriyyəsinin quruluşunda qeyri-ərzaq məhsullarının xüsusi çəkisi

| Əmtəələr | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|
| **Qeyri-ərzaq malları** | *33,30* | *33,66* | *34,22* | *34,95* | *35,15* |
| **Pambıq parça** | *0,06* | *0,05* | *0,06* | *0,05* | *0,04* |
| **Yun parça və yaylıq** | *0,04* | *0,04* | *0,04* | *0,04* | *0,04* |
| **İpək parça** | *0,09* | *0,08* | *0,08* | *0,07* | *0,06* |
| **Geyimlər və dəyişəklər** | *2,69* | *2,99* | *3,23* | *5,31* | *5,36* |
| **Xəz və xəz məmulatları** | *0,03* | *0,03* | *0,03* | *0,03* | *0,02* |
| **Üst trikotajı** | *0,82* | *0,96* | *0,95* | *1,29* | *1,40* |
| **Ayaqqabılar** | *2,17* | *2,41* | *2,23* | *2,24* | *2,26* |
| **Paltar sabunu** | *0,52* | *0,41* | *0,34* | *0,29* | *0,25* |
| **Sintetik yuyucu vasitələr** | *0,54* | *0,59* | *0,51* | *0,54* | *0,57* |
| **Tualet sabunu** | *0,21* | *0,19* | *0,18* | *0,18* | *0,15* |
| **Qalantereya** | *0,21* | *0,21* | *0,21* | *0,19* | *0,17* |
| **Saplar** | *0,02* | *0,02* | *0,02* | *0,01* | *0,01* |
| **Tütün məmulatları** | *2,84* | *2,45* | *2,20* | *1,95* | *1,65* |
| **Kibrit** | *0,01* | *0,01* | *0,01* | *0,01* | *0,01* |
| **Mebel** | *0,23* | *0,24* | *0,24* | *0,25* | *0,29* |
| **Xalça məmulatları** | *0,13* | *0,23* | *0,21* | *0,21* | *0,21* |
| **Metal qab-qacaqlar** | *0,05* | *0,05* | *0,04* | *0,04* | *0,04* |
| **Şüşə qab-qacaqlar** | *0,11* | *0,12* | *0,11* | *0,11* | *0,10* |
| **Çini qab-qacaqlar** | *0,03* | *0,03* | *0,02* | *0,02* | *0,02* |
| **Saatlar** | *0,06* | *0,02* | *0,02* | *0,02* | *0,02* |
| **Elektrik malları** | *1,54* | *1,44* | *1,58* | *1,59* | *1,58* |
| **Ağ kağız malları** | *0,02* | *0,02* | *0,02* | *0,01* | *0,01* |
| **Dəftərxana malları** | *0,28* | *0,27* | *0,25* | *0,26* | *0,23* |
| **Hesablama texnikası** | *0,21* | *0,34* | *0,34* | *0,29* | *0,31* |
| **Çap məmulatı** | *0,45* | *0,41* | *0,39* | *0,40* | *0,33* |
| **Tikinti malları** | *1,02* | *1,07* | *1,48* | *1,60* | *1,79* |
| **Zərgərlik malları** | *0,12* | *0,13* | *0,14* | *0,17* | *0,19* |
| **Avtomobil** | *2,12* | *2,76* | *3,10* | *3,23* | *2,87* |
| **Dərman vasitələri** | *0,40* | *0,44* | *0,52* | *0,63* | *0,66* |
| **Neft məhsulları** | *7,23* | *7,01* | *7,02* | *7,28* | *9,27* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 317.

Cədvəl 9.2-nin məlumatlarının təhlili belə qənaətə gəlməyə əsas verir ki, qeyri-ərzaq məhsulları da istehlak bazarının ümumi əmtəə dövriyyəsində mühüm rol oynamaqla yanaşı, əhalinin gündəlik tələbat mallarına olan ehtiyaclarını qarşılayır. Belə ki, 2007-ci ildə qeyri-ərzaq məhsullarının istehlak bazarının ümumi əmtəə dövriyyəsinin strukturunda xüsusi çəkisi 35,1% təşkil etmişdir.

İstehlak bazarında sabitliyin təmin edilməsi bazarda məhsul bolluğunun yaradılmasından və satış proseslərinin effektiv şəkildə təşkil edilməsindən bilavasitə asılıdır. İstehlak bazarında ticarətin mövcud olan bütün növləri vasitəsilə ərzaq məhsullarının satışı aşağıdakı cədvəldə göstərilmişdir.

*Cədvəl 9.3*

**İstehlak bazarında ticarətin mövcud olan bütün növləri vasitəsilə ərzaq məhsullarının satışı**

(*min manat*)

| Göstəricilər | 2002 | 2005 | 2007 | *2002-ci ilə nisbətdə 2007-ci il, %* |
|---|---|---|---|---|
| **Ət və quş** | 301866,2 | 486594,6 | 733302,3 | *2,4* |
| **Kolbasa məmulatları** | 10775,9 | 17135,3 | 33341,1 | *3,1* |
| **Bütün növ balıqlar** | 19120,3 | 44503,5 | 84678,9 | *4,4* |
| **Kərə yağı** | 81931,7 | 135633,8 | 192770,1 | *2,4* |
| **Süd və süd məhsulları** | 25981,3 | 50567,5 | 101469 | *3,9* |
| **Ət konservləri** | 499,9 | 756,6 | 1266,3 | *2,5* |
| **Çörək məmulatları** | 195950,7 | 239393,8 | 328721 | *1,7* |
| **Makaron məmulatları** | 18370,2 | 30950,7 | 42736,9 | *2,3* |
| **Tərəvəz satışı** | 227814 | 475274,9 | 814325,6 | *3,6* |
| **Meyvə-giləmeyvə, qarpız** | 268600 | 513881,3 | 800946,2 | *3,0* |
| **Araq və araq məmulatları** | 50543,6 | 70181,6 | 77725,1 | *1,5* |
| **Şampan şərabı satışı** | 5838,3 | 8343 | 9941,5 | *1,7* |
| **Spirtsiz içkilərin satışı** | 8687,6 | 15001,9 | 26726,5 | *3,1* |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 9.3-ün təhlili belə qənaətə gəlməyə əsas verir ki, 2007-ci ildə istehlak bazarında ticarətin mövcud olan bütün növləri vasitəsilə ət və quş əti məhsullarının satışı 733302 min ton, kolbasa məmulatlarının satışı 33341,1 min manat, balıq məhsullarının satışı 84678,9 min manat, kərə yağı satışı 192770,1 min manat, bitki yağlarının satışı 57330,4 min manat, marqarin məhsullarının satışı 38818,7 min manat, süd və süd məhsullarının satışı 10469 min manat, ət konservlərinin satışı 1266,3 min manat, yumurta satışı 96317,2 min manat, qənd və şəkər məhsullarının satışı 14457,6 min manat, qənnadı məhsullarının satışı 193194,3 min manat, çay satışı 63973,9 min manat, un satışı 114711,8 min manat, çörək və çörək məhsullarının satışı 328721 min manat, makaron məhsullarının satışı 42736,9 min manat, kartof satışı 178447,7 min manat, tərəvəz satışı 814325,6 min manat, meyvə, giləmeyvə və bostan məhsullarının satışı 800946,2 min manat, araq və araq məhsullarının satışı 77725,1 min manat, şərab satışı 22254,8 min manat, konyak satışı 23303,9 min manat, şampan şərabı satışı 9941,5 min manat, pivə satışı 35059,6 min manat, spirtsiz içkilərin satışı 36726,5 min manat təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, son illər iqtisadi inkişafın səviyyəsinin və əhalinin pul gəlirlərinin artımı nəticə etibarilə istehlak bazarında ərzaq məhsullarının satışına da öz təsirini göstərmişdir. Belə ki, cədvəldən də göründüyü kimi, istehlak bazarında tərəvəz məhsullarının meyvə, giləmeyvə və bostan məhsullarının, süd məhsullarının, hətta kolbasa məmulatlarının və balıq məhsullarının satış həcmi daha yüksək templə artmışdır. Belə ki, 2002-2007-ci illərdə ət məhsullarının satışı 2,4 dəfə, marqarin məhsullarının satışı 1,8 dəfə, araq və araq məhsullarının satışı 1,5 dəfə, meyvə, giləmeyvə konservlərinin satışı 1,7 dəfə artdığı halda balıq məhsullarının satışı 4,4 dəfə, yumurta satışı 3,5 dəfə, qənnadı məhsullarının satışı 4,9 dəfə, tərəvəz satışı

3,6 dəfə, meyvə, giləmeyvə və bostan məhsullarının satışı 3 dəfə artmışdır. Göründüyü kimi, əhali daha çox tərəvəz və bostan məhsullarına və heyvandarlıq məhsullarına üstünlük verir. Vurğulandığı kimi, istehlak bazarı milli bazarın ən mühüm növ müxtəlifliyi olduğundan bu bazarın fəaliyyəti əsas etibarilə tələb və təklif əsasında formalaşır. İstehlak bazarında tələb konkret dövr ərzində istehlak edilən məhsulun natura və dəyər ifadəsində həcmini özündə əks etdirir. İstehlak bazarında tələbin xarakteri əsas etibarilə əhalinin alıcılıq qabiliyyətindən bilavasitə asılı olur. Ümumiyyətlə istər nəzəriyyədə, istərsə də praktikada istehlak bazarının maddi əsasını əmtəə təklifi təşkil edir. İstehlak bazarında əmtəə təklifi konkret dövr ərzində istehsal edilən və bazara idxal kanalları hesabına daxil edilən əmtəə kütləsinin natura və dəyər ifadəsində həcmini özündə əks etdirir. İstehlak bazarında əmtəə təklifi iki mənbədən - daxili və xarici mənbədən formalaşır. İstehlak bazarında daxili əmtəə təklifi bilavasitə yerli istehsalın səviyyəsi ilə sıx əlaqədardır.

İstehlak bazarında yerli istehsal hesabına qida məhsulları təklifinin dinamikası Cədvəl 9.4-də göstərilmişdir. (bax səh. 363)

Cədvəl 9.4-ün təhlili göstərir ki, ölkənin istehlak bazarında yerli istehsal hesabına əsas qida məhsulları təklifi çeşidi yüksəkdir və onun kəmiyyət və keyfiyyəti son 5 il ərzində əhəmiyyətli dərəcədə artmışdır.

Ümumiyyətlə, apardığımız araşdırmalar göstərir ki, sosial-iqtisadi inkişafın səviyyəsi, eləcə də əhalinin pul gəlirlərinin artımı nəticə etibarilə istehlak bazarında köklü struktur dəyişikliklərinin həyata keçirilməsinin əyani təzahürü kimi çıxış edir. Bu baxımdan əhali tərəfindən qida məhsullarının istehlakı Cədvəl 9.5-də göstərilmişdir,(bax səh. 364).

*Cədvəl 9.4*

## İstehlak bazarında yerli istehsal hesabına əsas qida məhsulları təklifi (natura ifadəsində*))

| Məhsulun adı | *2000* | *2005* | *2007* | *2007-ci il 2000-ci ilə nisbətən, %* |
|---|---|---|---|---|
| **Ət,** min ton 1) | *108,9* | *130,7* | *144,0* | *1,3* |
| **Kolbasa məmulatları,** min ton 1) | *0,6* | *1,9* | *2,5* | *4,2* |
| **Kərə yağı**, min ton 1) | *12,8* | *14,2* | *14,4* | *1,1* |
| **Pendir və kəsmik,** min ton 1) | *29,8* | *33,5* | *34,2* | *1,1* |
| **Çörək məmulatları,** min ton 3) | *675,5* | *646,5* | *966,4* | *1,4* |
| **Bitki yağları,** min ton | *10,9* | *64,1* | *68,4* | *6,3* |
| **Konservlər,** min ton 1) | - | *23,2* | *20.6* | *1,0* |
| **Nərə kürüsü,** ton | *6,9* | *9,5* | *6,4* | *0,9* |
| **Qənnadı məmulatları**, min ton 2) | *22,9* | *42,9* | *45,7* | *2,0* |
| **Duz,** min ton | *4,0* | *11,2* | *7,1* | *1,8* |
| **Təbii çay,** min ton | *1,5* | *7,5* | *7,9* | *5,3* |
| **Tütün,** min ton | *5,9* | *2,6* | *1,0* | *0,2* |
| **Papiros və siqaretlər,** mlrd ədəd | *2,4* | *5,0* | *3,6* | *1,5* |
| **Alkoqolsuz içkilər,** milyon dkl. | *4,7* | *13,4* | *20,1* | *4,3* |
| **Mineral sular,** milyon dkl. | *0,2* | *1,2* | *6,7* | *33,5* |
| **Dondurma,** min ton | *0,09* | *0,5* | *0,4* | *4,4* |
| **Marqarin məhsulları**, min ton | *0,4* | *17,8* | *16,1* | *40,3* |
| **Makaron məmulatı**, min ton | *0,4* | *3,5* | *4,5* | *11,3* |
| **Araq,** milyon dkl. | *0,5* | *0,5* | *1,3* | *2,6* |
| **Üzüm şərabı,** milyon dkl. | *0,6* | *0,4* | *0,6* | *1,0* |

**) beynəlxalq təcrübəyə uyğun olaraq 2006-cı ildən həm sənaye məhsullarının ümumi həcmi, həm də əmtəəlik məhsulların həcminin nəzərə alınmasına başlanmışdır. Bu məqsədlə bir sıra məhsulların həm ümumi, həm də əmtəəlik istehsalı göstərilmiş, istehsal olunmuş məhsul bütünlüklə əmtəəlik olduğu halda eyni göstəricinin təkrarlanmaması üçün o bir sətir üzrə verilmişdir.*

***) beynəlxalq metodologiyaya uyğun olaraq məşəllərdə yandırılan, habelə laylara vurulmuş qazın həcmi də nəzərə alınmaqla*

*1) ev təsərrüfatlarının fəaliyyəti daxil olmaqla;*

*2) fərdi sahibkarların fəaliyyəti daxil olmaqla;*

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 425-426.

*Cədvəl 9.5*

**İl ərzində adambaşına qida məhsulları istehlakının dinamikası, kq**

| Göstəricilər | 2000 | 2002 | 2005 | 2007 | 2007-ci il 2000-ci ilə nisbətən % |
|---|---|---|---|---|---|
| **Taxıl məhsulları** | *158* | *166* | *182* | *182* | *1,2* |
| **Ət və ət məhsulları** | *22* | *28* | *29* | *29,2* | *1,3* |
| **Süd və süd məhsulları** | *154* | *252* | *275* | *280* | *1,8* |
| **Yumurta, ədəd** | *112* | *122* | *126* | *123* | *1,1* |
| **Balıq məhsulları** | *2,7* | *6,2* | *6,6* | *6,6* | *2,4* |
| **Şəkər** | *16,8* | *27,2* | *30,8* | *31* | *1,8* |
| **Bitki yağları** | *3,1* | *8,5* | *8,3* | *8,4* | *2,7* |
| **Kartof** | *47* | *65* | *91* | *97* | *2,1* |
| **Tərəvəz və bostan məhsulları** | *129* | *160* | *175* | *192* | *1,5* |
| **Meyvə və giləmeyvə** | *60* | *63* | *61* | *71* | *1,2* |

Mənbə: Azərbaycanın statistik göstəriciləri, Bakı, 2008, s. 320.

Taxıl məhsulları istehlakı əhalinin ərzaq təminatını xarakterizə edən ən başlıca göstərici kimi xarakterizə olunur. Cədvəldən göründüyü kimi, 2000-ci illə müqayisədə 2007-ci ildə adambaşına taxıl məhsulları istehlakı 20%, ət və ət məhsulları istehlakı 30%, süd məhsulları istehlakı 80%, yumurta istehlakı 10%, balıq və balıq məhsullarının istehlakı 2,4 dəfə, şəkər istehlakı 80%, bitki yağları istehlakı 2,7 dəfə, kartof istehlakı 2,1 dəfə, tərəvəz və bostan məhsulları istehlakı 50%, meyvə və giləmeyvənin istehlakı 20% artmışdır.

İstehlak mallarının istehsalı istehlak bazarında tələbatın ödənilməsi üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Azərbaycan əhalisinin bu mallara olan tələbatının yarıdan çoxu xaricdən idxal olunan mallar hesabına ödənilir.

İdxal olunan malların strukturunda əsas hissəni (*43%-ə yaxın*) parça, geyim, ayaqqabı, qeyri-ərzaq malları təşkil edir. Əhalinin ərzaq mallarına olan tələbatının 33%-i kənardan gətirilən mallar hesabına ödənilir. Sənaye istehlak mallarının 75%-i həmçinin başqa dövlətlərdən idxal olunur. Respublikada mədəni-məişət təyinatlı mallar demək olar ki, ümumiyyətlə istehsal olunmur. Əhalinin bu mallara olan təlabatının əsas hissəsi idxal hesbına ödənilir.

Azərbaycandan ixrac olunan mallarının strukturunda istehlak mallarının xüsusi çəkisi 8,3% təşkil edir. Təsərrüfat-məişət təyinatlı mallar Azərbaycanın hüdudlarından kənara ixrac olunmur. İdxal olunan malların həcmi daim artır. Bununla əlaqədar olaraq hazırda ən mühüm problem əhalinin qida məhsulları ilə təmin edilməsidir. Respublika əhalisinin tələbatını ödəmək məqsədi ilə ət və ət məhsulları, yumurta, piy və yağ, un, yarma və alkoqolsuz içkilər idxalının xüsusi çəkisi o qədər də yüksək deyildir. Qeyri-ərzaq mallarından yalnız kiçik bir qrup məmulat ixrac olunur. Bu əsasən parçalar və sintetik yuyucu vasitələrdir. Əhalinin istehlak mallarına olan tələbatını ödəmək üçün yerli istehsalı inkişaf etdirməklə yanaşı, həm də xaricdən zəruri mallar idxal olunur [10, 187-5].

Azərbaycan sakinlərinin mürəkkəb məişət texnikası ilə təminatının aşağı səviyyəsi, onun istehsal edilməməsi, habelə xidmətinin aşağı keyfiyyəti də müvafiq olaraq bu qrup mallara olan tələbin artmasını  şərtləndirir. Şüşə qablara, ət çəkən, tikiş maşınlarına, velosipedə, bayanlara, akkordeonlara, elektrik mallarına, fotokağız və karandaşlara tələbatın həcmi artır. Respublikaya sitrus, quru meyvə, qənd, çay, marqarin məhsulları, siyənək, şampan, tütün məmulatları idxal edilir. Eyni zamanda əhalinin makaron məmulatlarına, şəraba, konyak və pivəyə olan təlabatının 30%-i yerli istehsal hesabına ödənilir. Bostan bitkilərinin, meyvə-tərəvəz məhsulları istehsalının artması, həmin məhsulların digər respublikalara ixrac edilməsinə imkan yaradır. Qeyri-ərzaq, xalq istehlakı malla-

rına olan tələbatın daim artmasına baxmayaraq, belə malların əsas hissəsi - trikotaj, corab, xəz və xalça məmulatları, habelə, paltar sabunu və sintetik yuyucu vasitələr idxal olunur. Əhalinin kətan parça, mədəni-məişət təyinatlı mallar və bütünlüklə təsərrüfat və xırdavat mallarına olan tələbatı idxal hesabına ödənilir. Qeyri-ərzaq mallarının ixracı yüngül sənaye məhsullarının böyük olmayan qrupu ilə məhdudlaşır və yerli istehsalın 50%-ni keçmir. Yalnız pambıq parça və sintetik yuyucu vasitələr istisna təşkil edir.

Hazırda Azərbaycan keçmiş SSRİ respublikaları ilə əlaqə saxlayır. Onlardan tünd spirtli içkilər, makaron məmulatları, üzüm şərabı və pivə, tütün məmulatları, süd məhsulları, kartof, tərəvəz konservləri, habelə ət məhsulları, meyvə konservləri, sitrus, tomat məhsulları, çay, şampan məhsulları idxal olunur. Un, yarma, balıq və balıq konservləri, bitki yağları və quru meyvələri əsasən Rusiyadan, piy, qənnadı məmulatı, qara metal məmulatları və yumurta Ukraynadan gətirilir. Özbəkistandan pambıqyığan maşınlar, pambıq parça, meyvə quruları idxal olunur. Qazağıstan respublikası ət və ət məhsulları ilə, Gürcüstan isə sitrus və çay ilə təmin edir. Tacikistandan makaron və tomat məhsulları, şampan, habelə tərəvəz və meyvə konservləri idxal olunur. İdxal olunan qeyri-ərzaq mallarının nomenklaturası daha genişdir: yüngül sənaye məhsulların 11 əmtəə qrupu, mədəni-məişət təyinatlı malların 17 əmtəə qrupu, təsərrüfat mallarının 19 əmtəə qrupu, xirdavat mallarının 15 əmtəə qrupu ilə təmsil olunur. Qeyri-ərzaq məhsullarının böyük hissəsi Rusiyadan gətirilir. Bu respublikadan trikotaj, corab, tük-lələk və konserv məhsulları, dəri ayaqqabı və gümüşdən əşyalar, traktorlar, maşınlar, tikinti materialları və s. idxal olunur.

Bütövlükdə istehlak mallarının idxalı strukturunda Rusiya (*28%*) birinci, Ukrayna (*9%*) ikinci yerdə durur. MDB-nin yerdə qalan respublikalarından istehlak mallarının 1-5%-i idxal edilir [149].

Azərbaycanın milli ticarət sisteminin formalaşması prosesinin əsas amillərinin təhlili göstərir ki, burada artıq bazar münasibətlərinə keçidlə əlaqədar təşəkkül prosesi başa çatmışdır. Bu proses koopersiya sistemində də bir gercəkliyə çevrilmişdir. İndi Azərittifaqda regionlarda ticarət şəbəkələrinin genişləndirilməsi istiqamətində yeni tədbirlər paketi reallaşdırılmaqdadır.

## 9.2. İstehlak bazarının təminatında emal sənayesinin rolu

İstehlak bazarında yerli istehsal hesabına əmtəə təklifinin həcminin artmasına iqtisadi islahatlar və mülkiyyətin özəlləşdirilməsi də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Təhlil göstərir ki, kənd təsərrüfatında həyata keçirilən aqrar islahatlarla yanaşı, emal sənayesində həyata keçirilən iqtisadi islahatlar nəticə etibarilə qida sənayesi sektorunda özəl sektorun xüsusi çəkisini əhəmiyyətli dərəcədə artırmışdır.

Emal sənayesi sektorunun mülkiyyət formalarına görə strukturu Cədvəl 9.6-da göstərilmişdir. Bu cədvəl məlumatları üzrə aparılan təhlili göstərir ki, bütövlükdə sənaye sektorunda 2000-2007-ci illər ərzində dövlət sektorunun xüsusi çəkisi getdikcə aşağı düşmüş, qeyri-dövlət sektorunun xüsusi çəkisi isə davamlı olaraq yüksəlmişdir. Belə ki, əgər 2000-ci ildə bütövlükdə sənaye sahəsində dövlət sektorunun xüsusi çəkisi 51,6%, qeyri-dövlət sektorunun xüsusi çəkisi isə 48,4% olmuşdursa, 2007-ci ildə bu göstərici müvafiq olaraq 21,6; 78,4% təşkil etmişdir. Qida sənayesi sektorunda 2000-ci ildə məhsul istehsalının 2,6%-i, tütün məmulatlarının 92,2%-i, toxuculuq sənayesində 49,2%-i, geyim istehsalı sektorunda 13,7%-i dövlət sektorunun payına düşmüşdürsə, 2007-ci ildə dövlət sektorunun xüsusi çəkisi əhəmiyyətli dərəcədə məhdudlaşmışdır. 2007-ci ildə qida məhsullarının istehsalı sektorunda qeyri-dövlət sektorunun xüsusi çəkisi 99,4%, tütün məmulatları istehsa-

lında 100%, toxuculuq sektorunda 92,5%, geyim istehsalı sektorunda 93,7%, dəri məmulatları və ayaqqabı istehsalında 99,9% təşkil etmişdir.

Cədvəlin təhlili belə qənaətə gəlməyə əsas verir ki, artıq 2007-ci ildə emal sənayesi sektorunun, xüsusilə istehlak məhsulları istehsalının demək olar ki, tamamilə özəl sektorun payına düşməsi müşahidə olunur.

*Cədvəl 9.6*

**Sənaye istehsalının mülkiyyət formalarına görə strukturu,**
*yekuna nisbətən, faizlə*

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| **Sənaye üzrə, cəmi** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 51,6 | 29,3 | 26,0 | 21,6 |
| **qeyri-dövlət sektoru*** | 48,4 | 70,7 | 74,0 | 78,4 |
| **İçkilər də daxil olmaqla qida məhsullarının istehsalı** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 2,6 | 0,2 | 0,5 | 0,6 |
| **qeyri-dövlət sektoru*** | 97,4 | 99,8 | 99,5 | 99,4 |
| **Tütün məmulatlarının istehsalı** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 92,2 | - | - | - |
| **qeyri-dövlət sektoru** | 7,8 | 100 | 100 | 100 |
| **Toxuculuq sənayesi** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 49,2 | 36,5 | 49,7 | 7,5 |
| **qeyri-dövlət sektoru** | 50,8 | 63,5 | 50,3 | 92,5 |
| **Geyim istehsalı, xəzin bəzədilməsi və rənglənməsi** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 13,7 | 5,9 | 10,3 | 6,3 |
| **qeyri-dövlət sektoru** | 86,3 | 94,1 | 89,7 | 93,7 |
| **Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı** | 100 | 100 | 100 | 100 |
| **dövlət sektoru** | 0,8 | 4,5 | 0,01 | 0,1 |
| **qeyri-dövlət sektoru** | 99,2 | 95,5 | 99,99 | 99,9 |

* *Ev təsərrüfatlarının fəaliyyəti nəzərə alınmaqla.*

Mənbə: Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s. 418.

Apardığımız araşdırmalar göstərir ki, iqtisadi islahatlar və mülkiyyətin özəlləşdirilməsi istehlak məhsulları istehsalında əhəmiyyətli irəliləyişlərə gətirib çıxarsa da, bu sahədə həllini gözləyən bir sıra problemlər də mövcuddur. Belə ki, əksər hallarda qida məhsulları sektorunda elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiqi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməməsi, eləcə də material məsariflərinin artımı, yanacaq-enerji daşıyıcılarının qiymətlərinin yüksəlməsi son nəticədə əmək məhsuldarlığının aşağı düşməsinə və məhsul vahidinə sərf edilən xərclərin səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır. Bu baxımdan istehlak bazarını yeyinti və gündəlik tələbat məhsulları ilə təmin edən emal sənayesi sektorunda məhsul istehsalına sərf edilmiş xərclərin strukturu Cədvəl 9.7-də göstərilmişdir.

Cədvəl 9.7-dən göründüyü kimi, 2000-2007-ci illər ərzində qida məhsullarının istehsalı sektorunda material məsariflərinin xüsusi çəkisi 69,6%-dən 78,4%-ə qədər, toxuculuq və tikiş sənayesində 53,5%-dən 71,2%-ə qədər, dəri məmulatları və ayaqqabı istehsalı sektorunda 68,5%-dən 81%-ə qədər yüksəlmişdir. Bu isə əslində onunla bağlıdır ki, emal sənayesində xammal və əsas vəsaitlərə çəkilən xərclərin həcmi yüksəlmişdir. Bundan əlavə, qida sənayesi sektorunda, eləcə də toxuculuq və tikiş sənayesi sektorunda əsas fondların yenilənmə səviyyəsi kifayət qədər aşağı düşmüşdür. Bu özünü xüsusilə əsas vəsaitlərin amortizasiyası ilə bağlı xərclərin xüsusi çəkisinin azalmasında da təzahür etdirir.

Problemin sosial aspektlərini xarakterizə edən cəhətlərdən biri də ondan ibarətdir ki, müqayisə olunan dövrdə istər qida sənayesində, istərsə toxuculuq və tikiş sənayesində, istərsə də dəri məmulatları və ayaqqabı istehsalı sektorunda əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmaların xüsusi çəkisi azalmışdır. Bu azalma qida sənayesində 6,9%-dən 6,4%-ə qədər, toxuculuq və tikiş sənayesində 19,9%-dən 6,8%-ə qədər, dəri məmulatları və ayaqqabı istehsalı sektorunda isə 14,1%-dən 6,9%-ə qədər müşahidə edilmişdir.

*Cədvəl 9.7*

**Məhsul istehsalına sərf edilmiş xərclərin strukturu,**
*yekuna nisbətən, faizlə*

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| **İçki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı - cəmi xərclər** | *100* | *100* | *100* | *100* |
| **material xərcləri** | *69,6* | *81,1* | *77,6* | *78,4* |
| **əsas fondların amortizasiyası** | *9,4* | *5,6* | *6,2* | *4,5* |
| **əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmalar** | *6,9* | *5,3* | *5,8* | *6,4* |
| **sair xərclər** | *14,1* | *8,0* | *10,4* | *10,8* |
| **Toxuculuq və tikiş sənayesi - cəmi xərclər** | *100* | *100* | *100* | *100* |
| **material xərcləri** | *53,5* | *73,3* | *72,8* | *71,2* |
| **əsas fondların amortizasiyası** | *19,9* | *5,2* | *6,1* | *6,8* |
| **əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmalar** | *19,0* | *12,3* | *9,0* | *11,5* |
| **sair xərclər** | *7,6* | *9,2* | *12,5* | *10,4* |
| **Dəri, dəri məmulatları, ayaqqabı istehsalı-cəmi xərclər** | *100* | *100* | *100* | *100* |
| **material xərcləri** | *68,5* | *68,5* | *75,9* | *81,0* |
| **əsas fondların amortizasiyası** | *2,8* | *8,9* | *11,6* | *4,6* |
| **əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmalar** | *14,1* | *13,8* | *7,6* | *6,9* |
| **sair xərclər** | *14,6* | *8,8* | *4,9* | *7,5* |

Mənbə: Azərbaycanın sənayesi 2008, s. 35.

Lakin bütün bunlara baxmayaraq, ümumiyyətlə müqayisə olunan dövrdə iqtisadiyyatın sektorları üzrə, xüsusilə emal sənayesi sektorunda, o cümlədən dövlət və qeyri-dövlət bölmələrində məşğul olan əhalinin orta aylıq nominal əmək haqqının artımı müşahidə edilmişdir.:

*Cədvəl 9.8*

**İqtisadiyyatın sahələrində məşğul olanların orta aylıq nominal əmək haqqı**

*(manat)*

| Göstəricilər | 2000 | 2003 | 2005 | 2007 | *2007-cil 2000-ci ilə nisbətən* |
|---|---|---|---|---|---|
| **Ölkə iqtisadiyyatı üzrə - cəmi** | 44,3 | 77,0 | 123,6 | 215,8 | *4,9* |
| **dövlət sektoru** | 38,5 | 51,1 | 89,1 | 171,9 | *4,5* |
| **qeyri-dövlət sektoru** | 83,7 | 138,4 | 191,9 | 296,5 | *3,5* |
| **Kənd, ovçuluq və meşə təsərrüfatı** | 13,8 | 23,1 | 41,5 | 86,8 | *6,3* |
| **dövlət sektoru** | 14,5 | 19,9 | 41,7 | 85,7 | *5,9* |
| **qeyri-dövlət sektoru** | 13,0 | 29,0 | 41,2 | 89,2 | *6,9* |
| **Balıqçılıq** | 10,4 | 14,3 | 46,2 | 82,8 | *8,0* |
| **dövlət sektoru** | 10,7 | 14,8 | 48,5 | 86,4 | *8,1* |
| **qeyri-dövlət sektoru** | 5,7 | 5,5 | 33,4 | 66,4 | *11,6* |
| **Emal sənayesi** | 56,8 | 88,9 | 115,3 | 190,5 | *3,4* |
| **dövlət sektoru** | 55,2 | 74,7 | 117,1 | 222,1 | *4,0* |
| **qeyri-dövlət sektoru** | 60,5 | 121,8 | 113,6 | 167,5 | *2,8* |
| **qida məhsulları istehsalı** | 32,6 | 50,6 | 71,1 | 131,3 | *4,0* |
| **dövlət sektoru** | 26,8 | 64,7 | 35,5 | 45,0 | *1,7* |
| **qeyri-dövlət sektoru** | 35,4 | 43,2 | 72,4 | 133,0 | *3,8* |
| **toxuculuq və tikiş** | 30,3 | 35,5 | 58,4 | 100,5 | *3,3* |
| **dövlət sektoru** | 30,8 | 37,1 | 62,4 | 84,1 | *2,7* |
| **qeyri-dövlət sektoru** | 29,8 | 32,9 | 55,7 | 106,3 | *3,6* |
| **dəri məmulatları və ayaqqabı istehsalı** | 16,1 | 38,3 | 54,0 | 124,5 | *7,7* |
| **dövlət sektoru** | 6,1 | 31,8 | 37,6 | 88,2 | *14,5* |
| **qeyri-dövlət sektoru** | 16,6 | 38,5 | 56,5 | 125,0 | *7,5* |

Mənbə: Azərbaycanın sənayesi. Bakı, 2008, s. 43.

Cədvəl 9.8-in təhlili göstərir ki, bütövlükdə 2000-2007-ci illər ərzində milli iqtisadiyyatın dövlət və qeyri-dövlət sektorunda əmək haqqının səviyyəsi 44,3 manatdan 4,9 dəfə artaraq 215,8 manata çatmışdır. 2007-ci ildə dövlət sektorunda

orta aylıq əmək haqqının səviyyəsi 171,9 manat, qeyri-dövlət sektorunda isə 296,5 manat olmuşdur ki, bu da 2000-ci ilin səviyyəsindən müvafiq olaraq 4,5; 3,5 dəfə çoxdur. Kənd və meşə təsərrüfatında orta aylıq əmək haqqının səviyyəsi 6,3 dəfə artaraq 86,8 manata, dövlət sektorunda 5,9 dəfə artaraq 85,7 manata, qeyri-dövlət sektorunda isə 6,9 dəfə artaraq 89,2 manata çatmışdır. Bütövlükdə emal sənayesində 2007-ci ildə orta əmək haqqının səviyyəsi 190,5 manat, o cümlədən dövlət sektorunda 222,1 manat, qeyri-dövlət sektorunda isə 167,5 manat olmuşdur ki, bu da 2000-ci ilin səviyyəsindən müvafiq olaraq 3,4; 4; 2,8 dəfə çoxdur. Qida məhsullarının istehsalı sektorunda 2007-ci ildə orta aylıq əmək haqqının səviyyəsi 131,3 manat, o cümlədən dövlət sektorunda 45,0 manat, qeyri-dövlət sektorunda 133,0 manat təşkil etmişdir ki, bu da 2000-ci ilin səviyyəsindən 4; 1,7; 3,8 dəfə yüksəkdir. Müqayisə olunan dövrdə əmək haqqı artımı toxuculuq və tikiş sənayesində də müşahidə edilmişdir. Belə ki, 2007-ci ildə adı çəkilən sahədə orta aylıq əmək haqqının səviyyəsi 100,5 manat, o cümlədən dövlət sektorunda 84,1 manat, qeyri-dövlət sektorunda isə 106,3 manat təşkil etmişdir ki, bu da 2000-ci ilin səviyyəsindən müvafiq olaraq 3,3; 2,7; 3,6 dəfə yüksəkdir. Dəri məmulatları və ayaqqabı istehsalı sektorunda orta aylıq əmək haqqının səviyyəsi 2007-ci ildə 124,5 manat, o cümlədən dövlət sektorunda 88,2 manat, qeyri-dövlət sektorunda isə 125 manat təşkil etmişdir ki, bu da 2000-ci ilin səviyyəsi ilə müqayisədə müvafiq olaraq 7,7; 14,5; 7,5 dəfə yüksəkdir. Qeyd etmək lazımdır ki, 2000-2007-ci illərdə emal sənayesində əmək haqqının səviyyəsi 3,4 dəfə artsa da, bütövlükdə götürdükdə bu məbləğ istər iqtisadiyyat üzrə orta əmək haqqı səviyyəsindən və istərsə də, istehlak büdcəsinin dəyərindən aşağıdır.

Fikrimizcə, gələcəkdə emal sənayesinin fəaliyyətinin genişləndirilməsi elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiqi hesabına emal sənayesinin modernləşdiril-

məsi yolu ilə əmək haqqının səviyyəsinin artırılmasına nail olmaq mümkündür.

Aparılan tədqiqatlar göstərir ki, emal sənayesinin iqtisadi imkanlarının yaxşılaşdırılması, istehlak bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi, eləcə də istehsal edilən məhsulun istər daxili və istərsə də xarici bazarlarda rəqabətə davamlılığının artırılması bu sahəyə yönəldilən investisiyalardan bilavasitə asılıdır.

Emal sənayesinə yönəldilən investisiyaların dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

***Cədvəl 9.9***

**Sənaye sektoruna yönəldilən investisiyalar**

*(milyon manat)*

| Göstəricilər | 2000 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|
| **Emal sənayesi** | 80,1 | 115,8 | 112,3 | 300,0 |
| **xarici investisiyalar** | 40,5 | 35,9 | 17,8 | 2,1 |
| **daxili investisiyalar** | 39,6 | 79,9 | 94,6 | 297,9 |
| **içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı** | 40,8 | 39,4 | 49,6 | 64,0 |
| **xarici investisiyalar** | 37,8 | 8,9 | 14,8 | 0,7 |
| **daxili investisiyalar** | 3,0 | 30,5 | 34,8 | 63,3 |
| **toxuculuq və tikiş sənayesi** | 0,3 | 2,9 | 11,7 | 16,4 |
| **daxili investisiyalar** | 0,3 | 2,9 | 11,7 | 16,4 |
| **dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı** | 0,1 | 0,8 | 0,4 | 0,04 |
| **daxili investisiyalar** | 0,1 | 0,8 | 0,4 | 0,04 |

Mənbə: Azərbaycanın sənayesi. Bakı, 2008, s. 48.

Cədvəl 9.9-un təhlili göstərir ki, 2007-ci ildə emal sənayesinə 300 milyon manat investisiya yönəldilmişdir ki, bu da bütövlükdə sənaye sektoruna yönəldilən məcmu investisiyaların 6,6%-ni təşkil etmişdir. Qeyd etmək lazımdır ki, 2000-2007-ci illər ərzində mədənçıxarma sənayesinə yönəldilən investisiya-

lar bütövlükdə sənaye sektoruna yönəldilən investisiyalar içərisində dominantlıq təşkil etməkdədir. Belə ki, 2007-ci ildə mədənçıxarma sənayesinə qoyulan investisiyalar bütövlükdə sənaye sektoruna investisiya qoyuluşlarının 77%-ni təşkil etmişdir. 2007-ci ildə emal sənayesinə yönəldilən investisiyaların 297,9 milyon manatını daxili investisiyalar təşkil etmişdir ki, bu da emal sənayesinə yatırılan məcmu investisiyanın 99,3%-ni təşkil edir. Müqayisə olunan dövrdə emal sənayesinə yatırılan investisiyaların həcmi 3,8 dəfə, daxili investisiyaların həcmi 7,5 dəfə artmışdır. Xarici investisiyaların həcmi isə kəskin şəkildə azalmışdır.

Qida məhsulları istehsalı sektoruna yatırılan məcmu investisiyaların həcmi müqayisə olunan dövrdə 60% artaraq 64 milyon manata, o cümlədən daxili investisiyaların həcmi 21,1 dəfə artaraq 63,3 milyon manata çatmışdır. Toxuculuq və tikiş sənayesi, dəri məmulatları və ayaqqabı istehsalı sektoruna yönəldilən investisiyalar bütövlükdə daxili investisiyalardan ibarət olmuşdur. Toxuculuq və tikiş sənayesinə yatırılan investisiyaların həcmi müqayisə olunan dövrdə 54,7 dəfə artaraq 16,4 milyon manata çatmışdır. Dəri məmulatları və ayaqqabı istehsalı sənayesinə yatırılan investisiyaların həcmi isə müqayisə olunan dövrdə 60% azalmış və cüzi bir kəmiyyəti özündə əks etdirir. Təhlil göstərir ki, emal sənayesinin inkişaf etdirilməsi bu sahənin investisiyalaşdırılmasından bilavasitə asılıdır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi və istehlak bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi baxımından emal sənayesinin investisiyalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

## 9.3. İstehlak kooperasiyasının ərzaq təhlükəsizliyinin təminatında əhəmiyyəti

Ümummilli lider Heydər Əliyevin Azərbaycnın dövlətçiliyinin möhkəmləndirilməsi, hərbi qüdrətinin artırılması. iqtisadiyyatının inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, ümumuilkdə ölkənin sosial-iqtisadi tərəqqisi istiqamətin-

də başladığı işlər prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycanda iqtisadi inkişaf prosesi praqmatizmə söykənən uzunmüddətli dövlət layihələri sferasında reallaşdırılır. İndi ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada iqtisadi islahatlar, sosial-mədəni quruculuq işləri, geniş infrastruktur yenidənqurması aparılmasın. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının daim yüksələn templərlə davam etdirilməsi respublikanın nailiyyətlərini daha da artırır. Bununla belə, dünyada gedən qlobal proseslər Azərbaycan iqtisadiyyatına, onun inkişaf dinamikasına öz təsirini göstərir. Bu, həm də ondan irəli gəlir ki, milli iqtisadiyyatın inkişafı dünya iqtisadiyyatına dərinləşən inteqrasiya şəraitində baş verir. Ona görə də, qlobal təsərrüfat sistemində cərəyan edən prosseslər, qiymət kataklizmləri, iqtisadi böhranlar ölkəmizin makroiqtisadi göstəricilərinin formalaşmasında, tədiyə balansının optimallığında və sosial sferanın dayanıqlığının genişlənməsində əks olunur. İqtisadçı analitiklər, müstəqil ekspertlər və bir sıra qlobal maliyyə institutları yeni dünya iqtisadi böhranının yaxınlaşması və onun bir çox simptomlarının görünməsi haqqında fikirlər səsləndirirlər. Statistika göstərir ki, son dövrlərdə dünyda ərzaq mallarının qiymətində kəskin bahalaşma baş vermişdir. Afrika və Asiyanın bir çox ölkələrində bu artıq ciddi xarakter almış, burada yoxsulluq səviyyəsi genişlənmiş və aclıq təhlükəsi yaşanmaqdadır. Bütün bunlar isə respublikanın ərzaq təhlükəsizliyi məsələsinə yeni yanaşmaları, problemin dərindən təhlilinin aparılmasını, onun davamlı təminatı üçün strateji planların, direktivlərin hazırlanmasını və ardıcıl reallaşdırılmasını şərtləndirir. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin vacibliyi məsələsi ölkə prezidenti İlham Əliyevin də diqqət mərkəzindədir. Cənab prezident bu barədə demişdir. «Azərbaycan Sovet hakimiyyəti illərində, hətta vahid kənd təsərrüfatı kompleksinin mövcudluğu dövründə özünü ərzaq malları ilə təmin etməyib, onu xaricdən alıb. Bu gün mən deyə bilmərəm ki, biz özümüzü tam təmin etmi-

şik. Bunun tarixi və obyektiv səbəbləri var. Lakin biz çalışmalıyıq ki, bizim üçün strateji əhəmiyyət kəsb edən ərzaq məhsullarını istehsal edək» [187-1-4].

Qloballaşma şəraitində bazar sisteminin təsiri ilə dövlətin yeni müstəqil vəzifəsi kimi ölkənin iqtisadi təhlükəsizliyinin qorunması vacib məsələlərdən biridir. Qloballaşma dövründə dövlətin kompleks təhlükəsizliyinin, o cümlədən iqtisadi təhlükəsizliyin mühüm atributlarından və komponentlərindən biri kimi ərzaq təhlükəsizliyi çıxış edir.

«Ərzaq təhlükəsizliyi» dedikdə, müvafiq ehtiyatlar, potensial və zəmanətlərlə təmin olunmuş dövlətin qəbul edilmiş norma və standartlara uyğun olan həcmdə, keyfiyyətdə və çeşiddə əhalinin ərzaq məhsullarına olan ehtiyacını ödəyə bilmək qabiliyyəti başa düşülür. «Ərzaq təhlükəsizliyi» anlayışının bu cür izahı iki aspektə malikdir: Sosial-iqtisadi aspekt (*tələbatı təmin etmək qabiliyyəti*) və siyasi-iqtisadi aspekt (*ölkənin daxili ehtiyatları və aqrar sənaye potensialını səfərbərliyə almaq qabiliyyəti*). Bunlar ərzaq zərərsizliyinin səviyyəsi, meyarları və göstəriciləri sistemində reallaşır. Bununla yanaşı, ərzaq təhlükəsizliyi üçün göstəricilərin özü deyil, onların həddi mənaları əsas əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyini həm daxili, həm də xarici təhlükələrlə bağlamaq lazımdır. Bu zaman daxili amillərin təsir miqyası xarici amillərdən daha çoxdur [5, 14, 18].

Ölkənin ərzaq təhlükəsizliyinin davamlı təmin edilməsi hər bir dövlət üçün həyati əhəmiyyət kəsb edir. Bunun üçün isə dövlətlər geniş institusional islahatlar aparır, iqtisadi tədbirlər, təşkilati işlər həyata keçirir. Azərbaycanda da bu istiqamətdə müxtəlif Dövlət proqramları, çoxsaylı investisiya layihələri hazırlanır və reallaşdırılır. Dünya praktikası və həmçinin Azərbaycanın yaxın keçmişində vüsətli olmuş kooperasiya ənənələri təcrübəsinin təhlili göstərir ki, ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması istiqamətində respublikada istehlak kooperasiyasının inkişaf etdirilməsinin əhəmiyyəti və şəmərəsi böyük ola bilər.

Azərbaycanda ərzaq təhlükəsizliyinin qorunması üzrə dövlət proqramı həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarli təminatina dair 2008-ci il 25 avqust tarixli sərəncamı ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində çox mühüm dövlət sənədidir. Bu sənəddə göstərilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir. Son bir neçə ildə enerji daşıyıcılarının qiymətinin kəskin artması, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında qiymətləri artmağa başlamış, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (*FAO*) məlumatına görə, əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaqdır. Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Hələ keçən əsrin 90-cı illərinin ortalarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Müstəqil Dövlətlər Birliyi məkanında analoqu olmayan torpaq islahatları həyata keçirilmiş, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılmış, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanmışdır. 2001-ci ildə ölkə Prezidentinin Sərəncamı ilə «Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı» təsdiq edilmiş və bu Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiy-

yətli dərəcədə artmışdır. Bununla yanaşı, «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı», «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (*2002-2005-ci illər*)», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008 və 2009-2013-cü illər)» və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin etmişdir. Lakin, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Digər tərəfdən, dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik Azərbaycanda da ərzaq məhsullarının qiymətinə öz təsirini göstərir. Mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb edir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 1 may tarixli 2786 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı məhz bu məqsədə nail olmaq üçün 2008-2015-ci illər ərzində müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur [187-11].

Kooperasiyanın məqsəd və vəzifələri fövqündə bilavasitə əhaliyə xidmət göstərmək, ərzaq bolluğu yaratmaq, istehlak malları bazarının təhcizatını stabilləşdirmək, məhsuldar və yaradıcı marağı yüksəltmək, tələblə təklif arasında tarazlığı təmin etmək və bununla da iqtisadiyyata daha çox sosial istiqamət vermək missiyyası dayanır. Bu gün respublikamızda kooperasiyanın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Ölkənin iqtisadi potensiali, resurs bazası və xususi ilə də intellektual hazırlıq səviyyyəsinə əsaslanaraq bu sahənin inkişafı istiqamətində qısa bir zamanda irəliləyişlərə nail olmaq

mümkündür. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində isə kooperasiya özünün iqtisadi-təşkilati mexanizmlərə malikliyi ilə daha geniş imkanlıdır. Onun respublikamızda tətbiq sferasının genişləndirilməsi obyekti olaraq isə ərzaq bolluğunun ilkin yaranış mənbəyi - aqrar sektor çıxış etməlidir. Burada keçmiş kolxoz və sovxozlara məxsus torpaqların mülkiyyətçiləri kooperatıv təsisatlandırmalar aparmaqla bir araya gəlməli və strukrur mükəmməlliyi, kollegial menecment sistemi ilə fərqlənən daha səmərəli təsərrüfat quruculuğuna başlamalıdırlar. Belə olan şəraitdə xırda təsərrüfatçılar yalnız ərazilərinin birləşməsini deyil, istehsalın digər amillərini - kapital, əmək resursları, səriştə və bacarıqlarını da ümumiləşdirəcəklər. Birgə məsuliyyət optimal nəzarət sisteminin qurulması ilə müşayiət olunaraq məhsuldarlığın artırılmasını təmin edəcək, resurslar konsolidasiyası yaradaraq təsərrüfatların investisiya repatriasiyasını genişləndirəcək, maddi-texniki təminatı daha da yaxşılaşdıracaqdır. Əlbəttə, proses təzyiqli prosedurlarla əhatə olunmamalıdır. Digər tərəfdən, bu istiqamətdəki fəaliyyətin praktiki müstəviyə keçirilməsi üçün təşviqat işlərinin aparılması da vacibdir. Dövlət, qeyri-hökumət təşkilatları və bələdiyyələr ölkədə kooperasiyanın genişlənməsinə hərtərəfli əməli yardım etməlidirlər. Bununla belə, kooperasiyanın normativ-hüquqi bazası da genişlənməli, kooperativlərin hərtərəfli dövlət stimullaşdırılması həyata keçirilməlidir. İnsanları inandırmaq lazımdır kı, aqrar sektorda yaradılacaq kooperativlər heç də yeni kolxoz quruculuğunun imitasiyasi deyil və onu simvolizə etmir. Bu sınanmış və indi effektivliyi daha yüksələn templərlə inkişaf edən qlobal bir praktikadır. Bu praktika mülkiyyətçilərin hər birinin peşə və əmək imkanlarının bərabər şəraitdə bölgüsünü reallaşdıran, sosial məsuliyyəti tən edən bir fəaliyyətdir. Burada yalnız ayrı-ayrı fərdlərin tələbləri təmin olunmur. Makro səviyyədə bu praktika geniş ərzaq bolluğu yaradır, ölkənin, dövlətin ərzaq təhlükəsizliyini təmin edir və möhkəmlədir.

Kooperasiyanın inkişafı üçün Azərbaycanda kifayət qədər resurs potensialı mövcuddur. Bununla belə, yeni kooperativ təsisatlarının yalnız aqrar sektorunda və ticarət sahəsində deyil, xalq istehsalkı malları, məişət xidmətində, hətta elm, təhsil, mədəniyyət və informasiya vasitələri sferalarında da təsisatlandırılması institusional və iqtisadi baxımdan əhəmiyyətlidir. Bu reallıq, dünya iqtisadiyyatında kooperasiyanın sürətlə inkişaf etməsi, bir sıra inkişaf etmiş ölkələrdə isə onun ümumi daxili məhsulda xüsüsi çəkisinin yüksəlişi və rəqabətqabiliyyətlinin artması ilə bağlıdır.

Bazar iqtisadiyyatı ilə uğurla irəliləyən respublikamızda da kooperasiyanın inkişafı üçün maksimal şərait və real imkanlar mövcuddur. Bunun üçün isə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruridir:

- kooperasiya prinsiplərinin möhkəmləndirilməsi istiqamətində təşviqati işləri gücləndirmək;
- koopertiv sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısını artırmaq;
- kooperasiyanın fəaliyyət səmərəliliyini stimullaşdıran əlverişli iqtisadi mühiti formalaşdırılmaq;
- mövcud normativ-hüquqi bazanın genişləndirilməsinə və təkmilləşdirilməsinə nail olmaq;
- kooperasiyanın diversifikasiyası prosesinin reallaşması üçün yeni fəaliyyət istiqamətlərinin təsisatlandırılmasını və məhsul çeşidinin artırılmasını stimullaşdırmaq;
- kooperativ hərəkatı akitivləşdirən uzunmüddətli dövlət proqramları hazırlamaq və reallaşdırmaq.

Kooperasiyanın inkişaf tələblərinə uyğun gələn bu reallıqları kooperativ fəaliyyətinin planlaşdırılması və reallaşdırılmasında ciddi nəzərə almaq lazımdır. Belə ki, kooperativ dəyərlər və prinsiplərin işdə rəhbər tutulması tətbiq edilən mütərəqqi menecment üsulları və metodlarını dəyişikliklərə uğradır və kooperativ təsisatları yeni mahiyyətdə inkişafa istiqamətləndirir.

Ərzaq təhlükəsizliyi geniş mənada ölkədə istehlak edilən zəruri qida mallarının keyfiyyəti və faydalılığında əks olunur. Buna görə də, ölkədə ərzaq bolluğu yaradılması və ərzaq təhlükəsizliyinin təminatı istiqamətində kooperasiya strategiyası formalaşdırılarkən bu təsisatın fəaliyyəti yalnız aqrar sektorla məhdudlaşdırılmamalıdır. Kooperasiya bu istiqamətdə inteqrasiyada olduğu qida sənayesi sferasında da mövqelərini möhkəmləndirməlidir.

## 9.4. Transformasiya mərhələsində istehlak bazarının inkişaf problemləri

İstehlak bazarının təminatı dövlətin strateji maraqlarının qorunub saxlanılmasında mühüm rol oynayır. İstehlak bazarının yerli istehsal hesabına təmin edilməsi, ilk növbədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan dövlətin iqtisadi siyasəti istehlak bazarının yerli istehsal hesabına təmin edilməsinə istiqamətlənməlidir. Məhz bunun nəticəsidir ki, inkişaf etmiş ölkələrdə istehlak bazarının yerli istehsal hesabına təminatını yüksəltmək məqsədilə istehsalın stimullaşdırılması, istehsal və tədavül prosesinin tənzimlənməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bu baxımdan transformasiya prosesini yaşayan respublikamızda istehlak bazarında baş verən iqtisadi proseslərin səmərəli və elmi əsaslarla idarə edilməsi mühüm əhəmiyyət kəsb edir. Transformasiya dövrü bazar təsərrüfatçılıq sisteminin zəruri atributlarının formalaşmasında əhəmiyyətli rol oynayır. Məlum olduğu kimi, inzibati-idarəetmə dövründə iqtisadiyyatı idarə etmək üçün planlar «yuxarıdan» verilirdi. İndi «komandanı» bazar və onun tələbatı verməlidir. İstənilən səviyyədə hər bir təsərrüfat qərarı (*xüsusən də ən yüksək səviyyədə olan*), onun nəticələri, bazarın reaksiyası ilə müşahidə olunmalıdır. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda mövcud olan bir çox çətinliklər və nöqsanlar idarəetmədə buraxılmış səhvlərin nəticəsidir.

Respublikada ərzaq kompleksinin inkişafı təkcə aqrar bölmədə deyil, həm də emal sənayesində, ticarətdə, elm və texnika sahələrində əmək məhsuldarlığını yüksəltmək, məhsul istehsalını çoxaltmaq nəticəsində təmin edilə bilər. Ölkəmizdə ərzaq probleminin uğurlu həlli taxıl, ət, süd və digər yeyinti məhsullarını idxal etməklə deyil, istehsalda yeni texnologiyanın tətbiqi ilə mümkündür.

İqtisadiyyatda artım, bazar münasibətlərinin inkişafı nəticəsində yarana bilər. İstehsalın və xalq istehlakı malları dövriyyəsinin idarəetmə sisteminin əsas cəhətlərini təhlil etməklə və bazar iqtisadiyyatına transformasiya dövründə onda baş verən dəyişikliklərin prinsipial istiqamətlərini, iqtisadiyyatın bu sahəsinin normal funksiyasını təmin edən, mühüm element və həlqələri müəyyən etməyi tələb edir. Lakin Azərbaycanda ölkənin bazara cəlb edilməsi bazar strukturuna fəal təsir metodları hələ də müəyyən dərəcədə saxlanılır.

Xalq təsərrüfatının inzibati idarəetmə dövründə iqtisadiyyatın mərkəzləşmiş idarəetmə sistemi formalaşmışdır. Mərkəzləşdirmənin əsas prinsip və qanunauyğunluqlarına əsaslanan istehsalı və dövriyyəni tənzimləyən sistem eyni zamanda bir sıra fərdi keyfiyyət və xüsusiyyətlərə malik idi. Onlar sahənin idarə edilməsinin təşkilinin spesifikliyində olduğu kimi, istifadə olunan tənzimlənmə metodlarının məzmununa görə də fərqlənirdi. Qeyd etmək lazımdır ki, mərkəzləşdirilmiş planlaşdırma sistemində bazar münasibətlərinin elementlərindən müəyyən dərəcədə istifadə olunmuşdur. Xalq istehlakı mallarının istehsalı və əmtəə ehtiyatlarının mərkəzləşdirilmiş bölüşdürülməsinin direktiv xarakteri bu parametrlərin qeyri-bərabər proporsiyalarla müxtəlif zaman dövrlərində bazarın tənzimlənməsi ilə uyğunlaşırdı. Əgər malların istehsalı qiymətləndirilirsə, onda onun struktur-assortiment parametrləri müəyyən dərəcədə əhalinin tələbatının ifadə forması olan istehsal və istehlakla təyin edilir. Sistemin digər xüsusiyyəti ondan ibarətdir ki, onda xalq istehlakı malları istehsalçılarına geniş hüquqlar veril-

mişdir [130, 148]. Deməli, istehsalı idarəetmə sistemində və ənənəvi (*şaquli*) şaquli (*müəssisə və sahə idarəetmə orqanları arasında*) və üfüqi (*ticarət və sənaye arasında*) əlaqələri müəssisə və məzmununa görə koordinasiyalı-tənzimləyici xarakter daşıyan ərazi idarəetmə orqanları mallarının ən mühüm növlərinin istehsalı mərkəzləşdirilmiş qaydada tənzimlənirdi.

Bazar münasibətlərinə transformasiya xalq istehlakı mallarının istehsalının idarəetmə sisteminin və tədavülün bütün elementlərində köklü dəyişikliklər edilməsini tələb edir. Bazar iqtisadiyyatı şəraitində nə mərkəzi iqtisadi, nə də sahə orqanları ticarət və sənaye müəssisələrinin fəaliyyətinə direktiv rəhbərlik etməyəcək. Eyni zamanda, bazar münasibətləri şəraitində, xüsusən də transformasiya dövründə istehlak bazarında istehsal və tədavül prosesinə birbaşa inzibati müdaxilə absurd xarakter daşıyır. Əslində yeni istehsal münasibətləri şəraitində istehlak bazarında dövlətin başlıca vəzifəsi iqtisadi tənzimləmə metodları vasitəsilə tələb və təklifin ümumi həcminin tarazlaşdırılmasından ibarətdir. Qeyd etmək lazımdır ki, mərkəzləşdirilmiş idarəetmə sistemində regionların iqtisadi inkişafının, o cümlədən malların istehsalının və tədavülü sahəsinin tənzimlənməsi əhəmiyyətli dərəcədə siyasi strukturların köməyinə və real hakimiyyətinə arxalanırdı.

Malların istehlak, satış və istehsal proqnozlarının işlənib hazırlanması bazarda xalq istehlakı mallarının tələb və təklifi arasında proporsiyaların saxlanılması, əhalinin əsas məhsul növləri istehlakı və onun sosial müdafiəsi, pul tədavülünün normalaşmasının təmin edilməsi üçün zəruri tədbirlər sisteminin hazırlanması üçün mühüm şərtdir. Bu məqsədlə əsas makroiqtisadi və sahə göstəriciləri, istehsal və tədavülün inkişafı proqnozlaşdırılacaqdır [160].

İstehlak və tədavülün dövlət tənzimlənməsi hər şeydən əvvəl, bazar münasibəti subyektlərinin qaydalarmı müəyyən edir. Yeni iqtisadi qanunlar xalq istehlakı malları bazarının formalaşması və normal fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır.

Bazar münasibətləri, xüsusən də qloballaşmanın dərinləşdirir bir şəraitdə dövlət əsasən əmtəə istehsalının inkişafına iqtisadi təsir göstərən metodlardan istifadə edir. Fikrimizcə, iqtisadi transformasiya dövründə tənzimlənmənin miqyası daxili və xarici siyasi şəraitdən asılı əhəmiyyətli dərəcədə olur, həmin dövrdə direktiv üsulların tətbiqindən tam imtina etmək olmaz.

Dövlət tərəfindən tətbiq olunan metodların arsenalı geniş və müxtəlifdir. Ona birbaşa və dolayı tənzimlənmə metodları daxildir. Malların istehlak və tədavülünə olan dövlət sifarişi bilavasitə təsir üsulları sırasına daxildir. Yeni şəraitdə dövlət sifarişi sistemi prinsipial dəyişikliklərə məruz qalır. Transformasiya mərhələsində dövlət sifarişlərinin məqsədəuyğunluğu istisna edilmir. Bununla belə, onların qəbul edilməsinə və reallaşmasına müəssisələr maraqlı olmalıdırlar. Buna rentabelliyi təmin edən qiymətlərin, vergi imtiyazlarının, zəmanətli maddi-texniki təminatın və s. tətbiqi hesabına nail olmaq olar.

Birbaşa təsirin digər metodu büdcə, habelə büdcədənkənar vəsaitlər hesabına maliyyələşən xalq istehlakı malları istehsalının dövlət inkişaf proqramı ola bilər. Xalq istehlakı mallarının istehsalını tənzimləmək üçün xarici iqtisadi əlaqələrdən səmərəli istifadə etmək məqsədəuyğundur. Xalq istehlakı mallarının idxalı üçün əlverişli gömrük şəraitini yaratmaq və bu məhsulların idxalını sərt tənzimləmək lazımdır. Daha sonra dövlət əmtəə bazarının normal fəaliyyəti üçün infrastruktur elementlərinin yaradılmasında fəal iştirak etməklə malların istehsalı və tədavülünə əhəmiyyətli təsir göstərilməlidir. Onun əsas elementlərinə aid edilir [148]:

- tədavül sahəsinin maddi-texniki bazası, hər şeydən əvvəl anbar və tara təsərrüfatı;
- bazar institutları: əmtəə birjası, vasitəçi təşkilatlar, broker kontorları, marketinq, regional və s. mərkəzlər;
- bazar münasibətləri iştirakçılarını lazımi göstəricilərlə təmin edən rabitə və informasiya sistemi.

Vergi siyasətinin həyata keçirilməsində, onun yığılmasına nəzarətin gücləndirilməsində geniş əhali kütləsinin iştirakını tə'min etmək lazımdır. Bu baxımdan qonşu Türkiyə Respublikasının təcrübəsindən nümunə götürmək olar. Orada alıcı mülkiyyət formasından asılı olmayaraq istənilən ticarət müəssisəsindən aldığı mala görə qiyməti üzərində göstərilən qəbz - «fiş» alır. Fişdə mağazanın və ya satıcının adı, ünvanı göstərilir. Alıcı hər ayın sonunda aldığı malların qəbzlərini toplayıb yaşadığı ərazinin bələdiyyə orqanına təhvil verir və fişlərin ümumi məbləğinin 10-15%-ni pul şəklində geri alır. Bunun sayəsində bir neçə mühüm problem həll edilmiş olur, dövlət orqanları öz ərazisində ticarət şəbəkəsi, onun mal dövriyyəsi haqqında dəqiq informasiyaya malik olur, vergi müfəttişliyinin isə istənilən ticarət müəssisəsini obyektiv yoxlamaq işi asanlaşır. Eyni zamanda qeyri-qanuni ticarət, ara alverçiləri sıxışdırılmış olur, yə'ni mallarını istənilən vergi ödəyən subyektdən ucuz satmağa məcbur olur. Beləliklə, bütün əhali ölkədə ticarət şəbəkəsində qayda-qanun yaradılmasında iştirak etməklə, həm də dövlət büdcəsinə daxil olan vergi gəlirlərinin artırılmasını tə'min edirlər. Əgər hər hansı satıcı alıcıya «fiş» verməzsə, ona qarşı elə bir cərimə sistemi tətbiq olunur ki, qanun pozucusu bununla tam iflasa uğraya bilər və ya satdığı malın qiymətindən yüz, beş yüz dəfə artıq olan cəriməni ödəyə bilmədikdə ağır cinayət məs'uliyyətinə cəlb edilə bilər [160].

İnfrastrukturun yaradılması böyük kapital qoyuluşu, ciddi təşkilati dəyişikliklərlə bağlıdır. Bazar münasibətlərinə transformasiya mərhələsində dövlət büdcə vəsaitlərindən istifadə etməklə, infrastrukturun yaradılmasında iştirak etməli, habelə bazar infrastrukturunun formalaşmasına kömək etməlidir. Bu fəaliyyət ticarət və sənaye müəssisələrinin təsərrüfat əlaqələrinin formalaşmasında böyük çətinliklər olduğu bazar münasibətlərinin yarandığı dövrdə xüsusi əhəmiyyətə malikdir. Dövlət bütün təsərrüfat subyektlərinə lazımi informasiyanın çatdırılması üçün rabitə kanallarının inkişafına və ondan istifadə

edilməsinə əhəmiyyətli kömək göstərə bilər. Bu növ fəaliyyətdə təkcə mərkəzi deyil, həm də torpaq sahələrinin ayrılması, tikililərin icarəyə verilməsi, bazar institutları fəaliyyətinin təmin edilməsində köməyi asılı olan yerli orqanlar da iştirak etməlidir. Dövlət müstəqilliyinin bərpa olunması malların istehsalı və tədavülünün tənzimlənməsi üzrə hüquqi funksiyaların yenidən bölüşdürülməsinə gətirib çıxardı. Yaranmış vəziyyətdə bu mühüm məsələnin həlli siyasi proseslərlə müəyyən edilir və onların inkişafından asılı olacaqdır.

Göstərilən problemlər həll edilərkən hər şeydən əvvəl, sənaye və ticarətin iqtisadi müstəqilliyindən çıxış etmək lazımdır. Məhz sənaye müəssisələri istehsal mallarının reallaşdırma kanallarının tədarük şərtlərini seçərək onları idarə edir, topdan satış ticarət mərkəzləri isə hərəkətini müstəqil təşkil edirlər.

Azərbaycanın MDB respublikaları ilə təsərrüfat əlaqələrinin saxlanılması və genişləndirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu halda vahid iqtisadi məkan olan MDB-nin formalaşması mühüm rol oynayır. Onun yaradılması təkcə gömrük sərhədlərinin olmaması və müxtəlif dövlətlərdə yerləşən müəssisələrin məhsul mübadiləsinə qoyulan məhdudiyyətlər deyildir. Fikrimizcə, hazırda müxtəlif suveren dövlətlərdə mövcud müəsisələrin fəaliyyətini tənzimləyən təsərrüfat mexanizmləri oxşardır. Bunsuz vahid təsərüfat kompleksinin formalaşması, inteqrasiya proseslərinin inkişafı mümkün deyildir Azərbaycanın xarici iqtisadi əlaqələrində ən vacib ölkələrdən biri Türkiyə Respublikasıdır. Hazırda Azərbaycanın xarici ticarət dövriyyəsində Türkiyə Respublikasının payı 14,3%, o cümlədən idxalda 10,9%, ixracda isə 17,4%-dir [10].

Əhalinin pul gəlirinin və qiymətqoymanın tənzimlənməsində razılaşdırılmış siyasət zəruridir. Belə ki, əks təqdirdə gənc milli dövlətlər arasında qiymət və gəlirlərin müxtəlif səviyyəsinə görə konfliktlər güclənə bilər.

Bazar iqtisadiyyatında malların istehsalı və tədavülünün tənzimlənmə sistemində əsas həlqə kimi sənaye və ticarət

müəssisələri arasında təsərrüfat əlaqələri çıxış edir. Prinsipial dəyişikliklər ondan ibarətdir ki, bu əlaqələr bilavasitə, birbaşa xarakter daşıyacaq. Təsərrüfat əlaqələrinin təşkilatçısı kimi sahə orqanları deyil, yeni bazar institutları - əmtəə birjaları, yarmarkalar, vasitəçi təşkilatlar, istehsalçılar assosiasiyası, bazar münasibətlərinin maraqlı olan subyektləri tərəfdən könüllü əsasda yaradılan yerli koordinasiya orqanları çıxış edəcək. Bazar iqtisadiyyatında məhz bu əsas kontur, xalq istehlakı malları istehsalının inkişafının əsas tənzimləyicisi olmalıdır. İstehlak malları bazarı alqı-satqı prosesinin son mərhələsi - yəni bilavasitə istehsal olunmuş malların satışı ilə məşğul olduğundan, yeni iqtisadi sistemə keçdikdə, bu sahədə əsaslı dəyişiliklər baş verir. Ona görə də istehlak malları bazarının formalaşması istiqamətləri, onun müasir vəziyyəti və qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Fikrimizcə, ölkədə istehlak bazarını formalaşdırmaq və inkişaf etdirmək üçün aşağıdakı prioritetlik təşkil edən tədbirlər həyata keçirilməlidir:

- əhalinin artan tələbatının tam və dolğun ödənilməsinə şərait yaratmaq;
- əhalinin istehlak mallarına olan tələbini formalaşdırmaq və istehlakın səmərəli strukturuna malik olmaq;
- istehlak mallarının səmərəli reallaşmasını həyata keçirmək və onların istehlakçıya çatdırılmasını təmin etmək;
- tələb və təklif arasında dinamik tarazlığa nail olmaq və onun ənənəvi xarakter almasına şərait yaratmaq.

Malların istehsal, satış və istehlak proqnozlarının işlənib hazırlanması bazarda xalq istehlakı mallarının tələb və təklifi arasında proporsiyaların saxlanılması, əhalinin sosial müdafiəsi və əsas məhsul növlərinin istehlakı, pul tədavülünün normallaşmasının təmin edilməsi üçün zəruri tədbirlər sisteminin hazırlanması üçün mühüm şərtdir. Bazar münasibətləri şəraitində dövlət əsasən əmtəə istehsalının inkişafına iqtisadi təsir göstərən metodlardan istifadə etməlidir. Fikrimizcə, transformasiya

dövründə tənzimlənmənin miqyası daxili və xarici siyasi şəraitdən əhəmiyyətli dərəcədə asılı olur ki, həmin dövrdə də direktiv üsulların tətbiqindən də tam imtina etmək olmaz.

## 9.5. İstehlak bazarının genişlənməsinə kooperasiyanın təsir effekti

Real bazar ölkələrinin təcrübəsi göstərir ki, yüksək çeviklik nümunəsi olan kooperasiya yeni inkişaf mərhələsinə keçməkdədir. Kooperasiya haqqındakı reallıqlar belədir ki, o insanı istehsal, xidmət, ticarət, ictimai iaşə və digər bu kimi sahələrin gerçək sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya əsaslı dərəcədə ölkədə sosial-iqtisadi inkişafa təkan verərək bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını bir-biri ilə əlaqələndirir. Bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasında da mühüm mənbələrindən birni məhz təsərrüfatçılığın kooperativ forması təmin edir.

Kooperasiyanın təşkilində əsas məqsəd bilavasitə əhaliyə xidmət göstərmək, istehlak malları bazarının mal təhcizatını stabilləşdirmək, məhsuldar və yaradıcı marağı artırmaq, iqtisadiyyata daha çox sosial istiqamət vermək, tələblə təklif arasında tarazlığı təmin etmək vəzifələrindən irəli gəlir. Lakin bununla belə, ötən dövrlərdə olduğu kimi, hazırda da kooperasiyanın əsl mahiyyətinə, onun inkişaf perspektivliyinə mübahisəli yanaşmalar qalmaqdadır. Kooperasiyanı cəmiyyətin iqtisadi həyatında «ikinci növ» hesab edənlər yenə də onu ölkənin iqtisdi inkişafında arxa plana çəkməyə səy göstərirlər. Əslində isə, kooperasiya öz mühüm əhəmiyyəti ilə istehlak bazarının genişlənməsinə effektli təsir gösterir və məhsul bolluğunu daha da artırır.

Yeni iqtisadi sistemdə ilk müvəffəqiyyətli addımlarını atmış Azərbaycanda da kooperasiyanın inkişaf etdirilməsi üçün lazımi iqtisadi və kadr potensialı mövcuddur. Heç də elə hesab etmək olmaz ki, kooperasiya yalnız aqrar sektorda və müəyyən qədər xırda xalq istehlakı malları sferasında, qismən də məişət xidməti sahələrində nisbi çeviklik göstərə bilər. Dərinləşən liberal iqtisadi reallıqlar müasir dövrdə kooperasiyanın elm, təhsil, mədəniyyət, informasiya vasitələri və hətta üstün texnologiyalar istehsalı sferalarına çıxışını da təmin etmişdir. Artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsüsi çəkisi rəqabətqabiliyyətli güc nümayiş etdirməkdədir. Bu baxımdan da respublikamızda da kooperasiyanın diversifikasiyası istiqamətində lazımi imkanlar və real tələblər mövcuddur. Bunun üçün isə kooperasiyanın hərtərəfli inkişafını təmin etmək, bu sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısını artırmaq çox vacibdir. Burada təkmilləşmə istiqamətində başlıca prioritetlər kimi mövcud normativ-hüquqi bazanın genişləndirilməsi, müvaiq sferanın davamlı inkişafı üçün uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması zəruridir. Bununla belə, təkmilləşmənin təmin edilməsində kooperasiyanın inkişafına mane olan determinantların təhlili araşdırmalar əsasında aşkara çıxarılması, bu istiqamətdə formalaşacaq yeni strategiyanın elmi əsaslarının işlənməsi, istehlak bazarında mövcud konyunkturanın və perspektivlərin təhlil olunması da vacib şərtllərdəndir.

Bazar münasibətlərinə keçid, istehlak kooperasiyasında həm müsbət və həm də mənfi meyillər yaratmışdır. Kooperativlər sistemində bazarın tələblərinin tam ödənilməsinə yönələn strategiya reallaşdırılan məhsulların çeşidinin məhdudlaşdırılmasına gətirmiş və hətta bir sıra istiqamətlərdə istehsal həcminin məhdudlaşması ilə nəticələnmişdir. Müəyyən kooperativlərə subsidiyaların verilməsi, kreditlərin ayrılması praktikasının məhdudlaşması da bu prosesdə mənfi rolunu oynamışdır. Əlbəttə, bu fəaliyyətdə yeni sistemə keçidin formalaş-

ması prosesində təcrübənin azlığı və transformasiyaya hazırlıq imkanlarının məhdudluğu da təsirli olmuşdur. Lakin mənfi cəhətlərlə yanaşı, müsbət meyillər də qeyd edilməlidir. Onlar ilk anlarda çox geniş olmasa da, ayrı-ayrı kooperativ fəallarının timsalında yetərli uğurlulüğü ilə fərqlənmişlər. Bununla belə, ictimai quruluş transformasiyası kooperasiyanın inkişafı üçün yeni imkanlar da açmışdır. Bunlar isə başlıca olaraq bazar iqtisadiyyatının liberal məzmunundan irəli gələrək, fəaliyyət genişliyinə verdiyi çoximkanlılıqla bağlıdır. Bu çoximkanlılıqdan isə tam səmərəli şəkildə istifadə olunmalıdır.

Bu gün respublikamızda kooperasiyanın inkişafını məhdudlaşdıran şərtlər sırasında onun istehlak bazarının formalaşmasına təsir dairəsinin zəifliyi daha çox nəzərə çarpır. Belə ki, hazırda respublikada kənd əhalisinin təxminən yarısı yenə də bir sıra ərzaq məhsullarını iri şəhərlərin ticarət şəbəkəsindən əldə edirlər. Digər tərəfdən isə, müəyyən xüsusi çəkiyə malik olan əmtəə istehsalçıları, yəni kənd əməkçiləri də öz məhsullarını bazara çıxarmada əlverişli şəraitə malik olmurlar. Burada tədarük, nəqliyyat, qiymət problemi və müəyyən qədər də subyektiv amillər, korrupsiya meyilləri, məmur özbaşnalıqları və s. də mühüm rol oynayırlar. Bu isə o deməkdir ki, kooperatorlar həm iqtisadi və həm də hüquqi cəhətdən hələ də dolğun mühafizə olunmamışlar. Mühafizə prosesinin möhkəmləndirilməsi isə, burada mühüm həyati əhəmiyyət kəsb edir. Elə bu səbəbdəndir ki, ümumi dövriyyədə kooperativlərin xüsusi məhsulu 10-15%-dən yüksək olmur. Halbuki inkişaf etmiş dünya ölkələrinin əksəriyyətində bu rəqəm təsisatlandırmalar, stimullaşdrmalar və dövləti dəstəyin gücü müqabilində daha yüksəkdir. Respublikada bu sahədə olan geriliyin aradan qaldırılması isə təkmil normativ-hüquuqi bazada və hərtərəfli dövləti dəstəkdə kooperasiya «inkubasiyası»nın daha da artırılmasından keçir.

Kooperativlərin istehlak bazarına olan təsir gücünün daha da dolğun artırılması bu istiqamətdə mövcud xarici təcrübənin təh-

lili şərhinin verilməsi məqsədəuyğun hesab edilir. Belə ki, ABŞ-da satış kooperasiyası vasitəsi ilə kənd təsərrüfatı məhsullarının 30%-i, o cümlədən südün 77%, taxıl və paxlalı bitkilərin 38%-i reallaşdırılır. Təchizat kooperasiyası kanalları vasitəsilə isə fermer təsərrüfatı mallarının 20%-i, o cümlədən istehsal vasitələrinin 27%-i realizə edilir. Fransada isə. taxıl məhsullarının emalında kooperativlərin payı 70%, süd məhsulları istehsalında 47%, şərab istehsalında 50%, yem istehsalında 35%, tərəvəz konservləri istehsalında 30% təşkil edir. Yaponiyada müvafiq göstəricilər daha yüksəkdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu ölkədə bütün kənd təsərrüfatı məhsullarının 55%-i istehlak malları bazarına kooperativlər vasitəsilə, o cümlədən düyünün 64%-i, tərəvəzin isə 90%-i daxil olur [187-5].

Respublikanın mövcud iqtisadi potensiali rezurs bazası və xususi ilə də intellektual hazırlıq səviyyyəsi qlobal dünyanın bu nəhəng dövlətlərində kooperasiya statistikasını yaxın zamanlarda üstələməyə imkan verir. Əlbəttə, burada tez bir zamanda ənənəviləşmədən söhbət getmir. Lakin bu prosesin sürətləndirilməsi nəinki imkanlı və hətta zəruri şərtlidir. Bunun üçün isə ən başlıca şərt sahəyə dövlət qayğısının hərtərəfili artırılması və ondan irəli gələn inkişafı sürətləndirən bütün vasitələrin aktivləşdirilməsi ilə əlaqələndirilir.

Kooperativ hərəkatı yalnız o zaman yeni səviyyəyə yüksələ bilər ki, onlar həqiqi mənada demokratik özünüidarə orqanına çevrilə bilsinlər. Onların fəaliyyətinin əsas məqsədi və mənası kooperativ demokratiyasının inkişaf etdirilməsində və bu əsasda istehsalın artım gücünün təmin olunması, elmi-texniki tərəqqinin nailiyyətlərinin səmərəli reallaşdırılması, kooperatorların hüquqlarının müdafiəsinin dolğun təmin edilməsindədir.

Kooperasiyanı yeni iqtisadi effektli təzahürdə inkişaf etdirmək üçün dövlət strategiyasında əsas prinsiplər kimi, kooperasiya ideologiyasının təşviqat gücünün də artırılması zəruri hesab olunur. Kooperasiya fəaliyyətinə ilk qoşulanlara hüquqi yardım göstərilməsi üçün bu istiqamətdə mövcud bürokratik

maneələr dəf edilməli, onlara diam stimullaşdırıcı dəstək verilməlidir. Digər tərəfdən, bu sferada kövrək addımlayanlara da qayğının artırılması çox vacibdir. Bunun üçün isə bütün müasir sivilizasiyalı ölkələrdə ilkin iqtisadi dəstək kimi vergi konsensusuna nail olunmalıdır.

Kooperativlərin normal fəaliyyəti dövlətin düzgün iqtisadi siyasət yeritməsindən çox asılıdır. Belə ki, əhalinin müxtəlif təbəqələrinin əmək, haqları arasında kəskin fərqlərin mövcud olduğu ölkələrdə kooperativlər heç vaxt normal fəaliyyət göstərə bilməzlər. Bu isə onu subut edir ki, respublikamızda da əməyin dəyərləndirilməsi mexanizmini normallaşdırmaq lazımdır. Burada itirilmiş proporsionallığı bərpa etmək və əmək haqlarını minimum istehlak səbətinə uyğun surətdə nizamlamaq lazımdır.

Kooperasiyanın geniş inkişaf etməsində qiymətlər səviyyəsi də mühüm rol oynayır. Burada qiymətlər kooperativlərlə istehlakçıların və onların məhsullarının istehlak bazarında qarşılıqlı əlaqələrindən daha çox asılı olur. Belə ki, kooperativlər uzun müddət ziyanla işləyə bilməzlər. Təbii ki, istehlakçılar da öz növbəsində gəlirlərinə uyğun gəlməyən, keyfiyyəti aşağı, qiyməti isə yüksək olan malları ala bilməzlər. Məhz buna görə də istehlak bazarı üçün işləyən kooperativlərə qiymətqoyma problemləri düzgün həll edilməli və bu sahədə onlara geniş hüquqlar və müstəqillik verilməlidir.

Kooperasiya və istehlak bazarı problemlərinin həllində ən çətin məsələlərdən biri də, kooperativlərin maddi-texniki təminatıdır. Əlbəttə, kooperativlərə öz ehtiyaclarını ödəmək üçün təkrar resursları mənimsəmək də vacibdir. Digər tərəfdən isə, dövlət resurslarına ehtiyacı artırmaq üçün kooperativlər özləri cəsarətlə məmulatı kompleksləşdirən xammal istehsalını inkişaf etdirməlidir ki, dövlət resurslarına ehtiyacı azalsın.

Kooperasiyanın düzgün təşkili istehlak bazarının sağlamlaşdırılması ilə birbaşa əlaqədardır. İstehlak bazarının sağlamlaşdırılmasında Azərbaycan İstehlak Kooperasiyasının da üzərinə məsul

vəzifələr düşür. Aparılan tədqiqatlar göstərir ki, bu sahədə Azərbaycan İstehlak Kooperasiyasının da fəaliyətində ciddi əlaqələrin pozulması, istehsal üçün xammal qıtlığı yaratmış müəssisələrin özəlləşdirilməsindəki problemlər daha da mürəkkəbləşmişdir. Əvvəllər kolxoz və sovxozlarla yanaşı sənaye və ticarət təşkilatlarının yardımçı təsərrüfatları mühüm resurslar mənbəyi idi. Təəssüf ki, bu gün respublikamızda nə dövlət, nə də istehlak kooperasiyasının köməkçi təsərrüfatları demək olar ki, fəaliyyət göstərmir. Halbuki kooperativlər əsas diqqəti əhalinin tələbində baş verən dəyişikliklərə yönəltməlidirlər.

Apardığımız tədqiqatlar göstərir ki, istehlak malları bazarında kooperasiyanın fəaliyyəti bu gün heç də tam qənaətbəxş hesab edilə bilməz. Bu baxımdan da respublikamızda kooperasiyanın istehlak bazarının stabilləşdirilməsində rolunu artırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- kooperasiya ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi, daha da genişləndirilməsi və onun fəaliyyət səmərəliliyini stimullaşdıran əlverişli iqtisadi mühitin formalaşdırılması;
- respublikada kooperativ hərəkatını akitivləşdirən uzunmüddətli dövlət proqramının işlənib hazırlanması və reallaşdırılması;
- kooperasiyanın diversifikasiyası prosesinin reallaşması üçün yeni fəaliyyət istiqamətlərinin (*elm və təhsil, informasiya texnologiyaları, konsaltinq xidməti və s*) və məhsul çeşidinin artırılması prosesinin stimullaşdırması;
- kooperasiyanın fəaliyyətində dövlət müəssisələrini imitasiya etmək meyillərinin məhdudlaşdırılması, onun başlıca təsərrüfat mexanizminin yeni tələbata uyğun xalq istehlakı mallarının istehsalına yönəldilməsi;
- kooperasiya prinsiplərinin möhkəmləndirilməsi, müvafiq sahədə təbliğat-təşviqati işlərin gücləndirilməsi, onların yeni təsərrüfatçılıq metodları ilə zənginləşdirilməsi.

Kooperasiyanın inkişaf tələblərinə uyğun gələn bu reallıqları kooperativ fəaliyyətinin planlaşdırılması və reallaşdırılmasında nəzərə almaq lazımdır. Belə ki, kooperativ dəyərlər və prinsiplər istehlak kooperasiyasında profesional menecment üsulları və metodlarını dəyişikliklərə uğradır və onun yeni mahiyyətdə inkişafa istiqamətləndirir. Burada bir xüsusi cəhət də qeyd olunmalıdır ki, müasir zamanda inkişaf etmiş ölkələrin iqtisadi həyatında transmilli kooperasiyaların rolu və əhəmiyyəti artmaqdadır. Bu da ondan irəli gəlir ki, həmin kooperativ qurumların maliyyə əsasını səhmdar kapital təşkil edir. Bu kapital isə çoxsaylı nəhəng səhm payçılarını özündə birləşdirir. Nəzərə alsaq kı kooperativ hərəkətının əsas məzmununu demokratizm, bərabərlik, həmrəylik, əməkdaşlıq təşkil edir və bu prinsiplər nəhəng kapital axınını qaynaqlandırır, onda koopersiyanın transmili gücü aydınlıqla sezilir. Bu mənada da, qlobal dünyada gedən proseslərdən bəhrələnərək, respublikada yeniləşmədə və dərinləşmədə olan istehlak bazarına uyğun olaraq, kooperasiyanı daha da inkişaf etdirmək mümkündür. Belə səmərəliliyə nail olmaq üçün isə fəaliyyət göstərən kooperativlərin inteqrasiyasının güclçəndirilməsi üçün də stimullaşdırıcı tədbirlər görülməlidir.

# X FƏSİL.

# İSTEHLAK KOOPERASİYASININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 10.1. İstehlak kooperasiyasının inkişafında dövlətin tənzimləyici rolunun yüksəldilməsi

İqtisadiyyatda istehlak kooperasiyasının dinamik və səmərəli inkişafına yönəldilmiş tədbirlər nəticə etibarilə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində və satış, təchizat problemlərinin həllində önəmli rol oynayır. Bu sırada istehlak kooperasiyasının inkişafı, o cümlədən istehlak birliklərinin inkişafına yardım göstərilməsi ilə bağlı dövlət dəstəyinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Aparılan araşdırmalardan məlum olur ki, istehlak bazarının formalaşdırılması sahəsində respublikada çox ciddi işlər görülür. Ölkədə aparılan iqtisadi islahatlar, sahibkarlığın inkişafı və bütün bunlar ərzaq və qeyri-ərzaq malları istehsalının getdikcə artmasına səbəb olur.

İqtisadi islahatların mühüm şərtlərindən biri də əhalinin ərzaqla təmin edilməsidir. Müstəqil dövlətçiliyimizi qoruyub saxlamaq, onun müdafiə qüdrətini gücləndirmək, elm və mədəniyyətimizi inkişaf etdirmək, dünya dövlətləri səviyyəsinə çatdırmaq üçün xalqımızın maddi rifahını yaxşılaşdırmaq məqsədilə əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək əsas şərtlərdən biridir. Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün daxili istehsalı inkişaf etdirmək zəruri şərt kimi həmişə ön plana çəkilməlidir. Problemin uğurlu həlli üçün əhalinin bütün ərzaq, o cümlədən taxıl məhsullarına tələbatını təmin etmək və adambaşına taxıl istehsalını fizioloji normaya çatdırmaq lazımdır. Geniş ərzaq potensialına malik olan respublikamız hələlik ərzaq məhsullarına, o cümlədən çörəyə olan tələbatını daxili istehsal hesabına ödəyə bilmir. Ölkəmizdə ət və

ət məhsulları, süd və süd məhsullarına olan tələbatın 60%-i idxal hesabına ödənilir. Odur ki, ölkəmizin idxaldan asılılığını azaltmaq və əhalinin ərzaq məhsullarına olan tələbatının təmin edilməsi üçün elmi cəhətdən əsaslandırılmış proqramların işlənib hazırlanması lazımdır [00].

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, yoxsulluğun aradan qaldırılması torpaqlardan səmərəli istifadə edilməsini, kənd təsərrüfatının intensiv inkişaf etdirilməsini tələb edir. Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsinin etibarlı təminat mexanizminin formalaşdırılması istehlak bazarının tənzimlənməsini obyektiv zərurətə çevirmişdir. İstehlak bazarında bolluq və sabitlik yaratmadan əhalinin etibarlı sosial müdafiəsini təmin etmək mümkün deyildir. Dünya təcrübəsinə əsaslanaraq deyə bilərik ki, dövlətlərin istehlak bazarını tənzimləmə imkanları və üsulları ölkənin iqtisadi inkişaf səviyyəsindən, təbii-iqtisadi xüsusiyyətlərindən və s. amillərdən asılı olaraq müxtəlifdir. Materialların təhlilindən irəli gələrək belə bir fikir söyləımək mümkündür ki, istehlak bazarının tənzimlənməsi aşağıdakı tələblərlə bağlıdır:

- ölkənin özünü zəruri istehlak malları, əsasən də ərzaqla təminetmə səviyyəsinin yüksəldilməsi (*ərzaq təhlükəsizliyinin təmin olunması və s.*);
- qiymətlərin kəskin dəyişməsinin qarşısının alınması;
- istehsal sahələri arasında əlaqələrin optimallaşdırılması;
- kənd təsərrüfatı istehsalı ilə məşğul olan işçilərin gəlirləri ilə digər sahələrdə çalışan işçilərin gəlirləri arasında uyğunsuzluqların aradan qaldırılması;
- yerli istehsalçıların xarici rəqabətin mənfi təsirlərindən qorunması;
- tələbə təsir göstərmək məqsədilə qiymətlərin tənzimlənməsi;
- vergi, kredit və subsidiya kimi vasitələrlə istehsalın tənzimlənməsi;

- ❖ istehsalın səviyyəsindən asılı olmayaraq əmtəə istehlakçılarına (*aztəminatlı əhali təbəqələrinə*) dövlət yardımı;
- ❖ xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi və s.

Məlum olduğu kimi, bazar münasibətləri şəraitində istehlak bazarında təklif daxili istehsal və idxal mənbələri hesabına, tədiyə qabiliyyətli tələb istehlakçıların gəlir mənbələri hesabına, qiymət isə tələb-təklif əsasında daxili və dünya bazar qiymətlərinin qarşılıqlı təsiri altında formalaşır. Deməli, ölkədə bazar iqtisadiyyatının təşəkkülü və inkişafı şəraitində normal istehlak bazarının formalaşması istehsal, xarici ticarət-iqtisadi əlaqələr və gəlirlər arasında dinamik tarazlığın təmin olunmasını nəzərdə tutur. Bu reallıq qloballaşma tələblərindən də irəli gəlir.

Hər bir dövlət öz iqtisadi siyasətini ölkənin strateji maraqları nəzərə alınmaqla milli iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından qarşıda duran vəzifələrə müvafiq surətdə həyata keçirir. İqtisadiyyatda istehlak kooperasiyası sahəsində münasibətlər əsasən hüquqi və iqtisadi metodlarla tənzimlənir. Hökumətlərin istehlak kooperasiyasına, o cümlədən istehlak kredit birliklərinin yaradılmasına artan diqqəti, hazırda Avstraliya, ABŞ, İrlandiya, Kanada, Koreya, Tayvan və bir sıra digər ölkələrdə bu hərəkatın genişlənməsinin həlledici amillərindəndir. Bəzi keçid ölkələrində də kənd istehlak-kredit birliklərinin formalaşmasında dövlətin müvafiq qurumlarının fəal mövqeyi müşahidə edilir. Xeyli dərəcədə bunun nəticəsidir ki, Rusiya Federasiyasında, Ukraynada, Belarusda, Latviyada və digər postsovet məkanı dövlətlərində kənd istehlak kooperasiyasının təşəkkülündə inamlı artım müşahidə olunur [137, 149].

Əlbəttə, istehlak kooperasiyasının dəstəklənməsində dövlətin təsirinin əsas istiqaməti tənzimləmədir. İstehlak kooperasiyasında müvafiq tənzimləyici funksiyaları icra edən bu və ya digər qurumun fəaliyyəti üçün hüquqi zəmin yaradılması, təşkilati-hüquqi əsasların formalaşması və istehlak kooperativlə-

rinə münasibətdə dövlət siyasətinin prioritetlərinin əsaslandırılması aid edilməlidir.

İstehlak kooperativlərinin mövcud olması və normal fəaliyyəti üçün hüquqi zəmin yaradılması məqsədi ilə dövlət kooperativlərin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar işləyib hazırlayır və qəbul edir, kooperativlərin payçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Təşkilati-hüquqi əsasların formalaşması müstəvisində dövlət istehlak kooperativlərinin inkişaf proqramlarını işləyib hazırlayır və qəbul edir, büdcə xərclərini müəyyən edir, kreditlər və subsidiyalar verir, iqtisadiyyatın bu sahəsinə investisiyaların artımına şərait yaradır [148].

İstehlak kooperativlərinə münasibətdə dövlət siyasətinin həyata keçirilməsi istiqamətlərinin işlənib hazırlanması əhəmiyyətli vəsait və vaxt sərfi tələb edir. Belə ki, dövlət büdcə-vergi və pul-kredit siyasəti vasitələrindən istifadə etməklə, istehlak kooperativlərinə vergi, kredit və sığorta güzəştləri təqdim edir.

Dövlət müstəqilliyinin bərpasının ilk illərində Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti səmərəli adlandırmaq mümkün deyil. Ölkənin inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı münasibətlərinə keçid dövründə başlanmış iqtisadi islahatlar kənd təsərrüfatına və xüsusilə aqrar sənaye kompleksinə təsir göstərirdi. Bu, çox ağrılı bir proses oldu. Bazar münasibətlərinə keçid zamanı tələskənlik, qərarlaşmış infrastrukturun elmi cəhətdən lazımınca əsaslandırılmadan yenidən qurulması ciddi neqativ nəticələrə gətirib çıxarmışdı. Bu vəziyyətin səbəblərindən biri ondan ibarət idi ki, aqrar sahədə dəyişikliklər dəqiq ifadə edilmiş konsepsiya olmadığı halda başlanmışdı. Həmin dövrdə zəruri qanunverici bazanın olmaması da belə vəziyyətin daha bir səbəbi hesab edilə bilər. Ötən əsrin 90-cı illərinin əvvəlində başlanmış iqtisadi islahat ölkənin aqrar sektorunda konstruktiv dəyişikliklər aparılmasını nəzərdə tuturdu. Bu proses aqrar islahat aparılmasını, aqrar sahədə dominant forma almış ictimai təsərrüfatların yenidən təş-

kil edilməsini, özəl bölmənin inkişafını əhatə edirdi. Ümumi göstəricilərə görə mühakimə yürütsək, nəzərdə tutulan dəyişikliklərin müəyyən qədər öz məqsədinə çatmasını söyləmək olar: torpaq üzərində mülkiyyətin dövlət formasının inhisarı, kolxozlar və sovxozlar ləğv edilmiş, mülkiyyətin müxtəlif formaları yaranmışdır.

Transformasiya mərhələsinin ilk illərində kənd əhalisinin həyat səviyyəsi pisləşmiş, bir sıra sosial problemlər yaranmışdı. Kənd təsərrüfatı məhsullarının idxalının artması və bu məhsulların dempinq qiymətləri üzrə satılması nəticəsində kənd təsərrüfatı qurumlarının iqtisadi vəziyyəti mürəkkəbləşmişdir. Həmin illərdə sənaye və kənd təsərrüfatı məhsullarının qiymət dispariteti və kənd əhalisinin tədiyə qabiliyyətinin aşağı olması da mənfi rol oynamış, heyvanların və quşların baş sayı kəskin şəkildə azalmış, istehsal və sosial infrastruktur, kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdir. Görülmüş sistemli tədbirlər nəticəsində son onillikdə xırda əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalçıları təbəqəsi formalaşmışdır. Rəsmi statistik məlumata görə Azərbaycan Respublikasında son illər aqrar sahibkarların sayı artmağa meyilli olmuşdur [160].

Kooperasiyanın inkişafı kənd təsərrüfatının inkişafının institusional formasına çevrilməkdədir. Bütün dünyada fermerlər çətin vəziyyətlərdən çıxmaq və səmərəli işləmək üçün müxtəlif kooperativlərdə birləşirlər. Qabaqcıl ölkələrin əksəriyyətində istehlak kooperasiyası kooperativ təşkilatının mühüm elementinə, onun inkişafının sürətləndiricisinə çevrilmişdir. Son illərdə respublikada aqrar istehsalçılar arasında da birləşmə meyli qismən müşahidə olunur.

Kooperatorların fəallığı bir sıra problemlərlə üzləşir. Bu problemlər qanunvericilik, normativ və metodik bazanın zəif olması, nümunəvi nizamnamələrin, birmənalı qeydiyyat prosedurlarının olmaması və başqa amillərlə bağlıdır. Təsərrüfat kateqoriyalarından asılı olmayaraq, əmtəə istehsalçılarının, xüsu-

silə bu sahədə işləyən fərdi sahibkarların kooperasiyasının lazımi səviyyədə dəstəklənməsi indiki mərhələdə iqtisadiyyatın inkişafına təkan verə bilər.

Mərkəzləşdirilmiş iqtisadiyyat şəraitində istehlak kooperasiyasının inkişafında, eləcə də onun maliyyələşməsi və kreditləşməsi mexanizmində inzibati elementlər üstünlük təşkil edirdi. Həmin dövrdə qısamüddətli kreditlər aşağı faiz dərəcəsi ilə verilsə də, təsərrüfatlar, adətən kreditləri qaytarmır, həmin kreditlərin daim hesabdan silinməsi isə kreditin mahiyyətinə xələl vururdu.

İstehlak kooperasiyasının ötən əsrin 90-cı illərinin ortalarından etibarən iqtisadi cəhətdən böhrana məruz qalması nəticə etibarilə bir sıra təsərrüfatların, anbarların, istehsal və tədarük müəssisələrinin itirilməsinə gətirib çıxarmışdır. Bu isə onunla bağlı olmuşdur ki, istehlak kooperasiyaları bazar şəraitində təsərrüfat hesabı və öz xərcini ödəmə prinsipi əsasında işləmək iqtidarında olmamışdır. Bundan əlavə, uzun illər formalaşmış iqtisadi əlaqələrin kəsilməsi, eləcə də daxili istehlak bazarının çevik şəkildə qorunmaması nəticə etibarilə istehlak kooperasiyasında fəaliyyət göstərən strukturların maliyyə maraqlarını tam mənası ilə zərbə altında qoymuşdur [130, 148].

Apardığımız araşdırmalar göstərir ki, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq, istehlak kooperasiyalarının inkişafında güzəştli kreditin rolu nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu, Mərkəzi Bankın təkrar maliyyələşdirmə dərəcəsini artırması ilə əlaqədar olmuşdu. Eyni zamanda kompensasiya ödənilmədən kreditlərə görə faiz dərəcəsi artırılmış və bu dərəcə bazar konyunkturuna əsasən müəyyən edilməyə başlamışdı.

İstehlak kooperasiyaları əksər hallarda kənd yerlərində fəaliyyət göstərdiyindən, banklar üçün arzuolunan dərəcədə cəlbedici deyildir. Kənd təsərrüfatı istehsalında riskin yüksək dərəcəsi, başqa sahələrlə müqayisədə bu fəaliyyət növünün rentabellik göstəricisinin aşağı olması, borclanın kifayət qədər girov təminatının olmaması, kreditin məbləği kiçik olduqda

bank tərəfindən kreditin rəsmiləşdirilməsi ilə bağlı baha başa gələn prosedurlar üçün səmərəsiz xərclər belə vəziyyəti şərtləndirən amillərdir. Bu təsərrüfatlarda maliyyə hesabatının sadələşdirilmiş formasının onların rentabellik səviyyəsi və kredit qabiliyyəti barədə dəqiq təsəvvür yaratmaması amili də bu baxımdan az rol oynamır.

Tədqiqatlar və xarici təcrübə göstərir ki, fiziki və hüquqi şəxslərin üzvlük əsasında, yaşayış yerlərinin, əmək fəaliyyətinin, peşə mənsubluğunun ümumi olması və ya qarşılıqlı kreditvermə yolu ilə xüsusi pul vəsaitlərinin yığılması üçün şərait yaradan hər hansı başqa ümumilik prinsipi üzrə könüllü şəkildə birləşməsindən ibarət olan kooperativ kredit institutları mühüm rol oynaya bilər.

Kənd istehlak kooperativlərinin inkişafının təhlili göstərir ki, kooperasiya hərəkatını fəal dəstəkləməyə ehtiyac vardır. Bu vasitə ilə kənddə sosial problemləri həll etmək üçün çox böyük imkanlar vardır. O cümlədən, regionlarda istehlak kooperasiyası aqrar sahibkarlığın inkişafına, kənd əhalisinin sosial-mədəni şəraitinin yaxşılaşdırılmasına, məşğulluğun təmin edilməsinə və kənd əhalisinin maddi rifah səviyyəsinin artırılmasına yönəldilmiş imkanlar böyükdür.

Kənd təsərrüfatı kooperasiyasının inkişafında dövlətin fəal mövqeyi aqrar sahənin inkişafına müsbət təsir göstərir. MDB məkanında bu istiqamətdə qazanılan təcrübə diqqətəlayiqdir. Deyək ki, Rusiyada qəbul edilmiş «1996-2000-ci illərdə aqrar-sənaye istehsalının sabitləşdirilməsi və inkişafı proqramı»nda kənd təsərrüfatı kooperasiyasının inkişafı aqrar siyasətin ən mühüm prioritet istiqamətlərindən biri kimi qəbul edilmişdir.

Araşdırmalar göstərir ki, müvafiq proqramlarda kənd təsərrüfatı kooperativlərinin və onların birliklərinin səmərəli fəaliyyəti üçün hüquqi, iqtisadi və təşkilati şərait yaradılması; məhsulun emalı və satışı, kreditvermə və sığorta, aqroservis kooperativ infrastrukturunun formalaşması; təsərrüfatçılığın kooperativ formalarına maliyyə-kredit dəstəyi mexanizminin təkmil-

ləşdirilməsi; kənd təsərrüfatı kooperativlərinin və onların ittifaqlarının elmi, informasiya-məsləhət və kadr təminatı sisteminin inkişaf etdirilməsi nəzərdə tutulmalıdır.

Kənddə kooperasiya hərəkatına maliyyə dəstəyi yerli özünüidarə orqanları ilə birlikdə kənd təsərrüfatı kooperasiyasının inkişafına dair regional proqramlarla uzlaşdırılmalıdır. İstehlak kooperasiyasına dəstək verilməsi tədbirlərinin sistemliliyi sahə səviyyəsində təmin edilməli, makrosəviyyəli koordinasiya ilə müşayiət olunmalıdır.

İstehlak kooperasiyasının inkişafına dair xarici təcrübədə, müvafiq prioritetlər kimi, aşağıdakılar şərh olunur [160, 179]:

a) istehlak kooperativlərinə qanunla reqlamentləşdirilən vergi güzəştləri təqdim edilməsi yolu ilə onların yaradılmasının stimullaşdırılması;
b) istehlak kooperativləri qarşılıqlı yardım və qarşılıqlı kreditvermə kassaları kimi işləməli olduğuna görə onların Mərkəzi Banka ayırmalar etməsi və bank normativlərini yerinə yetirməsi tələb olunmur. Bu isə kredit dərəcələrini kommersiya kreditləri ilə müqayisədə əhəmiyyətli dərəcədə azaltmağa imkan verir;
c) dövlət kreditləri verilərkən və istehlak kooperativini təşkil etmiş kənd təsərrüfatı müəssisələrinə sərmayə qoyularkən istehlak kooperativləri zəmanətçi rolu oynaya bilər; zəmanət fondlarının və kənd istehlak kooperativlərinin dəstəklənməsi. İnkişafın əsas istiqamətləri: kənd istehlak kooperativləri üçün təminat və dəstək fondlarının yaradılması; kənd istehlak kooperativləri üçün start kapitalının təmin edilməsi; kənd istehlak kooperativlərində əmtəə istehsalçılarına verilən borclar üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması.

Kənd istehlak kooperativlərinin inkişafına dair keçid iqtisadiyyatlı ölkələrdə hazırlanmış məqsədli proqramlarda qeyd edilir ki, kənd istehlak kooperativləri elə bir sistemdir ki, regionlarda investisiya prosesinin bərpa edilməsi, xırda əmtəə

istehsalının və şəxsi sahibkarlığın inkişafı, kənd əhalisinin həyat səviyyəsinin artırılması bu proses vasitəsi ilə həyata keçiriləcəkdir. Həmin proqramlarda kənd istehlak kooperativlərinin inkişafının aşağıdakı vəzifələri xüsusi qeyd edilir [148, 160]:

- kiçik və orta aqrobiznesin özünümaliyyələşdirmə mexanizminin formalaşması və effektiv inkişafı üçün təşkilati, iqtisadi və sosial şəraitin yaradılması və təmin edilməsi;
- əmtəə istehsalçılarının, sahibkarların, kənd əhalisinin münasib aqrobiznes vasitələri ilə təmin edilməsi;
- kənd sakinlərinə göstərilən maliyyə xidmətləri spektrinin genişləndirilməsi;
- sahibkarlığın inkişafı və təsərrüfat subyektlərinin istehsalının genişləndirilməsi hesabına yeni iş yerləri yaradılması;
- kənddə sahibkarlığın informasiya dəstəyinin təmin edilməsi;
- istehlak kooperasiyası sistemi vasitəsi ilə kənddə mənzil tikintisi proqramlarının reallaşdırılması.

Kənd istehlak kooperativlərinin inkişafına ictimai təşkilatlar həlledici təsir göstərə bilər. Bu baxımdan Azərbaycanda təsis edilmiş Kredit İttifaqları Assosiasiyasının fəaliyyətə başlaması təqdirəlayiqdir. 2007-ci ildə həmin Assosiasiyanın ABŞ Beynəlxalq İnkişaf Agentliyi ilə birgə işi yaxın perspektivdə müvafiq istiqamətdə fəallığın artacağı barədə nikbinliyə əsas verir.

Assosiasiyadan verilən məlumatlara görə, hazırda kredit ittifaqları xarici donorlardan alınan vəsaitlə fəaliyyət göstərir. Göründüyü kimi, aqrar sahənin inkişafının bu mühüm istiqamətində hökumətin fəal mövqe tutmasına obyektiv zərurət vardır. Bir çox ölkələrdə olduğu kimi, assosiasiyanın məqsədi - öz üzvlərinin hüquqlarını müdafiə etmək və onların mənafelərini təmsil etmək, sahibkarlıq fəaliyyətini əlaqələndirmək, kənd təsərrüfatı istehsalının özəl sektorunu əlaqələndirmək və möhkəmləndirməkdir.

İstehlak kooperasiyasının inkişafında dövlətin fəal tənzimləyici rolu məqsədli proqramların hazırlanması və icrası yeniləşmələrin dəstəklənməsi, ixracın subsidiyalaşması və digər istiqamətlər üzrə reallaşdırıla bilər.

«Xarici təcrübədə kənd təsərrüfatı məhsullarının ixracını stimullaşdırmaq məqsədi ilə dövlət kooperativlərə ixrac subsidiyaları ayırır. Dövlət kreditlərinin, subsidiyaların, dövlətin əhəmiyyətli köməyinin nəticəsində Fransa və Yaponiyada kənd təsərrüfatı istehlak kooperativi sistemi formalaşmışdır». Qabaqcıl təcrübə göstərir ki, kredit ittifaqlarının işinin əsas istiqamətləri bunlardır: kənd istehlak kooperativləri ittifaqının iştirakçılarının yerli özünüidarə orqanlarında, ictimai təşkilatlarda təmsil edilməsi, onların hüquq və mənafelərinin müdafiəsi; istehlak kooperativlərinin fəaliyyətinin əlaqələndirilməsi; normativ texniki bazanın işlənib hazırlanması; istehlak kooperativlərinin inkişafı uçun Azərbaycan və beynəlxalq maliyyə təşkilatlarının investisiya və texniki köməyinin cəlb edilməsi; ölkədə istehlak kooperasiyası ilə bağlı beynəlxalq layihələrin həyata keçirilməsinə kömək; istehlak kooperativləri uçun kadrların öyrədilməsi və hazırlanması; kənd istehlak kooperativlərinin yaradılması və fəaliyyət məsələlərinə dair məsləhət xidmətləri; mövcud istehlak kooperativlərinə və təşəbbüs qruplarına praktiki və metodik kömək; istehlak kooperativlərinin yaradılması və fəaliyyəti ilə bağlı tədris vəsaitlərinin və metodiki tövsiyələrin işlənib hazırlanması və yayılması.

Dövlətin istehlak kooperasiyasının inkişafına aşağıdakı istiqamətlərdə dəstək verməsi məqsədəuyğundur:

- kənd təsərrüfatı istehlak kooperativlərinin yaradılmasına və fəaliyyətinə dair normativ-texniki sənədlər paketinin işlənib hazırlanması, biznes planların tərtib edilməsi, mühasibat uçotu və maliyyə təhlili məsələlərinə dair proqram təminatının mənimsənilməsi;
- kredit ittifaqları çərçivəsində daxili audit sisteminin yaradılması; ittifaqın üzvləri, dövlət və nəzarət orqanları

arasında normativ-hüquqi münasibətləri tənzimləmək məqsədilə kənd istehlak kooperativlərinin fəaliyyət standartlarının işlənib hazırlanması, ittifaqın özülü olan kənd istehlak kooperativləri üçün vahid mühasibat uçotu və hesabat sisteminin tətbiq edilməsi, regional təhsil mərkəzlərinin və məsləhət xidmətlərinin yaradılması;
- ➢ kredit əməliyyatlarının kompüterləşdirilməsinə kömək, vahid informasiya məkanının yaradılması və i. a.

İstehlak kooperasiyasının çoxsəviyyəli sisteminə dövlətin fəal təsirinə, tənzimləyici rolunun yüksəldilməsinə ehtiyac vardır. Xüsusi kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi potensialının və sosial statusunun möhkəmlənməsinə, kənd təsərrüfatı fəaliyyəti üçün makroiqtisadi şəraitin yaxşılaşdırılmasına, məhsulun əmtəə keyfiyyətinin artırılması üçün müxtəlif proqramlarda nəzərdə tutulmuş stimullar yaradılmasına yönəlmiş tədbirlər şaquli (*çoxsəviyyəli*) kooperativlərin inkişafına kömək edəcəkdir.

Bu mərhələdə aşağıdakı məsələlər xüsusi rol oynayır:

- ❍ yollar şəbəkəsi, nəqliyyat vasitələri, anbar təsərrüfatı yaradılması, nəqliyyat tariflərinin aşağı salınması;
- ❍ ərzaq mallarının və kənd təsərrüfatı xammalının bazarlara yol tapmasında və satış fəaliyyətinin təhlükəsizliyinin artırılmasında inzibati maneələrin aradan qaldırılması;
- ❍ dövlət aqrar və ərzaq siyasəti haqqında, kreditlər, vergilər, subsidiyalar, ticarətin həcmi, qiymətlər və s. məsələlər barədə vaxtında və keyfiyyətli informasiya təqdim etməyə qabil olan informasiya sistemlərinin inkişafı.

Milli və regional proqramların işlənib hazırlanması və həyata keçirilməsi yolu ilə kooperativ hərəkatına dövlət dəstəyi gücləndirilməlidir. Kənd təsərrüfatı kooperativlərinin və onların ittifaqlarının dəstəklənməsinin əsas istiqamətləri aşağıdakılardır:

- ➢ kooperativ müəssisələrinin bütün müxtəlif növlərinin maddi-texniki bazasının və istehsal infrastrukturunun formalaşması;

- ➢ kooperativlər vasitəsi ilə satılan kənd təsərrüfatı məhsulları və onlardan hazırlanmış, dövlət ehtiyacları üçün göndərilən ərzaq mallarının zəmanətli minimal satınalma qiymətlərinin tətbiq edilməsi;
- ➢ kooperativlər tərəfindən öz üzvləri üçün müvafiq istehsal vasitələri alınarkən bütün kənd təsərrüfatı əmtəə istehsalçıları üçün qüvvədə olan dotasiya və kompensasiyaların təqdim edilməsi;
- ➢ kooperativ müəssisələrə müvafiq avadanlığın və texnikanın lizinq üzrə alınması üçün ilkin ödənişlər aparılmasında güzəştlər təqdim edilməsi;
- ➢ aqroservis, məhsulun emalı, saxlanması və satışı üzrə kooperativlərin inkişafına, resursların ünvanlı bölüşdürülməsi bazasında, əsasən müsabiqə yolu ilə, həmin resurslardan istifadənin effektivliyi və onlara tələbat hökmən əsaslandırılmaq şərti ilə investisiya kreditlərinin ayrılması.

Müasir şəraitdə kənd təsərrüfatı kredit kooperativlərinin yaradılması və işləməsi təcrübəsi hələlik azdır. Kənddə informasiya-məsləhət işləri zəif aparılır, buna görə də təsərrüfatların sahibləri yeni formalara (*kənd təsərrüfatı kooperativlərinə*) inanmırlar. Kadrların hazırlanması və onların ixtisasının artırılması məsələlərinə ciddi diqqət yetirilməlidir. Bir sözlə, ciddi dövlət dəstəyi tədbirləri kompleksi həyata keçirilmədən kənd təsərrüfatı kooperasiyasının uğurla inkişaf etdirilməsi mümkün deyil.

Kreditin kooperativlərin informasiya və kadr təminatının yaxşılaşdırılması dövlətin fəal iştirakı ilə həyata keçirilə bilən aşağıdakı tədbirləri nəzərdə tutur[84, 115, 116]:

- ⇨ aqrar islahatın həyata keçirilməsi və kənd təsərrüfatı kooperasiyasının inkişaf etdirilməsi üzrə regional əlaqələndirmə-məsləhət və informasiya mərkəzlərinin təşkil edilməsi. Bəzi regionlarda kənd təsərrüfatı kooperativlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmini və dövlət dəstəkləmə tədbirlərinin baza

modelləri şəbəkəsinin yaradılması, regional və federal səviyyəli kooperativ ittifaqlar yaradılması məqsədəuyğundur; kənd təsərrüfatı kooperativlərinin inkişaf göstəriciləri sisteminin işlənib hazırlanması və bu məlumatların sistematik olaraq Dövlət Statistika Komitəsinin nəşrlərində dərc edilməsi;

- kənd təsərrüfatı profilli ali məktəblərdə və kolleclərdə fənn kimi kənd təsərrüfatı kooperasiyasının iqtisadiyyatı və təşkili kursunun tədris edilməsi;
- kənd təsərrüfatı tədris müəssisələri nəzdində ixtisasartırma ilə aqrar-sənaye kompleksi idarəetmə orqanlarının kooperasiya məsələləri üzrə işçilərinin və kənd təsərrüfatı istehsalçılarının hazırlanması sisteminin genişləndirilməsi.

Respublika əhalisinin mallara olan tələbatının öyrənilməsinin qeyri-səmərəliliyinin əsas səbəbi, qeyd edildiyi kimi, malların istehsalı və satışı sistemində rəqabətin olmaması, sənayenin, kənd təsərrüfatının qeyri-mobilliyi, eləcə də tələbatın öyrənilməsinin sənaye müəssisələrində deyil, ticarətdə təmərküzləşməsidir. Sənaye müəssisələrində tələbatın öyrənilməsi ilə ən yaxşı hallarda satış şöbələri məşğuldurlar. Bununla əlaqədar olaraq tələbatın öyrənilməsi sistemi də dayanıqlı deyil.

Satış bazarlarının tədqiq olunması bazarda baş verən bütün situasiyalar haqqında məlumatın daimi toplanması və işlənməsi əsasında həyata keçirilir. Əldə olunmuş məlumatlar əsasında bazarın əsas yönümü haqqında nəticə və satışın gələcək proqnozu verilir. Proqnozun əsas metodlarına ekspert qiymətləndirmə, trendlərin ekstrapolyasiya metodu, modelləşdirmə, korrelyasiya analizi metodları aid edilir. Qeyd etmək lazımdır ki, əhalinin tələbatının öyrənilməsi üçün bütün bu metodlardan istifadə edilir. Statistik məlumatların təhlili və proqnozlaşdırılması metodları baxımından bazarın öyrənilməsi texnologiyası xarici firmaların marketinq tədqiqatları ilə praktiki olaraq eynilik təşkil edir. Tələbatın öyrənilməsinin son mərhələsi - isteh-

salın həcminin artması və ya azaldılması əhalinin tələbatının həcminin müəyyən edilməsidir [130].

Bazarın marketinq tədqiqatlarının ikinci mərhələsini firmaların fəaliyyətinin öyrənilməsi və təhlili təşkil edir. Bunun nəticəsində mövcud və potensial rəqiblərin müəyyən edilməsi həyata keçirilir.

Tədqiqatın üçüncü istiqaməti - satışın mümkün kanalları, satış şəbəkələrinin inkişaf meyilləri barədə məlumat verməyə imkan verir. Bu, malın daha optimal kanalının seçilməsinə imkan verir. Marketinq tədqiqatlarının dördüncü istiqaməti - firma özünün son qərarını çıxarmaq məqsədi ilə məhsula olan tələb və təklifin uzunmüddətli dinamikasını qiymətləndirir. Beləliklə, balanslaşdırma işin stabilliyini təmin etməklə yanaşı, strateji istiqamətləri müəyyən edən marketinq xidmətləri əmtəə-bazar münasibətləri şəraitində müəssisələrin, firmaların istehlak bazarında səmərəli fəaliyyət göstərməsinə imkan verir. Məhz bu şəraitdə vahid iqtisadi, texniki və habelə istehsal-satış orqanizminin formalaşması prosesi baş verir. Marketinq istehlak bazarının mikrosəviyyədə idarəedilmə konsepsiyasıdır.

Daxili ticarət sisteminin dövlət tərəfindən tənzimlənməsinin əsas istiqamətləri milli istehsalçını dəstəkləməklə daxili bazarın səmərəli qorunmasından; sağlam rəqabət mühitinin formalaşdırılması və qorunub saxlanmasından; daxili ticarət və xidmət sferasına xarici investisiyaların cəlb edilməsindən; istehlakçı hüququnun səmərəli müdafiəsindən; maldaşınma prosesinin institusional təminatının gücləndirilməsindən və s. əməli tədbirlərin həyata keçirilməsindən; logistika xidmətinin inkişaf etdirilməsindən; ticarət prosesinin texnoloji təminatından; vergiqoyma, lisenziya, kvotaların tətbiqində sahəvi xüsusiyyətlərin nəzərə alınmasından və s.-dən ibarətdir [110, 130].

Ticarət sistemini funksional istiqamətdə sərbəstləşdirməklə yanaşı, ona müvafiq dövlət qurumları tərəfindən (*İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Ticarət-Sənaye Palatası və s.*) nəzarət edilir.

Əksər dövlət orqanlarının müsabiqələr əsasında satınalma hüququ vardır. Dövlət alışı prosesində həm əmtəə istehlakçısı, həm də vasitəçi iştirak edə bilər. Satınalma mövcud bazar qiymətləri əsasında aparılır.

Yekun olaraq qeyd etmək lazımdır ki, mal və xidmətlərin istehlak bazarının idarəetmə konsepsiyası kimi marketinqdən istifadə olunması ilə əlaqədar olaraq, nazirliklər, müəssisələr, səhmdar cəmiyyətlər və müxtəlif istehsalçılar səviyyəsində kadrların hazırlığına ciddi yanaşılmalıdır.

## 10.2. İstehlak kooperasiyası sferasında daxili auditin təşkili prinsipləri və fəaliyyət effektivliyi

Daxili audit - iqtisadi subyektin özünənəzarət şəbəkəsi kimi, bir çox metodik, prosedur və təşkilati tədbirlərin vəhdətində olmaqla, səmərəli maliyyə-təsərrüfat fəaliyyətində tətbiqini tapır. O, nəzarətin aparılması şərtlərinə istinad edərək, idarəetmənin üslub və fəlsəfəsini, təşkilatların strukturu, vəzifə səlahiyyətlərinin bölgüsü, nəzarət metodu, təsərrüfata təsir edən xarici faktorları və s. əhatə edir. Qanuni tələblərə, normativ hüquqi aktlara uyğun fəaliyyət dövriyyəsində bütün iyerarxik səviyyədə əmr və sərəncamların yerinə yetirilməsi, sənədlərin dəqiq uçotu, nöqsan və səhvlərin qarşısının alınması, mühasibat uçotu hesabatlarının vaxtında hazırlanması, aktivlərin qorunması və sair müvafiq istiqamətlər daxili audit sferasına aid atributlardandır. Ümidli funksional nəzarət şəbəkəli daxili auditi birbaşa rəhbərliyə tabe olan və faktiki daxili nəzarəti həyata keçirən təftişçilər, təftiş komissiyaları, auditor qrupları təmsil edir. Təhlil, uçot, nəzarət və planlaşdırmanın inteqrasion sistemi kimi, xərclər və mənfəətin səmərəli idarə olunması məqsədlərini ifadə edən cəhətləri ilə xarici (*kənar*) auditdən mahiyyətcə fərqlənən daxili auditin müstəqilliyi nisbətən şərtidir. Bu da təşkilatdaxili struktur özəlliyindən irəli gəlir. Məhz buna görə də onun ali məqsədini xarici auditin

mərtamlarına uyğun hesabatların doğru və düzgünlüyünün təsdiqi deyil, daha çox resurs itkilərinin qarşısının alınmasını təmin edən rasional nəzarət sistemi təşkil edir. Daxili və xarici auditi ayıran mühüm konkret şərtləri aşağıdakı kimi təsnifləşdirmək mümkündür[63, 146]:

- auditin məqsəd və vəzifə leytmotivi;
- informasiyaların təhlil və emal xarakteri;
- istifadəçilərin müxtəlifliyi;
- icra fərqliyi.

Daxili və xarici auditin informatik müstəvidə fərqliliyi də diqqəti cəlb edir. Belə ki, xarici audit dərc edilmiş hesabat göstəriciləri bazasında, məhdud informatik şəraitdə fəaliyyət göstərir. Daxili audit bütün mövcud informasiyalarla yanaşı, dar çərçivədə məlum olam konfidensial, kommersiya sirrli məlumatlar, satış və mənfəət proqnozları, yeni güclərin buraxılışı üzrə smeta və kalkulyasiya sənədləri, marketinq tədqiqatlarının nəticələri və bu kimi analoji komponentlərlə də əhatələnir. Məhz buna görə də, ölkə qanunvericiliyi belə informasiyaları müəssisədənkənar istifadəçilər üçün məhdudlaşdırır. Xarici audit kənar istifadəçilərin maraqlarında təsərrüfatın göstəriciləri, biznes uğuru, maliyyə çevrikliyində əks olunarsa, daxili audit bütünlükdə müəssisədə səmərəli nəticələrə nail olmaqla, optimal idarəetmə qərarlarının qəbul edilməsində ifadəsini tapır. Daxili auditi təşkilatın müvafiq profilli mütəxəssisləri, xarici auditi isə sərbəst auditorlar və auditor firmaları aparır. Köhnə kompleksdaxili təftiş sisteminə müəyyən oxşarlıqları ilə yanaşı, daxili audit və onu həyata keçirən heyət nəzarəti epizodik deyil, gündəlik, müntəzəm təmin edir və bütün bu nəzarət mexanizmləri təşkilatın daxili işi kimi, onun özü tərəfindən hazırlanmış metod və mexanizmlərdə təsbit olunur. Daxili nəzarət strukturu başlıca olaraq nəzarət mühiti, onun aparılması şərtləri, mühasibat uçotu sistemi və nəzarət prosedurunu əhatə edən iqtisadi elementlərə ehtiva olunur. İnformatik şəbəkə qayda və metodları rəhbər tutan müvafiq elementlər

vəhdətində təşkilatı arzuedilməz risklərdən qoruyur, maliyyə aktivliyini və uçotun səmərəli təşkilini təmin edir[146, 148].

Daxili auditin məqsədini həllinə qatıldığı məsələlərin struktur və spesifikliyi müəyyən edir. Dünya təcrübəsində gəlir və zərərlərin hesabatlarının, Yaponiya da daxil olmaqla, Avroatlantik məkanı əhatə edən iki əsas - ingilis-amerikan və franko-alman tipi mövcuddur. Hazırda hər iki formanın vəhdətində qüsurlardan təcrid olunmuş üçüncü qarışıq tipin də tətbiq sferası genişlənməkdədir. İqtisadi-maliyyə hesabatlandırılmasının beynəlxalq tipoloji təsnifatına verilən bu diqqət çağdaş qlobal iqtisadi məkanda mühasibatlıqda, uçotun digər spektrində belə hesabatlandırmanın dominant mövqeyi, praktiki standartlılığı ilə bağlıdır. Biznesin təşkilində investorun dövlət, kommersiya qurumu və ya azad sahibkar olması asılılığından kənar bütün dövriyyədə müasir audit bu diapazonda səmərəli ümumi mənafe və maraqları ifadə edir. Bununla yanaşı, istehsal xərclərinin kalkulyasiyası prosesində uçot və auditin səmərəliliyini artıran standart və direkt-kostinq sistemli alternativlik də nəzərə alınmalıdır. Smeta normativlərinin dayanıqlığı və kənarlaşması standart-kost, daimi və dəyişən xərclər kontekstində marjinal gəliri ifadə edən direkt-kost sistemlərinin seçim aspekti daxili auditin təşkilində mühüm əhəmiyyət kəsb edir.

Müəssisənin işgüzar mühiti haqqında müstəqil informasiya tələbini ödəyən, təsərrüfat subyektinin mühasibat sənədlərinin düzgünlüyünü, aparılan əməliyyatların mövcud normativ hüquqi bazaya uyğunluğunu təmin edən xarici audit idarəetmənin mühüm elementi kimi təminatverici, məşvərətçi funksiyaları yerinə yetirən daxili auditin fundamental təşkil edildiyi şəraitdə daha səmərəlidir. Daxili audit xidməti bazar yönümlü istənilən stasionar mühit üçün əsaslı və zəruridir. Mükəmməl bazar infrastrukturunun yaradılmasının labüd komponenti kimi, daxili auditin də iqtisadi həyatımıza tam mənada qədəm qoymasının zamanı yetişmişdir. Bu baxımdan, bazar iqtisadiyyatının öncül seqmentlərindən biri olan daxili auditin də iqtisadi dövriyyəyə qoşulmasına səylə-

rimizi səfərbər etməli və ona nail olmanı əyani nümayiş etdirməliyik [30, 177-181].

Mövcud qanunvericiliyə görə kooperasiya sferasında maliyyə və təsərrüfat fəaliyyəti üzrə nəzarəti ictimai əsaslarla fəaliyyət göstərən təftiş komissiyaları reallaşdırırlar. Bu komissiyalar əsasən mal-material qiymətlilərinin qorunması üzrə texniki nəzarət funksiyalarını yerinə yetirilər. Onların fəaliyyəti əksər hallarda invertarlaşmanın aparılması və onunla bağlı sənədləşmələrin yoxlanışı ilə məhdudlaşır. Təcrübə göstərir ki, təftiş komissiyaları struktur qurumlarının tam ölçüdə fəaliyyətinə nəzarəti həyata keçirə bilmir. Bu baxımdan Azərittifaqın nəzdində daxili audit şəbəkəsinin qurulması obyektiv zərurət kimi ortaya çıxır.

Daxili audit iqtisadi subyektin özünənəzarət şəbəkəsi olaraq müxtəlif metodik, prosedur və təşkilati tədbirləri əhatə etməklə səmərəli təsərrüfat, maliyyə fəaliyyətində tətbiqini tapır. Qanuni tələblərdən irəli gələrək fəaliyyət dövriyyəsində bütün əmr və sərəncamların yerinə yetirilməsi, sənədlərin dəqiq uçotu, nöqsan və səhvlərin qarşısının alınması, mühasibat uçotu hesabatlarının hazırlanması, aktivlərin qorunması və sair bu kimi prosedur aktlar daxili audit sferasının sturktur komponentlərindəndir. Daxili auditin bu tələb şərtlilikləri böyük təsərrüfat kompleksli müvafiq kooperasiya təşkilatı üçün də adekvatdır. Bununla belə, məxsusi fəaliyyət funksionallığı ilə fərqlənən bu təşkilatda daxili audit sisteminin formalaşdırılması ilə bağlı bir sıra spesifik cəhətlər və prinsiplər nəzərə alınmalıdır. Azərittifaqın nəzdində daxili auditin şəbəkəsi formalaşdırılarkən müvafiq funksionallıq yalnız sturuktur qurumların fəaliyyət effektliliyinin artırılmasını hədəf götürməməlidir. Burada daha kompleksli məsələlərin həllinin tapılması prioritet vəzifə olaraq qarşıya qoyulmalıdır. Təcrübə göstərir ki, iri kooperasiya qurumlarında daxili audit təşkilatı yaratmaqla təsərrüfat sferasında aşağıdakı məsələlərin həlli imkanları yaranır [178]:

1. Struktur qurumlarının təsərrüfat fəaliyyəti haqqında daha dəqiq və obyektiv informasiya əldə olunur;

2. Kooperativ mülkiyyətin qorunması, səmərəli və məqsədyönlü istifadəsi üzrə nəzarət güclənir;
3. Təsərrüfat fəaliyyəti nəticəsində mümkün və ya faktiki zərərlərin azaldılması və aradan qaldırılması optimallaşır.

Bu prinsipiallıq respublikanın iri kooperasiya təşkilatı olan Azərittifaq üçün də adekvatdır. Burada bir əlamətdar fərqlilik də yaddan çıxarılmamalıdır ki, yaradılacaq daxili audit şəbəkəsi heç də ənənəvi təftiş komissiyalarının əvəz etdirilməsini nəzərdə tutmur. Əslində isə, formalaşdırılacaq daxili audit şəbəkəsi bu təsisatların fəaliyyətini özlərinin funksional kompleksliliyi ilə daha da dolğunlaşdıracaq..

Aparılan təhlil göstərir ki, istehlak kooperasiyası sferasında daxili audit şəbəkəsinin formalaşdırılması aşağıdakı effektlərlə müşayiət olunacaqdır:

- təşkilatdaxili idarəetmədə demokratizmin yüksəlişi;
- daxili nəzarət sisteminin mükəmməlləşməsi;
- mühasibat uçotunun dəqiqliyi və düzgünlüyünün, onun səmərəliliyinin artırılması;
- maliyyə risklərinin mülayimləşdirilməsi;
- mülkiyyətin səmərəli və məqsədyönlü istifadəsi və mühafizəsi;
- təsərrüfat optimallığının və rasional resurs bölgüsünün təminatı.

Bununla belə, yaradılacaq daxili audit şəbəkəsi struktur qurumlarında istehsal və insan resurslarından istifadədə də daha nəticəli metodların tətbiqinə imkan verəcək, daha mükəmməl və əlverişli bazar infrastrukturu formalaşdıracaqdır.

Daxili audit institutu bazar oriyentasiyalı istənilən stasionar mühit üçün əsaslı və zəruridir. Yalnız iri təşkilatlar daxili audit şəbəkəsini yaratmaq imkanındadırlar. Bu baxımdan həm Azərittifaqın özünün mərkəzi və həm də onun iri təsərrüfat qurumlarında daxili auditin yaradılması üçün yetərli imkanlar və zəruri əsaslar mövcuddur. Belə oriyentasiya isə taktiki planda

qurulacaq audit nəzarəti şəbəkəsinin parametrləri və sistem effektivliyinə uyğun olaraq təşkilatdaxili strategiya ilə bir daha əsaslandırılacaqdır.

## 10.3. İstehlak kooperasiyasının çoxsəviyyəli sisteminin formalaşması istiqamətləri

Azərbaycanda həyata keçirilən aqrar islahatların nəticələri müsbət cəhətləri ilə yanaşı, bəzi təxirəsalınmaz vəzifələr qarşıya qoyması ilə xarakterikdir. Bu baxımdan, ilk növbədə, maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi qeyd olunmalı, müvafiq prioritetlərə kənd təsərrüfatı məhsulları istehsalçılarının cəlb olunmuş vəsaitə tələbatının ödənilməsi aid edilməlidir. Artıq qeyd edildiyi kimi, aqrar istehsalçıların kredit tələbatının ödənilməsində müxtəlif mənbələr iştirak edir. Aqrar əmtəə istehsalçılarının və kiçik aqrobiznesin kredit resurslarına olan tələbatının yarıdan çoxu hələ də təmin edilməmiş qalır. Qeyd olunduğu kimi, bir sıra səbəblər üzündən bank sistemi kredit resurslarına artan tələbatı ödəyə bilmir. Xarici ölkələrin təcrübəsi göstərir ki, kommersiya bankları kənd yerlərində sahibkarlarla, ailə-kəndli təsərrüfatları ilə işləməyə hazır deyillər. Digər tərəfdən, formalaşmaqda olan kredit birliklərinin imkanları məhduddur və onların ayrı-ayrılıqda fəaliyyəti aqrar istehsalçıların tələbatını məqbul səviyyədə əhatə etməyi çətinləşdirir. Odur ki, istehlak kooperasiyasının inkişafına, mövcud kredit birliklərinin əlaqələndirilmiş fəaliyyəti üçün çoxsəviyyəli sistemin yaradılmasına ehtiyac vardır.

Lokal kredit birliklərinin çoxsəviyyəli istehlak kooperasiyası sistemi şəklində birləşdirilməsi zərurətə çevrilmişdir. Keçid iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, istehlak kooperasiyasının inkişafının iki yolu sınaqdan çıxarılmışdır. *Birinci* halda regionlarda ayrı-ayrı birliklər yaradılır, onlar bir-birindən asılı olmadan inkişaf edir. *İkinci* halda isə ikisəviyyəli regional sistemlər yaradılır və sonrakı mərhələdə bu sistemlər yüksək pil-

ləli kredit assosiasiyaları şəklində birləşir [75, 76, 79]. Müstəqil və sistem şəklində işləyən kredit birliklərinin fəaliyyət təcrübəsi göstərir ki, sonuncu variant daha perspektivlidir. Çoxsəviyyəli sistemlər dünyada olduğu kimi, bir sıra keçid iqtisadiyyatlı ölkələrdə də özlərini yaxşı cəhətdən göstərə bilmişlər. Rusiya Federasiyasının bir sıra vilayət və respublikalarında bu sahədə müsbət təcrübə toplanmışdır. Baltikyanı ölkələrdə də istehlak kooperasiyası sisteminin yaradılması ən səmərəli və kənd rayonlarının sakinlərinin tələbatına uyğun olan çoxsəviyyəli sistemin formalaşdırılması yolunu tutmuşdur. İkisəviyyəli struktur praktiki cəhətdən daha çevikdir.

Ötən əsrin əvvəlindən başlayaraq Qərbi Avropa ölkələrində çoxsəviyyəli istehlak kooperasiyası modelləri, bir qayda olaraq ikisəviyyəli və ya üçsəviyyəli sistemlər tətbiq edilir. Təqribi hesablamalara görə, hazırda dünyada təqribən 700 milyon nəfər istehlak kooperasiyası ilə əhatə edilmişdir [64, 110]. Hüquqi baxımdan müstəqil olan yerli kredit birlikləri birinci səviyyəli təşkilatlardır. Regional və milli səviyyələrdə ikinci və üçüncü pilləli təsisatlar yaradılır və onlar birinci pilləyə aid təşkilatların işini dəstəkləyir, bu təşkilatlara kömək edirlər. Buraya ilk növbədə, aparıcı banklar, eləcə də başqa tipli maliyyə müəssisələri, sığorta şirkətləri, hesablaşma mərkəzləri aiddir. Çoxsəviyyəli kooperativ maliyyə sistemi bütün qitələrdə, o cümlədən, Hindistanda, Çində və Braziliyada formalaşmış və inkişaf etməkdədir.

Yuxarı səviyyəli istehlak kooperativləri də birinci səviyyəli birliklərlə eyni prinsiplər əsasında qurulur: həmin prinsiplərə aşağıdakılar aiddir: könüllü və aşkar üzvlük, demokratik nəzarət, üzvlərin iqtisadi iştirakı, özünüidarə və müstəqillik, istehlak kooperativinin fəaliyyəti barədə informasiyanın həmin kooperativin payçıları üçün əlyetərli olması, kooperativ üzvlərinin birgə və subsidiar məsuliyyəti. Arayış üçün qeyd edək ki, subsidiar məsuliyyət dedikdə, əsas cavabdeh şəxs borcu ödəyə bilmədikdə müştərək məsuliyyət daşıyan şəxslər qrupunun ayrı-ayrı üzvlərinin üzərinə qoyulan əlavə məsuliyyət başa düşülür.

İkipilləli istehlak kooperasiyası borc vəsaitlərinin qaytarılma göstəricisinin yüksək səviyyəsi ilə səciyyəvi olan dayanıqlı maliyyə sistemləridir. Birinci səviyyəli birliklər müstəqildir və fəaliyyətlə bağlı bütün məsələləri müstəqil həll edirlər. Digər tərəfdən, onlar regional istehlak kooperativinin maliyyə dəstəyinə həmişə bel bağlaya bilərlər, zəruri hallarda bu kooperativ onları borc resursları ilə təmin edir.

Rusiyada istehlak kooperativləri sisteminin təcrübəsi göstərmişdir ki, ikinci səviyyəli kooperativlərdə maliyyə vəsaitlərinin yığılması və formalaşması birinci səviyyəli kooperativlərin hesabına deyil, xarici mənbələrdən (*kommersiya banklarından, fondlardan və digər maliyyə təşkilatlarından*) daxilolmalar, dövlət orqanları ilə fəal əməkdaşlıq və büdcə vəsaitlərinin cəlb edilməsi hesabına baş verir. İkinci səviyyəli kooperativ zəmanət və ehtiyat fondları, istehlak kooperativlərinə maliyyə və hüquqi dəstək sistemi yaratmaqla birinci səviyyəli istehlak kooperativlərinin etibarlı fəaliyyətinin təminatçısı kimi çıxış edir. Yuxarı səviyyəli kooperativlərin bütün fəaliyyəti ilkin istehlak kooperativləri üçün əlverişli şərait yaradılmasına yönəlmişdir [81, 109].

Beləliklə, çoxsəviyyəli istehlak kooperasiyası sisteminin üstünlükləri ondan ibarətdir ki, bu sistem hər bir kooperativin strukturunun təkmilləşdirilməsinə, ikinci səviyyəli kooperativ tərəfindən maliyyə yardımı alınmasına, riskləri azaltmaq məqsədi ilə kooperativin fəaliyyətinin maliyyə baxımından tənzimlənməsinə, vahid normativ sənədlər, kadrların seçilməsinin və hazırlanmasının vahid sisteminin tətbiq edilməsinə kömək edir. Eyni zamanda bu sistem daxili audit, təminatların və sanksiyaların vahid sistemini yaratmağa, idarəetmə orqanları ilə əməkdaşlıq etməyə imkan verir. Kənd təsərrüfatında istehlak kooperasiyasının ABŞ və Qərbi Avropa təcrübəsi göstərir ki, çoxsəviyyəli sistem yaratmağın mümkünlüyü qanunvericilikdə nəzərdə tutulmalıdır. Keçid ölkələrində istehlak kooperativlərini bir sistem kimi nəzərdən keçirən qanunvericilik formalaşmaqdadır.

İstehlak kooperasiyası öz inkişafının ilkin mərhələsində olsa da, təsis edilən assosiasiya kredit birliklərinin fəaliyyətinin koordinasiyasına başlamışdır. Dünya təcrübəsi göstərir ki, ölkənin bütün kredit birliklərini sistem şəklində birləşdirən xüsusi maliyyə təsisatı olmasa, onların fəaliyyəti çətinləşir. Koordinasiya orqanının əsas vəzifəsi aşağı səviyyəli kooperativlər arasında kredit resurslarına tələb və təklifi tarazlaşdırmağı nəzərdə tutmalıdır. Bu, həm vəsaitlərin istehlak kooperativlərində yerləşdirilməsini, həm də müxtəlif maliyyə vasitələri buraxılması yolu ilə kreditlərin investisiyalaşması, təkrar maliyyələşdirilmə üçün vəsaitlər cəlb edilməsi ilə bağlı əməliyyatlar aparılmasını nəzərdə tutur. Rusiyada yaradılmış istehlak kooperativlərinin İnkişaf Fondu birliklərdə istehlak kooperativlərində kredit resurslarına tələbin təmin edilməsinə az-çox dərəcədə kömək edir. Tələbin ödənilməsi aqrar iqtisadiyyata sanballı maliyyə vəsaitləri, sərmayə qoyulması yolu ilə mümkündür. Qabaqcıl xarici təcrübə, o cümlədən Qərbi Avropa ölkələrinin təcrübəsi göstərir ki, bu vəsaitlər dövlətin və müxtəlif əcnəbi tərəfdaşların təqdim etdiyi resurslardan da ibarət ola bilər. Koordinasiyalı idarəetmə həmin vəsaitləri daha səmərəli bölüşdürməyə imkan verər [157].

Aqrar sənaye istehsalı subyektlərinin maliyyə-kredit münasibətlərinin təhlili göstərir ki, milli kənd təsərrüfatı kredit sisteminin inkişafını ləngidən ən azı 3 amil mövcuddur:

1. aqrar sənaye sektorunun maliyyələşdirilməsini və kreditləşdirilməsini təmin edən təsisatlar arasında qarşılıqlı əlaqənin olmaması;
2. kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətinin qənaətbəxş olmaması üzündən onların borc resurslarından istifadə imkanlarının məhdudlaşması;
3. bir sıra yerli, əcnəbi və müştərək fondlar tərəfindən həyata keçirilən çoxsaylı məqsədli proqram və layihələr çərçivəsində maliyyə və pul axınlarının əlaqələndirilməsinin zəruri səviyyəsinin itirilməsi.

Yuxarı səviyyəli maliyyə təşkilatının yaradılmasının üç variantı sınaqdan çıxarılmışdır:

I. Yuxarı səviyyəli kredit birliyinin yaradılması. Bu qurumun formalaşmasında kənd təsərrüfatında istehlak kooperasiyasının İnkişaf Fondu maliyyə baxımından iştirak edə bilər.
II. Bank olmayan depozit-kredit təşkilatı formasında, ixtisaslaşdırılmış kredit təşkilatının qeydiyyata alınması.
III. Yuxarı səviyyəli istehlak kooperasiyası funksiyalarının hər hansı kommersiya bankına həvalə edilməsi.

Onu da qeyd etmək lazımdır ki, müasir mərhələdə kommersiya bankları onlara bu cür funksiyalar həvalə edilməsinə hazır deyil. Belə ki, birincisi, istehlak kooperasiyası bazarı maliyyə baxımından banklar üçün cəlbedici deyil. Digər amil, iqtisadiyyatın kənd təsərrüfatı sektoruna xas olan yüksək risk dərəcəsidir. Nəhayət, yuxarı səviyyəli istehlak kooperasiyası sisteminin funksiyalarının kommersiya bankına həvalə ediləcəyi təqdirdə aktivlərin və passivlərin strukturunun yenidən qurulması hökmən lazım gələcəkdir. Bu isə indiki mərhələdə bank sektorunun qeyri-sabitliyi şəraitində təşkilatın sabitliyini poza bilər. Yuxarı səviyyəli istehlak kooperativinin yaradılması variantı az məbləğdə maliyyə resursları sərf edilməsi və müvəqqəti məsrəflərin əhəmiyyətli dərəcədə azalması ilə bağlıdır.

Kredit birliyinin Mərkəzi Bankdan lisenziya almasına ehtiyac yoxdur. Deməli, banklar və bank fəaliyyəti haqqında qanuna görə kredit təşkilatları üçün tələb edilən kapitalın artırılması da zəruri olmayacaq. Bu variant ikisəviyyəli istehlak kooperasiyası sistemini az vaxtda və daha az məsrəflərlə formalaşdırmağa imkan verərdi. Yuxarı səviyyəli istehlak kooperasiyasının elə əməliyyatları yerinə yetirməsi tələb ediləcəkdir ki, onların yalnız kredit təşkilatı tərəfindən aparılmasına icazə verilmişdir.

Təqdim edilən yanaşmada bir sıra mənfi məqamlar mövcuddur. Kredit birliklərinin resurs bazasını formalaşdırmaq imkanları məhduddur. Maliyyə dəstəyi hələ ki, əsasən xarici təşkilatlardan alınır. Bir məsələni xüsusi qeyd etməyə dəyər. Yuxarı səviyyəli kooperativlərin vəziyyəti sabit olmayan və yeni yaradılan kooperativləri dəstəkləməsi resurs bazasının tükənməsinə gətirib çıxara bilər. Odur ki, verilən kreditlərin dayanıqsız kredit birliklərində əriyib gedəcəyi təhlükəsi nəzərə alınmalı, əsaslandırılmış fəaliyyət strategiyası hazırlanmalı və həyata keçirilməlidir.

Milli maliyyə təsisatı kimi ikinci səviyyəli kredit təşkilatı yaradılması çox perspektivlidir. İkinci səviyyəli istehlak kooperativi ilə müqayisədə bu təşkilatın ilkin kooperativləri kreditləşdirməkdən ötrü resurs bazası yaratmaqda imkanı geniş olacaqdır.

Vəsaitlər aşağıda göstərilən mənbələrdən cəlb edilə bilər:

- banklararası kreditlər;
- hüquqi şəxslərin müddətli depozitləri;
- hüquqi və fiziki şəxslərdən alınan borclar;
- büdcə kreditləri, subsidiyaları və subvensiyaları.

Sözügedən qurumun təsisçiləri İstehlak Kooperasiyasının İnkişaf Fondu, əcnəbi tərəfdaşlar və kredit birlikləri olmalıdır. Yaradılan təşkilat maliyyə vasitəçisi rolu oynamaqla, istehlak kooperasiyası sektoruna və kiçik aqrobiznesə xidmət edə bilər. Sınaqdan çıxmış qabaqcıl təcrübəyə əsasən demək olar ki, nəzərdə tutulan maliyyə təsisatı iki müxtəlif təşkilati-hüquqi formada yaradıla bilər:

- kommersiya bankı;
- bank olmayan depozit-kredit təşkilatı (*BODKT*).
- BODKT təşkilati-hüquqi formalar həm qeydiyyat proseduruna görə, həm də onların yerinə yetirə biləcəkləri əməliyyatların siyahısına görə bir-birindən fərqlənir.

Aşağıda bank olmayan depozit-kredit təşkilatı və kommersiya bankının ikinci səviyyəli istehlak kooperasiyası sistemi təşkilatı kimi qeydiyyatının və onların fəaliyyətinin təşkilinin müqayisəli xüsusiyyətlərini əks etdirən şəkil verilmişdir:

***Şəkil 10.1***

**Bank olmayan depozit-kredit təşkilatı və kommersiya bankının ikinci səviyyəli istehlak kooperasiyası sistemi təşkilatı kimi qeydiyyatının və onların fəaliyyətinin təşkilinin müqayisəli xüsusiyyətləri**

| ***Qeydiyyatın və fəaliyyətin təşkilinin xüsusiyyətləri*** | **Kommersiya bankı** | **BODKT** |
|---|---|---|
| ***Qeydiyyat və lisenziya alınması prosesi*** | **Standart** | **Ən operativ** |
| ***Maliyyə bazarına çıxış*** | **«Banklar və bank fəaliyyəti haqqında» federal qanuna müvafiq olaraq bank əməliyyatlarının tam siyahısı** | **Bank əməliyyatlarının məhdud çeşidi** |
| ***Risk dərəcəsi*** | **Yüksək** | **Aşağı** (*yerinə yetirilən əməliyyatların əhatə dairəsinin məhdud olması ilə əlaqədar*) |
| ***Gəlirlilik*** | **Yüksək** (*spekulyativ əməliyyatlar aparılmasının mümkünlüyü ilə əlaqədar*) | **Aşağı** |

Depozit və kredit əməliyyatları aparan, bank olmayan kredit təşkilatlarının fəaliyyətinin hüquqi bazası yaradılmalıdır. Xarici təcrübəyə müvafiq olaraq bank olmayan depozit-kredit təşkilatı aşağıdakı əməliyyatları apara bilməz:

a) əhalidən əmanətlər və hüquqi şəxslərdən tələb edilənə qədər depozitlər cəlb edilməsi;

b) fiziki və hüquqi şəxslər üçün bank hesablarının açılması və idarə edilməsi,
c) pul və digər vəsaitlərin inkassasiyası, fiziki və hüquqi şəxslərə kassa xidməti,

Bank olmayan depozit-kredit təşkilatı aşağıdakı əməliyyatları apara bilər:

- ⇨ üçüncü şəxslərdən pul şəklində öhdəliklərin yerinə yetirilməsini tələb etmək hüququnun əldə edilməsi;
- ⇨ pul vəsaitlərinin və əmlakın fiziki və hüquqi şəxslərlə müqavilə üzrə etimada əsaslanan idarə edilməsi;
- ⇨ lizinq əməliyyatlarının aparılması;
- ⇨ bina və otaqların fiziki və hüquqi şəxslərə icarəyə verilməsi;
- ⇨ məsləhət və informasiya xidmətləri göstərilməsi.

Məlum olduğu kimi, BODKT-nin qeydiyyata alınması üçün tələb edilən nizamnamə kapitalının həcmində əhəmiyyətli fərq var. Bank yaratmaq üçün zəruri kapital 10 milyon manat, bank olmayan depozit-kredit təşkilatı yaratmaq üçün dəfələrlə az vəsait lazımdır. Minimal nizamnamə kapitalının aşağı səviyyədə müəyyənləşdirilməsi kredit birlikləri üçün çox mühüm fərqdir. BODKT-nin sənədlərin toplanması üçün tələb olunan vaxtı xeyli azaltmaq və qeydiyyat prosedurunu daha operativ şəkildə həyata keçirmək həyati əhəmiyyətə malikdir. Belə ki, BODKT yalnız məhdud çeşidli bank əməliyyatları apara bilər və müvafiq surətdə xərclər də az olur. Təbii ki, işçilərin seçilməsi və əmək haqqı fondu da əhəmiyyətli dərəcədə az olacaqdır.

BODKT müəyyən bank əməliyyatlarını yerinə yetirmək imkanından məhrum olduğu halda kommersiya bankı universal maliyyə vasitəçisi kimi üstünlüyə malikdir. Bununla belə, elə vəziyyət yarana bilər ki, bir müddətdən sonra bank özünün iri müştərilərinə daha çox diqqət yetirməyə başlayar, çünki bu həm sərfəli, həm də xərclərin ödənilməsi üçün zəruridir. Bu halda ikisəviyyəli sistem təşkil edilməsi ideyasının özü puç ola

bilər. Belə ki, sistemin mahiyyəti kiçik və orta biznesə texniki və maliyyə yardımı göstərməkdən ibarətdir.

İnkişafın istənilən mərhələsində bank sektorunda müəyyən qeyri-sabitlik ehtimalı qalır. Buna görə də BODKT üçün əməliyyatların məhdud çeşidi spekulyativ əməliyyatlar aparılmasına qadağa qoyulması hesabına onun daha davamlı olmasını təmin etməli, risklər əhəmiyyətli dərəcədə azalmalıdır. BODKT əhalidən əmanətlər və tələb edilənə qədər depozitlər cəlb etmək imkanına malik olmayacağına görə, bu vəsaitlərin bir anda kənara axması riskini azaldır. Lakin digər tərəfdən, cəlb edilən resursların dəyəri daha çox olacaqdır. Fikrimizcə, bu halda ən düzgün qərar - sabit resurs bazasının xeyrinə seçim etməkdir.

Hələlik Azərbaycan Respublikasında heç bir oxşar təşkilat mövcud olmasa da və təhlilin xalis nəzəri xarakter daşımasına baxmayaraq, yuxarıda gətirilən dəlillər kifayət qədər əhəmiyyətlidir. Tədqiqatların nəticələrinə, ekspert rəylərinə və xarici təcrübəyə əsaslanaraq demək olar ki, BODKT yaratmaq üçün münasib təşkilati-hüquqi forma qapalı səhmdar cəmiyyətidir. Belə ki, kənd təsərrüfatı istehsalçılarının mənafelərinin müdafiə edilməsi məhz qapalı səhmdar cəmiyyətinin yaradılması halında mümkündür, çünki bu təşkilati-hüquqi forma yüksək standartlara cavab verən korporativ idarəetmə sistemi yaratmağa imkan verəcək, mülkiyyətin strukturu, uçot və hesabat şəffaf olacaq, müşahidə və icra xarakterli idarəetmə orqanlarının səlahiyyətləri arasında ciddi hədd qoyulacaqdır. Qapalı səhmdar cəmiyyəti mülkiyyətçilər heyətinin formalaşması və onların qəbul etdiyi qərarlara nəzarət baxımından müəyyən üstünlüklərə malikdir, çünki onun iştirakçılarının sayı 50-dən çox ola bilməz.

Nizamnamə kapitalının formalaşmasında, ilkin mərhələdə xarici təşkilatlara üstünlük verilməsi zərurəti olacaqdır. Bu təşkilatlar istehlak kooperasiyası ilə iş təcrübəsinə malik olan və bu sahədə ixtisaslaşan bir neçə xarici bank ola bilər. Xarici təşkilatların BODKT-də iştirak etməsi ona etimadın səviyyə-

sini artırmağa, səmərəli korporativ idarəetmə və daxili nəzarət formalaşdırmağa imkan verər. Əsas səhmdar Kənd İstehlak Kooperasiyasının İnkişaf Fondu olması məqsədəuyğundur. BODKT-nin nizamnamə kapitalında Kənd İstehlak Kooperasiyasının İnkişaf Fondunun nisbi payı xarici qurumlardan çox olmalıdır. Kapitalın qalan hissəsini regional istehlak kooperativləri formalaşdırmalıdır. BODKT-nin təşkilati strukturu onun həyata keçirməsinə icazə verilmiş bank əməliyyatları ilə birbaşa əlaqədardır və aşağıdakı kimi ola bilər:

***Şəkil 10.2***

**BODKT-nin təşkilati strukturu**

| | | |
|---|---|---|
| **Səhmdarların ümumi yığıncağı** | ↓ | ↓ |
| **Direktorlar şurası** | ⌊ | *Təftiş komissiyası* |
| **İdarə heyəti** | Kredit şöbəsi | *Passiv əməliyyatlar şöbəsi* |
| **Mühasibat uçotu və hesab şöbəsi** | ⌊ | *Aktiv əməliyyatlar şöbəsi* |
| **Daxili nəzarət şöbəsi** | ⌊ | *Valyuta əməliyyatları və qiymətli kağızlarla bağlı əməliyyatlar şöbəsi* |
| ↘ ⊂ | Dəftərxana | ⊃ |
| ↘ ⊂ | Kadrlar şöbəsi | ⊃ |

Göründüyü kimi, BODKT-nin yaxın perspektivdə qiymətli kağızlarla əməliyyat aparması halı nəzərdə tutulur. Kənd istehlak kooperasiyası sisteminin ikisəviyyəli olması məqsədəuyğundur (*Şəkil 10.2.*). Birinci səviyyə - payçılar kənd təsərrüfatı əmtəə istehsalçıları, aqrobiznes və kənd sakinləri olan lokal birliklərlə təmsil edilmişdir. İstehlak kooperasiyası sisteminin ikinci səviyyəsi olan BODKT isə milli səviyyədə yaradılmalıdır.

Əlavə 7-də Kənd İstehlak Kredit Kooperasiyası, bank olmayan depozit-kredit təşkilatı və digər müvafiq infrastruktur qurumlarının qarşılıqlı əlaqəliyini əks etdirən şəkil verilmişdir.

İstehlak kooperasiyasının tövsiyə edilən sistemində təşkilati-hüquqi münasibətlər korporativ mülkiyyət münasibətlərinə əsaslanmalıdır. Sistemin bütün səviyyələrində özünüidarə, qarşılıqlı məsuliyyət və qarşılıqlı yardım prinsipləri reallaşmalıdır. Sistemin hər bir səviyyəsi ona xas olan əməliyyatları yerinə yetirir və beləliklə, əmək bölgüsü prinsipi həyata keçirilir. Birinci səviyyəli istehlak kooperativlərinin əməliyyatları lokal bazarlarla bağlıdır. Onlar öz payçılarına xidmət edirlər. Yüksək həlqə ilə əlaqələr yaratmaq və istər bir regionun ilkin səviyyəli birliklərinin, istərsə də bütün sistemin müvəqqəti sərbəst pul vəsaitlərinin cəlb edilməsi hesabına kredit resurslarının yenidən bölüşdürülməsi üçün zəruridir.

## 10.4. İstehlak kooperasiyasında maliyyə-iqtisadi münasibətlərin təkmilləşdirilməsi

İstehlak kredit kooperasiyasının payçılarının gəliri və birliyin maliyyə vəziyyəti bilavasitə kreditləşdirmə fəaliyyətinin səmərəliliyindən asılıdır. Kredit birliyinin dayanıqlı fəaliyyəti borcların vaxtında qaytarılmasını tələb edir. Məsələ ondadır ki, kredit birliyinin parçalanması onun payçılarının çoxunun müflisləşməsinə gətirib çıxara bilər. Buna görə də kredit riskinin idarə edilməsi hər bir kredit birliyinin mövcudluğu və inkişaf strategiyasının zəruri tərkib hissəsinə çevrilməlidir. Kredit risklərinin qiymətləndirilməsi onların idarəetmə sisteminin yaradılması məsələlərinin kompleks həlli ilə əlaqədardır. Bu sistem kredit siyasətinin və onun həyata keçirilməsi mexanizmlərinin işlənib hazırlanmasını, kredit portfeli riskinin səmərəli idarə edilməsini və başqa tədbirlər görülməsini nəzərdə tutur. [126] Beləliklə, kooperativin sabit işinin ən mühüm şərti borc verilməsi prosedurunun hərtərəfli götür-qoy edilməsidir.

Bundan irəli gələrək tərəfimizdən borc verilməsi barədə qərar qəbul edilməsinin aşağıdakı şəkildən istifadə olunması təklif olunur:

***Şəkil 10.3***

**Kredit ayrılması barədə qərar qəbulu sistemi**

| | |
|---|---|
| ***1. Borcalan*** | 1.1. borc almaq barədə ərizənin verilməsi;<br>1.2. maliyyə hesabatlarının, operativ uçot məlumatlarının, vergi bəyannamələrinin, biznes-planın təqdim edilməsi; |
| ***2. Kredit şöbəsi*** | 2.1. potensial borcalanla müsahibə;<br>2.2. kredit qabiliyyətinin öyrənilməsi;<br>2.3. kredit riskinin qiymətləndirilməsi;<br>2.4. kredit komitəsi üçün kreditin analizi barədə hesabat hazırlanması; |
| ***3. Kredit komitəsi*** | 3.1. potensial borcalanın müraciətinə baxılması;<br>3.2. kredit şöbəsinin materialları əsasında qərar qəbul edilməsi |
| ***4. İmtina*** | borc müqaviləsinin rəsmiləşdirilməsi üçün kredit şöbəsinə rəy verilməsi |
| ***5. Qərar müsbət olduqda*** *(kooperativin sədri)* | rəsmiləşdirilmiş borc müqaviləsinin təsdiq edilməsi |

Kredit birliyi üzvünün maliyyə vəziyyətinin və borcu kreditora vaxtında ödəmək baxımından etibarlılığının təhlil edilməsi üçün çoxsaylı metodikalar vardır. Hazırda kredit fəaliyyətinin təhlilinin ən geniş yayılmış növü beş amili nəzərə alan yanaşmadır. ABŞ bankları çox vaxt bu yanaşmadan istifadə edirlər. Bu təhlil metodu borcalanın fəaliyyət riskini və bununla əlaqədar aşağıdakı amilləri qiymətləndirməyi nəzərdə tutur: borcalanın xarakteristikası, maliyyə imkanları, kapital, əmlak, təminat, ümumi iqtisadi şərait. Müvafiq ədəbiyyatlarda bu yanaşma «5 c» qaydası adını almışdır [126, 130].

Borcalanın xarakteristikası dedikdə, aşagidakılar nəzərdə tutulur:

- onun reputasiyası;
- məsuliyyət dərəcəsi;
- borcu qaytarmağa hazır olması və bunu arzu etməsi;
- onun səriştəlilik dərəcəsi.

Kredit birliyinə müraciəti təhlil edən ilk növbədə borcalanın əvvəllər öz öhdəliklərinə necə yanaşmasını, borcun qaytarılmasında ləngimələrə yol verib-vermədiyi, işgüzar mühitdə onun statusunu aydınlaşdırmağa çalışır. Kredit birliyi özünün gələcək borcalan - payçısını öyrənməli, bu məqsədlə onunla müsahibə aparmalı, şəxsi arxivindəki sənədlərindən, məsləhətləşmələrdən və əlyetərli olan digər informasiyadan istifadə etməlidir.

Borcalanın xarakteri və ya şəxsiyyəti ən mühüm amillərdən biridir və əgər onun şəxsiyyəti şübhə oyadırsa, qalan amillər üzrə qiymətləndirmə aparılmır.

Kredit üçün müraciət edənin maliyyə imkanları - borcalanın krediti ödəmək qabiliyyətini təyin edən amildir. Bu imkanlar borcalanın gəlirlərini və xərclərini, onların dəyişmə perspektivlərini, tədiyə (*bütün borc öhdəliklərini vaxtında və tamamilə yerinə yetirmək*) qabiliyyətini təyin edir.

Borcalanın xüsusi əmlakının (*vəsaitinin*) mövcud olması zəruri amildir. Əmtəə istehsalçısı öz məhsulunu bazara çıxararkən yarana biləcək arzuolunmaz vəziyyətlərdə bu vəsaitlərdən borcu qaytarmaq üçün istifadə edə bilər. Kifayət qədər xüsusi kapitala malik olan borcalan həmişə tam səmərə ilə işləməyə çalışacaqdır. Çünki əks halda o, öz kapitalmı riskə məruz qoymuş olur.

Kapital amilini qiymətləndirmək üçün hər bir əmtəə istehsalçısının əsas maliyyə sənədi olan balansı təhlil edilir. Aqrar sahibkarların balansı sadələşdirilmiş formada, yəni aktivlərin siyahısı şəklində verildiyi üçün kredit şöbəsi bu informasiyanın etibarlılığını yoxlamalıdır. Maliyyə analitiklərindən borcalanın aktivlərini

və passivlərini düzgün qiymətləndirmək, onların keyfiyyətini və dəyərini düzgün təyin etmək, alınan məlumatları əvvəlki balanslarla müqayisə etmək bacarığı tələb edir.

Xarici təcrübədə kreditin və kredit üzrə faizlərin qaytarılmasını təmin etmək üçün borcalan tədiyə qabiliyyətli olmadığı hallarda müxtəlif üsullardan istifadə edilir. Buraya aşağıdakılar aiddir:

- cərimə;
- girov;
- borc müqaviləsinin sığortalanması;
- zəmanətlər.

Təminat üsullarının heç biri borcun qaytarılmasına yüz faiz zəmanət vermədiyinə baxmayaraq, bu vasitədən bütün dünyada geniş istifadə edilir, çünki o, borc əməliyyatlarının riskini xeyli azaltmağa imkan verir. Kredit almaq üçün müraciətə baxılarkən nəzərə alınan amillərə ölkədə işgüzar mühiti şərtləndirən kredit birliyinin və borcalanın vəziyyətinə təsir göstərən ümumi şərait, iqtisadi konyunkturun vəziyyəti, oxşar malın başqa istehsalçıları tərəfindən rəqabət, vergilər, xammalın qiyməti və s. aid edilir.

Kredit verilməsi prosesi bir neçə mərhələdən ibrət olmalıdır. Bu mərhələlərin hər biri əmtəənin keyfiyyət xarakteristikalarına öz təsirini göstərir və kredit birliyi üçün onun etibarlılıq dərəcəsini müəyyənləşdirir:

- kredit almaq üçün sifarişə baxılması və gələcək borc alanla müsahibə;
- müştərinin kredit qabiliyyətinin öyrənilməsi və kredit riskinin qiymətləndirilməsi;
- borc müqaviləsinin hazırlanması və bağlanması;
- sazişin şərtlərinin yerinə yetirilməsinə və borcun ödənilməsinə nəzarət.

Kredit almaq üçün müraciət edən aqrar sahibkar bu barədə sifariş təqdim edir, bu sifarişdə tələb edilən borc haqqında ilkin məlumatlar borcun məqsədi, məbləği, növü və müddəti, nəzərdə tutulan təminatı göstərilir. Xahişin əsaslandırılması kimi xid-

mət edən sənədlər və maliyyə hesabatları sifarişə əlavə edilməlidir. Sənədlər paketinə daxil edilən aqrar sahibkarın aktivlərinin, öhdəliklərinin və kapitalının strukturunu əks etdirir. Sahibkarın daha müfəssəl maliyyə vəziyyəti, onun il ərzində resurslara tələbatının dəyişməsi daxili maliyyə hesabatlarında, eləcə də operativ uçot məlumatlarında əks oluna bilər.

Hazırda kiçik və orta aqrar istehsalçıların səyi ilə sahənin inkişafı prosesi gedir. Ona görə də kredit verilməsi barədə sifarişlərin çoxu hələ maliyyə hesabatları və başqa sənədləri olmayan, bu sahədə yeni fəaliyyətə başlayan istehsalçıların maliyyələşdirilməsi ilə bağlı ola bilər. Bu halda kredit üçün müraciət edən tərəfindən təqdim edilən ətraflı biznes-plandan təhlil məqsədi ilə istifadə edilməsi zəruridir. Biznes-planda məlum olduğu kimi, layihənin məqsədləri, əməliyyatların aparılma metodları barədə məlumatlar, bazarda təklif edilə biləcək məhsulların və ya xidmətlərin təsviri, araşdırma və tədqiqatların planları, sahə və bazar proqnozları, marketinq planı, istehsal planı, menecment planı, maliyyə planı əhatə edilməlidir. Bu sənədlər sifarişin zəruri tərkib hissələridir. Sifarişçi ilə ilkin müsahibədən sonra həmin sənədlər təhlil ediləcək, bu isə sifarişçinin kredit qabiliyyətli olmasını yəqin etməyə imkan verəcəkdir. Kredit üçün sifariş birliyin müvafiq işçisinə təqdim edilir, həmin işçi sifarişi nəzərdən keçirdikdən sonra borcalanla ilkin söhbət aparır. Müsahibə zamanı analitik əsas diqqəti istehlak kooperativi üçün ən əhəmiyyətli əsas baza məsələləri üzərində cəmləşdirir. Müvafiq mənbələrdə sualları bir neçə qrup üzrə bölüşdürmək tövsiyə olunur.

Aqrar istehsalçı və ya sahibkarın kredit qabiliyyətini müəyyən etmək üçün müsahibə sualları:

1. Kredit üçün müraciət edən haqqında məlumatlar.
2. Məhsullar haqqında suallar:
    2.1. Hansı məhsullar var?
    2.2. Menecerlərin təcrübəsi və ixtisas səviyyəsi?
    2.3. Qurum mənfəətlə işləyirmi?

2.4. Əsas malgöndərənlər və onların məhsullarının alıcıları?
2.5. Məhsul hansı şərtlərlə satılır?
3. Borc haqqında müraciətə dair suallar:
3.1. Hansı məbləğdə pul almaq niyyəti var?
3.2. Bu məbləğ necə hesablanmışdır?
3.3. Maliyyə tələbatı proqnozu etibarlıdırmı?
3.4. Aqrar istehsalçının borc almaq istədiyi şərtlər borcun köməyi ilə maliyyələşdirilən aktivlərin xidmət müddətini hesaba almışdırmı?
3.5. Borcun şərtlərində vaxtında ödəmək qabiliyyəti nəzərə alınmışdırmı?
4. Borcun ödənilməsi ilə bağlı suallar:
4.1. Müştəri borcu necə ödəməyi nəzərdə tutur?
4.2. Bir əməliyyat tsikli ərzində nə qədər nağd pul alınır?
4.3. Borcu ödəmək üçün xüsusi mənbə varmı?
4.4. Zəmanət verməyə hazır olan şəxslər varmı və onların maliyyə vəziyyəti necədir?
5. Borcun təminatı barədə suallar:
5.1. Girov kimi hansı təminat veriləcəkdir?
5.2. Təminatın sahibi kimdir?
5.3. Təminat harada saxlanır?
5.4. Təminat müştərinin nəzarətindədirmi və o, satıla bilərmi?
5.5. Təminatı satmaq üçün kiminsə xüsusi icazəsi tələb olunurmu?
5.6. Təminat kimi təklif edilən əmlak necə qiymətləndirilmişdir?
5.7. Təminat korlanmışdırmı?
5.8. Təminatın saxlanması ilə əlaqədar xərclər nə qədərdir?

Adətən müsahibə aparılandan sonra təhlilin növbəti mərhələsi barədə qərar qəbul edilir. Əgər müştərinin təklifi ilə kredit birliyinin siyasətinin mühüm aspektləri arasında fərq olarsa, sifariş rədd edilir. Müraciət ərizəsi baxılmaq üçün qəbul edildikdə kredit istəyəndən alınmış materiallar, kontragentlərdən, əv-

vəlki kreditorlardan alınmış məlumatlar, özəl və dövlət müəssisə və agentliklərinin hesabatlarının istifadə edilməsi əsasında borcalanın kredit qabiliyyəti qiymətləndirilməlidir.

Aparılmış kredit təhlili materialları birlik üzvünün borc almaq üçün müraciət sənədi ilə birlikdə kredit komitəsinə təqdim edilir. Kredit komitəsi analizin materiallarını öyrənir və müsbət qərar qəbul edilən halda borc müqaviləsi bağlanmasına hazırlıq başlanır. Başqa sözlə, borcun əsas xarakteristikaları, o cümlədən kreditin növü, onun məbləği, müddəti, ödənilmə üsulu, təminatı, kreditin qiyməti və digər şərtlər müəyyən edilir. Kredit verilməsi barədə son qərarı birliyin direktoru qəbul edir.

İstehlak kooperativi borcun ödənilməsi müddətlərini düzgün təyin etməlidir. Belə ki, əgər bu müddət kredit alanın tələbləri baxımından az olsa, borcalan özünün normal fəaliyyəti üçün zəruri olan kapitaldan məhrum ola bilər. Digər tərəfdən, kreditin ödənilmə şərtləri həddən artıq liberal olduqda, vəsaitlərin borcalan tərəfindən kreditin məqsədinə uyğun olmayan və nəzarətsiz istifadə edilməsi vəziyyəti yarana bilər.

Kredit birliyi qanunvericiliklə şərtlənmiş mənfəət əldə edilməsini öz qarşısına məqsəd qoymadığı üçün kreditin əsas xarakteristikalarını müəyyən edərkən kooperasiya hərəkatının əsas prinsiplərini rəhbər tutmalıdır. Artıq qeyd edildiyi kimi, mənfəət borc əməliyyatının əsas məqsədinə çevrilməməli, əsas məsələ kiçik və orta aqrar biznesin inkişafına kömək etməkdən ibarət olmalıdır. Əlbəttə, kredit birliyi zərərlə işləyə bilməz. Çünki borc verilən vəsaitlər kooperativin payçı üzvlərinin vəsaitidir və bu vəsaitin itirilməsi ciddi nəticələrə gətirib çıxara bilər. Kredit birliyinin öz üzvləri və tərəfdaşları ilə qarşılıqlı münasibətlərinin iqtisadi mexanizminin təkmilləşdirilməsinin bir istiqaməti də istehlak kooperasiyasında informasiyanın idarə edilməsi sisteminin tətbiq edilməsidir. Bu sistem kredit birliyinin rəhbərlərinə və işçilərinə kooperativin fəaliyyətini təhlil etmək, onun cari problemlərini aşkar etmək, səmərəli idarəetmə qərarları qəbul etmək imkanı verir. Mühasibat uçotu məlumatları, statistik məlumatlar,

borc müqavilələri ilə iş, əmanətlərlə iş məlumatlarını məcmu halında araşdırmağı tələb edir.

İstehlak kooperasiyasının idarəetmə-informasiya sistemləri XX əsrin 90-cı illərində yaranmışdı və bu sistemlər rəhbərlik üçün informasiya axınlarını tənzimləmək cəhdindən irəli gəlmişdi. Bu sistem birliyin rəhbərliyinə xüsusi hesabatları bir neçə ay gözləmədən satışlar barədə informasiyanı və başqa məlumatları tezliklə əldə etməyə imkan verirdi. Müvafiq mənbələrdən göründüyü kimi, əməliyyatların səmərəli idarə edilməsi və aqrobiznesin planlaşdırılması məqsədi ilə məlumatların toplanması, saxlanması, çıxarılması, ötürülməsi və istifadə edilməsi üçün nəzərdə tutulan insan-maşın sistemidir [148, 160].

İnformasiya-idarəetmə sisteminin tətbiq edilməsi ölkədə kredit birliklərinin sayının intensiv artımı zərurəti ilə bağlıdır. Formalaşmaqda olan kredit birlikləri uçot prosesinin daha yüksək səviyyəyə çatdırılmasını, onun bank standartlarına yaxınlaşmasını tələb edir. Araşdırmalar göstərir ki, kooperativlərin çoxu hələ də əvvəlki qaydada kağız texnologiyalarından istifadə edir, müasir proqram təminatının tətbiqini az müşahidə etmək olar. Kredit birliklərinin payçılarının sayı artdıqca kooperativin əməkdaşlarına düşən işin həcmi və yerinə yetirilən əməliyyatların həcmi də artır. İnformasiya-idarəetmə sistemləri kredit birliklərinin fəaliyyətini avtomatlaşdırmaqla bu məsələni qismən həll edə bilər.

Xarici təcrübə göstərir ki, adətən əvvəlcə mühasibat uçotu avtomatlaşdırılır. Bu məqsədlə müvafiq kompüter texnikası və mühasibat proqramları alınır. Proqram təminatını alarkən onun istifadə ediləcəyi ərazidə bu məhsulun texniki dəstək xidmətinin olmasına və kompleksin hansı qaydada yeniləşdiriləcəyinə fikir vermək lazımdır. Növbəti mərhələdə birliyin əsas fəaliyyətinin avtomatlaşdırılması nəzərdə tutulur. Bunu bir neçə yolla - yeni proqram təminatı alınması, hazır proqram məhsulunun təshih edilməsi yolu ilə etmək olar.

Prinsipcə öz proqram məhsullarını yaratmaq variantı daha etibarlıdır. Belə ki, bu halda borc verilməsi işini tamamilə av-

tomatlaşdırmaqla və biznes planlaşdırmadan istifadə etməklə, birliyi səmərəli idarə etməyə imkan yaranır. Bununla belə, kredit birliklərinin maliyyə durumu və kadr təminatının mövcud vəziyyəti, yaxın illərdə bu variantı reallaşdırmağı çətinləşdirir. İnformasiya emalının avtomatlaşdırılması şəraitində kredit birliyi üzrə bütün məlumatlar bir yerdə cəmləşir, bu isə rəhbər, mühasib, kredit analitiki və başqa mütəxəssislər üçün avtomatlaşdırılmış iş yerlərini tənzimləməyə imkan verir. Direktor cari fəaliyyəti təhlil etmək əsasında çevik idarəetmə qərarları qəbul edə bilər. Bu halda operativlik artır və hər hansı hesabat formalarını dərhal almaq üçün imkan yaranır. İnformasiyanın idarə edilməsi sistemi ilkin məlumatların toplanması, onların işlənməsi və idarəetmə qərarlarının qəbul edilməsi, bu informasiyaların əlaqədar istifadəçilərə təqdim edilməsi məqsədilə tətbiq üçün formalaşdırılması tədbirləri və prosedurların ardıcıllığından ibarətdir.

Hesabatlar və maliyyə göstəriciləri kredit birliyinin maliyyə vəziyyətinin monitorinqi və idarəetmə qərarlarının qəbul edilməsi baxımından ən mühüm informasiyadır. Bu sistem çoxsaylı maliyyə göstəricisinin hesablanması və təhlil edilməsinə əsaslanır.

Göstəricilərlə iş ardıcıllığı aşağıdakı kimidir [148, 178]:

- statistik təhlil;
- trend (*dinamik*) təhlili;
- indikatorların qarşılıqlı əlaqəsinin təhlili;
- hesabatın tərtib edilməsi.

Statistik təhlil hər bir göstəricinin qiymətləndirilməsi və həmin göstəricinin faktiki qiymətinin müəyyən edilmiş normativlə müqayisə edilməsini, trend və ya dinamik təhlil bir neçə zaman kəsiyi müddətində hər bir göstəricinin dəyişməsinin qiymətləndirilməsini nəzərdə tutur.

İndikatorların qarşılıqlı əlaqəsinin təhlili. Yaranmış vəziyyətin səbəblərinin müəyyən edilməsi və aradan qaldırılması mərhələlərinin ardıcıllığından ibarətdir. Hesabatların tərtib

edilməsi informasiyanın idarə edilməsi sistemi çərçivəsində istehlak kooperativinin rüblük və perspektiv hesabatlarının tərtib edilməsi nəzərdə tutulur.

Nəhayət, informasiyanın idarə edilməsi sistemi kredit birliyinin maliyyə dayanıqlığını əks etdirən vahid göstəricinin hesablanması əsasında həyata keçirilir. Bu göstərici əsasında kredit birliyinin cari vəziyyətinin başqa kooperativlərin vəziyyəti ilə və ya həmin kooperativin əvvəlki dövrlərdəki vəziyyəti ilə müqayisə etmək, zəif cəhətləri aşkar etmək və təxirəsalınmaz müdaxilə zəruri olduğu hallarda ətraflı fəaliyyət planını qısa müddətdə işləyib hazırlamaq olar.

İdarəetmə informasiyası sisteminin tətbiq edilməsi prosesi bir neçə mərhələdən ibarətdir. Bunlar aşağıdakılardır:

- birlikdə proqram təminatının yaradılması;
- konkret kooperativin real məlumatları əsasında həmin sistemlə işləmək üçün ilkin təlimat keçirilməsi;
- sistemin nəzəri əsaslarının və müvafiq tədbirlərin məzmununun öyrənilməsi;
- sistemə aid tədris-metodik materialların təqdim edilməsi.

İnkişaf etmiş ölkələrin istehlak kooperasiyasında yüksək sürətli lokal hesablama şəbəkələrinin inkişafı, tətbiqlərin sürətlə işlənib hazırlanması və inkişaf etmiş qrafik istifadəçi interfeyslərindən istifadə edilməsi nəticəsində idarəetmə-informasiya sistemləri inkişaf edərək korporativ informasiya sistemləri və ya effektivliyə nəzarət sistemləri şəklində fəaliyyət göstərir. Kredit birlikləri üçün informasiya-idarəetmə sistemi yaradılarkən məsələnin bu aspektinin nəzərə alınması məqsədəuyğundur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Kooperasiya nəzəriyyəsinin tarixi aydınlıqla kooperativ yaranışların zəruriliyinə, onların müxtəlif ölkələrdə təşəkkül prinsipləri, sosial-iqtisadi mahiyyətinin analitik izahını verməklə həmcinin inkişaf xüsusiyyətlərinə də aydınlıq gətirir. Buradan irəli gələrək, bizim tədqiqat araşdırmamızda da kooperasiyanın keçmişdən gələcəyə, qloballaşma müstəvisinə qədər keçdiyi yolun xüsusiyyətləri təhlil olunmuş, ölkədə istehlak kooperasiyasının mövcud vəziyyəti qiymətləndirilmiş, genişlənən bazar iqtisadiyyatı şəraitində kooperativ hərəkatın inkişaf perspektivlərinin mühüm və başlıca istiqamətləri müəyyənləşdirilmişdir.

Bazar iqtisadiyyatında xərclər və iqtisadi təzadların tənzimlənməsinin sosial mexanizmlərindən biri kimi kooperativlər ayrı-ayrı ölkələrdə eyni iqtisadi tələb və maraqlardan yaranmasa da, onlar daim ümümi təzahürdə vahid bir pirinspliyə xidmət etmişlər. Təcrübə göstərmişdir ki, kooperasiya əhalinin ümumi təşkilatı deyildir. O, əhalinin yalnız bir qisim sosial təbəqəsinin müəyyən təsərrüfat tələblərinin ödənilməsinin xidmətində dayanmışdır.

Kooperasiya bazar sisteminin bitkin hissəsi olaraq özünün fəaliyyət prinsipləri və mexanizmlərinin bütövlüyünə əsaslanaraq digər ictimai iqtisadi strukturlarda da yüksək həyat qabiliyyəti nümayiş etdirir. Burada sistem stabilliyini paradoksal xarakterizə edən bir səciyyəvi xüsusiyyət də önəm daşıyır. Belə ki, mövcudluğundan 160 ildən də çox zaman keçməsinə baxamayaraq, ötən müddət ərzində kooperasiyanın Roçdeyl prinsiplərinə fundamental olaraq heç bir yeni əlavə qatılmamışdır. Kooperasiyanın başlıca - könüllülük, müstəqillik, demokratizm, düzlük dəyərləri bu gün də dəyişilməz qalır. Bu prinsipləri dəyişmə cəhdləri isə kooperasiyanın dövlətsizləşdirilməsinə və ya səhmdar cəmiyyətə cevriləməsinə gətirmişdir. Bunlar isə artıq kooperasiya deyildirlər.

Aparılan təhlillə müəyyən edilmişdir ki, kooperasiya o zaman təzahür edir ki, bazar sferasına əhalinin daha geniş kütlələri cəlb olunur və bu zaman müvafiq əhali qrupları həm istehsalçı və həm də istehlakçı formasında müqabil iqtisadi strukturlar yaradırlar. Onun miqyası isə əmtəə münasibətlərinin genişlənməsindən asılı olaraq inkişaf edir. Alınan ən mühüm tədqiqat nəticələri də bir daha aydınlığı ilə isbatlayır ki, qloballaşan dünya iqtisadiyyatı yaxın və orta perspektivdə də - dövlət, özəl və kooperativ olaraq üç sektorlu istiqamətlərdə inkişaf edəcəkdir. Bu isə o deməkdir ki, kooperasiya mühüm bir iqtisadi kateqoriya olmaqla, hələ uzun müddət bəşər övladının xidmətində dayanacaqdır. Bütün bunlar ümumi toplumda bir daha bizim tədqiqat predmetinin aktuallığını, bununla da bu araşdırmalar əsasında əldə edilən nəticələrin elmi-nəzəri və praktiki əhəmiyyətini yüksəldir. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətində yerinə yetirilən tədqiqat isinin daha geniş çərçivədə nəticələrini isə aşağıdakı kimi səciyyələndirmək olar:

- ✧ kooperasiyanın təşəkkülü, elmi-nəzəri əsasları və tarixi inkişaf mərhələləri sferasındakı araşdırmaları qloballaşma aspektləri ilə uzlaşdırılaraq müvafiq ümumiləşdirmələr aparılmış və onun nəzəri konsepsiyası yeni reallıqlara uyğun müddəalarla zənginləşdirilmişdir;
- ✧ kooperativlərin formalaşmasının sosial-iqtisadi əsasları araşdırılaraq, kooperasiya münasibətlərinin inkişafına təsir edən amillər təsnifləşdirilmiş, transformasiya yönümlü dəyişikliklərin kooperasiya münasibətlərinin inkişafında rolu öyrənilmişdir;
- ✧ Azərbaycanda istehlak kooperasiyasının müasir dövrdə inkişafı və formalaşmasının spesifik xüsusiyyətləri aşkara çıxarılmış, istehlak kooperasiyasının mövcud vəziyyəti təhlil olunmuşdur;
- ✧ Azərbaycan Mərkəzi Kooperativlər İttifaqının (*«Azərittifaq»)* milli kooperativ inteqrasiyada əhəmiiyyəti və

onun respublikada kooperasiyanın inkişafindakı rolu qiymətləndirilmişdir;

✧ istehlak kooperasiyasının tənzimlənməsinin əsas istiqamətləri, onun prinsip, forma və metodları, bazar özünütənzimləmə mexanizminin kooperasiyanın inkişafına təsiri müəyyən edilmişdir;

✧ kredit kooperasiyasının spesifik xüsusiyyətləri, onun təşkilati-iqtisadi aspektləri öyrənilmiş və onların Azərbaycan Respublikasında təsisatlandırılmasının genişləndirilməsi əsaslandırılmışdır;

✧ kənd təsərrüfatına göstərilən maliyyə-kredit xidmətinin vəziyyəti, aqrar sektorun "Aqrarkredit» Səhmdar Kredit Təşkilatı, Birgəborclular qrupları və Kredit Birlikləri vasitəsi ilə kreditləşdirilməsi tədqiq olunaraq qiymətləndirilmiş və müvafiq maliyyə və iqtisadi effektivliyi göstərilmişdir;

✧ respublikada istehlak bazarının müasir vəziyyətinin təhlili aparılmış, mövcud potensial imkanlar aşkara çıxarılaraq onun çoxsəviyyəli sisteminin formalaşmasının əsas istiqamətləri təyin edilmişdir;

✧ istehlak bazarının təminatında emal sənayesinin rolu qiymətləndirilmiş, istehlak kooperasiyasında iqtisadi münasibətlərin təkmilləşdirilməsində maliyyə sağlamlaşdırılması tədbirləri müəyyən olunmuşdur;

✧ xarici rəqabətin əlverişsiz təzahürlərindən kooperativ sektorun effektiv şəkildə müdafiə edilməsinin çevik iqtisadi mexanizmi müəyyənləşdirilmişdir;

✧ istehlak kooperasiyasının bazar, xidmət və digər subyektlərlə inteqrasiyasının prioritet istiqamətləri müəyyənləşdirilmişdir;

✧ kooperativ effektivlik, kooperasiya müəssisələrinin qloballaşma sferasına adaptasiyası, inteqrasiya şəraitində Azərbaycanda istehlak kooperasiyasının perspektiv-

liyi təhlil olunmuş, davamlı inkişafı səciyyələndirən əsas amillər müəyyənləşdirilmişdir;

- bazar iqtisadiyyatı və dərinləşən qloballaşma şəraitində kooperasiya münasibətlərinin təkmilləşdirilməsi problemləri tədqiq olunmuş, Azərbaycanda kooperativ təsisatlandırmaların genişləndirilməsinin iqtisadi inkişafa verəcəyi töhfələr göstərilmışdır;
- Türkiyə Respublikasında, ümumilikdə türk dünyası ölkələri arasında kooperasiya əlaləqərinin inkişaf istiqamətləri təhlil edilmiş və Azərbaycanda kooperasiyanın inkişafında bu təcrübədən istifadənin səmərəliliyi əsaslandırılmışdır.

Kooperativ prinsiplərin genesizi və təkamülü üzrə aparılan tədqiqatlar yalnız onların təşəkkül səbəblərini anlamağa deyil, həm də gələcək zamanlarda da kooperasiyanın, xüsusən də istehlak kooperasiyasının bütün formalarda həyat qabiliyyətli olacağına əsaslar yaradır. Bizim tədqiqat araşdırmalarımız, problemə sistemli yanaşma çevrəsində aparılan elmi təhlillər bir daha fundamental əsaslandırmalar hasil edir ki, istehlak kooperasiyası həm qlobal miqyasda və həm də Azərbaycanın davamlı iqtisadi inkişafında iqtisadi və sosial qüdrətini dolğunluqla hələ ki, nümayiş etdirməmiş qalır.

# ƏLAVƏLƏR

***Əlavə 1*** *(səhifə 97-ə istinad)*

## Kooperativ təşkilatlarında tədavül xərclərinin nomenklatura maddələri

| S/№ | Maddələrin adı |
|---|---|
| *1.* | Malların, məhsulların, xammalların daşınması xərci |
| *2.* | Əməyin ödənilməsi xərcləri |
| *3.* | Dövlət sosial sığorta ödəmələri |
| *4.* | Əsas vəsaitlərin amortizasiyası |
| *5.* | Kreditdən istifadə olunmasına görə %-lər |
| *6.* | Binaların, qurğuların, minik maşınlarının saxlanması |
| *7.* | Malların çeşidlənməsi, qablaşdırılması və s. amortizasiya xərci |
| *8.* | Az qiymətli malların saxlanması üzrə xərclər |
| *9.* | İstehsalatın ehtiyacı üçün çəkilən cari xərclər |
| *10.* | Reklam xərcləri |
| *11.* | Malların daşınması və satışından xərclər |
| *12.* | Tara əməliyyatları üzrə xərclər |
| *13.* | Kadr hazırlığı fonduna ayırmalar |
| *14.* | Əsas vasitələrin təmirinə çəkilən xərclər |
| *15.* | Ticarətdə risk sığortasına ayırmalar (*risk sığortası*) |
| *16.* | Elm və texnikanın inkişafına ayırmalar |
| *17.* | Daxili təsərrüfat və daxili səhm ayırmaları |
| *18.* | Mülkiyyətin sığortası üzrə ödəmələr |
| *19.* | Tikintidə vergi və torpaq vergisi |
| *20.* | Sair nəzərdə tutulan xərclər |

Mənbə: «Azərittifaq»ın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

*Əlavə 2 (səhifə 135-ə istinad)*

## Ticarətdə tədavül xərclərinin xarakteristikası sxemi



*Əlavə 3 (səhifə 161-ə istinad)*

## Kredit Birliklərinin əsas maliyyə əmsalları

| S/№ | Göstəricilər | Beynəlxalq tövsiyələr | 19 kredit birliyi üzrə icmal əmsallar |
|---|---|---|---|
| **Əsas əmsallar** | | | |
| *1.* | Ödəniş səviyyəsi | 95% | 94% |
| *2.* | PAR > 30 gün | 3% | 6,3% |
| *3.* | Silinmə əmsalı | | 0 |
| *4.* | Restrukturizasiya olunmuş kreditlər | | 0 |
| *5.* | Kapital adekvatlığı | > və ya = 8% | 8,3% |
| **Proteksiya** | | | |
| *6.* | Kreditlərin illik silinməsi | 0 | 0 |
| *7.* | Bərpa olunmuş toplam silinmələr | 100% | N/A |
| *8.* | Ödəniş qabiliyyətlilik | 100% | 125% |
| **Effektiv maliyyə strukturu** | | | |
| *9.* | Xalis kreditlər /toplam aktivlər | 70-80% | 90% |
| *10.* | Likvid aktivlər /toplam aktivlər | Maksim. 20% | 4% |
| *11.* | Üzvlərin pay kapitalı /toplam aktivlər | Maksim. 20% | 31% |
| **Aktivlərin keyfiyyəti** | | | |
| *12.* | Vaxtı keçmiş ödənişlər | 5%-dən az | 2% |
| *13.* | Gəlir gətirməyən aktivlər | 5%-dən az | 10% |
| | **Mənfəət norması və xərclər** | | |
| *14.* | Xalis kredit gəliri | İşgüzar dərəcə | 21% |
| *15.* | Maliyyə xərcləri: Kənar kreditlər | Bazar dərəcəsi | 6,71% |
| **Likvidlik** | | | |
| *16.* | Likvidlik ehtiyatı | >10% | 4% |
| *17.* | Gəlir gətirməyən likvid aktivlər | 1%-dən az | 4% |
| *18.* | Ümumi portfeldən gəlir | | 19% |
| **Artım əlamətləri** *(İllik artım tempi)* | | | |
| *19.* | Toplam aktivlər | > inflyasiya | 773% |
| *20.* | Üzvlük | Minimum 5% | 1.500% |
| *21.* | Əməliyyat özünü təminatı | | 123% |
| *22.* | Maliyyə özünü təminatı | | 84% |

Kənd Təsərrüfatının Kreditləşdirilməsi Agentliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

*Əlavə 4 (səhifə 207-yə istinad)*

## Kredit ittifaqı və kommersiya bankının fərqli cəhətləri

| Göstərici | Kredit kooperativi | Kommersiya bankı |
|---|---|---|
| ***Fəaliyyətin məqsədi*** | İttifaqın payçı üzvlərinin kreditə tələbatının təmin edilməsi | *Mənfəət əldə edilməsi və onun maksimum həddə çatdırılması* |
| ***Təşkilati-hüquqi forma*** | İstehlak kooperativi | *Səhmdar cəmiyyəti* |
| ***Mənfəətin bölüşdürülməsi*** | Payçılar arasında bölüşdürülür, ehtiyat fondu ayrılır | *Bankın passivlərinin artırılmasına, səhmdarlara dividendlərin ödənilməsinə, müxtəlif fondlara və başqa məqsədlərə sərf edilir* |
| ***Xüsusi kapitalın mənbələri*** | İttifaq üzvlərinin pay haqları, sponsor köməyi | *Nizamnamə kapitalının yaradılması zamanı səhmdarların üzvlük haqları, əldə edilmiş mənfəət* |
| ***Təqdim edilən xidmət növləri*** | Kooperativ üzvlərinə borclar verilməsi, kooperativ üzvlərinin vəsaitlərinin əlavə üzvlük haqqı şəklində cəlb edilməsi. | *Bütün növlərdən olan kreditlərin verilməsi, müştərilərə hesablaşma-kassa xidməti, bank xidmətlərinin sair növləri* |

*Əlavə 5* *(səhifə 254-ə istinad)*

## İstehlak bazarının əsas iqtisadi göstəriciləri

*(mln. manatla)*

| Göstəricilər | *1995* | *2000* | *2005* | *2007* | 2007-ci il 1995-ci ilə nisbət |
|---|---|---|---|---|---|
| **Satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi** | *1058,7* | *2119,9* | *4622,2* | *7591,4* | 7,2 |
| *o cümlədən* | | | | | |
| **Hüquqi şəxslər** | *333,6* | *598,0* | *889,3* | *1232,8* | 3,7 |
| **Fiziki şəxslər** | *725,1* | *1521,9* | *3732,9* | *6358,6* | 8,8 |
| ***ondan*** | | | | | |
| **Yarmarkalar və kənd təsərrüfatı məhsulları bazarı** | *725,1* | *819,8* | *2154,9* | *3575,2* | 4,9 |
| **Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşənin əmtəə dövriyyəsi** | *11,0* | *18,4* | *74,0* | *167,5* | 15,2 |
| **Adambaşına düşən əmtəə dövriyyəsi,** *(manat)* | *139,9* | *267,4* | *558,8* | *897,2* | 6,4 |
| **Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmindən** | | | | | |
| **Ərzaq malları** | *794,5* | *1447,1* | *3040,5* | *4922,8* | 6,2 |
| *ondan* | | | | | |
| **Spirtli içkilər** | *49,0* | *84,7* | *141,6* | *168,3* | 3,4 |
| **Qeyri-ərzaq malları** | *264,2* | *672,8* | *1581,7* | *2668,6* | 10,1 |
| **Topdansatış əmtəə dövriyyəsi** | *922,4* | *2384,5* | *4853,3* | *8426,5* | 9,1 |

Azərbaycanın statistik göstəriciləri. Bakı, 2008, s.315.

*Əlavə 6 (səhifə 282-yə istinad)*

## Türkiyədə fəaliyyətdə olan kooperativ növləri



*Əlavə 7* *(səhifə 412-yə istinad)*

## Kənd İstehlak Kredit Kooperasiyası, bank olmayan depozit-kredit təşkilatı və diğər müvafiq infrastruktur qurumlarının qarşılıqlı əlaqəliyi (*Şəkil*)

| | | | |
|---|---|---|---|
| **Dövlət** | ➘➘➘ | ↓↓↓ | **Kənd İstehlak kooperasiyasının inkişaf fondu** |
| **Əcnəbi tərəfdaşlar** | Bank olmayan depozit-kredit təşkilatı | ↓ | **Kənd Kredif Kooperativləri Assosiasiyası** |
| **Kommersiya bankları** | | *Tədris mərkəzi* | **Auditor ittifaqı** |
| **Kənd istehlak kredit istehlak kooperativləri və onların filialları vətəndaşların istehlak kooperativləri** | Kənd təsərrüfatı əmtəə istehsalçıları | *Xırda və orta aqro biznes* | **Kənd sakinləri** |

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### *Azərbaycan dilində*

1.Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı: «Elm və həyat», 1998. 320 s.

2.Axundov M.Ə. Müəsissənin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2002. 460 s.

3.Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2002. 279 s.

4.Alıyev I.H. Məmmədov Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı: Elm, 2007. 227 s.

5.Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı: 2005. 336 s.

6.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 1995.

7.Azərbaycan Respublikasının Milli Məclisinin qanun və qərarlar toplusu. Bakı: 1991-2008-ci illər.

8.Azərbaycan Respublikasi Regionlarının Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı (*2004-2008-ci illər*). Bakı: Nurlar, 2004.160 s.

9.Azərbaycan Respublikasi Regionlarının Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı *(2009-2013-cü illər*). Bakı: Nurlar, 2008. 174 s.

10.Azərbaycanın statistik göstəriciləri. ARDSK, Bakı: Səda, 2008. 742 s.

11.Azərbaycanda aqrar islahatlar: konsepsiya, təcrübə, perspektivlər. I cild. AzETKTI və TI. Bakı: 2002. 286 s.

12.Azərbaycanda aqrar islahatın nəticələri. İnvestisiya mühiti, potensial imkanlar və problemlər. Kənd Təsərrüfatı Nazirliyinin nəşri. Bakı: 2006. 128 s.

13.Azərbaycanın kənd təsərrüfatı üçün strategiya və siyasətlər. Kənd Təsərrüfatında özəl bölmənin inkişafına yardım agentliyi. Bakı: 2004. 196 s.

14.Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı: Elm, 2007. 295 s.

15.Birgəborclular qrupunun yaradılması. Kənd təsərrüfatında özəl bölmənin inkişafına yardım Agentliyi. Bakı: 2002, 20 s.

16.Əhmədov I.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı, Ozan, 2006. 880 s.

17.Əhmədov M.Ə. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: 2003. 523 s.

18.Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, ADPİ, 2005. 160 s.

19.Ələsgərov F.N. İstehlak malları bazarı: idarəetmə formaları və metodları. Bakı: Azərnəşr, 1993. 311 s.

20.Əlibəyov N.V. Azərbaycan Respublikasında kəndli (*fermer*) təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsi: i.e.n. dis. Bakı, 2003. 143 s.

21.Əlirzayev Ə.Q. İqtisadiyyatın dövlət tənzimlənməsinin normativ əsasları və metodologiyası. Bakı: Diplomat, 1996. 311 s.

22.Əliyev A.Ə., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı: 2002. 440 s.

23.Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-XXI cildlər. Bakı, Azərnəşr. 1997-2008.

24.Feyzullabəyli İ.Ə. Real bazara doğru. Bakı: Azərnəşr, 1993. 175 s.

25.Hacıyev Ş.H. Xalq istehlakı mallarına əhali tələbinin proqnozlaşdırılması. Bakı,Azərnəşr, 1989. 160 s.

26.Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006. 509 s.

27.Həsənov A. Aqrar bölmənin tənzimlənməsinin bəzi problemləri. «Planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçid və iqtisadi inkişaf modelləri» mövzusunda beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı: Gənclik, 2003. 319 s.

28.Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı: Elm, 1998. 343 s.

29.Hüseynov M.C. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Bakı: Nurlar, 2006. 304 s.

30.Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı, Bakı, 1998. 324 s.

31.Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyası və modelləşdirmə şəraiti. Bakı, 2005. 228 s.

32.İbrahimov İ.Ə. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı, 2007. 296 s.

33.İsgəndərov R.K. Elmi-texniki tərəqqinin prioritet istiqamətləri. Aqrar islahatlar 10 ildə. Respublika elmi-praktik konfransının materialları. Bakı, 2005. 129-137 s.

34.İsgəndərov F.V. Azərbaycanda aqrar islahatı: inkişaf mərhələləri və perspektivlər. // AzETKTI və TI Elmi Əsərləri, 2005. №3, 189-201 s.

35.İsrafilov H.A. Sahibkarlığın inkişafında əsas fondların düzgün qiymətləndirilməsinin zəruriliyi. / Azərbaycanda kiçik və orta sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və beynəlxalq təcrübə. Elmi-praktiki konfransın materialları. Azərbaycan Beynəlxalq Universiteti. Bakı: 2006. 137-143. s.

36.İsrafilov H.A. İnkişaf edən kooperasiya və dərinləşən istehlak bazarı. // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrfatının İqitisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Azərbaycan Respublikası Kənd Təsərüfatı Nazirliyi Aqrar Elm Mərkəzi. Bakı, 2007. 36-43 s.

37.İsrafilov H.A. Türk dünyasi ölkələri arasında kooperasiya əlaqələrinin inkişaf istiqamətləri. // VII Türk dünyasi: İqtisadiyyat, Elm və Mədəniyyət forumunun «İpək Yolu XXI əsrdə» mövzusunda beynalxalq konfransın materialları. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı, 2009, 124-127 s.

38.Keyns C.M. Məşğulluq mənfəət və pulun ümumi məruzəsi. Bakı: Qanun, 2001. 380 s.

39.Kənd təsərrüfatının inkişafı və kreditləşməsi layihəsi üçün qiymətləndirmə sənədi. Dünya Bankının hesabatı. Bakı, 2006. 148 s.

40.Kredit ittifaqının yaradılmasının əsasları. Bakı: Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, 2002. 24 s.

41.Qasımov Ə.S., İsrafilov H.A., Hacızadə E.M., Ağayev E.A. Regionların sosial-iqtisadi inkişaf problemləri (*Şəki-Zaqatala regionunun timsalında*), Bakı: İqtisad Universiteti, 2006. 304 s.

42.Quliyev T.Ə. Menecmentin (*idarəetmənin*) əsasları. Dərslik. Bakı, 2001. 513 s.

43.Quliyev F.N. Kredit ittifaqının təşkili, fəaliyyət mexanizminin təhlili və onun təkmilləşdirilməsi. // AzETKTİ və Tİ-nin Elmi Əsərləri. 2007. №1. 173-191 s.

44.Lenin V.İ. Əsərlərin tam külliyyatı. 55 cilddə. Bakı, 1976-1988.

45.Marks K. və Engels F. Seçilmiş əsərləri. 3 cilddə Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1978-1981.

46.Məmmədov Q. Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər. Bakı: Elm, 2002.412 s.

47.Musayev M.Q. Aqrar sahədə intensiv inkişafın iqtisadi problemləri. Bakı: Nurlar, 2007, 272 s.

48.Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meyilləri (*məqalələr toplusu*). 9 cilddə. Bakı: Elm, 1999-2006.

49.Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri (*kollektiv monoqrafiya*). Bakı: Elm, 1998. 492 s.

50.Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı: Elm, 2001. 452 s.

51.Nəbiyev N.Ə. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit, Bakı, 2000. 696 s.

52.Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, 2002. 618 s.

53.Novruzov N., Hüseynov X. Maliyyə. Bakı: Kooperasiya, 2007. 464 s.

54.Nuriyev Ə.X. Azərbaycanın açıq iqtisadiyyata keçməsi problemləri. // İqtisadiyyat xəbərləri, 1998. №3. 37-41 s.
55.Sadıqov M.M. Azərbaycan Respublikasının maliyyə potensialının formalaşma problemləri. Bakı, Elm. 2001. 150 s.
56.Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı,Nurlar, 2004. 504 s.
57.Səfərov S.İ. İqtisadi siyasət strategiyasının konseptual əsasları. Bakı, 2000. 342 s.
58.Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı: Çin «iqtisadi möcüzəsi». Bakı: Gənclik, 2001. 323 s.
59.Verdiyev Ə.Ç., Qarayev I.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı: 2000. 256 s.
60.Vəliyev A.V. Azərbaycanın istehlak bazarının formalaşmasında MDB ölkələri ilə iqtisadi əlaqələrin rolu. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. // Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzinin elmi əsərlər toplusu, II buraxılış. Bakı: Elm, 2001. 185-194 s.
61.Vəliyev T.S., Babayev Ə.P. və Meybullayev M.X. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlı, 1999. 684 s.

***Türk dilində***

62.Mülayim Z.G., Kooperativçilik, Yetkin Yayınları. Ankara: 2006, 503 s.
63.Müftüoğlu H., Aydos V., Türkiye’de Kooperatifçilik: Türk Konut Kooperatifçiliğine Alternatif Bir Model: Almanya, İstanbul Ticaret Odası No. 2001-46, İstanbul: 2001. 103 s.
64.Koç H. Kooperativçilik Bilgileri, Nobel Yayın Dağıtım, Gözden Geçirilmiş II. Basım, Ankara, 2001.187 s.
65.İnan İ.H., Türkiye’de Tarımsal Kooperatifçilik ve AB Modeli, İTO Yayınları, No. 2008-73, Genişletilmiş 2. Baskı, İstanbul, 2008. 279 s.

66.Kılıç E. Kooperatifçilik İlkeleri ve Tüketim Kooperatifleri, Türkiye Tüketim Kooperatifleri Merkez Birliği Yayınları: 1, 1. Baskı, İstanbul, 1999. 136 s.

67.Çıkın A., Atatürk Dönemi Ekonomi Politikaları ve Kooperatifçilik, Müdafaa-i Hukuk Dergisi, Sayı 62, Antalya, 32 s.

68.Bilgin N., Tanıyıcı Ş., Türkiye'de Kooperatif ve Devlet İlişkilerinin Tarihi Gelişimi, Mustafa Kemal Üniversitesi İktisadi İdari Bilimler Fakültesi Dergisi Yıl: 10 Sayı, 15 Aralık 2008, s.159

69.Güven S., Ekonomik Demokrasi ve Servetin Geniş Kitlelere Yayılmasında Kooperatifçilik Politikası, Ezgi Kitabevi Yayınları. Bursa,1997. 267 s.

70.Türkiyə Respublikası 1163 Saylı Kooperativlər Qanunu. Ankara: 2006. 67 s.

***Rus dilində***

71.Аакер Д. Стратегическое рыночное управление, СПб.: Питер, 2002. 467 с.

72.Абалкин Л. Качественные изменения структуры финансового рынка и бегство капитала из России. // Вопросы экономики. 2000. № 2. 4-13 с.

73.Абова Т.Е. Производственные кооперативы в России. Правовые проблемы теории и практики. Государство и право. М.: Экономика, 1998.448 с.

74.Авдеенко В.Н., Котлов В.А. Производственный потенциал промышленного предприятия, М.: Экономика, 1989.240 с.

75.Аверьянова Е., Нарядкин Ю., Усачева И. Саратовский опыт формирования системы сельской кредитной кооперации. СПб.: 1998. 65 с.

76.Агаева Н.М. Организационная структура институционального развития системы сельской кредитной коперации. / Материалы Международной конференции «Стратегия развития сельской кредитной кооперации в России: концепция и правовое поле», М.: 2003. 87-92 с.

77.Агропромышленный комплекс России. М.: 2000, 575 с.

78.Алышина И.В. Поведение потребителей. М.: Экономика, 1999. 166 с.

79.Бубнов И.Л. Мировой опыт организации и функционирования кредитной кооперации. //Сельский кредит. 2003. № 5, 26-31, 26-29 с.

80.Буздалов И.Н. Возрождение кооперации. М.: Экономика, 1990. 175 с.

81.Вахитов К.И. Кооперация: теория, история, практика. М.: ИТК Дашков и К, 2004. 348 с.

82.Вершинин В. Кредитные кооперативы: хорошо забытое старое. // Новое сельское хозяйство, 1999. №1, 18-20 с.

83.Волохонский Ю.Н., Перминов А.С. К вопросу об управлении устойчивостью кредитного кооператива и внедрением новых услуг. // Вопросы кредитной кооперации. 2000. №1, 27-31 с.

84.Воробьева З.В. «Чувашкредитсоюз»: год успешной работы // Сельский кредит. 2003. №7, 16-17 с.

85.Воронов А. Микроэкономический анализ конъюнктуры потребительского рынка России. М.: Экономика, 1999. 247 с.

86.Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев: 2000. 260 с.

87.Голованов А.А. О необходимости поддержания кредитной кооперации в сельском хозяйстве. // Финансы. 2002. №4. 16-18 с.

88.Гутман Г.В., Дигилина О.Б., Чуюш Н.И., Ситью В.П., Калмыков В.В. Формы кооперативного движения в условиях рыночных реформ: М.: Издательско-торговая корпорация «Дашков и К.», 2003. 384 с.

89.Джабиев Р.М. Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости. Баку, 2005. 283 с.

90.Доможиров Ю. А Потребительский рынок реализации продукции в современных условиях. М.: Сборник трудов ЦНИИШП, «Верже-РА», 2000. 391 с.

91.Зелген В.И. Организация и практика потребительских обществ в России. М.: 1919. 95 с.

92.Значение кредитной кооперации для социально-экономического развития региона. Материалы научно-практической конференции. КарНЦ РАН. Петрозаводск, 2001. 322 с.

93.Ибрагимов М.А. Продовольственная безопасность Азербайджана. Баку, 1999. 231 с.

94.Иванов Е.А., Шашлов С.А. Кооперативный уклад в экономике. М.: Финансы и статистика. 1991. 176 с.

95.Ильшин Г.А. Модели потребительского поведения на рынке. М.: 1999. 90 с.

96.Каравелиев А.М. История потребительской кооперации Азербайджана. Баку: Элм, 1968. 157 с.

97.Коваленко В.П. Всемирный рынок: Экономические законы развития. М.: Экономика, 1990. 128 с.

98.Коновалов М.В. Кредитные кооперативы // Материалы Международной научно-практической конференции. Ростов-на-Дону, 2004. 32 с.

99.Козлова Л. Некоторые итоги деятельности Союза сельских кредитных кооперативов. // Сельский кредит, 2003.№7, 7-11 с.

100.Комлев Е.Б. К вопросу определения степени удовлетворения спроса в сегменте потребительского рынка. // Маркетинг в России и за рубежом, 2001. №6, 32-41 с.

101.Коттс Д. Управление инфраструктурой организации. М.: ЗАО «Олимп- Бизнес», 2004. 576 с.

102.Крашенинников А.И. Международный кооперативный альянс. М.: Экономика, 1980. 224 с.

103.Крашенинников А.И. Кооперация в современном мире. М.: Экономика, 2004. 345 с.

104.Круглова В.В. Мелкие хозяйства и кооперация. М.: 1917. 62 с.

105.Кузнецова Т., Федоров Ф. Хозрасчет предприятия в условиях смешанных форм собственности. Серия 6, Экономика, 1991. № 1, 21-32 с.

106.Кузнецова А.И. Инфраструктура. Вопросы теории, методологии и прикладные аспекты современного инфраструктурного обустройства. Геоэкономический подход. М.: Высшая школа, 2006.456 с.

107.Ломакин В.К. Мировая экономика. М.: Финансы и статистика, 2000. 449 с.

108.Лубков А. В. Кооперативная модель обновления России: дореволюционный опыт. М.: Экономика, 2006. 357 с.

109.Макерова М.Й. История потребительской кооперации в СССР. 2-е издание. М.: 1929. 211 с.

110.Макаренко А.П. Теория и история кооперативного движения. М.: ИКЦ «Маркетинг», 2002.328 с.

111.Маевский В. Регулируемый рынок: перспективы социально-экономического развития страны. // Вопросы экономики, 1990. №6, 17-24 с.

112.Мазурицкий А.М. Формирование системы сельской кредитной кооперации в России. // Сельский кредит, 2003. №3, 14-19с.

113.Маркс К. Капитал.III т. М.: 1964.564 с.

114.Маркс К., Энгельс Ф., Ленин В.И. О кооперации. М.: Политиздат, 1988. 293с.

115.Мартынов В.Д. Создание и организация деятельности сельских кредитных кооперативов. // Информационный бюллетень Минсельхозпрода РФ. 1999. № 3, 4. 44-46 с.

116.Масленников В.П. Кооперация аграрной сферы (*опыт, проблемы, перспективы*). М.: Издательство российского университета дружбы народов. 1996. 188 с.

117.Медведева Н.А. Развитие законодательной базы сельской кредитной кооперации. //Сельский кредит, 2003. № 6, с. 12-14.

118.Международный кооперативный альянс. Декларация о кооперативной идентичности. Отд. изд. материалы ICI-URU MEETINGS. Будапешт: 1996. 233 с.

119.Меркулов А.В. Исторический очерк потребительской кооперации в России. М.: 1913. 179 с.

120.Мировая Экономика /*под ред. проф. Ю.А. Щербанина*/. М.: ЮНИТИ-ДАНА, 2004. 318 с.

121.Макаренко А.П. Эволюция мирового кооперативного движения. М.: 2004. 219 с.

122.Мордовченков Н.В. Эволюция рыночной инфраструктуры (*экономика, менеджмент, право*). Нижний Новгород: 2002. 236 с.

123.Мусаев М. «Аграрно-кредитный фонд» культура аграрного кредитования. // Банк и Бизнес. Спец. выпуск. 2002. 39-45с.

124.Намханова М.В. Стратегическое управление в потребительской кооперации. Новосибирск: Сиб.УПК, 2000. 411 с.

125.Неопиханова Е.А. Кооперативное движение в Швеции. М.: Экономика, 1990.230 с.

126.Никулин Г.Н. Развитие региональных систем сельской кредитной кооперации - путь создания альтернативной системы финансирования сельского хозяйства // Материалы Международной научно-практической конференции. Проблемы развития региональных систем сельской кредитной кооперации. М.: 2001. 615 с.

127.Носов В. Создание Управленческо-информационной системы для нужд сельской кредитной кооперации. // Сельский кредит, 2003. №9, 15-17 с.

128.Орлов А.В. Рынок товаров народного потребления: социально-экономический аспект. М.: Знание, 1998.364 с.

129.Очерки истории российской экономической мысли. /*под ред. акад. Л.И. Абалкина*/. М.: Наука. 2003. 366 с.

130.Пажитнов К.А. Основы кооперации. М.: 1997. 459 с.

131.Патрынин П.А. Кооперация в сельском хозяйстве. М.: 1919. 318 с.

132.Пахомов В.М. Особенности оценки кредитоспособности в аграрном секторе экономики России // Материалы Международной научно-практической конференции. Проблемы развития региональных систем сельской кредитной кооперации. М.: Экономика, 2001.369 с.

133.Попов Н.А. Основы рыночной экономики и сельского предпринимательства. М.: 2001. 352 с.

134.Производственная кооперация. Учебное пособие /*под общей редакцией А.В.Ткача*/ М.: Дашков и К, 2007. 176 с.

135.Региональная экономика. /*под ред. проф. Т. Г. Морозовой*/. М.: Банки и биржы, ЮНИТИ, 1995. 304 с.

136.Региональная экономика в информационном измерении: модели, оценки, прогнозы. (*сборник научных трудов*) Москва-Барнаул: Бизнес-юнитек, 2003. 358 с

137.Самедзаде З.А «Этапы большого пути - Экономика Азербайджана за полвека, её новые реалии и перспективы», Баку: Нурлар, 2004. 936 с.

138.Сергеев И.В. Экономика предприятия, М.: Финансы и статистика, 1997. 362 с.

139.Симагин Ю.А Территориальная организация населения и хозяйства /*под общ. ред проф. В.Г.Глушковой*/, М.: КНОРУС, 2005. 384 с.

140.Сорокин П.А. Человек. Цивилизация. Общество, М.: ИНФРА-М, 1992. 269 с.

141.Социально-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998. 592 с.

142.Самуеэльсон П., Нордхаус В. Экономика, 15 изд., М.: 1997.642 с.

143.Сельскохозяйственная кооперация: теория, мировой опыт, проблемы возрождения. 2-е изд., перераб. и доп. /*Коллектив авторов; отв. ред. И.Н.Буздалов*/. Мн. - М.: Армита-Маркетинг, Менеджмент, 1998. 256 с.

144.Серова Е., Янбых Р. Государственные программы поддержки сельскохозяйственного кредита в переходных экономиках. // Вопросы экономики. 1998.№11, 127-133 с.

145.Синяева И. Инфраструктурная составляющая потребительского рынка. // Маркетинг, 2001.№5. 44-51с.

146.Скопина И.В. Развитие потребительского рынка в условиях глобализации экономики и свободной торговли// II международная Кондратьевская конференция «Закономерности и перспективы трансформации общества» Сборник научных трудов. СПб.: 2004. 321 с.

147.Смит А. Исследование о природе и причинах богатства народов, М.: Соцэкиз, 1962. 684 с.

148.Соболев М.Н. Экономическая теория кооперации. Харьков: 1919.115 с.

149.Содружество Независимых Государств в 2004 году. Статистический Ежегодник. МСК. СНГ М.: 2005. 321 с.

150.Соловьев Б.А. Потребность, рынок, спрос: проблемы формирования. М.: «Экономика», 1993. 281 с.

151.Статистический Ежегодник Южно-Кавказских стран. Армения, Азербайджан, Грузия. Баку: 2002. 378 с.

152.Степанов Г.А. Кооперативные формы хозяйствования в рыночной экономике АПК. Опыт России и Франции. Воронеж: ВГАУ, 1999. 282 с.

153.Томпсон А.А., Стрикленд А.Дж. Стратегический менеджмент: концепции и ситуации, М.: ИНФРА-М, 2000.253 с.

154.Томсон Л.Д., Джонк М.Д. Основы инвестирования. М.: Дело. 1999. 321 с.

155.Трушин Ю.В. Совершенствование системы сельскохозяйственного кредитования. // Сельский кредит. №3, 2003. 10-14с.

156.Туган-Барановский М.И. Социальные основы кооперации. М.: Экономика, 1989. 496 с.

157.Торнер Г. Введение в хозяйственное право и право

обществ капитала ФРГ с особым акцентом на кооперативном товариществе. М.: Экономика, 1993. 238 с.

158.Уильямсон О. Природа фирмы, М.: Дело, 2001. 360 с.

159.Уильямсон О. «Экономические институты капитализма». СПб.: Лениздат. 1996. 582 с.

160.Файн Л.Е. Теории кооперации. Иваново: Изд. ИГУ, 2004. 276 с.

161.Филиппова Г.П. Формирование имущества областного и районных кредитных кооперативов. // Материалы Международной научно-практической конференции. Проблемы развития региональных систем сельской кредитной кооперации. М.: 2001. 479 с.

162.Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика, М.: ИНФРА-М, 1999. 864 с.

163.Фридмен М. Количественная теория денег. М.: 1996.245 с.

164.Хандруев А.А., Черный Р.Н. Проблемы формирования эффективной кредитной системы по обслуживанию сельского хозяйства. // Экономика сельскохозяйственных и перерабатывающих предприятий. 2001. №4, 44-48 с.

165.Хейсин М.Л. Исторический очерк кооперации в России. М.: 1918. 84 с.

166.Хейсин М.Л. История кооперации в России. Л.: 1926.120 с.

167.Хоскинг А. Курс предпринимательства. М.: «МО» 1993. 104 с.

168.Чаянов А.В. Избранные труды. М.: Колос, 1993. 590 с.

169.Чаянов А.В. Основание идеи и форм организации крестьянской кооперации. М.: 1919. 343 с.

170.Чаянов А.В., Попов М.И., Челинтсев А.М. и др. Теория кооперации. М.: 1927. 240 с.

171.Чаянов А.В. «Краткий Курс Кооперации» М.: Центральное Товарищество «кооперативное издательство», 1925. 80 с.

172.Шерер Ф., Росс Д. Структура отраслевых рынков, М.: ИНФРА-М, 1997. 698 с.

173.Шимко.П.Д. Международная экономика практикум. Ростов на Дону: Феникс 2004. 320 с.

174.Шимаи М. Роль и влияние транснациональных корпораций в глобальных сдвигах в конце 20 столетия.// Проблемы теории и практики управления, № 3, 1999. 27-34 s.

175. Шмидтхейни С. Финансирование перемен. М.: «Неосфера», 1998. 202 с.

176.Экономика. /*под редакцией д.э.н. А.С.Булатова*/, М.: Юристь, 2000. 896 с.

177.Экономика предприятия. /*под редакцией проф. Н.А.Сафронова*/, М.: Юристъ, 1999. 584 с.

178.Экономика предприятия. /*под редакцией проф. О.И.Волкова*/, М.: ИНФРА-М, 2001. 520 с.

179.Экономическая теория зарубежных стран. /*под общей редакцией В.И.Голубовича*/ Минск: Ип «Экоперспектива» 1998. 432 с.

180.Эрнст Джонс. Деловые финансы, М.: ЗАО, Олимпбизнес, 1998. 416 с.

181.Юзбашева Г.З. Реструктуризация промышленности Азербайджана, Баку.: Элм, 2003. 352 с.

182.Юткина Т.Ф. Налоги и налогооблажение, М.: ИНФРА-М, 1999. 429 с.

183.Ястребова О., Субботин А. Рынок сельскохозяйственного кредита. // Вопросы экономики, 2005. № 6, 84-96 с.

***İngilis dilində***

184.Black, Angela & Fraser, Patricia & MacDonald, Ronald. Business Conditions and Speculative Assets. RePEc: bla: manch: v:65:y:1997, p. 379. [*Biznes şərtləri və spekulyativ aktivlər*]

185.Dale, Spencer & Haldane, Andrew G. Interest Rate Control in Model of Monetaru Polis RePEc:bla:manch2:v:66:

y:1998, p. 354. [*Valyuta siyasəti modelində faiz stavkaları nəzarəti*]

186.Simon H. Rational Decision-Making in Business Organizations, p. 285.». [*İşgüzar təşkilatlarda rasional qərarlar qəbulu*]

187.http://www. /internet veb-saytlarına istinad/.

187-1 Ilham-Aliev.com
187-2 president.az
187-3 heydar-aliyev-foundation.org
187-4 azerbaijan.az
187-5 azstat.org
187-6 turkiyemillikoop.org.tr
187-7 cabmin.gov.az
187-8 economy.gov.az
187-9 econ-om.narod.ru
187-10 eco.gov.az
187-11 e-qanun.az
187-12 gallery.economicus.ru

## Г.А.Исрафилов

### Направления усовершенствования потребительской кооперации в условиях глобализации

### РЕЗЮМЕ

Монография посвящена комплексному исследованию ряда актуальных проблем потребительской кооперации Азербайджана, направлениям усовершенствования ее системы и структуры в условиях углубляющейся глобализации и расширяющихся рыночных отношений. Увязывая исследования в сфере становления кооперации, ее научно-теоретических основ и этапов исторического развития с аспектами глобализации проведены соответствующие обобщения, а также с точки зрения современных реалий обогащена новыми положениями ее теоретическая концепция.

В работе особое внимание уделено изучению специфических особенностей формирования и развития потребительской кооперации Азербайджана на данном этапе. Проанализированы современное состояние и тенденции Центрального Совета Кооператоров Азербайджана (*«Азериттифаг»),* потребительского рынка республики, а также развития организационно-правовых форм кооперативного хозяйствования. Раскрыты особенности потребительской, производственной, кредитной, социальной и других видов кооперации, оценена их роль и значимость в социально-экономической жизни страны и эффективности расширения данных учреждений в республике. Отражены сущность и значение финансовых услуг оказываемых сельскому хозяйству. Выявлены факторы устойчивого развития кооперативных отношений и соответствующие механизмы оптимального регулирования в данном направ-

лении. Обозначены основные направления формирования многоуровневой системы потребительской кооперации. Подчеркнута необходимость активизации демократических начал, усиления мотивационных процессов, повышения эффективности кооперативного хозяйствования и адаптации их в сферу глобализации.

Исходя из проведенного анализа кооперативных движений в Турции, а также стран тюркского мира, обоснована эффективность применения соответствующего международного опыта в Азербайджане.

Важные результаты исследований, представленных в монографии еще раз в научно-аналитическом контексте глубоко доказывают и подтверждают, что потребительская кооперация в ракурсе устойчивого развития экономики и, в глобальном, и в масштабе Азербайджана своего экономического и социального эффекта ещё в полном мере не продемонстрировала.

Монография предназначена для использования в сфере научных исследований и образования, специалистов в области кооперации и широкого круга читателей.

## Ass. Prof. Dr. Hasan ISRAFILOV

# THE IMPROVEMENT COURSES OF CONSUMERS COOPERATIVE SOCIETIES IN GLOBALIZATION

## SUMMARY

The monography is devoted to complex research of actual problems of consumers' cooperative societies of Azerbaijan and improvement courses of his system and structure.in conditions of globalization and extending market attitudes. The researches in sphere occurrence of cooperation, its scientific-theoretical bases and stages of historical development are generalized with aspects of globalization and enriched its theoretical concept with modern realities and new positions. The special attention is given to studying the stage of specific features of formation and development of consumers' cooperative society of Azerbaijan. Also, it is analysed a modern condition and tendencies of Central Advice of Cooperators of Azerbaijan (*«Azerittifaq»),* consumer market of the Republic and development of organizational-legal forms of cooperative managing. The role and importance of consumer, industrial, credit, social and others a kind cooperation in social-economic life of the country are appreciated and showed methods of efficiency expansion of establishments of given forms of cooperation in Azerbaijan.

The essence and value financial services appearing to an agriculture are reflected. The influenced factors of steady development of cooperative attitudes and corresponding mechanisms optimum settlement in given a direction are revealed. The basic are designated a direction formation of multilevel system of consumers cooperative society. Necessity of activization of democratic principles, to amplification of motivational processes, increase of efficiency of cooperative

managing and their adaptation in sphere of globalization is underlined.

Proceeding from the lead analysis of cooperative movements in Turkey, and also all the countries of the Turkic world, application of corresponding international experience Azerbaijan is proved efficiency.

To the most important results of research submitted in the monography once again a scientific-analytical context deeply proves and to confirm that consumers cooperative society in steady developments of economy and in global and also in scale of Azerbaijan of the economic and social effect still in full to a measure has not shown.

The monography is intended for use in sphere of scientific research and formation, experts in the field of cooperation and for a wide range of readers.

**Nəşrin redaktoru Ş. H. Kərimova**

*Kompüter tərtibatçısı E. Hacızadə*
*Korrektor Y. A. Məmmədova*

**MONOQRAFİYA**

**Həsən Abid oğlı İsrafilov**

**QLOBALLAŞMA ŞƏRAİTINDƏ İSTEHLAK KOOPERASİYASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

Sayı 500 Çapa imzalanmışdır 14.04.2010.
Formatı 60x84 $^1/_{16}$ Həcmi 29,1
Ofset üsulu ilə çap edilmişdir

**ADİU-nin mətbəəsi**



www.aseu.ab.az